KRİMİNAL

ELXAN ELATLI



# Cəhənnəmdən gələn səs

1619 - 02.08.18
332. 26.02.20
57128
-4 Elatlı E.
...ən səs
.00 AZN
57128



*Xocalı soyqırımı zamanı vəhşicəsinə öldürülmüş həmyerlilərimizin ruhuna dərin hörmət hissi ilə.*

***E.E.***

84(5Aze)-4
E-42

ELXAN ELATLI

# Cəhənnəmdən gələn səs

(*Roman*)

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KITABXANASI
INV. № 57128

Bakı - 2009

**Elxan Elatlı. «Cəhənnəmdən gələn səs».**
**Bakı, «MBM», 2009, 368 s.**

*Yazıçı Elxan Elatlının «Cəhənnəmdən gələn səs» romanı XX əsrin ən dəhşətli qırğını olan Xocalı soyqırımına və erməni əsirliyində əzab çəkən həmvətənlərimizin acınacaqlı taleyinə həsr edilib. Romanda Azərbaycan milli təhlükəsizlik orqanlarının fəaliyyətinə, anaya və vətənə məhəbbət, dostluq, ilahi eşq mövzularına da geniş yer ayrılıb.*

*ISBN 978-9952-29-043-5*

*© E.Elatlı*
*Bakı, «MBM», 2009*

## PROLOQ

Gecə saat 12-də telefon zəng çaldı...

Amma, bu hələ o zəng deyildi. Yəni, cəhənnəmdən gələn və həmin soyuq fevral gecəsində jurnalist Yunis Muradovu dəhşətə gətirib rahatlığını əlindən alan zəng deyildi.

Divandan qalxıb dəstəyi götürdü. Xətdə arvadı idi.

–Yunis, neyləyirsən? – deyə soruşdu.

Yunis əvvəlcə televizorun üstünə qoyulmuş iri saata, sonra isə divanda oturub gözlərini ona zilləmiş yarıçılpaq qadına baxdı.

–Yatmağa hazırlaşıram.

–Özünü necə hiss edirsən?

–Yaxşıyam.

Toyda qədərindən artıq araq içmişdi. Yəqin, arvadı halını ona görə soruşurdu.

–Səhər işə gedəndə qazı, işıqları söndürmək yadından çıxmasın. Biz günortaya yaxın gələcəyik.

–Yaxşı... Arxayın ol! – Özü də hiss etdi ki, arvadı ilə həmişəkindən mehriban danışır.

–Gecən xeyrə qalsın! – arvadının da səsində mehribanlıq duyulurdu.

–Sənin də!

Dəstəyi aparatın üstünə qoydu.

–Arvadın idi? – divanda əyləşmiş qadın bir qədər narahatlıqla soruşdu.

–Hə.

–Nə deyirdi?

–Heç nə! Vəziyyətimlə maraqlanırdı.

Pultu əlinə alıb televizorun səsini qaldırdı. Xocalı soyqırımının on yeddinci ildönümü ilə əlaqədar veriliş gedirdi. Tanımadığı bir kişi danışırdı:

–Əlimizdə olan sənədlərə görə 1992-ci il, fevralın 26-da Xocalıda 613 nəfər öldürülmüşdür. Səkkiz ailə tamamilə məhv edilib. 1275 nəfər ermənilər tərəfindən əsir götürülüb. Yüz əlli nəfərin taleyindən isə, ümumiyyətlə, bu günə qədər heç bir məlumatımız yoxdur.... Üç gündən sonra bu dəhşətli faciənin on yeddi illiyini qeyd edəcəyik. Ən acınacaqlı hal isə budur ki, dünya birliyi hələ də bu genosid faktını tanımayıb...

Pultun düyməsini basıb kanalı dəyişdi. Bu kanalda konsert verilirdi. Yenə geri qayıtdı.İndi başqa adam danışırdı:

–Mən o rəqəmlərə inana bilmərəm. Yeddi minlik Xocalı əhalisinin yalnız bir qismi həmin gecə qaçıb canını ölümdən qurtarmışdı. Bəs yerdə qalanlar haradadırlar? Bunu hamı yaxşı bilir ki, Xocalıda bütün dünyada analoqu olmayan bir vəhşiliklə qırğın törədilib. Öldürülənlərin meyidlərindən də intiqam alıblar bu qansızlar!...

–Konsertə qaytar! – qadın nazla dilləndi. – Belə şeylərə qulaq asanda adam özünü pis hiss edir.

Həmin kanalda gənc, yenicə tanınmağa başlayan müğənni qız ritmik bir mahnı oxuyurdu.

–Bilirsən bunu kim saxlayır? – qadın kinayə ilə dedi.

–Kim?

–İndicə toydan gəldiyimiz şadlıq evinin sahibi.

–Yox əşi!? –Yunis, guya ki, təəccübləndi.

–Hə! Dəqiq bilirəm.Səhnəyə çıxdığı bir ay deyil, bunun üçün maşın da alıb, ev də.

–Dünən bundan müsahibə götürmüşdüm. – Yunis stolun üstündəki qeyd dəftərçəsinə işarə etdi. – Əslində, sabaha çapa hazırlamalıydım.





–Onun nəyindən yazırsan?

–Eşitdik ki, nişanlısı ilə arası dəyib...

–Qadam onun nişanlısının ağzına! – divana sərilmiş qadın ikrahla dodağını büzdü. – Yatmayaq? Gecə keçir.

Yunis bu qadınla bir neçə ay əvvəl tanış olmuşdu. O, ucuz nəşriyyatların birində işləyirdi. Ərsiz qadın idi. Qoca anası ilə tək yaşayırdı. Bir-iki dəfə ayaqüstü görüşmüşdülər. Amma ciddi şəkildə tək bir dəfə kafedə yaxınlıq etmişdilər.

Bu gün isə Yunisin bir qohumunun toyunda təsadüfən rastlaşdılar. İmkan tapıb bir-iki kəlmə danışsalar da tez ayrılmalı oldular. Sonra iş elə gətirdi ki, toy qurtaranda Yunisin arvadı rayondan gəlmiş bacısına qoşulub Bakıda yaşayan o biri bacısıgilə getməli oldu və altı yaşlı oğlunu da özüylə apardı. Bacılar bu gecəni bir yerdə keçirmək istəyirdilər. Belə fürsətin bir də ələ düşməyəcəyini anlayan Yunis məşuqəsiylə danışıb onu özüylə evə gətirdi.

Yunisin gözü televizordakı müğənnidə olsa da, fikri ilk dəfə sərbəst gecə keçirəcəyi bu qadında idi. Ondan on beş yaş böyük olan qadının ağappaq, ətli bədəni var idi və Yunis düşünürdü ki, beləsi ilə də bir gecə keçirməyin öz maraqlı tərəfi var.

–Yatmayaq? – sual bir də təkrar edildi.

–Əlbəttə, yataq!

Yunis televizoru söndürüb qadına yaxınlaşdı. Onu divandan qaldırıb yataq otağına apardı.

–Amma, yaman oynayırdın ha, toyda....- soyunmağa başlayan qadın dedi.

–Hə, iş yoldaşlarımla yaman çox içdik. Elə bu saat da gözlərim xumarlanır.

Soyunub yatağa girdilər.

Həmin telefon zəngi çalınanda hələ yatmamışdılar.Saat, deyəsən, ikinin yarısı idi.

Gecənin sakitliyində uzun-uzadı səslənən hikkəli zəng Yunisi yataqdan qalxmağa məcbur etdi. O, çılpaq məşuqəsinin qolları arasından çıxıb deyinə-deyinə telefon olan otağa keçdi. Ağlına heç nə gətirə bilmirdi. Yəni, arvadı bu vaxt zəng vurardımı?...







Dəstəyi qaldırıb narazı səslə:

–Alo!? – dedi.

–Bura Bakıdır?

Bu, yad bir qadının səsi idi. Səs çox uzaqdan, sanki, lap dərin quyunun dibindən gəlirdi. Yunis təəccübləndi:

–Siz hara zəng vurmusunuz?

–Bakıya...

–Deməli, bura Bakıdır. Haradan zəng vurursunuz?

–Cəhənnəmdən!... – zəng vuranın əsəbi səsi eşidildi.

Yox, bu səsin sahibi telefon xuliqanı ola bilməzdi. Səsindən hiss olunurdu ki, yaşlı bir qadındır. Həm də danışığında qorxu, həyəcan və tələskənlik var idi. Yunis hiss etdi ki, bədənini anlaşılmaz bir vahimə bürüyür. Hətta, səsi də titrəməyə başladı:

–Məni ələ salırsınız?

–Yox! – yad qadın hökmlə dilləndi. – Mən Ermənistandan zəng vururam.Mobil telefonla... Çox danışmağa imkanım yoxdur. Sizin nömrəni təsadüfi seçmişəm. Bakının kodunu və ağlıma gələn nömrəni yığmışam...

–Siz kimsiniz axı?!

–Bunu bilmək o qədər də vacib deyil. Mən ölüyəm. Ölü!

–Axı!...

–Sözümü kəsməyin! Bu günlərdə Bakıya Səid adlı biri gələcək. Namazov Səid... Ermənilərin Bakıdakı gizli təşkilatına qoşulub təxribatlar törədəcək. Əgər azacıq da olsa qeyrətiniz varsa, bu barədə lazımi yerə məlumat verin. Qoy onu tutub saxlasınlar....

–Səid Namazov kimdir? - Yunis səsini qaldırdı.

–On yeddi il əvvəl Xocalı viran qalanda əsir düşənlərdən biri. Amma, Bakıya hansı adla gələcəyini bilmirəm.

–Bəs siz özünüz kimsiniz?

Cavab gəlmədi. Naməlum qadın danışığı kəsib telefonu qapamışdı. Dəstəkdən qısa zumer səsləri gəlirdi.

Yalnız alt paltarında olan Yunis dəstəyi əlində tutduğu halda donub qalmışdı. Bu nə demək idi?... Bu qadın, doğrudanmı, Ermənistandan zəng vurmuşdu?... Düşmən ölkədən?! Axı, bu mümkün deyil!? Oradan mobil telefonla Bakını necə yığmaq olardı?... Kim idi

bu qadın?! Səid Namazov kimdir?!

Qadın azəri ləhcəsində danışırdı. Dedi ki, Səid Xocalıdan əsir düşüb. Belə çıxırdı ki, bu qadın özü də əsirlikdədir. Birdən-birə hər şeyi anlamağa başladı.

–Yunis, kim idi zəng vuran? – yataq otağından məşuqəsinin səsi eşidildi.

–Bilmirəm... – narazı halda mızıldandı.

–Deyəsən, uzaqdan idi, hə?

–Hə!

–Haradan?

–Cəhənnəmdən!

–Sənə nə olub, söz soruşmaq olmur? – onun da səsində inciklik duyulurdu.

Yunis cavab vermədi. Soyuq hiss edib, paltarını geyinmək üçün yataq otağına girdi. Qadının təəccüblü baxışları altında tələsik geyindi.

–Axı nə olub? Kim idi zəng vuran?

Bu sualı da cavabsız buraxıb əvvəlki otağa qayıtdı. Canını qəribə bir qorxu hissi bürümüşdü. Stolun üstündəki telefon aparatına heyrətlə baxırdı. Nə edəcəyi barədə bir qərara gələ bilmirdi.

Qadın da yataqdan qalxıb onun yanına gəldi. Jaketini çiyninə atsa da, aşağılarını alt paltarından başqa bir şey örtmürdü. Bu vəziyyətdə onun gülünc bir görkəmi var idi.

–Kim idi axı? Arvadın idi?

Onun qabağa çıxıb sallanmış ətli qarnına baxan Yunis acıqlı səslə:

–Əl çək, görüm! – dedi.

Sonra birdən dönüb tələsik vanna otağına getdi. Onun arxasınca gələn qadın Yunisin qusduğunu gördü.

–Özünü soyuğa verdin, yəqin... - deyib otağa qayıtdı.

Bir azdan Yunis də vanna otağından çıxıb gəldi. Heyrətlə ətrafına boylanıb birdən stola tərəf yeridi və əlini uzadaraq telefonun məftilini şəbəkədən ayırdı.

Qadın yenə nəsə bir sual vermək istəyirdi ki, onun baxışlarını görüb susmağa məcbur oldu. Yunisin gözlərində dəhşətli bir ağrı oxunurdu. Sanki bir neçə dəqiqənin içində on il qocalmışdı....





## BİRİNCİ FƏSİL

Soyuq fevral səhərinin alaqaranlığında Bakının dənizkənarı parkında əyninə qara rəngli idman kostyumu geyinmiş, uca boylu bir gənc gəzişirdi. Azacıq qaraya çalan sağlam dərisi, idman papağının altından çıxan bir qədər uzun, qara saçları, qıvraq qaməti, əzələli qolları, uzun barmaqlı möhkəm əlləri ona orijinal bir görkəm verirdi. Ciddi baxışları, üzünün sərt ifadəsi, hələ gənc olmasına baxmayaraq, çox bərkə-boşa düşdüyünü göstərirdi.

Artıq neçə il idi ki, hər gün səhər saat 6-da yataqdan qalxıb, evlərindən uzaq olmasına baxmayaraq, birbaş buraya – dənizin kənarına gəlirdi. Evdən çıxmağı ilə qayıtmağı arasında, adətən, iki saat müddət keçirdi. Həmin, bu müddət ərzində parkda idmanla məşğul olması və uzun məsafə qət edərək yürüməsi ilə sözsüz ki, sağlamlığını qoruyur, möhkəm bədənini bir az da möhkəmləndirirdi. Amma, bu iki saatın onun gündəlik həyatında başqa bir özəlliyi də var idi. Bütün sutka ərzində həmişə yanında açıq saxladığı cib telefonunu buraya gələndə özüylə götürmürdü. Beləliklə, sanki, hamıdan təcrid olunur, canına rahatlıq gətirən sakit bir aləmə düşürdü. Sahibi olduğu "Döyüş" idman klubunda hər bir şəraitin olmasına baxmayaraq, idmanla təmiz havada, dənizin sahilində, ən əsası isə, telefonu və işçiləri yanında olmadan məşğul olmağı üstün tuturdu.

Üzü Xəzərə baxan oturacaqlardan birində əyləşdi. Özünü çox sağlam və güclü hiss edirdi. İnanırdı ki, bu saat əlinin bir zərbəsi ilə əyləşdiyi bu taxta oturacağı iki yerə parçalaya bilər. Qollarını geniş açaraq, qızılquş qanadları kimi oturacağın söykənəcəyinə sərdi və beləcə, qarşısındakı dənizin sakit sularına tamaşa etməyə başladı.

Döyüş idmanı ilə məşğul olmağa hələ uşaqlıqdan başlamışdı. Köhnə məhəllədə yaşayanda karate ustası olan Mixail adlı qonşuları hər gün ona döyüş idmanının bütün növlərindən dərs keçirdi.

O vaxtdan məktəbdə hər gün yoldaşları ilə dalaşırdı. Məğlub olduğu heç yadına gəlmirdi. Sonra da əsgərlik... Əsgərlikdə, hər həftə bir dəfə də olsa, onu cəza kamerasına salırdılar. Əsgəri xidməti

bitirəndən sonra isə birinə boş şeyin üstündə bıçaqla ağır xəsarət yetirib həbsxanaya düşdü. Bu dəfə oradakı amansız, vəhşi davaları başladı. Həmin vaxt Qarabağ uğrunda ermənilərlə qanlı döyüşlər gedirdi. Onu bir qrup dustaqla birlikdə həbsxanadan çıxarıb döyüşə göndərdilər. "Vuruşmağa belə həvəsin varsa, get torpağının uğrunda döyüş!" – dedilər.

Birdən-birə, o vaxt cəza çəkdiyi koloniyanı xatırladı.İndi həmin koloniyada Dördbarmaq Ağaşamilin böyük nüfuzu var idi. Bu qoca qurd orada birinci dəfə cəza çəkəndə onun atası ilə bir yerdə yatmış, dostluq etmişdilər. Atası iyirmi yeddi il üst-üstə həbsdə olmuş, elə həbsxanada da vəfat etmişdi.

Beş-altı ay bundan əvvəl Ağaşamilin yanına getmişdi həbsxanaya. Ağaşamil demişdi ki, o vaxt burada necə ad qoymusansa, üstündən neçə-neçə illər keçməsinə baxmayaraq, yenə də səni xatırlayırlar. Görməyənlər də köhnə dustaqlardan eşidibmiş bu dəlisov, ipə-sapa yatmaz gənc barədə...

Sol tərəfdən əynində göy rəngli idman geyimi olan bir qız yüngül yerişlə qaçaraq gəlirdi. Bu qızı artıq bir neçə ay idi ki, burada görürdü. Ondan təqribən bir saat sonra gəlirdi parka.

Başını döndərib baxdı. Hər dəfə olduğu kimi, yenə də qızın yaxşı inkişaf etmiş boy-buxununun qeyri-adi dərəcədə gözəl olduğu qənaətinə gəldi. Qaçışı da elə idi ki, saatlarla dayanıb ona tamaşa etmək istərdin. Onun da başında idman papağı var idi. Papağın altından çıxıb cibinə qədər uzanan nazik məftillər göstərirdi ki, musiqi dinləyir. İstər-istəməz düşündü ki, görəsən, bu qız bu saat hansı musiqiyə qulaq asır...

Qız gəlib onun bərabərinə çatanda ani baxışla üzünə baxaraq, başı ilə salam verdi və dayanmadan ötüb keçdi. Bir-iki həftə olardı ki, beləcə salamlaşmağa başlamışdılar. Əvvəllər isə həmişə parkda rastlaşanda qız sifətinə ciddilik verib, onun üzünə baxmadan yanından ötürdü. Parkda onlardan başqa, demək olar ki, heç kəs olmurdu bu vaxtlar. Hər gün bir-birlərini burada görməyə alışsalar da salamlaşmırdılar. Sonra, necə oldusa, bir gün qarşı-qarşıya gələndə qız onun üzünə baxıb başıyla salam verdi. Bir növ, köhnə tanışlar





kimi. O da, təbii ki, qızın salamını aldı və salamlaşmaqları beləcə başladı.

Dönüb qızın arxasınca baxmaqdan özünü saxlaya bilmədi. Ya, daha doğrusu, baxmaq istədi və baxdı. Qızın mütənasib əndamı arxadan da çox cazibədar görünürdü və o, artıq bunu bilirdi.

Elə-belə baxırdı.... Və bilirdi ki, burada heç bir pis iş görmür. Heç bir başqa məqsədi də yox idi bu qıza qarşı. Əslində qızın elə bir ilahi gözəlliyi var idi ki, ona yalnız təmiz duyğularla baxmaq mümkün idi. Baxırdı və düşünürdü ki, Allah istəsə qadınlara necə də qeyri-adi bir gözəllik verə bilərmiş. Pərilərə, mələkələrə verdiyi kimi...

Subay olmasına və son vaxtlar anasının onu tələsdirməyinə baxmayaraq, hələ ki, evlənmək fikrində də deyildi. Ona elə gəlirdi ki, daha heç bir qadın ona Məltəmi unutdura bilməyəcək. O Məltəmi ki, iki uşaqlı, ərli bir qadın idi və bu qadını həqiqətən sevib-sevmədiyini hələ də özü üçün dəqiqləşdirə bilməmişdi. Bir azdan uç ili tamam olacaqdı Məltəmlə tanışlığının. Bir ildən də çox olardı ki, daha görmürdü onu. İstəsəydi, gedib evində görərdi, amma özü istəmirdi görməyi. Unutmaq istəyirdi. Bir işin ki, axırı olmayacaqdı, əvvəlinə başlamağın nə faydası vardı?...

Anası gördü ki, o, özbaşına qız tapıb evlənməyəcək, ona görə də, Şamaxıda yaşayan əmisi qızının Reyhanə adlı qızını evə gətirdi. Reyhanə Pedaqoji Universitetə keçən il daxil olmuşdu. Bir il tələbə qızlarla kirayə mənzildə qalandan sonra anasının ağlına gəldi ki, onu öz evinə gətirsin. Guya, yaxın qohumu kimi ürəyi yanırdı. Ancaq, məqsədi bu idi ki, oğlu bu qızı hər gün görüb ona alışsın, sevsin və evlənsin onunla.

Reyhanə pis qız deyildi. Qəşəng qız idi. Çox sadəlövh xarakteri vardı. Sakit, dilsiz-ağızsızın biri idi. Hərdən mehribanlıqla gülümsəməyi ona çox yaraşırdı. Eyibi, olsa-olsa, boyunda olardı ki, başı onun çiynindən də bir qarış aşağı çatırdı. Əslində heç buna da eyib demək olmazdı. Boyca özünə uyğun olan o qədər oğlan vardı ki Bakıda.

Qalxıb, evə getmək üçün parkdan çıxdı. Küçəni keçib evlərin arasına girdi və piyada addımlamağa başladı. Yol boyu yenə də

Reyhanə haqqında düşünürdü. Əslində,o, ümumiyyətlə, yaxın qohumla evlənməyin tərəfdarı deyildi. Reyhanə onun xalası qızı, deməli, həm də bacısı sayılmalıydı. Ona elə bacısı kimi də baxırdı. Bacısı, qardaşı yox idi və istəyirdi ki, Reyhanə onun bacısı olsun. Onun fikrincə, yaxın qohumla evlənmək adətini ərəblər dinlə ötürmüşdü türklərə. Eşitdiyinə görə,türk "Törə"sində hətta mənsub olduğun tayfadan qız almaq normal sayılmırmış. Amma, anasına başa sala bilmirdi belə şeyləri...

Mənzilin qapısını açanda onu Reyhanə qarşıladı. Universitetə getməyə hazırlaşırdı. Qıza salam verib yuyunmaq üçün vanna otağına keçmək istəyəndə yemək otağından anasının hökmlü səsi gəldi:

–Ələmdar, gəldin?

–Hə, gəldim, ana! – dedi və vanna otağına girib soyuq su ilə əl-üzünü yumağa başladı.

Artıq yaşının otuz səkkizi haqlamasına baxmayaraq, hələ də anasından çəkinirdi. Danlayıb-söyməyi bir yana dursun, onu uşaqlığından indiyə kimi o qədər döymüşdü ki...

Əminə arvadın səsi bu dəfə daha yaxından gəldi:

–Tez yuyun, gəl yeməyini ye!

Ələmdar yaxşı bilirdi ki, anası onu niyə tələsdirir. Reyhanə bu dəqiqələrdə dərsə getmək üçün mənzildən çıxmalı idi. Anası istəyirdi ki, qız getməmiş Ələmdar süfrə arxasına keçsin və çayı onun üçün Reyhanə süzsün. Daha bezdirmişdi anasının bu fəndləri onu.

–Gəlirəm.-dedi və qurulanıb otağa keçdi.

Səhər yeməyi üçün süfrə hazır idi. Anası başda əyləşmişdi. Ələmdar öz yerini tutan kimi Reyhanə onun üçün çay süzdü. Hər dəfə olduğu kimi, ona yaxınlaşanda yenə də qızarıb özünü itirmişdi. Onun bu halı Ələmdarın heç də xoşuna gəlmirdi. Belə çıxırdı ki, qız onun barəsində başqa cür düşünürdü və bəlkə də artıq anası ona öz məqsədini anlatmışdı. Əgər, belə idisə, bu, Ələmdarın fikrincə, doğrudan da çox pis idi.

Reyhanə özü üçün də çay süzüb onunla üzbəüz əyləşdi. Əynində qırmızı rəngli kofta var idi. Saçını səliqə ilə darayıb arxada





düyünləmişdi. Üz-gözündə də heç bir kosmetikadan istifadə etməmişdi.

Bir dəfə, bu evə gəldiyinin birinci həftəsində süfrəyə əyləşərkən Ələmdar onun kosmetikadan normadan artıq istifadə etdiyini görüb, bunu qıza ciddi şəkildə irad tutdu. Dedi ki, bir də səni bu vəziyyətdə görməyim, əgər bu şeylərdən istifadə edirsənsə, qədərində istifadə elə. Bir də dedi ki, sən onsuz da qəşəng görünürsən, sənin, əslində, heç kosmetikaya ehtiyacın yoxdur. Onda anası da süfrənin arxasında idi və maraqlıdır ki, oğlunun bu iradına yalnız başını mənalı şəkildə tərpətməklə münasibət bildirdi. Reyhanə isə yaxşıca utanıb-qızardı və ondan sonra kosmetikadan daha heç yerli-dibli istifadə etmədi.

Əminə arvad bir tikə çörəyin üstünə yağla pendiri yaxıb yedi və üstündən bir qurtum çay içib üzünü oğluna tutdu:

–Deyirlər, yaxşı konsert olacaq. Yerini öyrən, Reyhanəni də götür apar, qızın gözü-könlü açılsın. Yazıq uşaq dərs oxumaqdan üzülüb daha.

Ələmdar əlindəki stəkanı nəlbəkiyə qoyub məzəmmətlə anasına baxdı:

–Nə konsert?

–Nə bilim? Televizorda dedilər.Yaxşı müğənnilərin hamısı orada olacaq.

Ələmdar o saat anladı ki, bu da anasının yeni fəndidir. Bilmədi ki, ona necə etiraz etsin:

–İki gündən sonra Xocalı hadisəsinin ildönümüdür. İndi konsert olmaz...

–Dedim, var da!... –anası hirsləndi. – Eşitməsəm, deməràm ki!?

Ələmdar başını buladı:

–Reyhanə Şamaxıdan bura konsertə gəlməyib. Qoy dərsi ilə məşğul olsun.

Reyhanə başını pərt halda aşağı dikmişdi. Əminə arvad oğlunun son sözlərindən lap hiddətləndi:

–Qudurmusan ha, deyəsən! Yas saxlayanıma bax mənim! On yeddi il keçib o işin üstündən. Mən ölsəm, heç yasımı qırx gün saxlamazsan!

–Mən o barədə demədim. – anasının əsəbləşdiyini görən Ələmdar onu sakitləşdirməyə çalışdı. - Dedim, yəni, indi konsert olmaz. Bəlkə, səhv eşitmisən...

–Kar özünsən! – anası onun üstünə çımxırdı.

Ələmdar dinmədi. Süfrəyə xoşagəlməz bir sükut çökdü. Reyhanə çayını tələsik içib ayağa qalxdı:

–Əminə xala, bağışla, mən dərsə gecikirəm. Süfrəni...

–Get, qızım, özüm yığışdıraram.

–Sağ olun!

–Yaxşı yol! – Əminə arvad dedi.

Reyhanə gödəkçəsini geyinərək çantasını götürüb mənzildən çıxdı. O çıxan kimi Əminə arvad üzünü hirslə oğluna tutdu:

–Ədə, nə qanmaz adamsan sən!? Qız sənə çay süzür, bir "sağ ol" da demirsən. Gedəndə sağollaşır, başını qaldırıb cavab vermirsən. Nə dartırsan özünü? Bundan artığını tapıb alacaqsan?

Ələmdar başını buladı. Bu sözü anası artıq neçə dəfə demişdi.

–Ay ana, -dedi. –Mən demirəm pis qızdır. Amma, eyibdir, qurtar bu söhbəti. O, mənim bacımdır.

Getdikcə əsəbləşən anası əlini öz qarnına vurdu:

–Onu mən doğmuşam ki, bacın ola? Ya, türmələrdə ölən atan əkib onu? Haradan oldu o sənin bacın?

Ələmdar cavab vermək fikrində deyildi. Əminə arvad isə hirsini–hikkəsini axıra qədər tökməsəydi, sakitləşən deyildi:

–Yaxşı, o həkimi almadın, ərdə olmuşdu. Ancaq, gül kimi gəlin idi. Axırda görürsən kimə ərə getdi? Dağ boyda kişiyə! Bank yiyəsinə! İndi, bunu mən deyirəm sənə, almalısan bunu! Əmimin nəvəsidir. Hər şeyinə bələdəm. Gül kimi qızdır. Onunla evlənəcəksən, vəssalam!

Anası həkim deyəndə Cəhaləni nəzərdə tuturdu. O Cəhaləni ki, hələ əri ölməmiş vurulmuşdu Ələmdara. Onun təhrikiylə əlaqədə də oldular, hətta. Eyni yatağa girdilər Cəhaləgilin öz evində. Gözəlliyinə də, bir çox xasiyyətlərinə də heç bir söz ola bilməzdi o qadının. Elələri, həqiqətən də, az-az ələ düşə bilərdi. Əri öləndən bir az sonra bank sahibi Əli Mazanova ərə getdi. Ələmdar o adam haqqında





yalnız yaxşı sözlər eşitmişdi. Amma, əgər Cəhalə Ələmdarın tanıyıb-bildiyi Cəhalə idisə, xoşbəxt ola bilməyəcəkdi Mazanovla. Çünki, ona da əvvəlki əri kimi sevmədən ərə getmişdi. Ələmdar çox istəyirdi ki, Cəhalə xoşbəxt olsun. Çox! O xoşbəxt olmağa layiq bir qadın idi. Amma, həyatda bəxti gətirməmişdi. Hərdən düşünürdü ki, o vaxt əri öləndən sonra gərək evlənəydi Cəhalə ilə. Əlbəttə, əgər Cəhalə razı olsaydı... Çünki o da bilirdi ki, Ələmdarın fikri Məltəmdədir...

–Hə, nə fikrə getdin?! – anasının qəzəbli səsi onu fikirdən ayırdı. –Deyirsən, daha qocalmışam, səni döyə bilməyəcəm? Allaha and olsun, sənin qabırğalarını sındıraram!

Ələmdar dərindən ah çəkdi. Anadır, istəyir ki, oğlu evlənsin, evə gəlin gətirsin. Bu dünyadan getməmiş nəvə görmək istəyir. Amma çox şeydən xəbəri yoxdur axı!?... Bilmir ki, oğlu onun tanıdığı Ələmdar deyil. Bilmir ki, oğlu dövlətin mənafeyini qoruyan gizli bir orqanın agentidir. Bilmir ki, onu istənilən vaxt ən təhlükəli tapşırıq dalınca göndərə bilərlər və göndərirlər də. O vaxt Türkiyədə ali hərbi məktəbdə oxuyanda da elə bilirdi ki, oğlu onu atıb, kef çəkməyə gedib o ölkəyə...

Anası bütün bunlardan xəbərsiz idi və Ələmdarın da ixtiyarı yox idi ona özünün kim olduğunu anlatmağa. Hamı onu "Döyüş" idman klubunun sahibi kimi, kriminal aləmdə az-çox ad qazanmış lotu Vələddinin oğlu Ələmdar kimi tanıyırdı və belə də tanımalıydı. Elə doğma anası da.

Hətta agenti olduğu şöbədə də cəmi üç nəfər bilirdi onun kim olduğunu. Qalan əməkdaşlar isə heç onun üzünü görməmişdilər. Bir də idman klubundakı işçilərindən Tələtlə Orxan... Onlar da yalnız bunu bilirdilər ki, şefləri gizli agentdir, vəssalam!

Anasını mehribanlıqla başa salmağa çalışdı:

–Ay ana, evlən deyirsən, evlənəcəm. Ürəyin istəyən bir qız tapıb evlənəcəm. Ancaq, evləndin, gərək, arvadının, ailənin yanında olasan. Mən isə, bir də gördün bir-iki ay evdə olmuram. Yarışa–filana aparıram uşaqları. Həm də indi müharibə gedir. Elə vəziyyətdir ki, bilmirik axırımız necə olacaq...

Əminə arvad əlini hirslə stola vurdu:

F. Köçərli adına Azərbaycan Dövlət Uşaq KİTABXANASI
İNV. № 57128

– Ə, küçük, sən kimsən?! Əsgərsən, komandirsən, nəsən? Müharibənin sənə nə dəxli var? Müharibə olanda evlənmirlər? Aylarnan yoxa çıxıb hansı cəhənnəməsə veyillənməyə gedirsən. Getmə də! Getmə!Evlən, arvadının yanında ol. Uşaq-muşağa təpik atmaq öyrədirsən, nə öyrədirsən, otur Bakıda, öyrət də! Baş aça bilmirəm, alverə gedirsən, arvadbazlığa gedirsən, nəyə gedirsən. Elə bilirsən anlamıram? Başa düşmürəm ki, yarış bəhanəsiylə nə fırıldaqlardan çıxırsan? O vaxt o gədəni bıçaqlayıb düşdün türməyə, sən öləsən, bir də oraya düşsən, sən adda oğlum yoxdur! Ağlını başına yığ, özünü kişi kimi apar! Kişi evində, ailəsinin üstündə olar. Atan başına daş düşmüş türmələrdə çürütdü özünü, onun yoluyla getmə!

Ələmdar yeməyini yarımçıq qoyub ayağa qalxdı. Gödəkçəsini əyninə geyib qapıya doğru getdi. Sonra birdən dayanıb geriyə dönərək dilləndi:

– Ana, bu qızın başını boş yerə aldadıb yolundan eləmə. Mən onu almayacam. Qoy məktəbi qurtarıb qayıtsın evlərinə. Bir layiqli oğlan tapıb ərə gedər. Həm də, o məndən gör neçə yaş kiçikdir!

Onu diqqətlə dinləyən anası birdən əllərini göyə açdı:

– Ay Allah, bu kimə oxşadı fərsizlikdə, acizlikdə? Atası gorbagor da belə aciz olmayıb axı!? Dəyirmanın boğazından ölü salsaydın, diri çıxardı. Mən də belə olmamışam axı!?

Ələmdar hirslə əlini yelləyib mənzildən çıxdı. Amma arxadan hələ də anasının səsini eşidirdi:

– Get, biqeyrət övlad, kaş o vaxt müharibədə şəhid olaydın, mən də qürrələnəydim ki, oğul böyütmüşəm!





## İKİNCİ FƏSİL

"Döyüş" idman klubunun həyətində karate bölməsindən olan bir qrup yeniyetmə Orxanın başına yığışmışdı. Orxan karate bölməsinin məşqçisi idi. Bu arıq, yaraşıqlı, zarafatcıl və mehriban gənci uşaqlar çox sevirdilər. Özlərini onun yanında sərbəst aparır, tay-tuşları kimi söhbət edirdilər. Amma məşqlər zamanı hamı onun əmrlərinə sözsüz tabe olurdu. Bütün qüvvələri ilə çalışırdılar ki, onun etimadını doğrultsunlar.

Söhbət Fərid adlı oğlanın hərbi xidmətə çağırılmağından gedirdi. Bu, gödək boylu, bir qədər artıq çəkisi məşğul olduğu idman növü ilə uyğun gəlməyən bir oğlan idi. Yoldaşları bəzi xasiyyətlərinə görə onu sevmirdilər. Ən çox da lovğalığına və yaltaqlığına görə. Bilirdilər ki, anası nəsə bir vəzifə sahibidir. Atasını isə hamı tanıyırdı. Əbilxan Sarayzadəni. Hər hakimiyyət dəyişəndə bir sifət alıb başını girləyir, özünə var-dövlət yığırdı. Dövlətdə bir vəzifəsi olmasa da siyasətdən tutmuş təhsilə qədər hər yerə başını soxur, hər yerdən səsi gəlirdi.

Söhbətdən məlum olmuşdu ki, Əbilxan oğlunun əlilliyi barədə saxta arayış düzəltdirərək onu əsgərlikdən azad edib. Maraqlıdır ki, bu xəbəri Fərid öz yoldaşlarına bir qürur hissi ilə bildirmişdi.

–Niyə belə elədin? – Orxan məzəmmətlə soruşdu. – Qorxursan? İndi əsgərlik çəkməyə nə var? Müharibə olsa da, atəşkəsdir, ciddi döyüş getmir. Hərbi hissələrin də çoxunda vəziyyət yaxşıdır. Bolluca yemək-içməyini verirlər. Papağını fırladırsan, bir də gördün, il yarım gəlib keçdi.

–Yox, sən nə danışırsan?! – Fərid etiraz etdi. – Birincisi, haradan bilim ki, gedib sərhəd bölgəsinə düşməyəcəm. İkincisi də, lap nə qədər rahat yer olsa, mən dözə bilmərəm. Ürəyim partlayar.

–Daha sənə sözüm yoxdur! –Orxan kinayə ilə başını buladı.

–Ana uşağısan da… – Rufan adlı oğlan Fəridə söz atdı.

–Ana uşağı özünsən! – Fərid ona zarafatla yumruq atdı. – Yaxşı

şeydirsə, gedəydin də əsgərliyə, niyə getmədin?

–Mən universitetə daxil oldum. –Rufan əlini sinəsinə vurdu. – Qurtarandan sonra gedəcəm. Bacarırdın, sən də girəydin universitetə. Görürsən, atanın pulu hər yerdə işə keçmir.

Fərid pərt olsa da, özünü o yerə qoymadı:

–Nəyimə lazımdı universitet? Sən kitab–dəftərlə eşələnəndə mən qızlarla kef çəkəcəm.

–Kül o qızların başına ki, sən onlarla kef çəkəcəksən! – qıvrımsaç bir oğlan söhbətə qoşuldu . –Ağıllı qız əsgər getməyən oğlana heç yaxın durmaz.

–Sən səsini kəs! –Fərid ona çımxırdı. –Sənin yaşın çatmır mənimlə danışmağa.

–Qurtarın mübahisəni! –Orxan ciddi şəkildə dilləndi.

–Heç bilirsiniz bu gecə nə olub? –Fərid həmin dəqiqə söhbəti dəyişdi. –Bizim binada yaşayan bir nəfəri öldürüblər.

–Kimi? –Rufan soruşdu.

–Zamiri tanıyırdınız? Təzə tikinti firması açmışdı. Bu gecə saat birdə qardaşı oğlunun toyundan çıxıb evə qayıdanda vurublar.

Bu xəbər uşaqları, doğrudan da, maraqlandırdı.

–Necə olub axı bu? –onlardan biri sual verdi.

–Bizim xəbərimiz olmayıb. Yatmışdıq. –Fərid həvəslə danışmağa başladı. – Səhər qonşulardan eşitdik. Deməli, Zamir toydan qayıdırmış. Arvad-uşağı ondan əvvəl gəlibmiş evə. Zamir də gəlib blokun qabağında maşınından düşəndə kimsə həyətdəki ağacların arasından çıxıb, buna düz üç dənə güllə vurub.

–Görüb-eləyən olub vuranı? –Orxan soruşdu.

–Qonşulardan biri deyirdi ki, guya bir saat əvvəl evə gələndə ağacların arasında tanımadığı bir adam görüb. Başı keçəl qırxılmış, hündür boylu bir adam imiş. Əyninə uzun, qara plaş geyinibmiş.

–Yəqin, pulla tutulmuş qatil olub həmin adam... –kimsə astadan dilləndi.

–Ola bilər. – Fərid təsdiq etdi. – Yazıq işə təzəcə başlamışdı. Köhnə məhəllələrin birində bir sahəni alıb orada bina tikmək istəyirdi. Evlərin pulunu verib sakinləri köçürtmüşdü. Sökmə işinə təzəcə





başlayıbmış ki, iki gün keçməmiş belə oldu...

–Bəlkə köçürülən sakinlərdən kiminsə işidir bu? –Taleh adında oğlan öz fikrini bildirdi.

–Yox əşi! –Fərid başını yellədi. –Hamının pulunu artıqlamasıyla verib razı salıbmış.

–Onda kiməsə mane olurmuş bədbəxt. –Rufan dedi.

Araya bir anlıq sükut çökdü. Birdən Orxan:

–Ələmdar qədeş gəldi! –deyib uşaqlardan ayrıldı.

Həyətə daxil olan qara rəngli "Nissan-Patrol" düz klubun qarşısında dayandı. Ələmdar qapını açıb səbrlə yerə endi. Deyəsən, qanı yaman qara idi. Anası ilə olan mübahisədən sonra hələ sakitləşməmişdi. Bu, Orxanla soyuq şəkildə əl tutmasından da hiss olunurdu.

–Nəsə olub, Ələmdar? – Orxan astadan soruşdu.

–Yox, heç nə olmayıb. – Ələmdar sakitcə dayanıb ona baxan cavanlara başını tərpətməklə salam verib dilləndi. – Nə işlə məşğulsunuz?

–Uşaqlarla söhbət edirdik.

Ələmdar uzun barmaqları ilə saçlarını yana daraqlayıb cavanları diqqətlə gözdən keçirdi və nəzərlərini Fəridin üstündə saxladı:

–Sən nə vaxt gedəsi oldun əsgərliyə?

Fərid bir anlıq duruxub yoldaşlarının üzünə baxdı.

–Daha getməyəcək. –onun əvəzinə Orxan dilləndi. –Atası bunun üçün əlillik kağızı düzəldib.

Ələmdar qaş–qabağını sallayıb Fəridi başdan-ayağa süzdü:

–Sən əlilsən?

–Yox... –Fərid başını buladı.

–Bəs onda niyə getmirsən? Kişi deyilsən?

–Mən gedərdim... – oğlan pərt halda mızıldadı. – Ancaq anam razı deyil.

Ələmdar kinayə ilə gülümsəyib yanındakıların heyrətinə səbəb olan qeyri-adi sakitliklə çox nalayiq bir ana söyüşü işlətdi və bu söyüş birbaşa Fəridin anasına ünvanlanmışdı.

Fərid də, yanındakı oğlanlar da, elə Orxan özü də bir anlıq sarsılıb

özlərini itirdilər. Ələmdarın, hərdən, hirslənəndə söyüş söyməyi var idi. Amma beləcə təmkinlə, kiminsə gözünün içinə baxa-baxa söydüyünü görməmişdilər.

Birdən Ələmdar daş kimi ağır yumruğunu Fəridin sifətinə endirdi və o, səntirləyib arxası üstə asfalt döşəmənin üstünə yıxıldı. Ağzından qan axırdı. Deyəsən, dişlərindən də bir neçəsi sınmışdı. Heç kəs yaxınlaşıb onu qaldırmağa cəsarət etmədi.

Ələmdar bir neçə saniyə dayanıb ona tamaşa edəndən sonra birdən dönüb əsəbi addımlarla kluba girdi. Orxan Fəridə kömək etməyi uşaqlara tapşırıb onun ardınca getdi. Yaxşı ki, foyedə Talətlə üz-üzə gəldilər. Orta boylu, qarayanız, gözlərindən sanki cin tökülən bu gənc, sambo bölməsinin məşqçisi, həm də klubda Ələmdarın ən inanılmış adamı idi. Onun "Nə olub?" sualına klubun sahibi əsəbi də olsa cavab verdi:

–Bu insanlar niyə belə olur, ay qardaş?! Bu it oğlunun atası televizorda danışanda elə danışır ki, elə bil bundan təmiz, bundan qeyrətli, bundan vətənpərvər adam yoxdu Azərbaycanda. Orada torpağında ermənilər at oynadır, bu da gəlib burada fironluq eləyir. –Bir anlıq ara verib hirslə əlini yellədi. –İnan ki, Talət, atamın qəbrinə and olsun, mənə bircə gün imkan versələr, bələlərinin hamısını boğazından asdıraram!

Orxan Talətin sualedici baxışlarla ona nəzər saldığını görüb izahat verdi:

–Mənim bölməmdəki Fərid əsgərlikdən qalmaq üçün yalandan əlillik arayışı alıb. Əbilxanın oğlu…

Talət dərindən köks ötürüb başını buladı:

–Qanını qaraltma, Ələmdar, elələri əsgər getməsələr yaxşıdır. Guya gedib neyləyəcək? Müharibə–filan olsa, fərarilik, satqınlıq eləyəcək də!...

–Onda rədd olsun, getsin burdan! –Ələmdar ucadan dilləndi. –Daha biz ona karate dərsi niyə keçirik?

–Sakit ol, hər itdən ötrü qanını qaraltma. –Talət onu sakitləşdirməyə çalışdı.

Amma, Ələmdar, artıq bir qədər sakitləşmişdi. Üzünü Orxana tutub:

–Sən bilirsən mən onu niyə vurdum? –dedi. –Ona görə yox ki, əsgər getmək istəmir, ona görə ki, anasını söydüm, durub üzümə baxdı. Mənə əl də qaldırmadı. Yoxsa, nəyimə lazımdır onun əsgər getməsi!? Anasının qeyrətini çəkməyən, guya, gedib vətən qoruyacaq?

Bir daha əlini hirslə yelləyərək susdu. Bəlkə də başqa vaxt olsaydı o, başqa cür hərəkət edərdi. Əlbəttə, sözsüz ki, laqeyd qalmazdı belə işə, amma bu qədər sərt reaksiya da verməzdi. Məsələ burasında idi ki, anasının onu Reyhanə ilə məcbur evləndirmək istəməsi hövsələsini daraldırdı. Anası bu dünyada yeganə insan idi ki, Ələmdar ona nədəsə etiraz etməyə cəsarət etmir, nəticədə hirsini ürəyinə vururdu.

Talət söhbəti ustalıqla dəyişdi və günortadan sonra kluba gətiriləcək bəzi yeni idman avadanlıqlarından danışmağa başladılar. Sonra söhbət edə–edə məşq zallarından birinə keçdilər. Ələmdar avadanlığın haraya yığılacağını Talətə göstərdi.

Bir az keçmiş uşaqlardan biri zala girib Ələmdara polislərin gəldiyini və onu həyətdə gözlədiklərini dedi. Birlikdə həyətə çıxdılar. Enli, kəsik bığları ətli yanaqlarının arasında itib–batan kök bir kişi iki polis əməkdaşı ilə həyətdə dayanmışdı. Fərid də onların yanında idi. Ələmdar Əbilxanı dərhal tanıdı. Sən demə, Fərid atasına zəng vurub başına gələni demiş, o da yubanmadan bunu yaxındakı polis bölməsinə bildirib maşınıyla özünü kluba çatdırmışdı. İndi də səsini başına atıb qışqırırdı:

–Hələ bir çıxsın görək, o nə boyda adamdır ki, mənə sataşır!?

Ələmdar istəsəydi əsəbini boğub özünü sakit apara bilərdi. Amma uşaqların yanında bunu istəmədi. Əbilxanın qabağına yeriyib:

–Nə olub? –dedi. –Axtalanan öküz kimi nə böyürürsən?

Əbilxan bu sözlərdən heyrətlənib vay-şivən saldı:

–Deməli, o əclaf sənsən?!

Elə bunu demişdi ki, Ələmdar onun ətli sifətinə bir sillə vurdu. İkincini də vurmaq istəyəndə polis işçiləri onun qollarından bərk–bərk yapışıb buna mane oldular.

–Baxarsan, sənin başına nə oyun gətirəcəm! – Əli ilə qızarmış sifətini tutan Əbilxan qışqırdı. – Sənə iş verdirməyincə əl çəkməyəcəm. Gedib uşağın xəsarət alması haqqında həkimdən arayış alacam.

–Ona əlillik arayışı verən həkimdən? – Ələmdar kinayə ilə soruşdu.

–Nə durmusunuz, aparın bu xuliqanı! – kişi bu dəfə polislərə bozardı.

Polislər Ələmdarı yaxında dayanmış maşına tərəf çəkmək istəyəndə dartınıb onların əlindən çıxdı. Telefonu ilə maşının açarını cibindən çıxarıb Tələtə uzatdı:

–Al bunları saxla. – dedi. – Anama deyərsən, Ələmdarın rayonda bir dostu ölüb, onun yasına getdi.

Sonra isə Fəridi qanlı nəzərlərlə süzüb:

–Səni bir də burada görməyim! –dedi.

Əbilxan barmağı ilə onu hədələdi:

–Sən onu bəlkə də görməyəcəksən. Çünki, sənin axırına çıxacam. Amma o, bura yenə gələcək. Özü də prinsiplə gələcək. Çünki, mən belə istəyirəm!

Ələmdarı polis maşınına mindirib apardılar. Bundan sonra Əbilxan üzünü bir–bir hamıya tutub barmağını silkələdi:

–Bu uşağa bundan sonra sataşan olsa, məndən inciməsin! Eşitdiniz?

Dönüb oğlunun qolundan tutdu:

–Gəl gedək, həkimdən arayış alaq. Mən ona göstərəcəm kimin kim olduğunu.

Onlar da maşına minib getdilər. Maşının arxasınca baxan Orxan ucadan:

–Satqın köpək uşağı! – deyib yerə tüpürdü.

Tələt isə hirsindən dodaqlarını gəmirirdi.





## ÜÇÜNCÜ FƏSİL

Dövlətin mənafeyi üçün son dərəcə önəmli işlər görən, lakin varlığından, demək olar ki, çox az sayda adamın xəbərdar olduğu xüsusi məxfi şöbənin uca hasarla əhatə olunmuş həyətində tam sakitlik idi. Başdan-başa hündür ağacların kölgəsinə bürünmüş bu həyətdə əlində avtomat silah tutmuş iki əsgərdən başqa heç kəs görünmürdü.

Ağacların arasında gizlənmiş birmərtəbəli, uzun binanın dar dəhlizində də soyuq və cansıxıcı sakitlik hökm sürürdü. Yalnız hərdənbir hansısa kabinetin qara meşinli qapısı açılıb-örtülür, dəhlizin döşəməsində tək–tək addım səsləri eşidilirdi.

Şöbənin rəisi polkovnik Baratov öz kabinetində müavini mayor Cavadovla söhbət edirdi. Ağ saçları səliqə ilə arxaya daranmış, əyninə xırda damalı boz kostyum və uzunboğazlı yun köynək geyinmiş sadə görkəmli bu kişi uzun illər Milli Təhlükəsizlik orqanlarında qüsursuz işləmişdi. Gəncliyində Heydər Əliyevlə birlikdə, onun tabeliyində işlədiyini dönə-dönə və qürurla təkrar etməyi sevirdi. Deyirdi ki, Azərbaycan Milli Təhlükəsizlik orqanları Əliyevin bu orqanlara və daha sonra respublikaya rəhbərliyi dövründə yeniləşərək xeyli inkişaf etmişdir. İnamla deyirdi ki, Azərbaycanın Milli Təhlükəsizlik və kəşfiyyat orqanları hazırda dünyada ən bacarıqlısı və güclüsüdür.

Ona həmişə inanır və onunla hesablaşırdılar. Bilirdilər ki, yüksək vəzifəli şəxslər arasında yaranan qruplaşmalara qoşulan, yerliçilik edən deyil. Dövlətin mənafeyindən başqa onu heç nə düşündürmürdü. Bakıda doğulmuşdu. Valideynlərinin əslən hansı bölgədən olduğunu heç işçiləri də bilmirdi.

Bir neçə gün əvvəl respublika prezidentinin yanında olmuş müşavirə barədə müavininə təzəcə danışıb qurtarmışdı. Bu müşavirəyə MN, MTN, DİN-in ən yüksək rütbəli şəxsləri və bir də Baratov dəvət olunmuşdu. Müşavirədən sonra prezident İlham Əliyev Baratovla çox mehriban hal-əhval tutmuş, işləri ilə

maraqlanıbmış.

Mayor Cavadov öz şefinə maraq və diqqətlə qulaq asırdı. Başının qabaq hissəsi tamamilə dazlaşmış, uzunsov, sərt sifəti təmiz qırxılmış bu adam qırx beş yaşı təzəcə haqlamışdı. Ömrünün çox hissəsi doğulduğu Naxçıvanda keçmiş, on ilə yaxın idi ki, Bakıya gəlmişdi. Son dərəcə qaraqabaq və intizamlı olan bu adamın hətta arvadı və iki övladı da onun harada, nə işlə məşğul olduğunu bilmirdi. Onlar elə bilirdilər ki, Cavadov hansısa hərbi hissədə adi vəzifədədir.

–Qarşılayacağımız qonaq haqqında fikriniz nədir, cənab polkovnik? – Cavadov rəisin öz söhbətini bitirdiyini görüb soruşdu.

Bir gün əvvəl Yunis Muradov adlı bir şəxs MTN-nin şəhər şöbəsinə maraqlı bir məlumat vermişdi. Aztirajlı bir qəzetin müxbiri olan bu adam bildiribmiş ki, fevralın 23-ü, gecə saat 2-nin yarısında mənzilindəki şəhər telefonuna naməlum bir zəng vurulub. Kimliyini gizlədən yaşlı bir qadın bildirib ki, bu günlərdə Bakıya Səid Namazov adlı bir nəfər gələcək və Bakıdakı gizli təşkilata qoşulub təxribat törədəcək. Guya, Səid Namazov Xocalı qırğınında ermənilərə əsir düşübmüş.

Zəng vuran qadının deməyinə görə o, Ermənistandan zəng vurubmuş. Amma zəngi araşdıran MTN-dən Baratova bildirmişdilər ki, həmin zəng mobil telefondan olub və bu mobil nömrənin operatoru Gürcüstana məxsus imiş.

Məsələnin ciddiliyi və hadisənin gizli qalmasının vacibliyi nəzərə alınaraq Yunis adlı həmin jurnalist müvəqqəti həbs edilərək qapalı şəraitdə saxlanılırdı. İşin araşdırılması və Bakıda həqiqətən hər hansı təxribatçı qrup olardısa, onun ələ keçirilməsi Xüsusi Məxfi şöbəyə tapşırılmışdı.

–Qoy hələ bir Yusifov gəlsin, görüm nə öyrənib. –Rəis cavab verdi.

–Məni bir məsələ düşündürür. –Cavadov, adəti üzrə, çox xəsisliklə danışırdı. –Görəsən, firma sahibi Zamir Təhməzlinin öldürülməsi ilə bu adamın Bakıya gəlməsi arasında bir əlaqə varmı?

–Demək istəyirsən ki, Səid Namazov bu telefon zəngindən əvvəl gəlib Bakıya? Axı zəng vuran qadın telefonda deyib ki, o, bu günlərdə gələcək.

–Yox, mən demək istəmirəm ki, Zamir Təhməzlini həmin Səid öldürüb. Ümumiyyətlə düşünürəm ki, bu həmin qrupun işi ola bilərmi?

Polkovnik kreslosunu bir qədər arxaya sürüşdürüb, əlindəki qələmə baxa-baxa dilləndi:

–Təhməzlinin vurulması, həqiqətən, müəmmalı və şübhəlidir. Bu adamın, məndə olan məlumata görə, biznes sahəsində kiminləsə qarşıdurması yox imiş. Nə də şəxsi düşməni... Ancaq, mən şəxsən, eyni gecədə baş verməsinə baxmayaraq, bu telefon zəngi ilə Təhməzlinin ölümü arasında əlaqə axtarmaq istəməzdim. Nəzərə almalıyıq ki, Bakı çox böyük şəhərdir. Burada hər gün müxtəlif hadisələr baş verə bilər... Təhməzli köhnə məhəllədə bir kvartalı alıb, oranı hasara saldırıbmış. Ərazini söküb yerində çoxmərtəbəli bina tikəcəkmiş. Artıq evlər sökülməyə başlayıbmış. Ola bilsin, kimsə istəməyib bu işin baş tutmasını. Amma niyə? Kim? Yəqin ki, bu suallara respublika prokurorluğu cavab tapacaq.

Mayor Cavadov nədənsə susub fikrə getdi. Bu zaman kapitan Yusifov icazə alıb kabinetə daxil oldu.

–Gəl əyləş, Elsevər! –rəis ona stolun arxasında yer göstərdi.

Yusifov əyləşib əlindəki qeydlərini qarşısına qoydu.

–Danış görüm, nə öyrənə bilmisən?

Kapitan qarşısındakı qeydlərə gözucu baxıb danışmağa başladı:

–Cənab polkovnik, Xocalı soyqırımı zamanı itkin düşən və taleyi bizə məlum olmayanlar arasında Səid Namazov adlı biri, həqiqətən də, var. O vaxt onun iyirmi bir yaşı olub. Deməli, indi otuz səkkiz yaşı olmalıdır. Bakı Universitetində üçüncü kursda təhsil alırmış. Onun fevral ayında, yəni dərs vaxtı Xocalıda olması bir qədər qəribə görünsə də, mənim fikrimcə o, Xocalıya bir neçə ay əvvəl gedib. Çünki o vaxt fevral ayında, hətta ondan əvvəlki iki ayda bu şəhərə gediş–gəliş olmayıb.. Yollar bağlı olub... İtkin düşənlər arasında onun atası İqbal Namazov, anası Sərinə Məşədi Yusif qızı və bacısı Ləyaqətin də adı var. Onların da taleyi bizə məlum deyil...

–Ailə dörd nəfərdən ibarət olub? -Cavadov sual verdi.

–Bəli.

–Xocalıdan sağ çıxanlar arasında Səidin qohumu olan var? – Baratov soruşdu. – Əsasən, Bakıda yaşayanları nəzərdə tuturam.

–Xeyr, eləsi yoxdur.

–Daha nə öyrənmisən?

–Hələlik heç nə. Amma Universitetlə yenə də əlaqə saxlayıb onun haqqında bütün məlumatları öyrənəcəm. Məsələn, bilirəm ki, o Bakıda oxuduğu illərdə universitetin yataqxanasında qalmayıb. Deməli, haradasa kirayədə qalırmış. Bunu öyrənməyə çalışdımsa da bir şey alınmadı. Gərək onun tələbə yoldaşları ilə əlaqə saxlayım.

Kapitan Yusifov sözünü bitirib rəisinin qarşısına kiçik bir fotoşəkil qoydu:

–Baxın, bu onun on səkkiz il əvvəl sənəd üçün çəkdirdiyi şəkildir. Universitetin arxivindən almışam.

Baratov fotoşəkli alıb baxdı. Bu, iyirmi yaşlarında yaraşıqlı bir oğlanın şəkli idi. Üz-gözündən mərd və dəyanətli bir gənc təsiri bağışlayırdı. Şəkli müavininə verdi:

–Cavadov, bütün gömrük məntəqələri ciddi nəzarətimiz altında olmalıdır. Bu şəklin surətini çıxarıb əməkdaşlarımıza verin.

–Oldu! – mayor quru tərzdə dilləndi.

–Yunis Muradovun mənzilinə vurulan zəngin kimin telefonundan gəldiyini nazirliyin əməkdaşları öyrənib bizə də bildirəcəklər. Artıq Gürcüstanın lazımı orqanları ilə əlaqəyə giriblər.

Polkovnik bir qədər susub dərindən köksünü ötürdü və yenidən səbrlə danışmağa başladı:

–Əgər doğrudan da Bakıda hər hansı bir gizli təşkilat fəaliyyət göstərirsə, belə çıxır ki, bu təşkilat olduqca ehtiyatlı və peşəkarcasına işləyir. Biz onları aşkar edib ələ keçirməliyik. Bunun üçün hələlik bircə şansımız varsa, o da Səiddir. Səidi qarşılayıb, şübhələndirmədən nəzarət altında saxlamalı və gizli təşkilatla əlaqə saxlamasını gözləməliyik.

–Siz bu telefon zənginə yüz faiz inanırsınız? –Cavadov şübhəli şəkildə soruşdu.

–Yüz faiz yox! – Baratov cavab verdi. – Burada iki variant var: Ya bu zəngin özü bizi çaşdırıb artıq əziyyətə salmaq üçün bir təxribatdır, ya da ki, burada, həqiqətən də, ciddi təxribatlar gözlənilir. Belə olan təqdirdə biz yalnız zəng vuran həmin qadına minnətdar olmalıyıq.





–Sizcə, o qadın Xocalıdan əsir düşənlərdəndir? –Sualı yenə Cavadov verdi.

–Məncə... -Baratov bir anlıq fasilə verib, davam etdi. –Məncə zəng vuran o qadın Səidin öz anasıdır...

–Anası?

–Bəli, anası! Başqa kim ola bilər axı?

–Anası nə üçün risqə girib kiminsə telefonundan Bakıya zəng vurmalıdır? Həm də oğlunu ifşa etmək üçün?!

–Sən, deyəsən, hər şeyi məndən öyrənmək istəyirsən, Cavadov? – polkovnik gülümsədi. –Yaxşısı budur, gedin sizə tapşırdığım işlərlə məşğul olun. Əməliyyatımız müvəffəqiyyətlə baş tutsa, bütün suallarına cavab tapılacaq.

Zabitlər ayağa qalxıb kabinetdən çıxanda kapitan Yusifov birdən ayaq saxlayıb geri döndü:

–Cənab polkovnik, az qala yadımdan çıxmışdı sizə demək, Məlikovu tutublar.

–Tutublar? –Baratov heyrətləndi.

–Bəli! İndicə Canavar zəng vurub bildirdi. Şagirdlərindən birini vurub xəsarət yetirdiyi üçün polis bölməsinə aparıblar...

Qəzəblənmiş polkovnik bir qədər susandan sonra, nəhayət,hirslə əlini yellədi:

–Tutublar, qoy cəzasını çəksin! Daha bəsdir onun nazı ilə oynadığım! O, deyəsən, həbsxana üçün darıxıb. Bu dəfə qarışmayacam. Qoy lap həbs eləsinlər! Bir az yatsa, bəlkə ağlı başına gələr.

Kapitan Yusifov rəisinin fikrində qəti olduğunu görüb daha bir söz demədən kabineti tərk etdi.

## DÖRDÜNCÜ FƏSİL

Təyyarədən enən sərnişinlərlə birlikdə gömrük zonasına gələn Səid pasport yoxlanışından keçmək üçün növbəyə durdu. Baqajdan almalı yükü yox idi. Dəyişik paltar-filan yığılmış çantasını isə çiynindən aşırmışdı. Təyyarə bileti ilə pasportunu əlində tutmuşdu. Rusiya vətəndaşına məxsus bu saxta pasportda onun adı Hikmət Həsənov kimi yazılmışdı. Əyninə geydiyi mixəyi rəngli, nazik kürk də, ayaqqabısı da, digər paltarları da hamısı Rusiya məhsulu idi.

Yaman həyəcanlanırdı. Ona elə gəlirdi ki, pasportları yoxlayan ağbəniz, orta yaşlı kişi onun pasportuna baxan kimi qışqıracaq:

–Bu nədir?! Bu pasport saxtadır. Sənin adın Hikmət deyil, Səiddir. Səni kim göndərib bura, satqın əclaf?!

Amma onun qorxduğu şey baş vermədi. Hava limanının pasport yoxlanışını həyata keçirən əməkdaşı növbəti sərnişini yola salıb Səiddən pasportu aldı. Otuz səkkiz yaşı olmasına baxmayaraq, qısa vurulmuş saçlarının çox hissəsi ağarmış, üzü qırışlarla örtülmüş, sağ yanağında, qulağına yaxın yerdə çoxdankı yanıq izi qalmış bu sərnişini laqeydliklə süzdü. Sonra pasportu vərəqləyib:

–Moskvada çoxdan yaşayırsan, Hikmət? – deyə soruşdu.

–Hə! –özü istəmədən səsi kobud çıxdı.

–Necədir orada vəziyyət?

–Belə də!... – çiynini çəkdi. – Əvvəlki kimi qazanc yoxdur.

Kişi eyni laqeydliklə pasportu sahibinə qaytardı:

–Buyurun, keçin!

Arxasında dayanmış uşaqlı qadın yoxlama köşkünə yaxınlaşdı. Səid dərindən nəfəs alıb gömrük sahəsinin çıxış qapısına doğru getdi. Yaxşı ki, pasportu yoxlayan kişi onunla rus dilində danışmadı. Onda Səid özünü əməlli-başlı ilişdirə bilərdi. Çünki, rus dilində yaxşı danışa bilmirdi. Düzdür, buraya gəlməmişdən onu İrəvanda lazımınca təlimatlandırmışdılar. Amma ilk dəfə belə vəziyyətə düşdüyü üçün həyəcanlanır, baxışlarını ətrafındakı adamlardan





gizlətməyə çalışırdı.

Qarşısındakı qapı avtomatik açıldı. Səid gözləmə zalına daxil olan kimi yüzə qədər adamın baxışları ona dikildi. Bunlar hamısı azərbaycanlı idilər. Onun millətinə mənsub olmaqla, onun ana dilində danışırdılar. Özünü tamam itirdi. Bir anlıq ona elə gəldi ki, bu adamlar onun kim olduğunu, Bakıya hansı məqsədlə gəldiyini bilirlər. Hətta, qorxdu ki, kimsə-on yeddi il əvvəlin tanışlarından biri bu adamların arasında olar və üz-gözünün xeyli dəyişməsinə, saçlarının vaxtsız ağarmasına baxmayaraq, onu tanıyar. Başını aşağı dikib sola döndü və cəld addımlarla zalın çıxışına tərəf yönəldi. Həyəcandan bədənini tər basmışdı.

O, on yeddi illik əzab-əziyyətli əsirlik həyatından sonra ilk dəfə doğma Vətəninə ayaq basdığı üçün həyəcanlanmırdı. Əksinə, qəribə də olsa, bu saat Ermənistanda olmağı daha çox arzulayırdı. Ona görə ki, oraya, heç olmasa, son vaxtlar bir az uyğunlaşmışdı. Qoca Sərkis onu öz himayəsinə alandan sonra daha dözülməz işgəncələr də vermirdilər ona. Burada isə hər addımda tutulmaq, ifşa edilmək qorxusu... Onu bir satqın kimi həbs etsəydilər yenidən nə təhqirlərə, nə də işgəncələrə dözməyə halı yox idi.

Ən əsası isə ona görə ki, anası orada idi. Maraqlıdır ki, özü əsirlikdə olanda anasının düşmən əlində əsir olması onu bu qədər incitmirdi. İndi özü Bakıda, anasından uzaqda olanda onun əsir olmasını xatırlamaq daha dəhşətli idi.

Binadan çıxan kimi soyuq hava onu vurdu. Üşüdüyünü hiss edib kürkün düymələrini bağladı. Bildi ki, bu saat yenə qara ciyərinin, böyrəyinin ağrıları bir-birinə qarışacaq. Artıq neçə illər idi ki, daxilində baş qaldıran xəstəliklər artıb onu içəridən yeyirdi. Bura gələndən bir ay əvvəl İrəvanda onun sağlamlığını yoxlayan həkim başını bulayıb demişdi:

–Bu nədir, ay zalım oğlu, sənin daxili orqanlarının içində sağlam olan bir dənəsi də yoxdur!...

Bir neçə addım atmışdı ki, taksi sürücüləri qarşısına yeridilər:

–Maşın lazımdır?

Başını bulayıb onların arasından keçdi. Kiminsə təklif etdiyi

maşına minməməli idi. Düzdür, onun Bakıya gəlişi çox ustalıqla və gizlin hazırlanmışdı. Bundan heç kəs xəbər tuta bilməzdi. Amma, ona verilən təlimata görə, hər bir addımını son dərəcə ehtiyatla atmalı idi. Şəhərdə fəaliyyət göstərən, yeni yaranmış gizli "ROSAR" təşkilatından da heç kəs qarşılamayacaqdı onu. Təşkilatın nümayəndəsi ilə sabah-fevralın 26-da görüşəcəkdi. "Xocalı soyqırımı" adlı abidənin yanında. Gündüz saat 10-da...

"AZ Samand" markalı avtomobilin yanında dayanmış taksi sürücüsünə yaxınlaşdı. Bu, qoca bir kişi idi.

–Şəhərə neçəyə aparacaqsan?

–Otuz manat verərsən. –sürücü dilləndi.

Bildi ki, bir az artıq deyir. Etiraz edib qiymət danışmalıydı. Bu barədə də dəqiq təlimat almışdı.Amma, buradan tez uzaqlaşmaq istəyirdi:

–Gedək, – dedi. – Ancaq, bu başdan deyim ki, məndəki rus puludur.

Sürücü onu maşına tərəf çəkdi:

–Gəl otur! Mənim rus pulundan başım çıxmaz. Yolüstü saxlayaram, dəyişib azərbaycan pulu verərsən.

Keçib sürücünün yanında əyləşdi. "AZ Samand" hava limanının həyətinə yığılmış saysız-hesabsız maşınların arasından çətinliklə çıxdı. Çıxışda qoyulmuş zolaqlı şlaqbaum düz qarşılarında enib yolu kəsdi. Səid cəld arxaya boylandı. Dalda bir neçə maşın sıraya düzülüb növbə gözləyirdi. Sürücü maşının şüşəsini endirib əlindəki qəbzi və bir manat pulu nəzarət köşkünün pəncərəsindən içəri ötürdü. Şlaqbaum qalxdı və maşın onun altından keçib yola düzəldi.

Səid maraqla ətrafa boylanırdı. Yəni, bura doğrudanmı Bakı idi? Bu saat bütün həmvətənlərinə qarşı ürəyində acıq, kin olsa da şəhərin belə inkişafı onu heyrətə gətirmişdi. Sonra birdən-birə üzünə kədər çökdü. Az qaldı ki, ürəyindən keçirdiyi fikri ucadan bu qoca sürücüyə desin. Desin ki, bəs on yeddi il əvvəl düşmənlər Xocalını yandırıb yerlə-yeksan edəndə, adamlarını güllələyəndə, kəsib-doğrayanda harada idiniz, ay bakılılar? Harada idiniz qırğından lap az əvvəl Bakıya haray dolu, nalə dolu teleqramlar gələndə: "Bizi qırırlar, kömək edin! Bizi qırırlar, kömək edin! Bizi qırırlar kömək edin!" Özünü güclə ələ alıb susdu.

Maşın geniş və hamar asfalt yolda qaynaşan maşınlara qarışmışdı. Səid çox narahat idi. Tezcə bir kirayə ev tutub dincəlmək, hər şeyi dərindən götür-qoy etmək istəyirdi. Allah bilir, qarşıda onu nələr gözləyirdi. Sabah onunla görüşə kim gələcəkdi? Ona nə kimi tapşırıqlar verəcəkdilər? Ümumiyyətlə, onu Bakıya nə üçün göndərmişdilər? Yəni, bu boyda şəhərdə satqın yox idimi, ondan təxribatçı düzəltsinlər? Bütün bunlar hamısı onu narahat edən suallar idi.

Düz on yeddi il üç ay bundan əvvəl Bakıdan çıxıb doğma şəhəri Xocalıya getmişdi. Universitetdən bir həftəlik icazə almışdı və bədbəxt bacısının nişanında iştirak edib geri qayıdacaqdı. Amma, qayıtmadı. Qayıda bilmədi. Əvvəlcə Xocalının yolları bağlandı, sonra da ki, o müsibət, o dəhşət baş verdi. Ermənilərə əsir düşən Səid təkcə Bakıya yox, Xocalıya da həsrət qaldı...

İndi sürətlə yaxınlaşdığı bu şəhərdə onun kimi var idi? Demək olar ki, heç kimi! Tələbəlik vaxtı ən yaxın dostluq etdiyi qrup yoldaşı Namiq Ağcabədi rayonundan idi. Yəqin ki, o vaxt məktəbi qurtarıb öz kəndinə qayıdıb. Daha kim? Bir də Fəxriyyə... O da Mingəçevirdən gəlmişdi. Bəs bakılılardan kim var idi? Yadına sala bilmirdi heç kəsi.

Fəxriyyə... Görəsən, indi o harada idi? Mingəçevirdə, ya elə bəlkə Bakıda? Əsir düşəndən sonra beş-altı il çox tez-tez xatırlamışdı onu. Amma, sonra yavaş-yavaş unutmuşdu. Yəni, əslində, sir-sifətini unutmuşdu. Amma adını xatırlayırdı həmişə. Uzaq bir xəyal kimi... Ən çox əsirlikdə olan anası haqqında düşünürdü. Atası və bacısı haqqında isə çalışırdı ki, heç düşünməsin. Dözə bilmirdi onları xatırlamağa.

Fəxriyyə onunla bir qrupda oxuyurdu. Elə birinci kursun əvvəllərindən bu qızdan xoşu gəlmişdi. Yenə üzünü tam canlandıra bilmədi gözləri qarşısında. Amma o yadında idi ki, solğun bənizli bir qız idi. Həyalı, işvəkar bir təbəssümü var idi.

Dərs zamanı gözü həmişə qızda olurdu. Yan tərəfdən oğrun-oğrun

üzünə tamaşa edirdi. Tənəffüsdə isə bir bəhanə ilə yaxınlaşıb söhbətə tuturdu. Amma ona olan sevgisi barədə bir kəlmə də deyə bilmirdi.

İndi Səid anasından başqa heç kəsi sevib-eləmirdi. Qadına olan sevginin nə olduğunu da çoxdan unutmuşdu. Sevənə də, sevilənə də, az qala, düşmən kimi baxırdı. Ona görə də Fəxriyyə ilə bağlı hadisələri çox quru və soyuq şəkildə xatırlayırdı. Bu zaman ürəyinin lap dərinliklərində nəsə bir şey yüngülcə sızıldayırdı, vəssalam!

Bir də fizika fakültəsində oxuyan İkram yaxşı yadında qalmışdı. Maraqlıdır ki, onun o vaxtkı görünüşünü elə indi də xatırlaya bildi. İkram Ermənistanın tabeliyində olan Qərbi Azərbaycan torpaqlarından idi. Valideynləri yenicə qaçqın düşmüşdülər. Atası Bakıda hansısa bir vəzifədə işləyirdi.

Sən demə, Fəxriyyədə İkramın da gözü var imiş. Bir gün gördü ki, oğlan onların dərs keçdiyi otağın qarşısında durub Fəxriyyəyə göz qoyur. Əvvəl buna o qədər də əhəmiyyət vermədi. Sonra bildi ki, bu oğlan dərsdən sonra qızın dalınca düşür. Səhəri gün Namiqlə dərsdən çıxıb evə gedən qızı izləməyə başladılar və gördülər ki, İkram yenə onun dalınca düşüb. Nisbətən xəlvət bir yerdə İkram qıza çatıb onu saxladı. Elə o saat da Səidlə Namiq onları haqladılar. Səid İkramın yaxasından tutub:

–Qızdan nə istəyirsən? – deyə soruşdu.

İkram ondan üç-dörd yaş böyük idi. Universitetə gec qəbul olunmuşdu.

Yaxasını onun əlindən qoparıb:

–Əlini çək görüm, sən kimsən mənim işimə qarışırsan? – dedi.

–Mən onun qrup yoldaşıyam. – Fəxriyyənin qaçıb getdiyini görən Səid başqa söz tapmadı.

–Rədd olun başımdan!

İkram bunu dedi və bu vaxt yerdən çıxıblarmış kimi iki cavan oğlan onlara yaxınlaşdı. Sən demə, bunlar İkramın yoldaşları imiş. İkram bu qarşıdurmanın olacağını nəzərə alıb yoldaşlarına gizlincə arxasınca gəlməyi tapşırıbmış. Səid onu itələyən İkramı vurdu və əlbəyaxa oldular. İkramla yoldaşları üstünlüyü ələ alıb Səidi də, Namiqi də döydülər.





Səhəri gün Səid, İkramın qəti xəbərdarlığına baxmayaraq, yenə dərsdə qıza yaxınlaşdı. Uşaqlıqdan tərsin biri idi və onu hər hansı fikrindən döndərmək heç də asan olmurdu.

Üz-gözündə dünənki davanın izi qalmışdı. Fəxriyyə bu izlərə işarə edib:

–Dünən, deyəsən, dalaşmısınız? – deyə soruşdu.

–Hə, bir az mübahisə etdik.

–Niyə?

–Necə niyə? Sənə görə!

Bu, elə münasibətin açılması demək idi. Qalırdı bircə qızın cavabı. O da cavabı çox ləngitmədi:

–Mənim ondan zəhləm gedir. – dedi. – Özündən razı eşşəyin biridir.

–O əvvəllər də sənə yaxınlaşmışdı? –Artıq qızla münasibətin yeni mərhələsinə qədəm qoymuş Səid soruşdu.

–Hə... Bir-iki gün əvvəl dəhlizdə yaxınlaşdı. Dedi, səninlə danışmaq istəyirəm, mən razılaşmadım.

–Bir də sənə yaxınlaşsa, onu öldürərəm!

–Elə şey eləmə! – qorxmuş qız dilləndi. – Mən onsuz da onunla söhbət etməyəcəm. Getsin, tayını tapsın!

Ondan sonra tez-tez görüşməyə başladılar. İkram da bir-iki dəfə Səidə hədə-qorxu gəlib, bunun heç bir nəticəsinin olmadığını gördü və daha Fəxriyyəni narahat etmədi...

–Hara gedəcəyik?

Sürücünün sualı onu diksindirdi. Artıq şəhərin içinə girmişdilər. Ağlına gələn ilk yeri dedi:

– "Elmlər Akademiyası" metrosu tərəfə!

Maşının pəncərəsindən diqqətlə ətrafı seyr etməyə başladı. Ona demişdilər ki, Bakıda hər beş-on addımdan bir evlərin alqı-satqısı və kirayəsi ilə məşğul olan ofislər var. Ona belə ofislərdən biri lazım idi.

Sürücü birdən maşını saxlayıb geriyə çevrildi və əliylə yaxındakı valyuta dəyişmə məntəqəsini göstərdi:

–Pulunu dəyişmək istəyirsənsə, dəyiş!

Maşından enib bir anlıq ətrafa boylandı. Gözünə şübhəli görünə

bilən heç nə yox idi. Səkidə tək-tək adamlar hərəkət edirdi. Məntəqəyə girdi. Kassanın qarşısında iki cavan qız dayanmışdı. Ona şübhəli bir nəzər salıb yenə kassaya tərəf döndülər. Əyninə olduqca qısa yubka və gödəkcə geyinmiş qız kassadan aldığı azərbaycan pullarını saymağa başladı.

Səid qıza yalnız ani bir nəzər yetirdi. Qızın çox gözəl cəzbedici bədən quruluşu var idi. Azəri türkü olduğu aydın bilinsə də rəfiqəsi ilə rus dilində danışırdı. Səid qızın gözəlliyinə yalnız nəzəri cəhətdən qiymət verdi. Düşündü ki, yəqin, heç bir kişi bu qıza biganə qala bilməz. Onun üçün isə bu qız gözəl bir qız heykəli, yaxud portreti idi, vəssalam. Elə kişilər vardı ki, bəlkə, heykələ, ya portretə də baxanda ehtiraslana bilərdilər. Amma Səid...

Bəlkə də buna görə dünyada anasından başqa bütün insanlara nifrət edirdi. Və eyni zamanda, bütün insanlara bəslədiyi nifrət qədər Tiqrana nifrət bəsləyirdi.

Artıq on ilə yaxın olardı ki, Tiqranın əsiri idi. Səkkiz nəfər azərbaycanlı əsirlə birlikdə onun Gümrüdəki donuz fermasında işləyirdi. Əsirlərin içində Xocalıdan olan da var idi, Laçından, Kəlbəcərdən olan da. Fermadan bir qədər kənarda olan sexdə isə əsir qadınlar Tiqran üçün xalça toxuyurdular. Səid bibisi qızı Qənirənin bu qadınların arasında olmasını bir az gec bildi. Sonra imkan tapdıqca görüşüb dərdləşməyə başladılar. Ondan beş yaş kiçik olan Qənirənin bütün ailəsini Tiqran öldürtdürmüşdü. Qızın özünün isə başına olmazın əzablar gətirəndən sonra yaxşı xalça toxuya bildiyini öyrənib həmin sexə gətirmişdi. Orada toxunan xalçalar erməni xalçası adıyla Avropa ölkələrinə satılırdı.

Qız hər dəfə Səidlə görüşəndə:

–Biz burada nə vaxta qədər qalacağıq, ay qardaş? –deyib göz yaşı tökürdü.

Bir gün Tiqran onları bir yerdə söhbət eləyən gördü və Qənirənin Səidin bibisi qızı olduğunu da onda öyrəndi. Keçən bu əsirlik illərində Səid bu qansız ermənininin türklərin çəkdiyi əzablardan nə qədər zövq aldığının şahidi olmuşdu. O, öz xəstə fantaziyasını işə salıb hər gün bir işgəncə növü düşünür və əsirlərin üzərində həyata



keçirirdi. Ancaq artıq neçə il idi ki, onun bu fantaziyası bir qədər tükənmişdi. Daha, onsuz da insanlığını itirmiş əsirlərlə belə oyunlar oynamırdı.

Amma onların bir-birlərini bacı-qardaş kimi istədiklərini biləndə, elə bil yenidən beynindəki qurdlar oynadı. Öz adamları vasitəsilə onları donuz fermasında əsirlər üçün ayrılmış otağa saldırıb məcbur soyundurdu. Sonra isə Səidə əmr etdi ki, bibisi qızı ilə cinsi əlaqəyə girsin. Qənirə də, Səid də əlləri ilə üzlərini tutub, hərəsi bir küncdə büzüşür, çılpaq bədənlərini gizlətməyə çalışırdılar. Tiqranın adamları Səidi sürüyüb qızın üstünə itələyir, Səid qışqırıb dala çəkilirdi.

Nəhayət, Tiqranın bu tamaşaya marağı tamam söndü. Çılpaq qızı Səidin gözləri qarşısında öz adamlarının ixtiyarına verdi. Səidin bu zaman çəkdiyi dəhşətli əzabı xeyli seyr edəndən sonra onu ölümcül vəziyyətə düşənəcən döydü.

Daha sonra Qənirəni götürüb apardılar və bədəninin ağrısından döşəmədə qıvrılan Səid elə bildi ki, bununla hər şey qurtardı.

Amma, sən demə, Tiqranı alacağı ləzzətdən məhrum etdiyi üçün onu daha ağır cəza gözləyirmiş. Səhəri gün Tiqranın göstərişi ilə Səidin üzərində vəhşicəsinə cərrahiyə əməliyyatı aparıldı və o, ömürlük olaraq kişilikdən məhrum oldu...

–Sənə nə lazımdı, ay dayı?

Bayaqkı qızlar çıxıb getmişdilər. Kassada oturan oğlan şübhəli nəzərlərini Səidə dikmişdi. Onun fikrincə bu adam, doğrudan da, çox şübhəli adam idi. Üst-başı təzə olsa da üz-gözündən kasıblıq və bədbəxtlik yağırdı.

Amma o, Səidin gözlərinin içinə yaxşı baxa bilməmişdi. Əgər yaxşı baxa bilsəydi, bu gözlərin dərinliyində necə dəhşətli bir kinin, nifrətin gizləndiyini görərdi.

Səid cəld əlini cibinə salıb əvvəlcədən ayrı qoyduğu iyirmi min rus rublunu çıxardı və onları saymadan kiçik pəncərədən oğlana uzatdı:

–Bunları azərbaycan puluna dəyiş!

Oğlan pulları alıb bir də şübhə ilə Səidə baxdı. Sonra isə əlindəki pulları dönə-dönə yoxlayıb saydı. Yalnız bundan sonra seyfdən

götürdüyü azərbaycan pullarından dörd yüz otuz manat ayırıb Səidə verdi.

Səid yenə pulları saymadı. Oğlana ağızucu təşəkkür edib məntəqədən çıxdı. Təlaş dolu nəzərləri ilə ətrafı seyr edib taksiyə əyləşdi. Maşın yola düşəndə yenə diqqətlə ətrafa göz qoyub ev kirayəsi ilə məşğul olan bir ofis axtarmağa başladı.

Nəhayət, bir az getmişdilər ki, axtardığını gördü və sürücüyə:

–Burada saxlayın ! – dedi.

Maşın "Ev alqı-satqısı və kirayəsi" məntəqəsinin düz qarşısında durdu.

–Ev almaq istəyirsən, bacıoğlu? – sürücü onu ilk dəfə görürmüş kimi diqqətlə süzüb soruşdu.

–Yox, yox! –Səid başını buladı.

–Deyirəm, yəni ev lazımdırsa, yaxşı ev tanıyıram. Aparıb göstərə bilərəm.

–Yox, heç nə lazım deyil!

Sürücünün haqqını ödəyib maşından endi. Səkiyə adlayıb birdən dayandı və səkidə ora-bura tələsən adamlara, küçəni dolduran sıx maşın selinə tamaşa etməyə başladı. Sonra birdən-birə nə düşündüsə, dişlərini qıcayıb astadan:

–Qırılasınız hamınız! – dedi və dönüb beşmərtəbəli binanın birinci mərtəbəsində yerləşmiş ofisə girdi.

## BEŞİNCİ FƏSİL

Bir otaqdan ibarət ofisdə kiçik stolun arxasında üzünü tük basmış orta yaşlı bir kişi oturmuşdu. Başında ağ rəngli təsək var idi. Səidi görüb əl-ayağa düşdü:

–Əssalam əleyküm, qardaş, xoş gəlmisən!

Sonra uzun bir təsbeh tutduğu sağ əlini yanındakı kresloya uzatdı:





–Buyur, əyləş!

Səid qeyri-iradi olaraq göstərilən yerdə əyləşdi. Amma kişinin dindar olması və üstəlik ona "qardaş" deyə müraciət etməsi içindəki nifrəti bir az da alovlandırmışdı. Belələrini görməyə gözü yox idi. Düşünürdü ki, yalançının, fırıldaqçının biridir. Xristianlara nifrət etdiyi qədər müsəlmanlara da nifrət edirdi. Xocalı qırğınının baş verdiyi gün və sonra əsirlik illərində elə müsibətlər görmüşdü ki, insan adlı məxluqa inamı yerli-dibli yoxa çıxmışdı. İlk vaxtlar yalnız Allaha tapınırdı. Düşünürdü ki, hər şey Allahın əlindədir, hər şeyə o nəzarət edir və deməli, insanların başına belə bir dəhşətli faciə gəlirsə, Allah özü onları cəzalandırır. Əlbəttə, hansısa günahlarına görə. İlk vaxtlar Allaha yalvarırdı ki, onun da, anasının da günahını bağışlasın...

Günah isə, onun fikrincə, doğrudan da, var idi...

O vaxt onun on beş yaşı olardı. Yazıq Ləyaqətin də on iki... Hə... Səid qonşudan bir pişik balası alıb saxlayırdı. Pişik artıq böyümüş, ona tamam öyrəşmişdi. Hara getsəydi dalınca düşürdü. O da çox istəyirdi bu pişik balasını. Elə anası da, bacısı da...

Yaz başı anası kürt düşmüş toyuğun altına yumurta yığmışdı və çoxlu da cücə çıxmışdı. Cücələri toyuqla birlikdə həyətə buraxırdılar ki, gəzib küllükdə-filanda eşələnsinlər. Anası bu cücələrin üstündə yaman əsirdi və uşaqlara da dönə-dönə tapşırırdı ki, gözdə-qulaqda olsunlar, qırğıdan-qızılquşdan gəlib cücələri aparmasın.

Bir gün cücələrdən biri yoxa çıxdı. Sonra daha biri... Beş-altı cücə əskiləndən sonra başa düşdülər ki, cücələri həyətdəki pişik balası tutub yeyir. Bunu öz gözləri ilə görən anası əllərini dizlərinə çırpıb qışqırdı:

– Ay bunun başı batsın, cücə qalmadı həyətdə!

Sonra üzünü Səidə tutdu:

– Ay Səid, apar öldür bu kafiri! Yoxsa cücələrin hamısını qıra-caq. Zülümlə saxlamışam onları.

Səid sonralar da bundan baş aça bilmədi ki, axı necə oldu, özü həmin pişik balasını bu qədər əzizlədiyi və bütün cücələrdən üstün tutduğu halda, anasının sözlərindən sonra dərhal onun ölüm

hökmünü verdi.

Yüyürüb pişiyi tutdu. Ayağına ip bağlayıb üstündə bayaqdan təndir üçün şax – şəvəl doğradığı kötüyün yanına çəkdi. Sol əli ilə ipdən tutub baltanı sağ əlinə aldı... Elə bil, pişik hər şeyi başa düşmüşdü. Balaca kötüyün yanına çatanda, qarnı üstə yerə çöküb Səidin ayaqlarına şırmanmağa başladı. Onun bu hərəkətini Səid çox - çox sonralar başa düşdü və başa düşəndən sonra, az qala tüstüsü təpəsindən çıxdı. Sən demə, pişik balası onda yalvarırmış Səidə... Yalvarırmış ki, bir səhvdir eləmişəm, məni öldürmə!

Amma Səid onda heç nə barəsində düşünə bilmirdi. Beynində bircə fikir var idi ki, o da anasının hökmünü yerinə yetirib pişiyi öldürmək idi. Bu pişik anasının böyütdüyü cücələri yemişdi və anası da bundan çox əsəbləşib dərdə düşmüşdü.

Artıq həmin vaxt anası yanında deyildi. Yoxsa, yəqin ki, qoymazdı heyvanı öldürməyə. Lap yəqin ki, qoymazdı! Hirslənib özündən çıxaraq bu hökmü vermişdi və tez də peşman olacaqdı.

Səid ipi elə dartdı ki, pişiyin başı kötüyün üstünə düşsün. Ancaq hər şeyi anlayan heyvancığaz başını kötükdən çəkib Səidin ayaqlarına sürtür, danışmağa dili olmasa da bütün hərəkətləri ilə yalvarıb aman diləyirdi. Səid ipi dartıb pişiyin başını kötüyün üstünə gətirən kimi sağ əlindəki baltanı gücü gəldikcə onun boynuna endirdi. Pişik yenə ani olaraq başını kötükdən çəkdi. Amma balta onun boynunu torpağın üstündə haqladı. Küt bir xırçıltı səsi gəldi. Pişiyin boynu yumşaq torpağın üstündə olduğu üçün balta onun boynunu yarımçıq kəsdi.

Pişik ayaqlarını tərpədib çabalayanda Səidin bədənini birdən-birə qorxunc bir titrəmə tutdu. Ona elə gəldi ki, bu saat nəsə olacaq... Aləm bir-birinə qarışacaq, hər yer od tutub yanacaq. Pişik balası əzab içində qovrulurdu. Ağzını açıb–yumurdu. Səid anasından eşitmişdi ki, pişiyi öldürəndə o, adama qarğış eləyir və bu qarğış onu öldürən adamı mütləq tutur. Uşaq da olsa, Səidə birdən elə gəldi ki, pişik balası Allahla danışır. Allaha yalvarıb Səidə bəla göndərməsini istəyir. Həm onun qarğışının qabağını almaq, həm də çəkdiyi əzaba son qoymaq üçün yaralı boynunu kötüyün üstünə çəkib baltanı bir də





endirdi. Pişiyin başı bədənindən ayrıldı və Səid baltanı yerə atıb bütün gücü ilə evə qaçdı...

O hadisənin üstündən iyirmi üç il keçmişdi. Amma həmin vaxt Səidin bədəninə daxil olmuş titrətmə bu gün də içindən çıxmamışdı.

Əsirlikdə ilk illər hər gün əlini Allaha açıb günahını bağışlamağı xahiş edirdi. Yalvarırdı ki, onu əsirlikdən xilas etsin, anasına qovuşdursun. Yalvarırdı ki, onun cəzasını verdiyi kimi, hər gün insanlıqdan uzaq vəhşiliklər törədən ermənilərin də cəzasını versin.

Amma...

Gündən-günə o qədər haqsızlıqlar, o qədər özbaşınalıqlar, o qədər vəhşiliklər gördü ki, nəhayət, Allaha yalvarmaqdan da bezdi. Allahdan üz döndərdi...

Böyük Nəsiminin, universitet illərində oxuyub yadda saxladığı, bir misrasını indi tez-tez təkrar edirdi:

–Dünya duracaq yer deyil, ey can, səfər eylə!...

Neçə dəfə istədi ki, bu dünyadan səfər eləsin, özünü öldürsün. Amma anasına görə qıya bilmədi özünə. Bilirdi ki, anası Ermənistanın, ya işğal olunmuş Azərbaycan torpaqlarının harasındasa əsirlikdədir. Onu tapmaq, ondan xəbər tutmaq ümidilə dözüb dururdu. Artıq özünü insanlığını itirmiş bir canlı hesab eləsə də anasına görə yaşamaq istəyirdi...

–Eşidirəm səni, qardaşım! – ev dəllalı əlindəki təsbehi oynada-oynada Səidin üzünə baxdı.

–Mənə kirayə ev lazımdır. – Səid quru səslə dilləndi.

–Mənim gözüm üstə! – kişi sağ əlini gözünün üstünə apardı. – Harada olsun?

–Elə bu ərazilərdə olsa yaxşıdır.

–Nə cür qiymət sərf eləyir sənə?

–Orta qiymətə olsun.

–Var! – qarşısındakı dəftəri vərəqlədi. – Həyət evi də var, doqquzmərtəbəli binada mənzil də.

–Həyət evi necədir? Harada yerləşir? – Səid soruşdu.

–Köhnə məhəllədədir. Həyətdə başqaları da yaşayır.

–Yox, eləsini istəmirəm! – Səid etiraz etdi. – Bina evi olsun.

–Bina evi də var. "Gənclik" metrosuna yaxındır. Beşinci mərtəbədə ikiotaqlı mənzildir. Təmirsiz. Aylıq üç yüz manata deyirlər.

Səid ev tutub rahatlanmağa tələsirdi. Odur ki, çox düşünmədən:

–Razıyam! – dedi.

Kişi əlində oynatdığı təsbehə baxdı:

–Bu başdan deyim ki, əlli manat da mənə verəcəksən.

–Yaxşı! Amma, mən tez köçmək istəyirəm. Elə bu saat.

Dəllal cib telefonu ilə kiməsə zəng vurub müştərinin evə baxmaq istədiyini bildirdi. Sonra isə ayağa qalxıb:

–Dur, gedək! – dedi.

Ofisdən çıxdılar.

–Maşınlasan? – dəllal soruşdu.

–Yox. – Səid başını buladı.

–Onda mənim maşınımla gedərik!

Bunu deyib müştərisini səkinin kənarında saxladığı göy rəngli "Opel" ə dəvət etdi.

On beş dəqiqə sonra onlar artıq kirayə verilən mənzildə idilər. Bura ikiotaqlı, divarlarının oboyları neçə yerdən qopub-tökülmüş, nəm qoxusu verən bir mənzil idi. Otaqlarda bir şkaf, iki sınıq-salxaq çarpayı, kirli yataq dəsti, iki köhnə kreslo, ucuz televizordan başqa heç nə yox idi.

Səid on yeddi il idi ki, insan rahatlığının nə olduğunu unutmuşdu. Uzun illər isə Tiqranın donuz fermasında yaşamışdı. Ora ilə müqayisədə bu mənzil şah sarayı kimi bir şey idi.

Ev sahibi onları mənzildə gözləyirdi. Beli tamam əyilmiş qoca bir kişi idi. Səidi şübhəli nəzərlərlə süzüb sorğu-suala başladı:

–Sən tək qalacaqsan?

–Hə...

–Pasportunu ver!

Səid pasportunu cibindən çıxarıb verdi. Qoca pasporta diqqətlə baxıb:

–Rusiyadan gəlmisən? – deyə soruşdu.

–Hə!





–Yaşamağa?

–Hə! –Səidin səbri tükəndi. – Ev alıb köçənə qədər burada qalacam. İki-üç ay...

Əslin hansı rayondandı?

–Cəbrayıldan. – Ağlına ilk gələn rayonun adını dedi. – Niyə soruşursunuz ki?

–Heç! – qoca başını buladı. – İki yer var ki, onlardan birindən olsaydın, qətiyyən razılaşmayacaqdım.

–Hansıdı o yerlər? – Səid maraqla soruşdu.

–Daha onu deməyə ehtiyac yoxdur. – ev sahibi qaşqabaqlı halda dilləndi. –Cəbrayıllılar yaxşı adam olurlar.

–Bəs mənzildə telefon, soyuducu yoxdur? – bu dəfə Səid sual verdi.

–Telefonu bir-iki həftəyə qoyduracam. – qoca inamla cavab verdi.-Soyuducunu da istəsən, özün alarsan. Amma evin bir aylıq pulunu indidən verməlisən.

–Nə qədər?

–Üç yüz manat!

Səid pullarını cibindən çıxarıb mənzilin bir aylıq pulunu ödədi. Yanında dayanıb əlinə baxan dəllala da əlli manat verdi.

–Xeyirli olsun! –dəllal pulu cibinə qoyub üzünü ev sahibinə tutdu. –Açarı verin Hikmət qardaşa.

Ev sahibi mənzilin açarını Səidə verdi:

–Xahiş edirəm, evi təmiz saxla. Buraya yad adamlar gətirmə. Cib telefonun var?

–Yox! Alacam...

–Hərdən gəlib sənə baş çəkəcəm. Bir çətinlik olsa, deyərsən.

–Bəs siz özünüz hansı rayondansınız? – Səid soruşdu.

–Nəyinə lazımdır? –Qoca kinayəli səslə dilləndi. –Mən də sənin kimi qaçqınam.

Səidə demişdilər ki, Bakıda belə işlərdə yazılı müqavilə bağlamaq hələ o qədər də yada düşmür. Doğrudan da, belə oldu. Ev sahibi işini bitmiş hesab edib onunla sağollaşdı və dəllalla birlikdə mənzildən çıxıb getdi.

Səid mənzilin qapısını içəridən bağlayıb qocanın dalınca söydü:

–İt oğlu it! Qoca kaftar! Camaatın evini-eşiyini əlindən aldılar, yandırıb-dağıtdılar, özlərini əsir elədilər, bu isə evin birində yaşayır, birini kirayə verir!

Otaqlardan birinə keçib özünü kresloya saldı. Arxaya söykənib gözlərini yumdu. Yaman yorulmuşdu. Kürəyində və qarın tərəflərində zəhlətökən ağrılar yenə baş qaldırmışdı. Ürəyində çox dərin bir boşluq hiss edirdi. Heç nə düşünmək istəmirdi. Heç sabahkı görüş barədə də! Cəhənnəm olsun hər şey! Nə deyəcəkdilər, eləyəcəkdi! "Öldür!" deyəcəkdilər, öldürəcəkdi, "Öl!" deyəcəkdilər, öləcəkdi. Onun üçün daha heç nəyin fərqi yox idi. Təki anasına əzab verməyəydilər...

Üç gün bundan əvvəl anası ilə olan görüşü xatırladı. Düz on altı ilə yaxın idi ki, görmürdü onu. Bir ildən çox Tiqranın əsirliyində qalandan sonra anasını harasa apardılar. Nə qədər çalışsa da onun taleyindən xəbər tuta bilmədi. Əsirliyinin onuncu ilində Tiqran Ermənistandan çıxıb harasa getdi və onlara başqa bir adam sahiblik etməyə başladı.

Bir neçə aydan sonra isə qoca Sərkisə rast gəldi. O Sərkisə ki, 1990-cı ilə qədər Bakıda yaşamışdı və Səid universitetin birinci kursunda oxuyanda bir il onun köhnə məhəllələrdən birindəki evində kirayədə qalmışdı. Sərkis onu həmin adamın əlindən xilas edib apardı və bir qədər sonra öyrənib Səidə bildirdi ki, anası əvvəllər batalyon komandiri olmuş Nerses adlı birinin evində qulluqçudur. Amma onları görüşdürə bilmədi Sərkis. Nə də Nersesin harada yaşadığını demədi Səidə.

Hə... Üç gün əvvəl Ermənistan kəşfiyyat orqanının əməkdaşları onu İrəvandan həmin Nersesin yaşadığı kəndə aparıb anası ilə görüşdürdülər. Doğmaca anasını az qala tanımayacaqdı Səid... O cür gözəl, xanım-xatın, Məşədi Yusifin igid qızı Sərinə nə hala düşmüşdü!...

Onları anasının yaşadığı balaca daxmada qoyub harasa getdilər. Bu daxma Nersesin həyətində, tövlənin yanında idi.

Ana-bala bir-birlərini duz kimi yaladılar. Səid nə qədər ağladı, nə





qədər göz yaşı tökdü anasının sinəsinə... Ancaq anası ağlamadı. Tək bir dəfə ləçəyinin ucu ilə yaşarmış gözlərini quruladı. Səidin vaxtsız ağarmış saçlarını sığallayıb:

–Ağlama! – dedi. – Niyə ağlayırsan? Sənin anan sağ-salamat gözünün qabağındadı. Qoy mən ağlayım ki, ermənilər qoca anamı diri-diri yandırıblar.

Anası Sərinə əslən Xocalıdan deyildi. Yaxın rayonların birində ən hörmətli kişilərdən olan Məşədi Yusifin qızı idi. Sərinənin gözəlliyi bütün ətraf kəndlərdə dillər əzbəri imiş. Neçə cavan oğlanı dərdə salıbmış onun məhəbbəti.

Sərinənin dayısı qızı, həm də yaxın rəfiqəsi olmuş Əzizə xala Səidə anasının qızlıq vaxtları haqqında çox şey danışmışdı. Sərinənin hər şeyi öz yerli-yerində olan əndamı, incə yerişi, nazlı-qəmzəli baxışı təkcə cavan oğlanları yox, qızları da, qocaları da valeh edirmiş.

Rəqs etməkdə də tayı-bərabəri yox imiş. Toylarda "İncəgülü" havasını elə oynayırmış ki, hamı özünü unudub ona diqqət kəsilirmiş. Bunu sonradan, öz yeniyetmə yaşlarında Səid də görmüşdü. Yaxın qohumların toyunda " İncəgülü" havası çalınan kimi hamı ətrafa boylanıb Sərinəni axtarırdı.

Qız vaxtı öz kəndlərində qoçaqlığı, cəsarəti ilə də ad çıxarıbmış. Yaz vaxtı ilk dəfə göy guruldayıb, yağış yağandan sonra kəndin qızları atların belinə qalxıb kənddən xeyli uzaqda olan yaylağa- "Qoşabulaqlar" deyilən yerə pencər, göy-göyərti, kəklikotu dərməyə gedirlərmiş. Dəstədə iyirmiyə qədər qız olarmış. Qızların əksəriyyəti yaylağa gedəndə atasının, ya qardaşının atını minərdi. Sərinənin isə özünün kəhər atı var imiş. Bu dəlisov at bütün kənddə "Sərinənin kəhər atı" adıyla tanınırmış. Əzizə xalanın deməyinə görə, ata Sərinədən başqa heç kəs yaxın düşə bilməzmiş.

Deyirdi, bir də gördün Sərinə atını çəkib yəhərlədi. Qalın kalqotkanın üstündən geydiyi uzun donunu külək qaldırmasın deyə, ətəklərini qıçlarının arasına salıb yəhərin üstünə sıçradı. Elə at çapırdı ki, oğlanların çoxu həsəd aparırdı onun at çapmağına.

Hələ yaxşı tüfəng atmağı da vardı. Qız vaxtı atasının, sonra da

ərinin tüfəngini əlinə alıb nişana atmağı xoşlayırmış.

Onun Səidin atası İqbal ilə evlənməsinin maraqlı bir tarixçəsi vardı və bunu kəndlərində hamı bilirdi. Bir dəfə yazbaşı kəndin bir qrup qızı və cavan oğlanı atlara minib yaylağa getmək üçün kənddən çıxırlar. Xocalıdan bu kəndə bibisigilə qonaq gəlmiş İqbal da öz atı ilə onların arasında olur. İlk baxışdan Sərinənin İqbaldan, İqbalın da Sərinədən xoşu gəlibmiş. Kənddən çıxanda, necə olursa, Sərinənin atından söhbət düşür və deyirlər ki, onun atını keçən at ola bilməz. Bu zaman İqbal qayıdır ki, mən yarışa girə bilərəm onunla. Onun belə danışmağı Sərinəyə toxunur və oğlanı dərhal yarışa çağırır. Şərt qoyur ki, kimin atı "Qoşa bulaqlar"a birinci çatsa, məğlub olan öz atını ona verəcək. İqbal da bu şərtlə razılaşır və atları bacardıqları qədər sürətlə çapmağa başlayırlar. Elə olur ki, deyilən bulağın başına birinci olaraq İqbalın atı çatır. Hamı gəlib toplaşandan sonra İqbal pərt olmuş qıza deyir ki, şərtimizə görə atı mənə verməlisən. Bir xeyli fikrə gedən Sərinə üzünü İqbala tutub elə cavanların yanındaca deyir:

–Mən atımı sənə verməyəcəm!

–Niyə? – oğlan mehribanlıqla soruşur.

Sərinə azacıq qızarsa da, ürəyinə gələn sözü saxlamır:

–Məni hələ heç kim heç nədə məğlub eləməmişdi. Birinci sən oldun. İstəyirəm, axırıncı da sən olasan. Əgər məni istəyirsənsə atama elçi göndər!

Özünü itirib sevincindən nə edəcəyini bilməyən İqbal, kənd cavanlarının qibtə dolu baxışları altında:

–Mütləq göndərəcəm! – deyir.

Onlar az sonra evlənirlər və Sərinə Xocalıya gəlin gəlir. Təzə gəlin az vaxtda bütün qohum-qonşunun sevimlisinə çevrilir. Onun həm gözəlliyi, həm də mərdliyi, cəsarəti burada da hamını valeh edir.

Doğrudan da çox qeyrətli, ağıllı gəlin idi Səidin anası. Bir dəfə söhbət nədən düşmüşdüsə, üzünü oğluna tutub:

–Yadında saxla, – dedi. – İnsan insanı ancaq iki şeyə görə öldürə bilər. Bir doğma torpağını, bir də namusunu qorumaq üçün.

Deyirdi ki, ər arvadın namusunu qoruduğu kimi, arvad da gərək





ərinin namusunu qorusun. Deyirdi ki, qadının alt paltarını ərindən başqa heç bir kişi görməməlidir. Qadının baş ləçəyi onun namusunun nişanəsidir. Ona heç bir naməhrəm kişinin əli toxunmamalıdır.

Bir dəfə Səid uşaq olanda anası xeyli paltar yuyub həyətdəki ipdən asmışdı. Axşam evə yığışanda paltarlar hələ qurumamışdı. Anası həyətə çıxıb ipdən asdığı paltarlar arasından təkcə öz ləçəyini götürdü. Səid bunun səbəbini soruşanda əvvəlcə dinmədi. Sonra isə onun başını sığallayıb dedi:

–Atanın dostu varsa, düşməni də var. Birdən gecə gəlib bunu oğurlayarlar, evimiz yıxılar.

Səid indi də anasını sevirdi. Ancaq, uşaq vaxtı lap dəlicəsinə bağlanmışdı ona. Saatlarla qucaqlayıb boynunu, boğazını qoxulayırdı. Onun dərisindən gələn xüsusi qoxuya elə öyrənmişdi ki, onsuz dayana bilmirdi. Anasının süni ətirlərlə ətirlənməyini istəmirdi. Deyirdi ki, sən ətirlənəndə öz iyini bilmirəm. Onu hamıya qısqanırdı. Lap öz atasına da!...

Səid beş yaşına çatandan bacısı ilə ayrı otaqda yatırdı. Bir dəfə, on, ya on iki yaşı olardı, gündüz vaxtı ata–anasının yataq otağına girdi. Gördü ki, anası çarpayıda uzanıb, yorğanı üstünə çəkib. Atası isə çarpayının üstündə oturub. Səid içəri girən kimi, atası ayağa qalxıb otaqdan çıxdı. Səid isə qaş-qabağını sallayıb bir küncdə oturdu. Anası, demə, başa düşübmüş hər şeyi. Amma, yenə də, Səiddən küsməyinin səbəbini soruşdu. Səid acıqlı halda:

–Siz burada nə edirdiniz? – deyə soruşdu.

Anası onu inandırmağa çalışdı ki, heç nə etmirdilər, sadəcə, söhbət edirdilər.

–Yox, yalan deyirsən! – Səid əl çəkmədi.

Anası gülə-gülə yataqdan qalxıb geyindi. Oğlunun yanına gəlib onun başını tumarladı:

–Ana qurban, sən özün görmədin ki, atanın paltarı əynində idi? Biz neyləyə bilərdik ki?

Bütün bu izahatlara baxmayaraq, Səid iki-üç gün anasıyla küsülü kimi davrandı...

Bayaqdan kresloda oturub fikrə getmiş Səid bu əhvalatı

xatırlayanda dodaqlarında cüzi təbəssüm göründü. Amma, gözləri də yaşarmışdı. Xatirələri beynindən qovub yan-yörəsinə boylandı. Otaq ona çox cansıxıcı göründü. Artıq Bakıya gəlib çıxdığını indi dərk etməyə başlayırdı. O, buraya niyə gəlmişdi?... Əli ilə alnını ovuşdurub vəziyyətini qiymətləndirməyə, real həyata qayıtmağa çalışdı.

Birdən-birə acıdığını hiss etdi. Ayağa qalxıb mətbəxə keçdi. Dördgözlü qaz plitəsini ehtiyatla yoxladı. Kiçik şkafda bir-iki köhnə qab-qacaq var idi. Yumurtadan-filandan bişirib yeyə bilərdi.

Mənzildən çıxıb pilləkənlərlə aşağı. Liftə girməyə, nədənsə, qorxdu. Binanın altında yerləşən mağazada satıcı televizora baxırdı. Hansısa kanalda xarici kino-serial verirdilər.

"Sabah Xocalı qırğınının ildönümüdür. Bunların heç nə vecinə deyil!..." –deyə düşünən Səid qaşqabaqlı halda satıcıya baxdı:

–On yumurta, bir çörək, duz...

Deyəsən, səsi çox yavaş çıxmışdı. Ona bir anlıq nəzər yetirən satıcı üzünü yenə də televizora tutdu.

–Ey, səninləyəm! – səbrsizlik göstərib səsini lap yuxarı qaldırdı.

–Nə istəyirsən? – satıcı oğlan üz-gözündən heç də xoş təsir bağışlamayan müştəriyə laqeydliklə baxdı.

–On yumurta, bir çörək, bir qutu duz ver!

Aldıqlarını götürüb pulunu ödədi və hirslə mağazadan çıxdı. Sonra birdən nə düşündüsə, geri qayıdıb bir şüşə də araq aldı.

Pilləkənləri sürətlə çıxdığına görə tövşüyürdü. Mənzilə girib cəld mətbəxə keçdi. Qaz plitəsini yandırıb tavanı onun üstünə qoydu. Bu zaman anladı ki, yağ almağı unudub. Təzədən bir də aşağı düşməyə heç həvəsi yox idi. Həm də aclıq ona yaman pis təsir edirdi. Mədəsinin ağrısı getdikcə şiddətlənirdi. İrəvandakı erməni həkimin deməyinə görə, mədəsində də, on iki barmaq bağırsağında da ağırlaşmış yara var idi.

Beş dənə yumurtanı sındırıb qızmış tavaya atdı. Bişirdiyi xörəyi elə tavadaca otağa apardı. Çörəyi əli ilə parçalayıb süfrəyə tökdü. Bir tikə çörəklə qayğanaqdan götürüb yedi. Sonra stəkana araq süzüb başına çəkdi.





Səid tələbəlik illərində içən deyildi. Tiqranın əsiri olduğu uzun illərdə isə kim idi ona araq verən? Yanında donuz kimi yeyib-için gəyirir, sərxoş olub vəhşi kimi mahnı oxuyurdular.

Bir dəfə donuz fermasından azacıq kənarda, ağacın kölgəsində kabab çəkmişdilər. Tiqran öz dostları ilə içib sərxoş olmuşdu. Kababı bişirən Səid isə acından ölürdü. İcazə vermirdilər ətdən bircə tikə ağzına qoysun...

Məclisin axırlarında Tiqran gördü ki, manqalın yanında dayanmış Səid udquna-udquna süfrədəki kabab tikələrinə baxır. Bir dənə tikə götürüb ayağa qalxdı və səntirləyə-səntirləyə onun yanına gəldi.

–Yemək istəyirsən? – deyə soruşdu.

Səid dinmədi. Ancaq boş mədəsi az qalırdı ki, acından nalə çəksin. Tiqran yoldaşlarına göz vurub yenə Səidə baxdı:

–Yemək istəyirsənsə, gözünü yum, ağzını aç!

Səid onun dediyini elədi.

–Bir az da geniş aç!

Tiqran azəri türkcəsində azərbaycanlılardan pis danışmırdı. Ancaq, səsində lap azacıq erməni ləhcəsi hiss olunurdu.

Səid ağzını bir az da geniş açdı və birdən... Sanki ağzından güllə ilə vurdular. Qışqıra bilmədiyi üçün boğuq bir səs çıxartdı. Böyümüş gözlərindən su tökülməyə başladı.

Tiqran da, dostları da qəhqəhə çəkib güldülər. Sən demə, Tiqran onun ağzına kabab tikəsinin əvəzinə maşa ilə manqaldan götürdüyü qızmar köz atıbmış. Dizini yerə atıb közü tüpürməyə çalışdı. Ancaq tüpürə bilmirdi. Ermənilərin qəhqəhəsi isə getdikcə artırdı. Dili şişib ağzına sığışmayan Səid ondan sonra bir həftə heç nə yeyə bilmədi...

Ancaq Sərkis onu öz yanına aparandan sonra bir az insan kimi gün görə bildi. Onun fikrincə, Sərkis kimi yaxşı adamlar çox az-az tapılardı. Səidi ac qoymurdu. Hərdən-birdən, görürdün, özünün çəkdiyi tut arağından da verirdi ona...

Araq şüşəsini axıradək boşaltmışdı. Ayağa qalxıb otaqda gəzməyə çalışdı. İçkinin təsirindən yerişini itirmişdi. Televizoru birtəhər işə salıb yenidən kresloda oturdu. Verilişdə sabahkı gündən-Xocalı soyqırımının on yeddinci il dönümündən söhbət gedirdi. Beyni nə

qədər dumanlı olsa da diqqətini toplayıb qulaq asmağa çalışdı. Amma yorğunluqdan və içdiyi arağın təsirindən gözləri yumulur, bədəni getdikcə sustalırdı.

Birdən mədəsi bulanmağa başladı. Əli ilə qarnını tutub üz–gözünü turşutdu. Elə bil, mədəsində nəsə qaynayırdı. Bunu unudub diqqətini televizora verməyə çalışdı. Amma alınmadı. Qusmaq da istəmirdi. Bilirdi ki, qussa uzun müddət özünə gələ bilməyəcək.Öd kisəsi daşacaq, mədəsindəki yaradan yenə qan açılacaq.

Özü qətiyyən istəməsə də, o murdar əhvalat yadına düşdü. Başqa bir məclisdə xeyli araq içib heyvan kimi sərxoş olmuş Tiqran yediklərini qusub süfrəyə tökmüşdü və bu qusuntunu, döyə-döyə, məcburən ac Səidə yedizdirirdi .

Daha qusmağını heç cür saxlaya bilmədi. Özünü güclə tualetə çatdırıb yediyinin-içdiyinin hamısını qaytardı...

Mədəsi bir qədər sakitləşsə də, indi başı ağrıyırdı. Geri qayıdıb kresloda oturdu. Televizorda hansısa şadlıq sarayının reklamı gedirdi. Gəlinlik paltarı geyinmiş bir qızı göstərdilər. O saat yadına Ləyaqət düşdü. Bacısı... Ürəyini acı bir kədər hissi bürüdü. Kreslodan dizi üstə aşağı çöküb əlləri ilə üzünü tutdu və ağlamağa başladı. Hıçqırıqlarının arasında onun bacısını haraylayan səsi eşidilirdi:

–Ləyaqət!... Ləyaqət!...

O səhnəni ki, keçən on yeddi il ərzində heç vaxt xatırlamaq istəməmişdi, o səhnəni ki, azacıq gözləri önünə gətirən kimi dünya başına fırlanırdı, indi həmin səhnəni olduğu kimi xatırlamışdı.

O səhnə bundan ibarət idi ki, on səkkiz illik həyatında nə Allahın, nə də bəndənin qarşısında heç bir günah sahibi olmayan, yazıq bacısı Ləyaqət zərif əllərini özünü qorumaq üçün qabağa verib:

–Ay ata, sənə qurban olum! – deyə çığırırdı...

Səidin göz yaşları damcı-damcı otağın döşəməsinə tökülürdü:

–Ləyaqət!... Yazıq bacım!... Körpə bacım!... Günahsız bacım!...

O vaxt Bakıdan bacısının nişanına getmişdi Xocalıya. Yaxşı yadında qalmamışdı, noyabr ayının əvvəli idi, ya axırı idi. Bir onu xatırlayırdı ki, Xocalıya gedəndən iki-üç gün sonra yollar bağlandı.





Xocalı şəhərinə hər yerdən giriş-çıxış kəsildi.

Bacısını elə Xocalıda yaşayan bir oğlana nişanladılar. Qəribədir ki, Səid indi nə qədər çalışsa da o oğlanın nə üzünü, nə də adını xatırlaya bilmirdi.

Xocalıda vəziyyət yaxşı olmadığı üçün nişan çox da təmtəraqlı keçmədi. Qohum-əqrəbadan beş-on adam yığışmışdı. Yedilər–içdilər, Ləyaqəti çağırıb barmağına üzük taxdılar.

Bacısı o biri otağa keçəndə Səid qalxıb onun arxasınca getdi. Ləyaqət onda necə də gözəl, necə də şirin və doğma görünürdü ona. Səidin Bakıdan onun üçün alıb gətirdiyi sadə, ucuz boyunbağı ilə sırğaları taxmışdı. Səidin pulu hardaydı ki, bacısı üçün bahalı hədiyyə alaydı. Atası onun ev kirayəsinin, yemək-içməyinin pulunu güclə ödəyirdi. Ləyaqətin utandığından yanaqları qızarmışdı. Bu qızartı əyninə geydiyi qırmızı kofta ilə həmahənglik yaradırdı. O gün həmin kofta Səidi əməlli-başlı kövrəltmişdi. Çünki, anasının köhnəsi idi həmin kofta. Təzə gəlinlik vaxtlarında geyinirmiş, sonradan əyninə olmadığı üçün çıxarıb kənara qoymuşdu. Ləyaqətə nə qədər yaraşsa da, Səid yaman pis oldu həmin koftaya baxanda. Düşündü ki, yazıq qızın nişanıdı, əyninə təzə bir paltar alıb geyindirə bilməyiblər.

Bacısını qucaqlayıb bağrına basdı.

– Çox mübarəkdir, xoşbəxt olasan! – dedi.

Bərk-bərk qardaşının sinəsinə sığınan bacısı da onun qulağına pıçıldadı:

– Sənin üçün olsun!...

Xocalıda vəziyyət günü-gündən pisləşirdi. Yollar bağlanmışdı.. Şəhərdə ərzaq, dava-dərman, silah-sursat, güllə tükənirdi. Ermənilər mühasirədə olan şəhəri açıq-aydın ələ keçirməyə çalışırdılar. Yeni il qara gəlirdi şəhər sakinləri üçün. Şəhərə tək-tək gələn vertolyotların da səsi eşidilmirdi daha. Xəbər çıxdı ki, şəhərin prokuroru respublikanın rəhbərliyinə fəryad dolu bir məktub yazaraq kömək istəyib. Hamı ümidlə yaşayırdı.

Hərdən qızğın atışmalar getsə də böyük bir qırğının ola biləcəyi çoxlarının ağlına gəlmirdi. Düşünürdülər ki, rəhbərlik onlara kömək əlini uzadacaq, yenə yollar açılacaq, yenə hər şey axarına düşəcək.

Düşünürdülər ki, ermənilər nə qədər qəddar düşmən olsa da, dinc əhalinin ucdantutma qırğınına fərman verməzlər.

Xocalıdakı özünümüdafiə batalyonu, prokurorluğun, milis idarəsinin işçiləri birləşib şəhəri düşməndən qorumağa çalışırdılar. Şəhərin igid oğlanları da əllərinə silah alıb onlara kömək edirdilər. Səid də, atası da onların arasında idi.

Səidi anası özü göndərmişdi döyüşə. Demişdi ki, onsuz da yollar bağlıdır, universitetə qayıda bilməyəcəksən. Get vuruşanların yanına, ölənlərdən birinin silahını götürüb vuruşarsan.

Hələ sonra özü də müdafiəçilərə qoşulmaq istəyirdi. Üzünü ərinə tutub:

–İqbal, – dedi – özün bilirsən ki, tüfəngi səndən pis atmıram. Qoy mən də gedim səninlə!

Atası yaman hirsləndi onda:

–Arvadsan, otur yerində! Kişilər hələ ölüb qurtarmayıblar!

Ancaq, vəziyyət getdikcə pisləşirdi. Vuruşan kişilərin sayı azalır, güllə qurtarırdı. Hələ üstəlik, şəhərdə un tükəndiyinə görə aclıq başlanırdı..

Mühasirədə olan şəhər yaralı adam kimi inildəyirdi. Dişləri qana batmış ermənilər içib doymaq üçün çoxlu-çoxlu türk qanı istəyirdilər. Rusların başdan ayağa silahlanmış motorlu alayı istənilən vaxt ermənilərə kömək üçün Xocalıya soxula bilərdi. Vəziyyət çox qorxulu idi.

Şəhər fəryad qoparıb əli çatan yerlərə xəbər göndərirdi:

–Biz qırılırıq, bizə kömək edin! Bizə kömək edin! Bizə kömək edin!...

Bu xəbərlər təkcə Azərbaycanın o vaxtkı rəhbərliyinə yox, dünyanın hər yerinə, dünyanı idarə edən böyük dövlətlərin başçılarına belə çatırdı. Ancaq, hamı susurdu... Müasir dünya dəhşətli insan qırğını görməmişdi və maraqla gözləyirdi. Gözləyirdi ki, görsün torpağın qara üzü günahsız insanların qırmızı əti ilə örtüləndə necə görünür?!...

Əllərini hər yerdən üzən Xocalı sakinləri əllərini göyə açıb Allahdan kömək diləyirdilər. Nəyə görəsə, nəyə görəsə, nəyə görəsə





Allah da susurdu...

Yerə uzanıb taxta döşəmənin üstündə qıvrılan Səid bu saat bütün dünyanın insanlarına nifrət edirdi. Bir əli ilə döşəməni yumruqlayıb sərxoş səslə:

–Hamınızı qırmaq lazımdır! Hamınızı! Hamınızı! – deyə zarıyırdı.

Həmin günü – 1992-ci ilin 26 fevral gününü xatırlayanda isə daha ağır söyüşlər söyüb çığırmağa başladı. Sonra səsi getdikcə zəiflədi. Bir azdan səsi kəsildi və daha sonra xorultusu televizorun səsinə qarışıb otağa yayılmağa başladı.

## ALTINCI FƏSİL

Həmin soyuq, qarlı-şaxtalı fevral gecəsində ailə üzvlərinin dördü də evdə idi. Səid atası və anası ilə stolun arxasında oturmuşdu. Ləyaqət, özünü yaxşı hiss etmədiyinə görə, bir az əvvəl yatağına girmişdi. Xocalıya verilən elektrik çoxdan kəsildiyi üçün neft lampası yandırırdılar. Stolun üstündəki lampanın nefti qurtarmaq üzrə idi. Ona görə də işıq getdikcə zəifləyirdi.

–İşıq sönəcək, daha duraq yataq... – Sərinə dedi.

–Hər gün, hava qaralmamış neftinə baxın lampanın!- bunu da İqbal dedi və həyətə çıxmaq üçün ayağa qalxdı.

Deyəsən, elə həmin vaxt həyətdə zəncirlənmiş it bərkdən hürməyə başladı. Onun dalınca isə uzaqdan gələn gurultu səsləri eşidildi. İqbal kürkünü geyinib, tüfəngini götürərək cəld həyətə çıxdı.

Səidlə anası otağın alaqaranlığında bir-birlərinin üzünə baxdılar:

–Allah xeyir eləsin! – anası titrək səslə dedi.

Susub dinləməyə başladılar. Gurultu səsləri getdikcə aydın eşidilirdi. İt isə dayanmadan hürürdü. Səid üşüdüyünü hiss edib küncdəki sobaya baxdı. Sobadakı odun çoxdan yanıb qurtarmışdı.

Birdən evin qapısı taybatay açıldı. İqballa birlikdə içəri şaxtalı, ilikləri üşüdən soyuq bir hava doldu. Kişinin səsi əməlli-başlı

titrəyirdi:

–Cəld olun, qızı da oyadın, çıxın! –dedi.- Ermənilər şəhərə giriblər. Deyəsən, o tərəfdə camaatı qırırlar.

–Hara gedəcəyik, ay İqbal?! – Sərinə bunu deyib əllərini dizinə çırpdı.

–Hara gəldi! – İqbal qışqırdı. - Başa düşmürsən?! Deyirəm, şəhərə giriblər! Bir azdan bura çatacaqlar!

Sonra özü qızın yatdığı otağa yüyürdü. Səid tələsik pencəyini geyinib papağını başına qoydu. Anası hey o tərəf-bu tərəfə vurnuxurdu. Ləyaqəti geyindirib otaqdan çıxan İqbal əsəbi səslə:

–Nə axtarırsan? – deyə soruşdu.

–Ləçəyimi! – Sərinə dedi və həmin anda stulun başına atdığı ləçəyi görüb götürdü. - Tapdım!

– Cəld olun, çıxın! - İqbal onları bir də tələsdirdi.

Ləçəyini başına bağlayan Sərinə otağın ortasında dayanıb ətrafına boylandı. İsti pal-paltarı, qızıl əşyaları, digər qiymətli şeyləri yataq otağında idi. Ancaq ona yaxınlaşan ərinin gözlərində elə bir vahimə gördü ki, yataq otağına doğru getməyə cəsarət etmədi.

Dördü də həyətə düşdü.Qar yağırdı.İtin səsi bütün həyəti başına götürmüşdü. Qonşu evlərdən çığırtı səsləri gəlirdi.

Darvazanı açıb küçəyə çıxanda it birdən-birə hürməyini kəsib yanıqlı bir səslə ulamağa başladı. Səid atasına:

–İt bağlı qaldı. – dedi.

–Cəld olun, vaxt yoxdur! – atası hirslə onun qolundan dartdı.

Qaranlıq küçədə aləm bir-birinə qarışmışdı. Adamlar baş götürüb hara gəldi qaçırdılar. Onlar da qaçanlara qoşuldular. İndi qarlı–şaxtalı havaya tüstü də qarışmışdı.Hətta alovlanıb yanan evlərin bəzisini görmək də olurdu.

Hansısa evin yanından keçəndə gördülər ki, bir kişi qoca bir qarını, az qala, küçə boyu sürüyür. Deyəsən, anası idi. O qarının qışqırığı indiyədək Səidin yadında qalmışdı:

–Nə istəyirsiniz məndən, gedirsiniz, gedin! Qoyun, mən öz xarabamda ölüm!

Şəhərdən çıxıb qarşıdakı meşəyə doğru qaçmağa başladılar. Bu





vaxt Ləyaqət birdən ağzı üstə yerə sərildi. Üçü də dayandı. İqbal qızını ayağa qaldıranda gördü ki, onun ayaqlarında corabdan başqa heç nə yoxdur. Corab da islanıb buz bağlamışdı.

–Bu nədir, sən ayaqqabılarını geyinməmisən? – dedi.

Ləyaqət hıçqırıb ağlamağa başladı.

–Anan ölsün, ay bala!– Sərinə də kövrəldi. –Al, mənim ayaqqabılarımı geyin!

–Dayan görüm! – İqbal arvadına acıqlandı.– Sən onun corablarını çıxart, götür!

Sonra qızın yaş corablarını çıxarmağa kömək elədi. Tüfəngi Səidə verib qızın qarşısında aşağı əyildi:

–Min belimə!

Ləyaqət ağlaya-ağlaya başını buladı.

– Nə deyirəm, onu elə! – atası hirsləndi. –Oyun çıxarmayın! Camaat gedib, təkcə biz qalmışıq!

Doğrudan da, daha yan-yörələrində başqa adam gözə dəymirdi. Qarşıda qaranlıq dağ, arxada isə od tutub yanan şəhər görünürdü. Onlara elə gəldi ki, güllələbaran səslərinin içində, artıq, ermənilərin də səsini eşidirlər.

Ləyaqət arxadan atasının boynunu qucaqlayıb belinə mindi. İqbal arvadıyla oğlunu tələsdirib yenə də qabağa düşdü. Dayanmağa, nəsə deməyə, danışmağa, qətiyyən, vaxt yox idi. Bütün qüvvələri ilə qaçıb onları izləyən ölümdən qurtarmağa çalışırdılar.

İqbal ən çox ondan qorxurdu ki, arvadı ilə qızı ermənilərin əlinə keçər. Artıq, neçə dəfə eşitmişdi, yaxşı bilirdi onlar əsir aldıqları türk qadınlarının başına nə oyunlar gətirirlər. Səid də elə həmin şeydən qorxurdu. Və hər ikisi bir də ondan qorxurdular ki, düşmənə əsir düşərlər. Ürəyinin başına dəyən bir güllə ilə ölməkdən asan nə var ki?!... Bir də var, səni gündə on dəfə öldürüb-dirildələr.

Sərinə də, Ləyaqət də onlar kimi düşünürdülər.Bir də onu düşünürdülər ki, birlikdə düşmən əlinə keçsələr, özlərinin qibləgahı kimi hesab etdikləri İqbal və canlarından çox sevdikləri Səid kişilər üçün həyatda ən ağır dağ olan namus dağını görə bilərlər.

Və eyni zamanda, hər biri ölümdən qorxurdu.... Ölmək

istəmirdilər. Yaşamaq istəyirdilər. Bu dünyada doğulub həyata göz açmışdılarsa, sona qədər yaşamaq hüquqları var idi və bu hüquqdan istifadə etmək istəyirdilər. Arxalarınca gələn kafir düşmən isə onları vaxtından qabaq, heç Əzrayılın xəbəri olmadan o biri dünyaya göndərmək istəyirdi.

Qaçırdılar!... Qaranlıqda nəyəsə ilişə-ilişə, büdrəyə-büdrəyə qaçırdılar. Daha qış gecəsinin soyuğunu, şaxtasını da bir o qədər hiss etmirdilər. Səslər də kəsilmişdi, elə bil, ya qulaqları tutulmuşdu?... Az qala sinələrindən çıxmaq istəyən ürəklərinin döyüntüsündən başqa heç nə eşitmirdilər.

Axır ki, gəlib meşəyə çatdılar. Qabaqda gedən İqbal nə eşitdisə qızını yavaş-yavaş kürəyindən yerə saldı. Çılpaq ayaqları qara toxunan Ləyaqət astadan ufuldadı. İqbal onlara səs salmadan arxasınca gəlməyi işarə edib Səiddən tüfəngi alaraq qabağa düşdü. Bir neçə addım atmışdı ki, ayağı nəsə yumşaq bir şeyə ilişdi. Əyilib baxanda bunun qonşuları Hüseynin meyidi olduğunu gördü. Bu zaman Səid başqa birinin meyidinə ilişdi. Dayanıb bir-birlərinə baxdılar. Meşənin ətəyi insan meyidləri ilə dolu idi...

– Burada pusqu qurublarmış! – İqbal dedi.

Onun səsindəki təlaş və həyəcan Səidə də keçdi:

– Hə!... Bəlkə də qabaqda gizləniblər.

Sərinə susurdu. Sakit dayanıb ərinin nə qərara gələcəyini gözləyirdi. Ləyaqət isə donmaq üzrə olan yalın ayaqlarının birini götürüb – o birini qoyur, səssizcə ağlayırdı. Elə bil ki, içində ağlayırdı, heç səsi çıxmırdı...

İqbal bir qədər hərlənib meyidlərdən birinin ayağından qaloşlarını çıxartdı. Bu, cavan bir qadın idi. Kim olduğunu tanıya bilmədi heç... Bu zaman sağ tərəfdən bir inilti səsi eşitdi. Yəqin ki, bayaq da həmin səsi eşitmişdi. Ehtiyatla yaxınlaşıb qarın içinə yıxılmış yaşlı qadının üzərinə əyildi. Qaranlıqda çətinliklə də olsa, tanıya bildi onu. Bir həftə əvvəl qəhrəmanlıqla şəhid olmuş bir oğlanın anası idi. Dəfndə görmüşdü onu. İndi də sayıqlayıb, yəqin ki, qızını, ya gəlinini çağırırdı:

–Səkinə!... Üstümü ört!... Hardasan?... Yorğanı çək üstümə!...





İqbal ondan aralanıb ailəsinin yanına gəldi. Əlindəki qaloşları qızına geyindirdi. Deyəsən, bir az böyük oldu qızın ayağına, amma yenə ayaqyalın olmaqdan yaxşı idi.

–İndi hara gedək? – Sərinə soruşdu.

Onun səsi titrəyib-eləmirdi. Ancaq, buz kimi soyuq idi. Elə bil gördüyü dəhşətdən qəlbi kimi, səsi də donmuşdu.

–Meşəyə girəcəyik! – Əri cavab verdi. – Geriyə qayıdası deyilik ki!? Meşəyə girib sabahın açılmağını gözləyəcəyik.

Uzaqdan şəhərin od tutub yandığını açıq-aydın görürdülər. Ehtiyatla, səs salmadan meşəyə girdilər. Yenə qabaqda İqbal gedirdi.

Beləcə xeyli getdilər. Yolları yavaş-yavaş yoxuşa dirənirdi. Bir azdan Ləyaqət tamam yorulub əldən düşdü. Daha yeriyə bilmirdi. Qolundan bərk-bərk yapışdığı anasına astadan:

–Ayaqlarım tutulub, daha gedə bilmirəm! – dedi.

–Can! Anan ölsün sənin! –Sərinə onu qucaqlayıb özünə sıxdı.

– Burada dayanıb gözləyək. – İqbal dedi. – Bəlkə səhərə kimi ağdamlılar köməyə gələr, geri qayıdarıq.

Kiçik bir talada dayandılar. Bura çox qaranlıq idi. Göz-gözü görmürdü. İqbal kürkünü çıxarıb yerə sərdi və qızına:

–Otur! – dedi. – Otur, anan ayaqlarını ovuşdursun.

Ləyaqət dizi üstə əyilib kürkün içinə yıxıldı. Anası yerə çöküb onun soyuqdan buz bağlamış ayaqlarını ovuşdurmağa başladı.

Bir müddət beləcə dayandılar. Səid soyuqdan əzab çəksə də səsini çıxarmırdı. Bilirdi ki, Ləyaqətin, anasının, elə atasının da vəziyyəti onunkundan yaxşı deyil. Hər biri əllərini, ayaqlarını tez-tez tərpədirdilər ki, soyuqdan donub ölməsinlər.

Səhərə yaxın hənirti eşidib ətrafa boylandılar. Hava hələ işıqlanmamışdı. Hər yer qaranlıq idi. Yenə seyrək qar yağırdı. İqbal tüfəngi əlində hazır tutub diqqətlə səs gələn tərəfə baxırdı. Birdən Səidə tərəf dönüb:

–Canavardı! – deyə pıçıldadı.

Az keçmiş bir neçə canavar onların lap yaxınlığına gəlib çıxdı. Onlardan biri qabağa yeriyib mırıldanmağa başladı. İqbal meşədə səs salmaqdan çəkinsə də tüfəngi canavara tuşlayıb tətiyi çəkdi. Amma,

güllə açılmadı. Cəld açıb baxdı və hirslə:

–Lənət şeytana! Bunda heç güllə yox imiş ki! –dedi.

Ləyaqət qorxudan anasına sıxılmışdı. Səid onlara lap yaxın dayandı ki, bir şey olsa onları qoruya bilsin. İqbal tüfəngin lüləsindən tutub dəyənək kimi qaldırdı və ona hücum emək istəyən canavarı vurdu:

–Ay kafir, rədd ol get!

Canavarlar çəkilib getdilər. Amma İqbal ayaq üstə dayanıb, hava tamam işıqlanana qədər tüfəngi əlindən buraxmadı.

Hava işıqlanmışdı. Anası əlini Ləyaqətin alnına qoyub ərinə baxdı:

– Yazıq uşaq qızdırıb!

İqbal kədərlə, aciz halda başını buladı:

– Burada neyləyə bilərik?

Ləyaqət daha ağlamırdı. Dayanıb sakit-sakit atasının, qardaşının üzünə baxırdı. Hiss olunurdu ki, onlara arxalanır, onları özünə güclü dayaq hesab edir.

Bu zaman yuxarıdan vertolyot səsi eşidildi. Səid sevincək göyə baxıb:

–Yəqin bizimkilərdir, köməyə gəliblər! – dedi.

İqbal da diqqətlə səs gələn tərəfə baxdı. Amma, dinmədi. Susuzluqdan yandığı üçün yerdən bir ovuc qar götürüb ağzına qoydu. Vertolyot meşənin üstündə dövrə vurub uzaqlaşdı.

Ondan sonra iki saata qədər ümid içində xilas olacaqlarını gözlədilər. Gözlədilər ki, kimlərsə gəlib erməniləri Xocalıdan çıxaracaq və onlar da geri dönəcəklər.

Birdən aşağı tərəfdən səslər gəlməyə başladı. Bu səslərdən heç nə ayırd edə bilməsə də İqbal ailəsinə gizlənməyi tapşırdı. Hərəsi bir kolun, ağacın arxasında gizləndi. Dəqiqələr çox ağır ötürdü...

Birdən kiminsə lap ucadan, azəri dilində çağıran səsini eşitdilər:

–Ey, kim var burada? Çıxın, sizə köməyə gəlmişik!

Əvvəlcə Səid sevincək olub gizləndiyi ağacın arxasından çıxdı. Onun ardınca anası ilə bacısı da içinə girdikləri qalın kolluqdan talaya çıxdılar. Elə həmin anda çağıran adam talada göründü. Bu,





üzünü tük basmış, ucaboy, əyninə başdan-ayağa ağ paltar geyinmiş silahlı gənc idi.

Səid bu adamı ilk dəfə onda gördü. Və bu adam sonradan onun həyatında elə bir iz qoydu ki, onu ölənədək unuda bilməyəcəkdi. Bu adam, o vaxt Xocalıya soxulan erməni dəstələrindən birinin komandiri Tiqran idi...

İqbal da gizləndiyi ağacın arxasından çıxıb ailəsinin durduğu yerə gəldi. Həmin anda Tiqranın avtomat silahlı adamları talanı dövrəyə aldılar. Onlar on nəfərdən çox idilər və hamısı da qarlı havada uzaqdan seçilməmək üçün ağ paltar geyinmişdi.

Tiqran ucadan qəhqəhə çəkib gülməyə başladı. Kənardan ailə üzvlərinin dördünü də diqqətlə süzüb nəzərlərini Ləyaqətin üzündə saxladı:

– Bu türk ceyranı meşəyə haradan gəlib çıxıb?

O, yenə azəricə danışırdı və xoşagəlməz baxışları başdan ayağa qızın üstündə gəzirdi. Hirsindən əli-ayağı əsən Səid dönüb atasına baxdı.

Neçə-neçə illər hər gecə yuxusuna girib onu dəli eləyən həmin qorxunc səhnəni də onda gördü. Qeyri-adi dərəcədə vahiməli bir sifət almış atası tüfəngin lüləsindən tutub yuxarı qaldıraraq Ləyaqətin üstünə yeridi. Qorxmuş qız əllərini dəhşətlə irəli uzadıb nalə çəkdi:

–Ay ata, sənə qurban olum!!

Tüfəngin qundağı bircə anda onun başına endi və başı parçalanmış qız qarın içinə yıxıldı...

Səid ilə anası gördükləri qəfil hadisənin sarsıntısından özlərinə gəlməmiş, İqbal arvadına hücum çəkdi. Amma, elə həmin anda bir neçə yerdən atəş açıldı. Bədəni güllələrdən deşik-deşik olmuş İqbal əlindəki tüfənglə birlikdə yerə sərildi.

Gördükləri səhnədən ermənilər də çaşıb qalmışdılar. Sərinə isə birdən irəli atılıb ərinin meyidini qucaqladı. Sonra qızının kənarda uzanıb qalmış meyidinə baxıb üzünü göyə tutdu:

–Allah, bu zülmü niyə götürürsən?

Qadın elə bir qiyyə çəkdi ki, səsi bütün meşəyə yayıldı. Tiqran irəli gəlib İqbalın cəsədinə bir təpik vurdu:

–Deməli, bu belə namuslu kişi imiş, hə? Namuslu kişi imiş?!

Əlini uzadıb dizi üstə yerə çökmüş Sərinənin başındakı ləçəkdən yapışdı. Sərinə bu an, elə bil, yaralı aslana döndü. Yerindən sıçrayıb iki əliylə ləçəyini qamarladı və onu sərt hərəkətlə dartıb Tiqranın əlindən aldı:

–Əlini dinc saxla, qəhbə qarnından çıxan!

Bu sözlərdən qəzəblənən Tiqran avtomatını yerə qoyub qadının üstünə yeridi. Həmin vaxt erməni əsgərlərindən biri anasını xilas etmək üçün irəli atılan Səidin kürəyinə avtomatın qundağı ilə zərbə endirdi. Səid dizləri üstə yerə çöküb, ağrıdan inildədi.

Tiqran isə onun gözləri qarşısında anası ilə əlbəyaxa olmuşdu. İki yoldaşının köməyi ilə Sərinəni qarın üstünə uzadıb onun paltarını dartışdırmağa başladı. Bu zaman Səid anasının mavi rəngli alt paltarını gördü. Bədəninin ərindən başqa hamı üçün yasaq olan bir hissəsini gördü. Gözlərini bərk-bərk yumdu və əsil kişi üçün namus dağının nə qədər ağır, nə qədər acı, nə qədər çirkin olduğunu ilk dəfə bütün dərinliyi ilə başa düşdü.

Həmin anda atasına qibtə elədi Səid. Çünki o, görmürdü bu səhnəni... Görməyəcəkdi... Səidin çəkdiyi əzabı çəkməyəcəkdi... Həmin anda, doğrudan da, ölmək istədi Səid! Ölmək istədi, amma ölə bilmədi...

Sərinənin hər qolundan bir erməni tutmuşdu. Onun üstünə uzanmış Tiqran isə qəzəbləndiyinə, ya nəyə görəsə qadına sahib ola bilmirdi. Bunu anladıqca yoldaşlarının yanında pərt olub, daha da qəzəblənir, qadını didişdirib yumruqlamaqdan başqa bir şey edə bilmirdi.

Bir neçə yoldaşının gülüş sədaları altında ayağa qalxıb şalvarını yuxarı çəkdi. Yerə qoyduğu avtomatını götürüb Ləyaqətin cəsədinə yaxınlaşdı. Erməni dilində qışqırıb yoldaşlarına nə dedisə iki əsgər qızın ayaqlarından yapışıb yuxarı qaldıraraq araladılar. Bir əli ilə tutduğu avtomatı irəli uzadıb güllələri qızın qıçlarının arasına boşaltdı. Bununla hirsi soyumadığı üçün yerdə qıvrılan Səidə yaxınlaşıb onu vəhşicəsinə döyməyə başladı.

Sonra isə ana-bala ikisini də qabaqlarına qatıb meşədən çıxardılar.





Nə Səid anasının, nə də anası onun üzünə baxa bilmirdi. Elə bil, nəsə, günah iş tutmuşdular. Sərinə ağlayıb özünü aciz göstərmək istəmirdi. Sevimli əri ilə ciyərparası qızının meyidi arxada-vəhşi heyvanların gəzib-dolaşdığı meşədə qalsa da geriyə baxmadan yeriyirdi. Bayaq başından açılan göy rəngli ləçəyini isə bərk-bərk əlində tutmuşdu...

## YEDDİNCİ FƏSİL

– Oldu, cənab general! Vəziyyətlə bağlı bütün məlumatları dəqiqləşdirən kimi sizə bildirəcəm.

Polkovnik Baratov telefonun dəstəyini yerinə qoyub saatına baxdı. Beşə bir neçə dəqiqə qalmışdı. Mayor Cavadovla kapitan Yusifov saat 5-də gördükləri işlər barədə məlumat vermək üçün yanına gəlməliydilər.

Cavadov düz vaxtında kabinetə daxil olub rəisinə salam verdi və keçib stolun arxasında əyləşdi. Baxmayaraq ki, bu gün keçirdiyi əməliyyat barədə Baratova telefonla ara–sıra məlumat vermişdi, polkovnik ondan tam məlumat tələb etdi.

– Cənab polkovnik, – adəti üzrə, quru və rəsmi dillə danışmağa başladı. – Bildiyiniz kimi, bizim əməkdaşlarımız Səid Namazovu hava limanından ciddi şəkildə izləməyə başlayıblar. O, Bakıya Rusiyada qeydiyyatda olan Hikmət Həsənovun adına yazılmış saxta pasportla gəlib. Hava limanında "AZ Samand" markalı taksiyə minərək onu şəhərə sürdürüb. Biz, hər ehtimala qarşı, sürücünü həbs etmədik. Nə də ümumiyyətlə, danışdırmadıq. O, təsadüfən, gizli təşkilatın adamı ola bilər...

Baratov başını razılıqla tərpətdi:

–Yaxşı eləmisiniz. Ancaq, üstündə nəzarət qoymusunuzmu?

–Bəli!

–Davam edin!

–Səid, əvvəlcə, maşından bir valyuta dəyişmə məntəqəsinin yanında düşüb. Məntəqəyə daxil olaraq iyirmi min rus rublunu azərbaycan manatına dəyişib. Sonra yenə maşına qayıdıb. Bir qədər sonra isə ev alqı-satqısı ilə məşğul olan ofisin qarşısında taksidən düşərək onu yola salıb.

–Harada? – Baratov müavinin sözünü kəsdi.

–Hüseyn Cavid prospektində... Bir neçə dəqiqə keçməmiş ofisin işçisi ilə oradan çıxıb həmin işçinin "Opel" markalı maşını ilə metronun "Gənclik" stansiyası ətrafında bir binaya gediblər. Səid həmin binada kirayə mənzil tutub. Mənzil beşinci mərtəbədədir. Buyurun, bu Səidin kirayələdiyi mənzilin ünvanı, bu isə onun fotoşəkli... Əməkdaşlarımız şübhə oyatmadan hava limanında onun fotosunu çəkiblər.

Cavadov bir vərəqi və Səidin fotosunu rəisin qarşısına qoydu. Baratov şəkli əlinə götürüb diqqətlə baxdı. Sonra isə stolun üstündəki qovluqdan Səidin universitetdə oxuyarkən çəkilmiş şəklini çıxardı. Onları bir-biri ilə tutuşdurub başını buladı:

–Heç kəs deyə bilməz ki, bunlar eyni adamdır. Gör bir, sir-sifəti nə hala düşüb.

–Üzdən də xain adama oxşayır. – Cavadov dedi.

Bu zaman kapitan Yusifov icazə alıb içəri girdi. Polkovnik ona əyləşmək üçün yer göstərib mənalı nəzərlə müavininə baxdı:

–Xain adamın üzü necə olur ki?

–Siz fikir verirsinizmi onun necə kinli siması var? –mayor cavab verdi.

Baratov kinayə ilə gülümsədi:

–On yeddi il erməni əsirliyində olan adamın siması necə olmalıdır, sizin fikrinizcə? Şən və gülərüz olmalıdır?

–Əsirlikdə olubsa da, ermənilərə satılıb.

–Yaxşı, Cavadov, – polkovnik ciddiləşdi. – Belə psixoloji söhbətlərə sonra vaxt taparıq. De görüm, sonra nə müşahidə etmisiniz?

–Ev sahibi ilə makler gedəndən yarım saat sonra Səid mənzildən





çıxaraq binanın birinci mərtəbəsində yerləşən mağazaya düşüb. Yumurta, çörək, duz və araq alaraq yenidən mənzilə qalxıb və o vaxtdan binadan çıxmayıb.

–Binanı nəzarət altına almısınız?

–Bəli. Leytenant Əsədovun başçılığı ilə bir qrup əməkdaşımız blokun qapısını, mənzilin balkonlarını nəzarət altında saxlayır. Blokun qarşısında dayanan maşınların birində, iyirmi dəqiqə bundan əvvəl, kamera quraşdırmışıq. Blokun qapısını elə buradan monitorda izləyəcəyik. Nəzarət bütün gecəni də səhərədək davam edəcək.

–Baxın, - Baratov barmağını silkələdi. – Onu, yaxud onun ətrafında dolaşa biləcək terrorçu qrup üzvlərini qətiyyən şübhələndirmək olmaz. Yeri gəlmişkən, bizimkilər onun kimlərsə tərəfindən izləndiyini müşahidə edibmi?

–Xeyr! Onu heç kəs qarşılamayıb və heç kəs də izləməyib.

–Maraqlıdır. – Polkovnik bir anlıq fikrə getdi. – Onun kirayələdiyi mənzildə telefon var?

Mayor Cavadov başını buladı:

–O mənzilin telefonu bir ilə yaxındır ki, bağlanıb. Çoxlu borcu olduğu üçün. Bunu dəqiq öyrənmişik. Üstəlik, hava limanındakı nəzarət cihazlarının göstərməsinə görə, Səidin nə cibində, nə də çantasında mobil telefon olmayıb.

–Hava limanından çıxandan sonra özünə telefon ala bilərdimi?

–Xeyr. Onun hər bir addımı bizim əməkdaşlarımızın nəzarəti altında olub.

– Çox maraqlıdır! – Baratov bir daha təkrar etdi. – Belə çıxır ki, gizli təşkilat, yaxud terrorçu qrup öz işini çox ehtiyatla tutur. Özünü heç cür aşkar etmək istəmir.

–Bəli! - Cavadov təsdiq etdi.

–Səid Namazov Bakıya saxta pasportla, başqa ad altında gəlib. Bu yüz faiz onu göstərir ki, onun, həqiqətən də, xain məqsədi var və Bakıda fəaliyyət göstərən hansısa qrupla, ya tək-tək adamlarla əlaqə saxlayacaq. Sən leytenant Əsədova bir daha tapşır, qoy son dərəcə diqqətli olsunlar.

–Oldu, cənab polkovnik!

Baratov müavini ilə qurtarıb üzünü kapitan Yusifova çevirdi:

–Sən nə öyrənə bildin, Elsevər?

Gənc kapitan dərhal məlumat verməyə başladı:

–Səidin Bakıda yaşayan heç bir qohumu yoxdur. Ümumiyyətlə onun yaxın qohumlarının hamısı Xocalıda baş verən qırğın zamanı həlak olub. Yalnız ailəsinin taleyi barədə məlumat yox idi. Xocalı soyqırımı baş verən zaman Səid universitetin üçüncü kursunda imiş. 1991-ci ildə, noyabr ayının əvvəlində dekanlığa ərizə yazaraq bacısının nişan mərasimində iştirak etmək üçün dərslərdən bir həftəlik icazə alıb. Hər halda, belə hökm etmək olar ki, qırğın zamanı o da Xocalıda imiş. Universitetdə oxuyarkən ən əsas dostluq etdiyi Ağcabədidən gəlmiş Namiq adında oğlan olub. Həmin Namiq indi Rusiyada ticarətlə məşğuldur. Bir də, qruplarından Fəxriyyə adlı bir qızla sevişirmiş...

–Sevişirmiş? – Baratov maraqla soruşdu.

–Bəli. Həmin qadın indi Bakıda yaşayır.

–Evlidir?

–Bəli. İki uşağı da var. Əri İkram da onunla eyni vaxtda universitetdə təhsil alıb. Amma, başqa fakultədə. İndi icra hakimiyyəti sistemində işləyir.

–Bəs qadın özü?

–Müəllimədir.

–Hə!... Deməli, belə!... – Baratov bir siqaret yandırıb fikrə getdi.

–Amma, cənab polkovnik, –Yusifov günahkar kimi dilləndi. – Səidin universitetdə oxuduğu vaxt hansı evdə yaşadığını hələ öyrənə bilməmişik. Bunun üçün gərək hal-hazırda Rusiyada olan Namiqlə əlaqə saxlayaq...

Polkovnik Baratov, deyəsən, daha ona qulaq asmırdı. Üzünü müavininə tutdu:

–Cavadov, qoy o müəllimə barədə məlumat toplasınlar. Səidi isə qətiyyən gözdən qaçırmayın!

Sonra kapitan Yusifova əmr etdi:

–Sənin xüsusi qrupun tam hazırlıq vəziyyətində olsun. Səid qaldığı evdən çıxarsa onun hər bir addımını izləməyi sənə tapşırıram.





Nəzərə alın ki, sabah Xocalı soyqırımının ildönümüdür. Şəhərin küçələrində bir qədər sıxlıq olacaq. Səidi izləyərkən bütün texniki vasitələrdən istifadə etmək üçün hazır olun! O, bu gün, ya sabah kiminləsə görüşəcək. Bu, başqa cür ola da bilməz! Aydındır?

–Bəli, cənab polkovnik!

Baratov telefonun dəstəyini əlinə götürdü.

–Gedə bilərsiniz! Mən nazirliyə məlumat verməliyəm.

Hər iki zabit ayağa qalxıb kabinetdən çıxdılar.

## SƏKKİZİNCİ FƏSİL

Həmin vaxt Ələmdarı polis bölməsinin müvəqqəti saxlama kamerasından çıxarıb müstəntiqin kabinetinə gətirdilər. Üzünü azacıq tük basmışdı. Qanıqara görünsə də özünü təmkinli aparmağa çalışırdı.

Gənc müstəntiq onu mehriban qarşılayıb oturmaq üçün yer göstərdi. Polis işçisinə kabinetdən çıxmağı əmr edib Ələmdara sınayıcı bir nəzər saldı. Sonra isə onun gözləmədiyi halda:

–Şamaxıdansan? – deyə soruşdu.

Ələmdar təsdiq əlaməti olaraq başını tərpətdi.

–Mən də Ağdaşdanam. Adım Elçindir. Elçin Səlimov.

–Tanışlığımıza şadam. – Ələmdar quru tərzdə dilləndi.

–Bu nə işdir, Ələmdar, – müstəntiq stolun üstündən qələmi götürüb oynatmağa başladı. – Mənə dedilər ki, belə işlər üstündə polisə düşməyin birinci dəfə deyil.

Ələmdarın dinmədiyini görüb davam etdi:

–Sataşmağa adam tapmadın? Gərək Əbilxana sataşaydın? Bilmirsən, o necə alçaq adamdır? Xırda bir şeyin üstündə aləmi qarışdıracaq bir-birinə. Əqidəsi, mənliyi olmayan kişi fahişə qadından da betərdi. Həkimdən arayış gətirib ki, oğlunun ağzını-burnunu dağıdıb ağır xəsarət

yetirmisən. Səni tutdurmamış əl çəkmək istəmir. Ancaq onu da deyim ki, hadisə vaxtı orada olan işçilərin də, şagirdlərin də sənin əleyhinə izahat vermək istəməyiblər. –Müstəntiq burada kinayə ilə gülümsədi. – Deyiblər ki, guya o gədə özü yıxılıb, ağzı-burnu əzilib.

Ələmdar başını bulayıb etiraz etdi:

–Elçin müəllim, o əclafı da, üstəlik atasını da mən vurmuşam. Sizə düzünü deyim ki, heç peşman da deyiləm. İmkanım olsaydı, ikisinin də başını kəsərdim. Torpaqları alınan, anası-bacısı düşmənin əlində əsir olan millətdə belə qeyrətsizləri görəndə dözə bilmirəm. Biz bu qeyrətlə hara gedib çıxacağıq?!

–Düzələcək, hamısı düzələcək bu dediklərin.

–Düzəltmək istəməsək, heç nə düzəlməyəcək! – Ələmdar əlini yellədi.

–Sənin heç bizim tariximizdən, ümumiyyətlə türk tarixindən xəbərin var?

Ələmdar deməyəcəkdi ki, Türkiyədə Ali hərbi məktəbin kəşfiyyat bölməsində təhsil alarkən ona bütün türk tarixini əzbərlədiblər!?... Ona görə də başqa cür cavab verdi:

–Elçin müəllim, mən savadsızın biriyəm. Orta məktəbi güc-bəla qurtarmışam. Amma onu bilirəm ki, bizim millətin kötüyündə qorxaqlıq, nakişilik olmayıb. Belələrinin zatını qurdalasan, görəcəksən ki, ulu nənəsi də olsa ermənidir...

–Görürsən? – müstəntiq onun sözünü kəsdi. – Deməli, az-çox xəbərin var. Biri əsgərliyə getmək istəmir, sən əsəbləşib özündən çıxırsan. Yadında saxla, dünya tarixi türklərin qəhrəmanlıq tarixi ilə doludur. Başqaları döyüşməyi türklərdən öyrənib. Təkcə kişilərimiz yox, qadınlarımız da at belində, əlində qılınc düşmən üstünə getməkdən qürur duyublar. Elə indinin özündə, Türkiyəyə bax! Orada doğulan gənclər dünyanın hansı ölkəsində yaşayırsa yaşasın, əsgərlik yaşı çatanda vətənlərinə qayıdıb öz borclarını verirlər. Bizimlə onların keçmişimizdə heç bir fərq yoxdur. Xarakterimizdə də, əqidəmizdə də.

Amma... Biz azərilərin bəxtinə son iki əsrdə çox bəlalar düşüb. Əvvəl Çar Rusiyasının, sonra isə sovetlərin müstəmləkəsi olmuşuq. Bunların ikisi də Türkün tarixini yaxşı bildiyi üçün çalışıb ki, tabeliyində olan türklər əsgər getməsin. Gedəndə də, əlinə avtomat, tüfəng götürüb vuruşmağı öyrənməsin, tikintidə işləyib ruslara xeyir versin, ya da mətbəxdə kartof soymaqla əsgərliyini başa vursun. Bilirdilər axı!? Bilirdilər ki, bu millətin balaları vuruşmağı öyrənsə, sabah öz azadlığını istəyəndə qabağında durmaq olmayacaq. İndi başa düşdün, əzizim? Başa düşdün ki, bizim bəzilərimizdə əsgərliyə olan münasibətin özəyi haradan başlayıb? Bir də ki, hamı sənin o Fəridin kimi deyil axı! Bizdə elə oğlanlar var ki, əlinə silah verib qabağa buraxsan, düşmənin ciyərini ağzından çıxarar!

Ələmdar əsəbi hərəkətlə əlini yelləyib heç bir cavab vermədi. Müstəntiq də bir qədər susub əsas mətləbə keçdi:

–Bizim rəis müavini Əbilxanın yerlisidir. Sənə qarşı hələ başqa bir iş qurmaq istəyirdilər, mən mane oldum. Rəisimiz də, lap düzünü soruşsan, Əbilxan kimilərə baş qoşub öz başını ağrıtmaq istəmir. İndiki zamanda elə yaltaq adamların dalında duranlar da tapılır. Hə, onu deyəcəkdim, Əbilxan indi sənin üçün başqa bir iş də açdırmaq istəyir. Yazılı məlumat verib ki, onunla eyni binada yaşayan Zamir Təhməzli öldürülən gecə səni blokun qarşısındakı ağacların arasında görüb.

–O kimdir? –Ələmdar təəccüblə soruşdu.

–Zamir Təhməzli tikinti firmasının sahibi idi. Üç gün əvvəl, gecə toydan evə qayıdanda blokun qarşısında güllə ilə vurublar. Ayın 22-də. Əbilxan məlumatında yazıb ki, hadisədən bir saat əvvəl, gecə saat təxminən 11-də balkona çıxanda səni blokun qarşısında görüb.

–Vay sənin atana lənət! – Ələmdar əlini hirslə stola vurdu. – Doğrudan da, kişinin pozğunu nə pis olurmuş!

–Yavaş! Özündən çıxma! – müstəntiq sakitcə dilləndi. – Mən onun necə tip olduğunu bildiyim üçün sənə inanıram. Amma, onu da deyim ki, işini prokurorluğa ötürəcəklər. Başın çox ağrıyacaq bu işdə. Sənə ürəyim yandığı üçün deyirəm. Sənin heç adamın-zadın yoxdur? Həm də Əbilxanın adı olan yerdə hər adam girişə bilməz bu işə. Böyük adam nəzərdə tuturam.

–Var, niyə yoxdur!? – Ələmdar kinayə ilə dedi.

–Kimdir?

–Anam! Ondan böyük adam tanımıram.

–Yaxşı, dolama görək. – müstəntiq ciddiləşdi. – Mən bacardığım qədər sənə kömək etməyə çalışaram. Ancaq, onu da deyim ki, mənlik iş yoxdur burada. Əbilxan sənin işini yamanca dolaşdırıb.

Ələmdar dərindən köksünü ötürdü. O, bu üç gün ərzində Baratovun onunla maraqlanmamasının səbəbini anlaya bilmirdi. Axı, ola bilməzdi ki, Tələt onun tutulması barədə Məxfi şöbəyə məlumat verməsin!?... Müstəntiqin üzünə baxıb:

–Canınız sağ olsun, Elçin müəllim! – dedi. – Lazım olar, gedib həbsxanada yataram. Onsuz da, eşitdiyimə görə, oradakılar məni çoxdan görmək istəyirlər.

Elçin Səlimov başını kədərlə yırğaladı:

–Neyləmək olar, Ələmdar? Heyif ki, aramızda belə əclaflar var. Adam onu görəndə lap ürəyi bulanır...

Bir qədər susub, qapıda gözləyən polisi çağırdı. Əli ilə Ələmdara işarə edib, yorğun halda:

–Qaytarın kameraya! – dedi.

## DOQQUZUNCU FƏSİL

O biri gün Səid səhər tezdən gözlərini açıb dəli kimi ətrafına baxdı. Yalnız bir neçə dəqiqə sonra harada olduğunu yadına sala bildi. Bədəninin hər yeri ağrıyıb sızıldayırdı. Axşam sərxoş halda sərildiyi döşəmədən nə zaman qalxıb yatağına girdiyindən xəbəri yox idi.

Gördüyü dəhşətli yuxunu xatırladı. İki erməni anasını Səidin gözləri qarşısında soyundurub, qaz sobasında istilənib qızarmış dəmir çubuğu onun çılpaq bədəninə yaxınlaşdırırdılar. Qolları bağlanmış Səid:

–Eləməyin! Eləməyin! – deyə çığırırdı.

Yaxşı ki, tez ayıldı. Yoxsa, elə yuxudaca ürəyi partlaya bilərdi. Anasını çox sevirdi. Hərdən düşünürdü ki, görəsən, bütün övladlar





analarını belə sevirlərmi? Amma, hər halda, onun üçün dünyada anasından əziz heç kim yox idi.

Uşaq vaxtı anası onun böyüyü, qibləgahı idi. Möhtac idi anasına. Anasının qayğısına, nəvazişinə... O cür sevirdi anasını. İndi isə,onun fikrincə, anası daha qocalmışdı. Qocalmışdısa, deməli, həm də uşaqlaşmışdı. İndi anası ona möhtac idi. Hələ evlənməsə də, atalıq duyğusunun nə olduğunu bilməsə də, ona elə gəlirdi ki, Sərinə onun anası yox, övladıdır. Bunu, xüsusilə, uzun ayrılıqdan sonra, bir həftə əvvəl anası ilə görüşdüyü gün başa düşdü. O gecə anasını anası kimi yox, aciz, xəstə övladı kimi bağrına basmışdı.

Bacısı isə... Bacısı daha yox idi həyatda. Onun, yəqin ki, həmin meşədə indi sümükləri də çürümək üzrə idi. Ancaq, atası onu, murdar xislətli düşmənlərin əlinə sağ keçməməsi üçün, öldürərkən dəli kimi qışqırıb dediyi sözlər indi də Səidin qulaqlarında idi:

–Ay ata, sənə qurban olum!

Həmin dəhşətli hadisənin üstündən keçən uzun illər ərzində Səid bəzən nifrət eləmişdi atasına. Gül qönçəsi kimi gözəl, mehriban, günahsız bacısını qəddarcasına öldürdüyü üçün. Amma, bəzən başa düşmüşdü atasını. Başa düşmüşdü və yazığı gəlmişdi ona. Ləyaqəti vurarkən atasının aldığı əcaib, dəhşətli sifəti də bacısının qışqırığı kimi unuda bilmirdi...

Yataqdan qalxıb cəld geyindi və saata baxdı. Səkkizə on beş dəqiqə qalırdı.Vanna otağında əl–üzünü yuyub mətbəxə keçdi. Çay qoymaq istədi. Amma mətbəxdə nə quru çay, nə də qənd yox idi. Mağazaya düşüb almağa da həvəsi gəlmədi. Bir tikə yavan çörək götürüb su ilə yeməyə başladı. Yadına tələbəlik illərində Bakının köhnə məhəllələrinin birində Namiqlə birlikdə kirayədə qaldığı daxma düşdü. Onda da, bəzən, ərzaqları qurtaranda yavan çörəklə keçinərdilər.

Onların qaldığı daxma Sərkisin həyətində yerləşirdi. Bu həyətdə Sərkisin evindən başqa bir neçə belə daxma var idi və bunlar hamısı tələbələrə kirayəyə verilmişdi. Sərkis öz ikimərtəbəli evində arvadı və iki qızı ilə yaşayırdı. İkimərtəbəli deyəndə ki, çox alçaq olan birinci mərtəbə zirzəmi kimi bir şey idi. Sərkis oraya ərzaqdan-

filandan yığırdı.

Böyük qızın adı Larisa, kiçiyinki Anuşa idi. Larisa indi Rusiyada yaşayırdı, Anuşa İrəvanda. O vaxt Anuşanın on beş – on altı yaşı olardı. Səidi həyətdə kirayədə qalan tələbələrin hamısından daha çox istəyən Sərkis hərdən deyərdi ki, Anuşanı sənə verəcəm. Amma Səid bu sözləri zarafat kimi qəbul edirdi. Çünki o vaxt artıq Fəxriyyəni sevirdi. Fəxriyyə... Görəsən o, indi haradadır? Mingəçevirdə, yoxsa Bakıda? Ya, bəlkə tamam ayrı bir yerdə? Görəsən ərə gedibmi?...

Hə... Sərkis erməni olsa da yaxşı adam idi. Tələbələrlə çox mehriban rəftar edirdi. Bir də ki, ümumiyyətlə, azəriləri çox istəyirdi. Deyirdi ki, azərilər ermənilərdən min dəfə yaxşı adamlardır. Deyirdi ki, sizinkilərin ürəyi çox təmiz olur...

1988–ci ildə ermənilər azəri türklərini Qərbi Azərbaycandan qovandan sonra, başqa Azərbaycan rayonlarında olduğu kimi, Bakıda yaşayan ermənilər də evlərini azərilərə satıb getdilər. Amma, bəziləri, o cümlədən Sərkis də hələ getməmişdi. Deyirdi, mənim azərilərə nə pisliyim keçib ki, məni qovsunlar.

Bir dəfə Xalq Cəbhəsinin bir qrup gənc üzvü soraqlaşıb Bakıda qalan erməniləri tapmağa başladılar. Tapdıqlarından tələb edirdilər ki, çıxıb öz vətənlərinə getsinlər. Bəzilərini, hətta, döyürdülər də. Çünki, o vaxt artıq Qarabağ uğrunda müharibə başlamışdı və azərilərin evlərinə çox tez–tez əsgər tabutları gəlirdi.

Bir gün bir dəstə gənc Sərkisin də həyətinə gəldi. Eşitmişdilər ki, burada erməni yaşayır. Sərkis ailə üzvləri ilə birlikdə qaçıb zirzəmiyə girmişdi. Səid onda gələnlərin qabağına çıxıb onları aldatdı. Dedi ki, burada erməni yaşayırdı, amma, artıq evini satıb gedib. Ona inanıb geri qayıtdılar.

Yaxşılq, doğrudan da, itməzmiş. Ermənistanda on il Tiqranın, daha bir neçə ay başqalarının zülmünü görəndən sonra Sərkisə rast gəldi. Sərkis onunla çox mehriban görüşdü və nə əziyyətlər bahasınasa onu alıb yaşadığı kəndə-öz evinə apardı.

O vaxtdan Sərkisin üzüm plantasiyasinda işləyirdi. Sərkis onu çox işlədib az yemək versə də, döyüb-incitmir, insan ləyaqətini alçaldan işgəncələr vermirdi. Hərdən oturub ordan-burdan söhbət də





eləyirdilər. Sərkis deyirdi ki, Bakı üçün burnunun ucu göynəyir. Deyirdi ki, orada daha yaxşı yaşayırdı. İki millət arasındakı bu müharibəni salanları da söyürdü həmişə.

Bir dəfə Səidlə söhbətində dedi ki, Xocalıda baş verənlərin günahı daha çox sizin rəhbərlərdə, bir də ruslarda idi. Dedi ki, Xocalının alınacağı barədə sizinkilərə xəbər verilmişdi. Ancaq nə sizə kömək eləmədilər, nə də oradan köçürmədilər. Belə-belə söhbətlər Səiddə öz millətinə qarşı olan nifrəti getdikcə daha çox alovlandırırdı...

Yavan çörəyi yeyib qurtarandan sonra yenə saata baxdı. Saat doqquzun yarısı idi. Deməli, tanımadığı adamla görüşə bir saat yarım vaxt qalırdı. Yaşadığı həmin bu mənzilin dəqiq ünvanını verməliydi həmin adama. Otağa keçib çantasından qələm və bloknot götürdü. Bloknotdan bir vərəq cırıb ona mənzilin ünvanını yazdı. Sonra vərəqi dörd yerə qatlayıb şalvarının cibinə qoydu. Mənzildən çıxıb qapını bağlayaraq pilləkənlə aşağı endi.

Blokun qarşısında ətrafa boylandı. Həyətdə gözünə şübhəli görünən heç kəs yox idi. Burulub binanın o biri tərəfinə keçdi. Səki ilə bir qədər addımlayıb ilk gördüyü kafeyə girdi. Kafe açıq olsa da, yeməyə hazır heç nə olmadığı üçün oranı tərk etməli oldu. Mağazaya girib bir qutu peçenye aldı.

Yaman həyəcanlanmağa başlamışdı. İlk görüşün necə keçəcəyindən narahat idi. Həm də düşünürdü ki, niyə axı görüşü o parkda nəzərdə tutublar? Daha sakit bir yerdə görüşmək olmazdımı?...

Küçəyə çıxıb taksi saxladı:

– Xocalı soyqırımı abidəsinin yanına neçəyə apararsan?

– O haradadır? – saçları kirpi tikanları kimi dik dayanmış orta yaşlı sürücü təəccüblə soruşdu.

– Daha heç yanda!

Səid bunu deyib qapını çırpdı. Amma sürücü əlini uzadıb yenidən qapını açdı və:

– Gəl otur, – dedi. – Soraqlaşıb taparıq.

– Lazım deyil! – Səid əlini hirslə yellədi.

Maşın yerindən tərpənib uzaqlaşdı. Səid başqa bir taksi saxladı. Qapını açıb başını içəri uzatdı:

– Xocalı soyqırımı abidəsini tanıyırsan?
– Xətai metrosunun yanındakı? – sürücü soruşdu və tez də əlavə etdi: – Tanıyıram. Əyləşin!
Səid daha heç qiymət danışmaq istəməyib maşına əyləşdi.
– Tədbirə gedirsiniz?
– Hə...– Səid bir anlıq susub dedi: – Səndən əvvəl saxladığım taksinin sürücüsü tanımadı oranı.
– Xamdı də! – sürücü lovğalıqla özünü çəkdi. – Bilmirəm, elələri nə adla taksi sürür!?
Səid daha dinmədi. Peçenye qutusundan bir peçenye götürüb yeməyə başladı. Yol boyu heyranlıqla ətrafına boylanırdısa da, tanış bir binaya, bir parka rast gəlmirdi. Bakı keçən bu on yeddi ildə çox dəyişmişdi...

## ONUNCU FƏSİL

İyirmi dəqiqə sonra kabinetində əyləşmiş polkovnik Baratovun telefonu zəng çaldı. Polkovnik telefonu götürdü:
– Eşidirəm, Yusifov!
– Cənab polkovnik! – kapitan məlumat verdi. – Səid evdən çıxıb taksi ilə birbaş Xocalı soyqırımı abidəsinin qoyulduğu parka gəldi. Maşından düşüb parka girdi. Burada keçiriləcək ildönüm tədbirinə görə artıq xeyli adam yığılıb. Üstəlik, dəstə-dəstə adamlar gəlməkdədir. Mənim qrupumun üzvləri Səidi izləyirlər.
Baratov:
– Əmrimi gözləyin! – deyib telefonu qapadı.
Ayağa qalxıb narahat halda gəzişməyə başladı. Prezident bir azdan oraya gəlməli idi. Bəlkə nəsə planlaşdırılıb?... Səidin orada olması barədə lazımi orqanları xəbərdar etsinmi? Amma, orada nəzarət onsuz da çox güclü olacaqdı və heç bir sui-qəsd törədilə





bilməzdi. Bəs başqa, hər hansı bir təxribat? Yox, bu da Baratovun ağlına batmırdı. Çünki Səid Bakıya dünən gəlmişdi və hələ heç kəslə görüşməmişdi. Bəlkə orada adamların sıx olacağını nəzərə alıb ilk görüşü oraya təyin ediblər? Ya bəlkə, sadəcə olaraq, hamı kimi Səid də ziyarət etmək istəyir abidəni?...
Kapitan Yusifova zəng vurdu:
– Kapitan, siz onun üst-başını yoxladınız?
– Bəli, cənab polkovnik, indicə uşaqlar aparatla yoxlayıb mənə məlumat verdilər. Onun üstündə heç bir silah, ya partlayıcı qurğu yoxdur.
– Son dərəcə ehtiyatlı olun! Onun heç bir addımı diqqətinizdən yayınmasın! Qrup üzvlərinin hamısını oraya topla! Qoy, adamlara qarışıb onu gözdən qoymasınlar.
– Oldu, cənab polkovnik! Səid bu saat abidəyə tərəf gedir. Adamlarım onu izləyir. Eynəyində mikrokamera olan əməkdaşımız da onların arasındadır. Səidin bütün hərəkətləri lentə alınır və mən maşındakı monitorda onu görürəm.
– Çox güman ki, Səid orada kiminləsə görüşəcək. Diqqətli olun!
– Kiminləsə görüşsə onları həbs edəkmi?
– Qətiyyən! Yalnız hər ikisini izləmək lazımdır!
– Oldu!
Kapitan Yusifov parkdan azacıq kənarda, Məxfi şöbəyə məxsus qara rəngli «RANGE ROVER» də oturmuşdu. Monitora nəzarəti sükanın arxasında əyləşmiş əməkdaşa tapşırıb maşından endi. Sürətli addımlarla yeriyib parka girdi. Bəzi yerlərdə sıxlaşmış adamların arasından keçmək mümkün deyildi. Ziyarətə gələnlər böyük parkda qarışqa sürüsü kimi qaynaşırdılar. Yusifov bu anda Səidi görmürdü. Onun getdiyi istiqamətdə getdi və adamlarından birinin başı ilə göstərdiyi səmtə baxıb onu gördü. Səid bir qrup adamın yanında idi və deyəsən, əynində boz rəngli palto olan kişi ilə danışırdı. Orta yaşlı bu kişi görkəmindən ziyalı təbəqənin adamına oxşayırdı.
Yusifov əlindəki kiçik ratsiya cihazının müvafiq düyməsini basdı. Onun parkda, Səidin ətrafında gəzişən adamlarının hamısının qulağında diqqəti cəlb etməyən mikrosəsötürücülər var idi. O,

iyməni basan kimi bu mikrocihazların hamısı ilə eyni zamanda aqə yarandı. Kapitan bu saat Səidə ən yaxın dayanmış adamına əstəriş verdi:

– "Üçüncü", onlara bir az da yaxınlaş! Obyektlə söhbət edən o şini izləməyi sənə tapşırıram!

Səid birdən-birə həmin kişidən aralandı və bir yerə sıxlaşmış ışqa qrupa yaxınlaşdı. Bu gün bu parkda keçiriləcək matəm dbirində iştirak etmək və soyqırım qurbanlarının xatirəsinə caldılmış abidəni ziyarət etmək üçün tək-tək gəlmiş adamlardan rup halında gələnlər daha çox idi. Belə qruplar, əsasən, təhsil və bb işçilərindən ibarət idi ki, onlar da Bakının müxtəlif rayonlarını əmsil etdikləri üçün ayri-ayrı yerlərdə toplaşmışdılar.

Səid indi bir qadınla danışırdı. Yusifov cihazı işə saldı:

– "Altıncı", o qadını gözdən qoyma! Axıradək izlə!

Səid həmin qrupdan da aralandı və adamların daha çox dayandığı issəyə keçdi. Bundan narahat olan Yusifov ratsiya ilə yeni əmrini öndərdi:

–«Birinci», «İkinci», «Səkkizinci», onun ətrafını tərk etməyin! Diqqəti artırın!

Adamlar getdikcə çoxalıb sıxlaşdığı üçün kimisə güdmək ətinləşirdi. Bir-birini itirən, yaxud mənsub olduğu müəssisənin şçilərini axtaran adamlar ora-bura boylanır, bir-birlərinə mobil telefonlarla zəng vururdular. Adamların lap sıx olan yerində kimsə əlində üç qərənfil gülü tutmuşdu. Onu başı üstündə yuxarı qaldırıb yelləyirdi. Bir başqası papağını, digəri isə sadəcə əlini yuxarı qaldırmışdı.

Adamlar birdən-birə eyni bir tərəfə sıxlaşmağa başladılar. Hamı abidəyə tərəf boylanırdı. Deyəsən, prezident gəlmişdi.

Yusifov narahat oldu. Adamları itələyə-itələyə özünə yol açıb Səidin durduğu yerə yaxınlaşdı. Səid də, başqaları kimi, ayaqlarının ucunda dikəlib respublika prezidenti İlham Əliyevi görməyə çalışırdı. Yusifov Səidə lap yaxınlaşdı. Onun çiyni indi Səidin kürəyinə toxunurdu. Kapitan əyninə sadə dəri gödəkçə və yun köynək geyinmişdi. Bu geyimdə başqalarından heç də seçilmirdi.





Əgər Səid burada hər hansı təxribat törətməyə cəhd edərdisə Yusifov onu dərhal zərərsizləşdirə bilərdi. Yox, əgər Səidin belə bir fikri yox idisə onu qətiyyən şübhələndirmək olmazdı. Baratovun əmri belə idi.

Prezident Xocalı soyqırımına həsr etdiyi çıxışını bitirdi. Abidənin önünə al-əlvan çiçəklərdən düzəlmiş əklillər düzüldü. Prezident soyqırım zamanı həlak olmuş insanların ruhu qarşısında baş əyib yaxın ətrafı ilə birlikdə parkın kənarında dayanmış maşınlara tərəf getdi.

Adamlar yavaş-yavaş dağılışmağa başladılar. Səid də insan selinə qoşulub məqsədsiz halda parkın o biri başına doğru gedirdi. Yusifov əmr etdi:

–«Dördüncü», «yeddinci», onu maşına minənə qədər yaxından izləyin! Digərləri ona yaxınlaşmasın!

Sonra isə yaxında dayanmış «BMW» markalı maşına əmr göndərdi:

–«On birinci», hərəkətə başlayın!

Digər adamları isə Səidin danışdığı və ya şübhəli şəkildə yaxınlaşdığı şəxsləri izləməklə məşğul idilər.

Yusifov adamların arasından birtəhər keçib «RANGE ROVER»ə əyləşdi və sürücüyə:

–Bizim maşını izlə! – dedi.

Təxminən bir saat sonra kapitan Yusifov artıq məxfi şöbədə, Baratovun kabinetində idi və öz rəisinə məlumat verirdi:

–Cənab polkovnik, Səid parkda iki nəfərlə danışdı, üç nəfərə isə bir qədər şübhəli tərzdə yaxınlaşdı. Biz həmin adamları dərhal nəzarət altına aldıq. Yoxlamamızdan məlum oldu ki, həmin adamlardan biri tədbirə məktəbin kollektivi ilə gəlmiş direktor, üçü müəllim, biri isə həkimdir. Bu adamlardan şübhələnməyə, mənim fikrimcə, heç bir əsas yoxdur. Səid adamların daha sıx toplaşdığı yerə girəndə biz dərhal ona yaxınlaşmışıq. Onun orada kiminləsə əlaqəyə girməsi diqqətimizi cəlb etməyib. Adamlar dağılışanda Səid də onlara qoşulub parkdan çıxdı. Bir qədər gedəndən sonra taksi saxlayıb evə sürdürdü. Binanın birinci mərtəbəsindəki mağazaya girib, yemək üçün ərzaq aldı və sonra bloka daxil oldu. Adi geyimdə onun ardınca düşən əməkdaşımız Lalə Hüseynova onun qapını açarla

açıb mənzilə girdiyinin şahidi olub.

–Nəzarəti necə davam etdirirsiniz? – polkovnik Baratov soruşdu.

–Hazırda blokun qapısı gizli kamera ilə nəzarətdədir. Leytenant Əsədov və daha iki nəfər növbə ilə elə burada monitorun qarşısında əyləşərək blokun qapısından girib-çıxanlara diqqət yetirirlər. Həmin evlə üzbəüz qonşu binada leytenant İlyasov üçün kirayə mənzil tutmuşuq. Küçədə isə maşınla növbə çəkənlərimiz dayanıb. Səid binadan çıxan kimi Əsədov həm İlyasova, həm də maşındakılara bu barədə xəbər verəcək.

Məlumatı axıradək dinləyən şöbə rəisi əli ilə saçlarını sığallayıb fikirli halda dilləndi:

–Bunlar hamısı çox yaxşı, Yusifov, amma, deməli bu günki əməliyyatdan belə nəticəyə gəldiniz ki, Səid həmin parka yalnız tədbirdə iştirak etmək və abidəyə baxmaq üçün gedibmiş?

Kapitan bir qədər gec dilləndi:

–İnanın, cənab polkovnik, biz onun hər addımını bacardığımız qədər diqqətlə izlədik.

–Buna inanıram. – polkovnik dedi. – Amma, nədənsə , ona da əminəm ki, Səid parkda kiminləsə əlaqəyə girib və ondan təlimat alıb. Yəqin ki, yazılı formada.

Yusifov deməyə söz tapmayıb susdu. Baratov isə bir qədər ara verəndən sonra sözünə davam etdi:

–Əgər o, artıq təlimat alıbsa, deməli, hansısa bir təxribat törətmək üçün evdən çıxacaq. Mənə qulaq as, Yusifov, onun ciddi nəzarətdə saxlanmasına sən cavabdehsən! Əgər onu gözdən itirsən, birincisi, edəcəyi təxribatın qarşısını ala bilməyəcəyik, ikincisi isə şəhərdəki gizli təşkilatı ələ keçirə bilməyəcəyik. Aydındırmı?

–Aydındır, cənab polkovnik!

–Onda sizə uğurlar! Gedə bilərsiz!

Kapitan Yusifov rəisin kabinetindən çıxıb dəhlizlə getdi və otaqlardan birinə daxil oldu. Burada əməkdaşlardan biri əlini çənəsinə söykəyib qarşısındakı monitorun ekranına baxırdı. Ekranda Səidin yaşadığı blokun girişi aydınca görünürdü.





## ON BİRİNCİ FƏSİL

Gecə saat 11-də Məxfi şöbənin əsas rəhbər heyəti rəisin kabinetinə yığışmışdı. Hamının qanı qara idi. Baratovun isə üz–gözündən sanki zəhrimar tökülürdü. Bir az əvvəl kapitan Yusifov onun evinə zəng vurub çox xoşagəlməz bir xəbər vermişdi. Bu xəbərdən sarsılan Məxfi şöbə rəisi dərhal iş yerinə gəlib operativ müşavirə çağırmışdı.

Müşavirə başlayan kimi kapitan Yusifov ayağa qalxıb bir daha rəsmi qaydada məlumat verdi:

–Bir saat əvvəl blokun qapısına nəzarət edən kameranın yaddaşındakı görüntüləri izlədim. Əvvəlcə, bir şübhəli məqam diqqətimi cəlb etdi. Axşamüstü, saat 15.40-da on üç-on dörd yaşlarında bir oğlan əlində tutduğu iri torba ilə bloka daxil oldu. O, qapıdan girməzdən öncə başını qaldırıb blokun nömrəsinə baxdı. Bu, mənim şübhəmə səbəb oldu və düşündüm ki, bu uşaq həmin blokda yaşayana bənzəmir. Beş dəqiqə sonra o, əliboş halda blokdan çıxıb getdi. –Kapitan bir anlıq susub rəisinə baxdı. Lakin onun danışmaq fikrində olmadığını görüb sözünə davam etdi. – Mən görüntüləri axıradək izləməyə başladım. Daha bir şübhəli kadra rast gələndə ona diqqət yetirdim. Polis leytenantı formasında olan bir nəfər blokdan çıxırdı. Bu, saat 20.10–da olubmuş. Həmin adamın əlindəki çanta Səidin Bakıya gələndə əlində tutduğu çantanın eyni idi. Adamın sifəti isə aydın görünmürdü. Kadrı geri qaytarıb onun üzünü ekrana yaxınlaşdıranda həmin adamın Səid olduğunu gördüm... Sonrakı müşahidəm isə göstərdi ki, o, hələ də geri qayıtmayıb...

–Bəs sənin adamların niyə görməyiblər onu? –Baratov kapitanın sözünü kobud şəkildə kəsdi. – Hansı cəhənnəmdə olublar?!

Yusifov pərt oldu:

–Mən leytenant Ağayevdən nə üçün vaxtında lazımi siqnal vermədiyini soruşanda, bu adamı həmin binada yaşayan sakinlərdən biri zənn etdiyini və qətiyyən şübhələnmədiyini dedi.

–Siz indi əminsiniz ki, mənzildə heç kəs yoxdur? – rəis acıqlı səslə soruşdu.

–Bəli... Səid geri qayıtmayıb. Həm də adamlarımız küçənin o biri tərəfindəki doqquz mərtəbəli evdən mənzili binoklla müşahidə etdilər. Məlumat verdilər ki, mənzildə işıq yanır, amma içəridə heç bir adam gözə dəymir.

Baratov dönüb müavininə baxdı. Cavadovun üzü, sanki, daşa dönmüşdü. Üzünü yenidən Yusifova tutdu:

–Mən sənə arxayın oldum, kapitan!

–Günahkaram, cənab polkovnik! –Yusifov başını aşağı dikdi. – Gərək onları ciddi təlimatlandıraydım, ya da özüm oturaydım monitorun qarşısında.

–Bəs uşaq binaya girən vaxt kim olub növbədə?

–Məmmədov.

Hər ikisini həbs edin! – polkovnik ciddi şəkildə əmr etdi. – Sonra da göndərəcəm onları sərhəd bölgələrinə. Bizə elə işçilər lazım deyil! Orada onlara diqqətli olmağı öyrədərlər.

Yusifov öz qrupunun əməkdaşlarını müdafiə etmək istəsə də, buna cəsarət etməyib susdu. Cavadov başını bulayıb təəssüflə:

–Bu çox pis oldu... – dedi.

Baratov da, sanki, məsələnin ciddiliyini tam mənası ilə indi anlamışdı. Əlini qəzəblə stola vurdu:

– Deməк, Səid Namazov əlimizdən çıxdı, hə?!

Yusifov astadan mızıldadı:

– O, yəqin ki, qayıdacaq mənzilə...

– Haradan bilirsən? Lap qayıtsa da, nə bilirsən hansı təxribatı törətməyə gedib? İndi nə edək? Bütün güc orqanlarını ayağa qaldıraq? Bizim şöbəmiz o vətən xainini, o alçağı izləməyi təkbaşına boynuna götürdü. İndi deməyəcəklər ki, Baratov, quruca lovğalanmaqdan başqa heç nəyin yox imiş sənin? Deməyəcəklər?! O əclaf, lap yəqin ki, parkda kiminləsə görüşüb. Amma sənin maymaq adamların başa düşməyib bunu.

–Biz bundan sonra nə etməliyik, cənab rəis? – Cavadov sakitləşdirici ahənglə sual verdi.

–Neyləyəcəyik? – Baratov kinayəli baxışlarla müavinini süzdü. – Həmin telefon zəngi olmasaydı, heç Səidin gəlişindən xəbərimiz olmayacaqdı. Kimsə zəng vurub bizi xəbərdar edir, biz isə yatırıq.





Deyirsən, nə etməliyik? Əlbəttə, Səid, nəyin bahasına olursa olsun, tapılmalıdır. Yalnız onun vasitəsilə gizli təşkilatın izinə düşə bilərik.

–Biz gərək onu həbs edəydik. – mayor təəssüflə başını buladı.

Baratov hirslə əlini yellədi:

–Boş–boş danışma, Cavadov! Biz onu həbs etməklə nəyəsə nail ola bilməzdik. Birincisi, ola bilər ki, o hələ heç nə bilmirdi. İkincisi, lap bilsəydi də bizə heç nə deməyəcəkdi. Hətta zorakılığa əl atsaydıq belə! On yeddi il erməni əsirliyində olan adama nəyi zorla məcbur edə bilərik? Kaş heç olmazsa, səhərə kimi mənzilə qayıdaydı. Qayıtmasa şəhərdə baş verəcək təxribatlara biz cavabdeh olacağıq.

–Qayıtmasa onu harada axtaracağıq? – Cavadov soruşdu.

–Bax elə buraya bunu düşünmək üçün yığılmışıq. Amma, ilk olaraq, Daxili İşlər nazirliyindən xahiş etməliyik ki, bu gün Bakıda saat 8–dən sonra olan bütün cinayətlərin təfərrüatı ilə bizi tanış etsinlər. Bir də... Əgər Səid sabaha kimi mənzilinə qayıtmasa o xuliqanı çağırıb cəlb edəcəm axtarışa.

–Kimi dediniz? – Cavadov təəccübləndi.

–Kimi deyəcəm? Leopardı!

Cavadov bir söz deməsə də üz-gözünü turşutdu.

–Nədir? –Baratov əlini yellədi. – Yoxsa, yenə etiraz edəcəksən? Etiraf edin ki, o, qəddar olsa da, tez-tez özbaşınalığa yol versə də bəziləri kimi maymaqlıq eləməyib heç vaxt! Gərək elə əvvəldən cəlb edəydim onu bu işə. O, özünün qeyri-peşəkar adamları ilə Səidi Yusifovun qrupundan daha yaxşı izləyərdi.

–Cənab polkovnik!...

Yusifov nəsə demək istəyəndə polkovnik onun sözünü kəsdi:

–Elsevər, mən sənin qrupunun gücünə bələdəm. Bilirəm ki, çox çətin işlərin öhdəsindən gəliblər. Amma, boynuna al ki, bu işdə səhlənkar davranıblar.

–Boynuma alıram... – Yusifov səmimiyyətlə dilləndi.

–İndisə durun gedin kabinetinizə! Səhərə qədər burdayıq. Bilmirəm, nə plan qurursunuzsa qurun, mən Səidi sizdən istəyirəm.

Zabitlər ayağa qalxıb kabineti tərk edən kimi polkovnik Baratov Daxili İşlər nazirliyinə zəng vurmaq üçün telefonun dəstəyini əlinə götürdü.

# N İKİNCİ FƏSİL

Artıq bir saata yaxın olardı ki, hava işıqlanmışdı. Zərif idman yimində olan Ayçöhrə dar və dolambac küçələrlə dəniz kənarından ə qayıdırdı. Səhərin təmiz havasını ləzzətlə ciyərlərinə çəkən qız ünü çox gümrah və xoşbəxt hiss edir, öz sağlamlığından, vraqlığından, sərbəst və rahat yerişindən həzz alırdı.

Heç bir dərdi-filanı yox idi. Son aylar onu üzən yalnız anasının stəliyi və bununla əlaqədar onu itirmək qorxusu idi ki, o da artıq adan qalxmışdı. Var olsun Tanrısı! Onun dualarını, yalvarışlarını tdi. Bir də, sağ olsun atası! Həyat yoldaşını əməliyyat etdirmək üçün hərdəki üçotaqlı mənzilini satıb həmin pulun bir hissəsinə köhnə akının məhəllələrinin birində ev aldı. Pulun qalanına da arvadının əyini əməliyyat etdirdi. Həmin gün Ayçöhrə Neftçilər xəstəxanasında ası üçün o qədər dua eləmişdi ki!... Axır, hər şey yaxşı qurtardı. İndi ha anası çarpayıdan rahat qalxıb evdə gəzə bilirdi.

Düzdür, yastı-yapalaq, bir-birlərinə bitişmiş, birmərtəbəli köhnə lərdən ibarət məhəllədə beş-altı yad ailənin yaşadığı həyətə tinliklə öyrəşdilər. Amma, Ayçöhrə, anasının sağalması üçün, zım olardısa, çöllərdə çadır qurub yaşamağa da razılaşardı. Təki, ası sağ-salamat, gözünün qarşısında olaydı.

Daha nə dərdi olacaqdı ki? Gənc idi, gözəl idi. İl yarım əvvəl Bakı övlət Univesitetini bitirmişdi. Hələ ürəyinə yatan bir iş tapmasa da pacaqdı, yəqin ki. Atası tanınmış kompüter proqramçısı idi. rvadından və iki qızından ibarət ailəsini normal dolandıra bilirdi. Kiçik lədə qan qaraldıcı heç bir söz-söhbət yox idi. Mehriban yaşayırdılar.

Ən əsası isə yeri-göyü, bütün kainatı yaradan Tanrıya bağlı idi yçöhrə. Tanrısını dünyada hər kəsdən çox sevirdi və bilirdi ki, anrısı da onu sevir... Hər gün səhər yuxudan ayılanda, bir də axşam atağına girəndə dua edirdi Tanrıya. Səhər duası ayrı idi, axşam uası ayrı. Bu duaların sözlərini özü düşünüb əzbərləmişdi və artıq örd ilə yaxın idi ki, hər gün iki dəfə əllərini Tanrıya açıb həmin özləri təkrar edirdi.







O vaxtdan yuxularında da Tanrı ilə söhbət etməyə başlamışdı. Demək olar ki, hər gecə. Səhər yuxudan duranda ona elə gəlirdi ki, yuxusunda Tanrının üzünü də görüb. Amma o nurlu simanı heç cür xatırlaya bilmirdi. Bircə onu bilirdi ki, başdan-ayağa işıq rəngində geyinmiş, işıq saçan bir varlıqla üz-üzə dayanır yuxuda. Simasını sonradan xatırlamasa da yuxusunda dəqiq bilirdi ki, qarşısında dayanan və onunla danışan Tanrı özüdür...

Bu yuxularını neçə dəfə anasına danışmışdı. Ancaq, hər dəfə danışanda bir məqamı gizlədirdi anasından. Özünün Tanrının qarşısında lüt–anadangəlmə durmasını... Qorxurdu ki, anası onda psixi problemlərin olmasını düşünüb, bunu özünə dərd eləyər.

Amma, Ayçöhrədə heç bir problem-filan yox idi. Gördüyü həmin yuxular da ona gün ərzində aşıb-daşan bəxtəvərlik bəxş edirdi.

Özünün bütün bədən əzalarının sağlam və gözəl olduğunu bilsə də kiminsə onun bədəninin naməhrəm tərəflərini görməsinə razı olmazdı. Bütün qanına hopmuş qadınlıq həyası imkan verməzdi buna. Amma...

Yuxuda Tanrının qarşısında tamam çılpaq dayanırdı. Dünyaya gələndə necə çılpaq olmuşdusa, eləcə... Üzünü sevimli Tanrısına tutub ona doğru can atırdı. Amma, işığın çoxluğundan yaxınlaşa bilmirdi ona. Yaxınlaşa bilməsə də, özünü narahat hiss etmirdi həmin anlar. Əksinə, Tanrının nuru ilə gələn rahatlıq və sevinc hissi iliklərini belə doldururdu.

Bu yuxularında Ayçöhrə özü, demək olar ki, danışa bilmirdi. Ancaq qarşısındakı ulu varlığa baxıb təmiz, saf təbəssümlə gülümsəyirdi. Bəzən isə Tanrının çox mehriban səsi gəlirdi qulaqlarına:

–Səni mən sevə-sevə yaratdım, Ayçöhrə! Yaratdım ki, insanlar necə bir qüdrət sahibi olduğumu görsünlər. Sənin qəlbinə də öz nurumdan pay verdim. Həm də, başqalarına verdiyimdən qat-qat çox verdim. Onu qoru! O səni həmişə belə gözəl saxlayacaq. Şeytana uyma!

Sonra nurdan yaranmış qollarını açırdı Tanrı. Bu dəfə Ayçöhrə ona tərəf rahatca yeriyib özünü sevimli Tanrısının qoynuna atırdı. Təpəsindən dırnaqlarına qədər özü də nura qərq olurdu həmin anda...





Dar küçələrdə tək-tək işə tələsən adamlar görünürdü. Onların hamısı qışın soyuğundan qorunmaq üçün qalın geyinmişdilər. Ayçöhrə isə əynində nazik idman geyimi, başında yun idman papağı, ayağında yüngül idman ayaqqabısı olmaqla, şux bir yerişlə səki boyu addımlayırdı. Sanki, asta-asta uçurdu.

Ancaq, ürəyinin dərinliyində kiçik bir narahatlıq da var idi. Artıq dördüncü gün idi ki, kimliyini tanımadığı, adını bilmədiyi o oğlan səhərlər dənizkənarı parka gəlmirdi. Görünüşünün bütün detalları Ayçöhrənin idealına uyğun gələn o ucaboy, möhkəm bədənli, ciddi görkəmli oğlan... Dərisinin rəngi, sanki, mis rənginə çalırdı. Qıza elə gəlirdi ki, bu oğlan ətdən-sümükdən deyil, qranitdən yaranıb.

Görəsən, daha niyə gəlmirdi parka? Bəlkə, xəstələnib? Yox, ona heç bir xəstəlik yaxın düşə bilməz. Bəlkə, başında bir iş var?...

Ayçöhrə özü də başa düşmürdü ki, həmin oğlanın parka gəlməməyi onu niyə belə narahat edir. Onunla heç tanış da olmamışdılar. Sadəcə, parkda qaçan zaman üz-üzə gələndə başlarının hərəkəti ilə bir-birlərinə salam verirdilər. İlk dəfə hansı verdi bu salamı? Hə, Ayçöhrə özü! İki həftə bundan qabaq olardı. Qarşı–qarşıya gələndə bir-birlərinin üzünə baxdılar və Ayçöhrə başını tərpətməklə salam verdi. Oğlan da buna adi bir şey kimi baxıb ciddi şəkildə başını tərpətdi.

O, Ayçöhrədən azı on-on iki yaş böyük olardı. Və ola bilsin ki, evli idi. Amma, qıza elə gəlirdi ki, tay-tuşdur onunla. Evlərini dəyişəndən sonra Ayçöhrə səhərlər dənizkənarı parka gəlirdi idmana. Əvvəl isə evlərinin yanındakı Heydər parkına gedirdi. Deməli, Ayçöhrənin o oğlanla burada «yoldaşlıq» etdiyi iki aya yaxın olardı. Belə çıxırdı ki, öyrəşmişdi onu hər səhər görməyə. Öyrəşmişdi və elə buna görə də indi darıxmağa oxşar bir hiss var idi ürəyində.

Hələ universitetdə oxuyanda da onun qeyri-adi gözəlliyinə, oturuşuna-duruşuna, abır-həyasına vurulan tələbələr elə düşünürdülər ki, Ayçöhrə əks cinsə qarşı biganədir. Yəni, oğlanlarla deyib–güləndə onlara erkək kimi yox, sadəcə insan kimi baxır, özünün isə qadın cinsinə mənsub olduğunu nəzərə almır.

Amma, bilmirdilər ki, Ayçöhrə də bütün normal qızlar kimi öz

içində əks cinsə qarşı bir meyl hiss edir və daxilində olan istəyi öz iradəsi hesabına boğub gizlətməyi bacarır. Bilmirdilər ki, Ayçöhrə daxilində baş qaldıran həmin istəkdən də zövq alır, həmin istəyi boğa bilməyindən də.

Bilmirdilər ki, özünün ürəyində yaratdığı idealını axtarır həmişə.

Qəlbini verə biləcəyi həmin adam özünə, öz nəfsinə qalib gələ biləcək dərəcədə güclü olmalı idi. Pis vərdişlərdən uzaq olmalıydı. Onun bütün duyğularını anlayıb başa düşməliydi. Qeyrətli, mərd və ciddi olmalıydı. Yaltaqlıq, ikiüzlülük, satqınlıq, sözgəzdirənlik kimi sifətlərdən uzaq olmalı idi. Və nəhayət, Ayçöhrəni həqiqi məhəbbətlə sevməliydi həmin adam. Pak, təmiz, ilahi bir məhəbbətlə...

Əvvəlki evlərində, qonşu mənzildə yaşayan Əmrahı özü də bəyənmişdi. Bu yaraşıqlı oğlan ona ilk baxışdan həm də ciddi təsir bağışlamışdı. Üzünə sırtıq-sırtıq gülüb-eləmirdi. Görəndə həmişə ciddi baxışlarla süzürdü onu.

Hər gün səhər yaxındakı parkdan evə qayıdanda işə gedən oğlanla ya blokda, ya da həyətdə rastlaşırdı. Xoşu gəlirdi ondan və ürəyində düşünürdü ki, deyəsən idealını tapıb. Bir müddət belə davam edəndən sonra gördü ki, Əmrahdan səs çıxmayacaq, özü danışdırdı onu. Ürəyi istədi ki, danışdırsın, danışdırdı. Üz-üzə gələndə ona udquna-udquna baxan oğlana:

–Sabahınız xeyir! – dedi.

Əmrah özünü itirib salamı bir az gec aldı.

Bir az beləcə salamlaşdılar. Sonra yavaş-yavaş ayaqüstü söhbət etməyə başladılar. Daha sonra bir neçə dəfə parkda görüşdülər. Belə görüşlərdə Əmrah gözünü onun dodaqlarından, möhkəmliyi hətta nazik koftanın altından bilinən şux döşlərindən, ən pisi isə, ayaqlarından çəkmirdi. Bu, Ayçöhrəni utandırırdı, narahat edirdi, amma o qədər də pis məna vermirdi bu baxışlara. Artıq oğlan öz ürəyini ona açmışdı və Ayçöhrə də düşünürdü ki, Əmrah onu sevirsə və bir qadın kimi xoşlayıb arzu edirsə burada bir pis şey yoxdur. Pis və ya təəssüfləndirici bir cəhət var idisə o da Əmrahın öz hisslərini cilovlayıb gizlədə bilməməsi idi.

Nə isə!... Əmrah onların mənzillərinə ayaq açmağa başladı.



Ayçöhrənin valideynləri də bəyənirdi oğlanı və onun evə gəlib–getməsinə pis baxmırdılar. Bəzən elə olurdu ki, qız Əmrahla tək qalırdı. Belə vaxtlarda onun sağına-soluna keçən oğlan ehtirasdan qovrulur, eyhamlı sözlərlə, hərəkətlərlə qızı intim yaxınlığa dəvət edirdi. Ayçöhrə isə heç onun tərəfindən öpülməyinə də razı olmamışdı. Bu, bəzən özünün də ürəyindən keçirdi. Amma istəyini ürəyində boğur, intim münasibətləri, nə vaxtsa, sonraya saxlamaqla bunun özündən bir zövq alırdı. O arzuları ki, onsuz da, oğlanın ürəyindən oxuyurdu, istəyirdi ki, o bunları açıq şəkildə bildirib aralarındakı yarı gizli, şirin münasibətə xələl gətirməsin.

Həmin günlər hamıdan çox sevdiyi sevimli Tanrısı gecələr onun yuxusuna girmədi. Girəndə də qollarını açıb onu ağuşuna dəvət etmədi. Onda Ayçöhrə, nədənsə, bunun fərqinə bir o qədər də varmadı. Bir gecə isə Tanrının soyuq səsini eşitdi:

– Şeytana uyursan!...

Yuxudan çox pis əhvalla ayıldı o gün. Bütün günü də özünü yaxşı hiss eləmədi. İki gün sonra evdə tək idi. Təzəcə yuyunub vanna otağından çıxmışdı. Saçlarını qurulayırdı. Əmrah gəldi. Ayçöhrə ona stolun arxasında yer göstərdi. Bir az ordan – burdan söhbət elədilər. Oğlan onun nazik xalatın altından qabarıq bilinən əndamına açıq – aşkar şəhvətlə baxırdı. Ancaq, qızın xasiyyətini bildiyi üçün arzusunu həyata keçirmək yolunda hər hansı addım atmağa cəsarət etmirdi. Sonra mürəbbəyə bulaşmış əlini yumaq üçün vanna otağına keçdi. Bir azdan onun ardınca vanna otağına daxil olan Ayçöhrə gördü ki...

Bayaq yuyunanda əynindən çıxardığı paltarlarını yumaq üçün kiçik vannaya atıb paltaryuyanın yanına qoymuşdu. Əmrah onun açıq qızılgül rəngli alt paltarını vannadan götürüb dəli bir ehtirasla öpürdü...

Ayçöhrənin içəri girdiyini görən Əmrah özünü itirib əlindəki paltarı vannaya atdı. Ayçöhrə həyadan, eyni zamanda qəzəb və həyəcandan titrəyə–titrəyə bayaqkı otağa qayıtdı. Stulda oturub başını əlləri arasına aldı.

Qorxaq addımlarla otağa daxil olan Əmrah gəlib ondan azacıq

kənarda dayandı. Bunu duyan qız başını qaldırmadan sakit səslə:

–Çıx get burdan! –dedi. – Get, bir də gözümə görünmə!

–Niyə axı? – Əmrah pərt halda dilləndi. – Biz bir–birimizi sevirik.

– Mən səni sevmirəm. – qız dedi. – Nə də sən məni.

– Niyə axı?

–Sevmək belə olmur. Çıx get, dedim!

Əmrah getdi və sonradan onun gözünə görünməməyə çalışdı.

Ayçöhrənin anası nə qədər eləsə də bu ayrılmanın səbəbini anlaya bilmədi. Ayçöhrə bircə bunu dedi ki:

– Biz başqa–başqa adamlarıq. Xasiyyətimiz tutmaz.

Tanrısına nə qədər yalvardı bağışlanması üçün və Tanrı yenə də yuxularına girib onu bağrına basdı, «Səni mən sevə-sevə yaratdım!» –dedi.

Sonra yaxşı ki, oradan köçdülər. Atası, nəyə görəsə, gəldikləri evin ünvanını da vermədi qonşulara və o bina ilə əlaqələri birdəfəlik kəsildi...

Gəlib həyətlərinə çatdı. Həyətdə qonşuları Tavat arvaddan başqa heç kəs görünmürdü. Salam verib keçdi.

– Sabahınız xeyir!

–Sabahın xeyir, qızım! – Tavat arvad salamını alıb onu arxadan mənalı baxışlarla süzdü.

Ayçöhrə dar həyətlə gedib sağdakı axırıncı qapını açaraq içəri girdi. Bacısı Aysu dərsə getmişdi. Texniki universitetdə, üçüncü kursda oxuyurdu. Atası süfrə arxasında əyləşmişdi. O da yeməyini yeyib işə gedəcəkdi. Bura köçəndən sonra iş yerini də dəyişib internet klublarının birində işə düzəlmişdi.

Atasının qanı dünəndən qara idi. Özü bunu gizlətməyə çalışsa da Ayçöhrə hiss eləmişdi. Amma, nə qədər dil töksə də atası heç nə boynuna almamışdı.

–Sabahın xeyir! – ona şən halda salam verdi. – Nuş olsun!

Şəmistan ağzındakı tikəni udub qızına baxdı:

–Sabahın xeyir, canım-gözüm! Necə keçdi gəzintin?

Dünyalar qədər istədiyi atası sualı elə mehribanlıqla verdi ki, Ayçöhrə, nədənsə özü də səbəbini bilmədən, kövrəldi. Az qaldı ki,





onunla hər gün dənizkənarı parkda olan oğlanın dörd gündən bəri görünmədiyini və buna görə gəzintisinin bir az maraqsız keçdiyini desin. Amma başqa söz dedi:

– Lap yaxşı!

Sonra o biri otağa daxil oldu. Anası oyaq olsa da hələ yatağından qalxmamışdı.

– Sabahın xeyir, Gülbəniz xanım! – anasını yenə zarafatla salamladı.

–Sabahın xeyir, bala! – anası gülümsədi. – Soyuq olmadı?

–Yox, soyuq nədir? Əla hava var. De görüm, sən özünü necə hiss edirsən?

–Yaxşı. –anası dedi. –Əla bir yuxu görmüşəm bu gecə.

– Nə yuxu?

– Görürəm ki, sənin toyundur...

– Can! – Ayçöhrə gülüb onun sözünü kəsdi. – Kefdə olmusan ki!? Bilmədin, kimə ərə gedirdim?

– Bir yaxşı oğlan idi.

Çarpayıda oturub anasının əlindən tutdu:

– Bu axşam da həmin yuxunu görsən, mütləq oğlanın kimliyini öyrən.

Gülbəniz xanım gülümsəyib birdən-birə ciddiləşdi:

– Bircə səni gəlinlik paltarında görə bilsəydim...

Ayçöhrə əlini nazik idman şalvarına güclə sığan sağlam budlarına vurdu:

– Məgər idman paltarı yaraşmır mənə?

– Sənə nə geysən yaraşır. Ancaq gəlinlik paltarı geyməyinin də vaxtı keçir axı!?

– Qorxma, evdə qalmaram. –Ayçöhrə güldü. – Bir kişi tapıb evlənəcəm.

– Nə kişi?! – anası təəccübləndi.

– Kişi də! Əsl kişi!

– Səninlə hər adam yola gedə bilməz.

– Elə ona görə deyirəm ki, əsl kişi tapanda ərə gedəcəm.

– Allah qoysa! –anası ürək dolusu dilləndi. – Təki tez olaydı!

– Mən gedim yuyunum, sən də qalx, birlikdə səhər yeməyini yeyək. –Ayçöhrə qalxıb qapıya getdi.

– Ayçöhrə! – anası onu səslədi.

– Can!

– Can sənə! Atan getdi işə?

– Yox, yeməyini yeyir.

– Axşam paltarını ütülədin onun?

– Hə!

– Yaxşı, elə onu soruşurdum.

Ayçöhrə atasının yanından keçəndə əlini yüngülcə onun çiyninə vurdu:

– Hə, Şəmistan qardaş, yeməyini yedin, dur get işinə. Kompüterlərin səni gözləyir.

Qızının hərəkəti kişinin canına yağ kimi yayıldı:

– Baş üstə, komandir, bu saat gedirəm!

Ayçöhrə dəsmal götürüb, həyətdəki hamamda yaxalanmaq üçün həyətə çıxdı və bu dəm iki nəfər polis geyimli kişi ilə üz–üzə gəldi.

Ləhcəsindən və görünüşündən ləzgiyə oxşayan polis leytenantı mütənasib bədəni idman geyimində daha qabarıq bilinən qızı başdan ayağadək süzüb:

– Xanım, Şəmistanın evi hansıdır? – deyə soruşdu.

– Buradır. –Ayçöhrə birdən-birə tutuldu. – Neyləyirsiniz onu?

– Siz onun nəyisiniz?

– Qızı...

– Xahiş edirəm, atanızı çağırın!

Səs eşidən Şəmistan özü qapıya çıxdı və polis işçilərinə təəccüblə baxıb:

– Sizə nə lazımdır? –dedi.

– Şəmistan sizsiniz? –leytenant soruşdu.

– Bəli...

– Geyinin, bizimlə gedək!

– Niyə axı? Nə olub?

– Orada bilərsiniz. Bizə rəisimiz tapşırıb ki, sizi aparaq.

Ayçöhrə anasının səsləri eşitməməsi üçün qapını örtüb leytenanta





açıqlandı:

– Siz səbəbini deməlisiniz, ya yox? Özbaşınalıqdır?

– Xanım, sakit olun! – leytenant təmkinlə dedi. – Atanız dünən günortadan sonra əvvəlki evinizə gedib, evin yeni sahibi ilə dalaşıb. Üstəlik, onu öldürməklə hədələyib. Axşam isə həmin kişini və ailə üzvlərini öldürüblər.

– Siz heç bilirsiniz nə danışırsınız? – Ayçöhrə əlini havada oynatdı. –Atam niyə dalaşmalıydı o kişiylə?

– Bizim bildiyimizə görə, o kişi evin pulunun bir hissəsini hələ verməyibmiş. Sorğu-sualınız qurtardısa, biz vəzifəmizi yerinə yetirək. – Polis leytenantı sözünü kinayəli şəkildə tamamladı.

Ayçöhrə dönüb atasına baxdı:

– Bunlar düz deyirlər, ata?

– Qızım, mən heç kəsi öldürməmişəm. – Şəmistan pərt halda dedi. – Sən keç evə, mən gedim görək nə deyirlər.

– Evinizdə axtarış aparmalıyıq. – o biri polis dilləndi.

– Xeyr, elə şey ola bilməz! – Ayçöhrə qapının önünə keçdi. – İçəridə xəstə anam yatır. Ürəyindən təzəcə əməliyyat olunub.

Leytenant başını buladı:

– Ay xanım, imkan verin, işimizi görək!

– Dedim ki, olmaz! Əlinizdə sənəd var evi axtarmaq barədə?

Leytenantda belə bir sənəd yox idi. Qarşısındakı gözəl qızı bir daha süzüb başını buladı və Şəmistana baxdı:

– Cəld olun, geyinin, gedək!

Şəmistan içəri girdi və arvadına heç nə demədən geyinib çıxdı:

– Nə deyirəm, gedək deyirsiniz, gedək. Amma sizin rəisiniz nahaq yerə məndən şübhələnir.

Atasının həyəcanlı səsi Ayçöhrəyə də təsir etdi. O da titrək səslə:

–Hara aparırsınız? – deyə soruşdu.

–Altıncı bölməyə. – leytenant cavab verdi. – Sizin əvvəlki evinizdən bir tin yuxarıdadır.

Ayçöhrə daha onlara heç nə demədi. Fikrinin bir hissəsi içəridə qalmışdı. Anası qalxıb polisləri görsəydi, bu hadisə ürəyinə pis təsir edə bilərdi.

– Ata! – polislərə qoşulub gedən atasını səslədi.

Şəmistan geri döndü. Onun baxışlarında böyük bir narahatlıq hiss olunurdu.

– Sən o kişi ilə dalaşmısan?

– Yox... – atasının dili topuq vurdu. – Sözləşmişəm, amma ölüm işindən xəbərim yoxdur.

Dönüb polislərlə həyətdən çıxdı. Qapının ağzında polis maşını dayanmışdı. Həyətə çıxan Tavat arvad Şəmistanın aparılmağını gördü. Heyrətlə Ayçöhrəyə baxıb:

–Atanı niyə apardılar, qızım? – deyə soruşdu.

–Bilmirəm...

Ayçöhrə bunu deyib, içəri girərək qapını örtdü. Əlindəki dəsmalı stulun üstünə atdı. Hamama getməyə daha heç bir həvəsi qalmamışdı. Bu xəbəri anasına necə verəcəyi barədə düşünürdü.

## ON ÜÇÜNCÜ FƏSİL

Ələmdar müvəqqəti saxlama kamerasında tək idi. Meşədən təzəcə tutulub qəfəsə salınmış pələng kimi vurnuxur, dodağının altında kiminsə söyüb–hədələyirdi. Bu zaman kameranın dəmir qapısı gurultuyla açıldı və yaşlı polis çavuşu içəri girdi:

– Gəl, çıx görüm!

Ələmdar onu acıqlı nəzərlərlə süzüb kameradan çıxdı. Çavuş, nədənsə, qoluna qandal keçirmədən onu bölmə rəisinin kabinetinə gətirdi. Rəis öz işçisinə kabinetdən çıxmağı əmr edib üzünü tük basmış, uca boylu, möhkəm bədənli gənci diqqətlə süzdü və birdən–birə gülümsədi:

– Hə, idmançı qardaş, əməlindən peşman deyilsən ki, hələ?

– Mən neyləmişəm ki, rəis? –Ələmdar saymazyana dilləndi.

– Deməli, hələ boynuna almırsan elədiyini?





– Yox!

Rəis stolun üstündəki qovluğu laqeydliklə vərəqləyib kənara itələdi:

– Sən bizə niyə deməmisən kimin adamı olduğunu?

– Niyə deməliyəm?

– Birbaş nazirlikdən göstəriş veriblər sənin buraxılmağın barədə. Sən mənim canım, orada kiminlə əlaqən var?

– Heç kimlə!

– Bəs onda adamın kimdir? Kim xahiş edib sənin barəndə?

Ələmdar artıq hər şeyi başa düşmüşdü. Başını bulayıb kinayə ilə gülümsədi:

– Onu deməzlər, rəis!

– Elə atanın oğlusan. – Rəis də başını yellədi.

– Adam gərək atasının oğlu olsun.

– Rəhmətlik atan haqqında çox eşitmişəm. Ömrünün çoxu həbsxanada keçsə də kişi adam olub.

– Məni nə vaxt buraxacaqsınız, rəis? – Ələmdar hövsələsiz halda soruşdu.

– Göstərişə görə, biz səni dərhal, elə bu dəqiqə buraxmalıyıq. Amma... İstədim bir az söhbət edəm səninlə. Bizdən bir incikliyin–filanın varmı?

– Allaha şükür edin ki, işçiləriniz kobudluq eləmədi mənə qarşı... Amma, incikliyim var. Elə əclafı müdafiə etdiyinizə görə.

– Məlikov, – rəis yumşaq ahənglə dilləndi. – Bilmirəm, o Əbilxanı tanıyırsan, ya yox, tərsin biridir o. Bir adama ki ilişdi, əl çəkən deyil... Doğrusu, mən bilməmişəm səni nəyin üstündə tutublar. Yoxsa qoymazdım. Elə biqeyrət gədəni döymək azdı hələ. Nə isə! Daha olub – keçib, boşla getsin!

– Yox, olub keçməyib! – Ələmdar etiraz etdi. – O kişi tərsdirsə, mən ondan da tərsəm. Bu başdan deyirəm, onun oğlu gözümə görünsə yenə şil – küt eləyəcəm onu. Bax, onda üstümə polis – filan göndərməyin!

– Yaxşı, görək! – rəis süni bir gülüşlə güldü. – Çalışarıq, gözünə görünməsin. Qaldı Əbilxanın Zamir Təhməzli öldürülən gecə səni

həyətdə görməsinə...

– Mən gedə bilərəm? – Ələmdar onun sözünü kəsib qapıya baxdı.

– Əlbəttə, gedə bilərsən! – rəis ayağa qalxıb onu qapıya qədər ötürdü.

Gündüz saat 12 idi. Ələmdar polis bölməsindən çıxıb dərindən nəfəs alaraq ətrafa göz gəzdirdi. Bu zaman qarşıdakı küçənin o biri tərəfində, səkinin kənarında dayanmış qara rəngli «RANGE ROVER» diqqətini cəlb etdi. Maşının şüşələri də qara rəngdə idi və içi qətiyyən görünmürdü. Dərhal başa düşdü ki, xüsusi məxfi şöbədə təxirəsalınmaz işlər çıxıb və o, polkovnik Baratova lazımdır.

Küçəni keçib səkiyə adladı. Maşına yalnız ötəri bir nəzər salıb səki ilə üzüaşağı addımlamağa başladı. Hava günəşli olsa da soyuq idi. Yüngül şimal küləyi əsirdi. Bir neçə dəqiqə arxasına baxmadan beləcə getdi. Tini burulub sakit, adamsız bir küçəyə girəndə onu arxadan izləyən həmin maşın düz yanında dayandı. Sağdan arxadakı qapı açıldı və Ələmdar sərbəst hərəkətlə keçib maşına əyləşdi.

Polkovnik Baratov sol tərəfində oturmuşdu. Sükanın arxasında kapitan Elsevər Yusifov idi. Maşın yola düşdü və birinci olaraq Baratov dilləndi:

– Səni xoş gördük, Leopard! Necəsən?

Xüsusi məxfi şöbənin sənədlərində gizli agent kimi Leopard adı ilə qeyd olunan Ələmdar kinayə ilə gülümsədi:

– Dörd gün polisdə saxlanılan adam necə olar?

– Günah özündədir! – polkovnik ciddiləşdi. – Sənə dəfələrlə demişəm ki, bacardığın qədər çalışıb diqqət mərkəzindən uzaq olmalısan. Yəni sən, doğrudan, hisslərini cilovlamağı bacarmırsan? Axı, əslində, kim bilməsə də mən bilirəm ki, bacarırsan!?

– Deməli, məni bilərəkdən qurtarmırdınız oradan? – Ələmdar incik səslə soruşdu.

– Düzünü soruşursansa, hə! Gör, neçənci dəfədir ki, xuliqanlıq üstündə polisə düşürsən. Doğrusu, lap acığım tutmuşdu bu hərəkətinə. Buna görə nazirə ağız açmalı olduq ki, səni, guya, şəxsi yaxınlıq adıyla buraxdırsın. Axı nəyinə lazım idi o oğlanı vurmaq, ya atasına qarşı kobudluq etmək?

– O gədənin, böyük məmnuniyyətlə, boynunu sındırardım! – Ələmdar dedi. – Millətin bu vəziyyətində elə biqeyrətləri görəndə dözə bilmirəm.

Yusifov arxaya çevrilib rəisinə baxdı:

– Hara gedəcəyik, cənab polkovnik?

– Nisbətən sakit küçələrlə sür, bir az şəhəri gəzək.

– Oldu!

Baratov susub bir qədərdən sonra dilləndi:

– Bilirsən, Leopard, bizim millətimiz nə əsgərlikdən, nə döyüşdən, müharibədən qaçan olmayıb. Bizi bu hala salanlar salıb. Darıxma, hər şey düzələcək. Yüzlərlə, minlərlə oğullarımız bu saat tələb edir ki, əllərinə silah verib onları döyüşə göndərək. Narahat olmaq lazım deyil. Gec-tez keçmişimizə qayıdacağıq.

Leopard şefi ilə o qədər də razılaşmadı:

– Keçmişimizə tez qayıtmaq üçün hərdən belələrinin ağız-burnunu əzişdirmək lazımdır. Yəni siz o Əbilxan barədə nəsə eləməyəcəksiniz?

Baratov başını buladı:

– Əlbəttə, bu bizim vəzifəmizə birbaşa aid olmasa da, mən lazımi yerdə danışacam onun barəsində. Özünüz yaxşı bilirsiniz ki, mən dövlətimə, millətimə təmiz qulluq eləmişəm həmişə. Bir–iki gün əvvəl prezidentlə görüşəndə o özü də dedi bunu. Mənim heç kəsdən nə qorxum yoxdur, nə də başım aşağı deyil kiminsə yanında.

Bir qədər susdular. Maşın indi Azadlıq prospekti ilə hərəkət edirdi.

– Biz niyə gəzirik belə? – Ələmdar soruşdu. – Mənə nəsə tapşırığınız var?

– Darıxma, biləcəksən. – Baratov təmkinlə dedi. – Məsələ burasındadır ki, xoşagəlməz bir vəziyyətə düşmüşük. Er–mənistandan təxribat məqsədilə gəldiyi güman edilən Səid Namazov adlı birini əməkdaşımızın diqqətsizliyi ucbatından itirmişik. O, təcili olaraq tapılmalıdır və mən onun axtarışına səni də cəlb etmək istəyirəm.

– Cəlb etmək istəyirsiniz, yoxsa bu işi mənə tapşırırsınız?

– Onu tək axtarmaq qeyri–mümkündür. Amma sən axtarış qrupuna rəhbərlik etmək istəyirsənsə, buna razıyam. Yusifovun xüsusi təyinatlı qrupu lazım bildiyin anda ixtiyarında olacaq. Bir şərtlə ki, Yusifovun özündən başqa sənin üzünü heç kəs görməyəcək. Onlarla bir yerdə olmağa ehtiyac yarandıqda maskalanmalısan.

Ələmdar gülümsədi. Bir–iki il əvvəl Bakıya gəlmiş peşəkar erməni terrorçusunun da axtarışını ona həvalə etmişdilər və bacarıqlı agent onu tapıb zərərsizləşdirmişdi.

– Artıq, siz məni detektiv hesab edirsiniz, deyəsən.

Baratov başını tərpətdi:

– Sən bacarıqlı kəşfiyyatçısan. Bu isə o deməkdir ki, həm də bacarıqlı detektivsən. Mən sənin bu keyfiyyətinə çox inanıram.

– Yaxşı, bu adam kimdir? Onun haqqında nə kimi məlumatlar var?

– Elsevər, görürəm gəzməklə aran yoxdur. Sakit bir yer tapıb maşını saxlaya bilərsən.

Baratov bunu deyib üzünü yenə Ələmdara çevirdi:

– Diqqətlə qulaq as, Leopard! Əslində, vaxtımız çox azdır və sən elə bu saatdan fəaliyyətə başlamalısan. Fevralın 23 – də, gecə saat ikinin yarısında Yunis Muradov adlı bir jurnalistin evinə zəng vurulub. Naməlum bir qadın telefonda bildirib ki, tezliklə Bakıya Səid adlı biri gələcək. Bildirib ki, o, təxribat məqsədilə gəlir və onu zərərsizləşdirmək lazımdır. Onun deməyinə görə, guya, Ermənistandan zəng vururmuş. Biz öyrəndik ki, onun zəng vurduğu mobil telefon nömrəsi Gürcüstan operatoruna məxsusdur. Düşünürük ki, bu qadın əsirlikdə olan Xocalı sakinidir. Hətta, çox güman ki, Səidin öz anasıdır. Çünki, Səidin atası, anası və bacısı Xocalı qırğını zamanı itkin düşənlər siyahısındadır. Onların taleyi bizə məlum deyil.

Fevralın 25-də Səid, doğrudan da, Bakıya gəldi. Rusiyada yaşayan Hikmət Həsənov adı altında. Hava limanında heç kəslə görüşmədi. Nə də onu bizdən başqa heç kəs qarşılamadı. «Gənclik» metrosu yaxınlığında kirayə ev tutaraq səhərə kimi orada qaldı. Dünən–fevralın 26-da səhər evdən çıxıb Xocalı parkına getdi. Mən belə düşünürəm ki, Yusifovun adamlarının onu izləməsinə baxmayaraq,





Səid parkda adamların çox sıx şəkildə toplaşmasından istifadə edərək kiminləsə görüşüb və onlar bir–birlərinə nəsə ötürüblər. Onu da deyim, biz artıq öyrənmişik ki, nə onun kirayə etdiyi mənzildə kabel telefonu, nə də özündə mobil telefon yoxdur. Hə, sonra o, evə qayıtdı... Axşam saat 20.10-da nəzarətçilərin diqqətindən yayınaraq polis leytenantı formasında evdən çıxıb və indiyədək oraya qayıtmayıb. Bir saat əvvəl bizimkilər mənzilə daxil olaraq müəyyən ediblər ki, Səid mənzildə heç bir əşyasını qoymayıb. Deməli, oradan birdəfəlik çıxıb...

– Onun Bakıdakı əlaqələri barədə nə öyrənmisiniz? – Ələmdar tələsik sual verdi.

– Universitetdə oxuyanda sevdiyi qız olub. Fəxriyyə adında. O, indi ərdədir və Bakıda yaşayır. Başqa yaxın adamı yoxdur şəhərdə. Sözümə axıradək qulaq as, sonra sual verərsən. Biz dünən saat 8–dən sonra Bakıda baş vermiş bütün cinayət hadisələri ilə maraqlandıq. Məlum oldu ki, dünən axşam saat 9 radələrində Səid doqquzmərtəbəli binanın üçüncü mərtəbəsində yerləşən bir mənzilə girərək ailə üzvlərini səsboğan taxılmış tapança ilə qətlə yetirib. Ailə başçısı Mövsüm İbadov iki aydan bir az artıqdır ki, ailəsi ilə Qazaxdan köçüb həmin mənzili alıbmış. Orada arvadı, iki qızı və bir oğlu ilə yaşayırmış.

– Nədən bildiniz ki, onları Səid qətlə yetirib? – Ələmdar yenə dözməyib soruşdu.

– Əslində, bu bizim fərziyyəmizdir. – polkovnik cavab verdi. – Polisin, ümumiyyətlə, Səidin varlığından xəbəri yoxdur. Onlar həmin mənzili İbadovlara satan Şəmistan adlı birini həbs ediblər. Şəmistan həmin gün, günortadan bir az sonra satdığı mənzilə gedib Mövsümlə mübahisə edibmiş. Səbəbi də bu imiş ki, Mövsüm mənzilin pulunun bir hissəsini hələ də verməyibmiş. Məsələ burasındadır ki, qatil Mövsümün oğlu Nurəddini öldürə bilməyib. Nurəddin özünü balkondan ataraq xilas ola bilib. Amma ayağı sındığı üçün xəstəxanada yatır. Bu iyirmi yaşlı oğlanın verdiyi izahata görə evə soxulan qatil polis leytenantı formasında imiş. Buradan belə qərara gəldik ki, qatil məhz Səid olub. Polis geyimini və silahı onun üçün mənzilə bir

uşaq gətirib. Bizim gizli kameramız həmin uşağı qeydə alıb.

– Sizin fikrinizcə, Səid həmin ailəni hansı səbəbə görə qətlə yetirib?

– Bu barədə qəti fikrimiz yoxdur. Araşdırmaq lazımdır. Amma bəzi şübhəli məqamlar var. İki ay əvvəl Mövsüm Qazaxdakı yaxşı işini buraxıb, yığışaraq Bakıya köçüb. Burada tikintidə fəhlə işləyirmiş. Oğluna iş axtarırmış. Onun erməni kəşfiyyatı ilə bağlı hansısa problemi ola bilərdi. Ola bilsin, gizlənmək üçün qaçıb gəlib Bakıya.

– Siz polisə nəsə bildirmisiniz?

– Əlbəttə, yox! Səidi bizim şöbə axtarır və çalışmalıyıq ki, onu biz tapaq.

– Taparıq!... – Ələmdar fikirli halda dilləndi. – Siz mənə Mövsümün ünvanını verin. Özümü onun iş yoldaşı kimi təqdim edib qonşulardan bəzi şeylər öyrənmək istəyirəm.

– Sənə demək artıqdır, Leopard, amma yenə deyirəm, diqqətli ol, özünü ifşa etmə!

– Narahat olmayın!

– Sənə daha nə lazımdır?

– Heç nə! Səidin şəklini verərsiniz.

Baratov Səidin fotosunu və Mövsümün yaşamış olduğu mənzilin ünvanını qovluqdan çıxarıb Ələmdara verdi:

– Bir kömək lazım olsa dərhal zəng vur. Səni harada düşürək?

– Evimizin yaxınlığında.

– Leopardın evinə sür! – Baratov kapitana əmr etdi.

«RANGE ROVER» evdən bir qədər aralı, adamsız səkinin kənarında dayananda polkovnik Baratov öz yetirməsi hesab etdiyi agentin əlini sıxıb dilləndi:

– Sənə uğurlar, Leopard! Çalış ki, bu satqını tez tapasan!

Ələmdar gülümsəyib başını tərpətdi və maşından enib yaşadığı binaya tərəf addımladı.





## ON DÖRDÜNCÜ FƏSİL

Pilləkənlə çıxanda qarşısından gələn bina sakinlərindən biri ona salam verib, tüklü üzünə işarə edərək soruşdu:

– Nə olub, Ələmdar, neçə gündür görünmürsən?

Ələmdar düşünmədən:

– Ağdaşda bir dostum rəhmətə gedib. Oradan gəlirəm. – dedi.

– Allah rəhmət eləsin! – qonşu ondan ayrılıb aşağı endi.

Mənzilin qapısını anası açdı. O da oğlunun tüklü üzünə baxıb, bir anlıq deyəcəyi sözləri unutdu:

– Nə olub ədə? Yoxsa yenə tutublarmış səni?

– Yox, ay ana. – İçəri daxil olan Ələmdar yalançı kədərlə cavab verdi.– Ağdaşda bir əsgərlik yoldaşım vardı. Rəhmətə gedib. Onun yasından gəlirəm.

– Bəs adam köpək oğlu gedəndə evə xəbər verməz?

– Başımı elə itirdim ki, hər şey yadımdan çıxdı. Telefonumu da klubda qoymuşam. Bəs Tələt sənə xəbər vermədi?

– Dedi mənə, ancaq inanmadım. Nədən ölüb dostun?

– Maşın qəzasına düşüb. – Ələmdar ağlına gələn ilk sözü dedi.

– Allah rəhmət eləsin!

Ələmdar məsələnin dava – dalaşsız ötüşməsinə sevindi:

– Qız dərsdədir?

– Nə dərs? Soyuqlayıb yazıq uşaq. Yatır...

– Harada verib özünü soyuğa?

– Dünəndən yüngül soyuqlayıbmış. Gecə yatanda tərləyib. Məni çağırıb oyatmayıb ki, paltar verim dəyişsin. Heyvan balası, nə bilim, kimə oxşayıb dilsiz – ağızsızlıqda. Acsan?

– Hə! – Ac olduğu, elə bil, Ələmdarın indi yadına düşdü.– Yemək yeyib bir yerə baş çəkməliyəm.

– Yenə haraya?

– Dostumun bibisi oğlu var Bakıda, onu tapıb xəbər verməliyəm hadisəni.

– Sən niyə?

– Daha neyləyim, məndən xahiş elədilər.

Ələmdar üzünü qırxmaq üçün vanna otağına keçdi. Əminə arvad onun arxasınca gəlib:

– Mən Şamaxıya getmək istəyirəm, – dedi. – Əvvəl məni oraya yola sal, sonra öz işinlə məşğul olarsan.

Ələmdar təəccüblə anasına baxdı:

– Şamaxıya niyə gedirsən?

– Xalan xəstədir. Ona baş çəkmək istəyirəm.

Anası "xala" deyəndə öz əmisi qızını, yəni Reyhanənin anasını nəzərdə tuturdu.

– Yəni elə pisdir vəziyyəti? – Ələmdar səsini alçaldıb soruşdu.

– Hə... – anası kədərlə başını tərpətdi.

– Reyhanə bilir?

– Yox. Belə vəziyyətdə deməyin nə mənası var? Ayağa duran halı yoxdur ki getsin!?

Ələmdar heç bir şey anlamadı:

– Yaxşı, bəs sən qızı belə vəziyyətdə qoyub gedirsən?

– Məni nə sorğu-suala tutmusan? – anası acıqlandı. – Axşama qayıdacam. Reyhanəyə heç nə olmaz. Bir də ki, mənə bacım lazımdır. Məni yola sal, özün də təzədən itib batma! Uşağın da üstündə gözün olsun!

– Yaxşı, yola salaram. Sən get, hazırlaş.

Anası qalibanə bir yerişlə vanna otağından çıxdı. Ələmdar başını bulayıb bir müddət fikrə getdi. Sonra işə iri güzgünün qarşısında dayanıb üzünü qırxmağa başladı.

Sonra duşun altında yuyunub paltarlarını dəyişdi. Yemək otağına keçib anasının süfrəyə gətirdiyi yeməyi tələsik yedi. Anasına:

– Sən hazır ol, uşaqlardan birini göndərəcəm, – deyərək mənzildən çıxdı.

Həyətdə yadına düşdü ki, Reyhanənin yatdığı otağa girib, ona baş çəkmədi. Amma, bu saat fikri elə dağınıq idi ki, bu barədə düşünməyə heç vaxtı da yox idi. Maşını tutulduğu gündən klubun həyətində qaldığı üçün oraya taksi ilə getdi. Tələt klubun önündə





məşqçilərdən biri ilə söhbət edirdi. Ələmdarın gəldiyini görüb sevincək qarşısına yeridi:

– Xoş gəlmisən, qədeş! Həmişə azadlıqda!

Əl-ələ görüşdülər.

– Bəs niyə belə gec? Siz həyətdən çıxandan bir az sonra mən oraya xəbər verdim.

Tələt "oraya" deyəndə Xüsusi Məxfi şöbəni nəzərdə tuturdu. Bu sözləri astadan dedi ki, bir qədər kənarda dayanmış yoldaşı onun sözlərini eşitməsin.

Ələmdar başını buladı:

– Bilmirəm... Mənim vacib işim var. Getməliyəm. Burada işlər necədir?

– Yaxşıdır... – Tələt cavab verdi. – Amma həmin oğlan yenə gəlir. Əbilxanın oğlu... Başağrısı yaratmamaq üçün bir söz demədim.

– Mənim telefonumla maşının açarını gətir. – Ələmdar acıqlı səslə dedi. – Sonra öz uşaqlarına tapşır, onu yaxşıca döyüb rədd eləsinlər burdan!

– Oldu, qədeş!

– Özünsə get, anamı Şamaxıya apar. Evdə gözləyir.

– Baş üstə!

Tələt cəld hərəkətlə içəri keçib, tez də qayıtdı və telefonla maşının açarını Ələmdara verdi. Ələmdar bir qədər kənarda dayanmış «Nissan» a yaxınlaşıb qapını açdı. Tələtə:

– Anamı Şamaxıya aparıb, axşam yenə Bakıya qaytaracaqsan, – deyib sükanın arxasına keçdi.

Anasının bu hərəkətinin mənasını hələ ki, tam anlaya bilmirdi. Çünki əvvəllər Şamaxıya getmək, ya əmisi qızının vəziyyəti ilə maraqlanmaq heç yadına düşməzdi. Bəlkə Ələmdarla Reyhanəni evləndirmək məsələsini müzakirə etmək üçün gedirdi. Ancaq, belə bir müzakirənin mənası var idimi?..

Maşını bir də cinayətin baş verdiyi evin qarşısında saxladı. Dördüncü blokun qapısından girib üçüncü mərtəbəyə qalxdı. Burada iki qapı var idi. Üzərində 60 rəqəmi yazılmış qapının zəngini çaldı. Qapıdakı gözlüyün ortasındakı işıqlı nöqtənin bir anlıq yoxa

çıxmasından anladı ki, kimsə içəridən ona baxır. Ucadan:

– Mən Mövsümün iş yoldaşıyam. – dedi. – Xahiş edirəm, bir dəqiqəlik qapını açın!

Qapının arxasındakı adam bir anlıq götür-qoy etdi və nəhayət qapı açıldı. Bu, üzü çilli, ağ saçları açıq qəhvəyi rəngdə rənglənmiş bir qadın idi. Qarşısındakı yad adama qorxuqarışıq maraqla baxırdı:

– Sizə nə lazımdır?

– Mən hadisəni ötəri eşitdim. Öyrənmək istəyirəm ki, bu nə işdir yazıqların başına gəlib. İndi onlar haradadırlar? Rayona aparıblar, ya yox? – Ələmdar bütün bunları birnəfəsə deyib, tez də əlavə etdi: – Olar, içəri keçim?

– Keçin!... –qadın onu tərəddüdlə mənzilə buraxdı.

Ələmdar içəri keçdi. Bura orta təmirli, sadə bir mənzil idi. Ev sahibəsinin təklif etdiyi köhnə divanda oturdu. Mənzildə qadından başqa heç kəs yox idi, deyəsən. Ələmdar, otağa bir dəfə nəzər yetirməklə, qadının tək yaşamadığını, hətta oğlunun, qızının olduğunu bilsə də söhbət xatirinə soruşdu:

– Tək yaşayırsınız?

– Yox! – bir qədər aralıda stul çəkib əyləşən qadın cavab verdi. – Ərim, oğlum işdədi, qızım məktəbdə.

– Necə olub axı bu hadisə? – Ələmdar əsas məsələyə keçdi.

Ev sahibəsi çiyinlərini qısıb, dərindən ah çəkdi. Amma, hiss olunurdu ki, olanları danışmağa özünün də həvəsi var:

– Biz onda bildik ki, həyətdə səs-küy eşitdik. Əmrah gedib balkondan həyətə baxdı. Nurəddin öz balkonlarından atılıb qıçını sındırıbmış. Qonşunun oğlu.

– Əmrah kimdir?

– Oğlumu deyirəm də!... Tez qaçıb aşağı düşdü. Sonra ərim də getdi. Qayıdıb dedi ki, bəs belə... Polisə xəbər verdilər. Əmrah da təcili yardım maşınında Nurəddinlə getdi.

– Deməli, Nurəddindən başqa hamısını öldürüblər?

– Hə! Dördünü də bircə – bircə güllə ilə vurub canı yanmış. Həm də deyirlər, vuran adam polis paltarında olubmuş. Təkcə Nurəddin zirək tərpənib, özünü balkondan atıb.





Ələmdar özünü həddindən artıq təəssüflənmiş kimi göstərib başını yellədi:

– Bu zalım oğlu Mövsüm rayonda gül kimi işini buraxıb nahaq yerə gəlibmiş Bakıya. Özünə də demişdim. Ancaq, niyə köçüb gəlib, səbəbini də demək istəmirdi.

Ev sahibəsi, sanki onu kənar adam eşidəcəkmiş kimi, stulunu yaxına sürüşdürüb, səsini alçaltdı:

– Mən belə fikirləşirəm ki, qızına görə köçüb gəlmişdi bura. Amma, özü boynuna almaq istəmirdi.

– Qızına görə? – Ələmdar, sanki, təəccübləndi.

– Hə! Böyük qızı Xatirə ərindən boşanıbmış. Heç beş – altı ay yaşamayıblarmış.

– Nə olsun ki?

– Bilirsən, oğul, Mövsüm sənin iş yoldaşın idi, mənim qonşum. Açıq deyəcəm, o qızın özünü aparmağından, geyim – keçimindən heç gözüm su içmirdi. Elə kiçik bacısı da... Əmrah az qala ilişəcəkdi onlara. Öhdəsindən gələ bilmirdim. Əvvəlki qonşularımız bunlardan çox yaxşı idilər. Onların da iki qızı var idi. Ancaq, onlar belə deyildilər. Ayçöhrə qızları açıq xasiyyətli qız olsa da bir pis hərəkətini – filanını görməmişdim. Mən bunları pisləmirəm ha, oğlum, düz başa düş! Mövsum qardaş da, arvadı da, elə oğlanları da çox mehriban adamlar idilər. Gəldikləri üç gün deyildi, qaynayıb – qarışdıq. Heç əvvəlki qonşularımız belə deyildi, doğrusu. Şəmistan adında bir kişi idi, adama o qədər də yovuşan deyildi. Elə arvadı da! Yəni, onları da pisləmək fikrim yoxdur, ha!...

Ələmdar gördü ki, qadını dayandırmasa hələ çox danışacaq. Odur ki, onun sözünü kəsib sual verdi:

– Bəlkə bunların rayonda düşməni var imiş, ona görə köçüb gəliblər buraya?

–Ola bilər, oğul, ancaq mənim başa düşdüyümə görə, kişi abırlı kişi idi, ola bilsin elə qızlara görə işini-gücünü atıb yığışıbmış Bakıya. Burada heç kəs-heç kəsi tanımır axı!?

Ələmdar saatına baxdı. Saat 3-ə işləyirdi. Bu qadından əhəmiyyətli bir şey öyrənə bilməyəcəyini görüb soruşdu:

– Nurəddin indi xəstəxanadadır?

– Hə! Əmrah bu gün də gedib baş çəkib ona.

– Hansı xəstəxanadadır?

– Semaşkoda.

– Oğlunuz məni apara bilərmi onun yanına?

– Aparar, niyə aparmır? İş yeri yaxındır elə oraya.

– Onun telefon nömrəsini verin, bir də iş yerinin ünvanını. Həm də, xahiş edirəm, özünüz də zəng vurub tapşırın ona.

– Yaxşı, bu saat!

Nurəddini tapmaq Ələmdar üşün çətin deyildi. Ancaq Əmrahla da söhbət etmək istəyirdi. Həm də Nurəddini şübhələndirməmək üçün onun yanına Əmrahla getmək daha yaxşı olardı.

Qadın oğlunun telefon nömrəsini və iş yerinin ünvanını Ələmdara verdi. Sonra Ələmdar Əmraha zəng vurub telefonu ev sahibəsinə uzatdı. Qadın oğluna tapşırdı ki, rəhmətlik Mövsüm əminin iş yoldaşını xəstəxanaya aparıb Nurəddinin palatasını ona göstərsin.

Ələmdar ev sahibəsinə təşəkkür edib mənzildən çıxdı. 59 nömrəli mənzilin qapısına anı nəzər salıb pilləkənlə enməyə başladı. Həyətdə başını qaldırıb Nurəddingilin balkonuna baxdı. Balkon dəmir şəbəkə ilə örtülmüşdü. Buradan tullanmaq mümkün deyildi. Təəccüblə çiynini çəkib binanın o biri tərəfinə keçdi. Həmin mənzilin buraya baxan balkonu açıq idi. Nurəddinin oradan tullanarkən haraya düşə biləcəyini müəyyənləşdirib ətrafa göz gəzdirdi. Sonra səkinin kənarında saxladığı maşına əyləşib Əmrah adlı tanımadığı oğlanın iş yerinə sürdü.

Əmrah ortaboylu, ağbəniz bir oğlan idi. Ələmdarın zəngindən sonra işlədiyi ofisdən çıxıb gəldi və xəstəxanaya getmək üçün maşına əyləşdi. Ələmdar bu oğlanla necə danışmaq lazım gəldiyini tezliklə müəyyənləşdirib arada səmimi münasibət yaratdı.

– Sizin mənzilinizdə oldum. – dedi. – Anan, çox sağ olsun, kömək elədi. Dedim, heç olmasa, Mövsümün oğluna baş çəkim. Bir aydan artıq işçim olub yazıq Mövsüm.

–Yaxşı adam idi rəhmətlik... – Əmrah köksünü ötürdü.

– Hə! Sən bilən, kim olub bunu eləyən?





– Vallah, deyə bilmərəm. Bu gün səhər danışdırmaq üçün polisə çağırmışdılar məni. Əvvəlki qonşumuzu tutublar. Şəmistanı. Bunlara mənzili o satmışdı. Dünən gəlib Mövsümlə dalaşıbmış pul üstündə. Mövsüm mənzilin pulunun hamısını verməyibmiş hələ.

– Buna görə Şəmistan bütün ailəni qırmalıydı?

– Əlbəttə ki, ağlabatan deyil. Polisdir də... Şübhəli bir şey gördülər, adamı tutub salırlar o saat içəri.

– Sən Mövsümün qızları ilə yaxın olmusan! Yəni, heç danışmayıblar ki, rayondan niyə köçüb gəliblər?

– Yox... – Əmrah başını buladı. – Anam dedi sənə o qızlarla yaxın olmağımı?

– Hə! – Ələmdar oğlana tərəf dönüb göz vurdu. – Burada nə var ki? Cavan, subay oğlansan.

Əmrah bir qədər utancaq təbəssümlə gülümsədi:

– Onlarla elə – belə... Dostluq edirdik. Yəni, dostluq deyəndə ki, aramız yaxşı idi. Ancaq, evlənmək fikrim olmayıb heç biri ilə... Mənim istədiyim var.

– Yoxsa sənə də anan qız tapıb? Mənim anam kimi?

– Yox! – Əmrah bir anlıq tərəddüddən sonra ah çəkib dedi. – Əvvəlki qonşumuzun qızı idi.

– Görüşürsünüz? – Ələmdar bu oğlandan bacardığı qədər çox şey öyrənmək istəyirdi.

– Yox! Haraya köçdüklərini bildirməyiblər bizə.

Bu məsələ Ələmdarın marağına səbəb oldu.

– Niyə?

«Nissan» xəstəxananın darvazası önündə dayandı. Hər ikisi maşından enib darvazadan geniş həyətə daxil oldular və Ələmdar sualını bir daha təkrar etdi:

– Niyə vermədilər ünvanı? Axı, anan deyir, onlarla da yaxın olmusunuz!

– Bilmirəm, vallah! – Əmrah çiynini çəkdi. – Atam Şəmistandan soruşdu, amma o demək istəmədi. Dedi ki, iki günə özüm gəlib sizi qonaq aparacam, tanıyarsınız. Amma, o gedən oldular.

– Onun qızını doğrudan sevirdin? – Ələmdar Şəmistanın bu

işindən bir qədər şübhəyə düşsə də, söhbətin mövzusunu dəyişdi.

– Hə ...

– Adı nədir qızın?

– Ayçöhrə... – Qızın adını çəkəndə Əmrahın səsi azacıq titrədi.

– İş yerinə gedəydin. Ya oxuyursa, məktəbə.

– Universiteti bitirib. Heç yerdə işləmir. Haradasa bir az işlədi, sonra çıxdı işdən.

– Bəs atası?

– Atası kompüter ustasıdır. İş yerini bilmirdim.

–Ailənin başqa üzvləri yoxdur? Sevdiyin qızı axtarmaq istəsən, tapmağa nə var ki?

– Anası xəstədir. Kiçik bacısı Texniki Universitetdə oxuyurdu. Bir – iki həftə gedib yoldaşlarından soruşdum. Dedilər, dərsə gəlmir. Daha sonra getmədim.

Böyük xəstəxananın həyətində, ayrı-ayrı şöbələrin yerləşdiyi binaların arası ilə addımlayırdılar. Ələmdar söhbəti indi bir qədər fikirli halda davam etdirirdi:

– Qız da səni sevirdi?

– Nə bilim?... Əvvəl sevirdi, sonra nəsə oldu...

– Nə oldu?

– Heç!... – Əmrah duruxub, deməyə söz tapmadı. – Aramızda narazılıq oldu, küsüşdük.

– Elə iki bacıdırlar?

– Hə! Qardaşları yoxdur.

– Gözəl qızdır?

– Ayçöhrə? Əlbəttə, çox gözəldir.

– Onda axtarıb taparsan, hər şey öz yoluna düşər, Allah qoysa!

– Hə, axtaracam.

– Yəni, onun atası öldürər bu yazıqları?

– Yox əşi! Başıma girmir. Şəmistan bir az ciddi, qapalı adam idi. Amma belə iş tuta bilməz.

– Bilmirsən, qatil evdən nəsə aparıb, ya yox?

– Deyirlər, Mövsümün telefonu, bir də Nurəddinin noutbukundan başqa heç nə aparmayıb. İçəridə çox dayana bilməyib axı!? Nurəddin





balkondan tullandığına görə əclaf tez aradan çıxıb.

Bu da Ələmdarı çox maraqlandırdı. Axı Səid nəyə görə Nurəddinin noutbukunu götürməli idi? Ya, Mövsümün telefonunu? Bunlar onun nəyinə lazım idi?

Xəstəxana korpuslarından birinin qarşısına çatanda Əmrah qabağa düşüb:

– Nurəddin burada yatır. – dedi və qapıdan birinci girdi.

Palataya polis nəzarəti yox idi. Onlar içəri daxil oldular. Nurəddin ayağı sarıqlı halda çarpayıda uzanmışdı. Palatada ondan başqa daha iki xəstə yatırdı. Bir çarpayı isə boş idi.

Əmrah:

– Mən yenə gəldim. – dedi. – Bu, atanın iş yoldaşıdır. Səni görmək istədi, gətirdim.

Nurəddin maraqla Ələmdara baxdı. Keçirdiyi qorxu və sarsıntıdan bir günün içində gözləri çuxura düşmüş, rəngi saralmışdı. Ələmdar stulu onun çarpayısına yaxın çəkib əyləşdi:

– Bu nə işdi sizin başınıza gəldi, qardaş?

Nurəddin kövrəlib baxışlarını ondan yayındırdı:

– Bilmirəm...

– Sən o adamı gördün?

– Gördüm. Polis paltarı geyinmişdi. Arıq, qırışmış sifəti var idi.

– Danış görək, necə oldu bu?

– Axşam, təxminən, saat doqquz olardı. Mən həmişə yatdığım otaqda noutbukla məşğul idim...

–Noutbuku təzə almışdınız? –Ələmdar Nurəddinin sözünü kəsib ona da, Əmraha da yersiz görünən sualını verdi.

–Hə, iki həftə olmazdı heç. – Nurəddin bircə an dayanıb söhbətinə davam etdi. –Atam, anam, bacılarım o biri otaqda televizora baxırdılar. Televizorun səsi mənim otağıma da gəlirdi. Xocalı soyqırımı haqqında veriliş gedirdi. Qapının zəngi çalındı. Qapıya gedən, yəqin ki, atam olub. Mən noutbukda maraqlı oyun oynayırdım. Ona görə də ayağa qalxmadım. Birdən bacımın qışqırıq səsi gəldi. Xatirənin... Səs tez də kəsildi. Təxminən beş dəqiqə televizorun səsindən başqa heç nə eşitmədim. Sonra atamgil yatan

otağın qapısının səsini eşitdim. Ayaq üstə dayanıb otağımın qapısına baxırdım. Dəhlizə çıxmağa qorxurdum. Birdən qapı açıldı. Qapıda polis geyimində olan həmin adamı gördüm. O, məni görüb cəld geri çəkildi. Sonra yenidən göründü. Bu dəfə əlində tapança var idi. Mənə çox birtəhər baxırdı. Buz kimi soyuq, amansız gözləri var idi. Sol əlini, nəyə görəsə, pencəyinin cibinə saldı. Mən dönüb balkona tərəf qaçdım. Qapını açıb balkona çıxdım və özümü aşağı tulladım.

Ələmdar özünü daha artıq kədərli göstərmək üçün dərindən köks ötürdü.

– Arxanca güllə atdı o adam?

– Yox!

– Bəs əvvəl heç güllə səsi eşitmədin?

– Yox, televizor işləyirdi.

– Sonra nə oldu?

– Qışqırığımı eşidib bina sakinləri gəldilər. Əmrah, atası, başqaları. Təcili yardımla məni buraya gətirdilər. Mən ailəmizin qırılmağını bu gün səhər bildim.

Bunu deyib, yenə kövrəldiyi üçün alt dodağını dişlədi. Ələmdar nəyinsə barəsində düşündüyü üçün sualları pərakəndə halda verirdi:

– Rayonda yaşayanda düşməniniz var idi orada?

– Yox... Atam sakit adam idi. Bizim heç birimiz heç kimə pislik eləməmişdik.

– Atanın yaxşı adam olduğunu mən də bilirəm. Bəlkə... Bəlkə, burada erməni əli var? Sizin o kafirlərlə heç bir əlaqəniz – filan olmayıb ki?

Bu sualı eşidən və bayaqdan dinib – danışmayan Əmrah kinayə ilə gülümsədi. Deyəsən, o da, elə Nurəddin də adını bilmədikləri bu adamı ayam bir adam kimi tanımağa başlayırdılar.

– Yox, nə əlaqəmiz olacaq onlarla? – Nurəddin dedi.

– Atan döyüşdə olub? Ya sən özün?

– Yox, heç birimiz olmamışıq.

– Axı niyə elə gözəl yerləri qoyub köçdünüz Bakıya? – Ələmdar canı yanan adamlar kimi başını yırğaladı.

– Nə bilim...





– Axır bunun bir səbəbi olmalıdır, ya yox? – Ələmdar əl çəkmədi. – Mövsüm rəhmətlik deyirdi ki, orada gül kimi yaxşı işi varmış.

Nurəddin çətinliklə dilləndi:

– Bacımı istəyənlər var idi. Əl çəkmirdilər. Gedib – gəlirdilər. Ona görə köçdük.

– Hansı bacını?

– Xatirəni...

– O, deyəsən, ərindən boşanıb?

– Hə.

– Niyə?

– Nə bilim... Ərinin xasiyyəti tünd idi.

Bu zaman Ələmdarın cib telefonu zəng çaldı. Çıxarıb açdı. Zəng vuran Tələt idi:

– Qədeş, Əminə xalanı bacısıgilə qoydum. Mənə dedi ki, qayıdım Bakıya. Sabah yox, birisigün özü gələcək.

Ələmdar heç nə anlamadı:

– Necə? Sən indi haradasan?

– Şamaxıdan çıxıram.

– Sən xalamı gördün?

– Əminə xalanı bir qadın qarşıladı. Həyətdə öpüşüb – görüşdülər.

– Bəs o qadın xəstə deyildi?

– Yox!... – Tələtin səsində təəccüb nidaları duyuldu.

– Yaxşı, gəl Bakıya!

Hirslənmiş Ələmdar bunu deyib cavab gözləmədən telefonu qapadı. Ürəyində «Lənət sənə, kor Şeytan! Mən nə haydayam, bu arvad nə hayda!» deyib Nurəddinə baxdı. Deyəsən, onu yerli – yersiz sualları ilə bezdirmişdi. Ayağa qalxdı:

– Nurəddin, sən telefon nömrəni mənə ver, iş yoldaşlarımız yanına gəlmək istəyəcəklər. Birdən, lazım olar.

Nurəddin telefonunun nömrəsini deyib, əlavə etdi:

– Zəhmət çəkməsinlər, tez çıxacam buradan. Rayona getməliyəm. Dəfni görməsəm də, yasda iştirak etmək istəyirəm.

– Allah rəhmət eləsin!

Ələmdar Əmraha baxıb qapıya doğru getdi. Əmrah da Nurəddinə nəsə deyib onunla çıxdı. Darvazaya qədər heç nə danışmadan getdilər. Orada Ələmdar maşının qapısını açıb:

– Sən işə özün gedə bilərsən? – dedi. –Mən tələsirəm.

– Hə, gedərəm... – Əmrah pərt halda cavab verdi.

– Onda sağ ol! O qızı da əgər doğrudan sevirsənsə, axtar tap! Hər şey düzələr, yəqin ki.

Bunu deyib maşına əyləşdi və onu evə sürdü. Anasının hərəkəti və Nurəddindən əhəmiyyətli bir məlumat ala bilməməsi onun qanını əməlli-başlı qaraltmışdı.

## ON BEŞİNCİ FƏSİL

Qapını açarla açıb içəri daxil oldu. Mənzildə tam sakitlik idi. Nazik dəri gödəkçəsini soyunaraq asılqandan asdı. Vanna otağına keçib əl-üzünü yudu. Yalnız bundan sonra anasına məxsus yataq otağının qapısını döyüb içəri girdi. Reyhanə yatağında arxası üstə uzanıb yorğanı üstünə çəkmişdi. Ələmdarın otağa daxil olduğunu görüb sakit baxışlarını ona zillədi.

Bu qızın, ümumiyyətlə, çox sakit təbiəti var idi. Bəzən, Ələmdara elə gəlirdi ki, onu dünyada heç nə heyrətləndirib özündən çıxara bilməz. Dinib-danışmağı, deyib-gülməyi xoşlamırdı. Elə indi də heç nə demədən iri ala gözlərini Ələmdara zilləyib, qurumuş, ətli dodaqlarını dili ilə yalayırdı.

Ələmdar yaxınlaşıb əlinin arxasını onun alnına toxundurdu. Qızın hərarəti var idi.

– Deyəsən, özünü yaman soyuğa vermisən. – deyib, şkafın kiçik rəfindən termometri götürdü. – Al, mən deyənə qədər qolunun altında saxla!

Reyhanə termometri dinməzcə alıb qoltuğuna qoydu. Yalnız





qızarmış yumru yanaqlarının titrəməsindən və dodaqlarını gəmirməyindən həyəcanlı olduğu hiss edilirdi.

Ələmdar saata baxıb:

– Qoy, beş dəqiqə qalsın! – dedi və o biri otağa keçdi.

Stolun üstündəki qrafindən stəkana meyvə şirəsi süzüb başına çəkdi. Otaqda bir qədər gəzişəndən sonra arxası üstə uzanıb əllərini başının altına qoydu və bayaq Nurəddinlə olan söhbəti barədə düşünməyə başladı.

Deməli, polkovnik Baratovun və üstəlik də Nurəddinin dediklərindən belə məlum olurdu ki, bu bədbəxt ailəni qətlə yetirən Səiddir. Xocalı qırğını zamanı əsir düşən və ermənilərə satılıb terrorçu qrupa qoşulan Səid Namazov... Amma niyə? Nə üçün?! Buna tutarlı bir səbəb görünmürdü axı!? Səidin vəziyyətində olan adam kimdənsə şəxsi intiqamını ala bilməzdi. O, kimlərəsə tabe idi və sözsüz ki, kimlərinsə göstərişini yerinə yetirmişdi.

Bayaq Nurəddinin dediklərində bir şey Ələmdara qəribə görünmüşdü. Nə idi o? Hə, qatil Nurəddini görəndə, bu oğlanın tamamilə silahsız olmasına baxmayaraq, əvvəlcə geri çəkilibmiş. Sonra isə tapançasını əlində tutduğu vəziyyətdə yenidən görünübmüş. Əvvəlcə tapança yox imiş əlində. Bu nə demək idi?... Bu, hər halda, o demək idi ki, qatil, yəni Səid həmin otaqda kiməsə rast gələcəyini gözləmirmiş. Ailə üzvlərinin hamısını qırıb qurtardığını düşünürmüş. Bəs bu nə demək olurdu? Deməli, Səidə ailə üzvlərinin sayını deməyiblərmiş. Bu isə, Ələmdarın fikrincə, onu göstərirdi ki, Səidə qətl barədə göstəriş verən adam, yaxud gizli təşkilat Mövsüm haqqında geniş məlumata malik deyilmiş. Onda onlar nə üçün Mövsümü və ailəsini məhv etmək istəyirlərmiş? Nə üçün bu işi bir gün əvvəl Bakıya gəlmiş və hələ təşkilatın içinə daxil olmamış Səidə tapşırıblar? Onu sınaqdan keçirmək üçünmü? Ola bilərdi...

Ələmdar Bakıda gizli fəaliyyət göstərən erməni təşkilatının olduğuna qəti şəkildə inanırdı. Düşünürdü ki, Səid Bakıya başqa adla gəlibsə, deməli xain məqsədlərlə gəlib və şəhərdə onun arxasında duran qüvvələr olmasa, o heç bir məqsədini həyata keçirə bilməz.

Amma, bu gizli təşkilatın Qazaxdan yenicə köçüb Bakıya gəlmiş Mövsüm kimi adi və yazıq bir adamla nə işi ola bilərdi?

Yenə bayaqkı şübhəsinə qayıtdı. Səid Nurəddini otaqda görəndə niyə geri çəkilmişdi?... İndi bayaqkı fərziyyələri özünə də gülünc göründü. Necə yəni, ailə üzvlərinin sayını bilmirdi? Əgər bilmirdisə, niyə bütün otaqları gəzməmiş hamını öldürdüyünə arxayın olmuşdu?!...

Yaxşı, onda belə çıxırdı ki, Səid Mövsümün ailə üzvlərinin sayını, kimlərdən ibarət olmasını bilirdi? Axı heç bu da məntiqlə düz gəlmirdi. Əgər bilirdisə, Nurəddini axtarmalıydı axı!? Yox, elə, doğrudan da, axtarırmışsa, niyə onu görəndə özünü itirib geri çəkilməliydi? Niyə tapançasını cibinə qoymuşdu?

Fitri duyma qabiliyyəti ona deyirdi ki, məhz elə bu nöqtə, dolaşıq düşmüş kələfin bu düyünü onu baş vermiş qətlin sirrinin açılmasına aparıb çıxaracaq. Onu da anlayırdı ki, əgər bu sirri aça bilsə, tezliklə Səidin özünü tapa biləcək. Amma nə idi bu sirrin açarı? Səid Nurəddini öldürməmiş tapançasını cibinə nə üçün qoymuşdu? Təsadüfənmi? Yox, elə şey ola bilməzdi!

Bakıya zəng vurub Səidin gəlişini xəbər verən qadın haqqında düşündü. Baratovun fikrincə, bu qadın Səidin öz anası olmalı idi. Deməli, bu qadın çox vətənpərvər bir qadındır. Bəs əgər belədirsə və o, əsirlikdə Səidlə bir yerdə olubsa, niyə bir ana kimi ona təsir edə bilməyib ki, oğlu Bakıya gələn kimi dövlət orqanlarına təslim olsun? Yox, əgər bir yerdə olmayıblarsa, haradan bilib oğlunun Bakıya göndəriləcəyini?...

Birdən düşüncələrindən ayrılıb saatına baxdı. Termometrin qoyulmasından on beş dəqiqəyə yaxın vaxt ötürdü. Cəld ayağa qalxıb yataq otağına keçdi. Reyhanə yatağında sakitcə uzanıb gözlərini tavana zilləmişdi. Yaxınlaşıb çarpayının yanında dayananda da qımıldanmadı. Əlamdar başını bulayıb gülümsəyərək əlini ona uzatdı:

– Ver görüm!

Reyhanə termometri qolunun altından çıxarıb verdi. Ələmdar şkalaya diqqətlə nəzər salıb heç nə demədən cihazı şkafa qoydu.





Hərarətin göstəricisi yüksək idi.

– Nə qədərdir? – Bu bayaqdan bəri Reyhanənin dediyi ilk söz oldu.

– Otuz səkkizi keçib.

Ələmdar bunu deyib otaqdan çıxdı və nə edəcəyini düşündü. O,anasının məqsədini yavaş-yavaş anlamağa başlayırdı. Dediyini həmişə, nəyin bahasına olursa-olsun, yeritməyi bacaran qadın Reyhanənin möhkəm soyuqladığını bilirmiş. Əmisi qızının xəstəliyini bəhanə edərək Şamaxıya getməkdə məqsədi Reyhanəni Ələmdarla tək qoymaq imiş. Yaxşı bilirdi ki, Ələmdar qızın vəziyyətini görüb laqeyd qalmayacaq və müalicə üçün tədbir görəcək. Qıza qulluq etməyə məcbur olacaq və beləliklə də onunla Reyhanə arasında isti münasibət yaranacaq. Bütün bunları anlayan Ələmdarın anasına acığı tutdu.

Amma qızı da belə halda köməksiz qoymaq olmazdı. İstədi ki, təcili yardıma zəng vursun. Telefon aparatına yaxınlaşdı. Birdən düşündü ki, həkimin gəlib getməsi onun xeyli vaxtını alacaq və o, Səid barədə fikirləşib bir qərara gələ bilməyəcək. Fikirləşdi ki, ilk tibbi yardımı qıza özü göstərsin. Onun bu işdə az – çox təcrübəsi var idi və Reyhanənin xəstəliyinin soyuqdəymədən başqa bir şey olmadığını düşünürdü. Yox! Hər halda, həkim çağırsaydı daha yaxşı olardı. Birdən başqa bir xəstəliyin əlaməti oldu bu hərarət!?

Təcili yardıma zəng vurub Reyhanənin vəziyyətini və ünvanı bildirdi. Dəstəyi yerinə qoyub elə oradaca divara söykəndi. Qollarını sinəsində çarpazlayıb yenə də dünən axşam baş vermiş qətl hadisəsi barədə düşünməyə başladı.

Bəlkə bu adi bir terror əməli idi? Bəlkə Mövsümün ailəsi təsadüfən seçilmişdi? Yox, bu ağlabatan söhbət deyildi. Səidə məhz həmin ailənin məhv edilməsi göstərişi verilmişdi və buna ciddi bir səbəb olmalı idi. Bəs nə idi bu səbəb?

Yenə Nurəddin adlı o oğlanın dediklərini yadına saldı. Səid qapını açıb Nurəddini otaqda görəndə əvvəlcə cəld geri çəkilib. Sonra əlində tapança tutmuş olduğu halda yenidən görünüb. Sol əlini cibinə aparıb. Niyə? Niyə sol əlini cibinə aparıb? Aha! Bircə dəqiqə...

Cib telefonunu götürüb, öz nömrəsini gizlətməklə Nurəddinə zəng vurdu.

– Salam, Nurəddin, mən bayaq yanına gələn adamam. Atanın iş yoldaşı...

– Hə, tanıdım! – Nurəddin cavab verdi.

– Yanında kimsə var?

– Yox.

– Nurəddin, mən bayaqdan sənin danışdıqların barədə fikirləşirəm, amma heç nə anlaya bilmirəm. Sən deyirsən, o adamı əvvəl görəndə əlində silah yox idi?

– Hə, yox idi.

– Sonra gördün ki, əlində tapança tutub?

– Hə!

– Tapançanın lüləsinə səsboğan taxılmışdı?

– Yox!

– Dəqiq yadındadı?

– Hə, dəqiq yadımdadı. Niyə soruşursunuz bunu?

– Heç! Axı necə olub ki, sən güllə səslərini eşitməmisən?

– Nə bilim?... Yəqin ki, televizorun səsinə görə.

– Yaxşı, elə bunu soruşmaq istəyirdim. Sağ ol!

Telefonu qapadı. İndi, lap yəqin, Nurəddin adlı o oğlan düşünəcəkdi ki, atasının iş yoldaşı olmuş bu adamın başı xarabdır. Cəhənnəmə ki! Nə düşünür, qoy düşünsün!

Amma, onun dediyi televizorun səsi məsələsi boş şey idi. Sözsüz ki, qatil Nurəddinin ailə üzvlərini vuranda tapançada səsboğan olub. Bunu, polkovnik Baratovun deməyinə görə, polis də müəyyənləşdiribmiş. Yəqin, Səid ailənin dörd üzvünü vurandan sonra səsboğanı tapançadan açıb və onu da, tapançanı da cibinə qoyub. Nurəddini görəndən sonra əlini sol cibinə aparanda elə səsboğanı götürmək istəyirmiş. Bəlkə elə buna görə də gecikib və Nurəddini vura bilməyib.

Amma...

Bir fikir Ələmdarı rahat buraxmırdı. Onun fikrincə, Səid hətta Nurəddini görəndən sonra da bu oğlanı öldürməyə cəhd göstərməyib.





Yoxsa o, balkona doğru qaçan Nurəddini arxadan asanlıqla vura bilərdi. Lap səsboğansız olsa da...

Həm də, niyə axı o səsboğanı çıxarmışdı? Niyə bütün otaqları gəzməmiş, ailə üzvlərinin hamısını öldürdüyünə əmin olmamış tapançanı cibinə qoymuşdu?...

Qapının zəngi çalındı. Ələmdar düşüncələrini yarımçıq qoymağa məcbur olub qapını açmağa getdi. Gələn gənc bir həkim oğlanla cavan tibb bacısı idi. Onları Reyhanənin yatdığı otağa ötürdü.

Həkim xəstənin hərarətini bir daha ölçdü. Gözlərinin içini, dilini diqqətlə müşahidə etdi. Tibb bacısına nə dedisə o, dərhal iynə vurmağa hazırlaşdı. Ələmdar qapının ağzında dayanmışdı. Tibb bacısı yorğanı qaldırıb Reyhanəyə ağzı üstə çevrilməyi tapşıranda bu biri otağa qayıtdı.

İstər-istəməz, fikrinin çox hissəsi baş vermiş cinayətdə idi. Fikirləşirdi ki, polis Şəmistanı həbs edib və bu cinayətdə ondan şübhələnir. Şəmistan kompüter ustası idisə noutbukun evdən aparılması polisdə onun əleyhinə əlavə şübhə yaradacaqdı.

Deməli, həmin mənzili Mövsümə Şəmistan satıb. Mövsüm mənzilin pulunun bir hissəsini hələ də ödəməyib. Şəmistan bununla əlaqədar Mövsümlə dalaşıb. Elə bu səbəbdən də, polis tərəfindən saxlanılıb. İndi onu polisdə dindirirlər. O da, çox güman ki, and–aman eləyib bu işdən, yəni qətl işindən xəbəri olmadığını deyir. Ailəsi də, yəqin, çox narahatdır indi. Arvadı, iki qızı...

Ələmdar birdən nə düşündüsə, sanki yuxudan ayıldı. Otaqdan dəhlizə, dəhlizdən otağa girib-çıxaraq, sanki, özü-özüylə danışırdı.

– Arvadı, iki qızı...

Dəhlizdə getməyə hazırlaşan həkimlə üz-üzə gəldi. Həkim əlindəki kiçik vərəqi ona uzatdı.

– Burada yazdığım iynə gündə iki dəfə olmaqla beş gün əzələyə vurulmalıdır. Bu gün, yatmazdan əvvəl birini vurdurarsınız. Həbləri isə necə qəbul etməyi burada yazmışam.

– Nədir xəstəliyi, doktor? – Ələmdar fikirli halda soruşdu.

–Soyuqdəymədir. – həkim dedi. – Dediklərimi eləsəniz keçib gedəcək.

Nə qədər ödəyəcəyini öyrənib həkimin pulunu verdi. Onları qapıdan yola salıb yenə geri qayıtdı. Ona elə gəlirdi ki, artıq, nəsə tapıb və hər şey düşündüyü kimi olsa tezliklə Səidlə üz–üzə gələ biləcək. Amma, heç sevinmirdi. Üstəlik, hər şeyin belə sadə olması onu şübhəyə salırdı. Hələ bir az da dərindən fikirləşməyə ehtiyac var idi.

Yataq otağına girib çarpayının yanına qoyulmuş stulda əyləşdi:

– Narahat deyilsən ki?

– Yox. –Reyhanə astadan dilləndi. –Yaxşıyam...

– Özünü qoru, üstünü açıb soyuğa vermə, sağalacaqsan.

– Əminə xala hara gedib?

– Gəzməyə! –Ələmdar yarıkinayəli halda cavab verdi.

Qız daha heç nə soruşmadı. Onun üzündə həmişə donuq bir ifadə olurdu. Hisslərini həmişə gizlətməyə çalışırdı, elə bil. Amma, əslində, ürəyindən keçənləri gizlədə də bilmirdi. Çox xoşladığı oğlanla təklikdə qaldığı üçün bu saat nələr düşündüyü və həmin düşündüklərinə görə necə həyəcanlandığı təmiz gözlərindən oxunurdu.

– Acsan?

Ələmdar bu saat, daha çox, Səidi necə tutacağı barədə düşünmək istəyirdi. Amma, artıq axşam yeməyinin vaxtı idi və qızın ac olduğunu yadına salıb bu sualı verdi.

– İştahım yoxdur. – qız onun üzünə baxmadan cavab verdi.

– Olmasa da bir-iki tikə yeməlisən. – Ələmdar dedi. – Yoxsa lap zəifləyərsən.

Ayağa qalxıb mətbəxə getdi. Anası toyuq supu bişirib soyuducuya qoymuşdu. Kiçik qazançanı götürüb, içindəki xörəyi qızdırdı. Boşqaba töküb yataq otağına apardı. Boşqabı stulun üstünə qoyub:

– Yerində dikəl, bunun hamısını ye! – dedi.

Reyhanə utandığından qızardı:

– Qalx görüm! – Ələmdar qızın dikəlib yerində oturmağına kömək etdi. Reyhanənin əynində üzərində xırda güllər olan ağ rəngli pambıq parçadan yataq donu var idi. Oğlan onun kürəyini və ön hissəsini yorğanla bürüyüb xörəkdən bir qaşıq götürdü. Reyhanə bundan daha çox utanıb başını silkələdi:





– Özüm içərəm!

– Yaxşı, al, özün iç! – Ələmdar boşqabı qızın əlinə verdi.

Reyhanə xörəkdən içməyə başladı. Hiss olunurdu ki, Ələmdarın yanında çox sıxılır. Xörək isti olduğu üçün ağzını yandırırdı. Amma, buna baxmayaraq, tez içib qurtarmaq istəyirdi ki, bu əzabı da sona yetsin. Ələmdar fikirli olduğu üçün, deyəsən, bunu anlamırdı. Birdən yadına düşmüş kimi:

– Vay, çörək yadımdan çıxıb! – dedi. – Bu saat gətirərəm!

Ancaq, Reyhanə toyuq suyunu artıq içib qurtarmaq üzrə idi. Ələmdarın gətirdiyi çörək dilimindən bir dişləm alıb xörəyi qurtardı və boşqabı ona uzadıb:

– Çox sağ ol! – dedi.

Ələmdar boşqabı mətbəxə aparıb stolun üstünə qoydu. Öz otağına keçib cib telefonu ilə kapitan Elsevər Yusifova zəng vurdu.

– Eşidirəm, cənab mayor! – telefonda Yusifovun səsi eşidildi.

Məxfi şöbənin ən bacarıqlı, gizli agenti mayor Ələmdar Məlikov belə rəsmi müraciətə öyrəşə bilmirdi. O, hələ gənc idi. Məxfi şöbədə ona Leopard, qalan yerlərdə isə sadəcə Ələmdar deyirdilər. Amma, indi bunları düşünmək vaxtı deyildi.

– Qulaq as, Elsevər, – dedi. – Mənə Şəmistanın hazırki dəqiq ünvanı lazımdır. Şübhəli şəxs kimi polisdə həbs olunan adamın.

– Oldu! – Yusifov cəld dilləndi. – Təcili öyrənərik.

– Gözləyirəm.

Bunu deyib telefonu qapadı. Mətbəxə gedib özü üçün xörək hazırladı və elə oradaca oturub axşam yeməyini yedi.

Sonra Reyhanəyə baş çəkmək üçün yataq otağına keçdi. Qız yorğana elə bürünmüşdü ki, yalnız pörtmüş sifəti açıqda qalmışdı. Alnında və yanaqlarında xırda tər damcıları görünürdü.

– Tərləmisən? – deyə soruşdu.

Reyhanə başını tərpətdi. Soyuğun qorxusundan qollarını da yorğandan çıxara bilmirdi. «İşə düşmədik?»... – deyə ürəyindən keçirən Ələmdar:

– Paltarların haradadır? – dedi.

Qız susub dodaqlarını gəmirməyə başladı.

– Deyirəm, paltarların haradadır?

– Şkafda.. – kövrək səslə, astadan dilləndi. – Altdakı rəfdə.

Şkafı açıb oradan dəyişik üçün lazım olan paltarları və iri hamam dəsmalını götürdü. Qıza yaxınlaşıb:

–Dikəl, görüm! – dedi. – Paltarlarını çıxart, qurulan, təzəsini geyin!

Reyhanə yerində dikələndə Ələmdar onu utandırmamaq üçün üzünü yana çevirdi. Bir neçə an sonra başa düşdü ki, qız yataq köynəyini əynindən çıxara bilmir. Köynək tərdən islandığı üçün bədəninə yapışmışdı. Kömək etməyə məcbur oldu. Köynəyin aşağı hissəsini əliylə tutub yuxarı çəkməyə başladı. Qız buna etiraz etməsə də, utandığından haldan – hala düşürdü. Ələmdar yaş paltarı qızın başından sıyırıb stulun üstünə atdı və dəsmalla onun yorğandan açıqda qalan, beldən yuxarı çılpaq bədənini bürüdü:

– Tez qurulan, soyuq olmasın! – dedi.

Reyhanə çox asta qurulanırdı. Deyəsən, həyəcandan özünü lap itirmişdi. Ələmdar buna da kömək etmək məcburiyyətində qaldı. Qızın kürəyini dəsmalla qurulayıb şkafdan götürdüyü quru köynəyi əyninə keçirdi və:

– Uzan, üstünü çox bürümə, yenə tərləyərsən. –deyə tapşırdı.

Reyhanənin səsi çıxmırdı. Elə bil dili tutulmuşdu. Kürəyi üstə uzanıb yorğanı üstünə çəkdi. Ələmdara baxmağa utandığı üçün gözlərini açıq qapıya dikdi. Bu gözlərdə gizli bir bəxtəvərlik həzzinin nişanələri duyulurdu.

Ələmdar onun keçirdiyi hisslərdən xəbərsiz deyildi. Bilirdi ki, Reyhanə bu saat nə düşünür. Bilirdi ki, yaxın qohumu olan bu qız artıq öz aləmində qəlbini də, ruhunu da, vücudunu da ona təslim edib. Bunun üçün Reyhanəyə, daha çox isə öz anasına acığı tuturdu. Düşünürdü ki, on doqquz yaşlı bu qızın o qədər də günahı yoxdur. Onun da sevməyə, sevilmək istəməyə haqqı var. Ancaq gərək anası bu qızı yolundan döndərib çaşdırmayaydı.

Nə qədər ki gec deyildi, anasının səhvini düzəltməyə qərar verdi. Stulda oturub qızın əlini əlinə aldı.

– Reyhanə!





– Hə?...

– Sən çox yaxşı qızsan...

Reyhanənin əli yaman isti idi. Qız onun üzünə yox, nədənsə, sinəsinə baxırdı. Ələmdar istəyirdi Reyhanə ilə söhbət edib onu öz bacısı kimi qəbul etdiyini desin. Ona anlatsın ki, xalasının, yəni Ələmdarın anasının sözlərinə uyub başqa fikrə düşmək pis nəticə verər. Qız heç bir cavab vermədi. Onsuz da qızarmış yanaqları bir az da allandı.

– Bilirsən, mən sənin xətrini çox istəyirəm. – Ələmdar, deyəsən, fikrini çatdırmaqda çətinlik çəkirdi.

Qızın əli hələ də Ələmdarın əlində idi. Bu sözləri eşidəndə utandığından üzünü divara çevirib astadan dilləndi:

– Mən də...

Ələmdar düşündü ki, deyəsən, qız onu səhv başa düşür. Ona görə də mətləbə tez keçmək istədi:

– Sən ağıllı qızsan. Yəqin ki, hər şeyi başa düşürsən...

Deyəcəyi sözlər ağzında qaldı. Özüylə gətirib anasının çarpayısı üstünə qoyduğu cib telefonu zəng çaldı. Ayağa qalxıb, telefonu götürərək o biri otağa keçdi. Zəng vuran kapitan Yusifov idi.

– Cənab mayor, – dedi. – Şəmistanın yeni ünvanını polisdən öyrəndik. Yaza bilərsiniz...

– Dayan, görüm! – Əsəbi səslə dillənən Ələmdar oradan öz otağına keçib qələm götürdü və kapitanın diqtə etdiyi ünvanı bloknotuna yazdı.

Başa düşdü ki, qızla söhbəti çox pis yerdə yarımçıq qaldı. Reyhanə onu başqa cür başa düşə bilərdi. Qayıdıb söhbətini davam etdirmək istədi. Amma, bütün belə söhbətlərə marağı ölmüşdü. Bu saat daha çox öz üzərinə götürdüyü axtarış barədə narahat idi.

Mənzildən çıxıb həyətə endi. Hava tamam qaralmışdı. Binanın o biri tərəfinə keçib səkidə bir qədər gəzişdi. Soyuq fevral axşamı olsa da, hava sakit idi. Mənzilə nisbətən burada daha yaxşı düşünə bilirdi. Amma çox da düşünməyə ehtiyac hiss etmirdi. Qərara gəldi ki, sabah hökmən Şəmistan və onun ailəsi barədə maraqlansın. Bir də qərara gəldi ki, sabah fikrini qətiləşdirənə qədər öz fərziyyəsi barədə

polkovnik Baratova heç nə deməsin.

Qonşu binanın birinci mərtəbəsindəki aptekdən həkimin Reyhanə üçün yazdığı iynə-dərmanı aldı. Öz binalarının altındakı mağazadan isə səhər yeməyi üçün bəzi şeylər alıb mənzilə qalxdı.

Aldığı şeyləri yerbəyer edəndən sonra anasının yataq otağına girdi. Reyhanə sakitcə uzanıb gözlərini yummuşdu. Bu dəqiqə haqqında düşündüyü xalası oğlunun içəri girdiyini duyub gözlərini açdı və utancaq təbəssümlə gülümsədi. Ələmdar onun halını soruşdu:

– Necəsən?

– Yaxşı. – qız zəif səslə cavab verdi.

– Aclığın var?

– Yox.

– İynə-dərmanın vaxtıdır.

Bunu deyib qızın içəcəyi həbi və bir stəkanda su gətirdi. Sonra isə şprisi hazırlayıb çarpayıya yaxınlaşdı.

– Çevril, görüm...

Qız duruxdu. Ələmdar bunu ciddimi deyirdi?...

– Çevril görək, utanma! Mən özgə deyiləm ki!?

Reyhanə yavaş-yavaş ağzı üstə çevrildi. Ələmdar sol əli ilə yorğanın bir tərəfini açıb, qızın köynəyini yuxarı dartdı. Reyhanənin cazibədar bədəni oğlanda ona qarşı heç bir intim hiss oyatmırdı. O, qarşısında yalnız xəstə xalası qızını görürdü. Lakin, eyni zamanda, onun gözəlliyini də qiymətləndirir və düşünürdü ki, Reyhanə kimisə xoşbəxt edə biləcək .

Alt paltarını bir qədər aşağı çəkdi. Spirtlə islatdığı pambığı qızın yumşaq ətinə sürtüb tərəddüd etmədən, cəld hərəkətlə iynəni ətə batırdı. Bu zaman qız heç ufuldamadı da. Dərmanı bədənə yeridəndən sonra paltarı yerinə çəkib:

– Çevrilə bilərsən! – dedi.

Reyhanənin üzü od tutub yanırdı. Amma, bu indi qızdırmadan yox, həya hissindən idi. Gözlərində oxunan bəxtəvərlik isə daha da çoxalmışdı.

– Sənə bir şey lazımdır? – Ələmdar bacardığı qədər çalışırdı ki, qızla mehriban davransın.





– Yox... Çox sağ ol!...

– Onda, yat! Gecə bir şey lazım olsa, tərləyib-eləsən, məni mütləq çağır. Sənin telefonun hardadır?

– Termonun üstündə. –qız başı ilə göstərdi.

Ələmdar onun telefonunu gətirib stulun üstünə qoydu:

– Lap istəsən, telefonuma zəng vur. Çəkinmə! O saat gələcəm. Yaxşı?

– Yaxşı...

– Gecən xeyrə qalsın!

– Xeyrə qarşı!

Ələmdar işığı söndürərək otaqdan çıxıb qapını örtdü. Vanna otağına keçib əl-üzünü yudu, dişlərini təmizlədi. Öz otağına girəndə yatmazdan qabaq Orxana zəng vurdu:

– Alo! Orxan, sabah səhər saat 8-də səni Fizuli meydanının qarşısında gözləyəcəm. Gecikmə!

Sonra soyunub yatağına uzandı. Əllərini başının altına qoyub dərin fikrə getdi. On yeddi il düşmən əsirliyində olmuş bir adamın, yəni Səidin barəsində düşünürdü. Düşünürdü ki, bu adam on yeddi il ərzində öldürülməyibsə, deməli, ya düşmənə tamamilə satılıb, əqidəsini dəyişib, ya da ümumiyyətlə, insanlığını itirib. Elə də olsa, belə də, Ələmdarın fikrincə, o, indi düşmənin özündən daha qorxulu idi.

## ON ALTINCI FƏSİL

Orxan Füzuli meydanında Ələmdardan ayrılandan sonra axtarıb, ona verilmiş ünvan əsasında, Şəmistanın yaşadığı həyəti tapdı. Bir maşının güclə keçə biləcəyi dar dalana açılan qapıdan həyətə boylananda burada bir yox, bir neçə ailənin yaşadığını anladı. Həyətdə heç kəs görünmürdü. Görəsən, Şəmistan adlı həmin şəxsin evi qapısı kiçik həyətə açılan bu birmərtəbəli, üstünə qır basılmış

evlərin hansı idi? Ələmdar bu barədə ona heç nə deməmişdi.

Qapıdan aralanıb bir qədər fikirləşdi. Geri qayıdıb bir də qapıdan baxanda həyətdə çox çətinliklə yeriyən yaşlı bir kişi gördü. Kişi qapısı həyətə açılan tualetdən çıxırdı. Orxan özünü cəld ona çatdırdı:

– Sabahın xeyir, ay əmi!

Qoca diksinib ona təəccüblə baxdı:

– Aqibətin xeyir!?...

– Mənim bir məktəb yoldaşım buralarda yaşayır. Süsən adında qızdır. Bəlkə tanıyırsan? Atasını da həbs eləyiblər.

Kişi titrəyən əlini qapılardan birinə uzatdı. Bu, həyət qapısından ən uzaq ev idi.

– Mən Süsən-zad tanımıram, ay bala. Ancaq bu evdəki kişini dünən tutub aparıblar. İki qızı var. Bəlkə, onu deyirsən?

Orxan onun göstərdiyi qapıya baxdı. Elə bu an həmin qapıdan gənc bir qız çıxıb, onların üzünə də baxmadan yanlarından keçdi və sürətlə həyətdən çıxdı. Üzü Orxana tərəf olan kişi, deyəsən, qızı görmədi. Özünü itirən Orxan qızın dalınca qaçmaq istədisə də, kişini şübhələndirməmək üçün dözüb dayandı.

– Yox, ay əmi, mən deyən qızın atasını bir ildən çoxdur tutublar. Rüşvət üstündə.

– Onda bu deyil. Bu kişi adam öldürüb. Bir ailəni qırıb, deyirlər.

Daha kişinin nə dediyini eşitmədi. Cəld həyətdən çıxıb ətrafına boylandı. Dar dalanda göyərti satan bir qadından başqa heç kəs yox idi. Yüyürüb ən yaxın küçəyə girdi. Qız burada da görünmürdü. Möhkəm dilxor oldu. Düşündü ki, gərək qızı görən kimi kişinin sözünü ağzında qoyub onun dalınca düşəydi.

Amma, Ələmdar demişdi ki, bu evdə iki qız yaşayır. Bu qızlardan hər hansı biri evdən çıxarsa, Orxan onu izləyib, haradasa, yaxınlıqda olan Ələmdara telefonla xəbər verməli idi.

Geri qayıdıb açıq qapıdan həyətə göz qoymağa başladı. Bir qədər həyəcanlı idi. Əgər kimsə onu görüb burada nə üçün dayandığını soruşsaydı nə deyəcəyini bilmirdi.

Konkret bir bəhanə düşünməsə də, kor-koranə həyətə girdi. Həyətdə adam yox idi. O qocadan başqa rastına kim çıxsaydı, yenə bayaqkı sözləri deyəcəkdi. Yox, əgər qoca çıxsaydı... Onda da, yəqin ki, bir söz tapardı. Artıq saat 9-un yarısı olsa da həyətə çıxan yox idi. Orxan fikirləşdi ki, deyəsən, bu həyətdəkilərin hamısı yuxudan gec durur.

Həyətin o biri başındakı kiçik hamamdan bir qız çıxıb həmin evə, yəni Şəmistanın evinə girdi. Qız mavi rəngli idman geyimində idi. Əlində iri hamam dəsmalı tutmuşdu. Uzun, şabalıdı saçları çiyinlərinə tökülmüşdü. O, arxaya baxmadığı üçün Orxanı görə bilməzdi. Elə Orxan da onun üzünü görə bilmədi. Qız evə elə cəld hərəkətlə girmişdi ki...

Bu qız, lap yəqin, Şəmistanın qızı idi. İndi, Orxan əgər onu küçədə görsəydi, tanıya bilərdimi? Qız küçəyə çıxarsa, hər halda, bu geyimdə çıxmayacaq, saçlarını da beləcə çiyinlərinə tökməyəcək. Amma, onun üç-dörd addımlıq məsafədəki yerişi Orxanın yaxşı yadında qalmışdı. O qədər incə və orijinal yerişi vardı ki, onu başqalarından ayırmaq Orxan üçün çətin olmazdı. O, buna əmin idi. Çünki qızın yerişi, doğrudan da, çox qıvraq və çox incə idi. Yeriyəndə bütün bədəni oynayırdı.

Dönüb həyətdən çıxdı. İndi heç dar dalanda gözləməyə də ehtiyac yox idi. Birbaş küçəyə adladı və burada gəzişib şux yerişli həmin qızı gözləməyə başladı. Qız evdən nə vaxt çıxacaqdı? Ya, bu gün heç çıxacaqdımı? Orxan bunları bilmirdi. Amma, gözləməyə də məcbur idi. Çünki, bu işi ona Ələmdar tapşırmışdı.

Orxan dörd ildən çox idi ki, Ələmdarın yaratdığı «Döyüş» idman klubunda karate bölməsinin məşqçisi işləyirdi. Həmin müddət ərzində onun neçə-neçə belə sirli göstərişini yerinə yetirmişdi. Ələmdarın verdiyi tapşırıqlar, ya birgə gördükləri əməliyyat xarakterli tədbirlər Orxanda şefinin dövlət təhlükəsizlik orqanlarına xidmət etməsi barədə şübhələr yaratmışdı. Keçən ilin avqustunda isə onun bu şübhələri özünü tamamilə doğrultdu.

Həmin gün, yəni avqustun on yeddisi-bazar günü heç vaxt yadından çıxmayacaqdı. Öz maşınında Nardaran çimərliyindən evə qayıdırdı. Maşında tək idi. Kənddən çıxanda qarşısını nömrə nişanlarının üstü örtülmüş bir qara rəngli «RANGE ROVER» kəsdi.

Üç maskalı adam onu silahla hədələyərək arxa oturacağa keçirdi. Qollarını və gözlərini bağladılar. Biri sükanın arxasına keçib maşını işə saldı. Xeyli yol gedəndən sonra onu bir binaya salaraq kiçik, sadə bir otaqda gözlərini açdılar. Stolun arxasında otuz yaşlarında, gözlərini qara eynək örtmüş bir şəxs oturmuşdu. Ondan bir az kənarda isə üzünə qara maska keçirmiş ucaboy bir adam ayaq üstə durub, qüvvətli əzələləri paltardan bilinən qollarını sinəsində çarpazlamışdı. Bu, Orxanı buraya gətirən maskalılardan deyildi. Boy – buxununa görə də, paltarlarına görə də onlardan seçilirdi.

Stolun arxasında oturmuş kişi Orxanı diqqətli nəzərlərlə bir xeyli süzəndən sonra ondan şefi Ələmdar Məlikovun nə kimi işlərlə məşğul olduğunu soruşdu. Orxan bu adamların mafiya adamı olduğunu düşünürdü. Ancaq, ondan nə istədiklərini anlaya bilmirdi. Cavab verdi ki, Ələmdar klubda idman məşqlərinin keçirilməsinə rəhbərlik edir, vəssalam. Qara eynəkli adam onu çox çək – çevirə saldı. Sonra ona xeyli pul müqabilində Ələmdarı öldürməyi təklif etdi. Eşitdiklərindən dəhşətə gələn Orxan:

– Siz heç bilirsiniz nə danışırsınız? – deyə çığırdı. – Mən Ələmdar qədeşə canımı da qurban verərəm!

– Onda, canını qurban ver! – deyən eynəkli adam tapançasını çıxarıb onun başına dayadı.

Orxan həmin anda eynəyin qara şüşəsi arxasındakı soyuq baxışları görüb, onu doğrudan da, öldürəcəklərini anladı. Həyat yoldaşı Sunanı, bir yaşlı oğlunu xəyalına gətirdi. Ələmdarı düşündü.

O, Ələmdarı özünə qardaşdan yaxın hesab edirdi. Həm müəllimi kimi, həm də dostu kimi çox sevirdi onu. Bilirdi ki, dava–dalaşda ad çıxarmış, həbsxanaya düşmüş bu adam, eyni zamanda mərd adamdır. Bilirdi ki, o, istənilən vaxt Orxanın yolunda canından keçməyə razı olar. Təkcə Orxanın yox, elə İlqarın da, Tələtin də, klubun digər işçilərinin də... Orxan təkcə gözəl ailəsi olduğuna görə yox, həm də Ələmdarın rəhbərliyi altında işlədiyinə görə özünü xoşbəxt sayırdı.

Tapançanı başına dayamış bu eynəkli adamın dediyini yerinə yetirməsəydi, təklif olunan yüksək məbləğdə pulu qəbul edib Ələmdarı öldürməyə razılaşmasaydı, onu öldürəcəkdilər.





Bəli, sadəcə, öldürəcəkdilər...

Suna bunu eşidəndə ağlayıb şivən qoparacaq, saçlarını yolacaq. Övlad dağı görmüş ata-anasını sakitləşdirib özlərinə gətirmək üçün qohum-əqrəba əl-ayağa düşəcək. Anasının üstünə həkim çağıracaqlar.

Onun ölümünə hamıdan çox yanan isə Ələmdar olacaq. Ələmdar, İlqar, bir də Tələt... Dəfn bitəndən və adamlar dağılışıb gedəndən sonra da bu üçü bir müddət torpaq qəbrin qarşısında dayanacaq. Sükutla, ağır bir kədər içində. Ələmdar uzun qollarını sinəsində çarpazlayıb diqqətli və qəmli baxışlarını kiçik torpaq təpəsinə zilləyəcək. İlqar başını ağır-ağır yelləyib, yaşarmış gözlərini yaylığı ilə siləcək. Tələt boynunu qısıb, gözlərini canavar gözləri kimi oynadacaq, hirsini-hikkəsini tökməyə adam axtaracaq.

Sonra həyətdə yasxana qurulacaq. Adamlar gəlib-gedəcək, atasına, Ələmdara başsağlığı verəcəklər. Qırx gün yas saxlanacaq və sonra adamlar yasdan çıxıb öz gündəlik qayğıları ilə məşğul olmağa başlayacaqlar. Suna da sakitləşəcək. Başını aşağı salıb oğlunu böyüdəcək. Yüzlərlə, minlərlə ərsiz qalmış gəlinlər necə, o da elə...

Orxan isə bütün bunların hamısından xəbərsiz, rahatca qəbirdə yatacaq. Nə dərd biləcək, nə sevinc. Nə ağrı biləcək, nə əzab...

Bu adamla razılaşıb Ələmdarı öldürərsə... Onda özü ölməyəcəkdi, yaşayacaqdı. Üstəlik, çoxlu pulu olacaqdı.

Amma, onda Ələmdar olmayacaqdı. Hər səhər klubun həyətində maşından düşən Ələmdarı qarşılayıb, kişi kimi, alnıaçıq əl verərək:

– Sabahın xeyir, Ələmdar qədeş! – deməyəcəkdi.

İlqarın, Tələtin, o biri məşqçilərin üzünə kişi kimi baxa bilməyəcəkdi. Özünü nakişi kimi, gərəksiz bir vücud kimi, Tələt demişkən, cındır kimi hiss edəcəkdi. Evdə özünü Sunaya yalandan kişi kimi göstərsə də, hər gün gözləri onun gözlərinə sataşanda kişi olmadığını dərk edib əzab çəkəcəkdi. Allah kəssin belə yaşamağı ki, o yaşayacaqdı!...

Eynəkli kişi tapançanı onun başına dayayıb cavab gözləyirdi. Beynindən bircə anlıq keçirdi ki, aldatsın bu adamı. Yalandan onunla razılaşıb buradan çıxsın. Çıxıb özünü Ələmdara yetirsin. Belə edib,

hər şeyi Ələmdara danışarsa, o bir çarə tapar bu işə.

Ancaq, bayaqdan düşündükləri onu elə qəzəbləndirmişdi ki, dodaqlarını gəmirib:

– Vur! – dedi. – Vurmayan heç kişi deyil!

Amma, eynəkli Orxanı vurmadı. Tapançanı aşağı salıb ona təklif olunan pulun qədərini artırdı. Nəhayət, bunun bir mənasının olmadığını görüb adamlarını içəri çağırdı. Orxanın gözlərini yenidən bağlayıb binadan çıxardılar. Maşınına mindirib onu şəhərin xəlvət küçələrindən birinə gətirdilər. Maşını saxlayıb qollarını açaraq, yoxa çıxdılar.

Gözlərini örtmüş qara lenti açıb sükanın arxasına keçən Orxan özünü dərhal Ələmdara çatdırıb, başına gələnləri olduğu kimi ona danışdı. Ələmdar bu gördüklərini heç kəsə, hətta İlqarla Tələtə belə danışmamağı qəti şəkildə tapşırdı. Orxan yalvarıb ondan özünü gözləməsini xahiş edəndə isə kinayə ilə gülümsəyib:

– Sən narahat olma, mənə heç nə eləyə bilməzlər! – dedi.

Orxanın fikirləri buradaca yarımçıq qaldı. Bir də gördü ki, bayaqkı həyətdən çıxan bir qız dar dalanla küçəyə tərəf gəlir. Cəld kənara çəkildi. Qız gəlib küçəyə çıxdı və onun üzünə baxmadan küçə boyu yeriməyə başladı. Əyninə dar cins şalvar və eyni parçadan gödəkçə geyinmişdi. Arxadan qızın yerişinə diqqət yetirən Orxan onun bayaqkı qız, yəni hamamdan çıxıb Şəmistanın evinə girən qız olduğuna inandı.

Qızın arxasınca düşüb gedə – gedə Ələmdara zəng vurdu:

– Qədeş, həmin evdən bir qız çıxdı. Mən onun dalınca düşmüşəm.

Ələmdar isə öz növbəsində:

– Mən səni görürəm. – dedi. – Yaxınlaşa bilərsən.

Orxan addımlarını yeyinlədib qızın bərabərinə çatdı:

– Gözəl qız, bircə dəqiqə dayanın, sizə sözüm var.

Qız ona ani bir baxışla baxıb üzünü döndərdi və sürətini artırıb ondan uzaqlaşmağa çalışdı. Orxan qızın üzünü bircə anlıq görsə də, onun gözəlliyindən heyrətə gəldi. Qızın üzü, sanki, işıq saçırdı və Orxan belə bir qıza sataşıb onun qəlbini incitməyi heç vaxt arzulamazdı. Amma, tapşırığı axıradək düzgün yerinə yetirmək lazım





idi. Yüyürüb yenidən ona çataraq kobudcasına qoluna toxundu:

– Eşitmədin, nə dedim?!

Qız qolunu kəskin hərəkətlə çəkib ətrafa boylandı. Küçədə heç kəs görünmürdü. Yalnız otuz-qırx metr arxadan qara rəngli bir maşın gəlirdi. Qarşıda isə arxası onlara tərəf olan göyərti satan qadın yeriyirdi.

– Nə istəyirsiniz məndən? – acıqlı səslə soruşdu.

– Səndən xoşum gəlir.

– Rədd ol başımdan!

Qız yenə narahat halda ətrafına boylanıb yoluna davam etmək istədi. Ancaq, Orxan daha cəld tərpənib onun qarşısını kəsdi:

–Heç yana gedə bilməyəcəksən!

Çarəsiz qalmış qız həyəcanlı halda geriyə boylananda qara rəngli maşının onlara yaxınlaşdığını gördü. Amma, bu ona heç də təskinlik vermədi. O, deyəsən, daha çox elə bu maşının yaxınlaşmağından qorxuya düşmüşdü...

## ON YEDDİNCİ FƏSİL

Yaxınlaşan «Nissan–Patrol»un sükanı arxasından onlara göz qoyan Ələmdar gördü ki, hər şey qaydasındadır. Orxan ona verilən tapşırığın öhdəsindən layiqincə gəlirdi. Maşını saxlayıb yerə endi. Qızın arxa tərəfindən yaxınlaşıb Orxanı itələdi:

– Qızdan nə istəyirsən, ə?!

Orxan səntirləyib bir addım geri çəkildi. Sonra isə qabağa gəlib Ələmdara əl qaldırdı:

– Sən kimsən?!

Ələmdarın qüvvətli yumruğu onun çiyninə dəydi.

– İtil burdan!

Belə qəfil zərbəni gözləməyən Orxan özünü yıxılmaqdan güclə

saxlaya bildi. Cəld hərəkətlə onlardan aralandı və gedə-gedə arxaya çevrilib:

– Eybi yox, qalsın qulluğunda! – dedi.

Bu zaman Ələmdarla qız bir-birlərinə baxdılar.

– Bu sizsiniz? – Ələmdar təəccüblə soruşdu.

– Bəli, mənəm. Siz burada nə edirsiniz?

Bu, onun hər gün səhər bulvarda gördüyü qız idi. İlk dəfə idi ki, onun səsini eşidirdi. Necə şirin, necə yapışıqlı səsi var idi... Hələ üzü, saçları, bütövlükdə xarici görünüşü... Onu yalnız idman geyimində görüb bəyənmiş Ələmdar indi açıq-aydın heyran olmuşdu qıza.

– Burdan təsadüfən keçirdim. – dedi. – Siz burada yaşayırsınız?

– Bəli. –əli ilə arxada qalmış məhəlləni göstərdi. – Orada.

– Bu oğlan kim idi?

– Tanımıram. Birinci dəfə idi görürdüm.

– Qorxdunuz?

– Elələrindən qorxan deyiləm. – Qız alnına tökülən saçını yığışdırıb gülümsədi. – Amma, doğrusu, onun tək olmadığını düşünüb bir az həyəcanlandım.

– Niyə?

– Üç-dörd ay əvvəl bacımın qarşısını maşınla kəsib oğurlamışdılar.

– Kimlər?

– Bilmədik. Bir gün saxlayıb buraxdılar. Deyəsən, atamdan pul istəmişdilər.

– Atanız iş adamıdır?

– Yox, kompüter proqramçısıdır. – Qız birdən – birə tutuldu. – Yaxşı, sağ olun köməyinizə görə. Mən gedim...

Maşının yanında dayanıb söhbət edirdilər. Ələmdar hiss edirdi ki, qız ona rast gəldiyi üçün sevinir. Amma, bu sevincini biruzə verməməyə çalışır. Həm də qızın iri qonur gözlərinin dərinliyində bir kədər oxunurdu. Bu da, yəqin ki, atasına görə idi. Polis dünən səhər atasını həbs etmişdi axı!?...

Ələmdar qızı belə tezliklə əlindən buraxmaq istəmirdi. Bu oyunu da ona görə qurmuşdu ki, Şəmistanın qızlarından biri ilə tanış olub





ondan ataları haqqında geniş məlumat öyrənsin. Amma, sən təsadüfə bax...

– Heç biz bir – birimizin adını bilmirik. – dedi.

– Ayçöhrədir adım. – qız birdən əlini irəli uzatdı.

Ələmdar onun qar kimi ağ əlini yüngülcə sıxdı:

– Mənimki də Ələmdar.

– Nə sənət sahibisiniz?

– İdmançıyam. Həm də özümün idman klubum var.

– Belə deyin!? – Ayçöhrə yenə gülümsədi. – Neçə gündür görünmürsünüz parkda...

– Rayona getmişdim.

– Hə... Yaxşı, hələlik! Mən aptekləri gəzməliyəm. Anam üçün dərman axtarıram.

– Yəni, tapılmır?

– Yox, beş-altı yerə baş çəkmişəm, tapa bilmirəm, nədənsə.

– Gəlin mən sizi bir aptekə aparım, orada hər dərmanı tapmaq mümkündür.

– Çox sağ olun! – Ayçöhrə incə dodaqlarını bir-birinə sıxıb başını buladı. – Amma, gərək yoxdur. Özüm gəzib taparam.

Ələmdar əl çəkmədi:

– Xahiş edirəm, əyləşin! Elə mən də aptekə getməliyəm. Birlikdə gedək.

Ayçöhrə bir anlıq tərəddüddən sonra, deyəsən, razılaşdı:

– Sizdə kimdir xəstə?

– Xalam qızı bizdə olur. Bərk soyuqlayıb. Evdə tək qoyub çıxmışam.

– Evdə başqa heç kəs yoxdur?

– Yox. Anamla tək yaşayıram. O da çıxıb rayona gedib. Bacısıgilə. Gəlin əyləşin, gedək.

Ayçöhrə oğlanın açdığı arxa qapıdan maşına əyləşdi. Ələmdar sükanın arxasına keçib maşını hərəkətə gətirdi. Qərara gəldi ki, qızı türkiyəlilərin açmış olduğu apteklərdən birinə aparsın. Yola düşən kimi yenə söhbətə başladı:

– Bəs siz nə sənət sahibisiz?

– Universitetin kimya fakültəsini bitirmişəm. Amma, işləmirəm. Bu il sənədlərimi magistraturaya vermək istəyirəm.

– Allah qoysa! – Ələmdar dedi və söhbətin mövzusunu dəyişdi. – İndiki evinizdə çoxdan yaşayırsınız?

– İki ay olar buraya köçdüyümüz. Əvvəl mikrorayonda olurduq.

– Bəs niyə bura köçdünüz?

– Atam qəflətən bu qərara gəldi. Anam xəstədir, axı... Ürəyindən əməliyyat olunmalıydı. Pula görə satdı mənzili.

Ancaq, artıq Ələmdar belə düşünürdü ki, Şəmistan mənzili pula görə satmayıb. Bəlkə, doğrudan da, arvadını əməliyyat etdirməyə pulu çatmırmış. Amma, hər halda, mənzilini tələsik satıb köçməkdə başqa bir ciddi səbəb olubmuş. Qızı şübhələndirməmək üçün söhbəti dəyişdi:

– Nişanlısınız?

– Yox.

– Buna inanmaq çox çətindir. Sizin kimi gözəl qız... Heç istəyəniniz olmayıb?

– Olub.. Biri ilə az qala nişanlanacaqdıq.

– Bəs nə oldu?

– Gördüm ki, mənim istədiyim adam deyil.

– Pis adam idi?

– Bəlkə də yaxşı xasiyyətləri daha çox idi. Ancaq... Öz hisslərini cilovlaya bilmirdi.

Ələmdar bildi ki, qız Əmrah barədə danışır. Daha heç nə soruşmadı. Nəzərdə tutduğu aptekə çatmışdılar. Maşını düz aptekin qarşısında saxladı.

– Mən buranı deyirdim, girək baxaq.

Maşından enib böyük aptekə daxil oldular. Ayçöhrə çantasından çıxardığı resepti gənc qıza göstərdi. Qız reseptə baxıb:

– Hazırda yoxdur. – dedi. – Amma, sabah səhər gətirməlidirlər.

– Bəs, sizcə, hansı aptekdən tapmaq olar bunu? – Ələmdar soruşdu.

– Bizdə yoxdursa, inanmıram başqasında olsun. Ancaq, sabaha söz verə bilərik.





– Yaxşı, sabah gələcəm. – Ayçöhrə qəmgin halda dilləndi.

Ələmdara heç nə lazım deyildi. Ancaq, qıza elə indicə uydurduğu bir dərman adı dedi. Qız başını buladı:

– Bizdə elə dərman yoxdur. Həm də birinci dəfədir ki, adını eşidirəm.

Ələmdar, guya ki, təəssüfləndi. Ayçöhrə ilə birlikdə aptekdən çıxdılar.

– İndi nə edək? – qıza baxıb dilləndi. – Məncə, başqalarını axtarmağın mənası yoxdur. Gedək, sizi evinizə aparım. Sabah yenə bura gələrik.

– Siz zəhmət çəkməyin. – Ayçöhrə narazı halda başını silkələdi. –Özüm avtobusla gedəcəm.

– Elə şey olmaz! – Ələmdar maşının qapısını açdı. – Buyurun, əyləşin! Buradan sizin tərəfə avtobus getmir. Bir də, biz özgə deyilik ki! – gülümsədi. – Səhər gəzintisi yoldaşıyıq.

Ayçöhrə də kədərli halda gülümsəyib maşına əyləşdi. Bu dəfə, sanki, danışmağa söz tapmırdılar. Hər ikisi susub xəyala dalmışdı.

Ələmdar maşını birbaş onların məhəlləsinə sürdü. Ayrılanda:

– Sabah saat 10-da sizi elə burada gözləyəcəm. – dedi. – Birlikdə aptekə baş çəkərik.

– Sabah bazar günüdür.

– Nə olsun? Aptek hər gün işləyir.

– Vallah, nahaq zəhmət çəkirsiniz. Özüm gedərdim.

– Danışdıq, ya yox?

Ayçöhrə güldü:

– Yaxşı, danışdıq. Səhər parka gələcəksiniz?

– Mütləq!

– Onda sabaha qədər! Sağ olun!

Ayçöhrə özünün qeyri-adi gözəl yerişiylə dar dalana girib görünməz oldu. Bir müddət onun arxasınca baxan Ələmdar maşını gecdən-gec işə salıb geri döndərdi.

Şəmistanın qızlarından biri ilə tanış olaraq bəzi məlumatlar əldə etmək üçün plan qurub Orxanı bu işə cəlb edəndə ağlına da gətirə bilməzdi ki, bu qıza rast gələcək. Deməli, bu qız Şəmistanın qızı

imiş. Adı da Ayçöhrə...

Bu qızla söhbətdən sonra Ələmdar ürəyindəki bəzi şübhələri bir daha dəqiqləşdirmişdi. Onun fikrincə, beləliklə Səidin izinə düşmək mümkün olacaqdı. Amma, öz tapıntıları barədə hələ də polkovnik Baratova məlumat vermək fikrində deyildi. İstəyirdi ki, hər şeyi bir daha dəqiqləşdirib öz fərziyyələrinin doğruluğuna əmin olsun. Bir şərtlə ki, bu məsələdə ləng tərpənib, gecikmək də olmazdı. Gecikmək daha yeni–yeni faciələrə səbəb ola bilərdi.

Sabah yenə bu qızla görüşəcəkdi. Ayçöhrə ilə. Amma, özü də ürəyində etiraf edirdi ki, onunla sabahkı görüşünün apardığı ciddi axtarış əməliyyatına dəxli yoxdur. Bu görüş, deyəsən, daha çox şəxsi xarakter daşıyacaqdı. Ələmdar adlı subay oğlanla, Ayçöhrə adlı gözəl qızın görüşü...

Ələmdara elə gəlirdi ki, bu gün həyatında nəsə köklü bir dəyişiklik olub. Amma bu dəyişikliyin nədən ibarət olduğunu özü də anlaya bilmirdi.

## ON SƏKKİZİNCİ FƏSİL

Həmin gün, günortadan sonra polkovnik Baratov mayor Cavadovla kapitan Yusifovu qəbul etdi. Şöbə rəisinin qanı qara idi. Raport vermək üçün hazırlaşan Yusifovu danışmağa belə qoymadı:

–Nə deyəcəksən, Yusifov? Deyəcəksən ki, Səid Namazov kirayə etdiyi mənzilə qayıtmadı? Deyəcəksən ki, birdəfəlik əlimizdən çıxdı?

–Yerini müəyyənləşdirmək üçün əlimizdən gələni edirik. –kapitan pərt halda dilləndi. – Universitetdə oxuyarkən sevdiyi Fəxriyyə adlı qadının yaşadığı ev nəzarətə alınıb.

–Daha nə?! – polkovnik səsini qaldırdı.

–Siz axtarışı mayor Məlikova tapşırdınız. Mən də qrupumla birlikdə indi ona tabeyik. Nə plan qursa, ona uyğun fəaliyyət





göstərəcəyik.

–Nə yaxşı ki, Leopard varmış! Yoxsa belə çıxır ki, əlimizi Səiddən üzməliydik? Bura bax, kapitan, onun gedə biləcəyi bütün yerləri araşdırıb nəzarətə alın! Mənim üçün, şəxsən çox maraqlıdır, Səid niyə mənzili dəyişib? İzləndiyindən şübhəyə düşübmü? Ya, sadəcə, ehtiyat tədbiri görüblər? Amma, onu da deyim ki, elə də olsa, belə də, deyəsən, Səid Namazov qurdun biridir. Belə çıxır ki, ona əməlli–başlı dərs keçiblər.

–Ancaq, cənab polkovnik, – mayor Cavadov dilləndi. – Məncə, bu heç də Səid Namazovun zirəkliyini göstərmir. Onu göstərir ki, Bakıda, həqiqətən, gizli qrup fəaliyyət göstərir və bu qrupa hiyləgər, ehtiyatlı bir adam başçılıq edir.

–Düz deyirsən, Cavadov, ancaq etiraf edin ki, Səid şəxsən özü Xocalı parkında neçə əməkdaşımızı çaş–baş saldı. Dəxli olmayan adamlara yaxınlaşıb onları söhbətə tutmaqla bizimkilərin diqqətini yayındırdı.

–Doğrudur. – mayor başını razılıqla tərpətdi.

–Hələ bir de görüm, Bakıya zəng vurmuş o qadın barəsində yeni bir şey öyrənə bildiniz? – Baratov müavinindən soruşdu.

Cavadov əlindəki qeydlərinə baxdı:

–Mən elə indicə sizə məlumat verəcəkdim. Həmin qadın barəsində bir şey öyrənə bilməmişik. Amma gürcü həmkarlarımızın vasitəsilə bəzi məlumatlar toplamışıq. Qadın David Çonkadze adlı gürcüyə məxsus mobil nömrədən zəng vurub. Çonkadze Gürcüstanın Ermənistanla sərhədə yaxın kəndlərindən birində yaşayır. Əsasən, balıq alveri ilə məşğul olur. Marneuli, Dmanisi və digər yaxın yaşayış məntəqələrindəki kafelərə, şadlıq evlərinə balığı o satır. Sazan, şamayka, xramuri kimi balıqları istənilən vaxt ondan almaq olurmuş. Amma, daha çox, Ermənistan ərazisinə keçərək Göyçə gölündən işxan balığı gətirir....

–İşxan balığı? – Baratov onun sözünü kəsdi.

–Bəli, cənab polkovnik, həmkarlarımızın deməyinə görə, bu çox qiymətli balıqdır. Ləzzətli əti olur. Həm də ən yaxşı növü Göyçə gölündə yaşayır.

Polkovnik kinayə ilə gülümsədi:

–Səhv etmirəmsə, o balığın əsl adı qızıl xallı balıqdır. O ərazilərdə Göyçə gölündən başqa heç bir sularda yaşamır. Bu alçaqlar Göyçə gölünün adını dəyişib Sevan gölü qoyduqları kimi, qızıl xallı balığın da adını dəyişib işxan qoyublar. – bir an ara verib başını yellədi. – Əslində heç işxan da bunların öz sözləri deyil. Onu da oğurlayıblar. Mənası da hakim, hökmdar deməkdir. Yəni, bir növ, balıqların şahı hesab ediblər bu balığı. Oğru köpək uşağı!

–Əslində onların nəyi var, cənab polkovnik? –Yusifov söhbətə qarışdı. –Millətin adından tutmuş, ölkənin adına kimi hamısı ordan–burdan alınmadı.

–Onların nəyi var? – Baratov qaşlarını çatıb kapitana baxdı. – Onların məqsədi var! Bu məqsəd ondan ibarətdir ki, gec-tez türklərin hamısını qırmaq, Azərbaycanın, Türkiyənin malik olduğu əraziləri ələ keçirmək. Onlar bu məqsəd üçün çalışırlar və ölənəcən də çalışacaqlar. Baxın, gəlib şəhərimizin içində gizli təşkilat yaradıblar. Təxribatlar törədib bizi sarsıtmaq istəyirlər. İstəyirlər ki, qorxub işğal olunmuş ərazilərimizdən vaz keçək. Gözləyək ki, neçə illər sonra qalan torpaqlarımızı da işğal eləsinlər… – Sözünə ara verib mayor Cavadova baxdı. – Sənin dediyin o Çonkadze Ermənistanda kiminlə əlaqə saxlayır?

–O barədə bir məlumat verməyiblər.

Polkovnik ayağa qalxıb kabinetdə gəzişməyə başladı:

–Bu, artıq həqiqətdir ki, Bakıda təxribatçı qrup var. Səid Movsümü və onun ailə üzvlərini həmin bu qrupun tapşırığı ilə qətlə yetirib. Niyə? Biz hələ bunu aydınlaşdıra bilməmişik. Qazaxa göndərdiyimiz adamdan da hələ bir xəbər yoxdur. Leopard susur… Heç belə çətinliyə düşməmişdim. Axı bu Səid Bakıya niyə gəlib? Həmin ailəni məhv etmək üçünmü? Bəlkə də…. Amma, hissiyyatım mənə deyir ki, onu Bakıya başqa məqsədlə göndəriblər. Bu tapşırıq sə Səidə verilən sınaq tapşırığı, yaxud əlavə bir tapşırıqdır. Onun Bakıya göndərilməsində əsas məqsəd isə başqadır. Bəlkə də onlar bu məqsədlərinə çatandan sonra Səid daha onlara lazım olmayacaq. Səidin yerini mütləq tapmaq və onu izləyib təxribatçı qrupu ifşa





etmək lazımdır. Təsəvvür edirsinizmi, həmin qrupu ələ keçirmək üçün əlimizdə bir ip ucu ola bilərsə, o da Səidə bağlıdır. Bizi o dəstəyə yalnız Səid götürə bilər.

Stolun üstündəki qırmızı rəngli xüsusi telefon zəng çaldı. Polkovnik Baratov sözünü kəsib dəstəyi götürdü. Bir qədər dinlədikdən sonra:

–Oldu, cənab general! – deyərək dəstəyi aparatın üstünə qoydu.

Yaman fikirli görünürdü. İşçilərinin ona maraqla baxdığını görüb, nəhayət, dilləndi:

–Bu işlə möhtərəm prezidentimiz özü də maraqlanır. Mən saat 6-da məlumat vermək üçün nazirlikdə olmalıyam.

## ON DOQQUZUNCU FƏSİL

Ertəsi gün–mart ayının ilk günü Bakıda günəşli bir gün başlamışdı. Amma, hava hələ də soyuq idi. Küçələrdə hələ də əyninə qalın paltar, başına papaq qoymuş adamlara rast gəlinirdi. Hərdən soyuq şimal küləyi əsirdi.

Bazar günü olduğu üçün küçələrdə nisbətən sakitlik idi. Saat 10-a az qalmışdı. Köhnə məhəllədə, küçənin kənarında sıra ilə dayanmış maşınların bir çoxunun sahibi, yəqin ki, hələ yuxuda olardı. Amma bu maşınların arasında diqqəti cəlb edən "Nissan"ın sükanı arxasında bir gənc əyləşmişdi. Bu gənc xüsusi məxfi şöbənin Leopard ləqəbli gizli agenti mayor Ələmdar Məlikov idi.

Ələmdar burada Ayçöhrəni gözləyirdi. Əslində onun dünən bu qızla görüşməkdə daha ciddi məqsədi var idi. Qızın vasitəsilə atası Şəmistan, ümumiyyətlə, ailələri barədə ətraflı məlumat toplamaq istəyirdi.

Məsələ burasındadır ki, o, Nurəddinlə söhbətdən sonra bu oğlanın dediklərini evdə bir daha götür-qoy edərək bəzi nəticələrə gəlmişdi.

Nurəddin demişdi ki, evə soxulan qatil onun otağına bir az gec daxil olub və bu zaman əlində heç bir silah olmayıb. Səid silahını yalnız Nurəddini görəndən sonra çıxarıb. Bu zaman tapançasının lüləsində səsboğan olmadığı üçün əlini sol cibinə apararaq səsboğanı çıxarmaq istəyib. Bu, əlbəttə, artıq Ələmdarın öz fikri idi və o, bu barədə özünə inanırdı.

Axı Səid nə üçün ailənin dörd üzvünü vurandan sonra səsboğanı tapançadan açıb, hər ikisini cibinə qoymuşdu? Ələmdarın fikrincə, yalnız ona görə ki, o, artıq ailə üzvlərinin hamısını qətlə yetirdiyini düşünmüşdü. Əgər Səid ailə üzvlərinin say tərkibindən xəbərsiz olsaydı, yəni, həmin mənzildə neçə nəfərin yaşadığını bilməsəydi, belə ehtiyatsızlıq edərdimi? Əlbəttə, etməzdi. Etməməliydi!

Deməli, qətl barədə Səidə göstəriş verənlər ailə üzvlərinin tərkibini ona deyiblərmiş. Bəs onda niyə bir kişi, arvadı və iki qızı?...

Bax, bu məqam Ələmdarı ciddi düşünməyə vadar etmişdi. Əslində, Səid istəsəydi, balkona qaçan Nurəddini arxadan vura bilərdi. O, buna tərəddüd etmişdi. Niyə? Elə həmin səbəbə görə! Səid bu oğlanı həmin ailənin üzvü yox, qonaq hesab etmişdi. Ona isə mənzildə yaşayan dörd nəfərdən ibarət ailəni məhv etmək tapşırılmışdı.

Daha sonra, evdən yalnız Nurəddinin noutbukunun və Mövsümün telefonunun aparılması.... Düzdür, Nurəddin özünü balkondan atdığına görə, Səid tələsib mənzildən tez çıxmalıydı. Soyğunçuluq etməyə vaxt yox idi. Amma, hər halda, o, noutbukla telefonu götürməyə macal tapmışdı. Yəqin, bu da xüsusi tapşırıq imiş.

Nurəddinin noutbukunda önəmli bir şey ola bilməzdi. Noutbuk lap təzə alınmışdı. Bu zaman Şəmistanın kompüter proqramçısı olduğu da nəzərə alınsa, bir çox şey aydınlaşırdı. Hələ, dünən Ayçöhrənin dedikləri.... Evin satılmasından bir qədər əvvəl bacısını qaçırıb, yalnız atası ilə danışandan sonra buraxıblarmış.

Dünən Ayçöhrədən ayrılandan sonra Ələmdar bir daha qəti qərara gəldi ki, Səid, əslində Mövsümün yox, Şəmistanın ailəsini qətlə yetirmək əmri alıbmış. Göstəriş verənlər isə Şəmistanın evi satıb





köçməsindən xəbərsiz imişlər. Təsadüfi uyğunluğa bax ki, Mövsümün də iki qızı varmış, Şəmistanın da...

Görəsən, gizli təşkilat hansı səbəbə görə Şəmistanın və ailəsinin qətl fərmanını vermişdi? Ələmdar, hələ ki, bunu deyə bilməzdi. Amma, artıq hiss edirdi ki,gizli axtarışda olan Səid Namazovun izinə düşə bilər. Baratova bu barədə heç nə demədən, dünən qızdan ayrılandan sonra Talətlə görüşüb ona tapşırıq vermişdi. Talət onun tapşırığına əsasən özünü axtarış polisi kimi qələmə verib Nurəddingilin qonşuluğunda yaşayan Əmrah və onun anası ilə söhbət etməliydi. Şəmistanın yeni ünvanını onlara verib ciddi şəkildə tapşırmalıydı ki, hər kəs gəlib Şəmistanın haraya köçdüyünü soruşarsa bu ünvanı ona versinlər. Onlar, eyni zamanda, ünvanı həmin adama verən kimi, dərhal Talətə zəng vurub, onu bu barədə xəbərdar etməliydilər.

Talət artıq bu tapşırığı yerinə yetirmişdi. Əmrahgilə gedib Şəmistanın ünvanını ona vermişdi. Belə bəhanə uydurmuşdu ki, guya Mövsümün bir qohumu ondan intiqam almaq istəyəcək və Talət də bir polis kimi bunun qarşısını alıb həmin adamı zərərsizləşdirəcək. Əmrah onunla razılaşaraq, lazım gələrsə, işə getməyib evdə gözləyəcəyini demişdi.

İndi Talət Əmrahın, Ələmdar isə Talətin zəngini gözləyirdi. Ələmdar əmin idi ki, gizli təşkilat Şəmistanın əvəzinə başqa ailənin qırıldığını çox tez biləcək və bəzi səbəblərə görə, təcili olaraq Şəmistanın ailəsinin aradan götürülməsinə çalışacaq.

O, indi Ayçöhrə üçün də narahatlıq keçirirdi. İstəmirdi ki, belə bir təmiz, istiqanlı və gözəl qıza kimlərsə xətər yetirsinlər. Dünən bircə saatın içində az qala isnişmişdi Ayçöhrəyə. Onun özündən də, danışığından da, məlahətli səsindən də xoşu gəlmişdi.

Bu gün səhər ilk dəfə parkda da söhbət etdilər. O qədər də çox danışmadılar. Ancaq idmandan, səhər gəzintisindən, Xəzərin təmiz havasından, vəssalam. Çünki, onsuz da saat 10-da görüşəcəklərini bilirdilər. Görüşüb Ayçöhrənin anası üçün dərman almağa getməliydilər.

Çox vacib bir dövlət tapşırığını yerinə yetirərkən bu qızla görüşə

həvəslə can atmağının səbəbini Ələmdar özü də tam şəkildə anlamırdı. Ancaq onu bilirdi ki, Ayçöhrə ilə bir yerdə olmaq, onun danışığına qulaq asmaq, nə danışırsa danışsın, səsini dinləmək istəyir.

Hiss edirdi ki, ailəli-uşaqlı Məltəmi ona unutdura bilsə, bu qız unutduracaq. Əslində, Məltəmi heç bu qədər arzuladığı olmamışdı. Bəlkə, kim bilir, Ayçöhrəni sevib bu qadını birdəfəlik unudacaqdı. Hərdən Ələmdara elə gəlirdi ki, o, indiyədək heç bir qadını sevməyib və indi də sevmir. Yəni, söhbət əsl ilahi sevgidən gedir. Belə bir sevgini qəlbində heç kəsə qarşı hiss etməmişdi Ələmdar.

Əslində, kimisə sevib evlənmək, ailə qurmaq da istəmirdi. İşi elə idi ki, ailə quracağı qadını tez-tez aldatmalı olacaqdı. Məxfi şöbənin Leopard ləqəbli agenti olduğu halda sevgilisinin nəzərində sadəcə Ələmdar olmağa çalışmaq bezdirəcəkdi onu. Necə ki, onsuz da anasını, bəzi yaxınlarını, dostlarını aldatmaqdan bezmişdi. Neçə dəfə polkovnik Baratovdan xahiş etmişdi ki, onu azad etsin bu işdən. Lap qoy hərbi işə keçirsinlər və hamı kimi ailəsi də bilsin ki, o, hərbçi mayor Ələmdar Məlikovdur. Amma, Baratov razılaşmırdı ki, razılaşmırdı. Belə bir vəziyyətdə necə evlənə bilərdi?

Bu yandan da bu Reyhanə məsələsi.... Qorxurdu ki, bu günlərdə anasının hiyləsi baş tutsun və o, bu dilsiz–ağızsız, sakit təbiətli qıza vurulsun. Hələ ki, Ayçöhrə barədə də ciddi bir fikri yox idi. Amma, belə məqamda onunla söhbət edib başqa fikirlərdən uzaqlaşmağa ehtiyac hiss edirdi.

Bu gün səhər yenə yuxudan duran kimi Reyhanəyə baş çəkdi. İçəcəyi dərmanları verdi, iynəsini vurdu. İndi daha qız yorğanı üstündən çəkəndə əvvəlki kimi utanmırdı. Amma, Ələmdar onun davranışında yenə də özünə qarşı nəsə hiss edirdi. Hiss edirdi ki, Reyhanə ondan intim münasibət gözləyir və bunu arzulayır. Bu da Ələmdarı əsəbləşdirirdi. İstəyirdi ki, bütün bunlara tez son qoysun.

Səhər yeməyindən sonra qəti qərara gəldi ki, qızla danışacaq. Stulu onun çarpayısına yaxın çəkərək əyləşdi.

– Reyhanə, mən səni bilirsən necə çox istəyirəm? –dedi. –Bir bacım kimi. İstəyirəm həmişə bacım olasan, mənə bacılıq edəsən.





Bunu deyib qızın gözlərinə baxmağa çalışdı. Amma, baxa bilmədi. Çünki, Reyhanə üzünü divara çevirdi. Ələmdar isə bu dəfə söhbəti axıra qədər davam etdirmək istəyirdi.

– Hə, nə deyirsən? Ömürlük bacım olursan?

Reyhanə üzünü ona çevirmədən, handan-hana, çətinliklə dilləndi:

– Hə....

–Nə çətinliyin olsa, məndən gizlətmə. Allah qoysa, toyunda da əsl qardaşlıq eləyəcəm sənə. – Bir an susub əlavə etdi: – Heç istəyənin var?

Reyhanə başını yellədi. Hələ də üzünü Ələmdara tərəf çevirmirdi.

Ələmdar davam etdi:

–Olacaq, mütləq olacaq. Heç səni sevməmək olar? Sən çox qəşəng, həm də ağıllı qızsan.

Əli ilə qızın başını özünə tərəf çevirdi:

–Məndən niyə utanırsan?

Gördü ki, qız səssizcə ağlayır. Nəsə demək keçdi ürəyindən. Amma, deyib aralarındakı pərdəni çox da açmaq istəmədi. Onun ağlamasını görməməzliyə vurub ayağa qalxdı:

–Sən dincəl, mənim bəzi işlərim var. – deyərək o biri otağa keçdi...

Ayçöhrə qarşı tərəfdən gəlirdi. Elə bil, küçə bir az da işıqlandı. Bu qız, Ələmdarın fikrincə, qeyri-adi bir gözəl idi. Bədəninin bütün əzaları, sanki, sevilmək, əzizlənmək üçün yaranmışdı. Bir qədər ətli baldırları, şalvarı qabardan yoğun budları onu qətiyyən kök göstərmirdi. Əksinə, onda bircə qram da artıq ət tapmaq olmazdı. Təpəsindən dırnağına qədər hər şey bədəninin cazibədar mütənasibliyinə xidmət edirdi. Saçının bir hissəsini alnına elə tökmüşdü ki, əgər bədəni böyük olmasaydı, onu məktəbli qızlara bənzətmək olardı.

Ələmdar maşından enib qızla salamlaşdı:

–Salam, Ayçöhrə, düz vaxtında gəldin!

Ona "sən" deyə müraciət etməklə aradan rəsmiyyət pərdəsini birdəfəlik götürmək istədi və buna o saat nail oldu.

Ayçöhrənin incə dodaqlarında çoxlarının huşunu başından ala

biləcək bir təbəssüm göründü:

–Salam!

O, dünənlə nisbətdə xeyli şən idi və Ələmdar bunun səbəbini bilirdi. Dünən günortadan sonra Şəmistanı polisdən evə buraxmışdılar. Nurəddin öz ifadəsində evə soxulan qatilin Şəmistan olmadığını bildirmişdi. Amma, Ayçöhrə atasının tutulması barədə Ələmdara bir söz deməmişdisə, o da bundan söhbət açmaq istəmirdi.

Qızı maşına dəvət etdi. Sükanın arxasına keçən kimi:

–Aptekə? – deyə soruşdu.

–Hə, əlbəttə! – arxada əyləşən qız cavab verdi.

Ondan qızılgül iyini xatırladan tünd ətir iyi gəlirdi. Bu ətri qızda dünən də hiss etmişdi. Maşını yerindən tərpədən kimi çevrilib qıza baxdı:

–Mən qadınlara-qızlara, ümumiyyətlə, kompliment demirəm. Amma, ürəyimdən keçir sənə deyim ki, çox gözəl görünürsən.

Ayçöhrə gülümsəyib əli ilə saçlarını düzəltdi:

–Belə bir sözü artıq dünən demisiniz.

–Ola bilər. Dünən sən qəmli və həyəcanlı idin. Bu gün isə şənsən. Deməli lazımdır ki, hər iki halda çox gözəlsən.

Ayçöhrə güldü:

–Əgər bizdə qadınlarla kişilər eyni hüquqlu olsaydı, mən də sizin haqqınızda nəsə demək istərdim.

–Nə deyərdin? – Ələmdar da güldü. – Mən bu hüququ sənə verirəm.

–Sizdə əsl kişi gözəlliyi var. – Ayçöhrə azacıq qızardı. – Ciddi baxışlarınız, mərdanə üzünüz...

–Təşəkkür edirəm! – Belə bir qızdan tərif eşitmək Ələmdara, doğrudan da, xoş gəldi. – Amma, sən qadınları niyə hüquqsuz hesab edirsən? Hər şeydə kişilərlə eyni hüquqa maliksiniz.

–Hər şeydə yox! Məsələn, qadınlar ürəklərindən keçənləri sevdiklərinə açıb deyə bilmirlər.

–Bu da olar, yəqin ki. Amma, bəzi şeylərdə hüququnuz bir az da artıqdır.

–Nədə, məsələn? – Ayçöhrə soruşdu.





–Qadınlar istədiyi kimi geyinir, istəsə yarıçılpaq gəzir...

–Heç bilirsiniz çılpaqlıq nədir?

–Nədir?

Qızın səsi Ələmdara çox xoş təsir edirdi. Odur ki, onu danışdırmaqdan zövq alır, ona hələ də "siz" deyə müraciət etməsinə əhəmiyyət vermirdi.

–Bilirsiniz, – Ayçöhrə bir anlıq nə deyəcəyi barədə düşündü. – Qadının üzündə bir həya pərdəsi olmalıdır. Bu pərdə götürüləndə qadın çılpaqlaşır. Başqa vaxt yox.

–Tam anlaya bilmədim.

–Baxın, bir qadın, ola bilsin, boğazından topuğuna qədər geyimə bürünər. Amma, gözlərində, sifətində elə həyasızlıq oxuna bilər ki, onun çılpaq olduğunu düşünərsən. Hətta belələri abırlı adamlara iyrənc dərəcədə çılpaq görünür. Heç rast gəlməmisiniz beləsinə?

–Əlbəttə, rast gəlmişəm. - Ələmdar dedi.

–Amma elə ola bilər ki, gözəl qadın yarıçılpaq geyinər. Əgər ona Allah gözəllik veribsə, üz-gözündə abır-həya bilinirsə buna çılpaqlıq demək olmaz.

–Niyə məhz gözəl qadınlar? Çirkinlərin üzündə həya pərdəsi olsa yarıçılpaq ola bilməz?

–Əgər bu çirkinlik sonradan xəstəlik, ya qəza nəticəsində qazanılıbsa, yaxşı olar elə qadın başqasının zövqünü və iştahını korlamasın.Yox, əgər anadangəlmədirsə, inanmıram çirkin qadının üzündə həya olsun. Çünki Allah qadına gözəlliyi həya ilə birlikdə verir.

Ələmdar kinayəli şəkildə başını buladı:

–Çox maraqlı fikirlərin var, Ayçöhrə! Sən özünü müsəlman hesab edirsən?

–Əlbəttə! Ancaq, eyni zamanda, azad bir qızam. Tanrıma inanıram, onu sevirəm. Azadlığı da o verib mənə. İstədiyim kimi düşünə bilirəm. Başa düşmədiyim, anlamadığım heç nəyi qəbul etmirəm.

–Namaz qılırsan?

–Yox. Amma Allaha ibadət edirəm.

–Necə? –Ələmdar çiynini çəkdi. – Çox maraqlıdır.

–Yatmazdan qabaq, bir də səhər yuxudan duranda. Axşam yatmazdan qabaq Tanrıya üz tutub deyirəm: "Tanrım,məni bu gün də sağlam yaşatdığın üçün sənə minnətdaram. Özün bilirsən ki, bu gün heç bir pis iş tutmadım. Heç kimə pislik etmədim, xətrinə dəymədim. Mənə xoş bir yuxu ver bu gecə. Yuxuda özünə qovuşdur. Mənim bütün qəlbim ancaq sənindir, gözəl Tanrım!" Bax belə! Sonra demək olar ki hər gecə Tanrımı görürəm yuxuda. Hətta, mənimlə danışır da.

–Nə deyir? – Ələmdar gülməyini ustalıqla boğdu.

–Deyir ki... – Ayçöhrənin yanaqları tamam qırmızı rəngə boyandı. –Yox, deyə bilməyəcəm onun dediklərini. Bu, yalnız onunla mənə aiddir.

–Yaxşı, bəs səhərlər nə deyirsən?

–Səhərlər deyirəm ki: "Tanrım, mənə verdiyin rahat yuxuya və üzümə açdığın xoş səhərə görə sənə minnətdaram. Həmişə olduğu kimi bu gün də məni pis işlərdən qoru! Mənə pis gün göstərmə! Bütün gücümlə çalışacam ki, bu gün də ancaq yaxşı işlər görüm. Mənə kömək ol, sevgili Tanrım!" Necədir? İbadət deyil bu?

–İbadətdir. –Ələmdar ciddiləşdi. – Ürəklə deyirsənsə, dediklərinə əməl edirsənsə, ibadətdir. Gündə beş dəfə namaz qılan o qədər adam tanıyıram ki, əclafın yekəsidir. Beş manat pula vicdanını satmağa hazırdır.

–Əlbəttə, əməl edirəm. Tanrım mənə çox azadlıq verib. Heç bir qadağa hiss etmirəm. O şeyləri ki, pis bir şey hesab etmirəm, çəkinmədən edirəm. Pis işlərdən isə, onsuz da uzağam. Ev yıxmıram, xəbərçilik etmirəm, kiməsə əzab vermirəm, kiminsə ürəyini sındırmıram, əxlaqsızlıq etmirəm...

Aptekə çatdılar. Ələmdar maşını saxladı və hər ikisi yerə endi.

–Lap mələk kimi qızsanmış, maşallah! Gəl görək, dərmanımızı gətiriblərmi?

İçəri girdilər. Aptekçi qız onları görən kimi axtardıqları dərmanı götürüb kiçik torbaya qoydu.

–Buyurun! Xahiş edirəm, kassaya otuz dörd manat verin.

Ələmdar əlini cibinə salanda Ayçöhrə ona mane olub dərmanın





pulunu ödədi. Aptekçi qıza təşəkkür edib çıxdılar.

–Bəlkə, bir az gəzək? – Ələmdar təklif etdi.

–Yox, dərmanı anama tez çatdırmaq istəyirəm.

–Yaxşı, sən deyən olsun.

Maşına əyləşdilər. Yola düşən kimi Ələmdar söhbəti təzələdi:

–Ananı çox sevirsən?

–Çox! – Ayçöhrə ürəkdən dilləndi.-Onun yolunda tərəddüd etmədən ölümə gedərəm.

–Səninlə mehribandır? – Ələmdar kinayə ilə gülümsədi. - Yoxsa, mənim anam kimi sözünü söyüşlə başlayıb, qarğışla qurtarır?

–Nə danışırsınız? –Ayçöhrə təəccübləndi. – Mənim anam çox mehribandır. Atam bir az qaraqabaqdır, amma onu da çox sevirəm. Bəs siz ananızı sevmirsiniz?

–Heç ananı sevməmək olar? Həm də, qocaldıqca daha çox sevirəm onu. Sanki, nə vaxtsa, itirməkdən qorxuram.

–Bəs atanızı?

–Atam hələ mən körpə olanda həbsxanaya düşüb, sonra elə orada da ölüb. Heç üzünü görməmişəm.

–Niyə həbs eləyiblər?

–Adam öldürüb...

–Oy! Nə pis! İnsan insanın canına qəsd edər?

Ələmdar bir anlıq tutuldu:

–Bəzən buna məcbur olursan... Sən pis bir adamı, imkanın olsa, öldürməzsən?

–Yox! – Ayçöhrə başını silkələdi. – Pis adamdan uzaq olaram, sadəcə. Qoy Allah özü versin cəzasını. İnsanın insanı öldürməsi vəhşilikdir.

–Allah cəza verəndə kiminsə əli ilə verir. Sən düşmənləri də öldürməyimizin əleyhinəsən?

Ayçöhrə bir az düşünməli oldu:

–Yox, əlbəttə... Onların bizimkilərə etdiklərini düşünəndə adam dəhşətə gəlir. Ancaq... Yenə də mənim əlim qalxmaz. Fikirləşərəm ki, bu da insandır, ola bilsin, uşağı var, anası var, bacısı var.

Ələmdar maşını saxlayıb sağ tərəfdəki açıq darvazadan görünən

ikimərtəbəli binanı göstərdi:

–Bax, mənim klubum budur. "Döyüş" idman klubu.

–Yaxşı yerdədir. –Ayçöhrə boylanıb baxdı. –Həm də geniş həyəti var.

–Tələsməsəydin, düşüb baxardıq həyətinə.

–Yox, anam gözləyir axı məni.

Ələmdar maşını hərəkətə gətirdi.

–Yaxşı, başqa bir vaxt gəlib görərsən.

–Siz özünüz heç döyüşdə olmusunuz? –Ayçöhrə soruşdu.

–Hə! 92- ci ildə həbsxanadan çıxarıb göndərmişdilər.

–Həbsxanada da olmusunuz? Nə üstündə?

–Bir nəfər ədəbazı bıçaqlamışdım. Amma, ölmədi...

–Heç adam öldürmüsünüz?

–Döyüşdə öldürmüşəm. Əgər onları adam saymaq olarsa...

Ələmdar bunu dedi və o saat da düşündü ki, deyəsən, kəşfiyyat və yaxud hər hansı bir əməliyyat zamanı öldürdükləri açıq döyüşdə öldürdüklərindən daha çoxdur.

–Mən təsəvvür edirəm siz necə döyüşərsiniz. – Ayçöhrə açıq həyəcanla dilləndi.

–Necə?

–Pələng kimi! Siz çox güclü adama oxşayırsınız. Amma, düzünü deyim ki, nədənsə qorxmuram sizdən. Əslində, gücsüz adamdan daha çox qorxuram. Qəribədir, hə?

–Nə bilim, bəlkə də!... – Ələmdar çiynini çəkdi.

–Əsl güclü adam, mənim fikrimcə, bilirsiniz kimdir?

–Kim?

–O adam ki nəyisə etməklə bərabər, etməməyi də bacarsın.

–Başa düşmədim.... – Ələmdar ani olaraq qıza baxıb yenə qabağa döndü.

–Baxın, məncə, öldürmək asandır, bağışlamaq çətin. Pislik asandır, yaxşılıq çətin. Yemək asandır, yeməmək çətin. Çətin işi bacaran daha güclü sayılmalıdır, yəqin ki. Başa düşdünüz?

–Bir az...Demək istəyirsən ki, nəfsini saxlaya bilən daha güclüdür. Bizim dinimiz də bunu deyir.





–Hə! Nəfsini saxlayan adam güclüdür. İnsan gərək birinci özünə qalib gəlməyi bacarsın.

–O cəhətdən mən, doğrudan da, güclüyəm. – Ələmdar dedi. – Düzdür, bəzən satqın, əclaf adam görəndə hirsimi cilovlaya bilmirəm, amma qalan şeylərdə dözümlüyəm. Məni heç nə cəlb edib öz yolumdan çıxara bilməz. Siqaret çəkmirəm, spirtli içki içmirəm. Lazım olsa, günlərlə ac- susuz qalaram...

–Bəs qadınlara dözümünüz necədir? –Ayçöhrə bu sualı verəndə bir qədər utandığı hiss olundu.

–Nə barədə? –Ələmdar anlamadı.

–Gözəl qadınlarla münasibətdə hisslərinizi cilovlaya bilirsiniz?

–Lazım gəlsə,hə!

Ayçöhrəgilin məhəlləsinə çatmışdılar. Ələmdarın cib telefonu zəng çaldı. Ələmdar ekranda Tələtin adını görüb, telefonun səsini azaldaraq qulağına apardı.

–Eşidirəm, Tələt!

–Ələmdar, bir az əvvəl rusa oxşayan bir kişi Əmrahgilə gəlib, onlardan Şəmistanın ünvanını soruşub. Deyib ki, guya, əsgərlik yoldaşıdı.

–Veriblər?

–Ünvanı? –Tələt dedi. –Hə, yazıb veriblər.

–Sonra?

–Heç nə! Kişi çıxıb gedib. Gözünə optik eynək taxmış sarışın adam imiş. Otuz–qırx yaşlarında ...

–Yaxşı, Tələt, sag ol! Sonra zəngləşərik.

Telefonunu qapayıb Ayçöhrəyə baxdı. Düşündü ki, görəsən, gizli erməni təşkilatı bu qızın atasını və üstəlik bütün ailəni nə üçün aradan götürmək istəyir? Qız onun fikirli olduğunu dərhal hiss elədi:

–Nəsə olub?

–Yox! –Ələmdar başını buladı.

Ayçöhrə maşından düşüb ona təşəkkür etdi:

–Çox sağ olun, mənə çox kömək etdiniz!

–Dəyməz... –Ələmdar yenə fikirli halda dilləndi. –Mən heç nə eləmədim.

–Sabah səhər gələcəksiniz parka?

–Hə, gələcəm.

–Onda, hələlik!

–Hələlik!

Ayçöhrə öz incə yerişiylə qaçaraq dalana girdi. Ələmdar bir müddət onun girdiyi dar dalana baxıb maşını işə saldı. Evə gedib nə edəcəyi barədə düşünmək istəyirdi.

## İYİRMİNCİ FƏSİL

Qapını açarla açıb mənzilə girdi. Anasının ayaqqabılarını içəridə görəndə onun rayondan qayıtdığını başa düşdü. Gödəkçəsini soyunub yataq otağına daxil oldu. Reyhanə koftasını geyinərək yataqda oturmuşdu. Əminə arvad çarpayının yanındakı stulda əyləşib onunla söhbət edirdi. Oğlunu görüb mehribanlıqla:

–Gəl, qadanı alım, gəl! –dedi.

Ələmdar çox nadir hallarda anasından belə mehribanlıq görmüşdü. Gözucu Reyhanəyə baxdı. Qız bir qədər özünü itirmişdi. Anasıyla hal–əhval tutdu:

–Salam, ay ana! Necəsən? Şamaxıda nə var, nə yox?

–Belə sənin sağlığın! –anası cavab verdi. –Sən necəsən? Maşallah, görürəm Reyhanəyə yaxşı qulluq eləmisən. Səndən çox razılıq eləyir.

Ələmdar gülümsədi:

–Hə... Bəs sən niyə xəbərsiz gəldin? Tələti göndərərdim.

–Xalangilin qonşusu Bakıya gəlirdi, onun maşınıyla gəldim. Sağ olsun, gətirib düz həyətə qoydu məni.

–Xalam necədir?

–Yaxşıdır. Sənə çoxlu salam göndərdi. –Əminə arvad mənalı baxışlarla Reyhanəni süzdü. –Dedi ki, mən Reyhanəni Ələmdara arxayınam. Gözünü üstündən çəkməsin.





–Salam göndərən sağ olsun.

Ələmdar bunu deyib Reyhanəyə sarı döndü. Qız onun üzünə baxmamağa çalışırdı. Gözləri, sanki, yol çəkir, kövrək dodaqları titrəyirdi.

–Xalangildən yaxşı qutab gətirmişəm, –anası dedi. –Durub qızdırım, yeyin.

–Yaxşı.

Ələmdar dəhlizə çıxıb, oradan vanna otağına keçdi. Əl- üzünü yuyub qurulandı. Öz otağına girib kresloda oturdu. Bir qədər fikirləşəndən sonra cib telefonunu götürüb polkovnik Baratova zəng vurdu.

–Eşidirəm, Leopard! –polkovnikin cod səsi eşidildi.

–Onun izinə düşmüşəm. –Ələmdar qısaca dedi.

–Mən bunu gözləyirdim. –Baratovun səsində sevinc notları hiss olundu. –Danış!

–Mövsümün ailəsi səhvən qətlə yetirilib.Səid həmin mənzilə Şəmistanın ailəsinə görə giribmiş.

–Necə yəni? –deyəsən, polkovnik heç nə anlamadı.

–Səidə Şəmistanın ailəsini aradan götürmək əmrini verənlər onun mənzili satıb köçməsindən xəbərsiz imişlər.

–Sən buna əminsən?

–Yüz faiz əminəm!

–Yaxşı, bəs Səidin izinə necə düşmüsən?

–Səid, çox güman ki, bu axşam Şəmistanın yeni ünvanına gedəcək. –Ələmdar bir qədər alçaqdan danışırdı ki, anası qonşu otaqdan səsini eşitməsin.

–Bu axşam? –Baratov təəccübləndi.

–Bəli. Artıq gizli təşkilat adam göndərərək qonşulardan ünvanı öyrənib. Onlar bu işi sonraya saxlamayacaqlar.

–Həmin adamı izləmək olmazdımı, Leopard?

Ələmdar bir qədər gec cavab verdi:

–Bəlkə də... Amma həmin adam onların istifadə etdiyi təsadüfi bir adam da ola bilərdi. Biz onu güdməklə təşkilatı şübhələndirib duyuq sala bilərdik. Bir də ki, bizə əsas Səid lazımdır.

–Səhv edirsən, Leopard, – polkovnik mülayim səslə dedi. –Bizə əsas şəhərdə yuva salan gizli təşkilat lazımdır.Səidi isə tapmaq ona görə vacibdir ki, onun vasitəsilə bu təşkilata yol tapaq.

–Elədir, cənab polkovnik. Amma onların Şəmistanın ünvanını öyrənmək üçün nə vaxt adam göndərəcəklərini, yaxud qonşuya zəng edəcəklərini bilmədiyimiz üçün bina ətrafında pusqu təşkil etmək bir az çətin olardı. Həm də dediyim kimi, onlar qonşunun telefon nömrəsini öyrənib zəng də vura bilərdilər.

–Yaxşı, sən nəyə əsasən deyirsən ki, onlar bu axşam Şəmistanın ailəsini aradan götürəcəklər?

Ələmdar bu suala hazır idi və ona görə də düşünmədən cavab verdi:

–Cənab polkovnik, onlar düşünür ki, polis, yaxud milli təhlükəsizlik orqanları Movsümün ailəsinin səhvən qətlə yetirildiyini anlaya bilərlər. Belə olanda həmin orqanlar Şəmistanı dindirməklə, ən azı, Bakıda gizli erməni təşkilatının mövcud olduğunu öyrənərlər. Mən, artıq, inanıram ki, Şəmistan onların barəsində nəsə bilir.

–Doğrudur.... Ünvanı öyrəniblərsə, işi sabaha saxlamayacaqlar. – polkovnik onunla razılaşdı. –Sən bilirsənmi Şəmistanın ünvanını?

–Bilirəm, cənab polkovnik. Əmriniz nədir?

–Sən nə təklif edirsən, Leopard?

–Onu həbs etmək lazımdır.

–Kimi? Ev sahibini?

–Yox. Qonağı!

–Əmrimi gözlə!

Baratov əlaqəni kəsdi. Ələmdar əlindəki telefonu stolun üstünə qoyub divardakı saata baxdı. Saat birin yarısı idi. Ayçöhrə haqqında düşündü. İndi onun həyatında, daha doğrusu, qaranlıq qəlbinin dərinliklərində Ayçöhrə adlı bir işıq yanırdı. Bu işıq yavaş-yavaş çoxalıb bütün qəlbini işıqlandırmaqda idi. Onu birdən-birə narahatlıq bürüdü. Səid, yaxud təxribatçı qrupun göndərəcəyi başqa adam Şəmistanın yeni ünvanına indi gedə bilərdimi?... Əgər belə olardısa kim xilas edə bilərdi onları?

Amma, yox! Tez də düşündü ki, əgər bu gizli təşkilat, ya olsun,





terrorçu qrup Şəmistanın bütün ailəsini məhv etmək qərarına gəlibsə, adamlarını oraya gecə göndərəcək. Çünki, gündüz ailə üzvlərindən kimlərsə evdə olmaya bilər. Və ya, evdə başqa adam ola bilər... Yaxşı, bəs axı nəyə görə bütün ailəni öldürmək istəyir bunlar? Bu necə intiqamdır? Bəlkə heç intiqam deyil? Bəlkə Şəmistan onlar barəsində doğrudan da nəsə ciddi bir şey bilir və düşünürlər ki, bundan ailə üzvlərinin də məlumatı var?... Bəli! Ayçöhrə deyirdi ki, bacısını oğurlamışdılar... Gizli təşkilat istəmir ki, milli təhlükəsizlik orqanları onun hətta varlığından belə xəbər tutsun. Doğrudan da, bunların başçısı kimdirsə, çox hiyləgər adamdır...

–Ələmdar, gəl isti–isti ye qutabı! – anası onu yemək otağından səslədi.

–Gəlirəm.

Yemək otağına keçdi. Reyhanə də geyinib stolun arxasında oturmuşdu. Onsuz da ağ olan dərisi xəstəlikdən sonra bir az da ağarıb solğunlaşmışdı. Ancaq yanaqlarında qızartı bilinirdi. Əminə arvad üç dənə iri göy qutabını tavada qızdırıb, kərə yağı ilə yağlayaraq, hərəsini bir boşqaba qoymuşdu. Reyhanə əlindəki çəngəllə qarşısına qoyulmuş qutabı didişdirirdi. Ələmdar içəri girəndə heç başını qaldırıb ona baxmadı da.

–Otur görüm, soyutma! – Əminə arvad da süfrənin arxasında əyləşib oğluna dedi.

Ələmdar oturub öz payını qabağına çəkdi və sakitcə nahar etməyə başladı. Ancaq, fikri daha çox Ayçöhrənin yanında qalmışdı. Bu qızın indi qətiyyən xəbəri yox idi ki, onu və bütün ailəsini necə bir təhlükə gözləyir... Bir də Səid barədə düşünürdü. Görəsən, yenə onu göndərəcəkdilərmi? Yəqin ki...

–Qatıqdan da tök üstünə. –anası süfrədəki qatıqla dolu kasanı oğluna tərəf itələdi.

Ələmdar dinməz–söyləməz anasının dediyini elədi.Qutabın üstünə bir xörək qaşığı qatıq tökdü.

–Qutab necədir, xoşuna gəldi? –anası soruşdu.

–Hə, çox dadlıdır...

–Reyhanənin anası bişirib. Deyir, Reyhanə evdə olanda həmişə o

bişirirdi. Həm də deyir, ondan yaxşı bişirirmiş. –üzünü Reyhanəyə tutdu-Hə, qızım?

–Nə bilim... –Reyhanə bir az utancaq və bir az da kədərli halda gülümsəyib çiynini çəkdi.

–Qurban olaram sənə! –Əminə arvad onu oxşadı. –Gör bir necə zəiflənmisən xəstəlikdən.

Ələmdarın otağından telefonun səsi gəldi. Ələmdar axırıncı tikəni də ağzına atıb, dəsmalla dodaqlarını sildi. Otağına keçib telefonu götürdü. Zəng vuran xüsusi məxfi şöbənin rəisi idi. Polkovnik Baratov düşünüb–daşındığı əmrini şöbənin gizli agentinə çox soyuqqanlılıqla çatdırdı:

–Qulaq as, Leopard! –dedi. –Axşam Yusifovun qrupu ilə evin ətrafına nəzarət təşkil edin. Səid həyətə gələndə ona mane olmayın. Çıxandan sonra isə son dərəcə ehtiyatla izləyin. Bu dəfə də onun hər hansı bir addımı nəzərdən qaçırılsa, batdıq! Əməliyyata rəhbərliyi sənə tapşırıram!

–Necə?! –Ələmdar qulaqlarına inanmadı. –Ona mane olmayaq?

–Bəli! Düz eşitmisən.

–Axı niyə?

–Necə yəni niyə, Leopard? Bizə onun kimlərlə əlaqə saxlayacağı və yaşadığı yeri öyrənmək çox vacibdir. Biz yalnız bu yolla gizli təşkilata yetişə bilərik.

–Səidi həbs edib, lazım olan məlumatı ondan öyrənmək daha düzgün deyilmi, cənab polkovnik?

–O, danışmaya da bilər. Bizim risq etməyə ixtiyarımız yoxdur.

–Axı dörd nəfərlik ailə...

–Əmri müzakirə etmirlər, Məlikov! –polkovnikin səsi bir az da ciddiləşdi. –Dediyimə ciddi əməl edin! Mən dünən nazirlikdə nə vəziyyətə düşdüm, sənin xəbərin yoxdur. Biz içimizə soxulmuş gizli təşkilatı aşkar edib zərərsizləşdirməliyik. Bu işlə şəxsən prezident özü maraqlanır. Bir daha deyirəm, biz səhvə yol verə bilmərik! Lazım gəlsə, bu yolda dörd nəfəri yox, on nəfəri də qurban verərəm. Səidi həbs etməklə biz hər şeyi korlaya bilərik. Aydındır, nə demək istəyirəm?





–Aydındır... – Ələmdar könülsüz halda dilləndi.

–Yusifovun qrupu tamamilə sənə tabedir. Əmri dəqiq icra edin!

Baratov son sözünü deyib əlaqəni kəsdi. Ələmdar telefonu stolun üstünə qoyanda anası qapıda göründü:

–Kim idi zəng vuran?

Anasını başdan eləmək üçün ağlına ilk gələni dedi:

–Tələt idi. Soruşur, Əminə xalanı nə vaxt gedib gətirim Şamaxıdan?

Anası güldü:

–Deyəydin, yatmısan, sənin Əminə xalan çoxdan Bakıdadır. Gəl, çay iç!

–Yox, ana, başım ağrıyır. Bir az uzanmaq istəyirəm.

–Hə də! –anası səsini ucaltdı. – İndi də sən yat, Reyhanə sənə qulluq eləsin.

–Xəstə deyiləm, bir az uzanıb dincəlmək istəyirəm.

–Yaxşı, uzan dincəl. Duranda deyərsən, Reyhanə sənin üçün təzədən çay dəmləyər.

Anası qapını örtüb çıxan kimi paltarlı halda çarpayısına uzandı. Adəti üzrə əllərini başının altına qoyub fikirləşməyə başladı.

Bu gizli təşkilatı ələ keçirmək üçün dörd nəfəri qurban vermək, doğrudanmı, vacib idi? Düzdür, əgər söhbət dövlətin və millətin mənafeyindən gedirsə, ayrı–ayrı adamları qurban vermək olardı. Məxfi şöbədə çalışdığı müddətdə onu belə tərbiyə etmişdilər. Türkiyədə ali hərbi məktəbdə oxuyanda da belə öyrətmişdilər onu. Dövlətin mənafeyi üçün çox şeyi qurban vermək olardı. Amma, axı... Ələmdara onu da öyrətmişdilər ki, dövlət hər bir adamının həyatı üçün cavabdehdir. Hər bir insanın həyatı dövlət üçün önəmli olmalıdır.

Bəlkə polkovnik Baratov hissiyyata qapılır? Bəlkə bütün ömrünü dövlətə vicdanla xidmətdə keçirmiş bu adam Bakıda gizli təşkilatın tez və onun şöbəsi tərəfindən ələ keçirilməsi üçün qurban verir bu adamları?... Ələmdar düşünürdü ki, milli təhlükəsizlik orqanları bu terrorçu qrupu, onsuz da, gec-tez aşkar edib ələ keçirəcək. O vaxta qədər onlar bu dörd nəfərdən daha çox adam öldürə də bilərdilər,

öldürməyə də bilərdilər. Kim bilirdi bunu? Kim bilirdi ki, bu qrup Bakıda nə kimi təxribatlar həyata keçirməyi planlaşdırıb? Yox, deyəsən, polkovnik Baratov haqlı idi. Amma, yəni başqa yolla ifşa etmək olmazdımı bu gizli təşkilatı? Yox, hələ ki, yox! Polkovnik deyir ki, bu təşkilat haqqında ən cüzi bir məlumat belə yoxdur. Əgər Səid həbs olunarsa və təşkilat barədə önəmli bir məlumat verə bilməzsə, hər şey əldən çıxar. Gizli təşkilat öz azacıq izlərini də itirib daha dərində gizlənə bilər.

Yaxşı, bəs Şəmistan? Şəmistanı tutub danışdırmaqla nəsə öyrənmək olmazmı? O, yəqin ki, gizli təşkilat haqqında nəsə bilir. Əgər bilməsəydi onu niyə aradan götürmək istəyirdilər ki?...

Ələmdar istədi ki, polkovnik Baratova zəng vurub öz düşündüklərini ona da bildirsin. Amma bu fikrindən tez də vaz keçdi. Rəisinin xasiyyətinə bələd idi. Baratov ölçüb–biçməmiş əmr verməzdi və verdiyi əmri də heç vaxt geri götürməzdi. O, öz əmrini artıq çox qəti şəkildə vermişdi.

Amma... Ələmdarın ürəyi heç cür qəbul edə bilmirdi bunu... Axı bu dörd nəfər adamın nə günahı var idi? Yaxşı, lap tutaq ki, Şəmistanın nəsə günahı var. Kim bilir, lap bəlkə də, satılıb ermənilərə. Bəs, tutaq ki, Ayçöhrənin? Ayçöhrə yazığın nə günahı var?

Ələmdar birdən–birə anladı ki, onu verilən əmrin əleyhinə düşünməyə məcbur edən heç nə yox, Ayçöhrənin dərdidir. O, yalnız Ayçöhrəni düşünürdü. İstəmirdi o ölsün. İstəmirdi ki, lap o sağ qalsa da, ailə üzvləri qətlə yetirilsin və Ayçöhrə də bunun dərdini çəksin.

Özü–özünə etiraz etməyə çalışdı. Yox, Ayçöhrə kimdir? Ayçöhrə kimdir ki, Ələmdar bircə onu düşünərək dövlət əhəmiyyətli və son dərəcə ciddi əməliyyatı pozsun?! Məxfi şöbənin Leopardı mayor Ələmdar Məlikov belə şey etməz axı!?...

Ancaq, bəs Ayçöhrə?!... Əşi, qoy Ayçöhrə də getsin işinə! Ələmdar niyə axı düşünməliydi onu? Bu vaxta qədər bu qızı tanımırdı, dünya dağılmamışdı ki!

Çarpayıdan qalxıb otaqda gəzişməyə başladı. Bəlkə, əlli dəfə o baş–bu başa gedib-gəldi. Sonra yenə çarpayıya uzanıb gözlərini





yumdu və sakit başla düşünməyə başladı.

Gözü divardakı saata sataşanda yerindən sıçrayıb ayağa qalxdı. Saat 3-ü keçirdi. Deməli, o, artıq iki saatdan çox idi ki, fikirləşirdi.

Yenə Ayçöhrəni xatırladı. Onun ay kimi işıq saçan çöhrəsini, adamın vücudunu titrədən baxışlarını, balın şirinliyini kölgədə qoyan təbəssümünü, incə belinə tökülən hamar saçlarını, uzun, dümdüz, sağlam ayaqlarını... Və bir də qeyri-adi dərəcədə cəzbedici yerişini... Ələmdar bir qədər düşünəndən sonra Ayçöhrənin başqa qızlarınkından fərqlənən bu möcüzəli yerişinin sirrini tapmışdı. Məsələ burasında idi ki, Ayçöhrə yeriyəndə onun çiyinləri də hərəkət edirdi və bu hərəkət qızın incə belinin, daha sonra isə beldən aşağı hissələrin hərəkəti ilə ahəng yaradaraq ilahi bir gözəllik nümayiş etdirirdi.

Ələmdarın fikrincə bu qız qənirsiz bir gözəl idi. Hələ onun məlahətli səsi... Səsindən də siması kimi təmizlik yağırdı. Elə qəlbi də səsi kimi, siması kimi təmiz idi. Bütün qəlbi yalnız yaxşılıqlarla dolu idi, elə bil. Tanrısını ilahi bir məhəbbətlə sevirdi, ona dualar edirdi. Bu dualar özü də nə qədər sadə, nə qədər təmiz, nə qədər səmimi idilər. Bəlkə elə bunlara görə gecələr yuxusuna girib onunla danışırdı ulu Tanrı...

Maraqlıdır, görəsən, yuxularında nə deyirdi ona Böyük Tanrı? Ayçöhrə bunu demək istəmədi. Utandı, deyəsən... Ancaq, Ələmdar çox istəyərdi ki, bunu bilsin.

Əgər Ayçöhrənin əvəzinə hər hansı başqa bir qadın desəydi ki, Tanrı onun yuxularına gəlir, onunla danışır, Ələmdar o qadına gülər, ürəyində də olsa onu lağa qoyardı. Amma, nədənsə, inanırdı Ayçöhrəyə. İnanırdı ki, Tanrı, doğrudan da, özünün yaratdığı belə ilahi gözəlin yuxusuna gəlib ona nəsə deyə bilər. Amma, doğrudan, cox maraqlıdır, nə deyirmiş Aycöhrəyə o gözəgörünməz ulu varlıq?...

Ələmdar fikirlərdən ayrılıb cib telefonunu əlinə götürdü. Bir an şüursuz şəkildə telefonuna tamaşa etdi. O, bu saat çox qəribə hisslər keçirirdi və keçirdiyi hisslərin mənasını özü də anlaya bilmirdi. Kiməsə zəng vurdu. Kimə zəng vurduğunu, deyəsən, əvvəlcə özü də

bilmədi. Amma ekranda Tələtin adı görünürdü. Telefonu qulağına aparanda da Tələtin səsini eşitdi:

–Alo! Eşidirəm, Ələmdar!

–Tələt, klubdasan?

–Hə, qədeş, eşidirəm. Nəsə olub?

Ələmdar istədi ki, yenə fikirləşsin. Amma fikirləşə bilmədi. Hansısa sirli qüvvə onu başqa bir şey düşünməyə qoymurdu. Odur ki, daha Tələti çox gözlətmədi:

–Tələt, axşam saat 7- də öz maşınınla bizim evin qabağına gəl. Vacib işimiz olacaq.

Tələt heç bir sual–filan vermədən:

–Baş üstə, qədeş! –dedi.

Ələmdar telefonu qapayıb dərhal kapitan Yusifova zəng vurdu. Bu dəfə heç nə düşünmürdü və bayaqkından daha qətiyyətli idi.

–Bəli, cənab mayor. –qulağına Yusifovun gümrah səsi gəldi.

–Kapitan, –dedi. –saat 7-də qrupun üzvləri azı iki qapalı maşında üzuli meydanının yanında hazır dayansınlar. Onlardan 5-6 nəfəri üsusi təyinatlı polis geyimində olsun. Ciddi əməliyyat keçirəcəyik.

– Səidi izləyəcəyiksə polis geyimi şübhə doğurmazmı?

– Əmri müzakirə etmirlər, kapitan! – Ələmdar acıqlı səslə dedi və z də yadına düşdü ki, indicə həmin bu sözləri ona polkovnik aratov demişdi.

– Oldu, cənab mayor! – Yusifov quru səslə dilləndi.

Ələmdarın nə mayor Cavadovla, nə də kapitan Yusifovla elə bir xın münasibəti yox idi. Əksinə, bu iki zabitin hər biri ona qısqanc ünasibət göstərirdi. Çünki Məxfi şöbənin rəisi həmişə öz sevimli opardını tərifləyir, istənilən nöqsanına göz yumur, hər hansı bir tinliyə düşəndə ona bütün gücü ilə dayaq dururdu.

Anası otağın qapısını açıb içəri boylandı.

–Ələmdar, durmusan? Kiminlə danışırdın?

–Tələtlə. – Ələmdar dərhal cavab verdi. – Kluba elektrik rəsindən yoxlama gəlib, ondan danışırdıq.

–Onların başı batsın! – anası dedi. – Başın yenə ağrıyır? Reyhanə qoysun səninçün?



–Hə, qoysun!

Bir an sonra Əminə arvadın dəhlizin o biri başından səsi gəldi:

–Reyhanə, Ələmdar deyir ki, bir yaxşı çay dəmləyəsən!

Ələmdar pəncərənin qarşısına gedib oradan həyətə baxdı. Heç kəsin eşidə bilməyəcəyi bir səslə, özü–özüylə danışırmış kimi, dilləndi:

–Səni xilas edəcəm, Ayçöhrə! Mütləq xilas edəcəm. Bunu mənə gecələr yuxuna girib səninlə danışan Tanrı özü əmr edir...

## İYİRMİ BİRİNCİ FƏSİL

Axşam saat 8-in yarısında artıq hava qaralmışdı. Ələmdarla Tələt köhnə məhəllədə bir–birinə yapışmış birmərtəbəli evlərin qır basılmış yastı damları ilə yeriyib Şəmistanın evinin üstünə çatdılar. Çalın–çarpaz çəkilmiş və evlərin üstünü tor kimi bürümüş elektrik məftillərinə toxunmamaq üçün ehtiyatla yeriyirdilər.

Hava soyuq idi. Bayaqdan əsən şimal küləyi getdikcə möhkəmlənirdi. Ələmdar evin üstündən əyilib, yuxarıdan aşağı, kiçik həyətə baxdı. Həyətə hamamın qapısı üstündə asılmış elektrik lampasından zəif işıq düşürdü. Evlərin həyətə açılan qapıları örtülü idi. Həyətdə heç kəs görünmürdü. Ələmdar pıçıltı ilə Tələtə:

–Buradır. – dedi.

Sonra ondan ayrılıb bir qədər irəli getdi. Dalan tərəfdən həyətə gələn ümumi elektrik məftilinin yerini müəyyənləşdirib Tələtin yanına qayıtdı. Yenə əyilib həyətə baxdılar. Heç kəs yox idi. Həyətə çıxan adamın təsadüfən başını qaldırıb onları görməməsi üçün bir addım arxaya çəkilib qırın üstündə oturdular. Hər ikisinin əynində idman stilində yüngül geyim var idi. Tələt cib telefonunu hələ məhəllənin o biri başında, maşını saxladığı yerdə, evlərin üstünə çıxmamış söndürmüşdü. İndi isə idmançılara məxsus qaydada bardaş

quraraq oturub səssiz vəziyyət almışdı.

Ələmdar özü ilə gətirdiyi kiçik kəndir topasını və kəlbətini kənara qoyub səssiz rejimə keçirdiyi cib telefonunu çıxardı.Onu əlində tutub:

–Gözləyək! – dedi.

O, artıq Tələti lazımınca təlimatlandırmışdı. Kapitan Yusifov isə qaranlıq küçədə maşında oturaraq dar dalanın girişini nəzarətdə saxlayırdı. Dalana şübhəli bir adam girərdisə, dərhal Ələmdara xəbər verəcəkdi.Yusifovun Ələmdarın planından xəbəri yox idi. O, düşünürdü ki, polkovnik Baratovun əmrinə əsasən onlar qatilə mane olmayacaq, qatil cinayəti törədib həyətdən çıxandan sonra onu izləyəcəkdilər. Maşında Yusifovdan başqa bir gənc qız da var idi ki, bu da Məxfi şöbənin əməkdaşı Lalə Hüseynova idi. Ələmdarın göstərişinə görə, əyninə polis forması geymiş altı əməkdaş isə bir qədər uzaqda–Füzuli meydanının qarşısında iki qapalı maşında oturub əmr gözləyirdilər.

Küçə tərəfdən tək-tək maşın səsi eşidilirdi. Həyətdə isə sakitlik idi. Evlərin pəncərələrindən işıq gəlsə də bütün məhəllənin damları qaranlığa bürünmüşdü.

Bir saata qədər beləcə oturdular. Hərdən aşağıda kiminsə səsi gəlir, qapılar açılıb-örtülürdü. Belə olanda Ələmdar əyilib ehtiyatla həyətə baxırdı. Bu darısqal həyətin eni üç, uzunu isə yeddi-səkkiz metr güclə olardı. Çox cansıxıcı bir görkəmi var idi.

Qonşu evdə televizorun səsini qaldırdılar. Hansı kanaldasa futbol reportajı gedirdi. İndi həyətdə başqa səs olardısa eşitməyə bilərdilər. Ələmdar dizlərini yerə dayayaraq qabağa əyilib həyətə göz qoymağa başladı. Dəqiqələr yaman ağır keçirdi.

Şəmistanın evinin qapısı açıldı. Bir qız həyətə çıxıb ipdən asılmış paltarları yığmağa başladı. Bu Ayçöhrə idi. Əyninə şalvar və gödəkçədən ibarət idman paltarı geyinmişdi. Amma bu, səhərlər parka gələrkən geydiyi deyildi. Bir qədər köhnə, qırmızı rəngli paltar idi. Arxası Ələmdara tərəf dayanmışdı. Hər dəfə əlini ipə uzadıb dartınanda gödəkçəsi yuxarı qalxır, çılpaq beli görünürdü. Qarşıdakı təhlükədən tamamilə xəbərsiz olan qız, nəhayət, paltarları yığıb





qurtardı və evə girərək qapını örtdü.

Külək bu zaman Ələmdarın burnuna xəfif qızılgül ətri gətirdi. Nədənsə, ona elə gəldi ki, indicə qapını arxasınca örtən qız onun ən doğma adamlarından biridir. Ürəyindən bu saat həmin qapının o biri tərəfində olmaq keçdi. Ayçöhrənin evin içində özünü necə aparmasını, necə danışıb-gülməsini görmək istədi.

Bu zaman həyət qapısına yaxın evdən bir qoca kişi çıxdı. Ağır–ağır həyətdəki hamama bitişik olan tualetə tərəf gəldi. Qapını açıb içəri girdi. Ələmdar dönüb Tələtin üzünə baxdı. Sambo bölməsinin məşqçisi sakitcə bardaş qurub oturmuşdu. Ələmdar bu gəncin dözümünə də, gücünə də, sədaqətinə də inanırdı. Bilirdi ki, heç nədən qorxusu-hürküsü yoxdur onun.

Öz rəisi haqqında düşündü. Bilirdi ki, polkovnik Baratov onu asanlıqla bağışlamayacaq. Amma dörd nəfərdən ibarət bir ailənin, xüsusilə də Ayçöhrənin ölümünə razı ola bilməzdi. Bilirdi ki, məsələ çox ciddidir. Bilirdi ki, polkovnik son dərəcə gizli və ehtiyatlı fəaliyyət göstərən təxribatçı qrupu aşkar edib zərərsizləşdirmək üçün, çarəsizlikdən bu qərara gəlib. Amma, yenə özünü inandırırdı ki, Səidi həbs edəndən sonra bu adam hər şeyi açıb onlara danışacaq və beləliklə də, gizli qrupun izinə düşmək mümkün olacaq.

Telefonun ekranı səssizcə işıqlandı. Yusifov siqnal göndərmişdi. Cəld yerində dikəlib əllərini evin damının kənarına qoydu. İndi yalnız bir dizi yerdə idi. Bu zaman o, sıçrayışa hazırlaşan əsl leopardı xatırladırdı. Beş-on üzücü saniyə keçdi və bir nəfər həyətə daxil oldu. Bu, üzünü tük basmış orta yaşlarda bir kişi idi. O, həyətdə soldan ikinci qapını döydü. Qapı açıldı və qapını açan qadının çığırtısı həyəti bürüdü:

–Nədi, niyə gəldin, a oğraş, doydun o fahişədən?

–Çəkil görüm,qışqırma.... – kişi bir az astadan danışırdı.

–Qışqıraram, hələ o yana da keçərəm. Cəhənnəm ol, get o lotunun yanına!

–Ay qız, çəkil görüm, məni cin atına mindirmə!

–Nədi, neyləyəcəksən mənə, eşşək oğlu eşşək! Boşayacaqsan? Boşamayan kişi deyil! Boşa, get o qancığı gətir uşaqlarının üstünə!

Qadının çığırtısı, az qala, Ələmdarı diksindirdi. Deyəsən, kişi ...vadını vururdu.

–Vay, sənin əlin qurusun! Ay Allah, öldüm! Ay camaat kömək ...əyin, bu narkoman köpək oğlu öldürdü məni!

Evdən uşaqların da qışqırıq səsi gəldi. Kişi evə girib qapını ...tmüşdü. İçəridə səs–küy bir-birinə qarışmışdı. Həyətdəki o biri ...lərdən heç birinin qapısı da açılmadı. Heç kəs onların harayına ...tmək istəmirdi. Ələmdar düşündü ki, yəqin, belə dava–dalaş bu ...də birinci dəfə deyil baş verir. Uşaqlıq illəri yadına düşdü. O da ...aqlıq illərini Bakının köhnə məhəllələrinin birində, elə təxminən ...lə bir həyətdə keçirmişdi.

Bir pişik alçaq hamamın üstündən sıçrayıb dama qalxdı. Başqa bir ...şik də onun arxasınca cumdu. Onlar cırmaqlaşıb boğuşmağa ...şladılar. Onların zəhlətökən səslərinin kəsilməyəcəyini görən ...əmdar Tələtə baxdı. Tələt ətrafına boylanıb qaranlıqda əlinə nəsə ...çirtdi. Bu, yöndəmsiz bir ayaqqabı tayı idi. Onu pişiklərə tolazladı. ...rrast atmışdı. Ayaqqabı tayı pişiklərdən birinə dəydi və onlar ...slərini kəsərək qaçıb başqa evlərin damında gözdən itdilər. Həyətə ...əmən sakitlik çökdü. İndi dava-dalaş olmuş evdən də səs gəlmirdi. ...biri qonşu da televizorun səsini bir qədər azaltmışdı.

Telefonun ekranı yenə işıqlandı. Yenə Yusifov idi zəng vuran. ...əmdar əllərini yerə dayayıb bayaqkı vəziyyəti aldı və iti baxışlarını ...yətin giriş qapısına tərəf döndərdi. Həyətdə heç kəs yox idi. Qoca, ...yəsən, hələ də tualetdən çıxmamışdı. Bu Ələmdarı bir qədər ...rahat etdi. O, indicə qapını açıb həyətdə görünə bilərdi. Bu vaxt ...nə Şəmistanın evinin qapısı açıldı. Şəmistan özü idi deyəsən. ...yətə çıxıb tualetə tərəf yeridi. Amma onun qapısının içəridən bağlı ...luğunu anlayıb geri qayıtdı və evinə girib qapını örtdü. Ələmdar ...nə dönüb sambo məşqçisinə baxdı. Tələt yerində heykəl kimi ...nub qalmışdı. Sanki, heç nəfəs də almırdı. Bir nəfər həyətə daxil ...lu. Bu, polis zabiti formasında olan orta boylu kişi idi. Qabağa ...dikcə üzünə düşən işıqda Ələmdar onu tanıya bildi. Bu, lap yəqin ...Səid özü idi...

Ələmdar onun qapıya çatmasını gözləyib, birdən əllərini yerə





basaraq leopard çəldliyi ilə həyətə tullandı. Ayaqlarında yumşaq... idman ayaqqabısı var idi və elə tullanmışdı ki, heç bir tappıltı-filan... səsi də eşidilmədi. Bu tullanışdan xəbərsiz olan Səid qapını döymə... hazırlaşırdı ki, boynuna dəyən qüvvətli zərbədən Ələmdarın... qucağına yıxıldı. Ələmdar Tələtin yuxarıdan salladığı kəndirin... halqasını onun qolları altına keçirdi və Tələt çəld bir hərəkətlə Səid... yuxarı dartdı.

Ələmdar isə divara yaxınlaşıb əvvəldən gözaltı elədiyi qa... borusunun köməyilə bir göz qırpımında dama qalxdı. Hər şey yaxş... qurtarmışdı. Həyətdə yaşayanların heç biri baş verənlərdən xəbə... tutmamışdı. Tələt kəndiri açıb, huşunu itirmiş Səidi damın üstünd... yerə uzatdı. Ələmdar cibindən nazik, qara parçadan olan bir mask... çıxarıb öz başına keçirdi. İndi onun üzündə yalnız iti gözləri və sər... dodaqları görünürdü. Yaxınlaşıb diqqətlə Səidə baxdı. Sonra onun... üst–başını yoxlayıb ciblərindən lüləsinə səsboğan taxılmış tapança v... bir açar çıxartdı. Tapançanı öz cibinə qoyub asta səslə Tələtə:

–Soyundur bunu! – dedi.

Tələt polis geyimini çəld hərəkətlə Səidin əynindən çıxardı. İnd... onun əynində yalnız alt paltarı qalmışdı. Bu zaman o, özünə gəlib... başının üstündə dayananlara heyrətlə baxdı:

–Siz kimsiniz?...

Ələmdar əlindəki açarı ona göstərib asta, lakin eyni zamanda, son... dərəcə ciddi səslə hökm etdi:

–Yaşadığın mənzilin ünvanını de!

–Siz kimsiniz? –Səid zarıltılı səslə təkrar etdi.

–Bunu sonra danışarıq, çəld ol, ünvanı de!

Kürəyi üstə dama uzadılmış yarıçılpaq Səid soyuqdan titrəyirdi:

–Mənə soyuqdur... Mən xəstəyəm...

–Ünvanı de!

Səid susurdu. Tələt isə sakit nəzərlərlə gah ona, gah da səs... getdikcə amansızlaşan Ələmdara baxırdı.

Ələmdar Səidin maykasını bir az yuxarı çəkib sağ əlinin pəncəs... ilə çılpaq böyründən yapışdı. O biri əli ilə onun ağzını tutub, böyrünü... elə sıxdı ki, barmaqları az qaldı dərini deşib içəri girsin. Səid dəhşətl...

ağrıdan yerində çırpınıb boğuq səs çıxararaq Ələmdarın əlindən yapışdı. Ələmdar onun ağzını tutan əlini boşaldıb:

–Gözləyirəm! – dedi.

Səid çətin anlaşılan boğuq səslə ünvanı birnəfəsə söylədi.

–Səni izləyən vardı? – Ələmdar soruşdu.

–Yox... Bilmirəm...

–Tutduğun mənzildə səndən başqa kimsə yaşayır?

–Yox...

–Mənzilin açarı budur?

–Hə...

–Sən buradan öz mənzilinə qayıtmalıydın?

–Hə...

–Bəs silahı, paltarı necə qaytaracaqdın sahiblərinə?

–Bilmirəm...

Ələmdar onun böyrünü buraxdı. Səid təzəcə rahatlanıb dərindən nəfəs almışdı ki, özü ilə gətirdiyi yapışqanlı sarğı ilə onun ağzını bağladı. Yalnız bundan sonra Tələtə baxıb:

–Ünvanı eşitdin? – deyə soruşdu.

Tələt təsdiq mənasında başını tərpətdi.

–Öz paltarını buna ver, polis paltarını geyin. –Ələmdar dedi. – Həmin mənzilə gedəcəksən. Al, bu da açar!

Tələt əynindəki idman geyimini soyunub Səidə verdi. Özü isə polis formasını tələsik əyninə keçirdi. Bundan sonra Ələmdar növbəti göstərişini verdi:

–Maşının açarını mənə ver! Özün də düş aşağı, birbaşa bu əclafın dediyi ünvana get. İçəri girib mənə xəbər ver. Qapını heç kəsə açma. Yalnız, uşaq gələrsə, aça bilərsən. Çalış, buradan çıxanda üzünü görməsinlər. Bizimkilərdən səni bir qız izləyəcək. Əgər başqa izləyən olsa da, narahat olma. Onunla həmin qız məşğul olacaq. İndisə, get!

–Oldu,qədeş!

Tələt maşının açarını Ələmdara verib həyətə boylandı.Qabağa yeriyəndə Ələmdarın səsi onu saxladı:

–Dayan!





–Nədir?

Ələmdar səsboğanlı tapançanı cibindən çıxarıb ona verdi.

–Al, bu səndə olmalıdır.

–Neynirəm onu?

–Al, dedim!

Tələt tapançanı alıb ondan səsboğanı açdı. Hərəsini bir cibinə qoyub yenə həyətə baxdı. Orada heç kəs görünmürdü. Qıvraq bir hərəkətlə aşağı tullandı. Yerində təzəcə dikəlmişdi ki, tualetin qapısı açıldı və qoca kişi oradan çıxdı. Tələt onun təəccüblü baxışlarına əhəmiyyət verməyib sürətlə yanından ötdü.

Bu zaman yuxarıda Ələmdar telefonunu cibindən çıxardı. Elə həmin anda da ekran işıqlandı. Bu dəfə telefonu açıb qulağına apardı. Telefondakı bu nömrəni Ələmdar bu gün almışdı və onu yalnız Yusifovla Tələtə bildirmişdi. İstəmişdi ki, evin damında olarkən başqaları zəng vurub onu narahat etməsinlər. Kluba gedən kimi nömrəni yenidən dəyişib telefona öz nömrəsini qoyacaqdı.

–Hə, Yusifov?

–Səid dalandan çıxdı. –kapitanın səsində azacıq həyəcan vardı.

Ələmdar isə tam sakit və təmkinli səslə göstərişini verdi:

–Qoy onu yalnız Lalə izləsin. Həm də kənardan. Diqqət versin görək, onu başqa adam izləyir, ya yox. Sənin polis formalı adamların isə elə bu saat həyətə doluşub Şəmistanın evinə girsinlər. Onlara qarşı heç bir kobudluq etmədən evdən çıxarıb maşınlara mindirsinlər. Şəmistanı şöbəyə, qalanlarını isə gizli yerlərimizdən birinə aparsınlar! Həyətə girərkən adamların elə etsin ki, qonşulardan heç kəs Şəmistanın ailəsinin evdən sağ çıxdığını görməsinlər. Aydındır?

Yusifov bu sözlərdən heyrətə gəlmişdi:

–Siz nə danışırsınız? Məgər, Səid onları öldürməyib?

–Yox. Mən Səidi tutmuşam. Həyətdən çıxan mənim adamımdır. Onu yaxşı tanıyırsan. Tələt.

–Bağışlayın, cənab mayor, amma mən rəisimizə bu barədə məlumat verməliyəm.

Ələmdar hirslənsə də səsini qaldırmadı:

–Nə edirsən et, amma cəld ol! Hər şeyin, doğrudan da,

korlanmasını istəmirsənsə, dediyimi elə! Rəisimiz də çarəsizlikdən sənə bu əmri verəcək.

Sözünü bitirib telefonu qapadı. Ağzı yapışqanlı lentlə bağlanmış Səid gözlərini bərəldərək heyrətlə ona baxırdı. Tələt idman formasını Səidə geydirərkən onun qollarını arxaya çəkib kəndirlə bağlamışdı. Ələmdar öz əsirinə bir qədər kinli nəzərlərlə baxıb yerə qoyduğu kəlbətini götürdü. Həyətə gələn ümumi elektrik məftilinə yaxınlaşıb gözləməyə başladı.

Bir neçə dəqiqə keçmiş kapitan Yusifov öz adamları ilə birlikdə həyətə daxil oldu. Onlar cəmi yeddi nəfər idilər. Yusifovdan başqa hamısının kürəyində iri hərflərlə yazılmış "POLİS" sözü diqqəti cəlb edirdi. Kapitan və adamlarından ikisi qapını açaraq Şəmistanın evinə girdilər. Qalanlar isə digər qapıların qarşısını kəsdilər ki, heç kəs həyətə çıxmasın.

Amma, qapılardan biri aralandı və qadın səsi eşidildi:

–Ay qardaş, nə olub?

–Qonşularınızı öldürüblər. –əməkdaşlardan biri dedi.

–Hansı qonşumuzu?

–Mən nə bilim? Girin içəri, cəld olun!

Sonra başqa qapının ağzından səs gəldi:

–Siz kimsiniz?Nə istəyirsiniz?

–Keçin içəri!

–Nə olub?

–Sizə deyirəm, örtün qapını!

–Adam öldürüblər?!

Şəmistanın evindən isə səs gəlmirdi. Yəqin ki, kapitan Yusifov hər şeyi yoluna qoymuşdu. Bir dəqiqə keçmiş qapı açıldı və Yusifov qapıda göründü. O, həyətə nəzər salıb vəziyyəti qiymətləndirdi və geri dönərək içəridəkilərə:

–Çıxa bilərsiniz!-dedi.

Elə həmin anda da bütün həyət zülmət qaranlığa qərq oldu. Ələmdar həyətə gələn elektrik məftilini kəlbətinlə kəsmişdi. Evlərin bir neçəsindən qışqırıq səsləri eşidildi. Həyətdə isə kapitan Yusifov:

–Cəld olun! Cəld olun!- deyərək kimlərisə tələsdirirdi.





Bircə dəqiqə sonra həyət qapısının ağzında dayanmış yanları örtülü maşınlar uğultu salaraq oradan uzaqlaşdılar. Ələmdar dərindən nəfəs alıb zülmət qaranlıqda ehtiyatla Səidə yaxınlaşdı. Onun qolundan tutub ayağa qaldıraraq:

–Düş qabağıma! – dedi.

Tələtin maşınını məhəllənin yuxarı başında, küçənin kənarında saxlamışdılar. Oraya qədər damların üstü ilə gedəcəkdilər.

–Ehtiyatlı ol, elektrik xətlərinə ilişərsən! – Ələmdar əsirini xəbərdar etdi.

Onlar arxadan hələ də qışqırıq sədaları eşidirdilər. Həyət sakinlərinin səsləri bir-birinə qarışdığı üçün nə dediklərini anlamaq mümkün deyildi.

## İYİRMİ İKİNCİ FƏSİL

"Mersedes" markalı avtomobil "Döyüş" idman klubunun həyətinə girəndə gecə saat 11-ə işləmişdi. Ələmdar maşını düz klubun qarşısında saxlayıb yerə endi və Səidə maşından çıxmağa kömək etdi. Köhnə məhəllənin yanında maşına minərkən Səidin gözlərini bağladığı üçün öz başındakı maskanı çıxarmışdı. Qapını açarla açıb, əvvəlcə Səidi içəri saldı. Sonra özü də geniş foyeyə daxil olub qapını içəridən bağladı. Gözətçini bu gecəki növbədən azad etdiyi üçün burada onlardan başqa heç kəs yox idi.

Foye qaranlığa qərq olmuşdu. Azacıq sonra Ələmdarın gözü bu qaranlığa alışdı və o, Səidin qolundan tutub pilləkənlə yuxarı qaldırdı. Onu ikinci mərtəbədəki otaqlardan birinə salıb, otağın işığını yandırdı. Cibindən qara maskanı çıxarıb başına keçirdi və yalnız bundan sonra Səidin gözlərini, ağzını bağlamış yapışqanlı sarğıları, qollarındakı kəndiri açdı.

Bura Ələmdarın kabinetinə bitişik istirahət otağı idi. Otaqda bir

taxta çarpayı, stol, soyuducu, iki kreslo və televizor diqqəti cəlb edirdi. Otağın "Döyüş" idman klubuna məxsus olduğunu bildirən heç bir şey görünmürdü. Ələmdar kreslolardan birini Səidə göstərdi:

–Otur, görüm!

Səid göstərilən yerdə oturdu. Deyəsən, hələ də tam şəkildə özünə gəlməmişdi. Heyrətlə ətrafına boylanır, qarşısındakı uca boylu, başdan-ayağa qara rəngdə geyinmiş, gözlərindən, dodaqlarından və əllərindən başqa heç yeri görünməyən adama qorxuyla baxırdı. Üz–gözünün qırışmağından hiss olunurdu ki, ciyərinin və mədəsinin ağrıları yenə baş qaldırmışdı. Mədəsi bulanır, bədəninə tez–tez üşütmə gəlirdi.

Ələmdar o biri kresloda oturub, onu başdan–ayağa diqqətlə süzəndən sonra sorğu-suala başladı:

–De görüm, kimsən? Bakıya niyə gəlmisən?

Səidin üzündə acı bir təbəssüm göründü:

–Kim olduğumu bilmirsinizsə, məni niyə izləyib tutmusunuz?

–De görüm, kimsən? – Ələmdar səsini qaldırdı.

–Adım Hikmətdir. Rusiyada yaşayıram.

Bu dəfə Ələmdar kinayə ilə gülümsədi:

–Səid, mən sənin saxta pasportunda yazılanları soruşmuram. Gəl, mənimlə gizlənpaç oynama. Özün haqqında tam məlumat ver!

–Yaxşı! – Səid dərindən ah çəkib dilləndi. – Mən sizinlə gizlənpaç-filan oynamayacam. Adım Səiddir. Səid Namazov. Xocalıdanam. Ermənilər oranı alanda atamla bacımı öldürüblər. Məni və anamı isə əsir götürüblər...

–Bakıya niyə gəlmisən? Kimlərin tapşırığı ilə? Mövsümün ailəsini səhvən qətlə yetirdiyini bilirəm. Bəs Şəmistanın ailəsini aradan götürmək əmrini kimdən almışdın?

–Bunları deməyəcəm... – Səid başını aşağı dikdi.

–Səninlə olsa, deməzsən.

–Əksinə! Mənimlə olsaydı, deyərdim, bəlkə də... Amma, heç nə deməyəcəm!

Ələmdar nəsə demək istəyirdi ki, telefonun zəngi buna mane oldu. Zəng vuran Tələt idi.





–Ələmdar, mən həmin ünvana çatdım. – dedi. –Məni ancaq bir qız izləyirdi. Əynində şalvar, dəri gödəkçə, başında şapka var idi. Başqa adam görmədim. İndi mənzildəyəm. Bundan sonra nə etməliyəm?

–Mənzildə telefon var? – Ələmdar bir gözü Səiddə olduğu halda soruşdu.

–Hə, var.

–Qapını, hələlik, heç kəsə açma, telefon zəng çalsa cavab vermə, bir şey olsa mənə zəng vur.

–Baş üstə!

Ələmdar telefonu qapayıb Səidə baxdı:

–Elə bilmə ki, sənin nazınla oynayacam. Sən vətən xainisən! Mənim üçün erməni ilə səndə fərq yoxdur. Əgər bildiklərinin hamısını mənə danışmasan, inan ki, səni öldürə bilərəm! Bakıdakı erməni təşkilatı barədə nə deyə bilərsən?

–Mən heç nə deməyəcəm! –Səid yenə inad göstərdi.

–Deməli, hər halda, təsdiq etdin ki, şəhərdə belə bir təşkilat var?

–Mən heç nə demədim, nə də deməyəcəm.

Ələmdar kinayə ilə gülümsədi:

–Əgər sən bizim əlimizə keçmisənsə, deməli, səni danışdıracağıq. Boş yerə nə özünü yor, nə də bizi.

Səid başını qaldırıb onun üzünə baxdı. Daha doğrusu, gözlərinə. Çünki qarşısındakı adamın gözlərindən və dodaqlarından başqa üzünün hər yerini maska gizlətmişdi.

–Belə bacarıqlısınızsa, Xocalı viran qalanda, camaat qarışqa kimi qırılanda harada idiniz? – deyə soruşdu.

–Onu, imkanın olsa, o vaxt səlahiyyət sahibi olmuş adamlardan soruşarsan. – Ələmdar dedi. – İndi isə mənim suallarıma cavab ver.

–Bakıya gələndən sonra hər şeyi gördüm. Heç vecinizə də deyil on yeddi ildən bəri əsirlikdə olanlar. Hamınız kefdəsiniz.

–Yəqin, sən özün kimiləri görmüsən ancaq. Qeyrətsizləri!

–Elə hamınız qeyrətsizsiniz, əclafsınız!

Ələmdar durub onun yaxasından ikiəlli yapışdı. Ayağa qaldırıb başı ilə sifətinə zərbə endirdi. Sonra onu yenə kresloya çırparaq

yerində oturdu.

–Bu, ancaq söyüşünə görədir. Əsl cəzan hələ sonra olacaq sənin.

Əlləri ilə üzünü tutub kresloya sərilən Səid yerindən bir xeyli müddət tərpənə bilmədi. Nəhayət, əllərini üzündən çəkib ovcunu bulayan qana baxdı. Sonra əllərini əynindəki şalvara sürtüb güclə dilləndi:

–Mənası yoxdur...

–Nəyin mənası yoxdur? – Ələmdar bu dəfə sakit səslə dilləndi.

–Mənə əzab verməyin mənası yoxdur. On yeddi il əsirlikdə olmuşam. Fantaziyanızı nə qədər işə salsanız da onlardan ağır işgəncə verə bilməyəcəksiniz.

–Bəs onda niyə danışmaq istəmirsən?

–Qulaq as! –Səid əli ilə burnundan axan qanı silib yenə şalvara sürtdü. –Sənin kim olduğunu bilmirəm. Ancaq, bil ki, anam indi onların əlindədir. Ermənistanda... Məni bura göndərəndə anamla görüşdürdülər. Başa saldılar ki, onları aldadıb sizə təslim olsam, ya tutulanda nəsə məlumat versəm, anamı əzabla öldürəcəklər! Bir şey anladın? Anamı deyirəm! Anamı əzabla öldürəcəklər! Nə cür əzabla öldürəcəklər, onu sənin kimilər təsəvvür edə bilməz. Mən bilirəm bunu. Çünki, gördüyümü görmüşəm. Ona görə də, mənə nə əzab verirsiniz verin, heç nə deməyəcəm sizə!

Ələmdar, bir anlıq, deməyə söz tapmadı. Ayağa qalxıb otaqda gəzişdi. Bu vaxt telefon səsləndi. Kapitan Yusifov idi.

–Cənab mayor...

–Hə, Yusifov, eşidirəm, de görüm işlər nə yerdədir?

–Şəmistanı şöbəyə gətirmişəm. O biriləri Xırdalana apardılar. Orada bizim evimiz var, bilirsiniz, yəqin. İndi yolda olarlar.

–Rəis nə dedi?

–Polkovnik yaman hirslənib.Sizi təcili yanına çağırır.Səidi də özünüzlə gətirməlisiniz. Kömək lazımdırsa, maşınla gəlim.

–Heç nə lazım deyil. Bu saat onu da götürüb gələcəm.

Söhbəti bitirəndən sonra bir qədər fikrə gedib Səidə yaxınlaşdı və onun qarşısında durub dilləndi:

–Səid, sənin bizə hansısa bir məlumatı verməyini bilməyəcək





onlar.

–Biləcəklər! –Səid başını yellədi. – Bir də, mən özüm hələ nəsə bilmirəm ki, sizə məlumat verim.

–Necə yəni, heç nə bilmirsən?

–Onlar hələ məni sınamaq istəyirdilər. Mən Bakıda heç kəsi tanımıram, heç kəsin yerini bilmirəm.

–Sən bizə kömək etsən, biz onları tez taparıq.

–Bax, buköməyi etməyəcəm sizə.

–Niyə?

–Dedim axı, kömək etsəm, anamı öldürəcəklər. Mənim intiqamımı ondan alacaqlar.

Ələmdar sağ əlini yuxarı qaldırdı:

–Axmaq! Sənin ananın ancaq bir canı var. Ancaq, buradakı terrorçuları tez tapıb həbs eləməsək çox adamları canından məhrum edə bilərlər.

–Onun mənə dəxli yoxdur. – Səid başını aşağı dikdi. – Mənə anam lazımdır!

–Niyə? Öz millətin deyil buradakılar?

–Yox. Mənim millətim yoxdur. Hamınıza nifrət edirəm!

Ələmdar təpiklə onun qarnından vurdu. Kreslo ilə birlikdə yerə yıxılan Səid qarnını qucaqlayıb büzüşdü. Onun xırıltılı səsi güclə eşidilirdi:

–Darıxmayın, gəlib hamınızı qıracaqlar, gec-tez!...

Ələmdar daha ona cavab vermədi. Yaman dilxor idi. O, ümid etmişdi ki, Səidi tutub danışdırmaqla hər şeyi öyrənəcək və xain qruplaşma ifşa olunacaq. Ancaq, deyəsən, daş qayaya rast gəlmişdi. Onun heç ağlına gələ bilməzdi ki, bu adamı bura göndərəndə anasını girov saxlayıblar. Düzdür, belə bir şey əvvəl də olmuşdu. Bakıya göndərilən təxribatçının anası girov saxlanmışdı. Amma... Hər halda, Ələmdar yenə də inamını itirmək istəmirdi. Düşünürdü ki, Səidi Məxfi şöbədə danışdıra biləcəklər.

Onu ayağa qaldırıb yenidən gözlərini və qollarını bağladı. Ağzını bağlamaq istəyəndə Səid yalvardı:

–Ağzımı bağlama, boğuluram...

Ələmdar kinayə ilə başını yellədi:

–Sən elə boğulmalı adamsan. Bir günahsız ailəni məhv eləmisən, birini də, mən mane olmasaydım, qıracaqdın. Çox alçaq adamsan sən!

–Alçaq deyiləm. – Səid mırıldandı. – Amma, düzünü desəm, heç adam da deyiləm. Çoxdan itirmişəm adamlığımı...

–Yaxşı, ağzını bağlamayacam. Ancaq, bir şərtlə ki, danışmayasan.

–Sağ ol...

Ələmdar onu otaqdan çıxarıb işığı söndürdü. Qaranlıq pilləkənlə düşürüb klubdan çıxartdı. Arxa qapını açıb maşına mindirdi. Sükanın arxasına keçib, başından maskanı soyundu və maşını işə saldı. "Mersedes" klubun həyətindən çıxıb gur işıqlı küçədə hərəkət edən maşınlara qarışdı.

## İYİRMİ ÜÇÜNCÜ FƏSİL

Səidin gözləri bağlı olduğu üçün özünü zülmət qaranlığın içində hiss edirdi. Qolları bağlı halda "Mersedes" in arxa oturacağına yıxılmışdı. Mədəsinin və qara ciyərinin ağrısı getdikcə şiddətlənirdi.

Amma, bir az keçdi, ağrılarını unutdu, elə bil... İndi zülmət qaranlıqda gözlərinə alov görünürdü. Bir ucu göyə dirənən şiddətli alov! Sonra qulaqlarına tükürpədən çığırtı səsi gəlməyə başladı:

–Allah qırsın sizi, kafirlər! Kafirlər! Kafirlər!

İki həftə əvvəl İrəvanda hansı idarə olduğunu anlaya bilmədiyi binanın qaranlıq otağında oturmuşdu. Ermənilər divardakı ekranda özlərinin çəkdikləri sənədli kadrları göstərirdilər. Səid indi də başa düşə bilmirdi ki, axı onlar özlərinin bu vəhşi əməllərini niyə lentə çəkib saxlamışdılar?... Gələcək nəsillərinə göstərib qürrələnmək üçünmü? Ya, Səid kimiləri qorxuzub özlərindən asılı vəziyyətə salmaq üçünmü?... Səid bunları heç cür anlaya bilmirdi. Ancaq, fakt bundan ibarət idi ki, o hadisələri olduğu kimi çəkmişdilər və Səidə





göstərib "Diqqətlə bax!" deyirdilər.

Bu kadrlarda hər şey həqiqət idi. O qoca qadını, hətta, tanıdı da Səid. Öz həyətlərində, anası ilə söhbət eləyən görmüşdü. Qərbi Azərbaycandakı doğma torpaqlarından qovulub Xocalıda sığınacaq tapanlardan biri idi. Səidi görəndə üzünü Sərinəyə tutub:

–Oğlundur? – deyə soruşmuşdu.

–Hə, Bakıda, universitetdə oxuyur. – demişdi anası.

O isə Səidin üzündən öpüb alqış eləmişdi:

–Allah saxlasın, laçın kimi oğlun varmış! Toyuna bizi də çağırarsan, nənəsi bir qocafəndi hava oynayar bunun toyunda.

İndi isə... Səid, elə bil, həmin kadra yenidən baxırdı...

Yazıq qarını qışqırda-qışqırda kiçik ot tayasının yanına gətirdilər. Əsgər paltarı geyinmiş ermənilərdən biri onu kürəyi üstə ot tayasının üstünə yıxdı. Qarının əllərini, ayaqlarını məftillə bağladı ki, tərpənib yerə düşə bilməsin. Səid o saat tanıdı həmin əsgəri. Axı, necə tanımaya bilərdi?! Bu, Tiqran idi!

Sonra Tiqran alışqanını çıxarıb tayaya od vurdu və kənarda dayanmış yoldaşlarının yanına çəkildi. Quru ot tayası alışmağa başladı. Bədbəxt qadının "Yandım, Allah, yandım!" deyən naləsi alovla birlikdə göyə dirəndi.

Tiqran nəsə danışdığı üçün kameranı bir anlığa ona yönəltmişdilər. Yanan qadını göstərib gülə–gülə nəsə deyirdi. Sonra yenə dəhşətli qışqırıq içində guruldayan alovu göstərdilər.

Qaranlıq otaqda oturmuş Səid həmin anlarda özünü cəhənnəmdə hiss edirdi. Sanki, əsl cəhənnəmin nə olduğunu həqiqi mənada anlayırdı. Hər yer qaranlıq, qarşısındakı ekran isə alov işığı saçırdı... Əvvəlcə bu alovun içində qara bir şey nəzərə çarpırdı. Bu canlı varlıq hey çırpınır, yanıqlı nalə çəkirdi. Sonra onun səsi kəsildi, çırpınmadı və hərəkətsiz qaldı. Daha sonra isə heç görünmədi... Bu dəfə yalnız qırmızı alov görünürdü.

Həmin vaxt birbaş cəhənnəmin ortasında, qızmar alovun içində yanmağa başlayan Səid birdən-birə çiynində bir əl hiss edib oturduğu stuldan dəli kimi ayağa sıçradı.Əlini onun çiyninə toxunduran dazbaş kişi gülməyə başladı:

–Qorxma, dostum, əyləş. Bu, artıq, olub-keçmiş bir şeydir. Amma, nəzərə al ki, bu dəfə sənin ananın başına gələ bilər bu iş. Əgər Bakıya çatandan sonra bizimlə zarafat etmək fikrinə düşsən, anan o biri dünyaya bu üsulla getməli olacaq...

Səidin çiynindən basıb yenidən stulda oturmağa məcbur etdi:

–Bu üsul sənin əziz və istəkli ananın xoşuna gəlməsə, əlimizdə bundan da gözəl üsullar var. Bilirik ki, sən ağıllı adamsan. Qoca Sərkis səni bizə çox tərifləyib. İnanırıq ki, bu biri kadrlarımıza baxanda ananın cəhənnəmə bu üsullarla getməsini istəməyəcəksən. Bakıda bizim istədiyimiz kimi olacaqsan və anan da dostumuz Nerses Martirosyanın evində qocalıb öz həyatını sakit başa vuracaq. Başlayaqmı?

Səid onda nəsə kəkələdi. Heç özü də bilmədi ki, nə dedi. Əslində, insan səsi də deyildi çıxardığı o səs... Heyvan kimi böyürürdü, mələyirdi sanki!

Dazbaş kişi onun bu halına gülümsəyib növbəti kadrları göstərməyi adamlarına əmr etdi.

İyirmi beş–otuz yaşlarında, üzündən mərdlik, qəhrəmanlıq yağan bir oğlanı yerə yıxıb qollarını arxadan bağlayırdılar. Beş-altı erməni qarğa–quzğun dəstəsi kimi üstünə tökülmüşdü bədbəxtin. Biri oğlanın alnına tökülmüş saçlarından yapışıb bərk-bərk arxaya dartdı. Bir başqası isə bıçaqla onun gözlərini ovub çıxardı...

Səid əlləri ilə üzünü tutub başını aşağı əydi. Öz gözlərini çıxarırlarmış kimi, əzabla inildədi:

–Öldüm, ana, öldüm!...

Dazbaş erməni onun saçından tutub başını yuxarı qaldırdı və heç bir şey olmayıbmış kimi:

–Ən maraqlı yerini ötürəcəksən, bax! – dedi.

Səid gözlərini açdı və gördü ki, indi oğlanın şalvarını soyundurub cinsiyyət üzvünü kəsirlər. Gülüş, danışıq, qışqırıq səsləri bir–birinə qarışmışdı. Amma, bu qışqırıq səsləri də ermənilərin idi.Sevincdən qışqırırdılar... Oğlan isə alt dodağını bərk-bərk dişləyib qışqırmamağa çalışır, əvəzində insan səsinə bənzəməyən bir səslə zarıyırdı...

Sonra hamı kənara çəkildi və oğlanın üstünə benzin töküb





yandırdılar. Alov onun bədənini bürüyəndə oğlan tək bir dəfə bərkdən çığırıb nəsə dedi, amma Səid onun nə dediyini ayırd edə bilmədi. Sonra oğlanın səsi birdəfəlik kəsildi və kadrı dəyişdilər.

Bu dəfə bir kişini stulda otuzdurub mismar çəkən kəlbətinlə dişlərini çıxarırdılar. Başından, qollarından bərk–bərk tutmuşdular ki, yerindən tərpənə bilməsin. Kişi ucadan çığırırdı və çığırdıqca ağzından tökülən qan bütün sifətini və dişlərini kobudluqla dartıb çıxaran erməninin əlini qırmızıya boyayırdı.

Ondan sonrakı kadrda... Yenə Tiqran!Səid onun üzünü görən kimi az qaldı ki, çığırsın...

Tiqran bir orta yaşlı türk qadınını soyundurub qollarını bağlamışdı. Kürəyi üstə yerə uzadılmış türk qadınının ətrafında bir neçə adam da gözə çarpırdı. Amma, kamera daha çox qadının üzünü və çılpaq sinəsini hədəfə götürmüşdü. Qadın yerində çırpınıb çiyinlərindən yerə basan əsgərin əlindən çıxmağa çalışdıqca, iri, ağappaq döşləri sinəsində atılıb düşürdü.

Tiqran əlindəki iri bıçaqla qadının hər iki döşünü dibindən kəsib atdı. Bu qadının da çığırtısı insan çığırtısına bənzəmirdi... Axı niyə yaratdığı insana hər bir şey bəxş edən qadir Allah ona ən dəhşətli işgəncələr zamanı çığırmağa, nalə çəkməyə səs verməyib? Niyə insanlar belə vaxtlarda insan kimi yox, başqa canlılar kimi səs çıxarırlar?...

Kəsilmiş döşlərin yerində qalan iri, qırmızı dairələrə baxanda Səid gözlərini yummaq istədi. Amma, qəribədir ki, gözləri yumulmadı onda. Göz qapaqları da bütün bədəni kimi heyrətdən donmuşdu, sanki.

Kəsilmiş döşlərin yerindən axan qan, hələ ölməmiş, yerində çırpınan qadının sinəsini, qarnını al-qana boyadı. Sonra Tiqran onun burnunu, qulaqlarını kəsdi...

Səid birdən–birə əlləri ilə başını tutub qışqırmağa başladı:

–Bəsdir! Göstərməyin daha! Sizə qurban olum, göstərməyin! Dözə bilmirəm!...

Ekranı söndürüb, otağın işığını yandırdılar. Səid isə əli ilə tutduğu başını dizlərinə qədər endirib bu dəfə astadan zarımağa başladı:

–Göstərməyin!... Nə desəniz eləyəcəm... Anama dəyməyin!... Nə tapşırsanız eləyəcəm... Sizə qurban olum, anama dəyməyin!... Dəyməyin!...

Gözləri bağlanmış halda "Mersedes"in arxa oturacağında oturmuş Səid lap yaxında səs eşidib diksindi və xəyaldan ayrıldı. Zülmət qaranlıqda həmin səs bir də eşidildi:

–Sən kiminlə danışırsan?

Səid, nəhayət, yenidən real həyata qayıda bildi və maşında olduğunu xatırladı. Bildi ki, sualı verən onu tutub danışdıran həmin maskalı adamdır.

–Heç kimlə danışmıram. – deyə cavab verdi.

–Deyirdin: "Dəyməyin. Dəyməyin."

–Yəqin özümdən asılı olmadan demişəm. – Səid mızıldadı.

–Orada səni çox incidiblər? – Ələmdar soruşdu.

–Harada?

–Necə yəni, harada? Əsir olduğun yerdə.

–Əsl cəhənnəmi görmüşəm orada... –bayaqkı xatirələrdən xeyli təsirlənmiş Səid, qeyri–iradi olaraq, dilləndi.

Ələmdar onun bir qədər yumşalmasından istifadə etmək qərarına gəldi:

–Məsələn, nə cür işgəncələr verirdilər sizə?

–On ilə qədər Tiqran adında birinin əlində oldum. – Səid dalğın halda danışmağa başladı. – On il heç kəsin ağlına gələ bilməyəcək dərəcədə dözülməz işgəncələr verdi mənə. Elə işgəncələr ki, adamlığımı da əlimdən aldı, hələ üstəlik... – bir an susub sonra hiddətlə danışmağa davam etdi. –Sonrakı yeddi ildə də hər gecə yuxuma girməklə əzab verdi. Ancaq... Onun anama elədikləri mənə verdiyi bütün işgəncələri kölgədə qoya bilər...

–Anan da onun əsirliyində olub?

–Hə... Amma mənim qədər yox, az olub.

–Çox əzab verib anana?

–Anamla danışanda bu barədə demək istəmədi mənə. Ancaq, bilirəm ki, çox əzab verib. Hələ əsir düşdüyümüz gün o gözümün qabağında anama hücum edəndə... Əsl əzabın nə olduğunu onda





gördüm.Ondan sonrakılar yüngül oldu onun yanında.Bəlkə də adamlığımı da, kişiliyimi də onda itirdim mən...

–Nə oldu onun adı? - Ələmdar soruşdu. - Tiqran?

–Hə... Tiqran...

–Ermənidir?

–Hə.. Azəri dilini bizdən yaxşı bilir. Bakıda oxuyub o vaxt.

Sükan arxasında oturan Ələmdar bir an susub diqqətini yola verdi. Sonra bir qədər düşünüb, dilləndi:

–Ermənilər ki sənə bu qədər zülm edib, niyə özümüzünkülərə nifrət edirsən? Bizim günahımız nədir?

Səid əvvəlcə cavab vermədi.

–Hə, Səid? – Ələmdar cavab gözləyirdi.

–Yadımdan çıxıb, o vaxt bir nağıl oxumuşdum, hansı kitabdasa. – Səid danışmağa başladı. – Bir balıqçı dənizə tor atanda toruna ağzı bağlı küp düşür. Küpü açanda içindən tüstü çıxıb havaya qalxır. Sonra tüstü, böyük bir cinə çevrilib balıqçının qarşısında durur. Deyir ki, hazırlaş, səni bu saat öldürəcəm. Balıqçı başlayır yalvarmağa ki, axı mən səni xilas eləmişəm. Cin də buna deyir ki, bilirsən nə var, mən düz üç min ildir ki, bu dəryanın dibində, küpün içində əsir idim. Məni düşmənlərim bu sehrli küpə salıb dəryaya atmışdılar. Əvvəlcə əhd eləmişdim ki, kim məni xilas eləsə ona dünya malından nə istəsə verəcəm. Min il keçdi, heç kəs məni xilas eləmədi. Sonra dedim ki, kim məni buradan çıxarsa ömürlük onun qulu olacam, yenə xilas edən olmadı. Min il də keçdi.Bu dəfə səbr kasam dolduğu üçün, əhd elədim ki, kim məni xilas eləsə onu öldürəcəm. İndi, düzdür, məni xilas eləyən olmayıb hələ, amma... Əgər mən beş-altı il əsirlikdə qalıb, Bakıya gəlsəydim, bəlkə də ağzı üstə uzanıb Bakının torpağını öpərdim. Amma, indi nifrət edirəm hamıya. Bəlkə də elə ən çox özümüzünkülərə!...

Ələmdar nə düşündüsə, söhbəti dəyişdi:

–Anan indi haradadır? Bilirsən?

–Yox... –Səid ah çəkdi.

–Bəs bura gəlməmiş görüşməmisən onunla?

–Görüşmüşəm. Ancaq yerini bilmirəm. Məni bağlı maşında

aparmışdılar oraya. Bir gecə yanında qaldım. Kənd yeri idi. Həyətdə bir balaca daxmada qalır. Heç ağlıma gəlməyib kəndin adını soruşum. Səhər yenə hər yanı bağlı həmin maşında qaytardılar məni...

–Anan bildi sənin Bakıya gələcəyini?

–Hə...

–Nə dedi?

– dedi ki, gedən kimi hər şeyi danış dövlət adamlarına.

–Bəs niyə ananın dediyini eləmirsən?

–Anamın dediyini eləsəm... – Səid bir an duruxdu. – Onu öldürəcəklər. Bayaq dedim axı, sənə!?

Ələmdar deyəcəyi sözü bir qədər götür-qoy edəndən sonra dilləndi:

–Heç bilirsən, sənin Bakıya gələcəyini bizə kim xəbər verib?

–Kim?

–Öz anan!...

–Necə yəni?... – Səid heç nə anlamadı.

–Bəli! Zəng vurub bildirib ki, səni tutaq. İstəyib ki, sən cinayətkar olmayasan.Vətən xaini olmayasan.

–Sən yalan danışırsan! – Səid səsini ucaltdı. – Necə zəng vura bilər? Oradan mümkün deyil axı!?

–İnanmırsan, inanma. – Ələmdar çiynini çəkdi. – Ancaq mən düzünü deyirəm. Anan bir gürcünün telefonundan zəng vurub. Telefon, yəqin ki, dalğanı təsadüfən tutub.

Səid birdən hıçqırtı ilə ağlamağa başladı:

–Yazıq anam! Bilsə ki, onu necə əzablı ölüm gözləyir, belə eləməzdi!

Ələmdar onun dediklərini yaxşı anlaya bilmədi:

–Yaxşı, ağlama görək, kişisən!

Səidin göz yaşları yapışqanlı sarğının altından süzülüb üzünü islatmışdı. Ələmdar daha onu danışdırmamaq qərarına gəlib maşının radiosunu açdı. Hansısa kanaldan xəbərlər verilirdi.

Səidin də daha səsi gəlmirdi. O, uzun illərdən sonra anasına qovuşduğu həmin görüş gününü xatırlamışdı.





## İYİRMİ DÖRDÜNCÜ FƏSİL

Səid anasından ayrı düşdüyü illər ərzində onu həmişə əvvəllər gördüyü kimi xatırlamışdı. Yaşı qırxı haqlasa da gənclik təravətini itirməmiş, yarlı-yaraşıqlı, dilli-dilavər bir gəlin kimi... Bəlkə də, elə buna görə, az qala tanımayacaqdı anasını.

Onu axşam, hava qaralandan sonra gətirmişdilər həmin kəndə və bir gecəlik görüş vermişdilər anasıyla. Nə hala düşmüşdü bədbəxt qadın... Arıqlamış, saçları ağarmış, üzündə çalın-çarpaz kinli qırışlar əmələ gəlmişdi. Əyninə erməni arvadlarının köhnə, cır-cındır paltarlarından geyinmişdi. Hardaydı onun hamıdan yaxşı geyinib–bəzənən, gün kimi işıq saçan, toylarda "İncəgülü"oynayan xanım–xatın anası?!...

Amma, təmizkarlığını saxlamışdı, hələ. Əli də, üzü də, geydiyi pal–paltar da tərtəmiz idi. Oğlunu görəndə əvvəlcə bir müddət dayanıb onun üzünə tamaşa etdi. Onun vaxtsız ağarmış saçlarına, əvvəlki görünüşünü tamamilə itirmiş sifətinə baxdı. Bu zaman gözlərinin dərinliyində əcaib bir ağrı, bitməz-tükənməz bir kədər oxundu onun. Dodaqları səyridi, gözləri nəmlənməyə başladı. Amma, tez də ələ aldı özünü. Erməni kəşfiyyat orqanının iki işçisi və yəqin ki, ev sahibi olan üzü tüklü yekəpər kişi dayanıb onlara baxırdılar. Anası ağlamadan, heç bir haray-həşir salmadan onu bağrına basdı. Bərk-bərk sinəsinə sıxıb astadan:

–Bilirdim sağ olmağını. – dedi.

Səsi də, sanki, o səs deyildi. Xatirələrində qalan o incə, məlahətli, şirin səs deyildi. O da dəyişib kobudlaşmışdı özü kimi, bədəni kimi, əlləri kimi, yerişi kimi... Gözləri də belə deyildi axı, anasının?... Bir vaxt onun gözlərinə baxanların dərdi–qəmi unudulub gedərdi. Amma indi dərd–qəm yuvasına dönmüşdü həmin gözlər. Yox, bu qadın onun anası deyildi... Yad idi bu qadın! Səid xatirələrində saxlayıb əzizlədiyi anasını sevirdi, bu qadını yox! Bu qadına qarşı heç bir doğmalıq hiss edə bilmirdi.

Qadın Səidi bağrına basıb onun üzündən, boynundan-boğazından öpürdü. Səidin üzü anasının boynuna toxunurdu.

Bu zaman... Birdən-birə anasının qoxusunu duydu. O qoxusunu :i, uşaqlığında dəli-divanə idi bu qoxu üçün. Saatlarla anasının inəsinə qısılıb, başını sinəsinə qoyub bu qoxunu duymaqdan zövq lardı. Bir az böyüyəndən sonra isə anasını süni ətir vurmağa oymurdu, deyirdi ki, sən ətir vuranda öz təbii ətrini yaxşı hiss edə ilmirəm.

Bu doğma qoxu burnuna gələn kimi o da anasına sarıldı. Nə qədər zünü saxlamağa çalışsa da bacarmadı, göz yaşları sel kimi axıb nasının boynunu-boğazını islatdı. Heç nə demirdi, heç nə deyə ilmirdi, ancaq anasına sarmaşıb onu sığallayır, gücü gəldikcə inəsinə sıxırdı.

Onu buraya gətirənlər, sabah səhər tezdən gələcəklərini deyib etdilər. Ev sahibi də heç bir söz demədən evə çıxdı.Həyətdə nlardan başqa heç kəs qalmamışdı.Yalnız bir qədər kənarda əncirlənmiş köpək hələ də onlara maraqla tamaşa edirdi.

Anası onu özündən güclə aralayıb:

–Gəl içəri. – dedi.

Balaca daxmaya girdilər. Burada taxtadan quraşdırılmış sınıq-alxaq çarpayıdan, elə onun kimi köhnə stuldan və üstünə qab-qacaq ığılmış stoldan başqa heç nə olmasa da, çox darısqallıq idi.

Səid nə qədər həyəcanlı olsa da, hiss etdi ki, anası yaşadığı bu əraitə görə oğlundan utanır. Çarpayının üstündə yanaşı oturub yenə ə qucaqlaşdılar.Özünü ələ alan qadın, Səiddən bu uzun illər ərzində aralarda olduğu, başına nələr gəldiyi barədə soruşdu.Səid çəkdiyi ;gəncələri anasından gizlətməklə, qalan şeyləri danışdı.Dedi ki, eddi ildən çoxdur, o vaxt Bakıda evində kirayədə qaldığı bir rməninin yanındadır. Anası onun tələbəlik illərində Sərkis haqqında anışdıqlarını xatırladı.Səid yenə də onu tərifləyəndə, sifətində acıqlı ir ifadə göründü və:

–İlanın ağına da lənət, qarasına da! – dedi.

Sonra Səid soruşdu anasından başına gələnlər barədə. Anası xeyli ısandan sonra dedi ki, Səid narahat olmasın, ona çox da əzab





verməyiblər ermənilər. Dedi ki, o vaxtdan bu evdə qulluqçuluq edir. İşgəncə verən yoxdur, ac–susuz qalmır...

–Bəs niyə belə tez qocalmısan, ana? – uşaq kimi kövrəlmiş Səid soruşdu.

Anası kinayə ilə başını buladı:

–Tez deyil, ay sənə qurban olum, gör neçə ildir görmürsən məni. Bir də ki, işgəncə versələr də, verməsələr də, əsirlikdə olmuşam. Hər günüm əzabla keçib. Atanın, bacının müsibəti yadımdan çıxmayıb. Səni soraqlamışam... Haqqında bir xəbər verən olmayıb. Ancaq ürəyimə damırdı ki, haradasa sağsan. Başım bunlara görə tez ağarıb. Əvvəlki illər gözümün qabağında bizimkilərə o qədər zülm eləyiblər ki... Heç kəs dözə bilməzdi bu müsibətlərə, mən dözmüşəm. Neçə dəfə istəmişəm özümü öldürüm, ancaq əl saxlamışam. İkicə şeyə görə yaşamaq istəmişəm. İkicə şeyə görə dözüb dayanmışam.

–Nəyə görə, ana? – Səid ağır kədər içində soruşdu.

–Sənə görə. –anası dedi. – Səni əsirlikdə, düşmən əlində qoyub ölmək istəməmişəm. Ümidlə yaşamışam ki, bəlkə bir gün azad olduq, Xocalıda təzədən səninlə yurd–yuva sala bildik.

Bu, Səidin heç başına girmirdi. Bilirdi ki, anasının bu arzusu heç vaxt baş tutmayacaq. Hər şeyə ümidi ölmüşdü onun və nə vaxtsa azad olub anası ilə Xocalıda yaşamağı ağlına belə gətirmirdi.

–Bəs, iki şeyə görə dedin, ana... Daha nəyə görə?

–Bir də... –anası, deyəsən, bunu deməyə çətinlik çəkirdi. – Bir də o insan cildinə girmiş şeytandan qisasımı almamış ölmək istəmirəm!

–Kimdən? –Səid hiss etdi ki, bütün vücudu titrəməyə başlayır.

–Əsir düşdüyümüz gün yadındadı? Bizi meşədə əsir götürən o vəhşidən!

–Tiqrandan?!

–Hə! Adını sən də yadında saxlamısan?

Səid onun sualına cavab vermədi. Ürəyi az qalırdı ki, yerindən çıxsın:

–O, sonradan sənə də nəsə eləyib?

Bu dəfə anası dillənmədi. Qadının gözlərində dəhşətli nifrət oxunurdu. Sinəsi aramsız olaraq qalxıb-enir, nəfəsi təngişirdi.

–Ana! – Səid onu sakitləşdirməyə çalışdı.

Qadın özünü çətinliklə ələ alıb oğlunun üzünə baxmadan danışmağa başladı:

–Hər gecə yatmazdan qabaq gizlincə namaz qılıram. Allaha dua edirəm. Hər gecə duamın sonunda Allaha yalvarıram ki, ondan qisasımı alsın. Yalvarıram ki, əzabın nə olduğunu göstərsin ona.

Səid başını buladı:

–Ay ana, o qədər günahsız camaat qırılanda, əsir düşəndə, kəsiləndə, doğrananda, yandırılanda Allah harada idi bəs?

–Elə danışma, oğul! – anası kəskin şəkildə əlini yellədi. – Elə danışma! Allah var, böyükdür. Səbri də özü kimi böyükdür. Şeytanın əmri ilə vəhşilik edən ələlərinin cəzasını verəcək nə vaxtsa.

Səid daha anası ilə mübahisə etmək istəmədi. Söhbəti dəyişib atasını, bacısını xatırladılar. Ləyaqətin adını çəkəndə görüşdükləri andan bəri ilk dəfə ağladı anası. Səid də ona qoşulub ağladı və dedi ki, atasını hələ də bağışlaya bilmir hərəkətinə görə.

Anası göz yaşlarını silib ona etiraz etdi:

–Elə bilirsən, məni yandırmır onun ölümü? Atan tüfəngi onun başına endirəndə qışqırdığı sözlər indi də qulaqlarımda cingildəyir. Günahsız bir tifil idi, gül qönçəsi kimi tərtəmiz idi balam... Ancaq, kaş atan məni də öldürməyə imkan tapaydı onda. Kaş vura biləydi məni də... Adam özünü öldürə bilmir. Çətindir adamın özünə qəsd eləməyi. Ancaq, kaş atan öldürəydi məni. Ölümə nə var ki? Ölüm toy–bayramdır namus itkisinin yanında. Ən pisi də odur ki, namusunu qatı düşmənin tapdalaya... Yazıq balam sağ qalsaydı daha pis olacaqdı. Taleyi qara gəlibmiş bədbəxtin...

Gecə keçirdi. Onlar hələ də çarpayının üstündə yanaşı oturmuşdular. Qadının ağlına indi gəlibmiş kimi, oğlunun buraya gətirilməyinin səbəbini soruşdu. Səid ondan Bakıya göndəriləcəyini gizlətmədi. Dedi ki, başqa ad altında Bakıya gedəcək və orada ona nəsə tapşırıq verəcək ermənilər.

Anası birdən-birə dəli kimi kənara çəkilib, heyrətlə oğluna baxdı. Eşitdiyini hələ də tam anlaya bilməmişdi, deyəsən. Bilmirdi ki, bu xəbərə hiddətlənməlidir, yoxsa sevinməli...





Nəhayət ki, danışa bildi:

–Deməli, səni Bakıya göndərirlər?

–Hə... –Səid, nəyə görəsə, başını aşağı dikdi.

–Bəlkə də bu yaxşıdır, oğlum! Bəlkə də bu yaxşıdır! Oraya çatan kimi böyüklərin yanına gedərsən. – qadın kiminsə eşitməsindən qorxurmuş kimi səsini alçaltdı. – Onlar səni başa düşərlər. Səni qoruyarlar.

–Yox, ana, elə etməyəcəm...

–Niyə? – qadın açıq-aşkar heyrətləndi.

–Birincisi, səni qoyub gedirəm burada. Sən bunların əlindəsən. İkincisi də, niyə getməliyəm onların yanına? On yeddi ildir əsirlikdəyik, neyləyiblər bizim üçün?

–Oğlum, ağlını başına yığ! Onların nə günahı var? Neyləyə bilərlər bizə? Mən bu qədər vaxtda bu xarabanın içində ola-ola səndən bir soraq eşidə bilmədim. Onlar nə xəbər tuta bilərdilər səndən? Dünya bu kafirlərin dalında durub, it itin ayağını basdamır, neyləyə bilərdilər onlar? Bir də ki, bayaqdan biz namusdan danışırıq, sən öz qeyrətini, namusunu bu kafirlərə satacaqsan? Vətən xaini olacaqsan? Öz millətinə xəyanət eləyəcəksən?

Səid yaman tutulub durmuşdu:

–Ay ana, sən Allah, qurtar bu söhbətləri. Nə xəyanət? Mən ən çox səni düşünürəm. Gedib orada özümüzünkülərə təslim olsam, onun əvəzini burada səndən çıxacaqlar. Heç bilirsən neyləyə bilərlər sənə?

–Ay bala, mən cəhənnəmə olum, onsuz da dünyanı tutub durmayacam ki? Atanın adına, nəslinin adına ləkə gətirən iş tutma!

Səid yola gəlmək istəmirdi:

–Bizim nə nəslimiz qalıb, nə adımız. Atamın sümükləri meşədə çürüyüb qalıb, yəqin ki. Bir də, özümüzünkülərin yanına getsəm, heç mənə inanmayacaqlar, tutub basacaqlar dama.

–Elə demə, bala, sən könüllü getsən, hər şeyi boynuna alsan, sənə heç nə eləməyəcəklər. Tərslik eləmə, gedib əlini öz millətinin qanına bulayarsan, sonra ölsəm də, qəbrim od tutub yanar.

Səid narazı halda başını yelləyib susdu. Anası qalxıb içi tökülmüş pambıq döşəyin altından göy rəngli, üstündə qırmızı güllər olan bir

ləçək çıxartdı. Onu Səidə göstərib:

–Bu ləçək yadındadır? – deyə soruşdu.

Lap yaxşı yadındaydı Səidin.Bu ləçəyi on yeddi il əvvəl, axırıncı dəfə Bakıdan Xocalıya–Ləyaqətin nişanına gələndə özü almışdı anası üçün. Hətta, aldığı yer də yadındaydı. Universitetin yaxınlığında, o vaxt Nərimanov prospekti adlanan prospektdəki bir mağazadan almışdı. Əsir alındıqları gün, meşədə Tiqranın bu ləçəyi qamarlayıb anasının başından çıxarması da, anasının bütün gücüylə ləçəkdən yapışıb onu Tiqranın əlindən alması da yadında qalmışdı.

–Hə, yadımdadır. – dedi.

–Al bunu! – anası ləçəyi ona uzatdı. – O vaxtdan özümə aid olan təkcə bu qalıb məndə. Birtəhər qoruyub saxlamışam. Məndən yadigar saxlayarsan.

–Yox, qoy burada, səndə qalsın. – Səid dedi. – Mən bəlkə də qayıdıb gəlməli oldum...

–Sən nə danışırsan? – anası ləçəyi əlində silkələdi. – Qayıtmaq nədir? Niyə qayıdırsan bu cəhənnəmə?! Niyə ananın ləçəyi düşmənin torpağında qalsın? – sonra birdən-birə sakitləşib mülayim səslə danışmağa başladı. – Al, sənə qurban olum, gedərsən, sənə iş də verərlər, işləyib özünə ev-eşik qurarsan. Özünə layiq bir halal süd əmmiş qız tapıb evlənərsən, oğlun-uşağın olar. Bu ləçəyi də mənim adımdan gəlinimə verərsən...

Kaş anası bu sözləri deməyəydi. Evlənməkdən, oğul-uşaq sahibi olmaqdan danışmayaydı. Əgər o, belə danışmasaydı, Səid də ömründə heç vaxt eləmədiyi o hərəkəti eləməzdi. Anasının üzünə kobudcasına qabarmazdı. Ləçəyi əli ilə geri itələyib:

–Bəsdir, bəsdir, qurtar bu söhbətləri! – deyə çığırdı.

Sonra isə anasının heyrətdən donan sifətinə baxıb birdən-birə yazıqlaşdı. Başını onun dizlərinin üstünə qoyub uşaq kimi ağlamağa başladı. Anası yazığın nə günahı var idi? O bilmirdi axı dualarında Allahdan qisas dilədiyi həmin Tiqran neçə illər əvvəl oğlunu axtalatdırıb, ömürlük kişilikdən qoyub. Bilmirdi ki, oğlu daha heç vaxt evlənə bilməz, övlad sahibi ola bilməz...

Səid ağlayırdı. Başını anasının dizləri üstə qoyub ağlayırdı. Anası isə susurdu. Sağ əli oğlunun başında olsa da, hərəkət etmirdi. Sakitcə donub durmuşdu.





Xeyli vaxt beləcə keçdi. Səid, nəhayət, ağlamağını qurtarıb başını qaldırdı. Anası heykəl kimi donub gözlərini ona zilləmişdi. Gözlərinin içi sulansa da, yaş axmırdı gözlərindən. Amma, bu gözlərdə Səidin özünü belə sarsıdan bir kədər vardı. Qadın yenə bir neçə dəqiqə səssizcə oğlunun üzünə baxdı. Nəhayət, dodaqları, çətinliklə də olsa, aralandı:

–Nə vaxt olub bu?...

Səid bildi ki, anası hər şeyi başa düşüb. O da heç nəyi gizlətmək istəmədi:

–Çoxdan... Yeddi-səkkiz il əvvəl...

–Kim?

–Tiqran...

Anası birdən-birə əllərini yuxarı qaldırıb dəli kimi çığırdı. Gecənin sakitliyində səsi, bəlkə də, bütün kəndə yayıldı.

–Ay Allah, bunu niyə götürürsən?!

Bu sözlər, deyəsən, anasından eşitdiyi son sözlər oldu. Anası bir az sonra sakitləşdisə də, daha heç nə danışmadılar. Hər ikisi başlarını aşağı dikərək susdular. Hər ikisi dərin xəyala dalmışdı və vaxtın necə keçdiyindən xəbərləri də olmadı.

Səhər hava hələ işıqlanmamış gəlib Səidi apardılar. Anası onda da heç nə demədi. Elə bil ağzı kilidlənmişdi. Oğlunu lal sükutla yola saldı. Dünyanın kədəri yığılmış gözləri ilə baxdı dalınca.

Səid istədi ki, heç olmasa, özü nəsə desin ayrılanda. Amma, bir söz tapa bilmədi.

## İYİRMİ BEŞİNCİ FƏSİL

Yan tərəfləri qapalı, mikroavtobus formalı avtomobil şəhərə bitişik olan Xırdalan qəsəbəsinə daxil olmaq üzrə idi.Sürücünün oturduğu qabaq hissədən təcrid edilmiş pəncərəsiz salonda Şəmistanın arvadı, iki qızı və xüsusi təyinatlı polis geyimində olan bir gənc əyləşmişdi.

Yumşaq, rahat oturacaqlarda anası ilə yanaşı oturmuş Aysu, artıq neçənci dəfə idi ki, səsini qaldırırdı:

–Mən bilmirəm, siz insansınız, vəhşisiniz? Bu qadın ürəyindən təzəcə əməliyyat olunub. Bizi hara aparırsınız, axı?!

Kapitan Yusifovun qrupundan olan gənc əməkdaş onu sakitləşdirməyə çalışdı:

–Xanım, əsəbiləşməyin. Dedim axı, biz əmrə tabe olan adamlarıq.Heç nə bilmirik.

–Bəs atamı neylədiniz?

–O başqa maşındadır.

–Axı, bu nə deməkdir? Biz nə günahın sahibiyik?

–Mən heç nə bilmirəm.

Hiss olunurdu ki, Aysu anasından və Ayçöhrədən daha çox qorxu keçirir. Gülbəniz xanım zəif səslə dilləndi:

–Aysu, qızım, nə düşmüsən bunun üstünə? Bunlara nə tapşırıblar, onu eləyirlər.

Aysu, deyəsən, sakitləşmək fikrində deyildi:

–Mən heç inanmıram bunların polis olmağına. Bunlar quldurdular. Allah bilir, hansısa mafiyanın tapşırığını yerinə yetirirlər.

–Sakit ol, qızım. – Gülbəniz xanım əlini onun dizinin üstünə qoydu.

Ayçöhrə onlarla üzbəüz oturacaqda tək oturmuşdu. Qırmızı rəngli, nimdaş idman kostyumunda idi. Evdən çıxanda imkan tapıb, idman ayaqqabılarını ayağına keçirə bilmişdi. Hər şey elə ani oldu ki, o da, digər ailə üzvləri də evdən əyinlərindəki paltarda çıxmalı oldular.





Ayçöhrə həyətə çıxıb, ipdən asılmış paltarları yığışdırdı. Onları günortadan sonra özü yuyub sərmişdi. İçəri girib əlindəki paltarları stulun üstünə tökdü ki, bir-bir ütüləyib paltar şkafına yığsın. İkisini-üçünü ütüləmişdi ki, qapı açıldı. Üç nəfər cavan kişi içəri girdi. Onlardan ikisi polis formasında, həm də silahlı idilər. Şəmistan stolun arxasında oturmuşdu. Yerindən sıçrayıb qalxdı:

–Bu nə deməkdir? Siz kimsiniz?

Mülki geyimli şəxs əlini yuxarı qaldırıb onu sakitləşdirdi:

–Xahiş edirəm, sakit olun! Biz polisdənik. Çox vacib bir əməliyyat keçiririk. Sizin dördünüz də elə bu saat evdən çıxıb küçədə dayanmış maşınlara minməlisiniz. Qətiyyən səs salmaq olmaz. Qonşular sizin səsinizi eşitməməlidirlər.

Aysu qışqırmaq istəyəndə gələnlərdən biri cəld tərpənib onun ağzını qapadı.Mülki geyimli kişi:

–Onun ağzını bağlayın! – dedi və üzünü Ayçöhrə ilə anasına tutdu. –Yəqin ki, siz məni başa düşdünüz. Nəzərə alın ki, bu əməliyyat sizin xeyrinizədir.

Ayçöhrə başını tərpətdi:

–Bəli. Biz səs salmayacağıq. Amma, imkan verin, paltarımızı dəyişək.

Gələnlərin başçısı etiraz etdi:

–Buna vaxt yoxdur. Telefonlarınızı mənə verin və mən işarə edəndə evdən çıxın. Çıxandan sonra qapını bağlaya bilərsiniz.

Atası yaman tutulmuşdu. Heç dinib–danışmırdı. Anası gələnləri heyrətlə seyr edirdi. Aysunun ağzını yapışqanlı lentlə bağlayan gənc onun qolundan tutmuşdu.

Onları bir-bir qapıdan çıxartdılar. Elə həmin anda bütün həyətin işıqları söndü. Hər yer zülmətə qərq oldu. Onları həmin bu maşına mindirdilər. Qapını örtəndən sonra maşının içində gur işıq yandı və Ayçöhrə gördü ki, atası onların yanında yoxdur.

Onu ən çox narahat edən də elə bu idi. Niyə axı atasını onlardan ayırdılar? Bu nə demək idi? Qız nə qədər baş sındırsa da, bir şey anlaya bilmirdi. Əgər bu adamlar doğrudan da, polis idilərsə və onları həbs etmək fikirləri vardısa, niyə evdən bu şəkildə çıxartdılar?

Maşın qəsəbənin içində yerləşən, başqa evlərdən heç nə ilə seçilməyən bir evin darvazası qarşısında dayandı. Darvaza dərhal açıldı və maşın həyətə daxil oldu. Onları maşından yerə endirdilər. Bir dəqiqə keçmiş, həyətə daha bir maşın girdi. "BMW" markalı bu maşından əlində həkim çantası tutmuş yaşlı bir kişi çıxdı. Bu kişi Məxfi şöbənin həkimi idi. Onu buraya Ələmdarın tapşırığı ilə kapitan Yusifov göndərmişdi. Əgər lazım gələrsə, Gülbəniz xanıma yardım göstərmək üçün.

Darvazanı bağlayıb ana və qızlarını evin ikinci mərtəbəsində yerləşən bir otağa çıxardılar. Bu, sadə, lakin səliqəli bir otaq idi.Çarpayı, yumşaq mebel və televizorla təchiz edilmişdi.

Həkim Gülbəniz xanımı müayinə etdi. Qadının vəziyyəti pis deyildi. Həkim ona ehtiyat üçün bəzi dərmanlar verib getdi. Sonra onları bura çıxaran polis formalı iki gənc də otağı tərk etdilər.

Onlar çıxan kimi Aysu ucadan:

–Sizi görüm, lənətə gələsiniz! – dedi. – Bu nə oyundur, bizim başımıza gətirirlər?!

Ayçöhrə heç nə demədən otağa göz gəzdirdi. Pəncərələrə baxdı. Pəncərələrin hamısına çöl tərəfdən nazik dəmir şəbəkə vurulmuşdu. Diqqətini otağın bir küncündə, divardan asılmış telefon aparatı cəlb etdi. Cəld yaxınlaşıb dəstəyi götürdü. Telefon işləmirdi. Cib telefonlarını isə onları bura gətirənlər, hələ evdən çıxmamış almışdılar.

Kresloların birində əyləşdi. Həkimin gəlməsi onu göstərirdi ki, bu adamların onlar haqqında pis niyyətləri yoxdur. Amma, yenə də bir şey anlaya bilmirdi. Atasını niyə ayırdılar onlardan? Bu ailəni hansı təhlükə gözləyirdi ki, evdən belə tələsik və gizlin çıxartdılar?...

Nədənsə, birdən-birə Ələmdar düşdü yadına. Dünənki hadisəni xatırladı. O yad oğlanın qarşısını kəsməsini, Ələmdarın təsadüfən gəlib çıxmasını. Görəsən, bu, doğrudanmı təsadüf idi? Amma, Ələmdar onun üzünə baxanda həqiqətən təəccübləndi. Heç maşından enib onun köməyinə gələndə də dənizkənarı parkda hər gün gördüyü qız olduğunu bilmirmiş. Bu yəqin ki, xoş bir təsadüf idi. Bəs bu günkü görüş? Ələmdar təkid etdi, o da razılaşdı. Görəsən bu oğlan





onun barəsində nə düşünürdü? Bu, Ayçöhrə üçün çox maraqlı idi. Doğrudanmı, bu dərəcədə xoşuna gəlmişdi Ələmdarın? Necə dedi? Hə, dedi ki, çox gözəl görünürsən. Yaxşı, lap tutaq ki, o bunu dedi, bəs Ayçöhrənin ağzından çıxan o sözlər nə demək idi? "Sizdə əsl kişi gözəlliyi var..." Yersiz çıxmadımı bu sözlər? Axı Ayçöhrə əks cinsdən olan kiməsə buna oxşar söz deməmişdi!? Ələmdar onun barəsində pis fikrə düşməzdimi? Hər halda, Ayçöhrə gərək ürəyindəkiləri dilinə gətirməyə belə tələsməyəydi...

Amma indi bu saat öz-özünə etiraf edirdi ki, bu oğlan onun çox xoşuna gəlir. Ələmdarda öz idealına uyğun bir çox şeyləri, demək olar ki, hər şeyi görürdü. Hətta indicə darıxmağa başlayırdı onun üçün.Görəsən, bu nə demək idi?Məhəbbət? Yox, əlbəttə, buna məhəbbət demək olmazdı.Ələmdar onun çox xoşuna gəlirdi, vəssalam! Bir də... Bir də, onun üçün darıxır, onu görmək istəyirdi, vəssalam. O, indiyədək heç kəsi sevməmişdi və deməli, sevməyin nə demək olduğunu da bilmirdi.

Əgər onları burada ev dustağı eləmişdilərsə, demək sabah səhər Ələmdarı görə bilməyəcəkdi. Görəsən Ələmdar onun dənizkənarı parka gəlmədiyini görəndə nə düşünəcək? Onun barəsində narahat olacaqmı?

Sabah o qocaya da yemək apara bilməyəcəkdi Ayçöhrə. Bəlkə də ac qalacaqdı yazıq kişi...

Səksən yaşlarında olan həmin qoca Ayçöhrəgildən bir məhəllə aşağıda olurdu. Kişinin üç-dörd ay əvvəl oğlu, gəlini və nəvəsi maşın qəzasına düşübmüş.Onlar öləndən sonra kişi tamam tənha qalıbmış. Bunu Ayçöhrə yeni ünvana köçdüklərinin ikinci həftəsi qonşulardan eşitdi. Bildi ki, qocaya həyan duran yoxdur. Həyətdəki qonşular verəndən–verənə dilinə yemək dəyirmiş. O həyət Ayçöhrənin dəniz kənarına gedən yolunun üstündə idi. O gündən hər səhər dənizkənarı parka getmək üçün evdən çıxanda axşamdan qoca üçün hazırladığı yemək payını özü ilə götürürdü. Yolüstü həmin həyətə girib yemək bağlamasını kişinin evinin qapısı ağzındakı oturacağa qoyurdu. Həmin qoca Ayçöhrəni tək bir dəfə görmüşdü. Həmin gün yuxudan tez ayılıb həyətə çıxdığı üçün üz-üzə gəldilər. Ayçöhrənin ona yemək

gətirdiyini bilib:

–Sən kimin qızısan? – deyə soruşdu.

Ayçöhrə:

–Biz buraya təzə köçmüşük. Atamı tanımazsan. – deyəndə qoca heç nə anlamadığı üçün çiyinlərini çəkdi.

Deməli, sabah yuxudan ayılıb qapını açanda oturacağın üstündə yemək görməyəcəkdi yazıq. Yenə Ələmdarı xatırladı və bu dəfə daha çox darıxmağa başladı. Saat on ikiyə işləyirdi. Ayağa qalxıb televizoru qoşdu. Bazar günü olduğu üçün həftə ərzində baş vermiş hadisələr barədə xəbərlər verilirdi. Atasının adını eşidib diqqətini topladı.

Diktor yeni məlumatı oxuyurdu:

– Bizə indicə verilən məlumata görə Şəmistan adında birinin mənzilinə soxulan polis forması geyinmiş qatil ailə başçısını, onun həyat yoldaşını və iki qızını odlu silahdan atəş açmaqla qətlə yetirmişdir...

Dəhşətə gəlmiş Ayçöhrə cəld dönüb anasına tərəf baxdı. Yaxşı ki, nə anası, nə də Aysu verilən məlumatı eşitməmişdi. Onlar otağın o biri başındakı divanda oturub söhbət edirdilər.

## İYİRMİ ALTINCI FƏSİL

Gecənin keçməsinə baxmayaraq, həmin vaxt polkovnik Baratov müavini Cavadovla Məxfi şöbədəki kabinetində oturmuşdu. Rəisin əsəbiləşdiyi açıq-aydın hiss olunurdu. Leopardın növbəti özbaşınalığı onu özündən çıxarmışdı. O, şəhərdə fəaliyyət göstərməsi güman edilən gizli təşkilatın ələ keçirilməsində ən düzgün yolu Səidi axıradək izləməkdə görürdü. Bunun üçün də onun Şəmistanın ailəsini qətlə yetirməsinə mane olmamaq lazım idi. Leopard isə öz rəisinin planlarını tamamilə pozmuşdu. İndi düşmən qrupun izinə düşmək





üçün yalnız bir şans qalırdı ki, bu da Şəmistanla Səidin danışdırılması idi. İstintaqın bir nəticə verə biləcəyinə isə polkovnik, nədənsə, o qədər də ümid etmirdi.

Kapitan Yusifov qolları qandallanmış Şəmistanı kabinetə gətirdi. Polkovnik onu bir xeyli acıqlı baxışlarla süzüb, oturmağı təklif etmədən istintaqa başladı:

–Sənə xəbərdarlıq edirəm ki, vəziyyətin olduqca ciddidir. Bizim suallarımıza cavab verməməyin, yaxud nəyisə gizlətməyin bu vəziyyəti bir az da ağırlaşdıra bilər. Danış görüm, erməni kəşfiyyatı səni və ailəni nə üçün aradan götürmək istəyir?

–Məni?! – Şəmistan, deyəsən, bir şey anlamadı.

–Bəli, səni! Sənin ucbatından, mənzilini satdığın ailəni səhvən güllələyiblər. Sənin mənzilini satdığını bilmirlərmiş. De görək, sənin bu adamlarla nə kimi əlaqən olub?

–Mən heç kimi tanımıram... – Şəmistan peşman halda başını buladı.

Polkovnik özünü ələ alıb, stolun üstündəki qələmi əlinə götürdü. Şəmistanın düz gözlərinin içinə baxıb təmkinlə danışmağa başladı:

–İki saat əvvəl onların adamı sizin evə girib dördünüzü də öldürəcəkdi. Hətta, mən tapşırmışdım ki, ona mane olmasınlar. Çünki, içimizə soxulub təxribatlar törətmək istəyən düşməni zərərsizləşdirmək çox vacibdir və bu zaman sənin kimi gərəksiz, yaxud dövlətə xəyanət etmiş bir adamı qurban vermək yerinə düşərdi. Ancaq, bir zabitimiz əmri pozaraq qatili həbs edib və beləliklə, sizi açıq-aşkar ölümdən qurtarıb. Bir az əvvəl mən lazımi orqanlarla danışdım. Sizin qətlə yetirilməyiniz barədə televiziya vasitəsilə məlumat yayılacaq. Deməli, hamının nəzərində siz ölü olacaqsınız. Bu isə, o deməkdir ki, sən də, ailən də bizim əlimizdəsiniz. Yəni, həyatınız da bizim əlimizdədir. Heç nə itirmədən sizi öldürüb dəfn etdirərik. –Baratov sözünü nifrətlə yekunlaşdırdı. – Odur ki, səni gözləyirəm. Danış!

–Nə danışım?

–Sənə dedilər axı!? – mayor Cavadov əsəbi halda dilləndi. – Gizli təşkilat barədə hər şeyi!

Şəmistan bir qədər susub, birdən ağlamsınaraq yalvarmağa başladı:

–Sizdən dönə-dönə xahiş edirəm, bunları heç kəs bilməsin. Mən ailəmin, ən çox da böyük qızım Ayçöhrənin üzünə baxa bilmərəm heç vaxt. Xahiş edirəm! Lap istəyirsiniz, boynuma götürüm ki, Mövsümün ailəsini mən öldürmüşəm. Nə fərqi var, qoy bu adla cəzamı çəkim. Təki, qızım bilməsin bu işi...

Baratov rişxəndlə gülüb başını yellədi:

–Yox, əzizim, hər cinayətin öz cəzası var.Biz burada səninlə uşaq oyunu oynamırıq. – Əlini uzadıb yanındakı kiçik rəfdən "Cinayət məcəlləsi" ni götürdü və onu vərəqləyib başını qaldırdı. – Sən öz dövlətinə xəyanət etmisən. Bunun isə öz cəzası var. Qulaq as! Əmlakı müsadirə olunmaqla on ildən-on beş ilədək, yaxud ömürlük azadlıqdan məhrum etmə... – Şəmistanı altdan yuxarı sınayıcı baxışlarla süzüb əlavə etdi. – Amma, burada qeyd də var. Əgər sən cinayətkar-terrorçu qrupun ələ keçməsində bizə kömək etsən, cinayət məsuliyyətin azala bilər... Hə, başla görək!

Şəmistan ayaq üstə ölmüşdü, elə bil.Onun halının pis olduğunu anlayan Baratov stulda oturmağına icazə verdi. Şəmistan əyləşən kimi vaxtı uzatmadan danışmağa başladı:

–Mən proqramçıyam. Kompüter işini çoxlarından yaxşı bilirəm. Bir özəl firmada işləyirdim. Mənə min beş yüz manat maaş verirdilər. Ancaq, məndən zəif proqramçılar tanıyırdım ki, daha çox qazanırdılar. Mənsə, pul qazanmağın yollarını heç əvvəldən öyrənə bilməmişdim. Məni həmişə aldadırdılar. Kənar müştərilər olurdu ki, proqram tərtib etdirirdilər, ancaq pulun onda birini verirdilər. Mənə isə pul çox lazım idi. Arvadımı ürəyindən əməliyyat etdirməliydim... İnanın, mənim heç vaxt dövlətimizə xəyanət etmək fikrim olmayıb. Elə tərbiyə görmüşəm ki, millətimə də, dövlətimizə də, hökümətimizə də ürəkdən sadiq olmuşam həmişə. Heç nəslimizdə də xəyanətkar adam olmayıb...

–Uzatma! – Baratov onun sözünü kəsdi.

–Hə, keçən il, noyabr ayının iyirmi beşi olardı, internet ünvanıma bir məktub gəldi. Özünü Farik adlandıran biri mənə ayda iki min beş





yüz manat verməklə iş təklif edirdi. Mən ona mesajla bəzi suallarımı göndərdim. Bildirdi ki, bu rahat ofis işidir və mən kompüterdə işləməliyəm. Qərara gəldik ki, görüşək. O özü təklif etdi ki, görüş "Qara Qarayev" metrosunun çıxışında olsun. Evimizdən uzaq olsa da, razılaşdım. Noyabrın 30-da birinci dəfə görüşdük. Bu, otuz beş-qırx yaş arasında olan bir rus idi. Gözünə optik eynək taxırdı. Sonra bildim ki, adı Volodyadır. Biri onunla telefonda danışanda eşitdim. Volodya boz rəngli "Mersedes"də gəlmişdi. Bəzi şüşələrində nazik pərdə olduğu üçün çöldən baxanda arxa oturacaq görünmürdü.

–Sən o maşının nömrəsini götürmüsən? – Cavadov soruşdu.

–Onda ağlıma gəlməmişdi. Amma sonra götürdüm. Evdə, qeyd dəftərçəmdə var o maşının nömrəsi.

–Davam elə! –Baratov dedi.

–Volodya mənimlə görüşüb özünü Farik kimi təqdim etdi. Məni arxa oturacaqda əyləşdirib dedi ki, bu iş gizli dövlət işi olduğu üçün gözlərimi bağlamalıdır. Bir azacıq tərəddüd edib razılaşdım. Fikirləşdim ki, qoy olsun gizli dövlət işi. Mənə yaxşı əmək haqqı verirlərsə daha yaxşı! Gözümü dəsmalla bağlayıb maşını işə saldı. Yarım saata qədər yol getdik. Nəhayət, bir yerdə saxlayanda kiməsə dedi ki, gəlmişik. Maşından enəndə dəmir darvazanın səsini eşitdim. Məni həyətə salıb pilləkənlə qaldırdılar. Bir otaqda gözlərimi açanda gördüm ki, bura sadə bir otaqdır, stolun üstündə bir kompüter var. Volodya ilə iki saatdan çox kompüterdə işlədik...

–Nə işlədiniz? – polkovnik soruşdu.

–Mən kompüterdə sayt yaratmağı öyrədirdim ona. Gizli sayt. Erməni kəşfiyyatı haqqında bir söz olmasa da, artıq onun bizim dövlət adamı olmadığından şübhələnmişdim. O gün, yorulandan sonra təzədən gözlərimi bağladı və məni qaytarıb həmin metronun qarşısında maşından endirdi. Tapşırdı ki, dekabrın 2-də yenə görüşək. Ancaq, mən üzünə deməsəm də, daha onunla işləmək istəmirdim. Həmin dediyi vaxt görüşə getmədim. Cib telefonuma zəng vurdu. Dedim ki, sizinlə işləmək istəmirəm, öz işim məni qane edir.

– Həmin telefon nömrəsini bizə deyə bilərsən? – polkovnik sualı

verib. nədənsə, Cavadova baxdı.

Şəmistan başı ilə Yusifovu göstərdi:

–Telefonumda qalıb həmin nömrə. Bu qardaşdadır telefonum.

–Yaxşı, sonra?

Baratov bu boy–buxunlu, azacıq qıvrım qara saçları enli sifətinə yaraşıq verən kişini bir daha diqqətlə süzdü. Ani olaraq fikrindən keçirdi ki, Şəmistan, əslində, doğrudan da, xəyanətkar adama oxşamır. Amma onu da düşündü ki, bəzən insanlar atdıqları addımı, ölçüb–biçmədən elə cığıra düşürlər ki, bu cığır özü onları aparıb xəyanət yoluna salır.

–İki gün sonra, dekabrın 4-də kiçik qızımı məktəbə gedərkən oğurladılar. – Şəmistan kədərlə dedi. – Texniki Universitetdə oxuyur. Volodya zəng vurdu. Dövlət orqanlarına xəbər verərəmsə, qızımı öldürəcəklərini dedi. Həmin yerdə görüşdük. Yenə gözlərimi bağlayıb məni həmin evə apardı. Məni başa saldı ki, onlarla işləməyə etiraz etsəm, mənim üçün də, ailəm üçün də çox pis olacaq. Yenə sayt üzərində işlədik.

–Sən indi həmin gizli sayta girə bilərsən? – Baratov soruşdu.

–Yox... –Şəmistan başını buladı. – Mən onların gizli şifrələrini, kodlarını bilmirəm.Saytın yaradılma üsullarını öyrədirdm ona.Bir də təhlükəsizlik qaydalarını.Amma işin gedişində və danışıq əsnasında başa düşdüm ki, Bakıda, doğrudan da, gizli düşmən təşkilatı fəaliyyət göstərir və adı da ROSAR-dır.

–Rosar?

–Bəli. Volodya bunu, təsadüfən, ağzından qaçırmışdı.

–Yaxşı, sonra?

–Qızımı axşam evə buraxdılar. Yazıq uşaq çox qorxmuşdu. Evdə elə bildilər ki, qızı oğurlayanlar məndən pul tələb ediblər, mən də borc tapıb vermişəm. Sonra daha iki–üç dəfə Volodya ilə həmin evə getdik. Hər dəfə də gözübağlı olurdum. Onlar mənə inanmırdılar. Həmin otaqda Volodyadan başqa heç kəs gözümə görünmürdü. Mənə elə gəlirdi ki, o da hər dəfə mənimlə görüşəndə qrimlənirdi. Volodya yavaş–yavaş mənə kompüterdə başqa işlər də tapşırmağa başladı. Məsələn, bizim dövlət orqanlarının gizli saytlarının şifrəsini





açmaq kimi işlər... Amma, mən bir dəfə də olsun buna cəhd göstərmədim. Günü-günə satıb, bacarmadığımı deyir, məsələni uzadırdım. Mən onlarla, qətiyyən, işləmək fikrində deyildim. Amma, başıma gələnlər barədə öz dövlət orqanlarımıza xəbər verməyə cəsarətim də çatmırdı. Ən çox da uşaqlarım üçün qorxurdum. Axır ki, onlardan qaçıb gizlənmək qərarına gəldim. Əsl iş yerimdə ərizə yazıb işdən çıxdım, başqa iş tapdım. Mənzilimi satıb köhnə məhəllədəki evi aldım. Yeni ünvanımı heç kəsə bildirmədim. Kiçik qızıma dedim ki, bir müddət dərsə getməsin. Həyat yoldaşımla böyük qızım heç yerdə işləmirlər.

–Yeni ünvana nə vaxt köçdün? –sualı yenə Baratov verdi.

–Yanvarın beşində.

–Bəs daha onunla görüşmədin?

–Görüşdüm... İnternet ünvanımla, cib telefonumun nömrəsini dəyişməmişdim. Onlarla əlaqəni birdən-birə kəsməyə qorxurdum. Elə bilirdim ki, o saat nəsə bir facıə baş verəcək... Yenə oraya gedib–gəlirdim. Ünvanımı dəyişməyimdən xəbəri yox idi Volodyanın.

–Sənə heç pul vermirdi Volodya?

–Verirdi... Bir dəfə iki min, bir dəfə də min altı yüz manat pul vermişdi.

–Bəs elə danışmamışdınız, axı?

–Deyirdi ki, məni hələ işə götürməyib. Yalnız mən sınaqdan çıxandan sonra götürəcəkmiş.

–Yaxşı, sonra?

–Səhv eləmirəmsə, fevralın 17-si idi. Kompüterin arxasında oturmuşduq. Volodya mənə Zamir adlı bir iş adamını öldürməyi təklif etdi. Dedi ki, buna görə mənə yaxşı pul verəcəklər.

–Dayan!... Dayan!... –mayor Cavadov Şəmistanın sözünü kəsib, üzünü rəisinə çevirdi. –Görürsünüzmü, cənab polkovnik, mən demişdim, Zamir Təhməzlinin qətlində bu təşkilatın əli var.

–Qoy davam etsin, Cavadov. –polkovnik dilləndi.

Şəmistan yenidən danışmağa başladı:

–Bu təklifə, qətiyyən, razı olmadım. Dedim ki, mən adam öldürə bilmərəm. Volodya daha heç nə demədi. Bizim arxamız qapıya tərəf

idi. Yarım saat sonra qapı açıldı və qapıda duran adam: "Necədir işlər, Farik?" – deyə soruşdu. Mən arxaya çevrilmək istəyəndə Volodya əli ilə mane oldu. "Sən qarşına bax!" deyib üzünü həmin adama tutdu və "Razılaşmadı..." dedi. Həmin adam isə " Bunun məsələsi çox uzandı. Qurtarmaq lazımdır." – deyib qapını örtəndə Volodya qəflətən "Tiqran!" deyə onu səslədi. Qapı təzədən aralandı. Tiqran deyilən həmin adam Volodyaya acıqlı səslə "Axmaq!" deyib qapını örtdü. Mən belə başa düşdüm ki, Volodya o adamın adını mənim yanımda çəkməməliydi.

–Sən o adamı heç görə bilmədin?

–Yox.Ancaq səsini eşitdim.

–Volodya ilə hansı dildə danışırdı?

–Rus dilində.

–Bəs Volodya səninlə?

–Öz dilimizdə. Azəri türkcəsində.

–Yaxşı, davam elə, görək!

–Həmin gün o evə getdiyim axırıncı gün oldu. Qərara gəldim ki, nəyin bahasına olursa-olsun, o adamlarla əlaqəni kəsim. Əvvəlcə telefon nömrəmi dəyişdim. Fevralın 23-də eşitdim ki, gecə Zamir Təhməzli adında iş adamını yaşadığı evin qabağında güllə ilə vurublar. Bunun mənə deyilən həmin adam olduğunu anlayanda daha çox qorxu keçirdim. Səhəri gün internet ünvanıma Volodyadan mesaj gəldi. Məni görüşə dəvət edirdi. Yazdım ki, bir də məni axtarmasın. Həmin gün internet ünvanımı da dəyişdim. Ondan sonra bu adamlarla heç bir əlaqəm olmayıb.

Şəmistan danışığını bitirib başını aşağı saldı. Polkovnik Baratov düşünürdü ki, onun verdiyi məlumatlar çox səthi və əhəmiyyətsiz görünən məlumatlar olsa da, gizli təşkilatın izinə düşmək üçün yardımçı ola bilər. Volodyanın maşınının, telefonunun nömrələri, təşkilatın Zamir Təhməzlinin ölümü ilə əlaqəsi... Görəsən, onlar bu gənc iş adamını niyə qətlə yetiriblər?... Otaqda yaranmış sükutu Baratov özü pozdu:

–Sən vaxtında bizə məlumat versəydin, biz səninköməyinlə onların qərargahının yerini öyrənər, adamlarını ələ keçirərdik. İndi





isə gecdir daha! Sən onların nəzərində ölüsən. Görürsənmi, necə vicdansız bir hərəkət etmisən?

–Günahımı başa düşürəm. – Şəmistan astadan dilləndi. – Ancaq, ailəm...

–Bəsdir! –polkovnik onun sözünü ağzında qoydu. – Hamı sənin kimi düşünsə, ancaq öz canını, öz ailəsinin canını qorumağa başlasa, bu dövlət beşcə günün içində dağılıb gedər. Səni də, məni də, hamımızı qırıb dənizə tökərlər! – səsini bir qədər alçaltdı. – Yaxşı, sən bizə kömək edəcək başqa bir məlumat verməyəcəksən?

Şəmistan bir qədər düşünməli oldu:

–O evdə olduğum axırıncı gün gözüm kompüterdə, yəqin ki, Volodyaya gəlmiş bir mesaj cümləsinə rast gəldi. Ancaq, mən onu düz oxuya bildim, ya yox, deyə bilmərəm. Çünki, Volodya cəld düyməni basıb görüntünü dəyişdi.

–Sən oxuduğunu de, biz bilərik, düz oxumusan, ya yox?

–Məncə, belə bir cümlə idi: "Siçovul fevralın 25-də gələcək. Onu sərbəst buraxın və səhər qarışqa topasında ona üç qərənfil göstərin" Rus dilində yazılmışdı.

Baratov həmin cümlələri qeyd dəftərinə yazdı. Mənalı tərzdə mayor Cavadovla baxışdılar. Hər ikisi "Siçovul" sözünün erməni kəşfiyyatı tərəfindən Səid Namazova verilən gizli ləqəb olduğunu başa düşmüşdü.

–Bizə daha nə deyə bilərsən? – Məxfi şöbənin rəisi Şəmistandan soruşdu.

–Heç nə... – Şəmistan dərindən ah çəkdi. – İnanın ki, nə bilirəm, hamısını dedim. Yenə də əlimdən gələn köməyi etməyə hazıram. Ancaq, yalvarıram sizə, ailəmi qoruyun!

–Ailən etibarlı yerdə gizlədilib. – Baratov dedi. – Amma səni daha etibarlı yer gözləyir: Həbsxana!

Şəmistan nəsə demək istəyirdi ki, mayor Cavadovun telefonu zəng çaldı. O, telefonunun ekranına baxıb rəisinə tərəf əyildi və pıçıltı ilə:

–Leopard gəlir! – dedi.

Baratov başını astadan tərpədib kapitan Yusifova baxdı:

–Apar bunu kameraya!

Yusifov Şəmistanı apardı. Sonra mayor Cavadov da qalxıb onun arxasınca çıxdı. Baratov qeyd dəftərini qarşısına çəkib bayaq yazdığı cümlələri oxudu. Onun fikrincə, bu cümlələrdə aydın olmayan heç nə yox idi. Siçovul Səid Namazova verilən şərti adı, qarışqa topası isə fevralın 26-da Xocalı parkına toplaşan adamları bildirirdi. Üç qərənfil isə... Polkovnikin birdən yadına düşdü ki, kapitan Yusifovun təqdim etdiyi video kadrların birində kiminsə üç qərənfil gülünü əlində qaldırıb yellədiyini görmüşdü. Əlini hirslə stola vurdu. Deməк, Səid həmin gün parkda o adama hansısa məlumatı ötürübmüş. Hətta, ola bilər ki, həmin adamdan hər hansı yazılı təlimat alıbmış... Qərara gəldi ki, həmin üç qərənfil gülünə yaxın dayanmış adamların şəxsiyyətləri müəyyənləşdirilib danışdırılsınlar. Gec də olsa...

Qapı açıldı və Ələmdar içəri daxil oldu:

–Salam, gecəniz xeyir, cənab polkovnik!

Baratov susub şöbəsi üçün ən etibarlı, düşmənlər üçün ən təhlükəli agent hesab oluna bilən bu adamı diqqətlə gözdən keçirdi.Sonra isə çox ciddi şəkildə dilləndi:

–Heç bir xeyir yoxdur, mayor Məlikov! Sən bizim planlarımızı pozdun!

–Günahkaram, cənab polkovnik. Amma, ümid edirəm ki, Səidi öz tərəfimizə çəkməklə gizli qrupu ələ keçirəcəyik.

–Onu neylədin?

–Cavadova təhvil verdim.

–O sənin üzünü gördü?

–Xeyr, maskada idim. Buraya isə gözlərini bağlayıb gətirmişəm.

–Danışdırmısan?

–Bəli! Amma, çox dərinə getmədim. Onun anası erməni əsirliyində qalıb. Səidi buraya göndərənlər deyib ki, ona verilən təlimatı pozarsa, anasını öldürəcəklər.

Baratov özü də baş açmırdı ki, bu adama nəyə görə axıradək hirslənə bilmir. Bir qədər sakit səslə dilləndi:

–Biz Şəmistanı dindirdik. Amma, çox elə vacib məlumat öyrənə bilmədik ondan. Əgər Səiddən də heç nə öyrənə bilməsək, günahını necə yuyacaqsan? Birdən Səid heç danışmadı?

–Danışar!... – Ələmdar kinayə ilə gülümsədi. – Mayor Cavadov onu danışdıracaq.

–Baxarıq! – polkovnik əlini yellədi.- Sənin o samboçu adamın indi Səidin kirayələdiyi mənzildədir?

–Bəli!

–Birdən gizli təşkilatdan kimsə həmin mənzilə getdi? Sənin adamın Səidin rolunu oynaya biləcək? Heç düşünmüsən bu barədə?

–Başqa çarəm yox idi, cənab polkovnik. Tələtə demişəm ki, qapını hələlik heç kəsə açmasın. Biz, hər halda, o binaya girib-çıxanlara göz qoymalıyıq.

–Necə yəni, çarəm yox idi? Sənə nə məcbur düşmüşdü ki, bu ailəni xilas edəsən? O vaxt o qadına vurulmuşdun, Məltəm idi adı, nə idi, işimizi ona görə çətinliyə salırdın. Yoxsa indi də Şəmistanın qızına vurulmusan? Hansına?

–Cənab polkovnik... – Ələmdar bir qədər narazı səslə dilləndi. – Mənim o qadına yalnız rəğbətim var idi... Yenə də var.

–Bəs indi Şəmistanın hansı qızına rəğbətin var?

–Böyük qızını tanıyıram. Ancaq təkcə ona görə...

–Yaxşı, qurtar, Leopard! – rəis onun sözünü kəsdi. – Bəsdir! Tələtə tapşır, diqqətli olsun. Balkona-filana çıxmasın. Bir şey olarsa, səninlə əlaqə saxlasın.

–Oldu, cənab polkovnik, amma tapşırın, Şəmistanın noutbukunu, bir də cib telefonunu Tələtə çatdırsınlar. Yəqin onun evdə noutbuku olmamış olmaz.

–Niyə?

–Hər ehtimala qarşı...

–Başa düşdüm, çatdırarlar.

–Yaxşı olar, Lalə Hüseynova aparsın. O, mənzili tanıyır. Həm də çox şübhə doğurmaz.

–Daha bizə ağıl öyrətmə! – Baratov dedi. – Get! Doğrusu, sənə qarşı hirsim heç soyumaq bilmir. Düzdür, əslində Səidi sən tapıb üzə çıxardın, amma, o danışmasa, belə çıxacaq ki, bütün işlərimizi korladın. Get!

Ələmdar çıxmaq istəyəndə Baratov onu saxladı:

–Dayan, bir dəqiqə. Gəl bunu oxu! – qeyd dəftərini ona uzatdı. – Bunu, Ermənistandan buradakı gizli təşkilatın internet ünvanına göndəriblər.

–Şəmistandan öyrəndiniz? – dəftərdəki cümlələri oxuyan Ələmdar dedi.

–Hə! Bu bizə, əslində, heç nə vermir. Gecikmiş məlumatdır. Yəqin ki, başa düşdün. Siçovul deyəndə Səidi nəzərdə tuturlar. Göstəriş veriblər ki, onu qarşılamasınlar, izləməsinlər və fevralın 26-da bir nəfər əlində üç qərənfil tutub onun yaxınlaşmağını gözləsin. Bax, Leopard, Yusifovun qrupunun gözləri qarşısında baş tutub bu görüş. Mən o kadrlara baxanda, həqiqətən, əlində üç qərənfil tutmuş adamın əlini görmüşdüm.

–Çox təəssüf... – Ələmdar dəftəri polkovnikə qaytardı.

–Get, Leopard, bunu elə-belə göstərdim sənə.

Qapıya gedən Ələmdar birdən dayanıb geri döndü:

–Amma, cənab polkovnik, siz bu siçovul sözünə də fikir verin. Niyə axı siçovul? Səid ki siçovula bənzəmir!?

Baratov bir qədər duruxdu:

–Ona görə ki, Səid Bakıya gizli gəlib. Siçovul kimi.

Ələmdar başını buladı:

–Məncə, yox...

–Bəs sən nə düşünürsən, Leopard?

Ələmdar çiynini çəkdi:

–Heç nə düşünmürəm. Amma, onu bilirəm ki, siçovul həmişə anbarlarda, zirzəmilərdə olur.

Baratov fikrə getdi. Ələmdar gödəkçəsinin cibindən qara rəngli maskanı çıxarıb başına keçirdi və:

–Gecəniz xeyrə qalsın! – deyib kabinetdən çıxdı.

Mayor Cavadov onu yola salmaq üçün, həyətdə dayanmış silahlı keşikçilərin yanında gözləyirdi.





## İYİRMİ YEDDİNCİ FƏSİL

Şəhərin mərkəzindən bir qədər uzaq olan qəsəbədə, uca hasarlı həyətin darvazası qarşısında bir neçə minik avtomobili dayanmışdı. Buranın hazırda Rusiyada yaşayan sahibi həyətdəki ikimərtəbəli evi Əsamət adlı birinə kirayə vermişdi. Əsamət əslən rus olan arvadı Tatyana ilə burada tək yaşayırdı. Uşaqları yox idi. Onlar masajla məşğul olurdular. İkisi də yaxşı masajçı idilər. Reklamdan istifadə etmədikləri üçün müştəriləri o qədər də çox olmurdu. Amma, hər halda, küçə sakinləri və polis sahə inspektoru yaxşı bilirdilər ki, Əsamətlə arvadı masajla məşğuldular və hətta bunun üçün qanuni lisenziyaları da var.

Əslində isə masaj-filan, sadəcə, gözdən pərdə asmaq üçün idi. Bu ev, bir ilə yaxın olardı ki, «Rosar» gizli təxribatçı qrupunun qərargahı rolunu oynayırdı.

Qəhvəyi rəngli bir «Chevrolet» gəlib darvazanın qarşısında dayandı. Əynində qara rəngli plaş, başında eyni rəngdən dəri kepka olan hündürboylu bir kişi maşından yerə endi. Saçları dibindən ülgüclə qırxılmışdı. İri, donqar burnunun altında gizlənmiş nazik bığları uzunsov sifətinə yaraşsa da, bir-birinə çox yaxın yerləşmiş xırda gözləri bu yaraşığı pozur, ümumi simasına xoşagəlməz və qorxunc görkəm verirdi. Bu, şəhərdə yaradılmış «Rosar» gizli təşkilatının başçısı Tiqran Stepanyan idi.

Maşından enən kimi gözü darvazadan bir qədər aralı, hasarın yanında dayanmış ağ rəngli «Nissan–Teana» ya sataşdı. Nazik, uzun dodaqlarında xəbis bir təbəssüm gəzdi. Bildi ki, gənc Oksana artıq buradadır. Və onu da bildi ki, Oksana gəlibsə, demək, tək gəlməyib. Anası ilə gəlib. Kraliça ilə...

Kraliça ləqəbini ona Tiqran özü vermişdi. Yaşı əllini ötmüş bu erməni qadın, deyilənə görə, vaxtilə çox gözəl imiş. Bakıda varlı ailədən olan gənc bir aspiranta ərə getmiş, ondan bir oğlu, bir qızı olmuşdu. 1988-ci ildən sonra ermənilər Bakıdan yığışıb gedəndə,

bəzi ərli qadınlar kimi, həmin bu kraliça da heç yana getmədi. Tanışlarının köməyilə adını dəyişib Bakıda qaldı.

Ancaq, sonradan professor olmuş ərinin heç xəbəri də yox idi ki, sevimli arvadı erməni kəşfiyyatına xidmət edir. Bunu, deyəsən, bu yaxınlarda anladı həmin bədbəxt və anlayandan sonra heç bir gün də yaşamadı. Hamı dedi ki, ürək tutmasından keçinib. Amma, kim bilməsə də, Tiqran bilirdi ki, onu Kraliça özü qətlə yetirib.

Darvazanı açıb həyətə girdi. Özünəməxsus ehtiyatlı baxışları ilə ətrafı süzdü. Evin birinci mərtəbəsində adi müştərilər qəbul olunurdu. O müştərilər ki, onlar buraya, həqiqətən də, masaj üçün gəlirdilər. İkinci mərtəbə isə tamamilə gizli təşkilatın ixtiyarında idi.

Pilləkənlə ikinci mərtəbəyə qalxdı. Dəhlizdə kepkasını və plaşını soyunub asılqandan asdı. Güzgüdə özünə baxıb qalstukunu düzəltdi. Ondan kəskin odekolon iyi gəlirdi. Əlini təmiz qırxılmış yanağına sürtdü. Ermənistanda olanda həmişə saqqal saxlayırdı. Sonradan imicini dəyişmişdi.

İçəridən «Doktor»un səsi gəlirdi. Deməli, o da burada idi. Ləqəbi "Doktor" olan, yaşı altmışı ötmüş bu erməni bir az əvvəl Bakıya Avropa ölkələrinin birindən ticarət şirkətinin meneceri kimi gəlmişdi. Baxmayaraq ki, yaşadığı ölkədə işi də, həyat şəraiti də ən yüksək səviyyədə olmuşdu, Daşnak partiyasının tapşırığı ilə bunlardan, müvəqqəti də olsa, əl çəkmişdi. Burada, yəni Bakıda yaradılan təxribatçı təşkilatın başında durmalıydı. Əslində isə, o bu təşkilatın yalnız ideoloqu rolunu aparırdı. Əsas rəhbərlik isə Tiqranın əlində idi.

Tiqranın bu arıq, həmişə uzun siqar sümürən qocadan xoşu gəlmirdi. Onun fikrincə, Doktor bıçaq və ya balta duran yerdə pambıqla baş kəsməyi təbliğ edirdi. Bu isə Tiqranın xasiyyətinə o qədər də uyğun deyildi. O, düşmənin qanını gözləri ilə görməyə və əlini bu qana bulayıb ləzzət almağa alışmışdı.

Bir dəfə, Xocalıdan olan əsirlərdən birinin başını kəsəndə stəkan istədi və stəkanı əsirin boyun damarlarından fışqıran qanla doldurub başına çəkdi. İsti–isti... Şirintəhər bir dadı var idi o qanın... Dadı bir o qədər ləzzətli olmasa da, bu əməlin özü, yəni türk qanını içməsi ona





bir rahatlıq gətirdi. Onun bu hərəkətini bir erməni qadını da təkrar etdi. Ancaq onun mədəsi götürmədi bu içkini. Qusdu...

Tiqran otağa keçib heç kəsə salam vermədən qanlı nəzərlərini Əsamətə dikdi:

–Mənim gəlişimi bildin?

–Hə! – Kraliçanı masaj etməklə məşğul olan Əsamət dilləndi. – Oksana mətbəxdədir. Darvazanın səsini eşidən kimi pərdəni aralayıb baxdı. Dedi ki, sənsən gələn.

Doktor kresloda yayxanıb, tüstülənən siqarını əlində tutmuşdu. Əynində damalı, mixəyi rəngli kostyum var idi. Volk ləqəbli Volodya ondan soldakı divanda saqqalı sinəsinə sallanan bir gənc kişi ilə oturmuşdu.

Kraliça ağzı üstə taxta çarpayıda uzanmışdı. Əynində qara rəngli dar alt paltarından başqa heç nə yox idi. Əsamət onun vaxtından əvvəl qocalıb lırtlaşmış budlarını masaj edirdi. Tiqran keçib Doktorun sağındakı kresloda oturdu və Doktor üzünü Volodyaya tutub, yarımçıq qalmış söhbətini davam etdirdi:

–Deməli, Siçovul o proqramçının ailəsini də, özünü də ləğv etdi?

–Hə, dünən axşam... – Volodya dedi.

Tiqran artıq bu barədə Volodyadan lazımi məlumatları almışdı. Odur ki, söhbətə qarışmadı. Onun fikri mətbəx tərəfdə idi. Oksananın otağa nə vaxt girəcəyini gözləyirdi. Doktor isə növbəti sualını verdi:

–Təşkilatın varlığını üzə çıxara biləcək bir səhvə yol verilmədi ki?

–Yox, qətiyyən! –Volodya dedi. Onlar rus dilində danışırdılar. – Biz heç onu izləmirdik də! Tək bir dəfə Xocalı parkında, adamların sıx yerində bizim adamımıza bir kağız ötürüb. Bu kağızda onun kirayə tutduğu mənzilin ünvanı yazılmışdı. Ona Yerevanda belə tapşırmışdılar. Sonra bir təsadüfi uşaqla həmin mənzilə polis paltarı, silah və görəcəyi iş barədə təlimat yazılmış kağız göndərdik. Həmin uşaqla əlavə olaraq başqa bir mənzilin açarını da göndərib, kağızda qeyd etmişdik ki, ailəni məhv edəndən sonra köhnə mənzilə yox, ünvanını göstərdiyimiz mənzilə getsin. Şəmistan ünvanını dəyişdiyi üçün Siçovul səhvən başqa ailəni qətlə yetirdi. Bunu bilən kimi biz başqa bir uşaq vasitəsilə ona Şəmistanın yeni ünvanını göndərdik...

Doktor siqarın külünü döşəməyə töküb istehza ilə gülümsədi:

–Deməli, Siçovul Bakıya gələndən iki ailənin axırına çıxıb. Yaxşı killer olar ondan. Bax, əsl sadaqət belə yaranır. Əvvəl ancaq anasına görə inana bilərdik ona. İndi isə, bu qədər adamı qətlə yetirəndən sonra, daha geriyə yolu qalmır onun. Məncə, Siçovula inanıb üzə çıxarmaq, özümüzü ona göstərmək olar.

–Mən də elə düşünürəm. – Volodya dedi. – Qoy bu sonuncu cinayət haqqında da prokurorluğun versiyalarını öyrənək, ayın beşindəki toplantımıza gətirərik onu.

–Bəs o, gizli anbarın yerini nə vaxt göstərəcək? – Doktor soruşdu.

Volodya, nədənsə, Tiqrana ani bir nəzər salıb cavab verdi:

–Biz hələ birinci məktubumuzda ona göstəriş vermişdik ki, sakinləri köçürülmüş məhəlləyə gedib, gizli anbarın girişinə işarə qoysun. O, artıq həmin işarəni qoyub. İndi qalır bizim ora gedib anbardakı silahları və xəzinəni başqa etibarlı bir yerə daşımağımız. Amma, Tiqran deyir ki, tələsməyək...

–Mən düz deyirəm! –Tiqran qaşqabaqlı halda dilləndi. – Buranın milli təhlükəsizlik orqanları şeytana papaq tikirlər. Qorxuram, Zamir Təhməzlinin ölümü ilə əlaqədar duyuq düşüb sökülməli məhəlləni nəzarət altına alalar. Biz əvvəlcə, dəqiq yoxlamalıyıq görək, belə bir nəzarət var, ya yox.

–Mən bir şeyi anlaya bilmirəm. –Doktor siqar tutduğu əlini havada oynatdı. – Bu Siçovul həmin anbarın yerini haradan bilirmiş?

–Qoy bunu Tiqran başa salsın. –Volodya dedi. – Bu gizli anbar məsələsi ilə o özü məşğuldur. Sərkis adlı kişinin o vaxt yaşamış olduğu məhəllə Təhməzlinin tikinti firması tərəfindən alınanda, sakinlər köçürülüb məhəllə hasarlananda bundan birinci Tiqran xəbər tutdu. Ermənistana dərhal xəbər verdik. Sən demə, Tiqran Sərkisin zirzəmisində gizli anbar olduğunu bilirmiş. Amma nə o, nə də bir başqa adamımız Sərkisin həyətinin məhəllənin harasında olduğunu, gizli anbarın harada yerləşdiyini bilmirdik. Məhəllədəki evlər sökülməyə başlayanda Tiqran bu işi dayandırmaq üçün özü firma başçısını aradan götürməyə məcbur oldu. Çünki, anbarın yerini göstərmək üçün Ermənistandan göndəriləcək Siçovul hələ gəlib





çıxmamışdı.

–Hə, Tiqran? –Doktor Tiqrana baxdı. – Siçovul haradan bilir anbarın yerini?

– Siçovulun heç anbardan yerli-dibli xəbəri olmayıb. – Tiqran dedi.

– Necə yəni, xəbəri olmayıb? – Kraliça cır səsiylə çığırdı. – Bəs onu niyə göndəriblər?

–Qulaq asın! –Tiqran kobudluqla dilləndi. –Bu Siçovul kimdir, nəçidir, mən onu tanımıram. Heç üzünü də görməmişəm. Ancaq, hələ iki il bundan qabaq Yerevanda olanda eşitdim ki, onu, lazım gələrsə, Bakıya göndərmək üçün bəsləyib saxlayırlar. Niyə? Bu saat sizi başa salacam. Bu Siçovul o vaxt Bakıda tələbə olarkən Sərkisin həmin məhəllədəki həyətində kirayədə qalıb. Sərkis Sovet hökuməti vaxtı bizimkilərin Bakıda yaranmış gizli təşkilatının fəallarından imiş. Həmin məhəllədə də bir həyət ancaq ona məxsus imiş. Həyət divarının aşağı hissəsində kiçik qapı açıb, yeraltı yol çəkərək gizli anbar düzəldiblər. Bu anbar əslində, qonşu evlərdən birinin altında düzəlibmiş. Divarın dibində isə kiçik dəmir qapı qoyublar. Təşkilatın xəzinəsini və topladığı silahları həmin anbarda gizlədirlərmiş. Sərkis sonradan həyətdə kiçik damxalar düzəldib onları tələbələrə kirayəyə verməyə başlayıb. Tələbələr bu kiçik, qıfıllı qapını görəndə, yəqin ki, onun yeraltı pilləkənə açıldığını ağıllarına gətirməyib. Ya, bəlkə də, Sərkis o qapının qarşısına zir–zibil yığıb, onu gizlədirmiş. Bizimkilər evlərini azərilərə satıb gedəndə, Sərkis də bilib ki, Bakıda uzun müddət qala bilməyəcək. Ona tapşırıblar ki, qapının izini itirsin. Sərkis də həmin dəmir qapını söküb, yerini daşla çəkib. Bizimkilər düşünüb ki, gec-tez Bakıya qayıdacaqlar və o silahlarla xəzinə bizə çox lazım olacaq...

–Mən o Sərkisi tanıyırdım. – Kraliça Tiqranın sözünü kəsdi. – Atamla yaxın idi. Ancaq anbarın onun həyətində olduğunu ağlıma gətirməzdim.

–Dayan, Kraliça, –Tiqran söhbətinə davam etdi. – Sərkis, deyəsən, qapının yerini daşla çəkəndə tələbələrdən ancaq bizim Siçovulu köməyə çağırıb. Ancaq, Siçovul, yəqin ki, o qapının lazımsız olduğu

üçün qapandığını düşünüb. Sonra, səhv etmirəmsə, həyətdəki divarların hamısı sementlə suvanıb ki, qapının yeri bilinməsin...

–Aydındır. – Bu dəfə onun sözünü doktor kəsdi. – Deməli, Siçovulu bura göndərənlər ona tapşırıb ki, qapının yerini bizə göstərsin.

–Yox!... – Tiqran başını buladı. – Ona Ermənistanda anbar barədə heç nə deməyiblər. Bu heç düzgün hərəkət də olmazdı. O Bakıya gəlib, öz tutduğu mənzilin ünvanını, könüllü olaraq, bizə bildirəndən sonra ona əmr etdik ki, o vaxt Sərkislə birlikdə suvadıqları qapının yerini göstərsin. Yəni, həmin həyətə gedib, vaxtilə qapının olduğu yerə təbaşirlə gül şəkli çəksin. O da artıq bunu edib.

–Haradan bilirsən? –Doktor təəccübləndi.

–Yoxlamışam. –Tiqran hiyləgərcəsinə gülümsədi.

–Axı o, keçən bu illər ərzində qapının yerini unuda bilərdi!?

–Yox. –Tiqran etiraz etdi. – Əgər Sərkis belə hesab edirmişsə ki, unuda bilməz, deməli, unuda bilməzdi.

–Doğrudanmı, orada yetmiş kiloqramdan çox qızıl var? – Volodya üzünü Tiqrana tutub soruşdu.

–Elə deyirlər. – Tiqran cavab verdi. – Bir də silah-sursat, partlayıcı qurğular.

–Martın 6-da həmin partlayıcılardan istifadə etmək fikrindəsiniz? –Doktor işgüzar görkəm alıb soruşdu.

–Əgər yarıyarlarsa, hə! Martın 5-də burada olacaq toplantıda beş-altı zirək adam seçməliyik. Həmin məhəlləyə gedib silahları da, xəzinəni də... – Tiqran burada başı ilə saqqallı gənci göstərdi. – Saqqalın həyətinə daşımalıyıq. Onları kapron çəlləklərə doldurub həyətdə basdırarıq. Səhəri gün isə... – birdən-birə erməni dilinə keçdi. – Adamların daha çox toplaşdığı üç yerdə atəşfəşanlıq düzələcəyik. Artıq bu işi yerinə yetirəcək üç adamımız da müəyyənləşib.

–Yerlər də? – Doktor erməni dilində soruşdu.

–Hə. Amma həmin adamlar bu yerlərin hara olduğunu martın 6-da, partlayıcı qurğuları məndən alarkən biləcəklər.

–Məktəb? – Doktor səsini alçaltdı.

–O da var...





–Bu türklərin hamısını qırmaq lazımdır! – hələ də ağzı üstə uzanmış Kraliça dilləndi. – Hamısını!

–Hamısını qırmaq olmaz, Kraliça! –Tiqran rişxəndlə başını buladı. –Hamısını qırsaq, bizim törəmələrimiz gələcəkdə çox gözəl bir içkini içmək ləzzətindən məhrum olacaqlar.

–O nə içkidir elə? –qadın boynunu döndərib kinayə ilə Tiqrana baxdı. –İçkinin yaxşısını biz düzəldirik.

–O içki Türk qanıdır! Biz hamısını qırsaq, uşaqlarımız nə içəcək?

–Onların dərdini çəkmə! –Kralica ağzını əydi. – Öldürməyə türk tapmasalar, torpağı eşib sümüklərini murdarlayarlar.

Oksana, deyəsən, o biri otaqdan gəldi. Tiqrana başının hərəkəti ilə salam verib anasına rus dilində:

–Ay mama, bəsdi də, – dedi – iki gündən sonra toyumdu, axı!

–Qorxma! – anası cavab verdi. –Bizimkilər sənin gülməşəkərinə dəyməz.

Tiqran Oksananı başdan-ayağa mənalı tərzdə süzdü. Havaların hələ istiləşmədiyinə baxmayaraq, qız əyninə qısa yubka geyinmişdi. Hamar, düz ayaqları çılpaq görünürdü. Sarışın saçları çiyinlərinə güclə çatırdı. Ətli dodaqlarına nazik boya çəkmişdi. Açıq sinəsindəki qara daşlı qızıl medalyon qara koftasıyla uyğunluq yaradırdı.

Doktor məzəmmətlə dilləndi:

–Siz belə danışmaqla heç bir işə nail ola bilməzsiniz. Dediyimi bir də təkrar edirəm ki, ağılla iş görmək lazımdır, qızğın başla yox.

–Ən ağıllı iş türkləri qırmaqdır! –Kralıça çımxırdı.

–Onları birdən-birə qırmaq mümkün deyil. –Doktor izah etdi. – Biz həmişə səbrlə iş görmüşük və yenə də bu ənənəmizi davam etdirməliyik. Qarabağı, ətraf rayonlarını aldıq, eləmi? İndi, artıq sülh mərhələsi yetişib. Əslində, biz o torpaqları siyasətlə əldə saxlayıb, türklərlə barışmalıyıq. Lazım gəlsə, üzdə dostlaşmalıyıq. On il, iyirmi il sonra, şərait yetişən kimi, daha yeni torpaqları ələ keçirməliyik. Nəzərdə tutduğumuz Böyük Ermənistanı yaratmaq sizin düşündüyünüz qədər də tez və asan başa gəlməyəcək.

–Deməli, biz bura ona görə yığışmışıq ki, türklərlə dostlaşmaq yolunda fəaliyyət göstərək? – Tiqran qocaya rişxəndlə baxdı.

–Yox, mənim əziz Tiqranım. –Doktor təmkinini pozmadı. –Biz indidən gələcək işğallara zəmin yaratmalıyıq. Səbrlə, təmkinlə. Təbliğat aparmaqla. Bu millətin mənəviyyatını zəiflətmək yolu ilə. Keçmişdəkiləri unutdurmaq yolu ilə. Martın 6-da nəzərdə tutduğumuz əməliyyatlara etirazım yoxdur. Onlar əhali arasına çaxnaşma salmaq üçündür. Çalışın, qətiyyən, bizdən bilməsinlər. Qoy, özləri bir-birlərini qırsınlar. Ancaq, adamlarımız əhalinin arasında gəzib, onların əqidəsini dəyişməlidirlər. Çalışmalıdırlar ki, Türkiyəni, digər türk dövlətlərini əhalinin gözündən salsınlar, iqtidara inamı zəiflətsinlər, azsaylı xalqları bir-birlərinə qarşı qoysunlar. Bilirsiniz, kəsərli söz qılınc kimi bir şeydir. Üç nəfərin arasında ortaya elə söz atarsan ki, həmin söz toxum kimi cücərib, gələcəkdə öz bəhrəsini verər. Bu millətin təhsilinə zərbə vurmaq lazımdır, sağlamlığına zərbə vurmaq lazımdır. Belə olsa, iyirmi ilə, görərsən ki, millət məhv olub. Ancaq, güllə ilə, bomba ilə heç yüz ilə də qırıb qurtarmaq olmaz bu milləti.

Tiqran əlini yelləyib kreslodan qalxdı:

–Belə söhbəti çox eşitmişik. –Oksananın qolundan tutub onu qapıya tərəf çəkdi. – Gəl bura görüm, özünü toyqabağı necə hiss edirsən?

Kralica, deyəsən, Tiqranın qırımından nəsə anlamışdı:

–Ey, qızla işin olmasın! Toyuna iki gün qalıb.

–Necə?! –Tiqran, guya ki, təəccübləndi. – Sən qızını mənə qıymırsan, Kraliça? Türkə verirsən, mənə qıymırsan?

Əsamət hələ də qadının ayaqlarını masaj edirdi.

–Türkə verirəm ki, türkün biri azalsın. Ermənıyə versəm, nə qazanacam? – Kraliça bunu deyib, əcaib bir gülüşlə güldü. – Yaxşı, acığın gəlməsin, gedin söhbətinizi eləyin.

Tiqranla Oksana mətbəxə keçdilər.

–Mənə nəsə deyəcəksiniz? –qız özünü laqeyd aparmağa çalışaraq soruşdu.

Tiqran ona yaxınlaşıb belini qucaqladı.

–Deməli, iki gündən sonra toyundur?

–Hə... –Oksana yüngülcə dartındı. O, bu adamdan çəkinirdi. Onun çox qorxulu adam olması barədə anasından eşitmişdi.





–Oğlan Bakılıdı?

–Hə.

–Haradan tapışmısınız?

–Atam onun elmi rəhbəri idi...

–İmkanlı ailədəndir?

–Hə...

–Sevirsən onu?

Qız dinmədi.

–Mənim səndən çox xoşum gəlir.

Tiqran bunu deyib qızı öpməyə başladı. Oksana əvvəl dodaqlarını qaçıraraq ehtiyatla qapıya baxdı. Amma, sonra təslim olub, həvəssiz də olsa, vücudunu özündən iyirmi yaş böyük kişinin ixtiyarına verdi.

Tiqran onu çevirib bu dəfə arxadan qucaqladı. Əlini qızın alt paltarına aparanda Oksana dartınıb ona mane olmaq istədi:

–Eləmə, uşağa qalaram...

–Nə olar ki? – onu buraxmaq fikrində olmayan Tiqran rişxəndlə dilləndi. – Uşağa qalsan, daha yaxşı. O da mənim sənə toy hədiyyəm olar. Qoy uşağında erməni qanı daha güclü olsun.

Oksana çox sakit dayanmışdı. Onun soyuqluğu və laqeydliyi Tiqranın xoşuna gəlmədi. Başa düşdü ki, indiyədək çoxları ilə olub bu qız. Onunla qurtarıb kənara çəkildi. Üst-başını düzəldib:

–Nəsə içmək istəyirəm. – dedi. – Bax gör, nə var Əsamətin şkafında.

Oksana da paltarını hamarlayıb şkafı axtardı və tapdığı yarımçıq araq şüşəsini stolun üstünə qoydu. Tiqran stəkana araq süzüb içdi. Nədənsə, birdən-birə, yadına on yeddi il əvvəl Xocalıda əsir götürdüyü bir qadın düşdü...

Tiqranın həmin qadından yaman xoşu gəlmişdi. Çox gözəl qadın idi. Çox gözəl də bədəni var idi. Lap balıq kimi hamar. Onu meşədə əsir götürmüşdü. Qadının əri öz qızını, yəqin ki onların əlinə verməmək üçün, vurub öldürdü. Tiqran bu günə qədər o hərəkətin mənasını anlaya bilmirdi... Onda yaman hirslənmişdi. Qadını qarın üstünə yıxıb, oğlunun və öz yoldaşlarının gözü qabağında onunla

əlaqədə olmaq istədi. Ancaq, alınmadı...

Yadına salmaq istədi onun adını. Hə, Səroş deyirdi ona. Əsl adı da elə buna uyğun idi. Amma, yadına düşmədi əsl adı. Yaman bəyənmişdi o qadını və imkan vermədi ki, onu başqa əsirlərə qatsınlar. Özünə götürdü.

Onunla birinci dəfə, əsir aldığının səhəri günü, donuz fermasında cinsi əlaqədə oldu. Qadın bütün qüvvəsi ilə mübarizə aparır, təslim olmaq istəmirdi. İki yoldaşını köməyə çağırmalı oldu və yalnız yoldaşları qadının əllərini, ayaqlarını tutandan sonra onu soyundura bildi. Onun ətli, ağappaq, həm də hamar və sağlam budları indi də gözünün qabağında idi.

Qadının həddindən artıq geniş açılmış gözləri göyə dikilmişdi. Dodaqları tərpənirdi. Tiqran onun bərəlmiş gözlərinə baxanda orada bir fəryad, eyni zamanda dəhşətli bir yalvarış gördü. Ancaq, nə qədər nadan olsa da, başa düşdü ki, bu yalvarış ona yönəlməyib. Çünki, qadın çığırmırdı. Tiqrana nəsə deyib yalvarmırdı.

Tiqran bu qadına sahib olduğu andan onda fərqli bir şey hiss etdi: Qadının bədəni buz kimi soyuyurdu...

Bu soyuqluq tezliklə Tiqranın da bədəninə keçdi. O da soyudu... Məqsədini axıradək həyata keçirməmiş, qalxıb qadından uzaqlaşdı.

Sonra həmin hadisə bir neçə dəfə təkrar olundu. Tiqran çox xoşladığı bu qadından istədiyi kimi kam ala bilmirdi.

Bir gün... Qadın donuz fermasındakı gözətçi daxmasında, ona verilmiş taxta çarpayıda büzüşüb yatmışdı. Neçə günlər doyunca yata bilmədiyi üçün möhkəm yuxuya getmişdi. Daxmaya girən Tiqran yaxınlaşıb əlini ehtiyatla onun paltarının altına saldı.

Elə həmin anda da bütün bədənini qarşısıalınmaz bir şəhvət hissi bürüdü. Qadının bədəni onun neçə gündən bəri arzu etdiyindən də isti idi. Cəld onu soyundurub üstünə yıxıldı.

Qadın sərsəm halda yuxudan ayılıb çırpındı və ilk dəfə ucadan səsləndi:

–Allah!!

Yenə oyuğundan çıxmağa hazır olan gözləri yuxarı dikildi. Yenə gözlərində həmin dəhşətli yalvarış oxundu. Yenə bədəni yavaş-





yavaş, buz kimi soyumağa başladı...

Nəhayət, o qadından bezdi. Onu ürəyi soyuyana qədər döydü və daha ona baş qoşmadı. Sonra elə oldu ki, keçmiş komandiri, həm də uzaq qohumu olan Nerses Səroşu onun fermasında görüb bəyəndi və qadını Tiqrandan istədi. Tiqran Nersesin sözündən keçə bilməyib əsirini ona bağışladı.

Ancaq o qadının oğlu sonradan da, uzun müddət Tiqranın əsirliyində qaldı. Tiqran anasının da heyfini ondan çıxır, bu gəncə olmazın zülmlər edirdi. Bax, onun da adı düşmədi yadına. Adı ya Səid idi, ya Seyid...

Əsir aldığı gündən heç bir həftə keçməmişdi. Tiqran bu oğlana nə dedisə, oğlan onun üzünə tüpürdü. Hə, deyəsən, dedi ki, Azərbaycanın himnini oxusun onun üçün. Qəzəblənmiş Tiqran onu əsgərlərin köməyilə lüt soyundurub bir az əvvəl içib boşaltdığı konyak butulkasının üstündə oturmağa məcbur etdi...

Həmin hadisəni yadına salan da istər-istəməz gülümsədi.

–Nəyə gülürsünüz? – Oksana incik halda soruşdu.

–Heç!

Tiqran bayaqkı otağa qayıtdı. Kraliça qalxıb geyinmişdi. İşvə ilə Tiqrana baxdı:

–Hanı Oksana?

Bu zaman Oksana da içəri girdi:

–Mama, gedirsən?

–Hə, gedək, qızım. İşimiz çoxdur. Toya hazırlaşmalıyıq.

Ana–bala birlikdə çıxdılar.

–Deməli, martın 5-də, saat 3-də burada toplaşırıq. – Doktor dedi. –Neçə nəfər olacağıq?

Volodya bir anlıq fikrə getdi:

–Hamı gələ bilsə, iyirmi dörd nəfər. Əsamət və arvadıyla birlikdə.

–Deyirəm, bəlkə Saqqalın evinə toplaşaq? – Tiqran dedi. – İstəmirəm, hamı buranı görsün. – Üzünü saqqallı gəncə tutdu. – Hə, Saqqal? Səndə də həyət evidi.

–Qonşular şübhələnər. – Saqqal ləqəbli qaraqabaq gənc dilləndi.

–Uşaqlarından birini sünnət elə, yığışaq. Bizi xüsusi qonaqlar

kimi ayrı otağa yığarsan.

Gənc qızardı:

–Mənim uşaqlarımın ikisi də qızdır.

Gülüşdülər. Tiqran başını buladı:

–Bilmirdim. Amma, onu deyim ki, mən o vaxt əsir aldığımız qızları da sünnət eləyirdim.

Volodya söhbəti dəyişmək istədi:

–Siçovulla görüşü nə vaxta təyin edək?

Tiqran əlini üzünə aparıb bığlarını sığalladı:

–Xəbər göndərin, ayın 5-də düz günorta saat 2-də dediyimiz həmin yerdə olsun. Özüm gedəcəm onunla görüşə... Hə, bir də tapşırın, onu tanımağım üçün əlində üç dənə qərənfil tutsun.

–Niyə saat 2-də?

–Onunla görüşüb buraya gətirəcəm. Toplantıya. Yolda tıxaca–filana rast gəlsək, saat 3- də buraya güclə çatacağıq.

–Ehtiyatlı olmaq lazımdır. –Doktor sözə qarışdı. – Çalışın, buraya arxanızca quyruq gətirməyəsiniz.

–Sən bunu mənə deyirsən? –Tiqran istehza ilə güldü.

–Bilirəm kim olduğunu. Amma, yenə diqqətli olun.

– Görüş yeri dəyişməyib, eləmi? – Volodya soruşdu. – «Nizami» metrosunun qarşısındakı meydança.

–Hə! –Tiqran başını tərpətdi. – Yerin adını ona xatırlatmaq lazım deyil. Bunu artıq bildirmişik. Məktuba yalnız görüşün vaxtını, bir də gül məsələsini qeyd edin.

–Yaxşı... – Volodya razılaşdı.

O, başa düşürdü, bu hiyləgər erməni niyə belə deyir. Elə görüşün olacağı yerin adını Siçovula əvvəldən bildirməyi də o tapşırmışdı...

–Mən gedirəm! – Tiqran dedi. – Əsamət, aşağı en, gör həyətdə, küçədə kim var?

Əsamət cəld ayağa durub, həyətə endi. Darvazadan küçəyə baxıb qayıtdı.

–Sakitlikdir, heç kəs yoxdur.

–Məni də apar! – Doktor dedi. – Səninlə söhbətim var.

Tiqran razılaşdı. Volodya ilə Saqqal da ayağa qalxdılar.





– Hamımız birdən çıxmamalıyıq. – Tiqran əsəbi halda dilləndi. – Siz bir azdan gedərsiniz!

Sonra Doktorla birlikdə evdən çıxaraq, darvazanın qarşısında dayanmış qəhvəyi rəngli «Chevrolet»ə əyləşdilər. Maşın on dəqiqədən sonra qəsəbəni arxada qoyub şəhərə gedən geniş asfalt yola çıxdı.

## İYİRMİ SƏKKİZİNCİ FƏSİL

Yuyunub vanna otağından çıxan Fəxriyyə xanım saçlarını qurulayıb paltar şkafını açdı. Dayanıb sıra ilə düzülmüş paltarlarına baxdı. Bir azdan müəllim yoldaşı Yaqutun ad gününə gedəcəkdi. İstəyirdi ki, orada hamıdan yaxşı görünsün. Minayə də, sözsüz ki, orada olacaqdı. Ticarət mərkəzinin direktoru olan ərinin puluyla bahalı paltarlar geyinib, üst-başını qızıl-gümüşlə, daş-qaşla bəzəyəcək. O gün Xuraman müəllimənin qızının toyunda dediyi söz indi də Fəxriyyənin yadından çıxmırdı. Müəllimələrin yanında onun enli gərdəninə yana-yana baxıb dedi ki, ay qız, bu nədir, kökəlmisən, bir az arıqla.

Məgər Fəxriyyə kök idi? Xeyr, kök-zad deyildi. Sadəcə, sümükləri iri göstərirdi onu. Artıq ət-filan yox idi bədənində. Qəddi–qaməti, gözəgələn bədən quruluşu var idi. Əllərini bədəninə görə incə görünən belinə qoyub, qədərincə enli olan arxası boyu xalatın üstündən sürüşdürdü. Yadına oxuduğu şərq nağıllarındakı gözəllərin təsviri düşdü: «Beli elə incə idi ki, üzükdən keçərdi, yanları elə enli idi ki, dəyirman daşı kimi...» Gülümsədi. Bərk və elastik olan əzaları əyninə kip oturan şalvar geyəndə daha cəzbedici təsir bağışlayırdı. Bu dəfə əlini qarnına qoyub, üzüaşağı çəkdi. Qarnı da qətiyyən, qabağa çıxmamışdı. Qarşısına çıxan kişilərin iştahla, qadınların həsədlə baxmasına səbəb olan əsas bu deyildimi? Əlbəttə, bu idi. O

gün, yaşı yetmişi keçmiş Kamil müəllim necə dedi? Hə, dedi ki, qadının bədən gözəlliyinə qiymət vermək istəyirsinizsə, birinci qarnına baxın. Gör ha, o yaşda kişidə iştaha bax, sən allah...

– Qadam ağzına! – Ürəyində Minayənin qarasına deyindi. – Arxadan baxanda bilmirsən ki, qadındı, yoxsa kişi. Heç olmasa, şalvar geyməyə, ayıbını donla ört-basdır eləyə. Yanlarını enli göstərmək üçün dəridən-qabıqdan çıxır. Görür, əlindən bir şey gəlməyəcək, başlayır arıqlığı təbliğ eləməyə ki, guya Avropada belələrini bəyənirlər. Külü töküm avropalıların da başına, sənin də! Arığı bəyənirlər, daha sənin kimi quruyub bir dəri, bir əyri sümük qalanı bəyənmirlər ki!?...

Allah göstərməsin, köklüyü heç Fəxriyyə özü də bəyənmirdi. Baxmayaraq ki, İkram kök qadınlara pis baxmırdı və elə özü də bir az qarın buraxmışdı.

Qərara gəldi ki, açıq qəhvəyi rəngli parçadan tikilmiş kostyumunu – şalvar və uzun pencəyini geyinsin. Bu kostyumun ona çox yaraşdığını Arifin də baxışlarından duymuşdu. Həsrətli və bir az da kədərli baxışlarından...

Geyinib, güzgünün qabağına keçdi. Qara-sarı rəngdə, zolaqlı boyadığı saçlarını darayıb düzəltdi. Yalnız toylara gedəndən-gedənə saçlarını, dırnaqlarını qadın gözəllik salonunda düzəltdirirdi. Yoxsa, özünün də zövqü, əl qabiliyyəti pis deyildi. Üz-gözünə diqqət yetirdi. İri, açıq qonur rəngli gözləri, tək-tək çillər gözə çarpan solğun sifəti, bir qədər dik burnu, incə dodaqları ona baxanlarda məhrəmanə duyğular oyadırdı.

Ad gününə getməyə İkramdan çətinliklə icazə almışdı. Əri yaman qısqanc və vasvası idi. Fəxriyyə bir həftə əvvəldən demişdi ki, ad gününə getmək istəyirəm. O da «baxarıq» deyib durmuşdu. Axır, dünən qəti sözünü dedi ki, gedirsən get, amma çox yubanma orada.

Saata baxdı. Saat 3-ə az qalmışdı. Ad gününə saat 4-də yığışacaqdılar. Rahat gedib çata bilərdi. Əslində, Yaqut müəllimə yaxında yaşayırdı. Beş-on dəqiqəlik piyada yolu var idi aralarında.

O biri otaqda Cəmillə Sahibə dərslərini hazırlayırdılar. Cəmil yeddinci sinifdə oxuyurdu, Sahibə dördüncüdə. Fəxriyyə xanım çox





arzu edirdi ki, Cəmil gələn dərs ilinin sonunda Bakıdakı Anadolu türk liseyinə qəbul olunsun. Uşaqlarının gələcəkdə böyük ali məktəblərdə oxuması ən böyük arzusu idi. Sahibə, hələ ki, onun ümidlərini doğruldurdu. Cəmil isə o qədər də çalışqan uşaq deyildi. Bu barədə atasına oxşamışdı. İkram o vaxt Fəxriyyə ilə eyni universitetdə oxumuşdu. İndi dövlət işində çalışırdı. Ancaq, uşaqların dərsi ilə çox da maraqlanmırdı. Əksinə, Fəxriyyə onların başının üstündə durub dərslərini oxudanda deyirdi ki, uşaqları incitmə, qoy istirahət eləsinlər, kompüterlə oynasınlar.

Güzgüdə bir daha üz-gözünə, geyiminə baxdı. Qabaqdan səkkiz mart qadınlar bayramı gəlirdi. İkrama demişdi ki, onun üçün qara mirvaridən, qızıl işləməli boyunbağı alsın. İndi pencəyin altından geydiyi bu koftasına ağdan daha çox qara mirvari yaraşardı.

Sahibə otağa girib anasına yaxınlaşdı:

–Mama, Xocalı faciəsi neçənci ildə olub?

–1992-ci ildə. – Saçlarına əl gəzdirən Fəxriyyə dilləndi.

–Cəmil deyir ki, 1918-ci ildə olub. – Sahibə bərkdən güldü. – Deyir ki, ermənilər o vaxt qırıb bizimkiləri.

Fəxriyyə də gülümsədi. Amma tez də ciddiləşib ucadan:

–Cəmilin başı xarab olub, yəqin! – dedi. – On səkkizinci ildə Azərbaycanın hər yerində soyqırım olub. O başqa, bu başqa...

Sahibə öz otaqlarına qayıtdı. Orada əməlli-başlı mübahisə başladı. Cəmilin acıqlı səsi gəlirdi:

– Mən elə dedim, axmaq? Sən soyqırımı soruşdun, mən də dedim ki, on səkkizinci ildə olub. Sən Xocalı demədin axı!?..

Fəxriyyənin yadına birdən-birə Səid düşdü, Xocalı qırğını düşdü. Bu dəhşətli qırğınla Səidin yoxa çıxmasının eyni yaşı var idi: On yeddi il! On yeddi il keçmişdi onunla son görüşündən.

Necə də sevirdilər bir-birlərini... Qayğısız tələbəlik illərinin məhəbbəti idi bu və bir romantika, bir qayğısızlıq qarışmışdı bu məhəbbətə. Heç bir dərdləri yox idi, demək olar... Arxayın idilər ki, bir-birlərinə qismət olacaqlar. Ailə quracaq, övlad sahibi olacaqlar. Bəlkə də elə bu arxayınlığa görə idi ki, sevişdikləri bir ildən çox müddətdə, bir dəfə də olsun, qucaqlaşıb öpüşmədilər, vaxtsız

qovuşmağa, intim anlar keçirməyə can atmadılar. Nə vaxtsa qovuşacaqlarına sonsuz inamları onları bəxtəvər eləmişdi. Bir-biriləri ilə danışmaqdan, əl-ələ tutmaqdan, göz-gözə baxmaqdan qədərsiz həzz alırdılar.

Fəxriyyə Bakıya oxumağa Mingəçevirdən gəlmişdi. Üç tələbə qızla Yasamalda – dağlılar məhəlləsində kirayədə qalırdı. Səid isə, deyəsən, Sovetski tərəflərdə olurdu. Hərdən, dərsdən çıxandan sonra, söhbət edə-edə Fəxriyyəni düz evə qədər ötürürdü. Əvvəl məhəllədə bir az pis baxırdılar buna, sonra isə Səidi tanıdılar, öyrəşdilər. Səid də yaman qısqanc idi, istəyirdi Fəxriyyənin qaldığı həyəti görsün, amma həyət sahibinin xasiyyəti ağır olduğu üçün Fəxriyyə razı olmurdu buna.

Havalar azacıq isti olanda ən çox Elmlər Akademiyasının həyətində, ya da indiki Hüseyn Cavid parkında görüşürdülər. Bir gün, həmin parkdakı görüşlərin birində Fəxriyyə dedi ki, evlənəndən sonra Bakıda yaşayarlar. İş tapıb işləyərlər, ev alarlar. Səid onda bir az duruxdu, dedi ki, Bakıda qalmaq istəmir, universiteti bitirəndən sonra Xocalıya–anasının yanına qayıtmaq arzusundadır. Dedi ki, evlənəndən sonra da anası ilə birlikdə yaşamaq istəyir. Fəxriyyə isə heç də gedib Xocalıda yaşamaq istəməzdi və təklif etdi ki, ananı da gətirərik Bakıya. Bir qədər fikrə gedən Səid, nəhayət, gülümsəyərək razılaşdı.

Anasının adı Sərinə idi. Bu, ona görə yaxşı yadında qalmışdı ki, elə Fəxriyyənin hazırda Mingəçevirdə yaşayan bacısının da adı Sərinə idi.

Səid necə də dəlicəsinə sevirdi anasını!... Həm də, çox gözəl, yarlı –yaraşıqlı bir qadın idi anası. Bir gün universitetdə Səid ona bir neçə fotoşəkil göstərdi. Fəxriyyə onlardan birinə baxanda:

–Budur bacın? –deyə soruşdu.

Səidi gülmək tutdu:

–Nə danışırsan? Bu mənim anamdır.

–Anan? – Fəxriyyə inanmaq istəmədi. – Nə vaxt çəkilib bu şəkil?

–Dörd-beş ay olar.

–Ay aman! Necə cavan qalıb! Çox gözəl anan varmış.





Axırıncı görüşləri hava soyuq olduğu üçün Akademiyanın həyətində, ayaqüstü oldu. Noyabr ayı idi. Səid səhəri gün Xocalıya gedəcəkdi. Bacısının nişan mərasiminə. Həm anasına, həm də bacısına kiçik hədiyyələr almışdı. Gedib bir həftəyə qayıtmalıydı. Ancaq, ayrılanda:

–Elə bilirəm ki, çox uzun müddətə gedirəm. – dedi.

Fəxriyyə boynunu burdu:

–Mən də darıxacam sənin üçün. Amma, bir həftəyə qayıdacaqsan. Yəni, yeddi gündən sonra. Mənim də adımdan təbrik edərsən Ləyaqəti.

–Yaxşı. –Səid dedi. –Yeddi günə qayıdacam, Allah qoysa. Bir az yollardan narahatam. Deyirlər, gediş-gəliş çətinləşib.

– Uzağı, olsun on yeddi gün! – Fəxriyyə güldü. – On yeddi günə də olsa qayıt, gəl! Buna nə sözün?

– On yeddi gün dözərsən? – Səid soruşdu.

– Lap on yeddi il də dözərəm.

– Doğrudan?

– Bəs nə? Sevirəm axı səni...

– Mən də səni sevirəm.

Səid bunu deyib onun əlindən tutdu. Bir müddət dayanıb bir-birlərinin gözünün içinə baxdılar.

– Bakıya gələn kimi xəbər elə, lap dərs olmasa da, görüşək. – Fəxriyyə dedi.

– Yaxşı, xəbər eləyərəm. Salamat qal!

– Sənə də yaxşı yol!

Səid onda bir həftəlik getdi Bakıdan. Uzaqbaşı, on yeddi günlük. Ancaq, qayıtmadı. İndi on yeddi il keçirdi həmin görüşdən. Həmin ayrılıqdan...

Bir həftə sonra Fəxriyyə narahat olmağa başladı. Sonra eşitdi ki, Xocalıya gediş–gəliş kəsilib. Narahatlığı daha da artdı. Hər gün oradan bir xəbər bilməyə çalışırdı. Deyirdilər ki, yollar bağlanıb, elektrik-rabitə kəsilib, ora ilə heç bir əlaqə yoxdur.

Üç aydan bir az vaxt keçdi. Fevralın 26-da o dəhşətli faciənin xəbəri ildırım sürətilə Bakıya yayıldı. Ermənilər rusların motorlu

alayının köməyilə neçə aydan bəri mühasirədə saxladıqları Xocalıya girib oranı viran qoymuşdular. Bakıda dəhşətli, sümüyün içindəki ilikləri belə üşüdən söz-söhbətlər dolaşırdı.

Fəxriyyə həmin günlər bircə an olsun televizorun qarşısından çəkilmirdi. Bir dəfə Xocalı şəhər prokurorunun orada baş verənlər haqqında çıxışına baxdı. Ermənilərin Xocalı əhalisinə qarşı törətdikləri vəhşiliklərdən danışanda sözünü axıra çatdıra bilmədi, hönkür-hönkür ağlamağa başladı o yaşda kişi. Öldürdükləri adamların meyidlərindən də intiqam almışdılar ermənilər. Başlarını, qulaqlarını, burunlarını kəsmiş, bədənlərini doğramışdılar...

O günlər dəhşətdən sarsılmışdı Fəxriyyə. Səidin öldüsündən-qaldısından bir xəbər bilmək istəsə də, heç nə alınmırdı. Eşitmişdi ki, birtəhər canlarını qurtaranlar da olub Xocalı sakinlərindən. Hər gün Səiddən bir xəbər gözləyirdi.

Amma, Səiddən heç bir xəbər gəlmədi. Həftələr, sonra aylar ötdü. Hər bir dərd, hər bir faciə kimi Xocalı söz-söhbəti də soyumağa başladı. Adamların başı gündəlik qayğılara qarışdı. Sonra Azərbaycanın dalbadal neçə rayonu işğal olundu ermənilər tərəfindən. Sonra bu dərdlər də bir qədər soyudu, sakitləşdi.

Fəxriyyə Səiddən əlini üzdü...

İndi əri olan həmin bu İkram, hələ Fəxriyyə birinci kursda oxuyandan, onun dalınca düşür, ürəyini ələ almaq istəyirdi. Ancaq, Səidə olan bağlılığını görüb əl çəkmişdi ondan. Həmin qanlı hadisədən altı-yeddi ay sonra yenə yaxınlaşmağa başladı ona. Yaxşı ki, hələ bir az gec yaxınlaşmışdı. Yoxsa o ağrılı günlərində yaxınlaşsaydı, söyüb təhqir eləyərdi onu Fəxriyyə. Ancaq yenə də rədd cavabı verdi.

İkram universiteti ondan qabaq qurtarıb icra hakimiyyəti sistemində işə düzəldi. Fəxriyyədən əl çəkmir, ona gah məktubla, gah rəfiqələri vasitəsilə öz məhəbbətini bildirirdi. Axır ki, qızın ürəyini ələ ala bildi və Fəxriyyə univesiteti bitirdikdən az sonra evləndilər. İkramın artıq Bakıda öz evi var idi. Atası almışdı onun üçün. Böyük şadlıq saraylarının birində dəbdəbəli toy elədilər və Fəxriyyə həmin evə gəlin köçdü...

Toy gecəsi onu birdən-birə dəli bir ağlamaq tutdu. Səidi





xatırlamışdı... Əslində, özü də bilirdi ki, İkramı sevmədən ərə gedir ona. Səidi isə sevmişdi. Hər halda, belə hesab edirdi ki, sevmişdi. Həm də özlüyündə Səidin İkramdan qat-qat yaxşı olduğunu da etiraf edirdi. Həm xasiyyətdə, həm də lap yaraşıqda. Səid mərd idi, təmiz qəlbi vardı. Prinsipial, sözünün üstündə duran idi. İkramda isə bir eqoistlik, özündən müştəbehlik vardı. Pulu, var-dövləti hər şeydən üstün tuturdu.

İkram başa düşmüşdü onun niyə ağladığını. Hirslənib:

–Yenə o əclaf üçün ağlayırsan? – dedi.

Fəxriyyə bəlkə də bunu boynuna almayacaqdı. Ancaq, onun Səid haqqında dediyi nalayiq sözə dözmədi. Göz yaşlarını qurulayıb İkramın qarşısında şərt qoydu ki, o, bir daha Səid haqqında pis danışmayacaq. İkram isə onunla razılaşıb öz növbəsində şərt qoydu ki, Fəxriyyə də bir daha Səidi xatırlamayacaq, onun adını bu evdə çəkməyəcək.

Ancaq, sonra Səid bir yana dursun, heç Xocalının da adını çəkmək İkrama xoş gəlmirdi. Günlər, həftələr, aylar ötdü. Uşaqları oldu. Fəxriyyənin başı uşaqlara qarışdı. Səid yavaş-yavaş unuduldu. İkrama da öyrəşdi, onun əvvəllər qətiyyən xoşlamadığı xasiyyətlərinə də. Üstəlik, necə olmasa, bir az da məktəb başını qarışdırırdı. Müəllim yoldaşları da, şagirdləri də xətrini istəyirdilər. Bax, on yeddi il beləcə gəlib keçdi və hər şey keçmişdə qaldı.

Ancaq, beş-altı ay bundan qabaq, sentyabr ayında Fəxriyyənin həyatında, yaxşılığından-pisliyindən özünün də baş aça bilmədiyi bir yenilik baş verdi. Məktəbin direktoru çağırıb, on birinci siniflərin birində tarix dərsini aparmağı ona tapşırdı. Həmin sinfin tarix müəllimi olan qadın uzun müddətə analıq məzuniyyətinə çıxıbmış. Fəxriyyə etiraz edə bilməyib razılaşdı.

Sinfə birinci dəfə daxil olub şagirdlərin üzlərinə göz gəzdirəndə diqqətini arxa partada oturan bir oğlan cəlb etdi. Ona elə gəldi ki, universitetin birinci kursunda oxuyan Səid keçmişdən çıxıb gələrək sinifdə oturub. Özünü itirib, nə edəcəyini bilmədi. Həmin oğlan gözlərini ona zilləyərək çox diqqətlə baxırdı. Fəxriyyə sinif jurnalını açıb, guya tanışlıq məqsədilə, uşaqların adını oxumağa başladı. Kimin adını çəkirdisə, ayağa qalxıb "Mən" deyirdi. Nəhayət,

Seymurlu Arifin adını oxuyanda oğlan durub sakitcə onun üzünə baxmağa başladı. Fəxriyyə:

–Sən hansı rayondansan, Arif? – deyə soruşdu.

–Kürdəmirdən. – Arif dedi.

İnsan insana necə də oxşayırmış?... Elə bil, bir alma idilər, yarı bölmüşdülər. O gündən bir şeyi müşahidə elədi ki, tarix dərslərində Arif gözlərini, bir an da olsun, ondan çəkmir. Fəxriyyə əvvəl bu baxışlardan sıxılır, uşaqların qarşısında istədiyi kimi danışa bilmirdi. Amma, tezliklə bu baxışlara da, Arifin özünə də öyrəşdi. Oğlanın ona zillənən baxışlarında saf bir məhəbbətlə bərabər, həm də nədənsə, bir kədər duyulurdu və bəlkə də buna görə Fəxriyyənin ona acığı tutmurdu.

İndi o, hər dərsdə Səidi görürdü, elə bil. Evdə də həmin oğlan barəsində düşünür, tarix dərsinin yenə tez gəlməsini arzu edirdi. Sanki, tələbəlik vaxtının məhəbbətilə dolu ilk illəri geri qayıtmışdı. Amma... Bu oğlan Səid deyildi. Səid ola bilməzdi. O, sanki, ona görə gəlib sinifdə otururdu ki, hər gün Səidi Fəxriyyənin yadına salsın, onun birtəhər uyğunlaşdığı bu həyatını darmadağın eləsin.

–Güzgüyə nə çox baxırsan, mama?

Qızının səsi Fəxriyyəni xəyaldan ayırdı.

–Nədi, Sahibə? – dedi.

–Mən dərslərimi hazırlayıb qurtardım. Televizora baxa bilərəm?

–Hə, get bax! – oğlunu səslədi. – Cəmil, mən gedirəm, özünüzü yaxşı aparın. Bacından da muğayat ol.

–Yaxşı... – Cəmilin səsi gəldi.

Fəxriyyə xanım çantasını götürüb mənzildən çıxdı və pilləkənlə enməyə başladı. Bayaqdan ona hücum çəkən fikirləri beynindən qovmağa çalışırdı. Blokun qapısından çıxıb bir neçə addım atmışdı ki, əyninə səliqəli kostyum geyinib, qalstuk vurmuş gənc bir kişi ilə qarşılaşdı. «BMW» markalı maşının yanında dayanmış bu tanımadığı adam ondan:

–Fəxriyyə xanım sizsiniz? – deyə soruşdu.

–Bəli... –Fəxriyyə təəccüblə dilləndi. – Sizə nə lazımdır?

–İkram müəllim mənə tapşırdı ki, sizi ad gününə aparım.

Fəxriyyə xanım bir şey anlamadı. Axı İkram maşın göndərəcəyini





deməmişdi!? Həm də ki, nə ehtiyac vardı axı?... Ancaq, bu fikirlərlə başını çox da yormaq istəmədi. İkramın, onsuz da, belə qəribə işləri az olmurdu. İndi ki göndərib, lap yaxşı. Gənc kişinin onun üçün açdığı arxa qapıdan maşına əyləşdi. Və həmin anda, arxa oturacaqda əyləşmiş başqa bir gənci gördü. O da əyninə qara rəngli kostyum geyinmiş, qalstuk vurmuşdu.

–Siz kimsiniz? – qadın gah ona, gah da artıq sükan arxasına keçmiş bayaqkı kişiyə baxdı.

Ancaq, sualına cavab almamış, maşın yerindən tərpəndi. Onunla yanaşı əyləşmiş gənc yalnız bundan sonra dilləndi:

–Narahat olmayın, Fəxriyyə xanım! Bizdən sizə ziyan gəlməz. Biz milli təhlükəsizlik şöbəsindənik. Sizinlə vacib bir işimiz var. Əlbəttə ki, dövlətimizin mənafeyi üçün.

Bunu deyən Məxfi şöbənin əməkdaşı leytenant Əsədov idi. O, cib telefonunu çıxarıb yola düşmələri barədə kiməsə məlumat vedi.

Fəxriyyə həyəcanlanmağa başladı:

–Mən müəllim yoldaşımın ad gününə gedirdim.

–Daha vacib məsələlərə görə siz bu planınızı pozmalı olacaqsınız. Sabah onunla məktəbdə görüşüb üzrxahlıq edərsiniz.

–Ərimin xəbəri var bundan?

–Yox! –Əsədov cavab verdi. – Sizdən xahiş edirik ki, telefonunuzu söndürəsiniz. Qoy əriniz sizə zəng vura bilməsin. Yeri gəlmişkən, evinə getdiyiniz rəfiqənizin, ya orada iştirak edəcək başqasının telefon nömrəsini bilirmi İkram müəllim?

–Yox... – cib telefonunu söndürüb yenidən çantasına qoyan Fəxriyyə xanım başını buladı.

–Çox yaxşı!

–Axı bunlar nə deməkdir? Mən nə etmişəm?

–Siz heç nə etməmisiniz. Amma bu başdan sizə qəti şəkildə tapşırıq ki, gördükləriniz və eşitdikləriniz barədə heç kəsə, o cümlədən ərinizə də danışmayacaqsınız. Yoxsa, başınız ağrıya bilər. Danışdıq?

–Yaxşı... Ərim demişdi, evə tez qayıt. Telefonu da söndürdüm. Bəs ona nə deyəcəm?

Əsədov gülümsədi:

–Bir söz tapıb deyərsiniz. Qadınlar bunu həmişə yaxşı bacarırlar.

Daha heç nə danışmadılar. Maşın şəhərin içi ilə bir qədər gedəndən sonra leytenant Əsədov qadına baxıb dilləndi:

–Fəxriyyə xanım, inciməyin, biz bəzi təhlükəsizlik tədbirləri görməyə məcburuq. Ona görə də sizin gözlərinizi bağlamalıyıq.

Fəxriyyə xanım əsəbdən doğan bir hisslə gülümsədi:

–Mənim düşdüyüm vəziyyətə baxın! Axı bu nəyə lazımdır?

–Biz mövcud təlimatlara tabeyik. İnciməyin.

–Yaxşı, bağlayın!

Əsədov cibindən çıxardığı enli, qara lentlə qadının gözlərini bağladı. Fəxriyyə xanım sanki zülmət qaranlığa qərq oldu. Onun ürəyini birdən-birə məchul bir qorxu hissi bürüdü. Başını silkələyib təlaşla:

– Axı məni hara aparırsınız? – deyə soruşdu.

Əvvəlcə onun sualına cavab verən olmadı. Maşının salonuna bir anlıq sükut çökdü. Sonra zülmət qaranlıqda yanındakı adamın sakit səsini eşitdi:

– Biz sizi on yeddi il əvvələ aparırıq...

## İYİRMİ DOQQUZUNCU FƏSİL

Saat 4-ün yarısında mayor Cavadov Məxfi şöbə rəisinin kabinetinə daxil oldu. Nə qədər möhkəm adam olsa da yorğunluğu hiss olunurdu. Bütün gecəni evə getməmiş, polkovnik Baratovla və kapitan Yusifovla birlikdə Səidin dindirilməsində iştirak etmişdi. İstintaq səhərə qədər uzanmışdı. Səid əsirlik zamanı başına gələnləri onlara danışsa da, erməni kəşfiyyatı ilə əlaqəsi, Bakıya nə üçün göndərilməsi və burada kimlərlə görüşməsi barədə heç nə deməmişdi. Ona heç bir üsul təsir etmirdi. "Heç nə bilmirəm" deyib susur, hər hansı zorakılığa əl atan kimi özündən gedirdi.

Mayor Cavadov indi şəhər təhsil idarəsindən gəlirdi. Fevralın 26-





da Xocalı parkında olmuş bir neçə müəllimlə söhbət etməliydi orada. Kapitan Yusifov da kabinetdə idi. Cavadov stolun arxasına keçib onunla üzbəüz əyləşdi. Polkovnik onun danışmağına imkan verməyib, söhbətə özü başladı:

–İşlər yaxşı getmir, Cavadov! Şəmistanla əlaqə saxlamış Volodya deyilən adamın izinə düşə bilmədik. Boz rəngli «Mersedes»in nömrələri saxta olub. Belə maşın Bakıda istədiyin qədərdir. Elə Şəmistanla danışdığı telefon nömrəsi də oğurluq imiş. Kapitan Yusifov bunu dəqiq araşdırıb. Nömrə sahibinin təşkilatla heç bir əlaqəsi yoxdur. Bax, belə!... Yusifov Xırdalandan indicə gəlib. Şəmistanın Aysu adlı kiçik qızını danışdırıb. Qız onu oğurlayıb axşamadək saxlayan adamlar haqqında önəmli heç bir məlumat verə bilməyib. O, heç həmin adamların üzünü də görməyib. Gözlərini bağladıqları üçün haraya aparıldığından xəbəri yoxdur... Belə çıxır ki, bu təşkilata rəhbərlik edən, hər kimdirsə, doğrudan da, çox hiyləgər və ehtiyatlı adamdır.

Mayor Cavadov pərt halda susub öz rəisinə baxırdı. Baratovun da yuxusuzluqdan gözləri qızarmışdı. Polkovnik sözünə ara verib bir siqaret yandırdı və müavininə baxaraq yorğun səslə dilləndi:

–Danış görək, sən neylədin...

Mayor Cavadov, adəti üzrə, hər şeyi əvvəldən danışmağa başladı:

–Cənab polkovnik, bildiyiniz kimi mən əməkdaşlarımızın Xocalı parkında çəkdiyi videokadrlara baxaraq, əlində üç qərənfil tutmuş adama ən yaxın dayanmış şəxslərin müəllim olduğunu və Bakının hansı rayonundan gəldiklərini müəyyənləşdirmişdim. Bizim əlimizdə olan kadrlarda naməlum şəxsin ətrafındakılar Binəqədi rayonunun müəllimləri olublar. Mən onlardan, hansılarının ki sifətləri aydın görünür, kimliyini müəyyənləşdirib təhsil idarəsinə çağırtdırdım. Bunların biri kişi, ikisi isə qadın idi. Bildiyiniz kimi, əlində gül tutan adamın bizim kadrlara yalnız əli və əlində tutduğu qərənfillər düşüb. Üzü isə qətiyyən görünmür. Ona görə, mən müəllimlərdən soruşdum ki, belə bir adamın, yəni əlində qərənfil tutmuş adamın yanlarında dayandığını xatırlayırlarmı? Yalnız, qadınlardan biri xatırladı bunu. Dedi ki, yaxınlıqda bir cavan oğlanın əlində gül tutduğunu görüb,

ancaq, onun sifətinə fikir verməyib...

–Bu necə ola bilər axı, Cavadov? –polkovnik səsini qaldırdı. –Əlində gül tutmuş yad adam gəlib kollektivin içində dayana, həm də azı on-on beş dəqiqə dayana, onun üzünə fikir verən olmaya? Bu, şəxsən sənin ağlına batır?

Mayor bu sualı, deyəsən, gözləyirdi və cavab verməyə hazır idi:

–Cənab polkovnik, mənim fikrimcə, erməni kəşfiyyatı Səidi Bakıya göndərərkən görüşün vaxtını ona dəqiq bildirib. Fikrimcə, onlar saat 10-u nəzərdə tutublar, çünki, qərənfillərin düşdüyü kadrlardakı saat göstəricisi 10 radələrini göstərir. Həmin şəxs, yalnız saat 10-a bir–iki dəqiqə qalmış əlindəki gülləri göstərməyə başlayıb. Həm də, mən belə düşünürəm ki, o, bir yerdə dayanmayıb, yavaş-yavaş yerini dəyişib. Ona görə də yaxındakılar onu yaxşı xatırlamırlar. Sizin kollektivlə bağlı sözünüzə cavab olaraq onu da deyim ki, orada rayonun məktəbləri bir-birlərinə qarışıblar. Yəni, demək istəyirəm ki, həmin sıxlıqda dayanmış hər hansı müəllim yanındakını tanımaya da bilər və düşünər ki, başqa məktəbin müəllimidir.

Müavininin pərakəndə danışığından, əslində, onun nə demək istədiyini yaxşı anlayan Baratov, yenə də, narazılıqla başını buladı:

–Deməli, bundan da bir şey çıxmadı...

–Cənab polkovnik, icazə verin, mən Səidi bir daha danışdırım. –bayaqdan səsini çıxarmayan kapitan Yusifov dilləndi.

–Danışdıracaqsan. – polkovnik başını fikirli halda tərpətdi. – Ancaq, əvvəl mənə qulaq asın. Biz artıq bilirik ki, iş adamı Zamir Təhməzlini gizli təşkilat aradan götürüb. Bunu Şəmistanın danışdıqları da təsdiq etdi. Amma, niyə? Bilirsiniz ki, Təhməzli yerində çoxmərtəbəli bina tikmək üçün köhnə bir məhəlləni tamamilə alıb, sakinləri oradan köçürmüşdü. Məhəllə taxta hasara alınıb və evlərin sökülməyinə başlanıbmış. Firma başçısının ölümü bu işi yarımçıq qoyub... İkicə gün sonra isə Səid Bakıya gəlib. Siz Səidin Bakıda oxuyarkən harada yaşadığını hələ də öyrənə bilməmisiniz. Universitetdəki sənədlərdə bu barədə heç nə yoxdur, qrup yoldaşı olmuş adamlar bunu bilmir, ən yaxın dostu Namiqi isə





hələ də Rusiyada axtarırsınız... Ancaq mənim haradansa ürəyimə damıb ki, Səid başqa yerdə yox, məhz həmin məhəllədə yaşayıb. Sökülməsi yarımçıq qalmış həmin məhəllədə... Gecə Leopard bu kabinetdən çıxanda bir söz dedi ki, o söz məni indiyədək düşündürür. Dedi ki, Səidə verilmiş Siçovul ləqəbi təsadüfi seçilməyə bilər. Həm də bir söz işlətdi ki, siçovul daha çox zirzəmilərdə, anbarlarda olur. Məncə, Leopard bilərəkdən, ya bilmədən, birbaşa Səidin bura göndərilməyinin məqsədini açdı. Çox ola bilsin ki, Səidi buraya hansısa gizli anbarı təxribatçı qrupa göstərmək üçün göndəriblər. Sizcə belə bir anbar harada ola bilər? – polkovnik sualına özü cavab verdi. – Əlbəttə, həmin sökülən məhəllədə. Yəqin, buradakılardan kimsə həmin məhəllədə gizli anbar olduğunu bilirmiş. Ola bilsin, dəqiq yerini bilməyib. Məhəllənin artıq sökülməyə başladığını görəndə bu barədə dərhal Ermənistana xəbər verib.

–Yaxşı, axı... – Cavadov dilləndi. – Onlar haradan bildilər ki, Səid orada yaşayıb və anbarın yerini bilir?

Baratov gülümsədi:

–Qəribə sual verirsən, Cavadov! Amma, eybi yoxdur, hamımız yuxusuzuq... Bəs səncə, erməni kəşfiyyatı niyə əvvəldən Səidi əməkdaşlığa cəlb edərək hazırlayıb? Deməli, onlar hər şeyi bilirmiş. Yəqin ki, həmin evin sahibi erməni imiş və o, əsirlikdə olan Səidi tanıyıb...

–Biz indi nə etməliyik? – Cavadov soruşdu.

–Hələ qoy Yusifov Səidi bir də danışdırsın. – polkovnik dedi. – Bəlkə, nəsə boynuna aldı... Onu da deyim ki, Səidin o vaxt sevdiyi və qrup yoldaşı olmuş Fəxriyyə xanım bu saat buradadır. Leytenant Əsədov onu təlimatlandırmaqla və Səid barədə bilgilər toplamaqla məşğuldur. Hər ehtimala qarşı, biz bu xanımı Səidlə görüşdürəcəyik. Ancaq əvvəlcə qoy Yusifov bu anbar məsələsini soruşsun Səiddən.

Kapitan Yusifov ayağa qalxdı. Cavadovun ona uzatdığı kiçik düymə boyda səsötürücü cihazı qulağında gizlətdi və kabinetdən çıxdı. Mayor Cavadov yanındakı cihazın geniş monitorunu cəld Baratovla özünün qarşısına çəkib ekranı işıqlandırdı...

Səid kameraların birində stulda oturmuşdu. Otaqda bu stuldan

başqa heç bir əşya yox idi. Divarlar da, qapı da səskeçirməyən yumşaq materialla üzlənmişdi. Bu saat bütün otaq burada quraşdırılmış gizli kamera vasitəsilə polkovnik Baratov və müavini tərəfindən müşahidə edilirdi.

Qapı açıldı və kapitan Yusifov içəri daxil oldu. Yuxusuzluqdan gözləri şişmiş Səid ona laqeydliklə nəzər salıb, ayağa qalxmadı.

–Nə qərara gəldin, Səid? – Yusifov dedi. – Bizim vaxtımız yoxdur sənin nazınla oynamağa.

–Vaxtınız yoxdur, nə bacarırsınız, eləyin! Mənim də sizə deyiləsi sözüm yoxdur. – Səid astadan dilləndi.

Kapitan birbaşa əsas mətləbə keçməyə cəhd etdi:

– Sən elə bilirsən, bizim xəbərimiz yoxdur səni Bakıya niyə göndəriblər? Hə, Siçovul? Ləqəbindən xəbərin var? Səni bura göndəriblər ki, tələbə vaxtı yaşadığın evin anbarını buradakı terrorçu qrupa göstərəsən. Bizim hər şeydən xəbərimiz var. De görək, sən həmin anbarı artıq göstərmisənmi onlara?

Səid dinmədi.

– Səninləyəm!

– Mən heç bir anbar-filan tanımıram...

– Tanıyırsan! De görüm, onu göstərmisən, ya yox?

Səid başını aşağı dikib susdu. Kapitan Yusifov artıq inanırdı ki, onun universitetdə oxuyarkən qaldığı yer də, Bakıya göndərilməsinin səbəbi də müəyyənləşib. Ona görə də Səiddən əl çəkmək fikrində deyildi. Səid isə susurdu.

–Səni gözləyirəm, Səid! Danış!

Səid birdən-birə başını qaldırıb kapitana istehza ilə baxdı:

–Nə danışım? Siz heç nəyi bilmirsiniz. Ancaq yalandan məni sorğu-sual eləyirsiniz. Mən nə anbar görmüşəm, nə də onun haqqında mənə heç nə deməyiblər. Qaldığım evdə də heç bir anbar olmayıb.

–Kimin evində qalırdın?

Səid rişxəndlə gülümsədi:

–Nə əcəb indiyədək öyrənməmisiniz bunu? Sərkisin evində qalırdım. Sonra onu Qurban adında bir ağdamlıya satıb getdi.

–Deyirsən, onun evində gizli anbar yox idi?





Səid başını buladı:

–Kapitan, lap düzünü soruşsan, siz gecikmisiniz. Mən artıq lazım olan şeyi onlara göstərmişəm. Ancaq Sərkisin yox, Aşotun evində.

–Aşot kimdir? – Yusifov soruşdu.

–Həmin məhəllənin o biri başında olurdu. Qızı ilə tanış idim. Hərdən bizim həyətə gəlib-gedirdi. Mən də evlərində olmuşdum. Mənə demişdilər ki, Aşotun həyətindəki köhnə tualetin yerini göstərim buradakılara. Sonradan o, tualetin yerini dəyişmişdi. Fevralın 27-sində iki nəfərlə görüşüb ora getdik. Aşotun evi artıq sökülmüşdü. Ancaq heç nəyi yığışdırmamışdılar. Mən deyilən yeri təxmini göstərdim. Həmin adamlar oranı eşələyib daşların arasından bir dəmir qutu tapdılar və onu götürüb apardılar. Vəssalam! Mən bundan başqa heç nə bilmirəm. Heç o qutuda nə olduğundan da xəbərim yoxdur...

Kapitan Yusifov yaman pərt olmuşdu:

–Həmin qutu nə boyda idi? – deyə sual verdi.

–Bu boyda... –Səid əli ilə göstərdi. – Uzunluğu yarım metr olardı, enləri də iyirmi-otuz santimetr. Onu qalın divarın arasında gizlədiblərmiş...

–Ağır idi?

–Hə. Adamlardan biri güclə götürdü.

–Yaxşı... –Yusifov daha deməyə söz tapmırdı. – Sən o adamlar barədə, onlarla bir daha necə əlaqə saxlayacağın barədə bizə heç nə deməyəcəksən?

–Yox! –Səid başını buladı.

– Niyə axı?!

– Çünki, mən özüm də heç nə bilmirəm.

– Necə yəni, bilmirsən? – kapitan əsəbləşdi. – O adamlar kimdir? Səninlə necə əlaqə saxlayacaqlar? Harada və necə görüşməlisiniz?

Səid bir qədər bədbinləşdi:

–Bunu vaxtı gələndə özünüz biləcəksiniz. Mən heç nə bilmirəm.

–Haradan biləcəyik? –Yusifov təəccübləndi.

– Necə yəni, haradan biləcəyik? Məni tutub salmısınız buraya, yerimə də bir vəhşiyə oxşayan adamınızı göndərmisiniz, daha nə

istəyirsiniz məndən?

– Səndən onu istəyirik ki, birdəfəlik bizimlə adam kimi danışasan. Bizə kömək edəsən ki, Bakıdakı gizli təşkilatı ələ keçirək. Anladın? Onlar burada sənin dövlətinin, millətinin əleyhinə iş aparırlar.

– Mənim nə dövlətim var, nə də millətim...

– Gözündən gəlsin dövlətin sənin üçün elədikləri!

Səid birdən-birə yerindən sıçrayıb dəli kimi çığırdı:

– Nə eləyib mənim üçün dövlət? Nə eləyib?! Oxudurdu, o da yarımçıq qaldı. Atam öldü, bacım öldü, anam əsirlikdədir. Kimim var daha mənim? Xocalı qan içində çabalayanda harada idiniz?

– Bu tamam başqa söhbətin mövzusudur.

– Sərf eləmir, hə?

– Səsini kəs, axmaq! – Yusifov onu sillə ilə vurdu. Sonra isə büdrəyib divara söykənən Səidi stulda oturtdu. – Otur yerində! Qara-qışqırıq salma burda! Sən Azərbaycana gizlincə, saxta sənədlə gəlmisən. Gəlmisən ki, təxribatçılara qoşulub dövlətin əleyhinə fəaliyyət göstərəsən. Bir günahsız ailəni qətlə yetirmisən. Sən qatilsən! Vətən xainisən! Hələ bir kimlərisə də günahlandırırsan, itin biri it!

Səid acı istehza ilə güldü:

– Vurun! Söyün! Gücünüz mənə çatar indi. Çünki əlinizdəyəm. Amma, gec-tez, ermənilər hamınızı qıracaq. Qırılmalısınız siz hamınız!

Yusifov əlini hirslə yana açdı:

– Daha sənin ermənilərdən nə fərqin varmış ki!? Deyəsən, orada yaxşı baxıblar sənə?

Səid yenə dəli kimi çığırdı:

– Məndən nə istəyirsiniz?!

– İstəyirik ki, buradakı xain qrupu ələ keçirməyə bizə kömək edəsən.

– Axı sizə dedim ki, bunu bacarmaram. Anam qalıb orada! Neçə dəfə təkrar edim bunu? Anam! Başa düşürsən?! Anam! Anam!!

– Anqırma, eşitdik! – Yusifov da səsini qaldırdı.





Səid birdən sakitləşib ona yalvarmağa başladı:

– Xahiş edirəm, yalvarıram, güllələyin məni! Güllələyin, sonra da televizorda elan edin bunu. Qoy hamı eşitsin.

Yusifov kinayə ilə başını yellədi:

– Yaman çox bilirsən. İstəyirsən ki, sənin onları satmadığını bilsinlər, hə? Yox, Səid, biz elə etməyəcəyik. Həm də, ölüm hökmü çoxdan götürülüb bizdə. Səni burada saxlayacağıq. Təşkilatınız biləndə ki, tutduğun mənzildə bizim adam qalır, ünvanı verdiyini, bizim tərəfimizə keçdiyini düşünəcəklər. Sonra da ananı öldürəcəklər.

Səid yalnız bircə anlıq duruxdu. Sonra başını qaldırıb Yusifova baxdı:

– Məni uşaq hesab eləmə, kapitan! Nə də onları avam hesab eləmə. Onlar bilir ki, mən sizin tərəfinizə keçsəm özüm gedib qalaram o mənzildə. Sonra da sizi onların izinə salaram.

Yusifov dayanıb Səidin əzabdan qırışıb yaraşığını itirmiş sifətinə, vaxtından əvvəl ağarmış saçlarına baxdı. Nəsə demək istəyirdi ki, qulağına qoyduğu mikrocihazdan Baratovun hirsli səsini eşitdi:

– Yusifov, tez bura gəl!

Kapitan Yusifov kameradan çıxıb rəisin kabinetinə gələndə leytenant Əsədovun da içəridə olduğunu gördü. Polkovnik ona, nədənsə, acıqlı nəzərlərlə baxıb oturmağını əmr etdi. Sonra isə əsəbi halda danışmağa başladı:

– Əgər biz bu əbləhə inansaq, belə çıxır ki, o qutuda ya qiymətli qaş-daş, ya da vacib sənədlər olub. Deməli, onlar yenə bizi bir addım qabaqladılar. Biz Səidi təcili olaraq öz tərəfimizə çəkə bilməsək, işin axırı çox pis qurtaracaq bizim üçün. Ancaq, onun sözlərinə o qədər də inanmaq istəmirəm. Sabah səhərdən həmin məhəllədə pusqu təşkil edin! Qoy gecə-gündüz növbə ilə bir nəfər adamımız gizlənsin orada. Çalışsın ki, gözə görünüb kimlərisə şübhəyə salmasın. Aydındır?

Polkovnik bu sözləri deyəndə üzünü Yusifova tutmuşdu. Ona görə də kapitan cəld dilləndi:

– Bəli, cənab polkovnik!

– Bir də... – Baratov davam etdi. – Şəmistanın noutbuku ilə

telefonunu mənzildə gizlənmiş Canavara çatdırın. Qoy, bu şeyləri Lalə aparsın ona. Bina və binanın ətrafı ciddi nəzarətiniz altında olsun!

– Oldu!

Polkovnik üzünü bayaqdan ayaq üstə dayanıb əmr gözləyən leytenant Əsədova tutdu:

– Deyirsən ki, qadını hərtərəfli başa salmısan?

– Bəli, cənab polkovnik! – Leytenant cavab verdi.

– Qulağında səsötürücü var?

– Bəli.

– Aparın, salın içəri!

–Oldu, cənab polkovnik!

Leytenant Əsədov kabinetdən çıxan kimi Baratov acıqlı səslə dilləndi:

– Leopard bizim bütün planlarımızı alt-üst etdi. Belədə deyirlər ki, bir dəli quyuya daş atdı, yüz ağıllı yığılıb onu çıxara bilmədi. Bu tərs oğlu tərsi yola gətirə bilməsək, doğrudan da, işimiz çətin olacaq.

Sonra hər üçünün nəzərləri monitora dikildi. Fəxriyyə xanım bir azdan Səidin saxlandığı kameraya daxil olacaqdı...

## OTUZUNCU FƏSİL

Səid stulda oturub, başını əlləri arasına alaraq fikrə getmişdi. Bayaq kapitan Yusifova uydurub danışdığı yalan haqqında düşünürdü. Görəsən, inandılarmı?... Amma, inanmayıb yoxlasalar, öyrənəcəklər ki, həmin məhəllədə, doğrudan da, Aşot adlı erməni yaşayıb. Doğrudan da, onun qızı olub. Bir də görəcəklər ki, artıq, həqiqətən, Aşotun evi sökülüb...

Bunu fevralın 27-də həmin məhəlləyə gedib, o vaxt kirayədə qaldığı həyətdə, yəni vaxtilə Sərkisin olmuş həyətdə təbaşirlə divara





əl boyda bir gül şəkli çəkən Səid öz gözləri ilə görmüşdü. Məhəllə tamam hasara alınmış, evlərin az bir hissəsi artıq sökülmüşdü. Həyətlərdə və evlərin qır basılmış damlarında ancaq sahibsiz pişiklər gəzib-dolaşırdı.

Görəsən o vaxt Sərkisin söküb, yerini daşla çəkdiyi kiçik dəmir qapı hara açılırmış? Onda Sərkisə bu işdə Səid özü kömək etmişdi və qapı barədə soruşanda, Sərkis ona, belə çıxır ki, yalan uydurub demişdi. Demişdi ki, guya bu həyətin bir hissəsi qonşunun olub və bu qapı da onun zirzəmisinə açılıb. Guya, artıq bu qapı heç yerə açılmırmış və o biri tərəfini qonşu tutubmuş... Yadında idi, sonra Sərkis həyətin iç divarlarını başdan-başa sementlə suvatdırdı. Deməli, indi məlum olur ki, qapının izini itirmək üçün edib bunu. O işdən sonra,heç dörd ay çəkmədi, Sərkis yığışıb getdi Bakıdan.

İndi, belə çıxırdı ki, o qapı gizli bir anbara açılırmış. Harada yerləşə bilərdi o anbar? Əlbəttə, o biri həyətdəki qonşunun evinin altında... Dayan görüm, kimlər yaşayırdı qonşu həyətdə?... Hə, yadına düşdü. O gombul kişi... Rayon prokurorunun müavini idi, deyəsən. Bir yaxşı oğlu da var idi...

Görəsən, nə var o anbarda? Xəzinə, ya silah? Ya elə hər ikisi?... Ancaq, Sərkis ona həmişə deyirdi ki, azəri türklərini çox sevir. Deyirdi ki, burnunun ucu göynəyir Bakıdan ötrü. Vay, sənin atana lənət, yalançı köpək oğlu!

Onu Bakıya göndərəndə bu anbar barədə heç nə deməmişdilər. Fevralın 26-da həmin uşağın gətirdiyi polis paltarının arasından çıxan məktubda yazılmışdı hər şey. Yazılmışdı ki, bu paltarı geyinib, axşam göstərilən ünvana getməli, mənzildə yaşayan ailəni, yəni kişini, arvadını, iki qızını qətlə yetirməlidir. Ancaq, sən demə, həmin ailə köçübmüş oradan. Yerində başqa ailə yaşayırmış...

Həmin məktubda kirayədə qaldığı o vaxtkı həyətə gedib, Sərkislə suvadığı qapının yerinə gül çəkmək əmri də vardı. Hələ balaca bir təbaşiri də kağıza büküb paltarın arasına qoymuşdular. Sonra bir ünvan da yazıb bildirmişdilər ki, qətli törətdikdən sonra bu ünvana getsin. Həmin mənzilin açarını da qoymuşdular torbaya.

Hə, bir də yazmışdılar ki, onunla ilk görüş «Nizami» metrosunun

qarşısındakı meydançada olacaq. Ancaq, görüşün vaxtı, saatı barədə heç nə yazmamışdılar. Yalnız yerini yazmışdılar: «Nizami» metrosunun qarşısındakı meydançada...

Ancaq, yaxşı ağlına gəldi bu kapitanı aldatmaq. Yoxsa, deyəsən, artıq nəsə öyrəniblərmiş bunlar. Sərkisin həyatindəki anbarı tapsalar, gizli təşkilat o saat Səidin satıldığını düşünəcək. Sonra isə Ermənistanda anasını dəhşətli əzablarla öldürəcəklər...

O bədbəxt ailəni qırmağı yadına düşdü. Məktubda həmin göstərişi oxuyanda dəhşətə gəlmişdi. Ömründə bir nəfər də olsun adam öldürməyən Səid indi bir ailənin axırına çıxmalıydı. Torbadan çıxardığı tapançanı və səsboğanı əlinə alıb xeyli fikrə getdi. İstədi ki, imtina eləsin bu işdən. Ancaq, dərhal anası yadına düşdü. İrəvanda ona göstərilən tükürpərdən kadrları xatırladı. Biləndə ki, anasının bundan sonrakı taleyi ondan, əlindəki bu tapançadan asılıdır, ürəyinə daş bağlamağa çalışdı və qərara gəldi ki, göstərişi yerinə yetirəcək.

Sonra uşaq vaxtı qəddarcasına öldürdüyü pişik balası düşdü yadına. O heyvanı da anasına görə, anasının sözü ilə öldürmüşdü. Sonra anası da peşman oldu buna, özü də. O pişiyin qarğışı bu günə qədər əl çəkmədi Səiddən, qarabaqara izlədi onu. Bunu yadına salanda tərəddüd eləməyə başladı.

Daha sonra, yenə də ot tayasına bağlanıb diri-diri yandırılan o yaşlı qadını yadına saldı. Anasını onun yerində təsəvvür elədi və özünə qəti söz verdi ki, ona deyilən işi yerinə yetirəcək. Onsuz da həmin bu ailə, Səidlə anası əsirlikdə it əzabı çəkəndə, Allah bilir, nə keflərlə məşğul imiş. Qoy qırılsınlar, dedi. O, anasını Vətəninə güzəştə getmirdisə, ayri-ayrı adamlara heç satmayacaqdı. Qoy ölsünlər!

Ev sahibi qapını açıb Səidi içəri buraxan kimi qapını örtüb, pencəyinin altından çıxardığı tapança ilə onu vurdu. Düz sinəsindən... Kişi yerə yıxılan kimi gözlərini qan tutdu Səidin. Ondan sonra lap yüz adamı da beləcə vura bilərdi...

Səid diksinib xəyaldan ayrıldı. Başını dəli kimi silkələyib bir də baxdı. Gözlərinə inana bilmirdi. Yəni bu, doğrudanmı o idi?...

Ayağa qalxdı. Ağzını açıb-yumsa da əvvəl heç nə deyə bilmədi.





Sonra səsi açıldı:

– Fəxriyyə?!

Fəxriyyə də sarsılmışdı. Ayaq üstə durub heyrətlə Səidə baxırdı. Özüylə gətirdiyi stulu yerə qoymaq da yadına düşmürdü. Baxmayaraq ki, kiminlə görüşəcəyini ona demişdilər, amma yenə də keçmiş sevgilisini çətinliklə tanıdı.

– Bu sənsən, Səid?!...

– Çox dəyişmişəm, hə? – Səid bir qədər özünə gəlib, ağır-ağır stula çökdü.

Fəxriyyə xanım da əlindəki stulu yerə qoyub əyləşdi. Kamerada onlardan başqa heç kəs yox idi. Səidin üzündə yavaş-yavaş narazılıq ifadəsi yaranırdı:

– Səni niyə gətirdilər buraya?

– Mənə dedilər ki... – qadın özünü itirmişdi.

– Dedilər ki, mən vətən xainiyəm, hə?

– Yox...

– Sən Bakıda olursan?

– Hə.

Səid, sanki, yad bir adamla danışırdı. Fəxriyyə bu on yeddi ildə bir az yaşlaşsa da, bədəncə iriləşsə də gözləri həmin gözlər idi. Ancaq, Səid o vaxt ürəyində Fəxriyyə adlı qıza bəslədiyi hisslərin yüzdə birini duymurdu indi.

–Ərdəsən, yəqin ki?

–Hə... – Fəxriyyə bunu çətinliklə dedi, bir az.

–Kimdi?

–İkram...

–İkram? –Səidin üzündə ancaq təəccüb oxundu. – Həmin İkram?

–Hə... Sənin öldüyünü düşünürdük.

–Kaş öləydim. – Səid başını aşağı dikdi. – Xocalıların ən bəxtəvərləri elə ölənlər oldular.

–Sizə çox işgəncə verirdilər?

–Sən bilən, insana verilən ən böyük işgəncə nə ola bilər?

–Nə bilim... – Fəxriyyə dərdli halda çiynini çəkdi. – Deyə bilmərəm.







–Heç mən də deyə bilmərəm. Çünki onlar ən dəhşətli hesab etdiyin, ən çox qorxduğun işgəncədən sonra düşünüb eləsini tapırlar ki, əvvəlkini arzu edirsən.

–Yazıqlar... – Fəxriyyə ürəkdən ah çəkdi. Hiss olunurdu ki, onun Səidə, doğrudan da, yazığı gəlir.

–Uşaqların var? –Səid söhbəti dəyişdi.

–Hə. – qadın özündən asılı olmayaraq gülümsədi. –Biri oğlandı, biri qız.

–Allah saxlasın!

–Bəs sənin? –Fəxriyyə bunu, deyəsən, qeyri-ixtiyari soruşdu.

Səid acı-acı güldü:

–Oyunun olsun sənin! Deyirsən, məni evləndiriblər də orada?

Fəxriyyə əməlli-başlı pərt oldu:

– Bağışla, sən allah, Səid! Özüm bilmədən çıxdı ağzımdan. Başımı itirmişəm. Daha, şükür ki, qayıdıb gəlmisən. Bizim qovuşmağımız mümkün olmasa da, biriylə evlənərsən, uşaqların olar, inşallah! Nə yaşın var ki, hələ!

Səid möhkəm tutuldu. Bunu Fəxriyyə də hiss edib, nəsə yaxşı danışmadığını anladı. Və tez də söhbəti dəyişməyə çalışdı:

–Anan sağdır?

–Hə... –Səid köksünü ötürdü. – Əsirlikdə olana sağ demək mümkündürsə.

Fəxriyyə xanım Səidin üzünə düz-əməlli baxa bilmirdi. O cür yaraşıqlı oğlan nə hala düşmüşdü, İlahi! Üz qırışmış, gözlər çuxura düşmüş, sifətində yanıq izi, saçının çoxu ağarmış... Hiss edirdi ki, Səid də üzünü, gözlərini ondan gizlətməyə çalışır.

–Səid, sən bunların dediklərini elə. – dedi. – Vallah, hər şey yaxşı olacaq.

–Anamsız nə yaxşı olacaq? – Onsuz da öz düşdüyü vəziyyətə görə qanıqara olan Səidi qadının qeyri-səmimi danışığı bir az da əsəbləşdirirdi.

–Ananı da xilas edərlər.

Səidin qırışmış üzündə yenə istehza göründü:

–Mənə görə? Kiməm ki mən? Bir it qədər qiymətim yoxdur

mənim. Ya anama görə? Neynirlər onu? Lazım olsaydı, vaxtında xilas edərdilər.

–Yəqin imkan olmayıb, Səid. İmkan olsaydı, kim razı olardı millətinin qadını düşmən əlində qalsın? Ən böyük dövlətlər durub bu qansızların dalında. Hamı onları müdafiə edir.

Səid cavab vermədi. Tələbəlik illərini xatırlamaq istəyirdi. Bu Fəxriyyəni necə sevirdi o zaman! Amma indi... İndi, nədənsə, yad görünürdü ona Fəxriyyə. Çox yad görünürdü.

–Yadındadı o illər, Səid?

–Hansı illər? –Səid xəyaldan ayrıldı.

–Tələbəlik illərimiz.

–Bir müddət hər gün xatırlayırdım. Sonra xatirələrimi də aldılar əlimdən.

Yenə susdular. Söz tapmırdılar danışmağa. Heç biri sevinməmişdi bu görüşə. İkisi də tez qurtarmağını arzu edirdi bu işgəncənin.

Fəxriyyə xanım qulağındakı mikroqəbuledicidən mayor Cavadovun səsini eşitdi:

–Bir az mehriban olun, əlini tutun, Fəxriyyə xanım!

Qadın istər-istəməz əlini uzadıb Səidin əlindən tutdu.

–Səid...

Səid böyük təəssüf hissiylə anladı ki, bir vaxt sevmiş olduğu bu gözəl qadının əlinin təması onda heç bir hiss doğurmur. Hətta, kişi əliylə qadın əlinin də heç bir fərqi yox idi onun üçün. Ehtiyatla əlini çəkdi.

–Nədi?

–Sənə nə deyirlər, onu elə, Səid. Mənə görə, xalqına görə...

–Boğazdan yuxarı danışma, Fəxriyyə! –Səid açıq narazılıqla dilləndi. – Maşallah, görürəm, sənin də günün pis keçmir, elə xalqın da. Kefdəsiniz hamınız. Küçələrdən keçəndə görürdüm hər şeyi. Heç, elə bil, Xocalı adında bir torpağı olmayıb bu xalqın. Nə də Kəlbəcər, Laçın, Cəbrayıl, o birilər adında. Hamı pul qazanmağın yollarını axtarır. Ancaq, orada mənim anam qalıb. Həm də, mənim özümü necə aparmağımdan asılıdır onun halı...

–Yenə də Vətəninə görə...





–Lazım deyil, Fəxriyyə! –Səid üz-gözünü turşutdu. – Dur get! Sənin gördüyün Səid çoxdan ölüb. Mənim nə vətənim var, nə xalqım, nə millətim... Dur get!

Fəxriyyə xanım nə edəcəyini bilmədi. Amma elə bu zaman qulağına Baratovun sərt səsi gəldi:

–Çıxa bilərsiniz!

Ayağa qalxıb:

–Sağ ol, Səid! – deyərək çıxmaq istəyəndə Səidin üzündə xoşagəlməz bir rişxənd gördü.

Səid:

–Yaxşı yol, Fəxriyyə! – dedi. – Demişdin on yeddi ildən sonra da qayıtsan gözləyəcəm. Bax, düz on yeddi ildən sonra qayıtdım. Ha-ha-ha!...

O, lap dəli kmi gülürdü. Qorxmuş Fəxriyyə otaqdan çıxıb cəld qapını örtdü.

## OTUZ BİRİNCİ FƏSİL

Axşam saat səkkiz olmuşdu. Ələmdar idman klubundakı kabinetində kresloya yayxanıb televizora baxırdı. Ayaqlarını qaldırıb qarşısındakı alçaq masanın üstünə qoymuşdu. Evə getməyə, qətiyyən, tələsmirdi. Bilirdi ki, gedən kimi anası yenə də yerli-yersiz Reyhanəni səsləyəcək:

– Reyhanə, Ələmdar gəldi, gəl onun yeməyini ver!

– Reyhanə, Ələmdardan soruş, çay istəyirsə, çay ver!

– Reyhanə, Ələmdardan soruş, yuyulmalı paltarı varsa, yu!

Klubda ondan, Orxandan, bir də şagirdi olmuş və bir neçə ay əvvəl işə götürdüyü kinqboksinq məşqçisi Şamildən başqa heç kəs qalmamışdı. Orxanla Şamil də, yəqin ki, indi getməyə hazırlaşmışdılar. Klubdan çıxanda gəlib xəbər verəcəkdilər.

Qapı döyüldü. Şamil başını içəri salıb öz köntöy səsiylə:

– Qədeş, Ayçöhrə adında bir qız gəlib, səni istəyir. – dedi.

Ələmdar cəld yerindən sıçradı:

– Ayçöhrə?

– Hə!

– Orxanı gördü o?

– Yox.. – Şamil təəccüblə çiynini çəkdi. – Orxan qızı görən kimi gizləndi.

– Gətir bura!

Şamil getdi və bir dəqiqə sonra qırmızı idman kostyumunda olan Ayçöhrə ilə qayıtdı. Qız yaman həyəcanlı görünürdü.

– Ayçöhrə?! – Ələmdar heyrətini açıq biruzə verdi. – Sən burada neyləyirsən?

– Mənə on manat borc verə bilərsən? – Ayçöhrə salamsız-kəlamsız dilləndi və özündən asılı olmayaraq Ələmdara ilk dəfə «sən» deyə müraciət etdi.

– Nə olub axı?

– Taksi ilə gəlmişəm. Üstümdə pul yoxdur.

– Hə, bu saat!

Ələmdar cibindən on manatlıq pul çıxarıb, qapının ağzında dayanmış kinqboksinq məşqçisinə uzatdı:

– Sürücüyə ver, qoy getsin!

– Baş üstə!

Şamil gedən kimi Ələmdar əyləşmək üçün Ayçöhrəyə divanda yer göstərdi:

– Əyləş görüm, haradan gəlirsən, nə baş verib?

Ayçöhrə, doğrudan da, yaman həyəcanlı idi. Yaxşı danışa bilmirdi.

– İndi deyəcəksən ki, tanış olduğumuz iki gündür, bu qız özünü belə aparır... Amma, nə qədər fikirləşdim, yanına getməyə səndən başqa adam ağlıma gəlmədi.

Qızın ayaqqabıları da, qırmızı şalvarının ətəkləri də toza-torpağa bulaşmışdı. Saçlarını necə gəldi bağlayıb kürəyinə atmışdı. Həyəcanlı olduğu üçün qabarıq sinəsi yaxası açıq idman gödəkçəsinin





altından geydiyi ağ rəngli köynəyinə sığmır, hey qalxıb-enirdi. Ələmdar keçib divanda, qızın yanında oturdu:

– Birdən məni burada tapmayaydın? Saat səkkizi keçib.

– Dedim, kimisə görərəm burada, telefonunu öyrənərəm...

– Axı nə olub?

– Dünən axşam birdən qapımız açıldı. Üç polis içəri girdi. Dedilər ki, bizimlə getməlisiniz. Həmin vaxt işıqlar da söndü. Bizi qaranlıqda həyətdən çıxarıb maşınlara mindirdilər. Maşının işığını yandıranda atamı yanımızda görmədim. Bizi, harasa, uzağa aparıb maşından düşürdülər. Bir həyətdə idik. Sonra bizi ikimərtəbəli bir evin ikinci mərtəbəsindəki otaqlardan birinə saldılar. Anama baxmaq üçün həkim də gətirmişdilər. İnan ki, heç nə anlaya bilmirəm. Telefonlarımızı almışdılar, bu otaqda da telefon işləmirdi. Sonra televizora baxanda bir xəbər eşitdim. Dedilər ki, guya, bir qatil evimizə girib, bizim dördümüzü də öldürüb... Təsəvvür edirsən, nə hala düşdüm? Gecə gözümə yuxu getmədi. Bu gün də... Bir az əvvəl birtəhər imkan tapıb oradan qaçdım. Küçədə taksi saxladım. Sürücüdən öyrəndim ki, ora Xırdalan imiş. Qorxudan evimizə getmək istəmədim. Maşını bura sürdürdüm. Dedim, bəlkə, sən bir məsləhət verə bilərsən mənə. Hə, bir az əvvəl, bizi ora aparanların böyüyü gəlmişdi. Aysunu danışdırdı. Sənə demişdim axı, onu oğurlamışdılar. O barədə sorğu-sual elədi... İndi neyləyim, Ələmdar? Atamdan ötrü çox narahatam. Onu hara aparıblar, görəsən?...

Ayçöhrə bütün bunları birnəfəsə danışıb, dayandı. Deyəsən, boğazı qurumuşdu. Bunu anlayan Ələmdar qalxıb ona su gətirdi:

– Al iç, özünü ələ al! Sən qoçaq qızsan, axı. Təmkinli ol, bu saat bir şey fikirləşərik.

Ayçöhrə suyu alıb içdi. Titrəməsi hələ də kəsilməmişdi. Saçlarının bir hissəsi pərakəndə halda üzünə tökülmüşdü. Ürkək nəzərlərlə otağa tamaşa edirdi. Ancaq, Ələmdar özlüyündə düşündü ki, zalımın qızı hər bir halında işıq saçır. İlıq bir işıq. Elə işıq ki, adamın içinə dolub, qəlbində səbəbi bilinməyən bir sevinc yaradır, həm də isindirir adamı.

– Sənə soyuqdur? – deyə soruşdu.

– Yox, bura yaxşıdır.

– Sən dincəl, özünə gəl, mən polisdə işləyən bir dostuma zəng vuracam. Qoy öyrənsin görək, sizin başınıza gələn bu iş nədir.

– Yaxşı... – Ayçöhrə başını mütiliklə tərpətdi.

Ələmdar kabinetdən çıxıb aşağı endi. Məşqçilər foyedə dayanmışdılar. Cibindən pul çıxarıb Şamili yaxına çağırdı:

– Al bu pulu, get bizim üçün həm indiyə, həm də sabaha yemək al. Hə, bir də bu qız üçün lazım olan vacib şeyləri. Diş fırçası, hamam dəsmalı, əl-üz dəsmalı... – birdən dayandı. – İndi ancaq ərzaq mağazaları açıq olar, hə?

– O nə sözdü, qədeş, taparam. – Şamil dedi. – Olmaz, gedib evdən gətirərəm təzəsini.

Pulu alıb cəld hərəkətlə klubdan çıxdı. Ələmdar əlində saxladığı telefonla kapitan Yusifova zəng vurdu.

– Bəli, cənab mayor! –kapitanın səsində narahatlıq hiss olunurdu.

– İşlər necədir? –Ələmdar əvvəlcə özünü o yerə qoymadı.

– Pis! Çox pis! Qız qaçıb. Şəmistanın böyük qızı.

Ələmdar gülümsədi:

– Polkovnikin xəbəri var bu işdən?

– Hə, əlbəttə! Dərhal xəbər verdik.

– Nəzarətçi qoyanda daha bacarıqlı uşaqlardan qoymaq lazım idi. Amma, daha keçdi. Qız mənim yanımdadı. Rəisə də xəbər ver, rahat olsun.

– Oldu, cənab mayor! Gəlib onu götürək?

– Sən nə danışdığını bilirsən, kapitan? Buraya gəlsəniz, məni ifşa etməzsiniz?

– Hə... Düzdür. – Yusifov, deyəsən, pərtləşdi. – Axı o sizin yanınıza niyə gəlib?

– Bu, artıq, onun şəxsi işidir. – Ələmdar ciddiləşdi. – Siz çalışın, o əclafı tez yola gətirin, bu işlər yoluna düşsün. Sağ ol!

Telefonu qapadı. Kənarda əmrə müntəzir dayanmış Orxana baxdı. Foyedə bir qədər gəzişib qıza nə deyəcəyi barədə fikirləşdi. Nəhayət, qəti qərara gəlib cəld addımlarla pilləkəni qalxdı. Kabinetə girən kimi Ayçöhrə ayağa qalxdı.





– Nəsə öyrəndin?

– Öyrəndim. – Ələmdar kresloda oturdu. – Əyləş! Bu, ciddi sirr olsa da, dostum məndən gizlətmədi. Mən də sənə etibar etdiyim üçün danışacam. Mənzilinizi satdığınız ailənin qətlə yetirildiyini bilirdin?

– Hə! – təzədən divanda əyləşən Ayçöhrə narahatlıqla dilləndi.– Buna görə atamı da tutmuşdular. Sonra günahsız olduğunu görüb buraxdılar.

– Bilirsən nə var, Ayçöhrə, o ailəni səhvən aradan götürüblər. Əsas hədəf sizin ailə imiş. Mənzili satıb köçməyinizi bilmirmiş qatillər.

– Necə?! – Ayçöhrə əlini həyəcandan səyriyən dodaqlarının üstünə qoydu. – Bizi niyə öldürmək istəyirlər?

– Daha dostum işin orasını demədi mənə. Polis başa düşüb ki, səhvini anlamış qatil sizin yeni ünvanınıza gəlməlidir. Pusqu qurublar. Qatil, doğrudan da, gəlib. Amma,onu həyatinizə girəndə həbs ediblər. Sizi isə ona görə evdən çıxarıb gizlədiblər ki, qatili oraya göndərənlər onun tapşırığı yerinə yetirdiyini zənn etsinlər. Televizorda da buna görə veriblər həmin məlumatı...

– Bizim günahımız nədir, axı?! – qız təlaş içində soruşdu.

Ələmdar mehribanlıqla gülümsədi:

– Mən kiməm ki, bu sualı mənə verirsən? Bir də ki, sən sevinməlisən. Sevinməlisən ki, polis sizi ölümdən qurtarıb.

– Sağ olsunlar, əlbəttə... – Ayçöhrə astadan dedi və yenə qəfil soruşdu: – Bəs atam? Atam haradadır?

– Yəqin onu danışdıracaqlar. Cinayətkar qruplaşmanı ələ keçirə bilmək üçün.

– Mən heç nə anlamıram... – qız dalğın halda başını yellədi. – Atam ömrü boyu halal çörək yeyib. Kiminsə toyuğuna da daş atmayıb. Onun cinayətkarlarla nə işi ola bilər?

– Atanı çox sevirsən?

– O nə sözdür? Canım qurban olsun ona!

Ələmdar fikrə getdi. Xəyanət deyilən şeydən çox-çox uzaq olduğu gözlərindən oxunan bu qız, valideynlərini dərin məhəbbətlə sevən övlad, atası haqqında həqiqəti biləndə nə edəcəkdi, görəsən? Onun

nur saçan gözəl üzünə dərd-qəm yaraşmırdı axı...

– İndi de görüm, az da olsa rahat oldun, ya yox?

– Çox sağ ol! Bir az sakitləşdim. Yəni, bildim ki, bizi oraya aparan həqiqətən polisdir və atam sağdır. Yoxsa, ürəyimə yüz fikir gəlirdi. Amma, həm də bir az qorxutdun məni. Axı ailəmizi niyə öldürmək istəyirlər?

– Darıxma, o adamlar həbs olunacaq, siz də rahatlığa çıxacaqsınız. Ancaq sən oradan qaçmaqla, az qala, polisin əməliyyatını poza bilərdin. Səni görən oldu tanışlardan?

– Yox... –Ayçöhrə udqundu. – Heç kəs görmədi. Lazımdırsa, indi qayıdaram.

– Evin yeri yadında qaldı?

– Yox... –Qız əməlli-başlı tutuldu. – Xəlvət yerdə idi. Küçəyə çıxıb taksi saxlamaq üçün torpaq yollarla bir-iki dəfə sağa-sola buruldum.

– Bax, görürsən? Sən oranı tapa bilməzsən daha.

– Anam narahat olacaq. Həm də xəstə vəziyyətdə...

Ələmdar ona ürək-dirək verməyə çalışdı:

– Dostumla bir də danışaram, o bu işi yoluna qoyar. Anangilə xəbər verər. Deyər ki, atanın yanındasan. Ancaq, sən hələ ki, bu gecə burada qalmalı olacaqsan. Narahat olma, hər cür şərait var. İstəsən, duş da qəbul edə bilərsən. Bir azdan birlikdə yemək də yeyərik.

– Sən evə nə vaxt gedəcəksən? – Səsindən hiss olunurdu ki, qız gecəni burada tək qalmaqdan qorxur.

– Belə əziz qonağı tək qoyub evə gedə bilərəm?

–Anan narahat olacaq axı!?

– Anam mənim hərdən burada gecələməyimə öyrəşib. Mən də onun söyüşlərinə. Sən narahat olma, əyləş, televizora bax, bu saat gəlirəm.

Otaqdan çıxdı. Dəhlizdə də, birinci mərtəbədəki foyedə də gur işıqlar yanırdı. Aşağı enib yenə Yusifova zəng vurdu:

– Elsevər, sən adamlarına tapşır, o qadına təskinlik versinlər. Desinlər ki, qızı atası ilə əminlikdədir.

– Oldu, cənab mayor, tapşıraram.





– Rəis bildi qızın mənim yanımda olduğunu?

– Bəli, dedim.

– Nə dedi eşidəndə?

Yusifov cavab verməyib güldü.

– Səndən söz soruşuram, kapitan!

– Dedi ki, biz burada nə haydayıq, Leopard isə yeni məhəbbət macərası başlayıb.

– Yox canım, elə deyil. – Ələmdar duruxdu. – Bu qız, sadəcə, köhnə tanışımdır.

– Siz bilərsiniz. Mənə dəxli yoxdur.

– Yaxşı, sağ ol, Elsevər!

Telefonu qapayıb yenə foyedə gəzişməyə başladı. Orxan görünmürdü. Yəqin, oz otağına çəkilmişdi. Baratov nə deyir desin, Ələmdar Ayçöhrədən əlini çəkib onu çətinliklər içində buraxmaq istəmirdi. Çox xoşuna gəlmişdi bu qız və hiss edirdi ki, qız da ona qarşı laqeyd deyil. İndiki vəziyyətindən də olduqca razı idi. Ayçöhrə kimi qızın bu saat onun yanında olması Ələmdarın ürəyində qəribə, bu vaxtadək duymadığı şirin bir həyəcan yaradırdı.

Şamil klubun qapısını açıb içəri girdi. Əlində iki torba var idi. Ələmdar torbaları alıb ona təşəkkür etdi və:

– Daha siz gedə bilərsiniz. – dedi.

Şamil Orxanı çağırdı. Ələmdara xeyirli gecə arzulayıb klubdan çıxdılar. Ələmdar foyenin işıqlarını söndürüb alaqaranlıq pilləkənlə ikinci mərtəbəyə qalxdı. Otağa girib torbalardan birini divanın üstünə qoydu:

– Bunlar sənindir.

Ayçöhrə torbanı aralayıb baxdı. Deyəsən, yaman utanmışdı.

– Niyə belə zəhmət çəkirsən?

– Heç bir zəhməti yoxdur. Sən mənim qonağımsan.

Əlindəki o biri torbanı qonşu otağa apardı. Şamil yaxındakı kafelərin birindən iki pay lüləkabab, çörək, göy-göyərti, salat alıb gətirmişdi. Hələ üstəlik, səhər yeməyini də unutmamışdı. Bir sözlə, hər şey var idi burada. Ayçöhrəni səslədi:

– Dur gəl, yemək yeyək. Uşaqlar kabab gətirib bizim üçün.

İçəri daxil olan qız maraqla otaqdakı birnəfərlik çarpayıya, ətrafına bir neçə stul düzülmüş masaya, soyuducu və digər avadanlıqlara baxdı. Deyəsən, sıxılmağa başlamışdı. Bunu d⸗yan Ələmdar:

– Çəkinmə! – dedi. – Özün görəcəksən ki, mən pis adam deyiləm. Gəl əyləş, birlikdə yemək yeyək.

Ayçöhrə stullardan birini arxaya çəkib əyləşdi:

– Mən hələ iki ay əvvəl səni parkda birinci dəfə görəndə başa düşdüm ki, sən pis adam ola bilməzsən. O vaxt həbsə düşməyin də, yəqin, təsadüf olub. Əsəblərini cilovlaya bilməmisən, yəqin.

– Yox, burasını düz demədin. Mən həmişə əsəbimi də, hisslərimi də cilovlaya bilirəm.

– Dünən də dedin bunu. – qız gülümsədi. – Dedin ki, bu barədə çox güclüsən. Hətta qadınlarla münasibətdə də hisslərini cilovlaya bilirsən.

– Oxşamıram? – Ələmdar kababdan boşqaba çəkib onun qarşısına qoydu.

– Oxşayırsan. Həm güclü, həm də mərd adama oxşayırsan. Mənə elə gəlir ki, sənə hər şeydə etibar etmək olar.

Ələmdar dinmədi. Buna oxşar söhbəti dünənki görüşlərində də etmişdilər. Əslində, özündən danışmağı, özünü tərifləməyi heç sevmirdi. Sakitcə yeməyə başladılar. Yeyib qurtaran kimi Ayçöhrə ayağa qalxıb süfrəni yığışdırmaq istədi. Qabları harada yumaq lazım olduğunu soruşdu.

– Sən zəhmət çəkmə, özüm yuyaram. – Ələmdar dedi.

– Yox, nə danışırsan, elə şey olar? – Ayçöhrə doğrudan-doğruya təəccübləndi.

Tualetin, vanna otağının və mətbəxin üçünün də qapıları bu otağa açılırdı. Ələmdar mətbəxin qapısını qıza göstərdi:

– Onda, zəhmət olmasa, orada yu. Vanna otağına da isti su gəlir. İstəsən, yuyuna bilərsən.

Sonra ayağa qalxıb bayaq oturduqları otağa-kabinetinə keçdi.

Ayçöhrə mətbəxdə qabları yuyub öz yerinə qoydu. Otağa qayıdıb süfrəni nəm əsgi ilə sildi. Sonra isə masanın arxasında əyləşib fikrə getdi.

İstədi ki, vanna otağına girib yuyunsun. Dünən səhər parkdan





gələndən sonra yüngülcə yaxalanmışdı. Heç alt paltarlarını da dəyişməmişdi onda. Xırdalandakı evdə isə elə haldaydılar ki, yuyunmaq heç yada düşə bilməzdi.

İndi özünü yaman narahat hiss edirdi, bunu düşünəndə. Nə qədər təmizkar olsa da, alt paltarlarından tər iyi gələ bilərdi. Xırdalandakı evdən çıxıb taksi saxladığı küçəyə qədər gedəndə elə tez-tez, həm də həyəcanla yerimişdi ki, bədənini tər basmışdı. Əyilib əynindəki idman şalvarına göz gəzdirdi. O da bir neçə yerdən toz-torpağa bulaşmışdı. Hətta şalvarın sağ ayağında mazuta oxşayan iri, qara zolaq da diqqəti cəlb edirdi.

Dönüb vanna otağının qapısına baxdı... Ancaq, oraya girib yuyunmaq ona birdən-birə mümkünsüz göründü. Ələmdardan utanırdı. Düşünürdü ki, Xırdalandan qaçıb birbaş bura gəlməklə, onsuz da, bu oğlana lazım olandan artıq ərk edib. İkisi bu binada təkcə qalıblar, birlikdə yemək yedilər. İndi öz evi kimi sərbəstcə vanna otağına girib yuyunsa, bu necə olar? Həddini aşmaq olmazmı? Ələmdar onun barəsində pis fikrə düşməzmi?...

Bir də ki, Ələmdarın nə fikrə düşməyi öz yerində, Ayçöhrənin ürəyi götürmürdü bunu. Sıxılırdı.

Qəribə vəziyyətə düşmüşdü. Artıq, az qala, sevməyə başladığı, illərlə arzuladığı idealına tam uyğun gələn bir oğlanla qapalı bir yerdə idilər. Heç kəs görmürdü onları. Heç kəs mane ola bilməzdi onların bu xoş gecəsinə. Ayçöhrə ağlına heç də başqa bir şey gətirmirdi. Onun nəzərində bu gecənin gözəlliyi onda idi ki, Ələmdarla bir yerdə idilər. İstədikləri qədər söhbət edib, bir-birlərinə istədikləri qədər baxa bilərdilər. Həm də, heç nədən qorxusu yox idi. Ələmdara özü qədər arxayın idi. Bilirdi ki, namərdlik eləyə bilməz bu oğlan.

Görəsən, hara getdi bu? Gəlib oturaydı, söhbət eləyəydilər. Onun yanında olanda, doğrudan da, heç nədən qorxmurdu Ayçöhrə. Televizordan eşitdiyi o məlumatdan sonra canına dolmuş qorxu da uçub getmişdi burada.

Ələmdar qapını döyüb, ehtiyatla açdı. Ayçöhrənin boş masanın arxasında oturduğunu görəndə gülümsədi:

– Nə sakitcə oturmusan? Saat on birə az qalıb. Dur yat. Çarpayı sənindir. Narahat olma, yatacaq təmizdir. Təzə dəyişilib.

Ayçöhrə, nədənsə dinmədi. Ələmdar yerə kabinetinə qayıdıb qapını örtdü. Divanda əyləşib ayağını ayağının üstünə aşıraraq fikirləşməyə başladı.

Maraqlıdır... Ayçöhrəyə qarşı az vaxtda çox doğma hisslər yaranmışdı onda. Hiss edirdi ki, ürəyində özünə dərin yer eləmiş Məltəm adlı o qadını unutdura bilsə, elə bu qız unutduracaq. Ayçöhrə....

Ancaq, maraqlı olan bu idi ki, bu gecə burada onun əvəzinə başqa bir qız olsaydı, həm də, o qızda Ayçöhrənin onda biri qədər gözəllik olsaydı Ələmdar o qıza qarşı başqa fikrə düşə bilərdi. Özündə ona qarşı çılğın ehtiras duyub, nəsə keçirə bilərdi ürəyindən. Ancaq, bu saat Ayçöhrəyə qarşı onda belə hisslər yox idi. Qəribə səslənsə də, Ayçöhrə onu Allahın yaratdığı adi bir qadın kimi özünə cəlb etmirdi. Bədənində erkəyin əks cinsə qarşı ehtirasına bənzər bir ehtiras yaratmırdı.

Əvəzində isə, Ayçöhrə onun bədənini də, qəlbini də başdan – ayağa bir bəxtəvərliklə doldurmuşdu. Onunla bir otaqda, bu qədər yaxında olmaqdan doğan bir bəxtəvərliklə. Bu hiss Ələmdarın həyatında tamamilə yeni idi və o, heç vaxt belə vəziyyətə düşməmişdi.

O biri otaqdan Ayçöhrənin səsi gəldi:

– Ələmdar!

Qalxıb ora keçdi. Ayçöhrə idman kostyumunu soyunub yatağa girmişdi. Ağ rəngli köynəyi əynində idi. Yorğanı sinəsinə qədər çəkmişdi. Otağın işığı söndürülməmişdi.

– Nəsə lazımdır, Ayçöhrə?

– Bəs sən harada yatacaqsan?

– Sən narahat olma, kabinetdəki divanda yatacam.

Ayçöhrə bir anlıq susdu. Sanki, deyəcəyi sözü bir daha götür-qoy edirdi. Al yanaqları bir az da qızarmışdı.

–Gəl, sən də burada yat! – çətinliklə də olsa, sözünü dedi.

– Harada? – Ələmdar təəccübləndi.





– Çarpayıda... Mənim yanımda...

– Nə danışırsan?

– Nədi, özünə inanmırsan? – Ayçöhrə gülümsəməyə çalışdı. Amma, keçirdiyi həyəcan şirin təbəssümünü boğdu. – Bəs güclü hesab edirdin özünü?

Ələmdar tutuldu. Bu sözləri başqa bir qız desəydi, bəlkə də, dərhal gözündən düşərdi. Amma, Ayçöhrənin üz-gözündən yağan təmizlik bu qıza acığı tutmasına mane olurdu.

– Gücümü görmək istəyirsən? – açıq-aydın kinayə ilə soruşdu.

– Deyəsən, sən məni başa düşmədin. – Ayçöhrə pərt oldu. – Mən əsl gücdən danışıram. Nəfsə qalib gələn gücdən.

– Hə... – Ələmdar bir az sakitləşdi.

– Gəl, burada yataq səhərə kimi. Mən sənə inanıram. Həm də yanında olmaq istəyirəm. Onda heç nədən qorxmaram. Ancaq bu başdan deyirəm ki, başqa fikrə düşməyi ağlına gətirmə!...

Ələmdar qeyri-adi vəziyyətə düşmüşdü. Soyunub yatağa girmiş gənc qız onu yanına dəvət edirdi. Həm də bu qız tamamilə onun ürəyincə olan bir qız idi. Ayçöhrə idi... Bəlkə onu sınağa çəkirdi Ayçöhrə? Əgər belə idisə, bu çox ağır sınaq olacaqdı. Çox ağır!

İşığı söndürüb çarpayıya yaxınlaşdı. Qaranlıqda soyunub qızın yanına girdi. Ayçöhrə bir qədər kənara çəkilib ona yer verdi. İndi ikisi də enli bir yorğanın altında idi. Hər ikisi susurdu. Ələmdar Ayçöhrənin yarıçılpaq halda ondan bir qarış məsafədə olduğunu bilir, az qala onun hərarətini duyurdu.

Bəlkə də, on dəqiqədən çox beləcə susub xoş xəyallara daldılar. Birdən Ayçöhrə:

– Sən üstünü yaxşı örtmüsən? – deyə soruşdu.

– Hə, örtmüşəm. – Ələmdar cavab verdi.

Bu zaman yerində azacıq çevrildi və özündən asılı olmayaraq sağ qıçı Ayçöhrənin çılpaq buduna toxundu. Həmin anda bütün bədəninə isti bir cərəyan yayıldı. Sanki, elektrik cərəyanı vurdu onu. Ayağını cəld geri çəkdi. Bu ani toxunma, deyəsən, qıza da güclü təsir göstərmişdi. Özünü itirib, söz tapmadı və:

– Yorğanın çoxunu öz üstümə örtmüşəm. – dedi.

– Eybi yoxdur, mənə soyuq olmaz.

Yenə aralarına sükut çökdü. Otağa pəncərələrdən küçə işıqlarının zəif şöləsi düşürdü. Küçədən keçən maşınların səsi də çox cüzi gəlirdi içəri. Ələmdar yanındakı qızdan başqa hər şeyi unutmuşdu. Bayaqkı ani təmasdan sonra onda bu qızla qovuşmağa güclü həvəs yaranmışdı. Ayçöhrəni indiyədək cinsi əlaqədə olduğu tək-tək qadınlardan çox üstün tuturdu. Bilirdi ki, onunla əlaqədə olsa, həddindən artıq güclü ləzzət alacaq. Amma, dözürdü... Ona az vaxtda bu dərəcədə doğmalaşmış, mehribanlaşmış gözəl qızın nəzərində gücsüz görünmək istəmirdi.

Ancaq, əslində, Ayçöhrəni tam şəkildə anlaya da bilmirdi. Görəsən, nə istəyirdi bu qız? Yəni, doğrudanmı ürəyindən heç nə keçmirdi? Bəs onda Ələmdarı niyə çağırdı yanına? Onun divanda narahat yatıb soyuqlamasını istəmədi? Dedi ki, başqa fikrə düşmə... Bunu ürəkdən deyirdimi? Yoxsa bu da naz-qəmzənin bir formasıdır? Axır ki, çox qəribə qızdır bu Ayçöhrə!...

Nəhayət, qızı bir daha yoxlamaq istədi. Bəlkə elə...

– Ayçöhrə!

– Hə?

– Düzünü de, mənim olmaq istəyirsən?

– Başa düşmədim...

– İndi, bu gecə mənim olmaq, mənimlə qovuşmaq istəyirsən?

Cavab bir az gec gəldi:

– Yox... Dedim axı, əgər doğrudan güclüsənsə, mənə toxunma. Mən, sadəcə, sənin yanında olmaqdan həzz almaq istəyirəm.

– Niyə mənim?

– Çünki, səndən xoşum gəlir. Çox istəyirəm səni. Əsl kişisən. Güclüsən. Amma, doğrudan da, güclü olduğunu bu gecə sübut etməlisən. Nəfsinə qalib gəlməklə.

Hər ikisi kürəyi üstə uzanmışdı. Qız yorğanın çox hissəsini öz üstünə çəkdiyi üçün Ələmdarın sol böyrü açıqda idi.

– Sən çox qəribə qızsan, vallah! – dedi. – Həm də çox gözəlsən. Lap mələklər kimi. Təmizlik yağır səndən. Mən indiyədək heç bir qadına sahib olmağı bu qədər arzulamamışam. Düzdür, xoşuma





gələnlər olub... Hətta, az qala, sevdiyim də... Amma, etiraf edirəm ki, bayaq qarşısıalınmaz bir istək keçdi ürəyimdən sənə qarşı... – qızın dinmədiyini görüb davam etdi. – Necə deyim, sənə, yəni sənin gözəl bədəninə sahib olmaq istədim.

Ayçöhrə bu sözlərdən əməlli-başlı xumarlanmışdı. İndiyədək hiss etmədiyi bir ləzzət dünyasına baş vurmuşdu. Ələmdarın daha danışmadığını görüb, həyəcanlı səslə pıçıldadı:

– Danışdıq axı... Mənə toxunmayacaqsan.

– Bu qəti fikrindir?

– Hə, lap qəti!

– Yaxşı... – Ələmdar gülümsədi. – Sən necə istəyirsən, elə olsun.

Yenə bir qədər susdular. Sonra Ayçöhrənin sonsuz maraq və azacıq kədər qatılmış səsi eşidildi:

– Kim olub sevdiyin?

– Mən özüm də bilmirəm, buna sevgi demək olar, ya yox... – Ələmdar cavab verdi. – Bir evli qadına vurulmuşdum. Yəni, vurulmuşdum deyəndə ki, dünənə qədər onu sevdiyimi düşünürdüm. Səninlə tanış olana qədər...

– Demək istəyirsən ki, indi məni sevirsən? – qızın səsində bu dəfə kinayə duyulurdu.

– Yox, bunu da deyə bilmərəm. Ancaq, onu bilirəm ki, sən çox yaxşı qızsan. Həddindən artıq çox! Bu saat heç cür inana bilmərəm ki, dünyada sənin kimi qız olsun. İnana bilmərəm.

Ayçöhrə, nədənsə, ona heç bir cavab vermədi...

Ələmdar düşündü ki, düz deyirmiş Ayçöhrə. Nəyisə etmək adama ləzzət verirsə, bəzən həmin şeyi etməmək, həm də nəyinsə xatirinə, ürəyin istəyə-istəyə etməmək daha çox ləzzət verir.

Bu saat yorğanın altında baş qaldıran güclü ehtirasını boğaraq, Ayçöhrə haqqında yalnız yaxşı, təmiz şeylər düşünməyə çalışırdı. Və belə düşündükcə qəlbində bu qıza qarşı ilahi bir hiss doğulurdu.

Ayçöhrə bayaq Ələmdardan eşitmək istədiyi sözü eşitmədi. Ancaq, o da bu saat xoş duyğulara qovuşmuşdu. Yataqda yarıçılpaq idi. Yanında, lap yaxınlığında çox xoşladığı, tamamilə ürəyincə olan gənc oğlan uzanmışdı. Hətta, o qədər yaxınlığında ki, onun ürəyinin

döyüntüsünü belə eşidirdi... Yoxsa bu səs Ayçöhrənin öz ürəyinin döyüntüsü idi? Hə, deyəsən, öz ürəyi idi belə döyünən...

Hələ indiyədək heç bir kişi ilə bu qədər yaxın olmamışdı. İstər məsafəcə, istərsə də ürəkcə. Amma, Ələmdara özünü tamamilə təslim etmək istəmirdi. Lap daxilində belə bir ehtiras duysa da istəmirdi. Qorxurdu elə bil. Bilmirdi necə olacaq bu iş... Bəlkə də məğlub olmaq istəmirdi. İstəmirdi ki, ceyran olub qızmış pələng tərəfindən parçalansın. Həm də aldığı tərbiyə onu məcbur edirdi ki, el adətiylə, valideynlərinin razılığı ilə kəbin kəsdirməmiş belə iş tutmasın.

Ən əsası isə sevimli Tanrısı... Görəsən, o necə baxardı bu işə? Ələmdardan əvvəl yatmaq üçün yatağa girərkən yenə, adəti üzrə, Tanrısına dua eləmişdi. Özü üçün, atası, anası, bacısı üçün. Yenə demişdi ki, bu gün heç bir pis iş tutmayıb. Yenə yalvarmışdı ki, Tanrı ona xoş yuxulu və salamat gecə versin.

Gözlərini yumub hər şeyi unutmağa çalışdı və səsini çıxarmadan, ürəyində Tanrıya müraciət etdi:

– Sənə qurban olum, mənim ağlımı əlimdən alma! Ən düzgün yol hansıdırsa, məni ona yönəlt. Mənə kömək elə! Mən bu oğlanı çox istəyirəm. Yəqin ki, sevməyə başlamışam onu. Əgər sən bunu istəmirsənsə, çıxart bu istəyi ürəyimdən. Səni tələsdirməyəcəm. Sabaha qədər dözəcəm. O vaxta qədər nəyi məsləhət bilirsənsə, o cür də elə! Mənə yol göstər, sevimli Tanrım!

Ələmdar onu yaxşı ki, eşitmirdi. Yoxsa, bəlkə də, gülməyi tutardı onun belə duasına. Ya bəlkə də, heç tutmazdı. Ona görə tutmazdı ki, Ayçöhrənin hər şeyi kimi, qəribə duası da ona xoş gələrdi.

Əlini yavaş-yavaş qıza tərəf uzatdı. Onun əlini tutmaq istəyirdi. Amma əli qızın böyür tərəfdən köynəyinə toxundu. Ayçöhrə əllərini sinəsində çarpazlamışdı. Sol əlini sinəsindən götürüb Ələmdarın əlindən yapışdı. Ələmdar onun əlini bərk-bərk sıxdı. Sonra birdən bununla hər şeyin başlayacağından qorxub əlini çəkdi.

– Nə fikirləşirsən? – Ayçöhrə pıçıltı ilə soruşdu.

– Heç nə! – Ələmdar dedi. – Fikirləşirəm ki, sabah polisdəki dostumdan xahiş edim, səni ananın yanına aparsın.





Ayçöhrə belə cavab gözləmirdi.

– Niyə?

– Necə niyə? Xəstə ananın yanında olmaq istəmirsən? Həmişə burada qalmayacaqsan ki?

Ələmdar bilərəkdən belə deyirdi. Qıza göstərmək istəyirdi ki, heç də onunla qovuşmaq üçün alışıb-yanmır. Ayçöhrə bu səfər ucadan dilləndi:

– Yox, deyirəm, yəni başqa şey tapmadın indi fikirləşməyə?

Ələmdar gülümsədi:

–Mən romantik adam deyiləm. Hər axşam yerimə uzananda, gözümə yuxu gələnədək, sabah görəcəyim işlər barədə fikirləşirəm.

Ayçöhrə incidi, deyəsən:

– Bəs sən heç nə hiss eləmirsən?

– Nə hiss etməliyəm axı?

– Sənin yanında qız uzanıb...

– Nə olsun? – Ələmdar yenə gülümsədi. – Adam adamın yanında uzanar. Sən mənim qonağımsan. Sənə hörmətim var.

– Bəs bayaq nə deyirdin?

– O, ötəri bir hiss idi. Xoşagəlməz bir hiss. Boğdum, qurtardı getdi.

– Məndən xoşun gəlmir daha? Amma kişi kimi düzünü de!

– Xoşum gəlir. Yaxşı qızsan. Maraqlı xasiyyətin var.

Ayçöhrə bir qədər susub nəyisə götür-qoy etdi. Sonra yenə ehtiyatla dilləndi:

– O qadını sevirsən yenə?

Ələmdar gec dilləndi:

– Yox! O hissi də boğdum getdi.

– Sən boğmağı həmişə belə yaxşı bacarırsan?

– Hə!

– Yəni, doğrudan, sənin üçün fərqi yoxdur, yanında uzanan kimdir?

Ələmdar üzünü ona tərəf döndərib:

– Ayçöhrə, sən istəyirsən ki, sənə nəsə eləyim indi?

– Yox... – qız qətiyyətsiz halda dilləndi.

– Bəs onda nə deyirsən?

– Deyirəm, yəni ürəyindən heç nə keçmir?

– Yox, daha heç nə keçmir! – Ələmdar bunu sakit səslə desə də, səsində qətiyyət var idi. – Mən yatmaq istəyirəm. Səhər saat 6-da duracam. Vacib işlərim var.

– Onda yat! Yuxun şirin olsun! – Ayçöhrə incik bir səslə dedi.

– Sənin də yuxun şirin olsun!

Ələmdar bir peşəkar kəşfiyyatçı kimi istədiyi vaxt özünü yatmağa məcbur edə bilirdi. İndi isə artıq gecə saat ikini keçmişdi. Gözlərini yumub hər şeyi beynindən sildi və doğrudan da yuxuya getdi. O, çox sakit və eyni zamanda çox ayıq yatırdı.

Ayçöhrə isə onsuz da yerində qımıldanmadan sakitcə, arxası üstə uzanmışdı. Evdə həmişə sağ böyrü üstə yatırdı. İndi də ehtiyatla sağa çevrildi və yatmağa çalışdı.

Amma, yuxusu gəlmirdi...

Bədəninə hakim kəsilmiş bir hiss onu tərk etmək bilmirdi. Bu, ehtiras idimi? Ya, bəlkə, sevdiyinə qovuşmağa can atmaq idi? Özü də dəqiq baş açmırdı bu hissdən.

Eyni ehtiyatla bu dəfə sol böyrü üstə çevrildi. Azacıq dikəlib otağın alaqaranlığında Ələmdarın üzünə baxmağa başladı. Ələmdar çox sakit nəfəs alırdı.

Ayçöhrə nə qədər beləcə dayandığını bilmədi. Ələmdarın üzünə baxmaqdan doymurdu. Birdən-birə qəti şəkildə anladı ki, Ələmdarı sevir. Və bir də onu anladı ki, bu gecə taleyi bağlanır bu oğlanın taleyinə.

Anasını xatırladı. Düşündü ki, görəsən, yata bilibmi anası?

Bəs atası nə edir, görəsən, indi? Sonra fikirləri qarışdı və başa düşdü ki, bu saat Ələmdardan başqa heç kəs haqqında fikirləşə bilmir.

Yatmaq istədisə də, yenə yata bilmədi. Yatmazdan əvvəl yuyunmamağına peşman olmuşdu. Üstəlik, alt paltarlarını iki gündən bəri dəyişməməyi onu daha çox narahat edirdi.

Bir gözü Ələmdarda olduğu halda, son dərəcə ehtiyatla yataqdan qalxdı. Stulun üstünə atdığı idman kostyumunu və Ələmdarın onun





üçün aldırdığı hamam dəsmalını götürüb, vanna otağına getdi. Bu zaman bacardığı qədər asta hərəkət edirdi ki, Ələmdarı oyatmasın. Vanna otağına girib işığı yandırdı və qapını içəridən bağlayıb soyundu.

Ancaq, yataqdan qalxarkən nə qədər ehtiyatlı hərəkət etsə də Ələmdar ayılmışdı. O, bir neçə an yerində qımıldanmadan dayandı. Sonra vanna otağından gələn su səsini eşidib gülümsədi. Gözlərini yumub yenidən özünü yatmağa məcbur etdi və tez də buna nail oldu.

Ayçöhrə əvvəlcə idman kostyumunu və alt paltarlarını yudu. Onları bərk-bərk sıxıb isti batareyanın üstünə yığdı ki, qurusunlar. Sonra özü də yuyundu. Mərmər kimi hamar və ağappaq bədənini iki dəfə sabunlayıb duşun altında yaxalandı. Dəsmalla qurulanıb, sonra iri dəsmalı bədəninə doladı. Bu zaman çalışdı ki, dəsmal heç olmasa qabarıq döşlərini və ayıb yerlərini örtsün. Qapını aralayıb otağa baxdı. Ələmdarın hənirtisi gəlmirdi. Sakitcə yatmışdı. Vanna otağının işığını söndürüb çarpayının yanına gəldi. Dəsmalı bədənindən açıb stulun başına atdı və cəld hərəkətlə yorğanı qaldırıb yatağa girdi.

Daha səhərəcən yatmaq fikri yox idi. Uzağı iki saata, yəqin ki, paltarlar quruyacaqdı və Ələmdar yuxudan ayılmamış qalxıb onları götürmək istəyirdi. Allah eləməmiş, gözü yuxuya getsəydi, birdən Ələmdar ondan əvvəl ayılar, vanna otağına keçəndə onun alt paltarlarını görə bilərdi. Təkcə elə bunu düşünəndə həyəcandan Ayçöhrənin bədəninə istilik gəldi.

Yenə Ələmdarın üzünə tamaşa etmək istədi. Ancaq, öz çılpaqlığından utanıb bunu eləmədi. Eləcə kürəyi üstə uzanıb yorğanı boğazına qədər çəkərək gözlərini qaranlıq tavana zillədi və fikirləşməyə başladı.

Fikirləşdi ki, bu dünya çox gözəldir. Fikirləşdi ki, bu dünyada yaşamaq da çox gözəldir. Birdən ağlına gəldi ki, yaxşılığı olduğu kimi yamanlığı da var bu dünyanın. Elə adamlar var ki, cəhənnəm əzabıdır yaşamaq onlar üçün. Sonra fikirləşdi ki, bu dünya böyük bir qazandır. Bu qazana eyni qədər balla zəhəri töküb başdansovdu qarışdırıblar. Hər bir adam bu qarışıqdan ömrü boyu yemək üçün

bircə qaşıq götürür. Elə adam var ki, qaşığına təmiz zəhər çıxır. Bir qaşıq dolusu zəhər... Ömrü boyu ancaq onu yeyir. Elə adam var ki, qaşığına zəhər çox düşür, bal az... Eləsi var, bərabər düşür. O adam da birtəhər yeyə bilir bu payını. Ayçöhrənin qaşığına, deyəsən, təmiz bal düşmüşdü. Bir qaşıq dolusu təmiz bal...

Ancaq, Ayçöhrə çox istəyirdi ki, o qazanda heç zəhər olmasın. Təkcə bal olsun, vəssalam. Ya da, əgər bu mümkün deyilsə, heç olmasa, yaxşı qarışdırılsın qazanın içindəkilər.

Elə bu fikirlərlə də nə zaman yuxuya getdiyindən xəbəri olmadı...

## OTUZ İKİNCİ FƏSİL

Gecədən xeyli keçmişdi. Sökülmək və yerində çoxmərtəbəli bina tikilmək üçün hər tərəfi taxta hasara alınmış köhnə məhəllədə ölü sakitliyi hökm sürürdü. Dar dalanlarda, kiçik həyətlərdə tək-tək gəzişən sahibsiz it və pişiklərdən başqa burada heç bir canlı gözə dəymirdi. Məhəllə zülmət qaranlığa qərq olmuşdu.

Bir az sonra qaranlıq həyətlərdən birinin daş divarına cib fənərinin zəif işığı düşdü. Açıq göy rəngli işıq divarda gəzişib tez də söndü və əlində fənər tutmuş adam həyətdən çıxıb taxta hasarın yanından keçərək qonşu həyətə girdi. Bura da zülmət qaranlığa qərq olmuşdu. Fənərin işığı yenə də çılpaq daş divarın üzərində gəzdi. Kimsəsiz məhəllənin gecə qonağı narazı səslə nəsə mızıldanıb həmin həyəti də tərk etdi.

Bu, Əsamət idi. Kirayəyə götürdüyü evi təxribatçı qrupun qərargahına çevirmiş masajçı. O, gecənin bir aləmində buraya son dərəcə risqli bir məqsədlə gəlmişdi. Tiqrandan eşitdiyi gizli anbarı aşkar edərək, orada saxlanılan qızılları götürmək istəyirdi. Səhər tezdən isə Bakıdan birdəfəlik qaçıb gedəcəkdi! Bu barədə heç arvadına da bildirmək fikri yox idi. Tək gedəcəkdi. Qoy Tatyana bu





quldurlarla qalsın. Onsuz da o, Əsaməti sevmirdi. Dəfələrlə ərinə xəyanət eləmişdi. Hətta Əsamət Tatyananı dörd-beş ay əvvəl Tiqranla eyni yataqda görmüşdü. Bəli, öz gözləri ilə görmüşdü... Amma, Tiqrandan qorxduğu üçün heç nə demədən otaqdan çıxmış, bir müddət onların gözünə görünməməyə çalışmışdı.

Tiqran!... Əsamət bu qansız ermeniyə həm nifrət edirdi, həm də bərk qorxurdu ondan. Bilirdi ki, bu adam alçağın biridir. Eşitmişdi ki, öz bacısının namusuna sataşdığı üçün atası evdən qovub onu. Ona görə qorxurdu ki, Tiqran bir azəri türkünü onun gözləri qarşısında öldürmüşdü. Heç bir tərəddüd etmədən, vicdan əzabı çəkmədən öldürmüşdü və Əsamət qorxurdu ki, bu cəllad xislətli adam onu da istədiyi vaxt, elə bu cür öldürə bilər.

Tiqranla Tatyananın münasibətindən bir az əvvəldən xəbəri var idi. Tiqran qəsəbədə yerləşən həmin kirayə evə tez-tez gəlirdi və Əsamət bir neçə dəfə onun, xəlvətə salaraq, əlini qadının arxasına çəkdiyini görmüşdü. Amma, özünü görməməzliyə vurub dözürdü. Tiqranı evdən qovlaya bilməzdi. Bu həyasız insan onun evinə də, arvadına da, üstəlik özünə də yiyələnmişdi və ona qarşı çıxmaq şirin həyatdan məhrum olmaq demək idi.

Tatyananın yanında Tiqranın dalınca danışmaqdan da qorxurdu. Qorxurdu ki, arvadı onu öz dini bir oynaşına satar.

Amma, onları eyni yataqda görəndən sonra dözə bilməyib, axşam söhbəti açdı. Dedi ki, o çox əclaf iş tutur, evin içində, ərinin gözü qarşısında əxlaqsızlıq edir. Bildirdi ki, əgər bu iş belə davam edərsə, onu öldürəcək.

– Sən heç ömründə bir toyuq başı kəsmisən? – Tatyana güldü.

Əsamət bir anlıq duruxdu. Doğrudan da, toyuq başı–filan kəsməmişdi ömründə. Qan görəndə az qalırdı özündən getsin.

– Heç nə eləyə bilməsəm də boşayaram! – dedi.

Tatyana yenə etiraz etdi:

– Tiqran buna razı olmaz. Biz ikimiz də onlara burada lazımıq, hələ ki.

Əsamət deməyə söz tapmadı. Onun bu halını görən arvadı, guya ki, ərinin könlünü almağa çalışdı:

– Sən ondan qorxduğun kimi, mən də qorxuram. Neyləyə bilərəm?...

Əsaməti bu dəstəyə Volodya cəlb etmişdi. Onda Tiqran hələ Bakıda yox idi. Qazanc dalınca Rusiyaya gedən və orada baş saxlaya bilməyib geri qayıdan Əsaməti Volodya pulla şirnikləndirərək ələ almışdı.

Əsamət bir az sonra bildi ki, bu dəstə dövlətin əleyhinə çalışır. Amma, yaxşı pul qazandığı üçün səsini çıxarmadı. Sonra, Tiqran gəlib, dəstənin başına keçdi. Əsamət onun kobud münasibətinə də, arvadına qarşı olan hərəkətlərinə də dözdü. Düşündü ki, lazım olan qədər pul toplayıb, nə vaxtsa aradan çıxar və bu şübhəli dəstə ilə əlaqəni birdəfəlik üzər. Volodya Əsamətə çox inanırdı və Tiqrana da onu etibarlı adam kimi təqdim etmişdi.

Amma, martın 6-da olacaq qanlı terror barədə eşidəndə çox qorxuya düşdü. Tiqran dedi ki, həmin gün şəhərin azı üç yerində partlayış törədiləcək. Sonra Əsamət Volodya ilə söhbət etdi. Məlum oldu ki, Tiqranın fikri qətidir və bu partlayışlar, əsasən, məktəblərdə, dərs vaxtı törədiləcək. Bu barədə, hətta, düşünəndə belə dəhşətə gəlirdi Əsamət.

Rusiyada yaşayarkən, bir dəfə məktəblərin birində belə bir partlayışın şahidi olmuşdu. Ölən, yaralanan uşaqları təcili yardım maşınları daşıyırdılar. Anaların qışqırığı bütün ətrafı bürümüşdü. Ayağının biri dizdən yuxarı qırılmış, üz-gözü tanınmaz hala düşmüş bir uşağı lap yaxından görə bilmişdi. Düz bir həftədən çox özünə gələ bilmədi Əsamət. Gecələr də yuxusuna girirdi həmin uşaq.

Yox, belə dəhşətli işlərin nə iştirakçısı, nə də şahidi olmaq istəmirdi. Bakıdan birdəfəlik qaçıb gedəcəkdi. Bunun üçün hər şeyi dəqiq planlaşdırmışdı. Siçovul ləqəbli o adamın çəkdiyi gül şəklinə əsasən gizli anbarı tapacaq, oradakı qızılları götürəcəkdi. Amma onları evə aparmaq fikri yox idi. Torbaya yığıb bir yerdə gizlədəcəkdi. Səhər isə torbanı götürüb Bakıdan çıxacaq, birbaş Balakənə gedəcəkdi. Orada yaxın bir qohumu yaşayırdı və bu qohumu ona Rusiya sərhədini keçməkdə kömək edəcəkdi.

O biri həyətə girəndə damdan qaranlıq həyətə bir pişik tullandı.





Əsamətin ürəyi, az qaldı ki, ağzına gəlsin. Pişik bərkdən miyoldayaraq qaçıb getdi. Əsamət handan-hana özünə gəlib, fənəri yandırdı. Mavi rəngli zəif işıq həyətin divarına düşəndə, nəhayət, gizli anbarın yerləşdiyi həyəti tapdığına əmin oldu. Tiqranın dediyi kimi, divarlar başdan-başa sementlə suvanmışdı.

Əsamət qorxa-qorxa irəli gedib fənərin işığını divarın aşağı hissələrində gəzdirdi. Bu zaman həyətin ortasında nəyəsə ilişib dayandı. İşıq salanda gördü ki, bu, su quyusudur. Quyunun ağzı bir metr hündürlükdə daşla çəkilmişdi. Amma, üstü örtülü deyildi. Fənərin işığını salıb quyunun içinə baxmağa çalışdı.

Quyu çox dərin olduğu üçün işıq onun içində yoxa çıxır, dərin zülmət qaranlıqdan başqa heç nə görünmürdü.

Quyudan bir neçə addım uzaqlaşıb, divardakı gizli işarəni axtarmağa başladı. Nəhayət, fənərin işığını divarın aşağı hissəsində təbaşirlə çəkilmiş, insan əli boyda bir gül rəsminin üstündə saxladı. Bəli, bu lap yəqin ki, həmin Siçovulun çəkdiyi gizli işarə idi. Deməli, anbarın yerini tapmışdı. İşığı söndürdü. İndi qalırdı həmin yerdən divarı sökmək. Bunun üçün özü ilə külüngə oxşar bir şey də gətirmişdi.

Ürəyi həyəcandan bərk-bərk döyünürdü. Qaranlıqda ətrafına boylanıb fənərin işığını yenidən yandırdı. İşığı divarda gəzdirib onu bir daha gizli işarənin üstündə saxladı.

Elə həmin anda arxa tərəfdən hənirti eşidib diksindi. Cəld geriyə dönüb fənərin işığını qarşısında dayanmış adamın üzünə saldı və qeyri-adi bir qorxunc səslə çığırdı:

– Tiqran?!

Tiqranın sifəti fənərin zəif işığında çox əcaib görünürdü.

– Burada nə axtarırsan, Əsamət? – deyə sakit səslə soruşdu.

Əsamət ağzını açdısa da heç nə deyə bilmədi. Qorxudan dili tutulmuşdu, sanki. Özünü elə itirmişdi ki, fənərin işığını da Tiqranın üzündən çəkmirdi.

Tiqran əvvəlcə kiçik fənəri onun əlindən alıb söndürdü. Sonra yaxasından yapışıb yaxındakı su quyusuna tərəf çəkdi. Əsamət nə ona müqavimət göstərir, nə də səsini çıxarmırdı. Yalnız Tiqran onu

qaldırıb quyuya tullayanda bir dəfə bərkdən qışqırdı. Amma səsi quyunun içindən , həm də çox zəif gəldi. Bu səsin ardınca, quyunun dərinliyində, çalxalanmış suyun gurultusu eşidildi.

Sonra isə köhnə və kimsəsiz məhəlləyə yenidən müdhiş bir sakitlik çökdü. Hətta, bu sakitlikdə həyati tərk edən Tiqranın addım səsləri də eşidilmirdi...

## OTUZ ÜÇÜNCÜ FƏSİL

Ələmdar, adəti üzrə, səhər saat 6-da yuxudan ayıldı. Başını sağa döndərəndə yanında uzanıb yatmış Ayçöhrəni gördü. Bircə saniyə çaşqınlıqdan sonra hər şeyi xatırladı. Qızın Xırdalandakı gizli evdən qaçıb ona pənah gətirməyindən tutmuş yataqdakı söhbətlərinə qədər hər şeyi. Əlini uzadıb çarpayının başı üstündə divara vurulmuş lampanı yandırdı. Qız şirin yuxuda idi. Maraqlıdır ki, üzündə, ayıq vaxtda olduğundan da artıq bir nur var idi. Gözəl biçimli dodaqlarında xəfif təbəssüm gəzirdi. Ələmdar düşündü ki, Ayçöhrə bəlkə də, həmin bu anda yaxşı bir yuxu görür.

Balışa dağılmış şabalıdı rəngli, hamar, zərif saçlarına baxdı. Bu saçlardan hələ də incə qızılgül ətri gəlirdi. Qızın canlı, olduqca cazibədar dodaqları var idi. Bu dodaqlar bir erotik zona kimi sahibinin daxili hisslərini özünə çəkdiyi üçün, sanki, buraya qan da yaxşı işləyirdi və rəngi solğunlaşmırdı. Nazik qaşları, uzun kiprikləri üzünə necə də yaraşırdı. Gecə yuyunub yatmasına baxmayaraq, yanaqları hələ qırmızıya çalırdı. Elə bil, qırmızı boya sürtmüşdü yanaqlarına.

Ayçöhrənin üzünə tamaşa edən Ələmdar həmin dəqiqələrdə inandı ki, bir kafirin dinə-imana gəlib Allahın adı qarşısında diz çökməsi üçün bu qızı görməyi kifayətdir. Daha nə möcüzə gözləyirdi ki, insanlar Yaradandan? Bundan böyük möcüzə ola bilərdimi?...





Ürəyindən keçdi ki, Ayçöhrənin yumulu gözlərindən öpsün. Dodaqlarını yaxınlaşdırıb qızın zərif göz qapaqlarına toxundurdu.

Ayçöhrə isə həmin anda, doğrudan da, yuxu görürdü. Görürdü ki, yenə öz sevimli Tanrısının qarşısında dayanıb. Başdan ayağa lüt-anadangəlmə, Tanrının yaratdığı kimi... Tanrı yenə göz qamaşdırıcı işıq saçırdı. Baxa bilmirdi Tanrının üzünə. Əllərini sinəsinə, çılpaq döşlərindən azacıq yuxarı qoymuşdu, nədənsə. Tanrının qarşısında günahkar uşaqlar kimi dayanmışdı. Lap astadan, dodaqlarının altında pıçıldayırdı:

–Mən pis iş görürəmmi, ulu Tanrım?

Bu zaman Tanrısından neçə vaxtdır ki, eşitmədiyi həmin səs gəldi qulaqlarına:

–Mən səni sevə-sevə yaratdım, Ayçöhrə, sən heç bir pis iş tuta bilməzsən.

Sonra Tanrısı qollarını geniş-geniş açdı. Çılpaq Ayçöhrə ürkək addımlarla ona doğru yeriməyə başladı. İşıq dəryasının içində qərq olanda bütün qəlbi ılıq, rahatlaşdırıcı bir işıqla doldu. O da qoynuna sığındığı varlığı qucaqlamağa, bağrına basmağa cəhd etdi və ömründə ilk dəfə buna nail oldu. Onun sinəsinə sığınıb bərk-bərk özünə sıxdı. Və bu zaman qızğın məhəbbətlə qucaqladığı varlıqda elə bir şey hiss etdi ki, başını qaldırıb onun üzünə baxmaq istədi. Baxdı və gördü ki, həmin anda qoynuna sığındığı varlıq Tanrısı yox... Ələmdardır...

Qız diksinib yuxudan ayıldı. Heyrətlə Ələmdara baxıb, sonra ətrafına boylandı. Yorğanı sinəsinə qədər çəkib əlləri ilə bərk-bərk tutmuşdu. Sağ əlini yorğandan çəkib sinəsinə apardı. Döşləri çılpaq idi. Əlini cəld hərəkətlə qabarıq döşlərinin yanından keçirib qarnına, oradan da üzüaşağı sürüşdürdü. Əli dörd-beş gündən bəri cücərib qalxan gödək və bir qədər cod tüklərə toxunanda təzədən diksindi. Utandığından qıpqırmızı qızarıb, özündən asılı olmayaraq:

–Necə olub ki, yatmışam?! – dedi.

–Məgər yatmaq istəmirdin? – Ələmdar təəccübləndi.

Ayçöhrə özünü tamam itirdi:

–Yox, istəyirdim... Amma...

–Sənə nə olub, Ayçöhrə ?

–Heç nə! –qız üzünü o biri tərəfə çevirdi. –Sən qalxmırsan?

–Qalxacam. Nədi ki?

–Elə-belə soruşdum...

Ələmdar hiss etdi ki, qız, nəyə görəsə, ondan utanır. Üzünə baxa bilmir. Bu, ona bir az qəribə gəldi. Bəs axşam heç bu qədər sıxılmırdı? Yorğanı da düz boğazına qədər çəkib. Gözü Ayçöhrə tərəfdə, çarpayının yanına qoyulmuş stula sataşdı. Qızın qırmızı rəngli idman kostyumu stulun ustündə yox idi. Fikirləşdi ki, yəqin, gecə qalxıb vanna otağına gedəndə kostyumunu təmizləyib, amma qaytarıb yerinə qoymağı unudub. Ağlına gəldi ki, qız elə buna görə utanır ondan. Düşündü ki, qalxıb otaqdan çıxmasa qız paltarını götürməyə gedə bilməyəcək. İstəməyəcək Ələmdar onu yarıçılpaq, alt paltarında görsün.

Geyinib yataqdan durmaq istədi. Amma, nədənsə, o qədər həvəsi yox idi buna. Ayçöhrəni burada qoyub səhər idmanı üçün parka da getməyəcəkdi. Dənizkənarı park Ayçöhrəsiz ləzzət verməzdi ona.

O, artıq yavaş-yavaş qərara gəlirdi ki, bu qızla əlaqəni kəsməsin. Hətta Ayçöhrə razı olarsa, evlənmək təklif etsin ona. Yoxsa, nə vaxta qədər subay gəzəcəkdi? Cəhənnəm olsun hər şey, o cümlədən, iş də! Allah hərəyə bir ömür verir və insan ona verilən ömrün qədrini bilib, yaxşı yaşamağa çalışmalıdır. Polkovnik Baratov onu ayda, iki ayda bir dəfə çağırıb gizli, təhlükəli tapşırıqlar verəcəkdi, o da hər dəfə həyatını risqə ataraq bu tapşırıqların dalınca gedəcəkdi. Bəs sonra?... Ömür ki dayanıb onu gözləmirdi? O da başqaları kimi ailə qurub, bu əvəzolunmaz sevinci yaşamalıydı. Onun da buna haqqı vardı. Ancaq son dərəcə gizli, təhlükəli və eyni zamanda sirli işi ilə tutmazdı ailə həyatı. Neçə dəfə polkovnik Baratovdan xahiş etmişdi ki, onu birdəfəlik azad etsinlər bu işdən. Məxfi şöbədə o qədər bacarıqlı oğlanlar var idi ki, onu əvəz etməyə. Lap Ələmdarı hərbi hissələrdən birinə göndərə bilərdilər. Heç olmasa alay komandiri olardı. Düzdür, açıq fəaliyyət göstərən hərbçilərin də ailə həyatında çətinliklər olurdu. Amma Ələmdar buna razı idi. Heç olmazsa, ətrafındakıları bu qədər aldatmazdı. Bezmişdi daha öz işini gizlətmək üçün yalanlar





uydurmaqdan. De gəl ki, Baratov onu heç cür buraxmaq istəmirdi. Deyirdi ki, onun varlığından və şöbənin birinci dərəcəli agenti olduğundan respublikanın ən yüksək dairəsində xəbərdardırlar. Leopardın birdən-birə öz işini atması onlara təəccüblü görünə bilər.

Bu yandan da anası tələsdirirdi onu evləndirməyə. Yazıq arvad daha qocalmışdı və onun da haqqı vardı ki, yeganə övladını ailəli, oğullu-uşaqlı görsün. Yox!... Bəsdir daha! Bir az da fikirləşib, götür-qoy edib evlənmək təklif edəcək bu qıza. Ailə qurmaq üçün bundan yaxşısını tapmayacaq ki!...

Ayçöhrə isə düşdüyü bu vəziyyət, bir də ayılmazdan qabaq gördüyü qəribə yuxu barədə düşünürdü. Bu nə yuxu idi, ay Allah?! Bütün bədəninə, başdan ayağa kimi, sirli-sehirli bir hiss hakim olmuşdu. Bütün bədəniylə bu saat Ələmdarı arzu edirdi. Ürəyi şiddətlə döyünür, damarlarıyla bədəninin ən uzaq yerlərinə belə göndərdiyi qana bu istəyi qatırdı. Hər yerə eyni qədər. Və beləliklə bütün bədəni Ələmdarı arzu edirdi.

Ancaq qız onu da hiss edirdi ki, bədənində axan qan getdikcə bir yerə daha çox daşıyır bu istəkdən. Bayaq yuxudan hövlənak ayılıb, əlini üstünə sürüşdürdüyü, çılpaqlığını biləndə diksindiyi həmin yer getdikcə od tutub yanır, nəsə düşünmək, nəsə bir qərara gəlmək qabiliyyətini əlindən alırdı. Beləliklə istəyi dəqiqləşirdi qızın və hiss edirdi ki, bu istəyə qarşı çıxmaq, indi, düşdüyü həmin bu vəziyyətdə çox-çox çətin olacaq.

Bacardığı qədər, gücü yetdiyi qədər müqavimət göstərmək istəyirdi bu istəyə qarşı. Başa düşəndə ki, bu dəli istək təkcə ehtirasdan alışıb yanan o yerinə deyil, bütün qəlbinə hakim olub, müqavimət göstərmək bir az da çətinləşirdi. Özünü inandırmağa çalışırdı ki, lazım deyil bu. Nigah bağlanmadan, toy olmadan... Ancaq inandıra bilmirdi özünü.

Qəlbinə hakim kəsilmiş alovlu istək ən yüksək həddinə çatanda üzünü gözəgörünməz Tanrıya tutub, qızdırmadan sayıqlayırmış kimi, pıçıltıyla dua etməyə başladı:

–Tanrım, mənə kömək elə! Kömək elə! Sən həmişə mənimlə olmusan. Məni tək buraxmamısan. Yenə tək qoyma məni. Mənə ağıl

ver, düzgün yola yönəlt! Mən bu oğlanı sevirəm. Çox sevirəm! Az qalıram ki, dəli olum bu sevgidən. Dözə bilmirəm daha! Özümü təslim etmək istəyirəm ona... Mən səni də sevirəm. Həmişəki kimi, hamıdan çox sevirəm. Məni sən yaratmısan. Mən bütün vücudumla səninəm. Necə məsləhət bilirsənsə, elə də et! Sənə qurban olum, məni nəzərindən salma!...

Ələmdar qızın pıçıltısını duyub fikirdən ayıldı. Başını ona tərəf çevirib:

–Sən nəsə dedin? –deyə soruşdu.

Ayçöhrə dillənmədi. Ürəyinin döyüntüsü ən yüksək həddə çatmışdı və ona elə gəlirdi ki, ürəyi nə qədər sağlam olsa da, dözməyəcək bu döyüntüyə.

Ələmdar başını dikəltdi:

–Sənə nə olub, Ayçöhrə?

Qız onun səsindəki sakitliyi, təmkini hiss edib başa düşdü ki, özü dillənməsə Ələmdar qabağa düşüb onun dəli istəyini həyata keçirməyəcək. Ürəyi isə az qala yerindən çıxıb qızın əvəzinə danışmaq istəyirdi. Əlləri ilə üzünü tutub astadan pıçıldadı:

–Ələmdar!...

–Nədi? –Ələmdar nəsə duymağa başlasa da, özünü o yerə qoymadı. Yenə sakit və qətiyyətli idi səsi.

–Mən istəyirəm ki... – dalını deyə bilməyib dayandı.

–Hə? Nə istəyirsən?

–Mən istəyirəm ki, səninlə birlikdə olaq...

Bunu necə dediyini özü də bilmədi yazıq qız və əlləri ilə üzünü daha bərk qapadı.

Ələmdar isə, deyəsən, ona əzab verməkdən həzz alırdı:

–Yəni, demək istəyirsən evlənək?

–Hə...

–Nə deyirəm, əgər, istəyirsən, evlənərik.

–Sən məni başa düşmədin. – qız əzab çəkirmiş kimi inildədi.

–Demədin evlənək? – Ələmdar da həyəcanlanmağa başladı. –Mən də elə indi bu barədə fikirləşirdim. Səndən çox xoşum gəlir mənim...

Qız onun sözünü kəsib daha astadan pıçıldadı:





–Mən indi istəyirəm. Elə bu saat...

–Bəs axı... – Ələmdar duruxdu. – Axşam dedin ki...

–Mən dedim! – qız səsini bir az qaldırdı. –Sənsə, həqiqətən güclü olduğunu sübut elədin. İndi özüm istəyirəm. İstəyirəm ki... Mən səninəm daha. Nə istəsən, eləyə bilərsən...

Ələmdar onun əllərini üzündən qoparıb dodaqlarından öpdü. Bu çox ani oldu. Dodaqları istidən yanıbmış kimi diksinib geri çəkildi. Qız yenə əlləri ilə üzünü qapadı.

Ələmdar əlini yorğanın altına salıb qızın çiynini sığalladı. Bu zaman əli Ayçöhrənin çılpaq döşlərinə toxundu. Əlini bir az aşağı sürüşdürdü və həyəcan qarışmış bir təəccüblə:

–Sən tamam çılpaqsan? – deyə soruşdu.

Ayçöhrə çevrilib, heç nə demədən özünü onun qoynuna atdı. Dodaqları bir-birini axtarıb tapdılar və daha nəsə deməyə heç bir ehtiyac qalmadı.

Ələmdar Ayçöhrənin od tutub yanan bədənini qucaqlamışdı və bir anlığa ona elə gəldi ki, qızın alovu indicə onu da alışdırıb yandıracaq. Amma o, yanmamalıydı. Əksinə, öz alovuyla qızın alovunu söndürməliydi. Buna da hazır idi. Bu saat özünün ən yüksək dərəcədə güclü olduğunu məmnunluqla hiss edib, təbiətin bəxş etdiyi erkək xoşbəxtliyinin nə olduğunu duyurdu.

Bütün bədəni məstedici ətir saçan bu qıza qovuşmaq bu dəqiqə Ələmdarın da ən böyük istəyi idi və bu istəyin qarşısını ala bilən bir qüvvə tanımırdı. Bircə an sonra bakirə qızın iç aləmi ilə onun arasında duran sirli pərdə də bu istəyə tab gətirmədi. Paralanaraq Ayçöhrənin başgicəlləndirən, baxışları qədər şirin və təmiz ismət evini, daha sonra isə müqəddəs bətnini onun ixtiyarına verdi.

Ayçöhrə bərkdən inildədi və həyatının tamamilə yeni bir mərhələsinə qədəm qoyduğunu anlayıb yerində dəli kimi çırpındı. Amma, bu yeni mərhələni tez də qəbul etdi, tez də alışdı ona və bütün bədəniylə qovuşduğu sevgilisinə sığınıb:

–Tanrıma qurban olum! – dedi.

Sonra daha heç nə demədi. Deyə də bilməzdi, çünki Ələmdardan utandığı üçün bütün qüvvəsini toplayıb, içindən gələn sevinc

çığırtısını boğmağa çalışırdı. Deməl də istəmirdi, çünki, bu saat bütün fikri, diqqəti özünün ismət evində qalmışdı. Orada, həyatı boyu duymadıqlarını ilk dəfə duyurdu və bu, onun üçün həddindən artıq maraqlı idi.

Ələmdar da həmin anlarda dəlicəsinə bir çılğınlıq içində idi. Ayçöhrənin hətta bətninə belə toxunub onun məstedici təmasını duysa da, buna qane olub sakitləşmir, bu saat bədəninin hər bir hüceyrəsi onun üçün əziz olan qıza bütün bədəniylə, bütün ruhuyla qovuşmağa can atırdı. Sanki, Ayçöhrəni təpədən-dırnağa bir ləzzət dünyası hesab edib onu öz sinəsinə hopdurmağa çalışırdı.

Nə qədər vaxt keçdiyindən heç birinin xəbəri olmadı. Onlar indi, sanki, zamandan kənarda idilər və qovuşduqları andan keçən müddət dünyada qəbul edilmiş vaxt ölçüsüylə ölçülə bilməzdi. Bu, heç bir ölçüyə sığmayan bir zaman idi.

Məkanlarını da unutmuşdular onlar. Bu saat harada olduqlarını bilmirdilər və əslində, heç bir yerdə də deyildilər.

Dillərini də unutmuşdular, deyəsən. Çünki, heç nə danışmamışdılar bu müddətdə. Bir-birlərini Allahın bütün canlılara verdiyi ümumi bir dildə – məhəbbət dilində başa düşmüşdülər.

Ancaq, hər şeyin bir sonu olduğu kimi, çılğınlıq anları da nəhayət ki, bitdi. Onlar öz məkanlarına qayıtdılar. Bildilər ki, "Döyüş" idman klubunda, Ələmdarın istirahət otağındakı bir nəfərlik çarpayıdadırlar. Zaman onlar üçün də adi qaydada hərəkət etməyə başladı. Bildilər ki, saat 9-a az qalıb və qovuşduqları andan üç saata yaxın vaxt keçib. Danışmağı bacardıqlarını xatırladılar. Bildilər ki, danışmaq üçün türk dili kimi gözəl dilləri var.

Birinci olaraq Ələmdar dilləndi:

–Çox sag ol, Ayçöhrə!

Qız da öz dilini unutmamışdı və utancaq halda, öz şirin ləhcəsi ilə:

–Nə üçün? – deyə soruşdu.

Ələmdar bir az düşünəndən sonra cavab verdi:

–Ona görə ki, varsan.

–Var olduğuma görə Tanrıma minnətdar ol.

–Onun qarşısında üzü üstə düşürəm, səni yaratdığına görə.





Üstəlik, mənə bəxş etdiyinə görə. Mən daha heç nə istəmirəm ondan.

Ayçöhrə onun üzünə baxmağa utandığı üçün gözlərini tavana zilləmişdi. Əlini uzadıb Ələmdarın əlindən tutdu:

–Gəl ayağa qalxmamış, elə burada bir-birimizə söz verək, and içək. And içək ki, ölənə kimi sadiq olacağıq bir-birimizə.

–Başqa cür ola da bilməz.

–And iç! – qız əl çəkmədi. – And iç ki, məni heç vaxt aldatmayacaqsan.

Ələmdar duruxdu. Necə and içəydi ki, onun bütün həyatı başdan-başa yalan içində idi.

–Nə mənada deyirsən?...

–Hər mənada! And iç ki, məndən heç nə gizlətməyəcəksən.

Ələmdar artıq bilirdi ki, Ayçöhrəyə hər bir şeydə etibar etmək olar. Odur ki, onu çox gözlətmək istəmədi. İşin sonrası barədə çox da baş sındırmayıb:

–And içirəm! – dedi və soruşdu. – Bəs sən?

–Mən də and içirəm! – Ayçöhrə gözləri tavanda olduğu halda ürəkdən gələn bir səmimiliklə dilləndi. – And içirəm ki, bundan sonra ancaq sənin üçün yaşayacam. Ölmək lazım gələrsə, sənin üçün öləcəm.

Ələmdar onu özünə tərəf çevirib bağrına basdı. Bir növ, söhbəti dəyişmək üçün:

–Səndən həmişə qızılgül iyinə oxşayan bir ətir gəlir. – dedi.

–Hə. –qız dilləndi. –Bu ərəb ətridir. Müsəlman mağazalarında kiçik qablarda satılır. Ancaq cövhəri. Yəni, spirt-filan vurulmur. Nəsə xoşuma gəlib bu ətir, həmişə bundan işlədirəm. Qiyməti də elə bir şey deyil, çox ucuzdur.

–Sənin qiymətin heç nə ilə ölçülməz, Ayçöhrə! – Ələmdar dedi. – Tanrın səni daha ürəklə, sevə-sevə yaradıb, elə bil.

Ayçöhrə bəxtəvərcəsinə gülümsədi. Görəsən Ələmdar haradan bildi bunu? Haradan bildi ki, Tanrısı da yuxularında eyni sözü deyir? Təzəcə xəyala dalmışdı ki, Ələmdar:

–Qalxmaq istəmirsən? – deyə soruşdu.

–Hə, qalxaq...

Ələmdar durub geyindi. Heç nə demədən otaqdan çıxıb qapını örtdü. Qapı örtülən kimi Ayçöhrə də yorğanı kənara çəkib ayağa qalxdı. Çılpaq vəziyyətdə qaçaraq vanna otağına girdi. Tələsik yuyunub qurulandı və gecə qurumaq üçün istilik batareyasının üstünə qoyduğu paltarlarını geyindi. Yalnız bundan sonra otağa qayıdıb oradan Ələmdarın kabinetinə keçdi.

Ələmdar kresloda oturub fikrə getmişdi. Axşam nəzərdə tutmuşdu ki, səhər açılan kimi kapitan Yusifovu çağırıb Ayçöhrəni ona təhvil verəcək və tapşıracaq ki, qızı Xırdalandakı gizli evə aparsın. Amma indi fikrini dəyişmişdi. İstəyirdi ki, qızı öz yaşadığı mənzilə aparsın. Bu işlər bir yana çıxana kimi orada qonaq qala bilərdi Ayçöhrə.

Bu tərəfdən, Ayçöhrəni öz anasından, bacısından ayrı salmaq da yaxşı düşmürdü. İstəsəydi, onların üçünü də ayrı bir etibarlı evdə, bir yerdə saxlaya bilərdi. Ancaq, gərək onda Ayçöhrəyə hər şeyi açaydı. Özünün, onun tanıdığı kimi, sadəcə Ələmdar yox, Məxfi şöbənin mayoru Ələmdar Məlikov olduğunu deyəydi. Buna isə ixtiyarı yox idi.

Baş açmırdı ki, bu işlərin axırı necə olacaq. İllərlə doğmaca anasını aldatmışdı. Anası indi də bilmirdi onun əslində kim olduğunu. Ancaq, Ayçöhrə ilə evlənsələr, onu bu şəkildə uzun müddət aldada bilməyəcəkdi. Yox, belə olmazdı! Əgər bu qızla həyatını birləşdirəsi olsa, hər şeyi danışmalıydı ona. Danışacaqdı da!

Ayçöhrənin içəri girdiyini görüb ayağa qalxdı.

–Gəl, səni evimizə aparım. Səhər yeməyini də orada yeyərik. – dedi.

–Evinizə? –Ayçöhrə təəccübləndi. – Anan nə deyər buna?

–Anam məni çoxdan tələsdirir ki, qız tap evlən. İndi deyəcəm ki, bu da qız, tapmışam.

–Elə şey olar?

–Olar. Niyə olmur? Hər şey insanın özündən asılıdır.

–Bu geyimdə gedəcəm? –Ayçöhrə paltarını göstərdi.

–Yox, əlbəttə. –Ələmdar gülümsədi. – Əvvəl gedib bir mağazadan sənin üçün üst-baş alacağıq.

Ayçöhrə buna etiraz etmədi. Ələmdar artıq klubda olan Orxana





zəng vurub tapşırdı ki, nə foyedə, nə də həyətdə heç kəs görünməsin.

Bir az sonra birlikdə aşağı enib klubun qarşısında dayanmış maşına əyləşdilər. Ələmdar qıza arxa oturacaqda əyləşməyi tapşırdı.

Maşını oradan birbaş sakit bir paltar mağazasına sürdü. Bu mağaza xəlvət küçədə yerləşirdi. İçəri girib Ayçöhrə üçün tələm-tələsik cins parçadan şalvar, yun kofta, ayaqqabı, hətta dəyişik üçün alt paltarları, dəsmal və başqa xırda-xuruş şeylər aldılar.

Evə çatanda da maşını düz blokun qapısı ağzında saxladı ki, qızı görən olmasın. Pilləkənlə çıxan Ayçöhrə, deyəsən, yaman sıxılırdı. Ələmdarın qolundan tutub:

–Birdən anan məni qəbul etmədi? – deyə soruşdu.

Ələmdar özü də bundan qorxurdu. Ancaq, qıza ürək-dirək verməyi özünə borc bildi:

–Edəcək. İndi görəcəksən, səni çox bəyənəcək.

Qapını açan Əminə arvad oğluna deyəcəyi kəskin sözləri, söyüşləri unutdu. Ayçöhrəni başdan-ayağa müştəri gözüylə süzüb, sadəcə:

–Bu qız kimdir? – dedi.

–Ay ana, qoy bir içəri keçək. – Ələmdar anasına mehribanlıq göstərməyə çalışıb gülümsədi.

–Keçin görüm! – arvad geri çəkildi.

Qapı örtülən kimi həmin sual yenə təkrar olundu. Ələmdar söhbəti çox da uzatmaq istəmədi və əzbərlədiyi sözləri birnəfəsə dedi:

–Demirdin, evlən? Buyur, bu da gəlinin! Tanış ol, Ayçöhrədir adı.

Əminə arvad donub qalmışdı, sanki.

–Başa düşmədim... Birdəfəlik gətirmisən?

–Yox... Ailəsi rayona gedib bir-iki günlüyə. Qohumlarının toyu var. Ayçöhrəni gətirdim ki, ata-anası qayıdana kimi bizimlə qalsın, yaxşı-yaxşı tanıyasan.

Ayçöhrə məzəmmətlə Ələmdara baxdı. Sonra tez də düşündü ki, dünyada, doğrudan da, yalansız ötüşmək olmurmuş. İndi nə desin yazıq Ələmdar, durub hər şeyi danışsın anasına?...

Əminə arvadın üz-gözündən hiss olunurdu ki, Ayçöhrəni bəyənib. Ancaq hələ də çaşqınlığı keçməmişdi. O, özlüyündə arxayın idi ki,

Ələmdarla Reyhanənin arası düzələcək və evlənəcəklər. Amma, birdən-birə başqa bir qız çıxmışdı ortaya. Nəhayət ki, dilləndi:

–Keç qızım, keç əyləş! Xoş gəlmisən!

Ələmdarın üstündən elə bil dağ götürüldü. Reyhanə, yəqin ki, dərsdə idi. Əminə arvad otaqda Ayçöhrə ilə üzbəüz oturub onu sorğu-suala tutmuşdu.

–Atan-anan kimdi? Nəçidilər? Hansı rayondandı əsliniz?

–Atam Ağdaşdandı. Kompüter proqramçısıdır. Anam Krımdandı. Atam orada əsgərlikdə olanda tanış olublar.

–Anan rusdu?

–Yox. –Krım türkü.

–Hə?... Bacıdan-qardaşdan nəyin var?

–Bir bacım var. Texniki universitetdə oxuyur.

– Qəşəng qızsan, maşallah! Bəs bu Ələmdar səni haradan tapıb?

Ayçöhrə bir az duruxdu. Amma, düzünü deməyi qərara aldı.

–Səhərlər parkda idmanla məşğul olandan tanıyırıq bir-birimizi.

–Hə?... Sən də idmançısan?

–Xeyr. Universitetin kimya fakultəsini bitirmişəm. Hələlik işləmirəm.

–Ana, biz səhər yeməyini yeməmişik. – Ələmdar söhbətə ara vermək istədi.

Heç anasından gözləməzdi belə canfəşanlığı:

–Acsınız? Bu saat çay-çörək gətirərəm. – deyib ayağa qalxaraq cəld mətbəxə keçdi.

O, otaqdan çıxan kimi Ələmdar üzünü Ayçöhrəyə tutdu:

–Mənim bəzi işlərim var klubda. İndi getməliyəm. Darıxmayacaqsan ki?

–Yox... – Ayçöhrə başını silkələdi. – Amma, anamgil üçün narahatam.

–Narahat olma, hər şey yaxşı qurtaracaq.

Əminə arvad səhər yeməyi üçün çay-çörək gətirdi. Ələmdar yeməyini tələsik yeyib mənzildən çıxdı. Ayçöhrədən ayrılmaq istəməsə də, sərbəst qalıb fikirləşməli bəzi şeylər var idi. Onu düşündürən və narahat edən məsələlərdən biri də bu idi ki, görəsən





Ayçöhrə atasının əməli barədə eşidəndə nə hala düşəcəkdi? Bu xəbəri necə qarşılayacaqdı?...

Pilləkənlə enəndə xatırladı ki, dünəndən heç Tələtin vəziyyəti ilə maraqlanmayıb... Klubun sambo məşqçisi indi, yəqin ki, Səidin qalmış olduğu mənzildə boş-boşuna oturmaqdan bezmişdi.

## OTUZ DÖRDÜNCÜ FƏSİL

İkinci gecə idi ki, Tələt bu mənzildə gecələyirdi. Gecə narahat yatdığı üçün yuxudan gec ayılmışdı.

Srağagün köhnə məhəllədəki həmin evin damında Ələmdardan ayrılandan sonra, əynində polis geyimi, birbaş bu mənzilə gəlmişdi. Heç nədən qorxusu olmasa da, bir qədər həyəcanlı idi onda. Səid onlarr aldadıb açıq-aşkar tələyə sala bilərdi. Ancaq, başına heç bir macəra gəlmədən taksiyə minib Bakıxanov küçəsindəki bu mənzilə gəldi. Onu başında kepka olan həmin cavan qız izləyirdi. Qapını açarla açıb içəri girdi. Bura ikiotaqlı, orta təmirli, rahat mənzil idi. Qapını içəridən bağlayıb işıqları yandırdı. Otaqdan–otağa gəzib ev əşyalarına nəzər saldı. Paltar şkafında, yəqin ki, Səidə məxsus olan bir dəst paltar asılmışdı. Bundan başqa burada bir çanta da var idi. Çantada bir neçə dəyişik alt paltarı, Səidin fotosu vurulmuş, Hikmət Həsənovun adına yazılmış Rusiya vətəndaşının pasportu, otuz min rus rublu və iki yüz manat pul var idi. Mətbəxdəki soyuducuda isə bir çörək, xama və bir-iki yumurta qalmışdı. Polis formasını soyunub Səidin paltarını geyindi. Yumurtaları bişirib axşam yeməyini yedi. Ondan sonra isə nəyisə gözləyə-gözləyə gecə yarısına kimi gah çarpayıda uzanmış, gah da qalxıb otaqlarda gəzişmişdi.

Dünən isə axşam saat 6-ya kimi onu narahat edən olmamışdı. Stolun üstündəki şəhər telefonu da susurdu. Mobil telefonuna bir dəfə həyat yoldaşı, bacısı, bir də Ələmdar zəng vurmuşdu. Təxminən

saat altıda qapının zəngi çalındı və Tələt baxıb gördü ki, gələn başında kepka olan həmin qızdır. Qapını açdı. Qız əlindəki torbanı dinməz-söyləməz ona verib getdi. Torbada bir mobil telefon, bir də noutbuk var idi. Tələt bu barədə zəng vurub Ələmdara bildirdi. Ələmdar da dedi ki, həmin əşyaları saxlasın, lazım olacaq.

Yeməyin hamısını yeyib qurtarmışdı. Bu saat yaman ac idi. Ancaq, mənzildən çıxmamaq əmri aldığı üçün, lazım gəlsə, aclığa da dözməyə hazır idi.

Tələt "Döyüş" idman klubunda sambo qrupuna məşqçilik etməyə başlayandan Ələmdarın bir çox tapşırıqlarını yerinə yetirmişdi. O, bu igid, cəsarətli və mərd oğlanı özünün doğma qardaşı hesab edir, bəzi işləri şübhə doğursa da, heç bir sorğu-suala tutmadan bütün əmrlərinə tabe olurdu. Keçən ilin avqust ayında isə elə hadisə baş verdi ki, Tələt Ələmdarın gizli olaraq dövlət üçün çalışdığını qəti anladı və özü də bu yolun yolçusuna çevrildi.

Avqust ayının onunda, bazar günü öz maşınında bacısıgilə gedəndə sakit və xəlvət küçələrin birində qarşısını kəsdilər. Maşında tək idi. Tanımadığı adamlar maşınına doluşub onu silahla hədələdilər. Qollarını və gözlərini bağlayıb arxaya keçirdilər. Sonra maşın yola düşdü və onu naməlum bir yerə apardılar.

Kiçik bir otaqda gözlərini açanda, otuz beş yaşlarında, gözünə qara eynək taxmış bir kişinin qarşısında oturduğunu gördü. Stolun arxasında əyləşmiş həmin kişinin yan tərəfində əynində qara paltar, başında qara maska olan ucaboy bir adam dayanmışdı. Stolun arxasında oturmuş eynəkli kişi Tələti sınayıcı baxışlarla bir xeyli süzüb:

–Yaşamaq istəyirsən? – deyə soruşdu.

–Siz kimsiniz, məni niyə tutmusunuz? –Tələt onun sualına sualla cavab verdi.

–Sən hələ de görüm, yaşamaq istəyirsən, ya yox?

–Sən mənə həyat verəcəksən? Allahsan, nəsən?

–Buradan sağ çıxmağın məndən asılıdır. –kişi dedi. –Bir də sənin özünü necə aparmağından.

Tələt iplə möhkəm bağlanmış əllərini qıçının üstünə qoymuşdu.





Hirsindən dişi bağırsağını kəsirdi.

–Məndən nə istəyirsiniz? – dedi. – Sözünüzün canını deyin!

–Sən Ələmdarı öldürməlisən! – Eynəkli adam soyuqqanlıqla dilləndi.

–Kimi dedin?! – Tələt, sanki, qulaqlarına inanmadı.

–Klubunuzun sahibi Ələmdar Məlikovu.

Tələt əvvəlcə qollarını sinəsində çarpazlayıb dayanmış qorxunc görkəmli maskalı adama, sonra isə eynəkli kişiyə baxdı:

–Niyə?

–Çünki mən belə istəyirəm!

–Arvadınla yatıb? –Sambo məşqçisi kinayə ilə ağzını əydi.

–Kəs səsini əclaf! –Kişi əlini hirslə stola vurdu. –Səni bu saat burada öldürüb meyidini dənizə atdıraram.

–Belə lotusansa Ələmdarı özün niyə öldürmürsən?

–Sənin öldürməyin məsləhətdir. Anladın? Bunun üçün sənə əlli min dollar təklif edirik.

Tələtə belə söz demək olardımı? Əlbəttə, yox! İrəli atılıb bağlı əlləri ilə eynəkli kişinin yaxasından yapışdı və elə həmin anda da kəllə ilə onun sifətinə zərbə endirdi. Kişinin burnundan qan açıldı. İkinci zərbəni vurmağa macal tapmamış, maskalı adam özünü yetirib onun çiynindən yapışdı və kənara elə qüvvətli zərbə ilə itələdi ki, Tələt döşəməyə sərildi. Bu zaman bir neçə maskalı adam otağa girib onun gözlərini bağladılar və oradan çıxarıb zirzəmiyə apardılar. Bir neçə saat zülmət qaranlıqda oturdu. Sonra qapı açıldı və kimsə içəri girib tapançanı onun başına dirədi:

–Onacan sayacam. Mənimlə razılaşmasan, təpəni dağıdacam.

Bu həmin eynəkli kişinin səsi idi. Saymağa başladı:

–Bir, iki...

Tələt özünü o qədər təhqir olunmuş hiss edirdi ki, imkanı olsaydı, həmin adamı bu saat dişi-dırnağı ilə parça-parça edərdi.

–Vur! – dedi və dalınca da həmin adamın anasını, bacısını, arvadını bir-birinə qatıb bildiyi ən kəskin söyüşləri yağdırmağa başladı.

Kişi isə səbrlə sayırdı:

–Üç, dörd, beş...

–Altı, yeddi, səkkiz! – Tələt çığırdı. – Say da, köpək oğlu! Məktəbdə saymağı öyrətməyiblər sənə?

–Doqquz, on...

Tələt çalışdı ki, heç nə düşünməsin. Dayanıb, güllənin açılmağını gözləyirdi. Amma güllə açılmadı. Əvəzində, onu təhdid edən adamın səsi gəldi:

–Yaxşı... Deməli, mənimlə razılaşmırsan. İki yüz min verəcəyik. Səni ömrün boyu təmin edəcəyik. Ancaq Ələmdarı vurub, sonra da bizim adamımız olmalısan. Razısan?

Tələt hirsindən güldü:

–Alə, öldürə bilirsən öldür, öldürə bilmirsən, cəhənnəm ol başımdan, get adamını tap!

Bir az da çək-çevir edəndən sonra eynəkli otaqdan çıxdı. İki nəfər otağa girib onu gözübağlı halda otaqdan çıxartdılar. Bir az aparıb yenə maşına mindirdilər. Maşını bir xeyli sürüb, xəlvət bir yerdə saxlayaraq, qollarını açdılar. Tələt gözlərinə bağlanmış dəsmalı çıxarıb özünü öz qara "Mersedes"ində gördü. Yanında heç kəs yox idi...

Sükanın arxasına keçib Ələmdara zəng vurdu. Təcili olaraq onunla görüşmək istədiyini dedi. Ələmdar bildirdi ki, başqa yerdədir və bir azdan kluba gələcək. Görüşən kimi hər çeyi şefinə danışdı. Ələmdar bir qədər fikrə gedib:

–Onlar səni sınayırdılar. – dedi.

–Kimlər? – Tələt heyrətləndi.

–Bu, dövlətin mənafeyi üçün işləyən gizli idarədir. Sən bundan sonra onların ştatdan kənar əməkdaşı sayılırsan.

–Oraya gedib-gələcəm?

–Yox, sən yalnız mənim əmrlərimi yerinə yetirəcəksən və bu işin barədə heç kimə, o cümlədən, anana, arvadına, dostlarına belə deməyəcəksən.

Tələt onun gözlərinin içinə baxdı:

–Sən mənim sədaqətimə inanmırdın?

–Əlbəttə, inanırdım. – Ələmdar dedi. – Sənin sınağa çəkilməyini





onlar istədilər. Mən buna qəti etiraz etdim, razılaşmadılar mənimlə.

Tələt daha heç bir sual vermədi. Bu, xasiyyətində də yox idi. Artıq danışmağı sevmirdi. Amma ona ən qəribə gələn bu oldu ki, sadiq dostları, boks qrupunun məşqçisi, klubda ikinci şəxs hesab olunan İlqar bu hadisədən təxminən iki həftə sonra öldürüldü. Meyidini dənizin kənarından tapmışdılar. Tələt bundan heç nə anlaya bilmədi. Hadisə baş verən vaxt Ələmdar, demək olar ki, bütün günü klubda olmuşdu. Müstəntiqə elə bu cür də dedilər. İstintaq uzandı. Amma, İlqarın qatilləri tapılmadı...

Mətbəxə keçib stolun üstünə, şkafa göz gəzdirdi. Yeməyə heç nə qalmadığını bilsə də, soyuducunun qapısını açıb baxdı. Və elə bu zaman mənzilin zəngi çalındı.

Nə qədər qorxmaz, cəsarətli olsa da həyəcanlanmağa başladı. Ona tapşırılmış bu iş, əslində, qeyri-müəyyən bir iş idi. Kimsə gələndə qapını açıb özünü göstərə bilməzdi. Bəs onda, görəsən, onun bu mənzildə qalmasının nə mənası var idi?

Ayaqlarının ucunda qapıya yaxınlaşıb gözlükdən baxdı. Qapının ağzında on beş-on altı yaşlarında qaraşın bir oğlan uşağı dayanmışdı. Əynində köhnə, cır-cındır paltar var idi. Əlində kiçik bir torba tutmuşdu.

Tələt bir addım geri çəkilib, qapını açıb-açmamaq barədə fikirləşdi. Ələmdar ona demişdi ki, uşaq gələrsə, qapını aça bilər. Görəsən, bu uşaq Səidi tanıyırdımı? Yəqin ki, tanımazdı. Əgər tanıyırsa... Tələt Səidə qətiyyən oxşamırdı. Səidin saçlarının çoxu ağarmışdı, Tələtinki isə hamısı qara idi. Amma, oxşar əlamətlər də vardı. Məsələn, heç biri bığ saxlamırdı. Tələt anadangəlmə qarayanız idi, Səid də çöldə-bayırda çox işlədiyi üçün qaralmışdı. Əynindəki də elə Səidin paltarı idi...

Cəld vanna otağına qaçıb üzünə su vurdu. İri hamam dəsmalını başına salıb, bir əli ilə, guya, başını qurulayaraq o biri əli ilə qapını açdı. Çalışdı ki, bu zaman üzü yaxşı görünməsin. Oğlan əlindəki torbanı ona uzadıb dilləndi:

–Dayı, bunları bir xala göndərdi. Dedi ki, o əmanətləri qaytarsın.

Tələt torbanı ondan aldı.

–Bir dəqiqə gözlə! – deyib, qapını örtdü.

Torbadakı ərzaq idi. Başqa bir şey diqqəti cəlb etmirdi. Tələt fikirləşməyə başladı. "Əmanətlər" deyəndə nəyi nəzərdə tuturlar bunlar? Silah, polis paltarı ola bilərmi? Düzdür, Ələmdar onun ağlını, düşünmə qabiliyyətini həmişə qiymətləndirmişdi. Onu bu barədə İlqardan, Orxandan üstün tutmuşdu. Amma, Tələt belə işlərdə hələ təcrübəsiz idi.

Vaxt itirmədən cib telefonunu çıxarıb Ələmdara zəng vurdu. Oğlanın dediklərini şefinə olduğu kimi çatdırdı və nə edəcəyini soruşdu. Ələmdar heç fikirləşmədən, dərhal göstərişini verdi:

–Polis formasını, silahı, sənə verilən noutbukla telefonu səliqə ilə torbaya yığaraq oğlana ver. Çox yubanma!

Tələt yüyürüb paltar şkafını açdı. Oradan iri bir torba tapıb deyilən şeyləri onun içinə yığdı. Bu zaman tapança ilə səsboğanı qəzet parçasına büküb paltarın arasında gizlətdi.

Oğlan qapının ağzında dayanıb gözləyirdi. Aparıb torbanı ona verən kimi:

–Sağ ol, dayı! – deyib pilləkənlə qaça-qaça düşməyə başladı.

Hər şeyin yaxşı qurtardığını düşünən Tələt dərindən nəfəs alıb otağa qayıtdı. Oğlanın gətirdiyi torbanı açıb içindəkiləri süfrəyə boşaltdı. Burada yarım kiloqrama qədər kolbasa, bir çörək, iki qab xama var idi. Kolbasa ağ kağıza bükülmüşdü. Onu açanda ağ kağızdakı yazı dərhal diqqətini cəlb etdi: "Martın 5-də, günorta saat 2-də şərtləşdiyimiz həmin yerdə ol. Mənim üçün üç dənə qərənfil alarsan. Geciksən, məni bir də görməyəcəksən. Rusarə"

Məktubu bir neçə dəfə oxudu. Lap yəqin ki, Bakıdakı gizli erməni təşkilatı Səidi görüşə çağırırdı. Rusarə də, yəqin qondarma bir ad idi. Yaxşı, bəs görüşün yerini niyə yazmamışdılar? Bu görüş harada olmalıydı?

Telefonunu çıxarıb məktubu nöqtə-vergülünə qədər dəqiq köçürdü və onu yazılı mesaj şəklində Ələmdara göndərdi.

Bir dəqiqə sonra Tələt artıq inanırdı ki, onun göndərdiyi mesaj Ələmdarın və deməli, həm də özünün xidmət etdiyi gizli dövlət idarəsinin rəhbərinə çatdırılıb. Bunu düşünəndən sonra xama ilə çörəyi qabağına çəkib iştahla yeməyə girişdi.





## OTUZ BEŞİNCİ FƏSİL

Günorta idi. Polkovnik Baratov, mayor Cavadov və kapitan Yusifov kabinetdə oturmuşdular. Hər üçünün qanı bərk qaralmışdı. Polkovnikin isə üz-gözündən, sanki, zəhrimar tökülürdü. Cavadovla Yusifov gözlərini monitora zilləmişdilər. Baratov bir əlini çənəsinə dayaq verib stolun üstündəki ağ vərəqdə kompüter vasitəsilə çap edilmiş yazıya baxırdı. Bu yazını bayaqdan, bəlkə, yüz dəfə oxumuşdu: "Martın 5-də, günorta saat 2-də şərtləşdiyimiz həmin yerdə ol. Mənim üçün üç dənə qərənfil alarsan. Geciksən, məni bir də görməyəcəksən. Rusarə"

Bu məktubu üç saat bundan əvvəl Leopard ona mesajla göndərmişdi. Mesajı alan kimi Səidi yenidən sorğu-suala tutmağa başlamışdılar. Bu dəfə ondan, konkret olaraq, məktubda nəzərdə tutulan görüşün harada olacağını soruşurdular. Əgər Səid görüş yerini onlara bildirsəydi, uzaqbaşı, həmin vaxt başqa bir adamı qrimləyib onun əvəzinə görüşə göndərmək olardı. Əlbəttə, əgər Səid görüşə getmək istəməsəydi...

Ancaq, Səid görüş yerini bildirməkdən qəti şəkildə imtina edirdi. Zorakılığın da daha heç bir əhəmiyyəti qalmamışdı. Mədəsi və ciyəri kimi ürəyi də xəstə olan Səid dözümünün son həddində:

–Anam onların əlindədir!... Anam!... Anam!... – deyib özündən gedirdi.

Onu belə hallarda özünə gətirmək getdikcə çətinləşirdi. Mesajın alınmasından bir saat sonra isə kapitan Yusifov Baratova xoşagəlməz məlumat vermişdi. Polkovnikin çox dilxor vəziyyətdə olmasının bir səbəbi də bu idi.

Bakıxanov küçəsindəki evi nəzarətdə saxlayan əməkdaşlar bloka əlində kiçik torba tutmuş qarayanız bir oğlanın girdiyini görüb ondan şübhələniblərmiş. Onlar bu barədə dərhal kapitan Yusifova məlumat veriblər. Yusifov oğlanın blokdan çıxandan sonra güdülməsi barədə əmr verib. Əməkdaşlardan biri blokdan bu dəfə iri bir torba ilə çıxan

oğlanın dalınca düşüb. Oğlan avtobusa minərək bir də Respublika klinik xəstəxanasının qarşısında yerə enib. Xəstəxananın həyətinə girərək qarşısındakı birinci binaya daxil olub. Bu zaman oğlanı izləyən əməkdaş onu şübhələndirməmək üçün addımlarını bir az yavaşıdıb. Korpusa girəndən sonra oğlanı görməyib. İyirmi dəqiqəyə qədər ora-bura vurnuxandan sonra başa düşüb ki, oğlan binaya daxil olan kimi dərhal arxa qapıdan çıxıbmış...

Beləliklə, oğlanı itirmişdilər. Ondan sonra Səidi dönə-dönə danışdırıb görüş yeri barəsində soruşmuşdularsa da bu adamdan heç bir söz qopara bilməmişdilər.

Əsəbləşib, sanki, cin atına minmiş Baratov hirsini Leopardın üstünə tökmək üçün bir az əvvəl onu yanına çağırmışdı. Belə çıxırdı ki, gizli təşkilat onun şöbəsi ilə oyun oynayırdı. Baratov bir şeyi anlamırdı ki, həmin gizli təşkilat bu ehtiyat tədbirlərini niyə görür. Onlar hələ də Səiddən şübhələnirdilər, yoxsa, ehtiyatlı davranmaq, sadəcə olaraq, iş prinsipləridir?...

İndi də mayor Cavadov Səidi yola gətirmək üçün başqa bir vasitəyə əl atmışdı. O, Fəxriyyə xanımı təklikdə dindirərək Səidin tələbəlik vaxtı hansı musiqiləri daha çox sevdiyini öyrənibmiş. Fəxriyyə xanım deyibmiş ki, Səid o vaxtlar "Simayi-Şəms", "Heyratı" muğamlarını, "Ayrılıq", "Dünya mənim" mahnılarını dinləməyi xoşlayırdı. Amma ən çox sevdiyi bir kərkük mahnısı imiş. Bu mahnını dinləyəndə kövrəlirmiş həmişə:

–Evlərinin dalı qaya,
Qayadan baxırlar aya.
Mənim yarım ağca maya...

Cavadov indi bu saat kompüterin arxasında oturub, seçdiyi musiqiləri növbə ilə Səidin oturduğu kameraya göndərirdi. Sonra isə Yusifovla birlikdə onun keçirdiyi hiss-həyəcanı izləyirdilər.

Mayor artıq bir neçə musiqi parçasını səsləndirmişdi. Səidin necə sakit dayanıb bunları dinlədiyini monitorda aydın görürdülər.

–Mən inanmıram, bundan bir şey çıxa, Cavadov! – polkovnik əsəbi halda dilləndi. – O, insanlığını çoxdan itirib.

Cavadov başını asta hərəkətlə buladı:





–Bəs niyə anasını bu qədər sevir?

–Elə heyvan balaları da analarını sevirlər!

Mayor daha etiraz etmədi və axıra saxladığı musiqini kameraya göndərdi. Kərkük xalq mahnısını.

Səid birdən-birə yerində dikəldi. Deyəsən, nəsə xatırlamışdı. Gözləri böyümüşdü, elə bil. Dodaqları əsirdi. Hər üç zabit diqqətlərini toplayıb onun üzündə gedən dəyişiklikləri izləməyə başladılar.

Müğənni ürəkparçalayan qəmli bir səslə oxuyurdu:

–Evlərinin dalı yonca,
Yonca qalxıb dam boyunca...

Fəxriyyə xanımın deməyinə görə, Səidgilin Xocalıdakı evinin dalında da çoxlu yonca bitirmiş. Bunu Səid özü deyibmiş o vaxt sevdiyi qıza...

Səid sakit-sakit ağlayırdı. Gözlərindən süzülüb yanaqları ilə diyirlənən göz yaşları monitorda aydın şəkildə görünürdü.

Bu, Cavadovun da, rəisin də ürəyində müəyyən qədər ümid oyatdı. Birisigün günorta saat 2-də Səidlə gizli təşkilat üzvlərindən birinin görüşü olmalıydı və o vaxta qədər Səid yola gəlib onlara kömək etməyə razılaşmasaydı, bu çox pis nəticələr verə bilərdi.

Musiqi qurtaran kimi Cavadov ayağa qalxıb kameraya getdi. İçəri girib Səidlə üzbəüz oturdu. Onun dalğın və kədərli üzünə bir qədər göz gəzdirib sözə başladı:

–Səid, sən gəl bizi incitmə... Birisigün görüşünüz harada olmalıdır, onu bizə de! Görüşə getməyə və bizim səni izləməyimizə razı ol. Yox, əgər bunu istəmirsənsə, heç olmasa, görüşün olacağı yeri de! Sən türksən! Sənin ürəyində insanlıq hisslərin, milli duyğuların hələ ölməyib. Bax, kərkük xalq mahnısına necə ağlayırsan... Mən də çox sevirəm bu mahnını. Biz eyni qandan, eyni millətdənik. Sən bizim qəddar düşmənlərimizin xeyrinə çalışırsan. Bu qrup Bakıda neçə-neçə terror həyata keçirəcək. Təsəvvür elə ki, bir metro stansiyasında, ya bir məktəbdə, əhalinin gur olduğu başqa bir yerdə partlayış törətsələr neçə qadın-uşaq qanına suvanacaq. Dövlətimizə, millətimizə nə qədər ziyan vurulacaq. Sən axı niyə istəmirsən onların tutulmağını?

Səid üzündəki göz yaşlarını əli ilə quruladı:

–Xocalıdakı evimiz yadıma düşdü, ona görə ağladım...

–Yaxşı, indi sən bizə görüşün harada olacağını deyəcəksən, ya yox?

–Yox... –Səid başını sinəsinə endirdi. – Deməyəcəm...

–Niyə axı?

– Səbəbini özünüz bilirsiniz...

Baratovla kapitan Yusifov monitorda Səidin dindirilməsini izləyirdilər. Polkovnikin telefonuna mesaj gəldi. O, mesajı oxuyub Yusifova baxdı:

– Çıx onu qarşıla!

Kapitan cəld ayağa qalxıb otaqdan çıxdı. Bir-iki dəqiqə sonra isə üzündə maska olan Ələmdarla geri qayıtdı. Ələmdar maskanı başından sıyırıb çıxararaq polkovnikə salam verdi.

Baratov onun salamını bir qədər soyuq şəkildə aldı və əyləşməyə stul göstərdi:

– Əyləş, Leopard! Ayçöhrədi – nədi o qızın adı, ona olan məhəbbətinin ucbatından bizi elə bəlaya salmısan ki, hələ də bundan qurtara bilmirik.

Ələmdar heç nə demədən əyləşib üzünü monitora tutdu. İndi orada Səid danışırdı:

– Yüz dəfə, min dəfə demişəm, yenə deyirəm. Mən sizə kömək etsəm, bunu o saat Ermənistanda biləcəklər. Onda anamın başına gələcək dəhşətləri bircə saniyə düşünəndə az qalıram dəli olam. Mən bunu eləyə bilmərəm! Eləyə bilmərəm! Gedin, özünüz nə bacarırsınız eləyin, amma əl çəkin məndən. Mən heç nə deməyəcəm! Allah hamınızın balanızı versin! Sizin də, onların da! Anam onsuz da bu saat əsirlikdədir. Cəhənnəm əzabındadır. Yüzlərlə belə qadınlarımız qalıb indi orada. Ancaq, mən razı ola bilmərəm ki, anamı diri-diri yandırsınlar, dərisini soyub duz bassınlar, kürəyində samovar qaynatsınlar! İstəmirəm! İstəmirəm! Rədd olun başımdan, bir də məndən heç nə soruşmayın!

Cavadov susmuşdu. Bu zaman Baratov yerindən qalxıb hirslə gəzişməyə başladı:

– Bax, görürsənmi, Məlikov, bu da sənin yersiz ürəyi yumşaqlığının nəticəsi! Sən dözüb o ailənin öldürülməsini gözləyə bilsəydin, biz bu terrorçu təşkilatı rahatlıqla ifşa edəcəkdik. İndi onlar Şəmistanın ailəsi kimi neçə-neçə günahsız ailəni məhv eləyəndə buna sən cavab verəcəksən!

Ələmdar dodaqlarını gəmirib üzünü yana çevirdi:

– Mən ürəyiyumşaq deyiləm, cənab polkonik, bunu özünüz də bilirsiniz.

– Bəs onda niyə pozdun əmri?! O qıza görə? Kobra əməliyyatında Məltəm xanımla münasibətinizi başa düşüb sənə güzəştə getdik, bəs bu Ayçöhrə xanım haradan çıxdı?

Ələmdar birdən kəskin hərəkətlə ayağa qalxdı. Maskanı başına keçirib otaqdan çıxdı.

– Dayan, hara gedirsən?! – deyən polkovniki heç eşitmədi də.

Dəhlizlə yeriyib, Səidin olduğu kameraya girdi. Mayor Cavadov da, Səid də qeyri – ixtiyari olaraq diksinib ayağa qalxdılar. Qara maskadan yalnız qəzəbli gözləri və sərt dodaqları görünən Leopard Səidin yaxasından yapışıb onun sifətinə qüvvətli yumruq zərbəsi endirdi. Səidin kürəyi divara dəydi və o, yerə çökdü.

Cavadov özünü itirib:

– Sən nə edirsən, Leopard?! – dedisə də Ələmdar onu eşitmək istəmədi.

Səidi yenidən qaldırıb:

– Bizi dolamısan, əclaf?! – dedi və ikinci zərbəni endirdi.

İkiqat qatlanıb döşəmədə qıvrılan Səidə elə gəldi ki, qarnına dəyən bu zərbədən sağ çıxmayacaq daha. Əlləri ilə özünü qorumağa çalışaraq:

– Vurma!... Vurma!... – dedi.

Ələmdar onu sol əli ilə ayağa qaldırıb qarşısında saxladı. Sağ əlinin pəncəsini geniş açaraq havaya qaldırdı. Bu zərbənin artıq ölüm zərbəsi olacağını dərhal anlayan Cavadov qışqırıb əliylə onu saxlamağa çalışsa da bu bir nəticə vermədi. Bu zaman Ələmdarın pəncəsinə qorxu ilə baxan Səid birdən boğula-boğula dilləndi:

– Sənin anan olsaydı orada, neylərdin?!...

Bu sözlərdən Ələmdarın yuxarı qalxmış əli birdən-birə boşaldı. Bir neçə an heç nə demədən Səidin dəhşət ifadə edən bərəlmiş gözlərinə baxıb onu sol əli ilə itələdi. Səid büdrəyib stula çökdü.

Ələmdar isə qapını hirslə açıb otaqdan çıxdı. Dəhliz boyu gedib həyətə düşdü. Küçə qapısında dayanmış silahlı əsgəri əlinin kəskin hərəkətiylə yolundan itələyib Məxfi şöbənin həyətini tərk etdi. Səkidə, nə yaxşı ki, heç kəs yox idi. Maskanı başından çıxarıb səki ilə addımlamağa başladı. Maşınını bir qədər qabaqda saxlamışdı...

## OTUZ ALTINCI FƏSİL

Ələmdar evə qayıdanda axşam saat səkkizi ötmüşdü. Məxfi şöbədən çıxdıqdan sonra bir qədər məqsədsiz halda maşınla şəhərdə gəzmiş, sonra isə idman klubuna getmişdi. Tələt olmadığı üçün burada işlərə Orxan nəzarət edirdi. Kabinetindəki divanda uzanıb bir xeyli düşünmüş, sonra qalxıb evə gəlmişdi. Ayçöhrə burada olmasaydı, yəqin ki, bu gecə mənzilinə qayıtmayacaqdı. Hiss edirdi ki, az vaxtın içində qıza yaman öyrəşib.

Qapını Əminə arvad açdı. Əhvalının yaxşı olmağından Ələmdar o saat başa düşdü ki, anası Ayçöhrəni bəyənib. Oğlunu içəri ötürüb:

– Gəl görüm, harada qalmısan. – dedi.

– Klubda idim.

Ələmdar bunu deyib otağa girdi. Divanda əyləşmiş Ayçöhrə onu görən kimi ayağa qalxdı. Ələmdar hiss elədi ki, qız ondan utanır, üzünə düz - əməlli baxa bilmir.

– Necəsən? – deyə soruşdu.

– Yaxşıyam. – Ayçöhrə içəri girən Əminə arvada baxıb gülümsədi. – Əminə xala ilə doyunca söhbət eləmişik.

– Nədən?

– Öz cavanlığından, sənin uşaqlığından danışıb, mən də qulaq asmışam.

– Uşaq vaxtı məni hər gün döydüyünü də danışıb?

– Hə! – Ayçöhrə güldü. – Döyülməli uşağı döyərlər də...





– Acsan? – Əminə arvad sözə qarışdı.

– Yox, bir azdan yeyərik. – Ələmdar dedi.

– Ayçöhrə qızım bu gün o qədər kömək eləyib ki mənə. Yazıq lap əldən düşüb. Evi yığışdırıb, xörək bişirməyə kömək eləyib.

Ayçöhrə utanıb başını aşağı dikdi.

– Yaxşı, bəs Reyhanə hanı? – Ələmdar soruşdu. – Yatır?

Anası bir az tutuldu:

– Dərsdən gələndə dedi ki, kirayədə qalan bir qrup yoldaşının yanında yer boşalıb, onunla qalmaq istəyir.

– Niyə?

– Nə bilim?... Çox dedim ki, burada qal, razılaşmadı. Dedi ki, yoldaşı ilə qalsa dərslərini də birlikdə hazırlayarlar, bir- birlərinə kömək edərlər.

Ələmdar hər şeyi başa düşdü. Başa düşdü ki, Reyhanə onunla etdiyi söhbətə görə evdən gedib. Bir də ki, Ayçöhrəyə görə... Başa düşüb ki, daha bu evin gəlini ola bilməyəcək.

Ayçöhrəyə baxdı. Qız, nəyə görəsə, susub gözlərini stolun üstündəki boş güldana zilləmişdi.

Anası çay gətirdi. Süfrəyə qarağat mürəbbəsi qoydu. Ələmdar gizlincə anasına göz yetirirdi. Qadın necə də qocalmışdı...

Səidin ona dediyi sözlər yadına düşdü: “Sənin anan olsaydı orada neylərdin?”. Əslində, bu sözlər Məxfi şöbədən çıxandan bir an da olsa beynini tərk etməmişdi. “Sənin anan olsaydı orada, neylərdin?”

Çalışdı ki, öz anasını təsəvvür eləsin ermənilərin əsirliyində. Ağlına gələni tez də başından qovdu. Orada əsirlərin necə ağlasığmaz işgəncələrə məruz qaldığını yaxşı bilirdi. 1993- cü ildə özü də olmuşdu əsirlikdə. Cəmi bir neçə saatlığa... Sonra nəzarətçiləri öldürüb qaçmışdı. Amma həmin bir neçə saat bəs edirdi ki, əsirliyin nə demək olduğunu ömrünün axırına qədər unutmasın.

Yenə anasını Səidin anasının yerində təsəvvür etməyə çalışdı. Hiss etdi ki, təkcə bu təsəvvürün özündən əsəbləşir. Onu maraqlandıran bir suala anasının özündən cavab almağa çalışdı:

– Ana...

– Nədi qadanı alım?

Anası onu çox nadir hallarda belə şirin dindirmişdi. İndi də, yəqin ki, Ayçöhrəyə görə idi bu mehribanlıq.

Ələmdar yenə yalan quraşdırmağa məcbur oldu:

– Bayaq klubda oturanda televizorda bir filmə baxdım. Demək, oğul ilə anası düşmənə əsir düşür. Düşmən ananı girov saxlayıb, oğulu öz vətəninə təxribata göndərir. Mənə yaman təsir elədi bu film... De görüm, onların yerində biz olsaq, sən razı olarsan ki, mən düşmənin tapşırığını yerinə yetirim?

Əminə arvad Ayçöhrəyə bir anlıq nəzər salıb yenə üzünü oğluna tutdu:

– Ə, köpək oğlu, bizim nəslimizdə satqın olub bəyəm?

– Yox da... – Ələmdar söz axtardı. – Mən düşmənin tapşırığını yerinə yetirməsəm, səni işgəncə ilə öldürərlər axı...

Anası qarşısındakı boş stəkanı nəlbəkidə hərləyib bir az fikrə getdi. Sonra birdən - birə başını qaldırdı:

– Sən bu vaxta qədər hər cür əclaflıq eləmisən. Məktəbdən davakarlığına görə qovublar, əsgərlikdə olanda tuturdular, güclə qurtardım, sonra adam bıçaqlayıb türməyə düşmüsən. Daha nə bilim, nələr eləmisən, hamısını sonradan da olsa bağışlamışam. Ancaq, öz torpağını, elini – obanı satsan südümü sənə halal eləmərəm. İmkanım olsa, öz əlimlə boğaram səni.

– Bəs axı səni... – Ələmdar əl çəkmədi.

– Əşi qurtar görək, qələt eləmə! – anası acıqlandı. – Çayını iç! Mənim bir ayağım burdadı, bir ayağım gorda. Onsuz da dünyanı tutub durmayacam. Öləcəm, aparıb basdıracaqsan, qırx gündən sonra da unudub öz kefində olacaqsan. Ancaq satqınlıq eləsən, elinə–obana xain çıxsan, ölənəcən özünü, öləndən sonra da nəslini rüsvay eləyəcəksən. Başa düşdün? Sənin atanın, düzdür, həmişə dalınca söymüşəm, qarğış eləmişəm. Sənin üzünü bir dəfə də görmədi. Ömrü türmələrdə keçdi. Amma, o da kişi adam olub. Millətinin, torpağının təəssübünü çəkən olub. – Üzünü bu dəfə Ayçöhrəyə tutdu. – O vaxt, 20 yanvarda Bakıda qırğın olanda bunun atası türmədə idi. Eşidən kimi infarkt vurmuşdu kişini. Elə bir az sonra həmin infarktdan getdi...





– Siz Ələmdarın belə danışmağına baxmayın. – Ayçöhrə sıxıla – sıxıla sözə qarışdı. – O da heç vaxt vətəninə xəyanət eləməz.

– Əşi, boş-boş danışır də! – Əminə arvad əlini yellədi. – Ölmüşdü Əminə, erməni dığasına əsir düşə!

Ələmdar ayağa qalxıb balkona çıxdı. Birdən-birə İlqarı xatırlamışdı. “Döyüş” idman klubu fəaliyyətə başlayandan İlqar onun sağ qolu olmuşdu. Boks qrupuna məşqçilik edən bu dolu bədənli, qara bığları bir qədər ətli sifətinə yaraşıq verən oğlan onun ən çox inandığı birinci adamı idi. Ondan sonra Tələt gəlirdi, daha sonra Orxan. Hətta, şəkər xəstəsi olan anasını çox vaxt Cəhalə həkimin yanına onunla göndərirdi. Məxfi şöbə onu gizli tapşırıqla harasa yollayanda anasını da, klubu da ona tapşırırdı. Şöbənin Bakı daxilində verilən tapşırıqlarının yerinə yetirilməsində bu üç dostu ona kömək edirdilər. Əlbəttə, onun dövlət əhəmiyyətli məxfi agent olduğunu bilmədən.

Keçən ilin avqustunda polkovnik Baratov dedi ki, əgər sən bu adamlardan istifadə edirsənsə, biz onları dərindən yoxlayıb ştatdankənar əməkdaşımız kimi işə qəbul edə bilərik. Ələmdar da ona cavab verdi ki, onların hər üçünü əməkdaşlığa cəlb etmək olar. Sınamağa heç bir ehtiyac yoxdur, çünki onlar neçə illərin dostluq sınağından çıxıblar. Baratov bu fikirlə qətiyyən razılaşmadı və bildirdi ki, onlar hökmən ciddi sınaqdan keçməlidir. Sonra polkovnik kapitan Yusifovu çağırıb bu işi ona tapşırdı.

Birinci Tələtdən başladılar. Yusifovun adamları onu gizlincə ələ keçirib gözübağlı halda şöbəyə gətirdilər. Kiçik bir otaqda onu kapitan Yusifov özü danışdırdı. Ələmdar isə paltarını dəyişib, başına maska keçirərək kapitanın yanında dayandı. Tələt də, ondan bir həftə sonra oğurlanıb danışdırılan Orxan da sınaqdan yaxşı çıxdılar. Tələt, hətta ona öz dostunu öldürməyi təklif edən Yusifova Ələmdarın gözü qarşısında başı ilə zərbə də endirdi.

Baratov bu adamların hər üçünün keçmişi haqqında dəqiq məlumat toplatdırıbmış. Bu məlumatları Ələmdarın nəzərinə çatdıranda dedi ki, Tələtlə Orxanın keçmişinə sözü yoxdur, amma İlqarın nəsil şəcərəsində bəzi şübhəli məqamlar var. Ələmdar buna

etiraz edəndə polkovnik bildirdi ki, o özü də bu məqamlara ciddi əhəmiyyət vermir, amma İlqar ciddi sınaqdan keçməsə onu əməkdaşlığa yaxın belə buraxmaq olmaz.

Beləliklə, İlqarı da gözübağlı vəziyyətdə şöbəyə gətirdilər. Həmin otaqda gözlərini açıb danışdırmağa başladılar. Ələmdar stolun arxasında oturmuş kapitan Yusifovdan bir qədər sağda, maskalı geyimdə ayaq üstə dayanmışdı.

Kapitan İlqarı mehribanlıqla danışdırıb bildirdi ki, onu gizli təşkilata cəlb etmək istəyir və sonra birdən-birə mətləbə keçdi.

– Birinci tapşırığımız budur ki, sən işlədiyin klubun sahibi Məlikov Ələmdarı öldürməlisən. Bunun üçün sənə yüz min ABŞ dolları verəcəyik.

İlqar təəccüblə gah Yusifova, gah da qollarını sinəsində çarpazlayıb dik dayanmış Ələmdara baxdı:

– Siz nə danışırsınız? Mən Ələmdarı nə üçün öldürməliyəm?

– Bunu sonra bilərsən. İndi sözünü de, razısan, ya yox? Ya yüz mini seç, ya da...

Yusifov susub onun gözlərinin içinə baxdı. İlqar yaman fikrə getmişdi. Ələmdar da narahat halda onun nə deyəcəyini gözləyirdi. Nəhayət ki, udquna-udquna dilləndi:

– Siz axı nə üçün bu işə görə məni seçdiniz?

–Çünki, bunu ən yaxşı sən bacararsan. – Yusifov dedi. – Nə deyirsən?

Ələmdar bərk həyəcan keçirməyə başlamışdı. İlqar niyə belə danışırdı? Hiylə işlədirdi, yoxsa?...

–Mən bunu bacarmaram... – axır ki, İlqar fikrini bildirdi.

Amma, kapitan artıq ondan şübhələnmişdi. Onu bir qədər hədələyəndən sonra otaqda tək buraxıb çıxdılar. Yarım saat sonra isə yenidən qayıtdılar.

–Sənin nazınla oynamağa vaxtımız azdır. –Gözünə qara şüşəli eynək taxmış Yusifov dedi. – Qurtar görək! Yüz əlli min dollar! Necədir? Hələ təşkil edəcəyik ki, işlədiyin klub da sənin adına keçsin. Sən bizə lazım olacaqsan.

İlqar yenə bir qədər susub, başını qaldırdı:





– Razıyam, amma, birincisi, bunu heç kəs bilməyəcək...

– Belə də olacaq! –Yusifov inamla dedi.

– Bir də ki... – İlqar tərəddüdlə dedi. –Əlli mini qabaqcadan verin.

– Yox! –kapitan başını buladı. – Biz pulun hamısını birdən, Ələmdar öldürüləndən sonra verəcəyik. Buna yüz faiz arxayın ola bilərsən.

İlqar daha mübahisə etməyib razılaşdı və onu buraxdılar. Ələmdar məxfi şöbədən çıxan kimi dərhal kluba gəldi. O, yenə iki fikrin arasında tərəddüd edirdi. Ola bilsin ki, İlqar özünü xilas etmək üçün Yusifovu aldatmışdı.

Amma İlqar həmin gün daha kluba gəlmədi və Ələmdar açıq-aşkar narahatlıq keçirməyə başladı. Doğrudanmı, İlqar ona xain çıxmışdı?... Səhəri gözləməyə çox çətinliklə səbri çatdı. Səhər İlqar işə vaxtında gəldi. Tələt də, Orxan da sınaqdan çıxan kimi dərhal öz şeflərini tapıb, başlarına gələni ona danışmışdılar. İlqar isə Ələmdara heç nə demək fikrində deyildi, deyəsən.

Əl tutub görüşəndə Ələmdar onun gözlərinin içinə baxdı və İlqar o saat baxışlarını yayındırdı. Aha! Deməli, o, doğrudan da, Ələmdarı öldürmək fikrindəymiş! Pula görə!... Bu, Ələmdarın nəzərində çox ağılasığmaz bir şey idi. Necə ola bilərdi, axı bu? Ələmdar ona inanmışdı, qardaş bilmişdi onu özünə...

O gün İlqar çox fikirli görünür, özünü şübhəli aparırdı. Ələmdar bir-iki dəfə öz işini atıb onun məşq keçdiyi zala getdi. Yanında dayandı. Bir yerdə qərar tuta bilmir, getdikcə əsəbləşirdi.

Gözləyirdi. Gözləyirdi ki, İlqar ona verilən tapşırığı yerinə yetirmək üçün ilk addımı atsın. Onun cavabını bundan sonra vermək istəyirdi. Yaxşıca döyüb, qovacaqdı onu.

Baratov demişdi ki, belə vəziyyət qorxuludur. O, hətta vəziyyətdən çıxmaq üçün öz təklifini də vermişdi. Demişdi, İlqarı yenidən kapitan Yusifovun yanına gətirmək və demək lazımdır ki, göstəriş ləğv olunur, Ələmdarı hələlik öldürmək lazım deyil. Amma Ələmdar rəisinin bu təklifi ilə razılaşmamışdı. Xahiş etmişdi ki, bir az gözləsinlər, görək bu əclaf nə edəcək.

İki gün beləcə keçdi. Üçüncü gün axşam İlqarın öldürülməsi

xəbərini eşitdilər. Ələmdarı da, Tələtlə, Orxanı da prokurorluğa çağırıb danışdırdılar. İlqarın meyidini dənizin kənarından tapıblarmış. Bədənində beş-altı bıçaq yarası aşkar edilibmiş. Ölümün baş verdiyi vaxt Ələmdar klubda öz yoldaşları ilə bir yerdə olmuşdu. Buna başqa şahidlər də var idi. Onları danışdırıb, buraxdılar. İlqarın qatili isə tapılmadı.

Polkovnik Baratov bu işdə Ələmdardan şübhələndi. Ələmdar isə ona ciddi və qəti şəkildə bildirdi ki, İlqarın ölümündə onun heç bir günahı yoxdur.

Daha bir-iki gün keçdi. Həbsxanadan Ələmdara xəbər gəldi ki, Dördbarmaq Ağaşamil onunla görüşmək istəyir. Bu qoca bir vaxt Ələmdarın atası ilə həbsdə bir yerdə olmuşdu. Dostluq eləmişdilər. Üstəlik, onun Fatimə adlı qızına Ələmdarın çox köməyi dəymişdi. Ağaşamil qızının namusunu qorumaq üstündə qoca vaxtında yenidən həbsə düşəndən sonra da Ələmdar Fatimə ilə maraqlanmış, çətinliyi olanda yardımını əsirgəməmişdi.

Dəvəti qəbul edib, həbsxanaya görüşə getdi. Həmin gün Fatimə də əri Fərhadla görüşə gəlmişdi. Altı aylıq oğulları Fətəlini də babasının yanına gətirmişdilər. Ağaşamilin kefi yaman kök idi.

Ancaq Ələmdarla görüşəndən sonra birdən-birə ciddiləşdi. Onu bir az kənara çəkib astadan dilləndi:

– Qardaşoğlu, bilirsən səni nəyə görə çağırmışam? Səndən ötrü narahat oldum. Mən bilən, kimsə səni aradan götürmək istəyir. Çağırdım ki, ehtiyatlı olasan. O dostun İlqar vardı ha, Maştağada yaşayan bir nəfəri haradansa tanıyırmış. Onunla görüşüb, səni öldürmək üçün əlli min pul boyun olmuşdu. Həmin adam bunu mənə o saat çatdırdı. O, sənin kim olduğunu, kimin oğlu olduğunu bilir. Mən bundan çox əsəbləşdim. Tapşırdım ki, bir də gələndə, başını əksin it oğlunun. Aydındır, nə deyirəm?

Ələmdar bir qədər susub:

– Kimdir o adam? – deyə soruşdu.

Ağaşamil xırıltılı səslə güldü:

– Qardaşoğlu, mən onun adını niyə deməliyəm sənə? Nəyinə lazımdır?Təşəkkür eləmək istəyirsənsə, lazım deyil. Amma, bundan





sonra kimə etibar etdiyinə, kiminlə dostluq etdiyinə yaxşı fikir ver.

Ələmdar bu xəbərdən çox pis oldu. Deməli, İlqar onu öldürmək üçün adam tutmaq istəyirmiş. Əclaf!

O gün Ağaşamilə daha heç nə demədi. Qızının namusunu qorumaq üçün adam öldürmüş, oğullarını namusuna qurban vermiş bu kişi satqınlığı, xainliyi bağışlamağı bacarmırdı. Onu bu hərəkətinə görə qınamağın da mənası yox idi. Həbsxanadan çıxıb birbaş evə gəldi.

Səhəri gün Tələtlə Orxanı da götürüb İlqarın evinə baş çəkdi. Gənc arvadına bir daha baş sağlığı verib, bir çətinliyi-filanı olarsa, dərhal bildirməsini tapşırdı. Sonra ona bir qədər pul da verib çıxdılar.

İlqarın ölümündə bəzən özünü, bəzən də Baratovu günahkar bilirdi. Axı nəyə lazım idi onu sınamaq? Dünyada o qədər adamlar var ki, bir az çətin sınağa çəksən, İlqar kimi xarab çıxacaq. Nəyə lazımdır bu? Bəzənsə fikirləşirdi ki, yox, lazım imiş bu sınaq. Yoxsa ömrü boyu içindəkiləri bilməyə-bilməyə dostluq edəcəkdi onunla...

Ələmdar balkonda dayanıb bunları fikirləşəndə Ayçöhrə arxadan gəlib əlini onun çiyninə qoydu:

–Neynirsən burada?

Dönüb qızın üzünə gülümsədi.

–Darıxırsan?

–Yox. Bir az anamgil üçün narahatam. Amma, sənə nəsə olub, deyəsən.

Səhər yataqda olan əhvalata görə Ayçöhrə hələ də açılışa bilmirdi onunla. Ələmdar da xatırladı bu səhər aldığı ləzzəti və ona elə gəldi ki, bu saat dünyada onun üçün Ayçöhrədən əziz heç kəs yoxdur.

– Mənə heç nə olmayıb. – dedi. –Nə də, sən narahat olma, bir-iki günə o adamlar tutulacaq, ailənizi buraxacaqlar.

Ayçöhrə başını tərpətdi. Deyəsən, daha bu mövzuda danışmaq istəmirdi. Amma, sözlü adama oxşayırdı. Handan-hana özünü toplayıb ürəyindəkini demək istədi:

– Ələmdar!...

– Nədi, Ayçöhrə?

– Mənim haqqımda fikrin nədir?

– Nə mənada? – Ələmdar onu tam anlamadı.
– Evlənmək istəyirsən mənimlə?
– Yoxsa, bura gətirməzdim ki, səni...
– Ananı da çox sevdim.
– O da bəyənib səni. O saat hiss elədim.
Ayçöhrə balkondan aşağı baxmağa başladı. Hiss olunurdu ki, ürəyindəki sözünü deməyib hələ. Nədənsə çətinlik çəkirdi. Nəhayət, başını qaldırıb Ələmdara baxmadan dilləndi:
– Səhərki hərəkətimə görə qınayırsan məni?
– Niyə qınamalıyam ki?
– Dəlilik elədim, deyəsən.
– Qətiyyən! Sən çox ağıllı qızsan. Hərəkətlərində də qeyri-adi heç nə yox idi.
– Yuxuda səni görüb ayıldım... Özümdə deyildim doğrusu...
– Peşmansan? – Ələmdar onun gözlərinə baxmaq istədisə də, bu alınmadı.
– Yox... – Ayçöhrə səsini alçaltdı. – Düzünü desəm, heç belə xoşbəxt hiss eləməmişdim özümü.
– Mən də!
– Mənə elə gəlir ki, həyat çox gözəldir. Heç bir pis şey yoxdur bu dünyada. Elə bil, hamı mənim kimi xoşbəxtdir.
– Hə...
Ələmdar belə desə də başqa cür düşünürdü. Yaxşı bilirdi ki, dünyada heç də hər şey yaxşı deyil. Heç də hamı özünü xoşbəxt hesab etmir. Bu dünyada Ayçöhrə kimi xoşbəxt qız olduğu kimi, Səidin anası kimi qadın da var.
– Atamgil buraxılan kimi elçi göndərərsən, yaxşı?
Ələmdar bilmirdi ki, onun atasını nə vaxt buraxacaqlar. Şəmistanın əməli dövlətə elə bir ziyan vurmasa da, Bakıda fəaliyyət göstərən düşmən qrupun olduğunu bilib, bu barədə vaxtında məlumat verməmişdi. Hər halda ona cəza veriləcəkdi. Amma, gec də olsa verdiyi səmimi izahata görə, bəlkə yüngülləşdirərdilər cəzasını. Bu tərəfdən, heç Ayçöhrənin anasıyla bacısının da nə vaxt buraxılacağını deyə bilməzdi. Məxfi şöbənin əməliyyatı hələ bitməmişdi. Səid hələ





susurdu...
Ancaq, Ələmdar bunlardan danışıb qızın ürəyini salmaq istəmədi.
– Yaxşı, göndərərəm. – dedi.
Ayçöhrə bu sualı, bəlkə də, əvvəldən verməliydi. Ancaq, nədənsə, sonraya saxlamışdı. İndi də çox çətinliklə verdi bu sualı:
– Düzünü de, məni sevirsən?
Ələmdar bir anlıq duruxdu. Hələ indiyədək kiməsə "Səni sevirəm" sözünü deməmişdi. Ona elə gəlirdi ki, "sevirəm" deməklə həmin adama sitayiş etdiyini boynuna alırsan. O isə indiyədək Allahdan, bir az da anasından başqa heç kəsə sitayiş eləməmişdi. Heç bu Ayçöhrəni də həqiqətən sevib-sevmədiyini deyə bilməzdi bu saat. Yalandan deməyi isə heç ürəyi götürməzdi. Başqa məsələlərdə nə qədər çox yalan danışsa da bu məsələdə kimisə aldatmaq istəmirdi. Amma onu dəqiq bilirdi ki, yanında dayanmış bu qız onun üçün çox-çox əzizdir. Bilirdi ki, onun yolunda bir çox şeydən keçə bilər, vəssalam...
Qızın cavab gözlədiyini görüb, vaxtı uzatmağa çalışdı:
– Bəs sən?
– Mən... – İndi Ayçöhrə duruxdu. – Mən sevirəm...
Artıq növbə Ələmdarın idi. Bu dəfə nəsə deməliydi. Ancaq, elə həmin anda telefonu zəng çaldı. Telefonunu cibindən çıxarıb ekrana baxdı. Zəng vuran mayor Cavadov idi. "Allah xeyir eləsin!" deyə düşündü. Cavadova, eyni zamanda Baratovun özünə qarşı kobudluq edib Məxfi şöbədən çıxandan sonra ona zəng vurmamışdılar.
Telefonu açdı. Cavadov salamsız-kəlamsız bildirdi ki, polkovnik Baratov onu elə bu saat Məxfi şöbədə gözləyir.
Telefonu qapayıb saata baxdı. Saat 9-u keçirdi. Fikirləşdi ki, deməli, Baratov hələ də şöbədədir. Bir şey anlaya bilmədi. Görəsən, nəyə görə belə təcili lazım olub rəisə?
Ayçöhrə onun tutulduğunu hiss etmişdi:
– Kim idi? Nəsə olub?- deyə soruşdu.
Ələmdar onu aldadıb, yüz cür bəhanə uydura bilərdi. Amma, ilk dəfə idi ki, yalan danışmağa ürəyi gəlmədi.
– Vacib işim var. – dedi. – Mən getməliyəm. İşdir, bu gecə

qayıtmasam, narahat olmayın.

– Nə olub axı?

– Sonra deyərəm, Ayçöhrə, indi məcbur eləmə!

Ayçöhrə daha heç nə soruşmadı. Ancaq, onun da narahat olduğu üz-gözündən hiss olunurdu. Ələmdar otağa keçib gödəkçəsini geyindi. Mətbəxdə olan anasına heç nə demədən mənzildən çıxdı.

"Nissan-Patrol" blokun qapısından azacıq kənarda dayanmışdı. Maşına minib onu birbaş məxfi şöbəyə sürdü. Şöbənin həyətindən bir qədər aralıda maşından düşüb qaranlıq səki ilə addımladı. Gəldiyi barədə telefonla xəbər verdiyi üçün mayor Cavadov onu həyət qapısında qarşılayıb içəri apardı.

Polkovnik Baratov çox qaşqabaqlı görünürdü. Cavadov kabinetə girən kimi keçib stolun arxasında əyləşsə də, Ələmdar rəisinin dinmədiyini görüb ayaq üstə dayandı. Hər iki zabit gözlərini ona zilləyib, nədənsə qəribə nəzərlərlə baxırdılar. Baratov dərindən köks ötürüb sözə başladı:

– Birisigün saat 2-də Səidin o adamlarla görüşü baş tutmasa, biz uduzmuş hesab olunacağıq. Mən isə bunu heç cür qəbul edə bilmərəm. Birincisi ona görə ki, onlar şəhərdə təxribatlar törədəcəklər. İnsanlar qırılacaq və biz bunun qarşısını ala bilməyəcəyik. İkincisi ona görə ki, hətta cənab prezident özü bu işlə ciddi maraqlanır. Təxribatçı qrupu tezliklə zərərsizləşdirməsək, şöbəmiz tamam gözdən düşəcək. Özlərindən razı olan bəzi uşaq-muşaq mənə rişxənd edib deyəcəklər ki, nə oldu Baratov, harada qaldı sənin təcrübən?

– Cənab polkovnik... –Ələmdar nəsə demək istədi.

– Sözümü kəsmə, Leopard! –Baratov danışığına təmkinlə davam etdi. –Biz Səidi heç cür yola gətirə bilmədik. Onun əvəzinə kimisə görüşə göndərmək də mümkün deyil. Çünki, ən azı, görüşün yeri bizə məlum deyil. Biz Cavadovla birlikdə mümkün ola bilən bütün variantları araşdırdıq. Nəhayət, qərara gəldik ki, başqa çıxış yolumuz olmadığı üçün, sən təcili olaraq sabah Ermənistana getməlisən.

– Səidin anasını xilas etməyə? – Ələmdar məmnun halda soruşdu.

– Yox! – polkovnik başını buladı. – Sən o qadını öldürməlisən!

– Necə?! – Ələmdar qulaqlarına inanmadı.





– Bəli. Səidin anasını öldürməlisən!

– Axı nə üçün?

– Sən onu xilas edə bilsən də, bu bizə heç bir xeyir gətirməz. Qadının qaçdığından dərhal xəbər tutan erməni kəşfiyyatı Bakıdakı qrupa xəbər verər və bununla da bizim bütün işlərimiz pozular. Sən təsəvvür edirsən, bunlar necə ehtiyatlı, necə hiyləgərdirlər? Biz sənin sözünə görə Şəmistanın noutbuku ilə telefonunu onlara verdik. Sonra həmin cihazları aramaq vasitəsilə qrupun izinə düşə bilərdik. Amma, hər iki cihazı tullayıblar. Görürsən? Səidin anasını xilas etsən, burada Səidlə görüşə heç kəs gəlməyəcək və ondan sonra daha ehtiyatlı işləyəcəklər.

– Bəs öldürsəm, həmin şeylər baş verməyəcək? – Ələmdar gizli kinayə ilə soruşdu. – Nə fərqi var ki?

– Yox! Sən onu öldürməklə bərabər elə etməlisən ki, guya qadın özünü öldürüb. Yəni, intihar edib. Onun meyidinin şəklini çəkib bizə çatdıracaqsan və biz Səidə deyəcəyik ki, ananı öldürüblər, yaxud, özünü öldürüb. Artıq bunun o qədər fərqi yoxdur. Əsas odur ki, Səid anasının sağ olmadığını biləndən sonra daha inad göstərməyəcək. Görüş vaxtını bizə deyib, üstəlik də bacardığı köməyi əsirgəməyəcək.

– Bəs erməni kəşfiyyatı qadının intihar etdiyinə inansa, bunu Bakıdakılara bildirməyəcək?

– Məncə buna ehtiyac hiss etməyəcəklər. Qadının ölümünü bir müddət gizli saxlamağa çalışacaqlar. Amma, lap intihar xəbərini bura çatdırsalar da, bu, birisigünkü görüşə mane olmaz.

– Bu iş heç mənim ürəyimdən olmadı, cənab polkovnik! - Ələmdar narazı halda dilləndi. – Mən öz millətimdən olan birini, həm də qadını niyə öldürməliyəm?

Polkovnik əlini stola çırpdı:

– Mayor Məlikov! Bu əmrdir və o sənin ürəyindən olmaya da bilər! Amma sən bu əmri icra etməlisən! Bakının içində düşmənlərimiz təşkilat yaradırlar, dəstə düzəldirlər. Göstəriş verib, bir ailəni məhv etdirirlər. Hələ neçə-neçə ailəni də bundan sonra qıracaqlar. Biz indi, deyirsən, əsirlikdə olan bir qadının qeydinə qalmalıyıq? Yadında saxla ki, işi bu vəziyyətə sən özün gətirib çıxartmısan. Sən

Səidi həbs etməsəydin bizimkilər onu güdməklə dəstənin izinə düşəcəkdilər.

– Başqa yol yoxdur, yəni?

– Dedim ki, yoxdur! Sən bilirsənsə, de!

Ələmdar heç düşünmədən ağlına gələn ilk planı dedi:

– Mən o qadını qaçırıb gizlədərəm. Saxlandığı yerdə kim varsa öldürüb, binaya od vuraram. Elə bilərlər təsadüfi yanğın olub.

Baratov başını buladı:

– Özünü aldatma, Leopard! Görüş vaxtına çox az qalıb. Ən kiçik bir səhvimiz hər şeyi korlaya bilər. Onsuz da bir dəfə Səidi izləyən maymaq əməkdaşlarımız işi korlayıb, bir dəfə də sənin romantik hisslərinin ucbatından izi itirmişik. Mən sənə dedim ki, hər şeyi ölçüb-biçmişik və bu sənə verilən son dərəcə ciddi bir tapşırıqdır. Sən mütləq o qadını öldürməlisən!

Ələmdar sifətini turşudub dilləndi:

– Nə vaxt getməliyəm?

– Səhər tezdən Gürcüstana yola düşməlisən. Ora qədər sadəcə Ələmdar kimi gedəcəksən. Qırmızı körpünü keçib Gürcüstana daxil olandan sonra isə indi sənə verəcəyimiz pasport əsasında milliyətcə erməni, Rusiya vətəndaşı Daniyel Sahakyan olacaqsan. Artıq bu pasportdan bir dəfə istifadə etmisən. Biz araşdırmışıq ki, Səidin anası Gürcüstan vətəndaşı olan gürcü David Çonkadzenin mobil nömrəsindən zəng vurub Bakıya. Çonkadze balıq alveri ilə məşğul olur. Daha çox da işxan balığının. Bu balıq, əsasən, Göyçə gölündə olur. Ermənistanda... Deməli, birinci David Çonkadzeni tapacaqsan. Sonrasını sənə öyrətməyə ehtiyac yoxdur. Qadını öldürəndən sonra fotosunu çəkib telefon, yaxud kompüter vasitəsilə bizə göndərməyə çalışmalısan. Düzdür, Səidin şəklə görə intihara inanacağına yüz faiz ümidim yoxdur, amma, bu bizim axırıncı şansımızdır.

Polkovnik ayağa qalxıb seyfi açdı. Oradan bir pasport və yastı qutu götürüb Ələmdara verdi.

– Bu pasportun, bu da bığların, parikin.

Ələmdar pasportu açdı. Orada özünün fotoşəkli vurulmuşdu. Amma şəkildə başında həmin bu parik, bığ yerində həmin bu sallaq





bığlar var idi.

– Sənə lazım olacaq geyimləri, Çonkadzenin telefon nömrəsini, Gürcüstan operatoruna məxsus telefon kartını, pulu və başqa geyimləri indicə Cavadov verəcək. Sualın var?

– Yox! - Ələmdar quru səslə dedi.

– Öz maşınınla gedəcəksən?

– Hə!

– Sərhədə yaxın kənddə saxlayıb başqa maşınla girərsən Gürcüstana.

–Gedə bilərəm?

Polkovnik, sanki, birdən-birə yumşaldı. Yaxınlaşıb əlini bacarıqlı kəşfiyyatçının çiyninə qoydu:

– Get Leopard! Elə bilmə ki, o bədbəxt qadına asanlıqla qıyıram. İnan ki, ürəyim ağrıyır. Ancaq bəzən dövlətin, millətin yolunda nəyisə, kimisə qurban verməyə məcbur olursan. Get, əzizim, get! Birisigün uzağı saat bir tamamda şəkli gözləyəcəm. Özündən də muğayat ol. Sən hələ bizə çox lazım olacaqsan. Get!

Ələmdar:

– Oldu, cənab polkovnik! – deyib kabinetdən çıxdı.

Mayor Cavadov da qalxıb, tapşırılmış şeyləri vermək üçün Ələmdarın ardınca getdi.

## OTUZ YEDDİNCİ FƏSİL

Səhəri gün, günorta vaxtı Leopard artıq Gürcüstanda idi. Sərhəd məntəqəsinin yaxınlığındakı Şıxlı kəndinə qədər öz maşınıyla gəlmiş, sərhədi isə Gürcüstana gələn avtobusların biri ilə keçmişdi. O, burada, hələ ki, Bakıdan öz idmançı dostuna qonaq gəlmiş Ələmdar Məlikov idi. Gömrük məntəqəsindən öz həqiqi pasportu ilə keçmişdi.

Dünən məxfi şöbədən çıxandan sonra birbaş idman klubuna getmişdi. Evə qayıtmaq, anası ilə, Ayçöhrə ilə üz-üzə gəlmək istəməmişdi, nədənsə. Gecəni də klubda keçirməyi qərara almışdı. Onsuz da ona lazım olan bəzi şeylər, o cümlədən öz pasportu da klubdakı kabinetində idi.

Gecənin bir aləminə kimi yatmayıb ona verilən bu qeyri-adi tapşırıq barədə fikirləşmişdi. Tapşırığın qeyri-adiliyi ondan ibarət idi ki, Məxfi şöbənin ən bacarıqlı və hazırlıqlı kəşfiyyatçısı Leopard düşmən ölkəsinə gedərək, orada əsir olan bir qadını, öz millətindən olan bir ananı öldürməliydi. O qadını ki, on yeddi ildən bəri əsirlikdə cəhənnəm əzabı görmüşdü. O qadını ki, lap yəqin, illərlə özünkülər tərəfindən xilas ediləcəyini düşünmüşdü. Nəhayət, o qadını ki, böyük bir vətənpərvərlik edərək, heç bir təhlükədən çəkinməyib Bakıya zəng vurmuş, öz doğma oğlunun oraya gizli yolla, xain məqsədlə gələcəyini bildirmişdi. Əslində, onun zəngi olmasaydı, Səidin Bakıya gəlişindən heç kəs xəbər tutmayacaqdı.

Ancaq, Ələmdar xeyli düşünəndən sonra başqa heç bir çarə görməyib, qəti qərara gəldi ki, bu tapşırığı həyata keçirəcək. Özünü inandırmağa çalışdı ki, Bakıda törədiləcək qanlı təxribatların qarşısının alınması kimi olduqca vacib işin müqabilində bu yaşlı qadın əhəmiyyətsiz bir fiqurdur. Həm də düşündü ki, on yeddi il ermənilərin əlində olmuş Sərinə adlı bu qadın artıq qadınlığını da, insanlığını da itirib. Lap yəqin, o da oğlu kimi özününkülərə nifrət edir. Düşündü ki, onun Bakıya zəng vurması da vətənə olan istəyindən yox, oğluna görə olub. Sadəcə oğlunun xilası üçün çalışıb Sərinə.

Qəti qərara gələndən sonra daha bu barədə fikirləşib başını yormaq istəmədi. Belə ciddi tapşırıq dalınca getməzdən qabaq yatıb dincəlməyi daha yaxşı olardı. Ona tapşırılan işin öhdəsindən gəlmək barədə isə qorxusu-filanı yox idi. İstər Türkiyədə, istərsə də Bakıda güclü kəşfiyyat məktəbi keçmişdi. Neçə-neçə bundan da ağır tapşırıqların öhdəsindən layiqincə gəlmişdi. Rus, ingilis dilləri kimi erməni dilini də bilirdi. Pasportuna da söhbət ola bilməzdi. Daniyel Sahakyana məxsus pasportda Moskvadan Gürcüstana gəlməsi barədə





gömrük qeydləri və digər qeydlər yerli-yerində idi. Bu barədə Məxfi şöbəyə həmişə etibar etmək olardı.

Hər şeyi yerbəyer edəndən sonra yatağına girib yatdı. O yatağa ki, orada bir gün əvvəl Ayçöhrə ilə yatmışdı. Ona elə gəlirdi ki, yorğan-döşəkdən yenə də qızılgül ətri gəlir. Qızı xatırladı. Düşündü ki, doğrudan da, dünyanın iki üzü var imiş. Yaxşı və pis üzləri. Ayçöhrə onun üçün dünyanın yaxşı üzü idi. Sabah görəcəyi iş isə pis üzü. Elə, əslində, cənnətlə cəhənnəm kimi... Dünən gecə o cənnətin lap içində idi. Elə indi də, qızılgül ətirli bir cənnət havası yaşayırdı. Amma, sabah o xarabaya gedib cəhənnəmi öz gözləriylə görəcəkdi. Dünyanın pis üzünü...

Səhər yerindən qalxıb yatağı səliqəyə salmaq istəyəndə balışın altında qalmış uzun bir tük diqqətini cəlb etdi. Bu, Ayçöhrənin saçından düşüb qalmışdı. Əyilib əlinə götürdü. Sanki bu tükdən də qızın ətri gəlirdi. Qızılgül ətri. Atmaq istəmədi. Yumurlayıb tapşırıq dalınca gedərkən geyəcəyi gödəkçənin cibinə qoydu...

Gömrük postunu keçəndən sonra Marneulidə avtobusdan düşdü. Burada geniş və səliqəli bir tualetə Ələmdar kimi girib, beş dəqiqə sonra Daniyel Sahakyan oldu. İndi onun əynində Moskvada dəbdə olan gödəkçə, şalvar, yun köynək var idi. Rusiya istehsalı olan alt paltarlarını isə hələ Bakıda əyninə geyinmişdi. Pariki başına keçirib, bığı sifətinə yapışdırdı. Tam hazır olandan sonra iri güzgüdə öz əksinə baxıb göz vurdu:

–Mən indi Ələmdar-filan deyiləm. Moskvada yaşayan erməni Daniyel Sahakyanam. Bacım Suzanna burada, yəni Marneulidə ərdədir. Onun oğlunun toyuna gəlmişəm. Toy üçün yaxşı balıq tapmağı mənə tapşırıblar. Bunun üçün balıq alverçisi David Çonkadze ilə görüşməliyəm. Onun telefon nömrəsini mənə bacımın qonşusu verib. Adı nədir onun? Bilmirəm. Yadımdan çıxıb... Bax belə!

O, Daniyel Sahakyan cildinə ikinci dəfə idi ki, girirdi. Artıq, bu rolu mənimsəyə bilmişdi. Daniyel bir az pəltək idi. Bəlkə, elə buna görə də az danışırdı. Danışığında tez-tez rus kəlmələri işlədirdi. Ədəbaz yerişi var idi.

Ələmdar düşündü ki, bəziləri kəşfiyyatçını, az qala, aktyora

bənzədir. Amma, bu qətiyyən belə deyildi. Aktyor bir rolu ifa edəndə tamaşa qurtarana kimi girdiyi rolu tamamilə yaşaya bilərdi və əsl aktyor yaşamalı idi də. Kəşfiyyatçı isə roluna aktyordan yüz qat artıq təbiiliklə girməklə bərabər, özünün də kim olduğunu bir an unumamalı idi. Ona Bakıda ciddi tapşırıq verilmişdi və o, bu tapşırığı nəyin bahasına olursa-olsun, yerinə yetirməliydi.

İndi o da Daniyel Sahakyan roluna girməklə bərabər, Bakıdakı Ələmdarı unudub, daxilən Leoparda çevrilirdi. Peşəkar kəşfiyyatçı, Məxfi şöbənin ən bacarıqlı agenti Leoparda. Artıq, sanki, ürəyi də daşlaşmışdı. İndi o, hər şeyə hazır idi və heç bir şeydən qorxmurdu.

Özünə məxsus pasportu, maşınının açarını və bəzi paltarları saxlama kamerasına qoyandan sonra küçəyə çıxıb səki ilə addımladı. Hava soyuq idi. Bir kafeyə girib yemək sifariş verdi. Elə buradan da ömründə üzünü görmədiyi Davidə zəng vurdu.

– Alo! – Telefonda yad səs eşidildi.

– Siz Davidsiniz? – Ələmdar rus dilində danışırdı.

– Bəli. Siz kimsiniz? Nə lazımdır?

– Mənə sizin nömrəni bacımın qonşusu verdi. Bizə bir az balıq lazımdır. İşxan balığı.

– Bir az, yəni nə qədər?

–Qırx kiloqram.

– Sən ermənisən?

–Hə. – Ələmdar dedi.

David dərhal ermənicə danışmağa başladı:

–Onda, ermənicə danış. Mən rus dilini yaxşı bilmirəm. Bir az gecikdin, əzizim. Mən indi Dmanisidəyəm. Gətirdiyim balıqları burada satdım. Kənddə də o balıqdan qalmayıb. Başqasını istəsən, verə bilərəm. Xramuri, şamayka...

– Yox, mən İşxan tapacağıma söz vermişəm. – Ələmdar da erməni dilinə keçdi. –Dmanisiyə gəlsəm, səninlə görüşə bilərəm?

– Bir saata buradan çıxacam. Tez gəlsən, görüşə bilərik. Sən indi haradasan?

– Marneulidə. – Ələmdar dedi.

– Gəl! Benzindoldurma məntəqəsi ilə üzbəüz kafedə olacam. Maşınım ağ rəngli “Niva”dır.





– Yaxşı, gələcəm.

Ofisantın gətirdiyi yeməyi tələsik yeyib, pulunu ödəyərək ayağa qalxdı. Küçəyə çıxıb bir taksi saxladı. Rus dilində:

–Məni, Dmanisiyə aparın. – dedi.

Sürücü qırx yaşlarında bir gürcü idi. Çoxdanışan adama oxşayırdı. Yola düşüb bir az gedəndən sonra:

–Siz ermənisiniz? – deyə soruşdu.

–Hə. – Ələmdar qısaca cavab verdi .

–Amma heç erməniyə oxşamırsınız.

Ələmdar güldü:

–Bəs erməni olmağım haradan ağlınıza gəldi?

–Rusca danışsanız da səsinizdə erməni ləhcəsi hiss elədim. Amma, üzdən daha çox çeçenə oxşayırsınız.

–Anamın atası çeçen olub. – Ələmdar dedi.

Bu söz sürücüyə çox ləzzət verdi. Lovğalıqla gülümsəyib:

–Bax, görürsünüz, – dedi. – Mən adam tanıyanam. O saat başa düşdüm.

Ələmdar gizli istehza ilə gülümsədi. Onun ana babası, təbii ki, çeçen deyildi, Şamaxıda doğulmuş türk idi.

Sonra sürücü adam tanımağı ilə bağlı başına gələn əhvalatlardan danışmağa başladı. Rus dilində yaxşı danışa bilməsə də, tez-tez gürcü sözlərini işlətsə də, Ələmdar onu anlayırdı.

Benzindoldurma məntəqəsinin yanında maşından düşdü. Sürücünün haqqını gürcü pulu ilə ödəyib, bir az kənarda görünən kafeyə baxdı. Kafenin qarşısında dayanmış maşınların arasında köhnə, ağ rəngli “Niva” da gözə dəyirdi. İrəli yeriyib maşının yanında dayandı. Davidə zəng vurub, gəldiyini bildirdi.

Bir dəqiqə keçməmiş, gödək boylu, dolu bədənli, başının qabaqdan çox hissəsi keçəlləşmiş bir kişi qıvraq hərəkətlə kafedən çıxıb onun yanına gəldi. Yaşı əllidən yuxarı olardı. Amma, saçları heç ağarmamışdı. Ələmdara əl uzadıb köhnə tanışlar kimi görüşdü:

–Gəl, əvvəlcə tanış olaq. David Çonkadze.

– Daniyel... – Ələmdar onun əlini sıxdı.

– Mənim nömrəmi sənə kim verib, dedin?

– Bacımın qonşusu. Adını heç bilmirəm. Bacımın oğlunun toyu olacaq bu günlərdə. Qonşular yığışıb məsləhət eləyirdilər. Mən Moskvada oluram. Bacımın qonşularının çoxunu heç tanımıram. Amma, gürcü idi həmin adam.

– Bu yəqin, Artur olacaq. Hündürboy kişidir. Uzun, qara saçları var.

–Yox! –Ələmdar etiraz etdi. – Alçaqboy idi.

– Nə isə! –David dedi. O, danışanda tez-tez burnunu çəkirdi. – Məni çoxları tanıyır. De görüm, sənə nə lazımdır?

– Balıq. İşxan balığı.

– Mən həftədə, on gündə bir dəfə Ermənistana gedib balığı oradan gətirirəm. Nerses adlı birindən alıram. O da Sevan gölündən gətirir bu balıqları. Ancaq, indi aldıqlarımın hamısını satmışam.

Ələmdarı bu saat ən çox o maraqlandırırdı ki, Səidin anası fevralın 22-dən 23-ünə keçən gecə bu adamın cib telefonundan necə zəng vurub. Ani olaraq fikirləşib dilləndi:

– Nerses dedin? Balıq alveri ilə məşğul olan? O ki indi Moskvadadır. İki həftədən çoxdur bizim bazarda işləyir.

– Sən nə danışırsan? –David gülüb burnunu çəkdi. – Elə şey olmaz! Onu kiminləsə səhv salırsan.

– Yox, səhv salmıram!

– Ay canım, -David əlini yellədi. – Mən heç on gün olmaz ki, onun evində olmuşam.

– Nə vaxt olmusan? – Ələmdar dəqiqləşdirmək istədi.

– Bu saat deyim... – David ani olaraq fikrə gedib, tez də dilləndi. – Bazar günü idi. Düz fevralın 22-də getmişdim. Gecəni də orada qaldım.

Ələmdar başa düşdü ki, Səidin anasının izinə düşüb. Deməli, Sərinə adlı o qadın, doğrudan da, Ermənistanda imiş. Nerses adlı balıq alverçisinin evində... Ya bəlkə evində deyil? Amma, Bakıya zəng gecə vurulub. Bu David Nersesin evində olanda.

Yenə inadından dönmək istəmədi:

– Dayan, soyadını da deyəcəm. Nerses Avakyan.





– Yox, əzizim! – David yenə güldü. – Dedim axı, səhv edirsən. Bu Martirosyandır. Özü də canlara dəyən oğlandır. Qarabağ müharibəsində batalyon komandiri olub. İndi balıqçılıq edir. Müharibədə yaralandığı üçün bir ayağını çəkir.

– Ola bilər... – Ələmdar, guya təslim oldu. – Ancaq o Nerses də balıqçı olmuşdu. Bəs ondan sonra getməmisən Nersesin yanına?

– Yox. Çox balıq gətirmişdim. Bu gün satıb qurtardım.

– Mən bu gün onun yanına getsəm, mənə balıq verər?

David bir az duruxdu:

– Onun özünün müştəriləri var. Amma sənə belə çox vacibdirsə, tapşıraram verər.

– Hə, çox vacibdir. – Ələmdar dedi. – dedim axı, bacıma söz vermişəm. Xahiş edirəm, kömək elə, o Nersesi tapım, mənə balıq versin.

– Bizim kənddən sərhədi keçən kimi sağdakı ikinci kənd Nersesin kəndidir. Amma, axşama düşəcəksən. Gərək gecə orada qalasan. İstəyirsənsə, mənimlə gedək bizim kəndə, gecəni mənim evimdə qal. Yaxşı çaxırım da var. Maya bizim üçün balıq qızardar. Səhər durub gedərsən. Mənim bir-iki gün kənddə işim olacaq. Yoxsa səni özüm aparardım. Sərhəddəkilər də məni yaxşı tanıyırlar. Hərdən balıq verirəm onlara, ilişib-eləmirlər. Ya, əgər tələsmirsənsə, üç gündən sonra gəl, nə qədər istəyirsən, balıq verim sənə.

–Yox, yox! – Ələmdar başını buladı. – Mən sabah günortaya qədər balığı bacımgilə çatdırmalıyam.

– Maşınlasan? – David soruşdu.

– Yox.

– Onda otur maşına, mənimlə bizim kəndə qədər gedək. Oradan Ermənistana gedən maşın tapacaqsan.

– Gedək! –Ələmdar razılaşdı.

David "Niva"nın sükanı arxasına keçdi. Ələmdar isə onun yanında əyləşdi. Maşının arxa oturacaqları çıxarılmışdı. Yəqin ki, salona daha çox balıq yığmaq üçün. İçəridən kəskin balıq qoxusu gəlirdi.

Dmanisidən çıxıb yola düşdülər. David də bayaqkı sürücü kimi ara vermədən danışırdı:

– Mənim də anam erməni idi. İki il əvvəl dünyadan köçdü. Erməni dilini ona görə yaxşı bilirəm. Atam sağdı hələ. Səksən yaşını keçib, amma məndən cavan görünür.

Sonra balıq alverinə başlamasından, Nerseslə dostlaşmasından danışmağa başladı. Ələmdar imkan tapan kimi onun sözünü kəsdi:

– Bu Nersesin arvaddan-uşaqdan nəyi var?

– Arvadı Klara keçən il öldü. Qızı İrəvanda ərdədi, oğlu da Stepanakertdə yaşayır. Polisdə işləyir.

– Demək tək yaşayır indi?

– Tək deyəndə ki, on beş ildən çoxdur, bir azərbaycanlı əsir qadını saxlayır. Xocalıdan əsir düşübmüş.

" Bəli... – Ələmdar düşündü. – Səidin anasının yeri dəqiq məlum oldu..."

– Necə yəni, saxlayır? – deyə soruşdu.

– Bu qadına vurulubmuş o vaxt. Əsirlərin içindən seçib götürüb. Sonra da ki... Qulluqçu kimi saxlayır. Arvad işi də gördürür, kişi işi də.

– Bəs arvadı necə baxırdı bu işə? Qısqanmırdı?

– Klara? Mən oraya gedib-gələndən görürdüm ki, Klaranın o qadını görən gözü yoxdur. Bir-iki dəfə öldürmək də istəyibmiş. Amma, Nersesdən qorxurdu.

– Demək Nerses bu türk qadınını sevirmiş?

– Yox canım, nə sevmək! Əsir düşəndə cavan, həm də çox gözəl imiş bu qadın. Sadəcə özü üçün məşuqə götürüb. Soyuyandan sonra başqalarının da altına yıxırmış. Amma onu da deyim ki, yaşı altmışı haqlamasına baxmayaraq, bədəni o qədər də xarab olmayıb. Heç o yaşı verməzsən ona.

– Deyəsən, sənin də xoşun gəlir ondan? – Ələmdar yarı kinayəli səslə soruşdu.

– Düzünü soruşsan, hə, xoşum gəlirdi. – David bic-bic güldü. – Yəni, belə baxanda Maya, arvadımı deyirəm, ondan cavandı, canı da suludu, ancaq, özün bilirsən, adam hər qadının, heç olmasa, bir dəfə dadına baxmaq istəyir.

– Yoxsa Nerses sənə də verib onu? – Ələmdar əsəbini boğa bilsə də, içində xoşagəlməz bir hiss baş qaldırıb ürəyini sıxırdı.

– Yox... –David dedi. – Özüm bir-iki dəfə girişmişdim. Amına, razı olmamışdı it qızı. O gün isə özü təklif elədi mənə.

– Necə yəni?

– Fevralın 22-də, axşam özü çağırdı məni yanına.

– Niyə?

Ələmdar yaxşı bilirdi ki, qadın bu axmağı niyə çağırıb. Böyük bir risqə gedərək bunun telefonundan zəng vurmaq istəyirmiş. Amma, yenə də bu sualı verdi. David çoxbilmiş adamlar kimi bir an susub dilləndi:

– Sən hələ cavansan, amma mənim böyük təcrübəm var bu qadın məsələsində. Onlar bir də görürsən, elə bir məqamda kişi arzulayırlar ki...

– Yaxşı, danış görək, nə oldu? – Ələmdar hövsələsiz halda onun sözünü kəsdi.

– Gecə yeyib-içəndən sonra Nersesə dedim ki, sən yat, mən Səroşun yanına düşürəm. O, həyətdə, ayrıca bir daxmada yaşayır axı... Hə, Nerses də dedi ki, düşürsən düş, amma könüllü yaxın buraxmayacaq. Dedim, sənin işin yoxdur. Düşüb qadının daxmasına getdim. Bir az orasına-burasına əl gəzdirdim, gördüm, hələ nəsə var bunda, lap həvəsə gəldim. Məcbur dizi üstə çökdürdüm qabağımda. Ağappaq bədəni var idi. Ancaq, belində iki dənə xaç şəklini görəndə bir az həvəsdən düşdüm. Dəmir xaçı qızdırıb dağ basıblarmış belinə. Sağalsa da yeri aydınca qalmışdı. Sonra dedim, cəhənnəmə ki! Başladım... Nə isə!...

– Bəs etiraz-filan eləmədi sənə?

– Əvvəl bir az naz elədi, söydü. Ancaq bu mənə daha çox ləzzət elədi. Bir saat yanında oldum, sonra getdim yatmağa. Səhər gördüm ki, telefonum cibimdən düşüb daxmada qalıb. Gedib onu götürəndə istədim yenə nəsə eləyim bu arvada, daha razı olmadı. Birdən üzünə baxdım, gördüm ki, lap kaftara oxşayır. Axşam necə qızışmışamsa, gözümə mələk görünüb.

Maşın dağın ətəyi ilə uzanan, ətrafı sıx meşəliklərlə örtülmüş yola girmişdi. Yolun kənarlarında hələ də qar gözə çarpırdı.

Ələmdar birdən-birə Davidin sözünü kəsdi:

– Kəndinizə çox qalmışıq?

– Yox, iki kilometrdən bir az çox qalar. –David dedi. –Qabaqdakı o döngəni burulan kimi görünəcək.

– Nersesin evi kəndlərinin harasındadı?

– Qəsəbəyə gedən yoldan sağa burulub bir az gedəndən sonra kəndə girirsən. Elə kəndə girən həmin küçədədir Nersesin evi. Soldan altıncı, ya yeddinci evdir. Həyətin qırmızı darvazası var.

Yolun sol tərəfi dərin uçurum idi. Sağ tərəfdəki uca ağaclar günəşin qarşısını kəsdiyi üçün yolun kənarındakı qar əriyib qurtarmamışdı. Hətta, bəzi yerlərdə sürüşkən buz qatı görünürdü.

– Burada ehtiyatlı olmaq lazımdır. – David dedi. – Keçən il düz burada bir maşın sürüşüb uçurumdan yuvarlanmışdı.

Ələmdar bayaqdan düşünürdü ki, bu adamın sağ qalması işləri korlaya bilər. Birdən qəti qərara gəlib:

– Saxla maşını! –deyə əmr etdi.

David maşını saxlayıb təəccüblə Ələmdarın üzünə baxdı:

– Neyləmək istəyirsən?

Ələmdar iri və qüvvətli pəncələrini ona uzadıb sol əli ilə başından, sağ əli ilə çənəsindən yapışdı. Xoşagəlməz bir təbəssümlə gülümsəyib:

– Bayaq dedin, Nersesin oğlu harada işləyir? –deyə soruşdu.

– Stepanakertdə... – bərk qorxmuş David dilləndi.

– Oranın adı Stepanakert yox, Xankəndidir, axmaq!

Ələmdar bunu deyib Davidin başını ani olaraq burdu. Xırçıltı səsi eşidildi. Onun boyun fəqərələri qırılmışdı. Ələmdar ölmüş balıq alverçisinə istehza ilə baxıb azəri türkcəsində:

– Burada, doğrudan da, ehtiyatlı olmaq lazımmış! – dedi.

Sonra maşının sükanından yapışıb onu uçuruma tərəf burdu. Yerə enib qapını çırpdı. Ətrafına boylandı. Yolda heç kəs görünmürdü. Maşının arxasına keçib onu itələməyə başladı. "Niva" uçuruma tərəf dönüb, üzüaşağı yuvarlandı.

Ələmdar cəld hərəkətlə oradan uzaqlaşıb kəndə doğru addımladı. Kəndə çatan kimi qarşısına çıxan bir gürcü kişidən sərhəd məntəqəsinə necə getmək lazım gəldiyini soruşdu. Kişi əlini irəli uzadıb gürcü





dilində nəsə dedi . Ələmdar başa düşdü ki, kəndin o biri başına getmək lazımdır. Kəndin ortasından keçib getdi. Enli asfalt yola çıxanda Ermənistana gedən bir " Qaz-24" maşınını saxladı. Sürücü erməni idi.

– Məni sərhəd postuna apararsan? –deyə soruşdu.

– Lap istəsən, o taya da apararam. Qəsəbəyə qədər. Nə verəcəksən?

– Məndə rus puludur.

– Olsun! –sürücü dilləndi. – Min rubl verərsən.

– Çox istəyirsən! – Ələmdar narazılıq etdi.

– Özün bil! Ancaq, çox istəmirəm.

– Yaxşı, verərəm, gedək!

Maşına əyləşdi. Yola düşəndə sürücünün onu artıq sorğu-suala tutmaması üçün maqnitofonu qoşmasını xahiş etdi. Erməni mahnısının sədaları maşının salonuna yayıldı. Sürücü elə bilirdi ki, sərnişini mahnıya qulaq asır. Ancaq, Ələmdar dərin fikrə getmişdi. Düşünüb, beynində Sərinə adlı azəri qadını üçün qeyri–adi bir qətl planı hazırlayırdı.

Sərhəd məntəqəsində, erməni tərəfdə onun sənədlərini daha diqqətlə yoxlayıb hara getdiyini soruşdular. Ələmdar qəsəbəyə getdiyini dedi. Amma bunu deyərkən çalışdı ki, sürücü eşitməsin. Maşını buraxdılar. Ələmdar bu dərəcədə soyuqqanlı olmağına özü də təəccüb etdi. Sanki, heç düşmən torpağında deyildi. Sərhəd məntəqəsindən ayrılan kimi yenə maqnitofonu qoşdurdu.

Bir qədər gedəndən sonra isə maqnitofonu söndürüb sürücünü söhbətə tutdu:

– Burada yaşayırsan, yoxsa Gürcüstanda?

– Burada yaşayıram. – sürücü dedi. – Amma Gürcüstanda ev almışam. Bir həftədir, hər gün ora gedib-gəlirəm. Sabah da səhər tezdən durub getməliyəm.

– Nəyinə lazımdır orada ev almaq?

Sürücü Ələmdarla eyni yaşda olardı. İstiqanlı adama oxşayırdı. Başını bulayıb:

– Neyləyim? – dedi. – Burada çörək qazanmaq olmur daha.

– Niyə? – Ələmdar soruşdu.

– Sən, deyəsən, buralarda olan deyilsən?

– Yox, Rusiyada yaşayıram.

– Hə, onda xəbərin olmaz. Camaat acından qırılır burada. Böyüklərin də başı siyasətə qarışıb. Qarabağ davası eləyirlər! Mənə çörək lazımdır ki, balalarımı saxlayım. Qarabağ nəyimə lazımdır mənim? Düz demirəm?

– Düz deyirsən... – Ələmdar fikirli halda başını tərpətdi.

– Yox da, Sərkisyan başımızı Qarabağla qarışdırıb öz hakimiyyətini sürür. Biz kasıblarsa elə kasıbıq ki kasıb!

Bir az sonra Nersesin kəndinə gedən meşə yolu göründü. Ələmdar maşını saxlatdırdı.

– Mən burada düşürəm.

– Qəsəbəyə getmirsən? – Sürücü təəccübləndi.

– Yox. –Ələmdar gülümsədi. – Mən nə vaxt dedim ki, qəsəbəyə gedirəm?

Cibindən iki dənə beş yüz rublluq pul çıxarıb sürücüyə verdi.

– Sənin adın nədir?

– Edqar. –Sürücü cavab verdi.

– Edqar, səhər buradan saat neçədə keçəcəksən?

– Səhər tezdən. Saat 7-də... Ya, bir az tez.

– Məni də götürə bilərsən? Anamgilə baş çəkib səhər geri qayıtmalıyam. Yenə min rubl verərəm.

– Götürərəm. – Edqar dedi. – Amma, o vaxt hava tam işıqlaşmır. Evin yerini de, gəlib kənddən götürüm.

– Yox, sən zəhmət çəkmə! Bəlkə qayıdası olmadım heç. Ancaq, qayıtsam saat yeddinin yarısında bura gələcəm. Məni də götürərsən.

– Yaxşı! – Edqar razılaşdı.

– Onda, hələlik! Sabaha qədər!

Ələmdar bunu deyib maşından endi və "Qaz-24" dərhal uzaqlaşıb getdi. Hava, artıq, qaralmağa başlamışdı. Ələmdar dayanıb bir qədər uzaqda güclə görünən kəndə baxdı. Oraya gedən, iki kilometrə qədər yol meşənin içindən keçirdi.

O, hələ maşında olarkən, Sərinə adlı qadını necə öldürəcəyini dəqiq planlaşdırmışdı. Ona görə də, tərəddüd etmədən, alaqaranlıq meşə yoluna girib kəndə tərəf addımlamağa başladı.





## OTUZ SƏKKİZİNCİ FƏSİL

Kəndə daxil olan küçənin hər iki tərəfində taxta hasarlar uzanıb gedirdi. Evlərin əksəriyyəti birmərtəbəli idi. Amma, ikimərtəbəlilər də gözə dəyirdi. Küçəyə başdan-başa yastı çay daşları döşənmişdi. Həyətlərdən qalxan akasiya və qoz ağacları, az qala, küçənin üstünü örtürdü. Həyət qapılarının bəziləri taxtadan, bəziləri dəmirdən idi. Ələmdar bilirdi ki, belə dəmir darvazaların çoxu Azərbaycanın işğal olunmuş rayonlarından sökülərək Ermənistana daşınıb.

Küçəyə açılan həyət qapılarının yanında hasara söykənmiş taxta oturacaqlar gözə dəyirdi. Sol tərəfdən üçüncü qapının yanındakı oturacaqda bir qoca qarı oturmuşdu. Küçədə ondan və lap o biri başda qışqırışan bir-iki uşaqdan başqa heç kəs görünmürdü.

Ələmdar qarının bərabərinə çatanda ona baxdı. Qarının halı, deyəsən, yaxşı deyildi. Yıxılmaqdan özünü güclə saxlayırdı. Bir əlini oturacağa dirəyib, o biri əlini Ələmdara uzatmışdı. Ələmdar ona doğru bir neçə addım atdı. Üz-gözü dərin qırışlarla örtülmüş bu arıq qarının ən azı səksən yaşı olardı. Gözlərinin içi qızarıb əcaib hala düşmüşdü. Ağzını açıb-yumsa da nə dediyi anlaşılmırdı.

Yaxınlaşıb onun qolundan tutdu. Yerində dikəldib:

– Sənə kömək lazımdır? – deyə soruşdu.

– Məni... evə çıxart... – qarı çətinliklə dilləndi.

Ələmdar həyətdəki kiçik evə tərəf boylandı. Yəqin ki, orada adam yox idi. O, əslində, heç kəsin gözünə görünmək istəmirdi. Qarının qoluna girib onu həyətə, oradan da evə apardı.

Evin içi tör-töküntü və səliqəsiz idi. Hər yeri xoşagəlməz qoxu bürümüşdü. Sidik iyi iylənmiş pendirin, kələmin iyinə qarışmışdı, elə bil. Köhnə bir çarpayıda açılmış səliqəsiz yataq yığışdırılmamışdı. Kiçik stolun üstündə bulaşıq boşqab, stəkan, nəlbəki və bir neçə dərman şüşəsi var idi.

Qarını çarpayısına uzadanda o, əlini stola tərəf aparıb güclə:

–Dərmanım... – deyə bildi.

Ələmdar cəld dərman şüşələrindən birini götürüb baxdı. Ürək tutması ilə bağlı dərman idi bu. Ondan bir qaşığa süzüb qarıya içirtdi. Sonra rəngi solub getmiş stulu yaxına çəkib çarpayının yanında oturdu. Otaqda zəif elektrik lampası yanırdı.

Kirli ağ saçları dağılıb bir-birinə qarışmış qarı arxası üstə uzanıb çətinliklə nəfəs alırdı. Ancaq, kiçilib pişik gözləri boyda qalmış gözlərini tanımadığı yad adama zilləmişdi. Yorğanın üstünə qoyduğu, bir dəri-bir sümükdən ibarət olan əli titrəyirdi. Paltarı da, qolları da kirli idi. Dırnaqları kirdən qapqara qaralmışdı.

Bir az keçəndən sonra, deyəsən, özünə gəlməyə başladı. Artıq dili də açılmışdı. Bir neçə dəfə udqunub:

– Sən kimsən? – deyə soruşdu.

Ələmdar uydurduğu yalanı tərəddüd etmədən söylədi:

– Qəsəbəyə gedirdim. Buraya dönən yolun üstündə maşınımın motoru xarab oldu. Bura gəldim ki, bəlkə bir maşın ustası tapa bildim.

– Ermənisən?

– Hə... Adım Surendir.

– Suren? – Qarının gözləri azacıq işıqlandı. – Oğlumun da adı Surendir.

– Sağdır?

– Hə, sağdır. Gürcüstan tərəfə gedəndə yolun sağındakı meşədə yeri var. Orada restoran açıb. Ev də tikib orada. Ailəsi ilə yaşayır...

Ələmdarın planına görə, Nersesin evinə nə qədər gec getsəydi, o qədər yaxşı idi. Başqa qonaqdan-filandan olmazdı evdə. Odur ki, vaxtı uzatmaq üçün qarını söhbətə tutdu:

– Tək bir övladın var?

– Hə... Üç də nəvəm var. Biri oğlandı, ikisi qız.

– Oğlun niyə aparmır səni yanına? Xəstəsən, yaşlısan... Tək çətindir axı!?

– Yox! – Qarı birdən-birə qaşqabağını tökdü. – Mən özümü dolandıra bilirəm.

– Bəs gəlinin necədi?

– Allah onun bəlasını versin! Oğlumu o soyutdu məndən.





– Bəs oğlun?

– O əvvəl qulaq asmırdı arvadına. Mən şikayət eləyən kimi ayağının altına salıb döyürdü o qancığı. Ancaq, ifritə axır ki, oğlumun qılığına girib dəyişdirdi. Bilirəm, oğlum yenə sevir məni. Hərdən gəlib baş çəkir. Ancaq arvadından qorxur...

– Bu kənddə maşın ustası var? – Ələmdar söhbəti dəyişmək istədi.

– Hə! Arakelin oğlu yaxşı ustadır. Kəndin o biri başında olur. Özünün də maşını var.

Ələmdar ayağa qalxıb darısqal otağa göz gəzdirdi. Havanın ağırlığına və divarlara belə hopmuş üfunətə dözmək çətin idi.

– Mənə su ver... – qarı inildədi. – Ciyərim yanır...

Stəkana su töküb verdi. Qarı suyu acgözlüklə içəndə bir azını sinəsinə dağıtdı. Ələmdar stəkanı stolun üstünə qoyub, divara vurulmuş fotoşəkillərə baxmağa başladı. Bunların əksəriyyəti eyni bir adamın müxtəlif illərdə çəkilmiş şəkilləri idi. Biri dərhal diqqətini cəlb etdi. Təxminən otuza yaxın yaşı olan saqqallı bir gənc körpə, çılpaq uşağın bir qıçından tutub başıaşağı sallamışdı. Körpənin ağzı geniş açılmışdı. Yəqin ki, çığırırdı. Saqqallı gənc isə dişlərini ağardıb gülürdü.

– Bu kimin şəklidir? – barmağını şəklə uzatdı.

Qarı dikəlməyə çalışıb zəndlə divardakı şəkillərə baxsa da gözü yaxşı seçmədi:

– Hansı?

– Əlində çılpaq uşağı tutan...

– Hə!... O, oğlumdur! Suren! – qarı qürur hissi ilə dedi. – Xocalıda çəkdirib bu şəkli. Mən o vaxtdan divarda saxlayıram bunu.

– Oğlun Xocalıda vuruşub? – Ələmdar soruşdu.

– Vuruşub da sözdü? Neçəsini öldürüb orada. Mənim oğlum qəhrəmandır. Amma heyif! Heyif ki, qancığa rast gəldi .

– Oğlun öldürübmüş bu uşağı?

– Hə! Deyirdi ki, təpiklə başını əzib. Anasının düz gözünün qabağında... – Qarının üzündə iyrənc bir təbəssüm göründü. – Deyir, anası it kimi zingildəyirmiş.

"Qoca kaftar!" – deyə ürəyindən keçirən Ələmdar kinayə ilə:

– Oğlun, doğrudan da, qəhrəman imiş! – dedi.

– Əlbəttə! O, türklərin neçəsini qanına bulayıb. Mənim də əvəzimə! Amma elə istəyirdim ki, mən də orada olaydım o qırğında. Onları öldürüb qaşıqla qanlarını içərdim. Ax!... Qismət deyilmiş mənə...

Qarı, sanki, türk qanı içirmiş kimi ağzını marçıldatdı. Ağzında tək-tək dişi qalmışdı. Xırda gözlərini bərəldib Ələmdara baxdı:

– Sən heç onlardan öldürmüsən?

– Hə... – Ələmdar fikirli halda dilləndi. – Birini...

– Birini? – qarı təəccübləndi. – Birindən nə olacaq? Gərək sizin hərəniz onlardan iyirmisini-otuzunu öldürəsiniz ki, qurtaralar. Yoxsa, qırılmışlar qurtaran deyil.

Ələmdar dinmədi. Saatına baxıb yenə stulda oturdu. Qarı, elə bil, xəyala dalmışdı. Handan-hana gülümsəyib başını buladı və xoş xatirəsini qonağı ilə bölüşmək istədi:

– İki il əvvəl dedilər ki, uzaq kənddə türk əsirlərindən birini bizimkilərdən hansınınsa qəbrinin üstündə kəsəcəklər. Qurban kimi... Suren onda təzə köçmüşdü burdan. Arakelin oğluna yalvardım ki, məni də aparsın. Allah köməyi olsun, sözümü yerə salmadı, apardı. Yaman çox adam yığılmışdı qəbirstanlığa. Birtəhər özümü qabağa verdim ki, türkün başını kəsəndə yaxşı görüm. Nə qədər gözlədik... Sonra əsgərlər bir arıq, cavan kişinin qollarından tutub maşından düşürtdülər. Qəbrin düz yanına gətirdilər. Əsir başını aşağı salmışdı. Dedim:

– Ə, it oğlu, başını qaldır, o murdar sifətini görüm!

Yığışan adamlardan bir gülmək çıxdı ki... Başını qaldırıb mənə qanlı-qanlı baxdı. Sonra yenə saldı aşağı. Əsgərlərin böyüyünə dedim ki:

– Ay komandir, sənə qurban olum, bu türkü siz yıxın yerə, bıçağı verin, mən kəsim onun başını.

Köpək oğlu razılaşmadı. Dedi, ay arvad, ayaq üstə güclə durursan, çəkil geri. Hə... – qarı təəssüflə başını buladı. –Razılaşmadı... Yıxdılar bunu bizim əsgərin qəbrinin üstünə. Dedim, indi ağlayacaq, yalvaracaq bizimkilərə, mən də doyunca ləzzət alacam. Ancaq, elə bil, it oğlu it daşa dönmüşdü. Səsini də çıxartmadı. Çəkdilər bıçağı





bunun boğazına. Bəh-bəh! Görəydin, qan necə fontan vururdu. Qoyun kəsəndə görmüsən də, bax elə!... Əsgərlər bunu buraxıb çəkildilər geri. Başladı yerində çabalamağa...

Ələmdar gördü ki, hirsindən əlləri titrəyir. Özünü ələ almaq üçün ayağa qalxıb çarpayıdan kənara çəkildi. Bu saat bu qarını heç təəssüflənmədən boğub öldürə bilərdi. Ancaq fikirləşdi ki, sonradan hər dəfə bu hərəkətini xatırlayanda xəcalət çəkəcək. Yataqda uzanmış qoca, xəstə bir qadını öldürdüyü üçün... Bunu heç cür kişiliyinə sığışdıra bilməzdi.

– Onlardan biri də burada var. – qarının səsi gəldi.

– Harada? – Ələmdar bir qədər acıqlı səslə soruşdu.

– Kənddə. Nersesin evində.

– Kimdir ki o? – Ələmdar yenə çarpayıya yaxınlaşdı.

– Türk qadınıdır. Səroş... O da Xocalıdan əsir düşüb. Nerses alıb gətirmişdi evə. Arvadı bir zülümlər eləyirdi ki ona... Klara... Bacımın qızı idi, keçən il öldü yazıq... Gündə döyürdü. Kəndin cavanlarından pul alıb salırdı üstünə. Deyirdi, xala, bu qəhbəni öldürmək istəyirəm, Nerses qoymur. Bir dəfə... – Qarı gülməyə başladı. Tək-tək çürük diş görünən ağzı bu zaman elə hala düşdü ki, Ələmdar baxa bilməyib üzünü yana çevirdi. – İtləri ölmüşdü. Nerses bir-iki həftəliyə harasa getmişdi onda, evdə yox idi. Klara bu Səroşun üstünə düşdü ki, itə yaxşı baxmamısan, ölüb. Aparıb bunu boğazından zəncirlədi itin yerinə. Bircə görəydin onun halını. –Qarı yenə güldü. –Həyətə bir adam girəndə arvad iməkləyib özünü soxurdu itin damına. Klara onu döyürdü ki, bir də adam gələndə içəri girsən, səni öldürəcəm.

Ələmdarın içində, sanki, fırtına baş qaldırmışdı. Bu qoca kaftarı qoca olduğu üçün öldürə bilmirdi. Amma, bir neçə dəqiqədən sonra buradan çıxıb başqa bir qadını – öz millətindən olan, düşmən əsirliyində ağılasığmaz işgəncələr görmüş bir qadını öldürməyə gedəcəkdi. O, uzaq Bakıdan yalnız bunun üçün gəlmişdi buraya. Ancaq, dövlət əhəmiyyətli, vacib əməliyyatın baş tutması üçün edəcəkdi bunu. Əmr verilmişdi və dəfələrlə polkovnik Baratovun əmrini pozmuş Leopard bu dəfə bütün işləri korlayıb Bakıda fəaliyyət göstərən düşmən təşkilatına qol-qanad verməmək üçün bu

əmri yerinə yetirəcəkdi.

Ancaq... Bəs bu yenə nə hisslər idi onun içini gəmirirdi?... Yox! O, Sərinə adlı o qadını, daha doğrusu, artıq Sərоş olmuş o qadını öldürəcəkdi. Özünə təskinlik vermək üçün bir daha düşündü ki, o qadın artıq insanlığını da, türklüyünü də itirib. Tamamilə pozulub və demək olar ki, erməniləşib. Vacib əməliyyatın baş tutması xatirinə onu qurban verməklə heç nə itirilmir...

– Bir dəfə də... – Qarı hələ danışırdı. – Həmin bu Sərоş it üçün yal düzəldib verəndə it yemədi yalı. Nerses itin yalını qabağından götürüb Sərоşun özünə yedizdirdi məcbur. Mən də orada idim. O qədər gülmüşəm ki...

– Mən gedim, ustanı tapım. – Ələmdar birdən onun sözünü kəsib qapıya doğru yönəldi.

– Mənə su ver! – Qarı hökmlü səslə dilləndi.

Ələmdar qayıdıb stəkana su tökərək ona verdi. Qarı suyu içib stəkanı qaytardı.

– Oğlum üçün, bir də nəvələrim üçün darıxıram. – dedi. – Surenə lap yazığım gəlir. O ilanın fəndinə düşüb. Ancaq, təki Allah canını sağ eləsin! – Birdən-birə yerindən dikəlib dəli kimi çığırdı. – Əclafa neçə dəfə dedim ki, boşa bu qancığı! Məni eşitmədi. İtin doğduğuna uyub məni atdı. Allah cəzasını versin onun!

Qarının ağzı köpüklənmişdi. Halı pisləşirdi. Ələmdar dərmandan qaşığa süzüb onun ağzına tökdü. Yatağına uzadıb yorğanı üstünə çəkdi və:

– Mən gedirəm! – dedi.

Qarı halsız halda əlini yellədi:

– Get!...

Ələmdar evdən çıxıb qapını örtdü. Artıq hava tamam qaralmışdı. Həyət də, küçə də zülmət qaranlıq içində idi.





## OTUZ DOQQUZUNCU FƏSİL

Küçə ilə yeriyib bir neçə evi ötürəndən sonra soldakı qırmızı rəngli darvazanın önündə dayandı. Həyət hündür daş hasarla örtülmüşdü. İkimərtəbəli evin üst mərtəbəsində yanan elektrik lampası həyətlə bərabər küçənin bir hissəsini də işıqlandırırdı. Darvazanı itələyib açaraq həyətə daxil oldu.

Daş döşənmiş meydançaya gur işıq düşürdü. İkimərtəbəli ev meydançanın sol tərəfində idi. Sağ tərəfdə isə taxtadan quraşdırılmış bir daxma, donuz damı və toyuq hini yerləşirdi. Darvaza ilə üzbəüz alçaq taxta hasar vardı ki, bu hasar daş döşənmiş meydançanı bağçadan ayırırdı. Həmin taxta hasarın dibində zəncirlənmiş azman qoyun iti yad qonağı görüb ona tərəf dartındı və hürməyə başladı.

Donuz damına bitişik olan daxmadan bir qadın çıxdı. Əynində köhnə qara don və arxalıq, başında qara yaylıq var idi. Üzünə işığın çox zəif düşməsinə baxmayaraq, Ələmdar bu qadının Sərinə olduğunu anladı. Qadın əvvəlcə iti sakitləşdirib, sonra erməni dilində qonağa müraciət etdi:

– Kim lazımdır sənə?

Ələmdar ani bir baxışla onu başdan-ayağa süzüb:

– Bu Nersesin evidir? – deyə soruşdu.

Həmin anda ikinci mərtəbənin qapısı açıldı və pilləkənin başında iri gövdəli, üz-gözünü tük basmış bir kişi göründü. Görünməyiylə də onun gur səsi həyətə yayıldı:

– Kimdir, Sərоş?

– Səni soruşur. –Sərinə laqeyd səslə cavab verdi.

Kişi ağır addımlarla pilləkəni enməyə başladı. Bir ayağını çəkirdi. Çiyninə köhnə hərbçi kürkü atmışdı. Yaxınlaşıb tanımadığı adama maraqla baxdı:

– Eşidirəm sizi. Nerses mənəm.

İt sakitləşib gözlərini sahibinə zilləmişdi. Sərinə isə daxmaya girərək qapını örtdü.

– Məni sizin yanınıza David göndərib. – Ələmdar dedi. – O, bacımgilin dostudur.

– Çonkadze?

– Hə! Mən onun yanına balıq üçün getmişdim. Bacım oğlunun toyu olacaq. Mənə tapşırıblar ki, toy üçün işxan balığı tapım. Ancaq, Daviddə qalmamışdı bu balıqdan.

Nerses tüklü üzünü qaşıyıb, guya ki, fikrə getdi:

– Nə qədər lazımdır?

– Qırx kiloqram. – Ələmdar dedi.

– Sən, deyəsən, Rusiyada yaşayana oxşayırsan? – ev sahibi ona birdən-birə "sən"lə müraciət etdi.

– Hə, Moskvada oluram. Bacım Marneulidə ərdədir. Oğlunun toyuna gəlmişəm.

– Adın nədir?

– Daniyel.

– Maşınlasan?

– Yox! – Ələmdar başını buladı. – Bir nəfərlə danışdım, səhər gəlib götürəcək məni.

– Demək, gecəni burada qalmaq istəyirsən?

– David dedi ki...

Nerses onun sözünü kəsib əlini irəli uzatdı:

– Xoş gəlmisən! Elə içməyə bir yoldaş axtarırdım özümə. Davidin dostu mənim də dostumdur. Keçək evə, səninlə tanışlığımızı qeyd eləyək. Balıqdan ötrü narahat olma, düzələcək. Bir az əvvəl Davidə zəng vurmuşdum, amma götürmədi telefonu. Yəqin, yenə çaxırdan vurub, yatıb. Gəl! – Üzünü daxmaya tərəf tutub çığırdı. – Səroş!

Sərinə qapını açıb həyətə çıxdı.

– Hə!?

– Bizə yemək təşkil elə! Bir az cəld ol!

– Yaxşı... – qadın soyuq səslə dilləndi.

– Pilləkənlə qalxıb evə girdilər.

– David mənim köhnə müştərimdir. – Ev sahibi stolun arxasında qonağına yer göstərib sözünə davam etdi. – Mən balığı Sevan gölündən gətirirəm. Belə balıqları heç bir yerdə tapa bilməzsən.





Gəlib həyatimdən alırlar.

Ələmdar düşündü ki, lap qədimdən türklərə məxsus olan Göyçə gölünün balıqlarını ermənilər yeyir, satıb xeyrini görürlər. Gölün adını da dəyişib dədələrinin malı kimi Sevan gölü qoyublar. Ancaq, tez də anladı ki, indi bu fikirlərin yeri deyil. O, buraya çox vacib və konkret bir tapşırığı yerinə yetirməyə gəlib. İndicə həyətdə gördüyü qadını öldürmək və elə etmək ki, erməni polisi və təhlükəsizlik orqanları onun intihar etdiyinə inansınlar.

Hələ ki, işi pis getmirdi. Vaxtilə alay komandiri olmuş Nerses ondan şübhələnməmişdi. Həm də, deyəsən, qonaqpərvər adama oxşayırdı. Enli kürəkləri, əzələli qolları, iri, kobud əlləri olan bu adam qonağı ilə üzbəüz oturub həvəslə söhbətə girişdi:

– Hə, Moskvada işləriniz necə gedir? Bir şey qazana bilirsiniz?

– Niyə ki, pis getmir, qazanırıq.

– Amma bizdə camaat kasıbdır. İş də yoxdur ki, pul qazansınlar. Mən tək özümü demirəm. Yenə yaxşısı mənəm. Balıqla özümü dolandırıram. Bilmirəm, David deyib, ya yox, mən alay komandiri olmuşam. Yaxşı da döyüşmüşəm. On beş il əvvəl Zəngilanı alanda ayağımdan yaralandım. Sonra bir az yatdım. Yenə hərbidə, ya polisdə işləyə bilərdim, daha özüm istəmədim. Gördüm, bizim kimi köhnələrin qədrini bilən yoxdur, hamısı özündən razıdır. Çıxıb gəldim kəndə, başladım öz başımı dolandırmağa.

– Mən o vaxtlar Rusiyada idim. – Ələmdar dedi. – Orada eşidirdim qələbələrimizi.

– Hə, şanlı günlər idi o günlər. Rayonları bir-birinin dalınca alırdıq. Onda Azərbaycanın ümumi ordusu yox idi. Bizimlə hər rayonun öz alayı döyüşürdü. Onlar da bizim ardıcıl hücumlarımıza tab gətirə bilməyib çəkilirdilər. İnsafla deyəndə, ruslar çox kömək edirdi bizə. Həm silahla, həm əsgərlə. Yoxsa, çox çətin olardı... Amma, axır ki, Qarabağı da, üstəlik nə qədər rayonu da aldıq. İndikilər isə bizim aldıqlarımız yerləri söküb-tökməklə, yandırmaqla məşğuldurlar. Niyə? Çünki, bilirlər ki, əllərində saxlaya bilməyəcəklər. – Əlini enli sinəsinə vurdu. –Nerses kimi oğullar yoxdur axı indi aralarında!

Əlində podnos tutmuş Sərinə içəri girdi. Podnosdakı soyuq

yeməkləri süfrəyə düzüb gedəndə Nerses:

– O alça arağından da gətir, - dedi. – Daniyel qardaşımla vuraq.

Qadın dinməz-söyləməz şkafdan bir araq şüşəsi və iki stəkan götürüb onların qarşısına qoydu. O, Ələmdara tərəf heç baxmırdı da. Nerses stolun üstündəki donuz kolbasasına, xiyar-pomidor tutmasına baxıb başını yellədi:

– Bunlardan bir şey çıxmaz, Səroş! Tələsik bir balıq qızart!

– Qızardıram. – qadın astadan dilləndi. – Səbrin olsun!

Nerses sağ əlini şappıltı ilə onun arxasına vurdu:

– Ay sağ ol! Adam kimi dil bilirsən!

– Yavaş! – diksinmiş qadın çımxırdı. – Əlin ayı əli kimi ağırdır.

– Get, get! – Nerses əlini yellədi. – Dağılmazsan. Balığı bir az tez gətir.

Sərinə heç nə demədən otaqdan çıxdı. Nerses araqdan stəkanlara süzdü.

– Bu qadın kimdir? – Ələmdar soruşdu. – Heç ermənıyə oxşamır.

Ev sahibi araqla dolu stəkanını əlinə götürdü:

– Qaldır görüm, tanışlığımızın şərəfinə içək!

Ələmdar qarşısındakı stəkana baxdı:

– Məmnuniyyətlə içərdim. Amma, qara ciyərimdən müalicə olunuram. Həkim hələlik qadağan eləyib içməyi.

– Həkimlərə çox da inanma. Götür, görək, alça arağıdır, özüm çəkmişəm.

– Yox, içə bilmərəm. Başqa bir vaxt səninlə içərik. Sağalandan sonra. –Stəkanını qaldırıb Nersesin stəkanına vurdu. – Sən iç, nuş olsun!

Nerses arağı başına çəkdi. Ələmdar isə pomidor tutmasından yeməyə başlayıb sualını təkrar etdi:

– Kimdir bu qadın?

Ev sahibi arağın üstündən bir diş duza qoyulmuş sarımsaq yeyib cavab verdi:

– Bu qadın türkdür. Xocalıdan. Biz oranı alanda Tiqran adlı bir oğlan bunu əsir götürmüşdü. Əsl qəhrəman idi. İndi heç bilmirəm haradadır, çoxdandır görmürəm. Hə, iki il sonra mən bu qadına əsirlərin içində rast gəldim. Xoşuma gəldi. Bir qulluqçu axtarırdım





onsuz da. Evə gətirdim.

– Quruyub qurtarıb ki bu? Nəyinə lazım idi?

– Gör üstündən neçə il keçib. Onda belə deyildi. Əti-əndamı, möhkəm bədəni var idi. Ölürdüm bundan ötrü. Az qala vurulacaqdım. İndi kaftarlaşıb. Həm də xəstədir.

– Bəs arvadın?

– Klara keçən il öldü. O vaxt razı deyildi bunu evə gətirməyimə. Deyirdi ki, öldürün getsin. Gözümü ağartdım, oturdu yerində. Amma, zülüm eləyirdi buna mən evdə olmayanda.

Sərinə yenə də dolu podnosla içəri girdi. Balıq qızardıb gətirmişdi. Ələmdar bu dəfə onun gözlərinə daha diqqətlə nəzər saldı. Qadının gözlərinin dərinliyində gizlənmiş qatı kədər onu çaşdırdı. Bu gözlərdə həyasızlıqdan, pozğunluqdan əsər-əlamət belə yox idi. Bu dəfə Sərinənin sifəti də ona nurlu göründü. O, belə təsəvvür etməmişdi bu qadını. Necə ola bilərdi axı, erməni kimi mənfur düşmənin içində on yeddi il yaşayasan, olmazın zülümlər, insan ləyaqətini alçaldan işgəncələr görəsən, amma yenə öz insanlıq simanı itirməyəsən?...

Həyətdən kişi səsi gəldi:

– Nerses!

Ev sahibi cəld ayağa qalxıb pilləkənin başına çıxdı:

– Stepan, sənsən? Gəl, evə çıx!

– Yox, gedirəm, aşağı en, sənə sözüm var. – yeni qonağın səsi eşidildi.

Ələmdar gözünü qadına zilləmişdi. Sərinə stolun üstünə dağılmış arağı silirdi. Qonağın ona çox diqqətlə baxdığını görəndə başını yana çevirib yaşmaqlanmağa bənzər elə bir hərəkət etdi ki, bu, Ələmdarın nəzərindən yayınmadı. Belə hərəkəti erməni qadını yox, yalnız azərbaycanlı qadını, türk qadını edə bilərdi. Ələmdarın uşaqlığı Bakının köhnə məhəllələrinin birində keçmişdi. Onlarla eyni həyətdə Suren adlı bir ermənının də ailəsi yaşayırdı. Ələmdar onun oğlu Artur ilə həmyaşıd idi və hər gün bir yerdə oynayırdılar. Qonşuluqda yaşayan bir rus hər gün onlara əlbəyaxa döyüş qaydalarından dərs keçirdi. Ələmdar ermənilərin dilini də, adətlərini də hələ o vaxtdan öyrənməyə

başlamışdı. Sonradan isə çox şeyi kəşfiyyat məktəbində öyrəndi. Yox, bu qadın əsl türk qadını idi və o, on yeddi il düşmənlərin əlində olsa da milli ruhunu dəyişməmişdi. Bunu onun gözlərinin içinə yığılmış sonsuz kədər hər şeydən daha artıq göstərirdi. Amma, xəstə olduğu da göz qabağında idi. Ələmdar həkim olmasa da başa düşdü ki, bu qadının həm ciyərində, həm də böyrəklərində problemlər var.

Yox! Ələmdar bu qadını öldürə bilməyəcəkdi. Bu qadın, birincisi, qadın idi. İkincisi, öz millətinin qadını idi. Düşmənin əlində aciz qalmışdı. Onu öldürmək yox, xilas etmək lazım idi. Ancaq, necə? Necə etməliydi ki, bu Məxfi şöbənin vacib əməliyyatına mane olmasın? Bu mümkün idimi? Ancaq mümkün olsa da, olmasa da, Ələmdar onu öldürməyəcəkdi. Qaçıracaqdı buradan! Bakıdakı qrup üzvləri Səidlə görüşə gəlməyəcək, gəlməsinlər. Cəhənnəmə ki! Onları ifşa etmək üçün Məxfi şöbə, gec də olsa, çarə tapacaq.

Sərinə bir bulaşıq boşqabı podnosa qoyub getmək istəyəndə, Ələmdar, demək olar ki, özündən asılı olmayaraq onu erməni dilində səslədi:

– Dayanın!

Qadın dayanıb arxaya çevrildi. Bacardığı qədər özünü laqeyd göstərməyə çalışırdı.

– Siz Bakıya zəng vurmuşdunuz? –Ələmdar yenə erməni dilində danışırdı.

Sərinə özünü itirdi və baxışlarında dəhşətli bir qorxu hiss olundu. Bunu görən Ələmdar cəld azəri türkcəsində:

– Mən Bakıdan gəlmişəm, qorxmayın! – dedi.

Qadın heyrətindən içini çəkdi. Əlləri boşaldı və podnosdakı boşqab yerə düşüb çilik-çilik oldu. Qeyri-iradi olaraq əyilib boşqab qırıqlarını yığmağa başladı.

Bu vaxt Nerses kefi kök halda içəri girdi. Aşağı əyilmiş qadına baxıb ona yaxınlaşdı. Əlini yenə şappıltı ilə onun arxasına vurub:

– Səroş, sən deyəsən boşqab qoymayacaqsan qalsın məndə? – dedi və gülə-gülə yerinə keçdi.

Qadın dikəlib pərt halda bircə anlığa Ələmdara baxdı. Bu zaman Ələmdar onun öz millətinin oğlu qarşısında nə qədər utanıb xəcalət





çəkdiyini anladı. Otaqdan çıxan qadının arxasınca baxıb, dodaqlarını gəmirərək hirsini güclə cilovladı.

Ancaq Nerses ondakı dəyişikliyi başa düşən halda deyildi. Gülə-gülə:

– Ayağın yüngül imiş, Daniyel, - dedi. – Daha bir təzə müştərim tapıldı.

– Lap yaxşı! – Ələmdar bunu deyib, qarşısındakı araqla dolu stəkanı başına çəkdi.

Ömründə bəlkə də birinci dəfə idi ki, spirtli içki qəbul edirdi. Xoşagəlməz qoxulu tünd alça arağı əvvəlcə boğazını, sonra isə bütün içini yandırdı.

–Bax, bu başqa məsələ! –Nerses ucadan güldü. – Yoxsa, başlamısan, həkimlər belə gəldi, qara ciyər elə getdi. – öz stəkanına yenidən araq süzüb içdi. –Ye bu balıqdan. Bundan yaxşısını tapa bilməzsən.

Ələmdar qızardılmış balıqdan yeməyə başladı. Eyni zamanda, beynində sürətlə plan qururdu. Əvvəlcə qadınla söhbət etməliydi. Sonra isə bu əclafı o dünyalıq eləyib, onu qaçırmalıydı. Sərhədi haradan və necə keçəcəkdi? Təki buradan çıxaydı, bir şey fikirləşib tapardı. Bəs Baratov? Əşi, cəhənnəm olsun Baratov da! Başını qaldırıb Nersesə baxdı:

–Yatmazdan qabaq bu türk qadınının yanına getmək istəyirəm. İcazə verirsən?

Nerses qarnını tutub bərkdən gülməyə başladı:

–Bunun nəyinə aşiq olmusunuz, bilmirəm. O gün David də tamah salmışdı buna. Bu arvadın ən yaxşı kefini Tiqran görmüşdü. Sonra da mən axırına çıxdım. Nə qalıb ki onda?

– Hər halda türk qadınıdır. – Ələmdar dedi. – Heç onlardan əlimə düşəni olmayıb.

– Get də, get! O Səroş, o da sən! Ancaq gözlə, səni cırmaqlamasın. Hərdən bir tutması tutur onun. İndisə qaldır bunu da içək sənin yeni məhəbbətinin sağlığına.

Yenə qəhqəhə çəkib güldü. Ələmdar onun üçün doldurulmuş stəkanı kənara itələdi:

– Mən içmirəm. Yenə qara ciyərim ağrımağa başladı.

– Nə yaşın var sənin, sən hələ uşaqsan. – Nerses başını buladı. – Məni görürsən, buz baltası kimiyəm. Mənə heç əlli yaş verərsən?

– Yox...

– Görürsən? - Nerses növbəti stəkanı başına çəkdi.

Ələmdar özünü tamamilə ələ almışdı. Çox sakit idi və bu sakitliyi özünə də qəribə görünürdü. Stulun arxasına söykənib Nersesin öz igidlikləri barədə söhbətlərinə qulaq asmağa başladı.

## QIRXINCI FƏSİL

Tünd alça arağından içib keflənmiş Nerses gecə saat on birə kimi öz sərgüzəştlərindən danışdı. Ələmdar isə, özünü ona qulaq asan kimi göstərsə də, öz aləmində idi. Qarşısında duran qeyri-adi dərəcədə ciddi vəzifələr barədə düşünürdü. Dövlətinə, millətinə olan borcu ilə adi insanlıq borcu bir-birinə qənim kəsilmişdi. Düşünüb, təcili olaraq, qəti bir qərara gəlməliydi. Amma, bir şeyi artıq tam qəti şəkildə anlayırdı ki, Səidin anasını öldürə bilməyəcək.

Bir az əvvəl baş verən xoşagəlməz vəziyyəti xatırladı. Sərinə Ələmdarın əslində kim olduğunu bilməyəndə Nersesin təhqiredici zarafatına daha asanlıqla dözmüşdü. Ələmdarın Bakıdan gəldiyini, öz millətindən olduğunu biləndən sonra isə həmin hərəkət onun qəlbinin dərinliyində qoruyub saxladığı qürurunu bir daha tapdalamışdı. O, necə də xəcalət çəkdi Ələmdarın yanında, necə də utandı. Əsir olduğu üçün, insanlıqda payı olmayan düşmənin təhqirlərinə dözdüyü üçün utandı. Öz millətindən olan Ələmdarın yanında təhqir olunduğuna və bu səbəbdən Ələmdarın kişilik qüruruna toxunduğuna görə utandı. Elə bil, yazıq qadın özü günahkar idi bu işlərdə...

Təkcə, üzündə gördüyü həmin xəcalət hissinə görə Ələmdar bu qadının daxilən nə qədər qeyrətli, nə qədər qürurlu bir qadın olduğunu anlamışdı. Uzun illərin əsirliyi bu qadını üzdən dəyişmişdi, qəlbini qırıb parçalamışdı, ürəyini daşa döndərib laqeydləşdirmişdi, amma babalarından, nənələrindən ona keçmiş qeyrəti, həyanı ondan ala bilməmişdi. Ələmdar bu qadını necə öldürə bilərdi axı!? Necə əli qalxardı onu öldürməyə?...





Bayaqdan guya Nersesin danışdıqlarına qulaq asan Ələmdar artıq beynində bəzi planlar qurmuşdu. Sərinə ilə söhbət edəndən sonra Nersesi öldürüb, qadını gecəykən buradan uzaqlaşdıracaqdı. Meşədə gizlədib, əgər imkan olardısa, özünün Gürcüstan nömrəsindən Bakıya-məxfi şöbəyə zəng vuracaqdı. Çalışacaqdı ki, Sərinə öz oğlu ilə danışıb azadlığa çıxdığını ona bildirsin. Polkovnik Baratov nə qədər əsəbləşsə də başqa çarəsi qalmadığı üçün həmin bu planın həllinə kömək edəcəkdi. Əgər zəng etmək alınmasaydı, qadının Səidə ünvanlanmış sözlərini telefona yazacaqdı. Sonra onu meşədə gizlədib özü Gürcüstana gedəcək, qadının səsini Bakıya göndərəcəkdi. Daha sonra isə Sərinəni gizli meşə yollarıyla aparıb sərhəddən Azərbaycana keçirmək üçün yenidən buraya-Ermənistana qayıdacaqdı. O, bu planın həyata keçirilməsində öz gücünə inanırdı. Ancaq, tək bir şey narahat edirdi onu. Sabah saat 2-yə qədər erməni milli təhlükəsizlik orqanları Sərinənin qaçdığını bilərdisə, bu, Səidlə olacaq görüşün ləğvi demək idi. Bütün işlər pozulacaqdı, belə olardısa. Amma, Ələmdar keçirilən ciddi əməliyyatın taleyi ilə oynadığını başa düşsə də bu risqə getmək fikrindəydi.

Saat on birdə danışmaqdan yorulmuş Nerses Ələmdara yatacağı çarpayını göstərdi və özü də soyunub yatağına girdi. Ələmdar isə əsir qadının yanına getmək istədiyini bir daha ona xatırladıb, yarım saata qayıdacağını dedi və işığı söndürüb evdən çıxdı. Həyətə enəndə it onu görüb əvvəlcə ayağa qalxaraq mırıldandı, sonra isə quyruğunu bulayıb yenidən yerə çökdü. Ələmdar qadının daxmasına yaxınlaşıb qapını döydü. İçəridən zəif işıq gəlirdi. Qapı açıldı və Sərinə onu içəri buraxıb qapını yenidən örtdü. Üzündə dərin bir təlaş var idi. Hiss olunurdu ki, bayaqdan oturub Ələmdarı gözləyir. Səsini içinə salıb, az qala pıçıltı ilə:

– Səidi tutmusunuz? – deyə soruşdu.

Öz doğma dilində danışmağı da tərgitmişdi, elə bil. Dili dolaşır, səsi titrəyirdi. Gözlərini geniş açıb Ələmdarın ağzına zilləmişdi və ondan cavab gözləyirdi. Ələmdarın başı alçaq daxmada az qalırdı ki, tavana dəysin. Köhnə, sınıq-salxaq stulu altına çəkib əyləşdi və yalnız bundan sonra:

– Hə, tutmuşuq. -dedi.

Sərinə də öz çarpayısının üstündə oturdu:

– Hər şeyi danışdı?

– Yox! – Ələmdar başını buladı. – Təəssüf ki, heç nə danışmadı. Oğlunuz Bakıya gələndən sonra ermənilərin göstərişiylə bir ailəni qətlə yetirib. Dörd nəfər günahsız adamı... Daha bir ailəni qırmaq istəyəndə onu həbs etdik...

– Of! ... – Qadın inildəyib əlləri ilə başını tutdu. – Əlin quruyaydı sənin, ay Səid!

Ələmdar onun necə dəhşətli anlar keçirdiyini anlayıb susdu. Başını qaldırıb daxmaya göz gəzdirdi. Bura çox kiçik idi. İçəridə üstünə nazik döşək və yorğan atılmış taxta çarpayıdan, oturduğu stuldan, küncə qoyulmuş kiçik stoldan başqa heç nə olmasa da cansıxıcı bir darısqallıq hökm sürürdü. Amma, Ələmdar ona da fikir verdi ki, daxmadakı əşyalar köhnə və sınıq-sökük olsa da, hər şeydə qadın təmizkarlığı hiss olunur.

Bir qədər keçəndən sonra həddindən artıq sarsılmış qadın başını qaldırıb Ələmdarın üzünə baxdı. Onun gözlərində acı kədərlə bərabər, dərin bir xəcalət hissi də duyulurdu.

– Buraya niyə gəlmisiniz?

Səsi də batmışdı, sanki. Boğula-boğula danışırdı. Ələmdar bəzi şeyləri olduğu kimi demək qərarına gəldi:

– Bakıda ermənilərin gizli təxribatçı qrupu fəaliyyət göstərir. Səidin bizim əlimizə keçməsindən hələlik onların xəbəri yoxdur. Onlar Səidin kirayə qaldığı mənzilə məktub göndərib onu sabah günorta saat 2-yə görüşə çağırıblar. Ancaq, biz görüşün harada olacağını bilmirik. Nə də oğlunuz bunu bizə demək istəmir. Qrupun izinə düşmək üçün yeganə yol budur ki, Səid bizə görüş yerini





bildirsin və bizim nəzarətimiz altında həmin görüşə getsin. O isə qorxur ki, bizə kömək edərsə, bundan Ermənistanda xəbər tutub sizi əzabla öldürərlər.

– Onu incidirlər, hə? – Sərinə kövrək səslə soruşdu.

– Yəqin ki! – Ələmdar çiynini çəkdi. –Burada dövlətin mənafeyi məsələsi var, iş çox ciddidir.

– Düz deyirsən, bala... - qadın astadan başını tərpətdi. – Düz deyirsən! Mən ona çox dedim. Dedim ki, mən onsuz da ölmüşəm. Təzədən öldürülməyimdən qorxma. Dedim ki, nə eləyirsən elə, dövlətinə, torpağına xain çıxma. Baxmadı demək sözümə... Bilirdim tərsliyini, elə ona görə zəng vurdum Bakıya.

– Necə oldu ki, bu xəbəri bizə çatdıra bildiniz? – Ələmdar soruşdu.

– Səidi mənim yanıma gətirmişdilər. – Sərinə danışmağa başladı. – Bir gecə yanımda qaldı. Hər şeyi danışdı mənə. Yalvardım-yaxardım ki, gedən kimi təslim ol özümüzünkülərə. Sözümə baxmadı. Dedi, elə etsəm, səni öldürəcəklər... O gedəndən sonra məni qorxu bürüdü. Düşünəndə ki, mənim oğlum vətəninə, millətinə xəyanət eləyəcək, ermənilərə qoşulub özümüzünkülərin qanını tökəcək, dəhşətə gəlirdim. Mən çoxdan özümü öldürəcəkdim, oğul. İnan mənə! Bir Səidi görmək arzusu ilə yaşayırdım, bir də məni təhqir edən, ailəmi qırıb, özümə olmazın əzablar verən bu adamlardan, ən çox da birindən intiqam almaq arzusu ilə... İndi mənim oğlum həmin adamlara qoşulub, onların xeyrinə işləyəcəkdi. Öz millətinə düşmən olacaqdı. Mənim ürəyim bunu götürə bilməzdi. Heç cür götürə bilməzdi...

– Kimdir o ən çox intiqam almaq istədiyiniz? – Ələmdar özündən asılı olmayaraq qadının sözünü kəsib sual verdi.

– Neynirsən, oğul? – Sərinə başını yellədi. – Mən öz dərdimisərimi başqalarına danışıb yük eləməmişəm heç vaxt. O adamdan da, əgər Tanrı imkan versə, özüm alacam intiqamımı. – dayanıb dərindən ah çəkdi. – Yox, əgər ömrüm çatmasa buna, o alçağın intiqamını Tanrıya tapşıracam. Bu on yeddi ildə tək buraxmayıb Tanrım məni. Hər gecə söhbət eləmişəm onunla. Ancaq o dözüm verib mənə, o yaşadıb məni...

– Çox əzablar çəkmisiniz, hə, bu illərdə?

Sərinə susdu. Elə bil gözləri yol çəkirdi. Ələmdarın üzünə baxa bilmirdi, nədənsə. Nəhayət ki, astadan dilləndi:

– Torpağımdan, elimdən-obamdan ayrı düşmüşəm. Bundan böyük nə əzab olar ki?

– Yaxşı, danışın, xahiş edirəm, necə zəng vurdunuz?

– Birdən ağlıma gəldi ki, Səidin gələcəyini Bakıya xəbər verim. Ancaq buradan telefonla zəng etmək mümkün deyil. Əvvəllər bir-iki dəfə Nersesin telefonunu gizlincə götürüb buna cəhd eləmişdim. Bakının kodunu bilirdim. İstəmişdim ki, kiminsə səsini eşidim oradan. Ancaq mümkün olmamışdı. Gürcüstandan bir balıq alverçisi gəlir bura hərdən. David adında. Fikir vermişdim, onun telefonu burada bəzən dalğanı tuturdu, bəzən tutmurdu. Özü bir dəfə Gürcüstanla danışanda eşitmişdim. Elə oldu ki, Səid məndən ayrılandan bir-iki gün sonra David gəlib çıxdı. Gecə birtəhər imkan tapıb telefonunu götürdüm. Bakının ancaq ev telefonlarının kodunu bilirdim. Ağlıma gələn bir nömrə yığdım, dedilər ki, səhv yığmışam. Qorxudan əllərim elə əsirdi ki... Axır, bir nömrəyə düşdüm. Kimsə, kişi idi götürən. Yalvardım ki, Səidin gələcəyini xəbər versin dövlət adamlarına...

Susdu. Ələmdar da susmuşdu və öz məqsədini ona necə deyəcəyi barədə düşünürdü. Ancaq Sərinə özü dilləndi:

– İndi neyləmək istəyirsiniz, bala? Məqsədiniz nədir?

Ələmdar nəzərdə tutduğu planı qadına qısaca başa saldı. Axırda isə sözünü belə yekunlaşdırdı:

– Siz elə indidən hazırlaşmağa başlayın, gecəykən buradan çıxaq.

Sərinə bir qədər fikrə gedib kədərlə başını yırğaladı:

– Bu iş mümkün deyil... Əgər buradan danışmaq olsaydı, yenə danışardım Səidlə. Ancaq onu da bilirəm ki, yola gələn deyil. Onsuz da burada çox yalvarmışdım, dediyimi demişdim... Məni xilas etməyiniz isə heç mümkün deyil. Sən də cavansan, mənə görə başına bir iş gəlməyini istəmərəm...

– Mənə görə narahat olmayın. – Ələmdar onun sözünü kəsdi. –





Sərhəddi keçməyim birinci dəfə deyil.

– Qulaq as! –Sərinə ciddiləşdi. – Lap sən məni xilas etsən də, öz işinizi korlaya bilərsən. Qaçmağımdan xəbər tutsalar Bakıdakı o alçaqlar daha Səidə inanmayacaqlar, onunla görüşə gəlməyəcəklər .

Ələmdar qadının düşüncəsinə heyran qalmışdı:

– Mən bütün bunları fikirləşmişəm. – dedi. – Ancaq, risqə getməkdən başqa çarəmiz yoxdur.

– Yox! –Sərinə yenə başını silkələdi. - Sizin risq etməyə ixtiyarınız yoxdur. Əgər bu qansız kafirlər gəlib ora da çıxıblarsa, onları tutub cəzalarını verməlisiniz. Buna görə ancaq Səidi yola gətirmək lazımdırsa... - qadın birdən başını qaldırıb kinlə dolu gözlərini Ələmdarın üzünə zillədi. – Necə istəyirsiniz edin, yola gətirin. Bu işə görə onun qanını da sizə halal edirəm!

Ələmdar onun son sözlərindən diksindi.

– Siz oğlunuzun ölümünə razısınız?

Sərinə, sanki, içindəki intiqam hissinin çoxluğundan boğulurdu. Sinəsi sürətlə qalxıb enir, əlləri əsirdi. Özünü çox çətinliklə ələ alıb dilləndi:

– Oğul, adını da bilmirəm sənin... O vaxt bizi meşədə əsir alanda ərim gözümün qabağında qızımı öldürdü. Öldürdü ki, bu kafirlərin əlinə keçməsin. Qızımı canımdan çox istəyirdim mən. Ancaq bu keçən illərdə bir dəfə də qınamadım ərimi. Ölüm haqdır! Onsuz da hamımız öləcəyik. Ancaq qeyrətsiz yaşamağı Allah heç kəsə göstərməsin. İndi sən Səidi deyirsən... Neynirəm mən onu, əgər o bizi bu hallara salanların dəyirmanına su tökürsə?!

Ələmdar etiraz etməyə məcbur oldu:

– Sərinə xala, Səidi öldürməyin bizim işimizə bir xeyri yoxdur. Əksinə, o yaşamalı və bizə kömək etməlidir ki, Bakıda baş verəcək qanlı təxribatların, cinayətlərin qarşısını alaq.

Sərinə bir söz tapmayıb, yenə susdu. Sonra ağlına nə gəldisə, əlini köhnə, cır-cındır döşəyin altına salıb oradan göy rəngli, üstündə qırmızı güllər olan bir köhnəlmiş ləçək çıxartdı. Onu əli ilə sığallayıb qəmli səslə dilləndi:

– Bunu on yeddi il əvvəl Səid özü alıb gətirmişdi mənim üçün.

Fərəhlə başıma örtürdüm... Bu illər ərzində üstümdəki paltarın, əşyalarımın heç birini saxlaya bilməmişəm. Təkcə bunu qoruyub saxlamışam. Ləçək bizlərdə qadının namusu, qeyrəti hesab olunurdu. – Ləçəyi Ələmdara uzatdı. – Al bunu, oğlum kimi sənə etibar edirəm. Bakıya apar. Ver Səidə, o saat tanıyacaq bunu. Biləcək ki, doğrudan da mənim yanımda olmusan. Ləçəyi ver ona, de ki, anan göndərdi bunu. De ki, anan sənə bir də yalvarır, sənin ayaqlarına düşür ki, tərsliyini yerə qoy, elinə-obana xəyanət yolundan uzaqlaş! De ki, ananın bu ləçəyinə sahib durmaq istəyirsənsə, bizim dediyimizi elə, bizə qoşul! Bəlkə belə etsən yola gətirə bilərsiniz onu.

Ələmdar əli ilə qadının ləçəyi tutan əlini geri itələdi:

– Yox, Sərinə xala, bunun heç bir xeyri olmayacaq. Ona ləçək yox, sən lazımsan. O, qorxur ki, bizə kömək etsə səni işgəncələrlə öldürəcəklər. Hazırlaş, mən səni buradan xilas edib Azərbaycana aparacam.

– Sən ağlını itirmisən, bala, bu mümkün deyil. Mümkün olsaydı, indiyədək özüm qaçıb gələrdim.

– Mümkündür! –Ələmdar inad göstərdi. – Səni ən çətin yollarla da olsa sərhəddən keçirəcəm.

– Birdən bizi gördülər? Canına heyfin gəlmir?

– Bu dığalar mənə heç nə eləyə bilməzlər. – Ələmdar inamla dedi. – Qabağımıza çıxan olsa, öldürəcəm. Mənə etibar eləyə bilərsən. Bundan yüz dəfə ağır vəziyyətlərdən çıxmışam.

Sərinə, nə düşündüsə, gözləri yaşardı:

– Ay bala, sənə qurban olum, lap məni sağ-salamat aparıb Bakıya çıxarsan da, kimə lazımam bundan sonra? Səid bədbəxt, əgər o adamları öldürübsə, onu onsuz da tutacaqlar. Ömrü türmədə keçəcək. Məni də... Deyəcəklər, filan qədər ermənilərin əlində əsir olub... Kimə lazımam?

– Elə demə, Sərinə xala, - Ələmdar etiraz etdi. – Sən bizim anamızsan. Lazım olsa, səni özüm saxlayacam.

Bu sözlərdən təsirlənən qadın özünü saxlaya bilməyib ağlamağa başladı. Əlindəki ləçəyi bir daha Ələmdara uzadıb göz yaşları içində dilləndi:





– Əgər məni doğrudan da ana hesab edirsənsə, al bu ləçəyi Bakıya apar! Ləçək namusdur, düşmən torpağında qalmasın. Ver Səidə, de ki, keçmişdə ən özündən deyən güclü kişilər, gözlərini qan örtəndə belə, ləçəkdən keçə bilməyiblər. De ki, anan ləçəyini göndərib sənə, onun namusu sənin üçün əzizdirsə, xəyanətdən əl çək!.. Səidi türməyə salandan sonra sən saxlayarsan bu ləçəyi...

Ələmdar artıq hirslənməyə başlayırdı:

– Sərinə xala, mən sənin ləçəyini yox, özünü aparacam Bakıya. Mənimlə razılaş, işə başlayaq. Gecə keçir.

– Elə Səid kimi sən də tərssən! – qadın göz yaşlarını qurulayıb dedi. – Mən bu gecə namazımı qılmamışam. Çıx həyətə, namazımı qılım, sonra gəl fikirləşək.

– Fikirləşmək lazım deyil. Başqa yolumuz yoxdur.

– Qoy namazımı qılım, sonra Allah nə yol göstərər, onu da eləyərik.

– Yaxşı.

Ələmdar razılaşıb ayağa qalxdı və daxmadan çıxıb qapını arxasınca örtdü. İt yenə yerindən qalxıb mırıldandı. Sonra isə sakitcə dayanıb Ələmdara tamaşa etməyə başladı.

Hava soyuq idi. Ələmdar həyətə enəndə gödəkçəsini yuxarıda qoymuşdu. Amma indi soyuq yadına düşmürdü. Həyətdə gəzişib namazın bitməsini gözləyirdi. Qadın qəti sözünü deyən kimi evə qalxıb Nersesi aradan götürəcəkdi. Sonra isə kənddən çıxıb magistral yolun o biri tərəfindəki meşəyə qədər gedəcəkdilər. Sonrası isə telefonunun Gürcüstan dalğalarını tutub-tutmamasından asılı olacaqdı.

– Allahu Əkbər!

Daxmadan namaz qılan qadının çox zəif səsi gəldi. Daha bir az keçdi. Ələmdar yenə qadının səsini eşitdi və daxmanın qapısına yaxınlaşıb dinləməyə başladı. Qadın indi öz dilində Allaha üz tutub dua edirdi:

– Mənim günahlarımı bağışla, ya Rəbbim! Mən həmişə səninlə olmuşam, yenə səninləyəm. Nəzərini oğlumun da üstündən əskik eləmə, sənə qurban olum! Ona imkan vermə elinə-obasına

xəyanət eləsin! Bu millətə də təpər ver, öz intiqamını alsın. Yazığın gəlsin bu millətə! O kafir Tiqranı da sənə tapşırıram! Qoyma mənim qisasım yerdə qalsın!...

Ələmdar birdən düşündü ki, qapıdan qulaq asmaqda yaxşı iş görmür. Aralanıb darvazaya tərəf getdi. Deməli, bu qadının intiqam almaq istədiyi adam Tiqran imiş. Ələmdar onun haqqında Səiddən eşitmişdi. İndi yadına düşdü... Ancaq Sərinə bu erməninin adını demək istəmirdi Ələmdara. Gördüyü təhqirlər barədə, namusuna edilən təcavüz barədə danışmağı öz mənliyinə sığışdırmırdı.

Birdən-birə Ayçöhrəni xatırladı. Onun Tanrısına etdiyi dualar yadına düşdü. Nədənsə, ona elə gəldi ki, Ayçöhrə ilə bu qadın, səni Sərinə arasında nəsə bir oxşarlıq var. Nə idi bu oxşarlıq, görəsən? Allaha bu dərəcədə bağlılıqdamı? Ya, bəlkə zahiri görünüşdə? Sərinə sözsüz ki, qocalmışdı. Həm də gördüyü əzabziyyətlər onu vaxtından əvvəl qocaltmışdı. Amma, hiss olunurdu ki, cavanlıqda çox gözəl olub. Ayçöhrə kimi...

Görəsən, indi Ayçöhrə nə edir? Gecədən keçib, hər halda, yatmış olar. Həm də lap yəqin ki, anasının yataq otağında, Reyhanənin əvvəl yatdığı yataqda...

Ələmdar azacıq üşüdüyünü hiss edib fikirdən ayrıldı. Daxma tərəfdən səs gəlmirdi. Oraya doğru bir neçə addım atıb dinlədi. Yox, heç bir səs gəlmirdi...

Yaxınlaşıb qapını araladı. Həmin anda nə gördüsə, cəld qapını açıb özünü irəli atdı.

Bədbəxt qadın özünü tavana bağladığı ağ mələfə parçasından asmışdı...



## QIRX BİRİNCİ FƏSİL

Bəlkə də yarım saat olardı ki, Ələmdar daş heykəl kimi dayanıb, tavandan asılmış cəsədə tamaşa edirdi. Qadın özünü, elektrik lampasının məftilini keçirmək üçün tavana vurulmuş qalın mismardan asmışdı. Tavan alçaq olduğu üçün ayaqları az qalırdı ki, döşəməyə dəysin. Ələmdar yaxşı bilirdi ki, özünü asan hər bir adam son anda, yəni kəndirdən sallanandan sonra mütləq etdiyi hərəkətə peşman olur, yaşamaq eşqi güc gəlir və bacardığı qədər özünü xilas etməyə çalışır. Sərinə isə, belə görünürdü ki, ən son anda belə, peşman olmamışdı. Əgər peşmançılıq keçirib, ayağını azacıq uzatsaydı, ayaq barmaqları döşəməyə toxunardı və beləliklə, özünü ölümdən saxlayardı. O isə bunu istəməmişdi. Hətta səsini çıxarmaqdan da çəkinmişdi ki, həyətdə gəzişən Ələmdar onu eşidib köməyə gələ bilər.

Ələmdarın diqqətini Sərinənin sağ əlində tutduğu ləçək cəlb etdi. Dərhal başa düşdü ki, qadın öz baş örpəyini onun üçün tutub əlində. İstəyib ki, Ələmdar onu alıb Bakıya aparsın. Ləçəyi qadının arıq, qurumuş barmaqlarının arasından çətinliklə alıb bir qədər gözdən keçirtdi. Ona çox pis təsir eləmişdi bu ləçək məsələsi. On yeddi il imiş ki, ağır əsirlik şəraitində bunu qoruyub saxlayırmış Sərinə. Lap az qalmışdı ki, kövrəlsin...

Amma tez də özünü ələ alıb həmin daş ürəkli Leopard oldu. Söz verdi ki, təsirlənib-eləməyəcək. Bu hadisə nə qədər ağrıdıcı, bədbəxt qadının taleyi nə qədər kədərli olsaydı da yumşalmayacaqdı. İndi ona qətiyyən yaraşmazdı bu.

Elə o özü həmin bu qadını öldürmək tapşırığıyla gəlməmişdimi bura? Həm də sərhədi keçib Ermənistana girəndən sonra maşında belə bir amansız plan fikirləşmişdi ki, Nersesi öldürüb, onun dalınca da Səidin anasını asacaq. Guya ki, Nersesi öldürən qadın sonra da özünə qəsd edib... İndi Sərinə planın ikinci hissəsini özü yerinə yetirmişdi. Qalırdı, birinci hissəni yerinə yetirmək. Həm də bunu tez etmək ki, sonradan ekspertiza qadının Nersesdən əvvəl

öldüyünü müəyyən etməsin.

Ələmdar yaxşı anlayırdı Sərinənin bu hərəkətini. Bilirdi ki, bu ağıllı və qeyrətli qadın hər şeyi ölçüb-biçib. Düşünüb ki, Ələmdar onun ölüm xəbərini Səidə çatdıracaq və Səid, anasının daha həyatda olmadığını bilib, tərsliyindən əl çəkərək düşmən qrupunun ələ keçirilməsinə kömək edəcək.

Özünə bir daha söz verdi ki, ən azı bu qadının mərdliyi xatirinə bütün qüvvəsini toplayıb əməliyyatı başa çatdıracaq və beləliklə, Bakıdakı gizli təşkilat üzvləri tutulub cəzalarını alacaq.

Telefonunu cibindən çıxarıb, tavandan sallanmış cəsədin müxtəlif tərəflərdən fotosunu çəkdi. Sonra daxmadan çıxıb pilləkənlə evə qalxdı. Nersesin xorultusu pilləkənin başına gəlirdi. Otağa daxil olub işığı yandırdı. Ev sahibinin çarpayısına yaxınlaşıb onu səslədi:

– Nerses, qalx!

Nerses bu çağırışdan ayılmadı. Yalnız üzünə dəyən sillədən sonra diksinib gözlərini açdı:

– Nə olub? Kimsən?

– Qalx ayağa!

– Daniyel, sənsən? Nə olub?

Ələmdar onun qalın əzələli qolundan tutub dikəltdi:

– Cəld ol, qalx, həyətə enək!

Əynində yataq tuman-köynəyi olan Nerses ayağa durdu. Ələmdarı itələmək istəyəndə çiyninə dəyən qüvvətli yumruq zərbəsindən çarpayıya yıxıldı.

– Qalx! – Ələmdarın hökmlü əmri eşidildi.

Nerses bir də ayağa qalxdı. Ələmdar onun qolundan tutub qapıya tərəf itələdi:

– Ayaqqabılarını geyin!

Heç bir şey anlamayan Nerses əmrə kor-koranə tabe oldu. Pilləkənlə enib həyətə çıxdılar. Ev sahibi burada da öz gücünü sınayıb rəqibindən qurtulmaq istədi. Amma, tez də anladı ki, rəqibi ondan qat-qat güclüdür. Onun görünən yerlərində xəsarət qoymaq fikrində olmayan Ələmdar qolunu burub arxasına keçirdi və daxmaya tərəf itələdi. Bir an sonra Nerses gördüyü mənzərədən





dəhşətə gəldi:

– Bu nə deməkdir?! Sən ona neylədin?!

– O, özünü asıb. – Ələmdar bir qədər sakit səslə dedi. - Çıxart ayaqqabılarını, uzan yatağa!

Nerses nə qədər çalışsa da arxasına keçirilmiş qolunu Ələmdarın əlindən çıxara bilmirdi.

– Niyə axı, Daniyel? Sən nə etmək istəyirsən?

Ələmdar bəlkə də ilk dəfə öz adını düşməninə deməkdən həzz almaq istədi:

– Mən Daniyel deyiləm, Leopardam. Azərbaycandan gəlmişəm.

– Leopard? – Nerses heç nə anlamadı.

– Hə! Uzan yatağa!

– Axı niyə?!

Nerses Ələmdarın ayağına təpiklə vurdu. Elə həmin anda da Ələmdar fənd işlədib onu Sərinənin çarpayısına yıxdı və kürəyinə dalbadal iki yumruq zərbəsi endirdi. Bu zərbələr Nersesi bir anlıq gücdən saldı və o zarıyıb çarpayıya uzandı. Ələmdar küncdəki stolun üstünə yığılmış qab-qacağın arasındakı köhnə mətbəx bıçağına baxdı. Onu bayaq daxmada olarkən gözaltı eləmişdi. Cibindən çıxardığı ləçəyi sağ əlinə dolayıb bıçağı götürdü. Sol əliylə Nersesin saçlarından yapışıb başını geri dartdı və bıçağı bir an da tərəddüd etmədən onun boğazına çəkdi. Həmin anda boyun damarlarından fontan vuran qan çarpayını və daxmanın divarını qırmızıya boyadı.

Sonra onu buraxıb geri çəkildi. Qanlı bıçağın dəstəyini Sərinənin sağ əlinə verib, qadının ovcunu sıxdı və bıçağı yerə tulladı. Əlinə doladığı ləçəyi yenidən cibinə qoyub Nersesə tamaşa etməyə başladı. Boğazı kəsilmiş Nerses birdən ucadan xırıldamağa başladı. Xırıltı səsi onun ağzından yox, kəsilmiş boğazından gəlirdi. Sonra, qəflətən yerində çabalamağa başladı. Elə bil bədəninə əlavə güc gəlmişdi. Ayağı ilə divara vurduğu zərbədən daxma silkələndi, çarpayının ayaq tərəfində divarın suvağı uçub töküldü.

Ələmdar ona bir qədər sakitcə tamaşa edib, nəhayət, hərəkətsiz qaldığını gördü. Daxmadan çıxıb evə qalxdı. Gödəkçəsini ge-

yinib otağa nəzər saldı. Burada qonağın olduğuna işarə edən bir şey qalmamışdı. Sərinə boşqabları da, stəkanları da yuyub yerinə qoymuşdu. Nersesin yatarkən əynindən çıxarıb çarpayının yanında qoyduğu paltarlarını götürdü. Otağın işığını söndürüb, qapını örtərək həyətə endi. Daxmaya girib Nersesin paltarlarını oradakı stulun üstünə qoydu.

Sonra yenidən həyətə çıxıb saatına baxdı. Saat ikinin yarısı idi. Belə vaxtda həyətdən çıxıb getmək istəmədi. Sabah onun qarşısında sərhədi keçmək və uzun yol dururdu. Buna görə də istirahət etmək pis olmazdı. Evə çıxıb Nersesin çarpayısında arxası üstə uzandı. Telefonundakı zəngli saatı saat altıya qurub gözlərini yumdu və heç nə düşünmədən özünü yatmağa məcbur etdi.

## QIRX İKİNCİ FƏSİL

Səhər saat 6-da telefonun zəngli saatı səsləndi. Ələmdar ayılıb cəld ayağa qalxdı. Gödəkçəsini geyinib bir daha otağa nəzər saldı. Bu zaman gözü şkafın rəfindəki iri, qatlama bıçağa sataşdı. Onu götürüb baxdı və gödəkçəsinin cibinə qoydu. Otaqdan çıxıb qapını örtərək həyətə endi.

Hava hələ qaranlıq olsa da pilləkənin üstündəki elektrik lampası həyəti işıqlandırırdı. İt yuvasına girib yatmışdı. Daxmaya yaxınlaşıb qapını açdı. Burada da işıq gecədən yanırdı. Otağın çox dəhşətli və acınacaqlı görkəmi var idi.

Tavandan asılıb qalmış qadına yalnız bir anlığa, ürək ağrısıyla baxdı. Sərinənin boynu yana əyilmiş, sifəti əcaib hala düşmüşdü. Düz başının üstündə olan elektrik lampası üzünü gur işıqlandırdığı üçün bu əcaiblik daha qabarıq nəzərə çarpırdı. Qadının köhnə, sökülmüş corabları, bir neçə yerdən yamanmış donu tavandan asılmış cəsədi daha da acınacaqlı göstərirdi.

Ev sahibinin meyidi isə çarpayıda qəribə vəziyyətdə uzanmışdı.





Ayaqlarından biri yığılmış, o biri isə çarpayıdan kənara çıxmışdı. Gözləri geniş açılmış vəziyyətdə idi. Yorğan – döşəyi və divarı bulamış qan qurumuşdu.

Son dəfə Sərinənin meyidinə baxdı. İndi qətiyyən təsirlənmirdi. Elə bil ürəyi doğrudan da daşa dönmüşdü. Bu saat bu Nerses kimi yüzünün başını, rəhm etmədən, sakitcə kəsə bilərdi. Ancaq bir daha özünə söz verdi ki, təmkinli olacaq. Bütün gücünü və bacarığını toplayıb məxfi şöbənin apardığı əməliyyatın müvəffəqiyyətlə başa çatmasına nail olacaq. Bakıdakı gizli qrup aşkar edilib tutulardısa, yəqin, öz ölümüylə vətəninə xidmət edən bu qeyrətli qadının da ruhu şad olardı.

Daxmanın qapısını örtüb darvazaya tərəf getdi. Cəftə içəridən vurulmuşdu. Onu açmaq istəmədi. Nə düşündüsə, pilləkənlə evə qalxıb həyəti işığa qərq edən lampanı söndürdü. Sonra yenidən həyətə endi. Həyət indi zülmət qaranlığa qərq olmuşdu. Yalnız daxmanın taxta qapısının yarıqlarından zəif işıq sızırdı. Hasara dırmanıb küçəyə baxdı. Küçə də qaranlıq içində idi və heç bir hənirti eşidilmirdi. Bu zaman it ayılıb hürməyə başladı.

Ələmdar küçəyə atılıb ətrafa bir daha göz gəzdirdi. Yox, onu görən olmamışdı. Kənd hələ yuxuda idi. Sürətli addımlarla, dünən gəldiyi küçə ilə hərəkət etməyə başladı. Qoca qarının evinin yanından keçəndə həyətə boylandı. Nə evdən, nə də həyətdən işıq gəlmirdi. Dünən oğlunun qəhrəmanlıqları ilə öyünən qoca kaftar, yəqin ki, şirin yuxuda idi. Hələ, bəlkə, yuxusunda da türk qanı içirdi.

Sürəti artırıb, meşə yoluyla kənddən uzaqlaşdı və bir də asfalt yolun kənarında, dünən Edqarın maşınından endiyi yerdə dayandı. Ətraf hələ də qaranlıq idi. Soyuq meh əsirdi.

Birdən-birə yenə Ayçöhrəni xatırladı. Bakıda, dənizkənarı parkda onu ilk gördüyü gün yadına düşdü. Bakıda olsaydı bu gün yenə parka, səhər idmanına gedəcəkdi. Əlbəttə, Ayçöhrəsiz. Ayçöhrə hələ gedə bilməzdi oraya. Küçədə onu tanıyan adama rast gələ bilərdi. Şəmistan barədə düşünəndə qanı qaraldı. Qıza necə deyəcəkdi ki, sənin atan belə bir iş tutub?...

Ayçöhrə də, anası da indi, lap yəqin ki, yuxuda idilər. Anasını

deyə bilməzdi, amma Ayçöhrə, ola bilsin, yuxuda Tanrısını görür, onunla söhbət edirdi. Onlar indi Bakıda idilər. Doğma Bakıda... Bura isə Ermənistan idi. Burada Sərinə adlı bir azəri qadını – namuslu, vətənpərvər bir qadın on yeddi illik cəhənnəm əzabından sonra, yalnız bu gecə qurtulmuşdu. Arıq, qurumuş cismi kasıb daxmasının tavanından asılı qalmış, ruhu isə, lap yəqin ki, göylərə qalxıb Azərbaycana tərəf uçmuşdu. Bəlkə də onun ruhu bu saat məxfi şöbənin birmərtəbəli, uzun binasının başına hərlənib, Səidin saxlandığı qapalı otağa girməyə imkan axtarırdı...

Yadına düşdü ki, çəkdiyi fotoşəkli Bakıya göndərməlidir. Bilmək olmazdı, birdən sərhəddə ilişib ələ keçə bilərdi. Ona görə də şəkli elə indicə göndərmək istədi. Telefonunu cibindən çıxarıb ekrana baxdı. Telefon Gürcüstan operatorunun dalğasını çox cüzi göstərirdi. Şəkli Baratova göndərməyə bir neçə dəfə cəhd etsə də heç nə alınmadı. Qərara gəldi ki, bu işi Gürcüstana keçəndən sonra, internet klubların birinə gedib, kompüter vasitəsilə etsin.

Yoldan bir maşın keçdi. Ələmdar özünü göstərməmək üçün yaxınlıqdakı kolluğun arxasında gizləndi. Yanından nəsə bir şey sürətlə qaçıb uzaqlaşdı. Deyəsən, tülkü idi. Dayanıb gözləməyə və hərdən də bədənini açılışdırmaq üçün səhər gimnastikası ilə məşğul olmağa başladı. Hava yavaş-yavaş işıqlanırdı.

Bir az keçmiş, asfalt yolda bir maşın dayandı. Ələmdar kolluğun arxasından boylanıb, bunun dünənki «Qaz-24» olduğunu gördü. Cəld ona yaxınlaşdı. Maşına əyləşib sürücüyə:

– Sabahın xeyir, Edqar! – dedi.

– Çox gözlədin? – onun salamını alan sürücü soruşdu.

– O qədər də yox.

Maşın yola düşdü. Bir az getmişdilər ki, Ələmdar birdən dilləndi:

– Yolun sağında restoran olmalıdır. Surenin restoranı. Tanıyırsan?

– Surenin? – sürücü təkrar etdi. – Niyə tanımıram? Onu tanımayan yoxdur. Niyə soruşursan?

– Ona bir əmanət çatdırmalıyam. – Ələmdar dedi. – Moskvadan göndəriblər. Beş-on dəqiqə saxlayarsan orada.





– Yaxşı. – Edqar başını tərpətdi və tez də soruşdu. – Sən özün tanıyırsan Sureni?

– Yox, tanımıram.

– Elə tanımasan yaxşıdır. Əclafın biridir. Puldan ötrü anasının da başını kəsər.

Ələmdar cavab vermədi. Edqar maşının radiosunu açıb qurdalamağa başladı. Kanalların birində xəbərlər verilirdi. Bir neçə əhəmiyyətsiz xəbərdən sonra Edqar nə eşitdisə radionun səsini qaldırdı. Diktorun səsi maşının salonuna yayıldı:

– Uçuruma yuvarlanan «Niva» markalı bu maşın David Çonkadze adlı gürcüyə məxsus imiş. Gürcüstandakı müxbirimizin verdiyi məlumata görə maşında sürücüdən başqa heç kəs olmayıb. David Çonkadze hadisə yerindəcə həlak olub. Hadisənin səbəbləri araşdırılır. İlkin versiyaya görə, qəzaya səbəb yolun sürüşkənliyi və sürücünün diqqətsizliyi olub.

– Yəqin, sərxoş olubmuş. – Ələmdar kinayə ilə dilləndi.

Edqar isə:

– Səhər tezdən bəd xəbərlə açdılar ağızlarını. – deyib kanalı dəyişdi.

İndi musiqi verirdilər. Hər ikisi susub dinləməyə başladı. Ancaq Ələmdar daha çox bir az sonra edəcəyi hərəkəti götür-qoy edirdi. Özü də yaxşı bilirdi ki, bu hərəkət ona verilmiş ciddi və önəmli tapşırığın ziyanınadır. Amma içində baş qaldıran bir hiss onu rahat buraxmır, nəzərdə tutduğu işi görməyə sövq edirdi.

Daha bir az gedəndən sonra Edqar maşını saxladı. Sağ tərəfdə, meşənin içində görünən ikimərtəbəli evi göstərib dedi:

– Bax, Surenin evi budur. Restoran bir az qabaqdadır. Meşənin içindəki talada. Ancaq indi Suren, bəlkə də, yuxudan durmaz. Evdə olar.

Ələmdar:

– Xahiş edirəm, bir az gözlə! – deyib maşından endi.

Yoldan çıxıb otluqla evə tərəf getdi. Çox sakit və soyuqqanlı görünürdü. Evin ətrafında sakitlik idi. Heç kəs gözə dəymirdi. Tərəddüd etmədən yaxınlaşıb evin birinci mərtəbəsinin qapısını

döydü. Bir az keçdi və qapıda qırx beş yaşlarında, kök bir qadın göründü. Saçları səliqəsiz halda çiyinlərinə tökülmüşdü. Gözlərini ovuşdurmağından yataqdan indicə qalxdığı hiss olunurdu.

- Kim lazımdır? – deyə kobud səslə soruşdu.

– Suren lazımdır. – Ələmdar sakit baxışlarla qadını süzüb dilləndi.

– Durub, restorana baş çəkməyə gedib. Nə olub ki?

Ələmdar vəziyyəti təcili götür–qoy edib bu yalanı qəflətən uydurdu:

– Mən sürücüyəm. Surenin anası ağır xəstədir. Onu şəhərə, xəstəxanaya aparırıq. Sureni götürmək üçün bura döndük.

Qadın kinayəli şəkildə dodağını büzdü:

– Nə olub anasına?

– Dedim ki, ağır xəstədir. İnfarkt keçirib.

– Hə?... – qadın laqeydliklə səsini uzatdı. – Yolla aşağı düşün, restoranın həndəvərində olacaq.

Ələmdar daha qadına heç bir söz demədən evin arxasına keçdi və meşənin içindən keçən cığırla üzü aşağı getməyə başladı. Asfalta çıxıb özünü Edqara göstərmək istəmirdi. Düşündü ki, bu daha yaxşı oldu. Suren evə qayıtmasa, üz-gözündən laqeydlik yağan arvadı onun elə restoran tərəfdən maşınla birbaş xəstəxanaya getdiyini düşünəcəkdi. Günorta saat 2-yə qədər buraya Azərbaycan kəşfiyyatçısının gəlməsindən şübhəyə düşməsələr, ondan sonrası Ələmdarın heç vecinə də deyildi.

Gəlib asfaltdan bir az aralı, meşənin içində yerləşmiş restorana çatdı. Burada müştərilərə yalnız isti yay aylarında xidmət göstərirdi. Bir-birindən aralı, ayrı-ayrı yerlərdə, ağacların kölgəsində ailəvi istirahət üçün guşələr yaradılmışdı.

Əynində arxalıq olan əlli yaşlarında bir kişi mətbəx kimi istifadə edilən birmərtəbəli tikilinin qarşısında gəzişirdi. Açıq havada manqallar, ət doğranması üçün iri kötüklər gözə dəyirdi. Bu orta boylu, arıq kişi, yəqin ki, elə Suren olacaqdı. O vaxt Xocalıda ağlasığmaz vəhşiliklər törədənlərdən biri, anasının qəhrəman hesab etdiyi Suren. Tanımadığı adamı görüb:

– Sizə nə lazımdır? –deyə çox siqaret çəkməkdən xırıldayan səsiylə soruşdu.

Ələmdar onun bərabərinə çatanda, dünən divarda gördüyü şəklə görə, səhv etmədiyini anladı. Amma, yenə soruşmağı lazım bildi:

– Sən Surensən?

– Hə, Surenəm. Nə lazımdır?

– Mən ananın yanından gəlirəm. Səninlə söhbətim var.

– Yoxsa, arvad ölüb? – Surenin səsində lap azacıq narahatlıq var idi.

– Yox, ölməyib... - Ələmdar ətrafına boylandı. – Burada təksən?

– Hə, təkəm, sözün nədir axı?

Onlar, demək olar ki, meşənin içində yerləşən bir talada idilər. Ancaq burada da seyrək ağaclar var idi. Ələmdarın gözü bir ağacın əyri budağından sallanan kəndirə sataşdı. Kəndirin ucunda iri dəmir qarmaq var idi. Restoranın işçiləri, yəqin ki, kəsilmiş qoyunu, ya donuzu bu qarmaqdan asıb soyurlarmış.

Ələmdar, nə düşündüsə, gülümsəyib:

– Bir dəqiqə bura gəl! – dedi və Sureni həmin ağacın yanına apardı.

– Uzatma, de görək nə deyirsən? – Suren hirslənsə də səsində daha çox qorxu hiss olunurdu. – Yoxsa evi almaq istəyirsən? Bu başdan deyim ki, qarı ölməmiş o evi satmayacam.

Ağacın altına çatanda Ələmdar dayanıb bu arıq kişinin qorxudan sürətlə yerində oynayan gözlərinə baxdı:

– Mən ev almaq istəmirəm. Ancaq... Dünən küçədə yıxılıb qalmış xəstə ananı evə çıxartdım. İçəridə divara vurulmuş bir şəkil gördüm. Sən Xocalıdan olan bir körpə uşağın ayağından tutub, başıaşağı sallamışdın...

– Hə!... – Suren xoruzlanmaq istədi. - Nə olsun ki?

– Uşaq da, yəqin ki, çığırırdı...

– Nə olsun ki?

– Sonra da öldürmüsən həmin körpə uşağı.

– Nə demək istəyirsən axı? – Suren udqundu.

Ələmdar əllərini belinə qoymuşdu və bacardığı qədər sakit da-

ışırdı:

– Bu mənim heç xoşuma gəlmədi.

– Pah! – Suren qorxsa da özünü o yerə qoymaq istəmirdi. – Niyə xoşuna gəlmədi?

Ələmdar istədi desin, ona görə xoşuma gəlmədi ki, insanam. Ancaq tez də fikirləşdi ki, belə eşşəyə bunu deməyin bir mənası yoxdur. Odur ki, ilk ağzına gələni dedi:

– Xoşuma gəlmədi, vəssalam!

– İndi nə demək istəyirsən?

– Canına azar demək istəyirəm!

Ələmdar bunu deməklə Surenin arıq çənəsinə bir yumruq vurdu. Suren səntirləyib yerə yıxıldı. Qışqırıb köməyə adam çağırmaq istəyirdi ki, qarnına dəyən təpik səsini kəsdi. Ələmdar əlini onun arxalığının cibinə salıb, oradan kirli bir yaylıq çıxardı və onu Surenin ağzına basdı.

– Səsini kəs, it oğlu it!

Sonra ayağından tutub qarmağın altına sürüdü. Bu zaman Suren ağzındakı yaylığı əliylə çıxarıb yenə qışqırmaq istədi. Özünü yetirən Ələmdar ayağının bir zərbəsiylə onun sağ biləyini sındırdı. Suren qışqırmağa macal tapmamış yaylığı yenə onun ağzına soxdu.

– O biri əlini işə salsan, onu da qıracam! – deyib Surenin ayağından yapışdı. Yuxarı qaldırıb sağ ayağındakı iri ayaqqabını qarmağa keçirdi.

İndi Suren bir ayağından asılmış vəziyyətdə qalmışdı. Ələmdar əyilib onun əzab dolu sifətinə baxdı:

– Necədir vəziyyətin?

Suren burnunda boğuq səs çıxartdı. Gözləri, elə bil, partlayıb yerindən çıxmaq istəyirdi. Sifətinin rəngi göyərirdi. Ələmdar hiss etdi ki, daxilindəki intiqam hissi azalmır, əksinə getdikcə artır. Hətta onu da hiss elədi ki, vəhşiləşməyə başlayır və bu saat hər bir şey etməyə qadirdir.

– Halın yaxşı deyil, hə? – dedi. – Körpə uşağı o hala salanda necəydi halın? Hə, itin doğduğu?! İndi səni ömründə eşitmədiyin bir əzabla öldürəcəm. Qulaqlarını, burnunu, ümumiyyətlə, kəsməli nəyin varsa hamısını kəsib ağzına dolduracam!





Dediklərini, həqiqətən də, eləmək üçün əlini gödəkçəsinin cibinə apardı. Nersesin evindən götürdüyü bıçağı çıxarıb açdı... Və elə həmin anda da bıçağa ilişmiş bir qadın saçı diqqətini cəlb etdi. Əvvəlcə az qala buna əhəmiyyət verməyəcəkdi. Ancaq tez də yadına düşdü ki, bu Ayçöhrənin saçındandı. Dünən səhər idman klubunda yatağını yığışdıranda bu tək saçı balışın altından tapıb, nəyə görəsə, cibinə qoymuşdu.

Saçı bıçaqdan ayırıb təzədən cibinə qoydu. Əyilib kəndirdən başı aşağı sallanmış Surenin qulağını kəsmək istəyəndə, sanki, birdən əlinin boşaldığını hiss etdi. Ayçöhrə gəlib gözlərinin önündə dayandı. Sanki, diksinib yuxudan ayıldı. «Bu mənə yaraşarmı? - deyə öz-özünə sual verdi. – Ayçöhrə bilsə nə deyər buna? Lap bilməsə də, necə baxaram onun üzünə? Özümü ona layiq hesab edə bilərəmmi?»

Yuxarıdan, asfalt tərəfdən maşın siqnalının səsi eşidildi. Yəqin ki, Edqar idi, onu tələsdirirdi. Birdən-birə özündən acığı gəldi və bu onu əməlli-başlı əsəbləşdirdi. Suren dəhşət ifadə edən gözlərini bıçağa zilləmişdi. Yerində çırpınıb asıldığı budağı yelləİdirdi.

Ələmdar birdən aşağı əyilib, bıçağı dəstəyinə qədər onun ürəyinə yeritdi.

– Dincəl, köpək oğlu! – dedi. – Çəkdiyin əzab bəsindir.

Suren axırıncı dəfə bərkdən çırpınıb hərəkətsiz qaldı. İndi onun çox acınacaqlı bir görkəmi var idi. Meyidi bir ayağından asılmış vəziyyətdə asta-asta yellənirdi.

Ələmdar bıçağı onun sinəsindən çıxarıb gücü gəldikcə uzağa – kolluqlar tərəfə tulladı. Sonra isə əlinə sıçramış qan ləkələrini yaşıl otlara silərək təmizlədi. Sürətlə yeriyib meşədən çıxdı və asfaltın kənarında durub bir qədər yuxarıda görünən maşına əl elədi.

«Qaz-24» gəlib düz onun yanında dayananda qapını açıb sürücünün sağında əyləşdi:

– Bağışla, - dedi. – Suren evdə deyildi. Onu bir az axtarmalı oldum.

– Eybi yoxdur. – Edqar maşını hərəkətə gətirdi. – Axır ki, tapa bildin?

– Hə, verdim əmanətini... - Ələmdar dedi.

Maşın yola düşən kimi Edqar yenə radionun kanallarını axtarmağa başladı və oynaq bir rus musiqisi tapıb səsini qaldırdı. Bir qədər gedəndən sonra o, Ələmdarın susduğunu görüb onun üzünə baxdı. Sərnişinin üzündə xoşbəxtliyə bənzər bir ifadə görüb, bunu özlüyündə, onun musiqini çox bəyənməsiylə izah etdi. Amma bu erməninin Ələmdarın bu saat keçirdiyi hisslərdən xəbəri yox idi...

Ələmdar bir az əvvəl, bəlkə də birdən-birə, tam ciddiliyi ilə, qəti şəkildə dərk etmişdi ki, Ayçöhrəni sevir... O, öz hisslərinə ürəkdən inanırdı. Bilirdi ki, bu ötəri, müvəqqəti gəlib-gedən bir hiss deyil. Bilirdi ki, nəsə yeni bir duyğudur bu və bütün qəlbini heç vaxt çıxmayacaq şəkildə doldurub.

Bəs niyə bunu srağagün səhər Ayçöhrə ilə bir yerdə olarkən anlamadı? Niyə ona elə gəldi ki, bu gözəl qızdan ancaq xoşu gəlir, ancaq evlənmək istəyir onunla? Yox, lap yüz faiz əmin idi ki, sevir Ayçöhrəni. Bu, əsl məhəbbət demək idi və əsl məhəbbət idisə, demək ölənəcən tərk etməyəcəkdi onu. Ölənəcən... Ayçöhrə onun taleyinə əbədi yazılıbmış, sən demə...

Bu saat onun bircə arzusu var idisə, o da tezliklə Bakıya çatmaq, Ayçöhrəni görmək, ürəyindəkiləri ona bildirmək idi. Deyəcəkdi, «sevirəm» sözünü həyatında ilk dəfə ona deyəcəkdi. Təki bircə, Bakıya tez və sağ-salamat çataydı.

Qarşıda isə Ermənistanla Gürcüstan arasındakı sərhəd məntəqəsi görünürdü...





## QIRX ÜÇÜNCÜ FƏSİL

Polkovnik Baratov öz kabinetində müavini mayor Cavadovla oturmuşdu. Divardakı saatın əqrəbləri saat 10-un yarısını göstərirdi. Polkovnik tez-tez narahat halda başını qaldırıb bu saata baxırdı. Cavadov isə gözlərini qarşısındakı kompüterə zilləmişdi. Onlar qeyri-adi tapşırıqla Ermənistana göndərilmiş gizli agentin göndərəcəyi şəkli gözləyirdilər. Leopard saat 9-da Gürcüstandan mesaj göndərib Səidin anasının özünü asdığını bildirmişdi. Qadının ölümü qocaman rəisi təsirləndirsə də, tapşırığın yerinə yetirilməsindən razı qalmışdı. O, düşünürdü ki, qadını Leopard özü öldürüb. Eyni zamanda sevimli yetirməsinin Ermənistan sərhədini sağ-salamat keçib Gürcüstana girməsi də onu sevindirmişdi.

Amma saat 9-dan sonra Leoparddan heç bir xəbər-ətər eşidilməmişdi. Telefonu söndürülmüş agent susurdu. Polkovnik bundan bir qədər narahat olmuşdu. Mesaj göndərilərkən Leopard hələ də, yəqin ki, Daniyel Sahakyan qiyafəsində imiş. O, Marneuliyə gedib internet klublarının birindən gizli və son dərəcə əhəmiyyətli fotoşəkli məxfi şöbəyə göndərməli, adını və qiyafəsini dəyişib Ələmdar Məlikov olmalıydı. Bundan sonra onun Gürcüstanda ilişmək qorxusu aradan qalxa bilərdi.

Kapitan Yusifov kabinetə daxil olub, əlindəki üç qərənfil gülünü stolun üstünə qoydu. Polkovnik bu gülləri, əgər həyəcanla gözlədikləri görüş alınardısa, Səidin əlində tutması üçün aldırmışdı.

Başı ilə kapitana razılığını bildirib:

– Səidi bura gətirin! – deyə göstəriş verdi.

Yusifov çıxdı. Baratov Səidin üz-gözünə, xarici görünüşünə baxıb onun, hər ehtimala qarşı, görüşə hazır olub-olmadığını bilmək istəyirdi. Bir daha divardakı saata baxıb dərindən köksünü ötürərək ağ saçlarını sığalladı. Bu zaman kompüterin qarşısında oturmuş mayor Cavadov həyəcanlı səslə:

– Leopard şəkli göndərdi! – dedi.

Baratov cəld yerindən qalxıb ona yaxınlaşdı və kompüterin ekranına baxdı. Ekranda daxmanın tavanından asılmış yaşlı qadının fotosu çox aydın görünürdü.

Bir müddət sakit dayanıb bu acınacaqlı mənzərəyə tamaşa etdilər. Nəhayət, Cavadov ah çəkib kinayəli səslə dilləndi:

– Görürsünüzmü, cənab polkovnik, mən həmişə deyəndə ki, Leopard kəşfiyyatçıdan daha çox qəddar killer vəzifəsini apara bilər, siz mənə etiraz edirdiniz. Baxın, necə səliqə ilə asıb qadını! O saat görünür ki, bu bədbəxt qadın öldürüləndən sonra yox, diri-diri asılıb. Məncə bunu ancaq vəhşi killerlər bacarardı.

Polkovnik bir qədər gec dilləndi:

– Elə demə, Cavadov! Leopard sənin düşündüyün qədər də qaniçən deyil. Gördün, Şəmistanın ailəsinin məhvinə razı ola bilmədi. Bunun üçün də əmrimizi pozdu. Amma, indi, yəqin ki, məsuliyyətini başa düşüb. Bilib ki, çıxılmaz vəziyyətdəyik. Bu gün saat 2-də Səidin buradakı alçaqlarla görüşü baş tutmasa, qarşıdakı fəlakətlərin qarşısını ala bilməyəcəyik.

–Hər halda... - Cavadov deyəcəyi fikri tamamlamadı.

Kapitan Yusifov icazə alıb Səidi otağa gətirdi. Baratov anasının ölümündən xəbərsiz olan məhbusu qəmgin baxışlarla süzüb oturmağa stul göstərdi:

– Əyləş, Səid!

Səid göstərilən yerdə əyləşdi. O, kompüterin ancaq arxa hissəsini görürdü. Üz-gözündən yorğunluq və sorğu-suallardan bezmək əlaməti duyulurdu. Burada olduğu müddətdə bir az da arıqlamış, gözləri çuxura düşmüşdü.

Polkovnik ağır-ağır dilləndi:

– Çətin də olsa, sənə bir xəbər verməliyik, Səid... Çalış ki, təmkinini toplayıb, kişi kimi qarşılayasan bu xəbəri. Anan bu gecə Ermənistanda özünü asıb... Başın sağ olsun!

Səid heyrətlə yerindən qalxıb rəisə baxdı. Nəsə demək istədisə də dili söz tutmadı.

– Allah rəhmət eləsin! – mayor Cavadov qaşqabaqlı halda dilləndi.

– Siz nə danışırsınız?! – Səidin dili birdən-birə açıldı. – Mən buna inanmıram! Bu ola bilməz! Siz yalan danışırsınız!

– Yox!... – polkovnik təəssüflə başını buladı. – Bu, həqiqətdir! Biz agentimizi göndərmişdik ki, onu xilas etsin. Ananın özünü öldürdüyünü bizə o xəbər verib.

– Siz məni aldadırsınız! – Səid çığırdı. – Bu yalandır!

– Agentimiz meyidin fotosunu da çəkib göndərib. Kompüterdə baxa bilərsən.

Səid qarşıdakı stola tərəf yeridi. Cavadovun yanında durub kompüterin ekranına baxdı. Anasını tanıyan kimi dərhal əlləri ilə üzünü qapadı. Sonra yenə ekrana baxdı. Dodaqları əsə-əsə:

– Onu sizin adamınız öldürüb! – dedi. – Öldürüb ki, mən ondan əlimi üzüm, sizə kömək edim. Vəhşilər! Siz alçaqsınız! Əclafsınız!

– Sakit ol! – Cavadov ona acıqlandı. – Biz onu niyə öldürməliyik axı?

– Siz məni ələ almaq üçün öldürmüsünüz onu!

– Sənə dedik ki, əməkdaşımızı onu xilas etməyə göndərmişdik. – Baratov səsini qaldırdı.

– Xeyr! – Səid bu dəfə gücü gəldikcə bağırdı. – Onu xilas etsəydiniz sizin planlarınız pozula bilərdi. Siz öldürmüsünüz onu! Siz qatilsiniz!

Çığıra-çığıra başını divara vuranda kapitan Yusifov cəld irəli atılıb onun qollarından tutdu.

– Buraxın məni! – Səid dartınıb onun əlindən çıxmağa çalışdı. – Mən sizin hamınıza nifrət edirəm!

Yusifov onun çiyinlərindən basıb stulda oturtdu. Səid, bu zaman, üzünü əlləri ilə tutub hönkür-hönkür ağlamağa başladı:

– Ana!... Yazıq anam!... Bədbəxt anam mənim!...

Baratov işarə ilə yanındakılara başa saldı ki, ona mane olmasınlar, qoy ağlayıb ürəyini boşaltsın.

Bir qədər beləcə keçdi. Nəhayət, Səid sakitləşib göz yaşlarını köynəyinin qolu ilə silməyə başladı. Bundan sonra polkovnik Ba-

[Bar]atov ehtiyatla dilləndi:

– Səid, mənə diqqətlə qulaq as! Sənin ananın ölümü, inan ki, [b]izi də çox sarsıtdı. Biz onu xilas etmək istəyirdik, amma belə [a]lındı. Sən gəl, inad eləmə! Görüş vaxtına az qalıb. Bizə kömək [e]t, içimizə soxulmuş o xain düşmənləri ifşa edək. Onlar burada [tə]xribatlar törədəcəklər, neçə-neçə günahkar insanı qanına bu[l]ayacaqlar. Sən onları tutmağa kömək etməklə həm də ananın [i]ntiqamını almış olarsan...

– Heç vaxt! – Səid kəskin şəkildə onun sözünü kəsdi. – Mənim [a]namı ermənilər yox, siz öldürdünüz! Onu xilas edən olsaydınız, [v]axtında edərdiniz. On yeddi il idi ki, ermənilərin əlində əsir idi [o]!... Bir dəfə də yadınıza düşməmişdi. İndi nə oldu ki, onu xilas [e]tməyə adam göndərdiniz Ermənistana? Siz oraya qatil göndər[m]isiniz anamı öldürmək üçün. Məndən heç bir kömək gözləmə[y]in! İstəyirsiniz, öldürün! Onsuz da bu saat ölməkdən başqa heç [n]ə istəmirəm.

– Sənin düşmənlərin biz deyilik, ay axmaq! – Baratov hirslən[d]i. – Ermənilərdir sənin düşmənin. Atanı, bacını, qohum[ə]qrəbanı onlar qırıblar. On yeddi il cəhənnəm əzabında yaşadıb[la]r səni. İnsanlıq simanı itirmisən tamam! Ancaq yenə öz vətəni[n]ə, dövlətinə xain çıxırsan. Sənin taylarının çoxu düşmənlə vu[r]uşmada öldü. Səni Şəhidlər Xiyabanına aparıb oradakı saysız-[h]esabsız qəbirləri göstərsəm dəli olarsan!

– Bəli! – Səid başını qaldırıb Baratova nifrətlə baxdı. – Ermə[n]ilər mənim əzizlərimi öldürüblər. Əsir aldıqları həmyerlilərimə [z]ülm ediblər. Mənim başıma açdıqları oyunların çoxunu heç bil[m]irsiniz siz. – Şalvarının balağını dizinə qədər yuxarı çəkib sol [a]yağındakı çökək kəsik yerini oturanlara göstərdi. – Baxın, öz [ə]timi kəsib, özümə yedirdiblər. Başıma hər oyun açıblar. Deməyə [d]ilim gəlmir çoxunu. İçim-içalatım hamısı xəstədir. Sağlam bir [y]erim qalmayıb daha. Gözlərimizin qarşısında qızlarımızın, qa[d]ınlarımızın namusuna toxunublar. Onlar mənim düşmənlərim[d]ir! Ancaq siz!... Siz məni bu dünyaya bağlayan axırıncı ümiddən [m]əhrum elədiniz. Anamı öldürdünüz! Mən ancaq ona görə ya-





şayırdım! Ancaq ona görə! İndi necə əlim gələr axı, sizə kömək edim?! Mən indi sizə daha çox nifrət edirəm!

Çığırdıqca ağzı köpüklənməyə başladı və birdən-birə oturduğu stuldan döşəməyə sərildi. Onun özündən getdiyini anlayan Yusifov üzünə su çilədi və müxtəlif vasitələrlə onu ayıltmağa çalışdı.

Səid ayılan kimi Baratov onu otaqdan aparmağı əmr etdi. Yusifov halsız vəziyyətdə olan məhbusu qaldırıb kameraya apardı. Geri qayıdanda isə polkovniki həddindən artıq bədbin halda gördü.

– Əməliyyat baş tutmadı... - rəis ağır-ağır dilləndi. – Bu tərsin biridir, daha bizə heç vaxt kömək etməyəcək. Boş yerə Leopardı da qatil elədik.

– Bəs nə fikirləşirsiniz, cənab polkovnik? – Cavadov narahatlıqla soruşdu.

– Heç nə, Cavadov, heç nə fikirləşmirəm, hələ ki...

– Bəlkə, yenə Şəmistanı dindirək? Bəlkə yeni bir şey öyrənə bilərik ondan?...

Baratov başını yellədi:

– Şəmistan bildiklərinin hamısını danışıb. Bu tülkü köpək uşaqları o dərəcədə ehtiyatlı və dəqiq hərəkət edirlər ki, heç bir iz buraxmırlar... Yaman yerdə axşamlamışıq. Yuxarıdakılar biləndə yaman qınayacaqlar məni. Deyəcəklər, ancaq öz təcrübənlə lovğalanmağı bacarırsan. Hələ sabah bir qanlı təxribat baş versə, lap batdıq!... Amma... Onu da deyim ki, biz əlimizdən gələnin hamısını etdik. Özü də artıqlamasıyla! Nə etmək olar?...

– Nazirə bu barədə hesabat verəcəksiniz? – mayor soruşdu.

– Hələ bilmirəm. Onsuz da onlar bu dəqiqə bu işlə çox ciddi maraqlanırlar. Bilirlər ki, saat 2-də görüş olmalıdır. Mən zəng eləməsəm də, nazir özü zəng vurub maraqlanacaq. Nə deyim? Deyim ki, bir xəstəni, bədbəxti yola gətirə bilmədik?... Deyəcəklər, işi boynuna götürdün, hər şeyi korlayandan sonra deyirsən ki, bacarmadım... Bunu etiraf etmək mənim üçün çox çətindir. Mənim şöbəmin nüfuzu olub həmişə. Ən ağır, ən çətin işlər bizə həvalə olunub. Mən Heydər Əliyev kimi adamla işləmişəm. İndi

necə deyim ki, bacarmadım, başqalarına tapşırın işi?!...

Cavadov da, Yusifov da susub başlarını aşağı dikmişdilər. Rəislərinin keçirdiyi halı hər ikisi başa düşürdü və özlərini günahkar hiss edərək onun üzünə baxa bilmirdilər.

Baratov birdən əsəbləşib ayağa qalxdı və kabinetdə o baş-bu başa gəzməyə başladı:

– O kişi həmişə mənə etibar edirdi. Mən də öz işçilərimə etibar eləmişəm həmişə. O bədbəxt qadının zəngi əsasında biz hər şeyi yaxşı başlamışdıq. Əvvəl işçilərimizin səhlənkarlığı ucbatından gözdən yayındırdıq Səidi... Sonra Şəmistan əclafın ailəsini qurban verib yenə izləyəcəkdik onu. Bu dəfə Leopard korladı işləri. Axı siz nəyə görə belə edirsiniz? Niyə başa düşmürsünüz ki, biz dövlətin, millətin keşiyində duran əsgərik! Bizim bircə an gözümüzü yummağa, zəiflik göstərməyə, ya kiməsə rəhm etməyə ixtiyarımız yoxdur. Bizim işimiz sevmir belə şeyləri!

Stolun üstünə qoyduğu mobil telefonu zəng çaldı. İrəli yeriyib onu götürdü. Zəng vuran Leopard idi.

– Eşidirəm, Məlikov! – polkovnik soyuq səslə dilləndi.

Ələmdarın səsi sakit və aydın idi:

– Cənab polkovnik, mən Gürcüstandan çıxmışam. Şıxlı kəndində öz maşınımın yanındayam. Nə oldu, Səid yola gəldi?

– Yox, Məlikov, yola gəlmədi! – rəis acıqlı danışırdı. – Əksinə, deyir ki, anasını biz öldürmüşük. Planlarımız hamısı pozuldu!

–Mən elə bu cür olacağını fikirləşmişdim. – Ələmdar sakitcə dedi. – Cənab polkovnik, mən özümlə onun anasının baş örpəyini gətirəcəm. Ləçəyini. Səid onu görsə və anasının vəsiyyətini eşitsə, mütləq bizim tərəfimizə keçəcək. Mən buna yüz faiz inanıram.

– Nə ləçək, nə vəsiyyət, Leopard? – Baratov heç nə anlamadı. – Məgər o qadın səninlə danışıb?

– Danışıb, cənab polkovnik. – Ələmdar kədərlə dilləndi. – Bəlkə yenə mənə acığınız tutacaq, ancaq o qadın, doğrudan da, özü intihar etdi. Mən əmrinizi pozub, onu xilas etmək istəyirdim.

Baratov bir anlıq otaqdakıların üzünə baxdı. Bilmirdi bu xəbərə sevinsin, ya əsəbləşsin. Birdən gözü divardakı saata sataşdı.





Saat 12-yə işləyirdi. Əsəbi səslə:

– Sənin başın xarab olub, Məlikov? – dedi. – Sən görüş vaxtına qədər gəlib çata bilərsən Bakıya? Saatdan xəbərin var?!

Yenə telefonda Ələmdarın sakit səsi eşidildi:

– Çatmalıyam, cənab polkovnik, başqa çarəmiz yoxdur. Mən maşını mümkün olan ən yüksək sürətlə sürəcəm. Amma, xahiş edirəm, siz də elə edin ki, yol polisləri məni saxlamasınlar.

– Sən nə danışırsan, Leopard?

– Xahiş edirəm, cənab polkovnik...

– Yaxşı, gəl! Mən əlimdən gələni edəcəm. Amma sən mümkün olmayan şeydən danışırsan.

Telefonu qapayıb otaqdakılara nəzər saldı:

– Leopard yola çıxır. – dedi. – Səidin anası, doğrudan da, özü intihar edibmiş. Ölməzdən əvvəl öz ləçəyini Leoparda verib. Leopard inanır ki, Səid onu görsə yumşalacaq.

– Ləçək? –Cavadov təəccübləndi. – Bunun məsələyə nə dəxli var ki?...

– Qadının baş örpəyi onun namusu hesab edilir, Cavadov! – Baratov dedi. –Sən ki bunu bilməliydin? Ən böyük qan davalarında, bəzən, bir qadın ləçəyi hər şeyi həll edib. Bir də ki, bu ləçək hər nədirsə, anasının yadigarıdır. O, buna biganə qala bilməz. Həm də inanar ki, anası bizim adamımızla danışıb və özü intihar edib.

Yerində əyləşib narahat halda divardakı saata baxdı. Ona elə gəldi ki, saatın əqrəbləri əvvəlkindən daha sürətlə hərəkət edir. Gözü saatda olduğu halda, sanki özü-özüylə danışırmış kimi dilləndi:

– Yəni, doğrudanmı, o gəlib çata bilər?...

Telefon zəng çaldı. Yenə Leopard idi.

– Cənab polkovnik! – dedi. – Mən gəlirəm. Maşının nömrələrini çıxarmışam. Özüm də maskadayam. Başqa parça tapmadığım üçün maşının qabaq tərəfində antennanın ucuna Səidin anasının göy rəngli ləçəyini bağlamışam. Tapşırın, bu nişanı görən yol polisləri mənə mane olmasınlar!

– Bu saat, Leopard, bu saat!

Baratov cib telefonunu qapayıb, stolun üstündəki qırmızı rəngli telefon aparatında Daxili İşlər Nazirliyinin nömrəsini yığmağa başladı. Cavadov ilk dəfə idi ki, təmkinli və iradəli rəisinin əllərinin həyəcandan əsdiyini görürdü.

– Alo! – Baratov telefonun dəstəyinə dedi. – Məni şəxsən cənab Usubovun özü ilə calaşdırın. Xahiş edirəm, cəld olun, bu həddindən artıq vacibdir!

Onun nazirlə danışığından heç beş dəqiqə keçməmişdi ki, Qazaxdan Bakıya qədər olan bütün yolüstü rayonların yol polisi postlarına nazirliyin əmri göndərildi:

– Gürcüstan-Bakı istiqamətində gələn, nömrə nişanları çıxarılmış, antennasına göy rəngli parça bağlanmış maşını qətiyyən saxlamaq olmaz. Bütün imkanınızla ona yardım edib, Bakıya maksimum tez çatmasına çalışmalısınız!

Polkovnik Baratov isə nazirlə danışandan sonra yenə həyəcanlı halda otaqda gəzişirdi. Başını qaldırıb bir daha saata baxdı və:

– Kaş gecikməyəydi! – dedi. – İndi hər şey onun sürətindən asılıdır! Hər şey!

Daha bir-iki dəqiqə keçdi və bir yerdə qərar tuta bilməyən polkovnik Baratov, birdən nə düşündüsə, üzünü kapitan Yusifova tutdu:

– Cəld ol, kapitan, özünlə adam götür, bizim vertolyota minib tam sürətlə Gəncə istiqamətində uçun! Elə havada növbəti əmrlərimi gözləyin! Tələsin!

Kapitan Yusifov:

– Oldu, cənab polkovnik! – deyib, qaçaraq kabinetdən çıxdı.





## QIRX DÖRDÜNCÜ FƏSİL

Gürcüstan sərhədindən Qazax şəhərinə doğru nömrə nişanları çıxarılmış «Nissan-Patrol» markalı bir maşın qeyri-adi sürətlə hərəkət edirdi. Maşının qabaq tərəfində, yuxarı qaldırılmış antennaya göy rəngli bir ləçək bağlanmışdı. Ləçək sürətlə gedən maşının yaratdığı güclü hava axınının təsirindən bayraq kimi açılıb dalğalanırdı.

Maşın qarşısına çıxan bütün digər maşınları ustalıqla keçirdi. O qədər böyük sürətlə gedirdi ki, qarşı tərəfdən gələn maşınların sürücüləri ehtiyatla yolun sağına çıxır, sürəti norma həddini keçən bu maşının sürücüsünü görmək üçün ona tərəf boylanırdılar. Amma onlar maşının içində heç kəsi görə bilmirdilər. Tək-tək diqqətlilər isə sükan arxasında başına qara maska keçirmiş adamı görəndə, buna çox təəccüblənirdilər.

«Nissan»ın sükanı arxasında oturmuş Ələmdar hələ dünən Gürcüstana gedərkən yolların bəzi yerlərdə çox narahat olduğunu, sürətlə hərəkət edən maşın üçün təhlükə yaratdığını görmüşdü. Bilirdi ki, sürəti normadan yuxarı həddə keçirmək açıq-aşkar qəza yarada bilər. Ancaq, qarşısında duran vəzifənin məsuliyyətini də dərk edirdi. Anlayırdı ki, vaxtın az qalmasına baxmayaraq, heç olmazsa, saat ikinin yarısına qədər Bakıya çatmalıdır. Bu isə risqə getmədən mümkün deyildi.

Bəlkə də, elə buna görə, polkovnik Baratovla danışandan dərhal sonra, hələ Şıxlı kəndindən yola çıxmamış, Bakıya – öz evinə zəng vurdu. Yaxşı ki, telefonu Ayçöhrə özü götürdü.

– Mənəm, - dedi. – Ələmdaram. Anam haradadır?

– Vanna otağındadır. – Ayçöhrə cavab verdi. – Ona görə telefonu mən götürdüm. Sən haradasan?

Ələmdarın vaxtı çox az idi və ona görə də söhbəti uzatmaq istəmədi:

– Ayçöhrə, mən uzaqdayam. Günortadan sonra evdə olacam. Zəng vurdum sənə deyim ki... Deyim ki, səni sevirəm! Bunu bu

gün, bir az əvvəl başa düşdüm. Başa düşdüm ki, səndən ayrı yaşaya bilməyəcəm. İndi səndən bircə kəlmə söz soruşacam, xahiş edirəm düzünü de, sən də məni sevirsən, ya yox?

Ayçöhrənin səsindəki sevinci hətta telefondan duydu:

– Sevirəm, Ələmdar, özü də lap dəlicəsinə sevirəm!

– Onda gözlə məni, gəlirəm!

Ələmdara elə bu lazım idi. İndi daha heç bir qəza təhlükəsi qorxuda bilməzdi onu. Maşını işə salıb hərəkətə gətirdi və «Nissan» az qala qanad açıb Bakıya doğru uçmağa başladı.

Qazax şəhərinə çatmağa az qalırdı. Qarşıda yol polisi postu görən Ələmdar bundan bir qədər narahat oldu. Maşının qabağını kəsib onu gecikdirə bilərdilər. Amma, yol açıq idi. Bir neçə yol polisi əməkdaşı yolun kənarında saxladıqları maşınların yanında dayanmışdılar. «Nissan» sürətini azaltmadan qarşılarından keçəndə əllərini qaldırıb ona hərbi salam verdilər. Salama kəsik siqnalla cavab verən Ələmdar başa düşdü ki, artıq bütün postlara onun barəsində lazımi göstəriş verilib. Bundan razı qalıb sürəti ən son həddə çatdırdı.

Sükandan bərk-bərk yapışıb bütün diqqətini yola vermişdi. Hərdən gözü qarşısında dalğalanan ləçəyə baxanda fikri bir anlıq Səidin anasının Ermənistanda qalmış cəsədinin yanına uçurdu. Tavandan asılıb qalmış bədbəxt qadın gözünə görünürdü. Onun ölümündən qabaq danışdıqlarını xatırlayırdı. Amma tez də hər şeyi beynindən qovub bütün diqqətini yalnız yola verirdi.

Şəhərin içində küçələri maşınlardan təmizləyib, onun rahat keçib getməsi üçün şərait yaratmışdılar. Küçənin kənarlarında yol polisi işçiləri görünürdü. Hamı ona maraq və heyrətlə baxırdı.

Bir azdan Ağstafanı, daha sonra isə Tovuzu arxada qoydu. Maşın geniş asfalt yolda ildırım sürətli ilə irəliləyirdi. Yolun bərbad olduğu tək-tək yerlərdə maşının atılıb-düşməsinə baxmayaraq, Ələmdar sürəti azaltmırdı. İndi hər dəqiqə, hər saniyə qiymətli idi və Bakıya nə qədər tez çatsaydı bu qarşıdakı əməliyyatın xeyrinə olacaqdı.

Qarşıda yol iki yerə ayrılırdı. Yol ayrıcında bir yol polisi maşını dayanmış, yolun kənarında polis əməkdaşları düzülmüşdü.





Onlar boylanıb uzaqdan görünən və böyük sürətlə yaxınlaşan maşına baxırdılar. «Nissan»ın onlara çatmağına yüz metr qalmış, antennada dalğalanan ləçəyi görüb, əllərindəki çəhrayı çubuqla soldakı yolu göstərməyə başladılar. Ələmdar uzun siqnalla onlara təşəkkürünü bildirib yanlarından külək kimi ötdü.

Polkovnik Baratovdan səs çıxmırdı. Ələmdar başa düşdü ki, polkovnik ona zəng vurub diqqətini yayındırmaq istəmir və lap yəqin ki, onun bu saat harada olması barədə başqalarından məlumat alır. Amma o, bilmirdi ki, keçdiyi yollar barədə hər beş dəqiqədən bir daha yüksək rütbəli şəxsə məlumat verilir.

Artıq Gəncənin yaxınlığında idi. «Nissan»ın şəhərə çatmaq üzrə olduğundan xəbər tutan Gəncə polisi yolları açıb, onun yubanmadan keçməsi üçün şərait yaratmağa çalışırdı. Xeyli qabaqda böyük sürətlə hərəkət edən yol polisi maşınlarından ötkəm və bir qədər kobud səslər eşidilirdi:

– Yol verin, yol verin!

– Avtobus, sağa keç saxla!

– Yolun sağına çıxın!

– Traktor, yoldan çıx!

– Yol verin, dedim sizə!

Ələmdarın ağlasığmaz sürətlə idarə etdiyi maşın arxadan onlara çatanda, bu yol polisi maşınları özləri də sağa keçib «Nissan»a yol verirdilər. Beləliklə, Gəncəni də heç bir maneəyə rast gəlmədən ötdü.

Daha bir az getmişdi ki, xeyli qabaqda, yolun düz üstündə havadan asılıb qalmış vertolyotu gördü. Ələmdar rənginə görə onu dərhal tanıdı və məxfi şöbənin vertolyotu olduğunu bildi. Vertolyotdan aşağı sallanmış kəndir nərdivanın ucu asfaltdan iki metr yuxarıda yellənirdi. Yolun kənarında qara paltarlı bir nəfər dayanmışdı.

Ələmdar maşının sürətini azaldıb, həmin adamın yanında əyləci basdı. Maşının təkərləri asfaltda tükürpədici səs çıxarıb dayandı. Ələmdar bir saniyə belə vaxt itirmədən maşından enib antennaya bağlanmış ləçəyi açdı. «Nissan»ı sürüb Bakıya aparmaq üçün yolun kənarında dayanmış, ona təəccüblə baxan leytenant Əsədova heç nə demədən yüyürüb kəndir nərdivandan yapışdı. Vertolyot həmin andaca yuxarı diklənib Bakı istiqamətində sürət götürdü.







Ələmdar elə havada kəndir nərdivanla dırmanıb vertolyota girdi və arxa oturacaqda kapitan Yusifovun yanında oturdu. Vertolyotda daha iki nəfər olduğu üçün maskasını çıxarmadı. İçəridəkilərə başının hərəkəti ilə salam verib, arxaya söykənərək gözlərini yumdu.

Yusifov ona tərəf əyilib:

– Zənnimcə, vaxtında çatacağıq, cənab mayor! – dedi.

## QIRX BEŞİNCİ FƏSİL

Saat 2-nin yarısı idi. Məxfi şöbənin həyətində xüsusi bir canlanma hiss olunurdu. Kapitan Yusifovun qrupu və daha iki xüsusi qrup silahlanaraq uzun, qara rəngli maşınların yanında hazır vəziyyətdə dayanmışdılar.

İçəridə isə mayor Cavadov əməliyyat zamanı istifadə olunacaq texniki vasitələrin öz yerində olmasına nəzarət edirdi. Səidin görüşə gedərkən geyəcəyi paltarlar da təmizlənib səliqəyə salınaraq bir otağa qoyulmuşdu. Bu paltarı məxfi şöbə əməkdaşlarına bir az əvvəl Leopardın göstərişilə gizli şəkildə evdən çıxan Tələt çatdırmışdı.

Mayor Cavadov rəisin kabinetinə girəndə polkovnik Baratov gözünü divardakı saatdan çəkib:

– Səidi geyindirərək bura gətirin! – dedi.

Cavadov otaqdan çıxıb beş-altı dəqiqə sonra Səidlə geri qayıtdı. Polkovnik Səidi diqqətli baxışlarla gözdən keçirib əyləşmək üçün stul göstərdi:

– Əyləş, Səid!

Səid göstərilən stulda oturdu. Deyəsən, diqqəti stolun üstünə qoyulmuş üç qərənfil gülündə idi. Çox acıqlı görünürdü.

– Bilirəm, - Baratov danışmağa başladı. – Sən hələ də bizə inanmırsan. İnanmırsan ki, anan doğrudan da intihar edib. Ona görə intihar edib ki, sən axıradək öz vətəninə xəyanət etməyəsən, bizə kömək edəsən ki, əməliyyatımız baş tutsun. Ananın yanında olmuş adamımız bu saat buraya gələcək və sən ondan sonra bizə inanacaqsan.

Səid başını yelləyib susdu. Bu zaman mayor Cavadovun telefonuna zəng gəldi və o, ekrana baxıb rəisinə tərəf əyildi:

– O artıq buradadır. Yusifovla gəlir.

– Qoy gəlsinlər! – Baratov dedi.

Bir dəqiqə keçmiş qapı açıldı və Ələmdar kapitan Yusifovla birlikdə içəri daxil oldu. Polkovnik ayağa qalxıb Ələmdarı qucaqladı:

– Lap vaxtında gəldin, Leopard! Sənin üçün yaman narahat olmuşdum.

Sonra hər kəs keçib stolun arxasında əyləşdi. Ələmdar isə Səidlə üzbəüz oturdu. O, hələ maskasını başından çıxarmamışdı.

– Səid!

Səid bu səsdən diksinib yerində dikəldi. Bu, iki gün əvvəl onu kamerada az qala öldürmək istəyən adamın səsi idi.

– Mənə qulaq as! – Ələmdar davam etdi. – Mən ananın yanından gəlirəm. Ermənistandan. Onu xilas edəcəyimə özlüyümdə qəti söz vermişdim. Ananla xeyli söhbət etdik. O, xilas edilib oradan qaçırılmağına qəti etiraz etdi. Dedi ki, bu bizim əməliyyatımızı poza bilər. Məni namaz qılmaq bəhanəsilə daxmadan çıxardı. Bir azdan fikirləşib bir qərara gələrik, dedi. Amma mən otağa girəndə onun özünü asdığını gördüm...

– Yalan danışırsınız... –Səid astadan dilləndi.

Ələmdar cibindən ləçəyi çıxarıb ona uzatdı:

– Hələ mən daxmadan çıxmamış o bu ləçəyi mənə vermək istədi. Dedi ki, bunu on yeddi il əvvəl Səid alıb mənim üçün. Yalvardı ki, apar bunu Səidə ver, əgər bunu görsə mənim yalvarışımı eşidib sizin tərəfinizə keçəcək. Mən almadım bu ləçəyi. Dedim ki,





səni xilas edib aparacam Bakıya. O, özünü asanda bu ləçəyi əlində tutmuşdu. Bildim ki, bunu sənə gətirməyimi istəyirmiş. Mən, hətta, qapının dalından onun son duasını da eşitdim. Allaha yalvarırdı ki, elinə-obana xəyanət etməyə sənə imkan verməsin.

Səid dayanıb Ələmdarın əlindəki ləçəyə baxırdı. Nəhayət, əlini uzadıb onu aldı. Üzünə yapışdırıb qoxuladı və birdən hıçqırtı ilə ağlamağa başladı.

– Başın sağ olsun! – Ələmdar astadan dedi. – Sənin anan çox qeyrətli, igid qadın imiş. Mən çox üzüldüm onun ölümünə. Qisasının, heç olmasa, bir hissəsini almaq üçün onu öz evində saxlayan kişini öldürdüm.

Səid ağlayırdı. Polkovnik Baratovla mayor Cavadov başlarını qaldırıb narahat halda divardakı saata baxdılar. Saat 2-yə iyirmi dəqiqə qalırdı.

– Vaxt keçir... - Cavadov astadan pıçıldadı.

Polkovnik başını yelləməklə ona susmaq işarəsi verdi. Araya üzücü bir sükut çökdü. Bu sükutu yalnız həzin ağlamaq səsi pozurdu. Vaxt isə, doğrudan da, keçirdi.

Bu vaxt Səid birdən ağlamağını kəsib başını qaldırdı. Üzünü əvvəlcə Ələmdara, sonra isə polkovnikə tutub:

– Mən nə etməliyəm? – deyə soruşdu.

Baratov bir daha saata nəzər yetirib cəld soruşdu:

– Əvvəlcə de görüm, görüş harada olmalıdır?

– «Nizami» metrosunun qarşısındakı meydançada. – Səid cavab verdi.

– Kim gələcək səninlə görüşə?

– Bilmirəm...

– Yaxşı, vaxtımız çox az qalıb. Bizim adamlarımız bu saat səni aparıb metroya yaxın yerdə düşürəcəklər. – Stolun üstündəki qərənfilləri götürüb ona verdi. – Bu gülləri əlində tutmalısan ki, görüşə gələn adam səni tanısın. Özünü təmkinli apar, heç nədən qorxma. O adam səni hara aparsa, get! Adamlarımız sizi izləyəcəklər. Aydındır?

– Aydındır... - Səid dilləndi.

Mayor Cavadov stolun siyirməsindən köynək düyməsi böyüklükdə bir mikrocihaz çıxardı və onu Səidə uzatdı:

– Al bunu, qoy cibində olsun. Nə qədər ki, bu səndədir, maşınımızdakı monitor sizin olduğunuz yeri bizə nişan verəcək. Çalış ki, itirməyəsən.

Səid mikroötürücü düyməni mayordan alıb, şalvarının cibinə qoydu. Polkovnik Baratov hər şeyin hazır olduğunu görüb son göstərişlərini verdi:

– Səidi və onunla görüşəcək adamı mayor Məlikovun başçılığı ilə Yusifovun adamları izləyəcək. Təşkilatın toplandığı yer məlum olarsa və orada adam görərsinizsə, Cavadovun başçılığı ilə dərhal həbsetmə əməliyyatı keçiriləcək. Yoxsa, Səidlə görüşən adamı axıradək izləməyə davam edəcəyik. Leytenant Kərimov Səidi metroya yaxın bir yerə aparıb, orada düşürsün. Son dərəcə diqqətli və ehtiyatlı olun!

– Siz mənimlə eyni maşında olacaqsınız? – kapitan Yusifov Ələmdardan soruşdu.

– Yox! – Ələmdar dedi. – Mən Səidgili Tələtin maşını ilə, hamınızdan qabaqda izləyəcəm. Siz məndən arxada olacaqsınız və monitora baxıb, mən onları gözlərimlə görsəm də, koordinatları barədə mənə tez-tez məlumat verəcəksiniz.

Yusifov polkovnik Baratova baxdı. Onun etiraz etmədiyini görüb:

– Onda mən iki adamımla gedirəm. – dedi. – Maşını metrodan iki kvartal yuxarıda saxlayıb gözləyəcəm.

– Sizə uğurlar! – Məxfi şöbənin rəisi onları yola saldı.

Kapitan Yusifov həyətə çıxan kimi onu gözləyən «RANGE ROVER»ə əyləşib dərhal qəbuledici cihazları işə saldı. Monitordakı xəritənin üzərində qırmızı bir nöqtə diqqəti cəlb edirdi ki, bu qırmızı nöqtə hazırda məxfi şöbənin həyətini göstərirdi. Deməli, Səid hələ həyətdən çıxmamışdı. Bir neçə saniyə sonra nöqtə hərəkətə gəldi və Yusifov sürücüyə:





– Çıxaq! – deyə göstəriş verdi.

Ələmdar isə səkidə heç kəsin olmadığını görüb maskanı soyunaraq həyətdən çıxdı. Səkidə iti addımlarla yeriyib, sola döndü. Avtobus dayanacağının yan tərəfində dayanmış qara rəngli «Mersedes»in arxa qapısını açıb içəri girdi. Tələt sükanın arxasında oturmuşdu.

– Salam, Ələmdar qədeş! – dedi. – Yaman narahat oldum. Bir saata yaxındır burada gözləyirəm.

– O evdən çıxanda səni görən oldu? – Ələmdar soruşdu.

– Yox!

– Sür «Nizami» metrosuna! Bir az cəld ol!

Tələt dərhal maşını işə saldı və yola düşdülər.

– Biz nə edəcəyik? – deyə arxaya baxmadan sual verdi.

– Səidi izləyəcəyik.

– Özü bilmədən?

– Yox, bilir. İndi o bizim tərəfimizdədir.

On beş dəqiqə sonra «Mersedes» «Nizami» metro– stansiyasının lap yaxınlığında dayandı. Buradan metronun qarşısındakı meydança aydın görünürdü. Artıq saat üçə beş dəqiqə işləmişdi.

Ələmdara kapitan Yusifovla birbaşa əlaqə üçün danışıq cihazı verilmişdi. Onu yaxasına keçirib qulağındakı qəbuledicini yoxladı:

– Yusifov, haradasan?

Qulağında dərhal kapitanın səsi eşidildi:

– Metrodan iki kvartal yuxarıdayıq. Cabbarlı küçəsində.

– Bəs Səid?

– O, indicə metronun qarşısına çatdı.

Ələmdar maşının pəncərəsindən metroya tərəf boylandı. Bir qədər diqqətlə baxandan sonra meydançadakı adamların arasında Səidi gördü. O, əlində üç dənə qərənfil gülü tutmuşdu. Gəzişərək ətrafına baxır, görüşə gələcək naməlum adamı gözləyirdi.

– Mən onu gördüm. – dedi.

– Aha, lap yaxşı! – Yusifov dilləndi.

Gözləməyə başladılar. Ələmdar da, Tələt də bütün diqqətlərini meydançaya vermişdilər. Ələmdar, eyni zamanda, gəlib avtobus dayanacağında dayanan maşınlara da göz qoyurdu.

Birdən, yaxasındakı mikrofonun düyməsini basıb:

– Metronun qarşısında adamın var? – deyə dilləndi.

– Nə dedin? – Tələt geri çevrilib soruşdu və şefinin onunla danışmadığını anlayıb yenə qabağa baxdı.

– Var. – Yusifovdan cavab gəldi.

– Mən artıq birindən şübhələndim. Tapşır, özlərini yaxşı aparsınlar. Bütün işlərimizi poza bilərlər. Əgər görüşə gələn adam Səidi metronun içinə aparsa, arxalarınca dərhal getməsinlər. Özününsə diqqətin monitorda olsun!

– Oldu, cənab mayor! - Yusifov dedi.

Yenə bir az gözlədilər. Saat üçə on beş dəqiqə işləyəndə küçənin kənarında, düz metro ilə üzbəüz, qəhvəyi rəngli bir «Chevrolet» dayandı. Amma, maşının qapısı açılmadı və bu, heç də, Ələmdarın diqqətindən yayınmadı.

Üç-dörd dəqiqə sonra hündürboylu, əynində uzun, qara plaş olan bir nəfər «Chevrolet»dən çıxıb metroya tərəf getdi. Ətrafına boylanıb, Səidə yaxınlaşaraq onun qarşısında durdu.

– Qonağımız gəldi! – Ələmdar astadan dedi. – Maşınla...

– Əgər maşınladırsa, onda oradakı uşaqlara ehtiyac yoxdur. – Yusifov dilləndi.

– Hələ bir dayan görüm...

Ələmdara elə gəldi ki, Səid nədənsə özünü qəribə aparır. Hətta əl-qolunu ölçüb nəsə danışırdı. Qara plaşlı adam onun qolundan tutdu və maşına tərəf getməyə başladılar. Çatan kimi maşına əyləşdilər və «Chevrolet» üzüaşağı yola düşdü. Bu vəziyyət Ələmdarın heç də xoşuna gəlmədi.

– Onlar Füzuli meydanına tərəf gedirlər. – Yusifovun səsi gəldi.

Ələmdar bir-iki saniyə gözləyib Tələtə:

– Sür!- deyə əmr verdi.





Sonra isə Yusifova:

– Aradakı məsafəni saxlamaq şərtilə, gələ bilərsiniz. – dedi.

Yarım saata yaxın beləcə getdilər. Artıq, şəhərin mərkəzindən uzaqlaşmışdılar. Ələmdar hərdən Səidgili bir anlıq gözdən itirirdi. Şübhə oyatmamaq üçün onlara çox da yaxınlaşmırdılar. Yusifov isə monitora baxıb onu «Chevrolet»in keçdiyi yollar barədə məlumatlandırırdı.

Bir dəfə də Yusifov:

– Onlar dayandılar! – deyə bildirdi.

Doğrudan da, Ələmdar əlli metr qabaqda dayanmış maşını gördü. O, qalın şam ağaclığının yanında, səkiyə lap yaxın dayanmışdı. Tələt də maşını saxladı. Naməlum adamla Səid «Chevrolet»dən enib six ağaclığa girdilər. Bunu görən Ələmdar da cəld maşından enib Tələtə:

–Maşın yerindən tərpənən kimi oraya sürərsən! – dedi və ağaclığa girdi.

Ağacların arası ilə qaça-qaça Səidgilə yaxınlaşdı. Bu vaxt, naməlum adamın qarşısında dayanmış Səidin qarnından tutub aşağı əyildiyini gördü. Bir anlıq ayaq saxlayıb yoğun şam ağacının arxasına keçdi. Deyəsən, bu adam Səidi bıçaqla vurmuşdu. Belə bir işin ola biləcəyini Ələmdar heç ağlına gətirməzdi. Bir də baxanda Səidin irəli atılıb plaşlı adamı qucaqladığını gördü. Elə həmin anda da plaşlı adam Səidi özündən qoparıb qüvvətli zərbə ilə itələdi və Səid arxası üstə yerə yıxıldı.

Ələmdar irəli atılmaqdan özünü güclə saxladı. Sürətlə düşünüb bir qərara gəlmək istəyirdi ki, naməlum adamın maşına tərəf getdiyini gördü. Səid isə yerə sərilib torpağın üstündə qıvrılırdı.

«Chevrolet» hərəkətə gəlib sürətlə qabağa getdi. Ələmdar düşündü ki, artıq onu izləmək çox çətin olacaq. Amma, yenə səkiyə tərəf atıldı ki, Tələtin maşınına minib onu izləsin. «Mersedes» artıq özünü çatdırıb qarşısında dayanmışdı. Birdən qulağındakı cihazda Yusifovun səsi eşidildi:

– Maşın yola düşdü. Sürətlə gedir.

Ələmdar heyrətlənib yerində dayandı:

– Sən maşının özünü görürsən, kapitan?

Yusifovun səsində təəccüb hiss olundu:

– Xeyr, cənab mayor! Mən monitora baxıram. Qırmızı işıq hərəkət edir.

Ələmdarın ağlına gəldi ki, Səid, yəqin, «Chevrolet»dən yerə enəndə, imkan taparaq, cibindəki düyməni maşının içinə atıb. Cəld mikrofona əmr etdi:

– Kapitan, siz sürəti artırıb qabağa keçin və maşını özünüz izləyin. O, yəqin ki, öz məkanlarına gedir. Maşın qəhvəyi rəngli «Chevrolet»dir. Polkovnikə də xəbər ver!

– Bəs siz?

– Mənə məlumat verməkdə davam edin! Arxadan gələcəm.

– Oldu!

Ələmdar danışığı bitirib Səidə tərəf yüyürdü. O, hələ də qarnını qucaqlayıb yerdə çabalayırdı. Üst-başı tamam qan içində idi. Ələmdar dizini yerə atıb ona tərəf əyiləndə yaralı Səidin sinəsindən dəhşətli bir nida qopdu:

– Tiqran!!

Ələmdar başa düşdü ki, həmin plaşlı adam Tiqran imiş. Səidin haqqında danışdığı Tiqran. Anasının intiqamını Allaha tapşırdığı Tiqran...

– O səni niyə vurdu axı? – deyə soruşdu.

Səid artıq çətinliklə danışırdı:

– Bacarmadım... Dözə bilmədim... Anama elədikləri... yadıma düşdü...

– Bir az döz, səni bu saat xəstəxanaya çatdıracam. – Ələmdar yerindən dikəldi.

– Yox... ölürəm...

Səid bunu deyib əlini gödəkçəsinin cibinə uzatdı. Ancaq elə zəifləmişdi ki, əli yenidən torpağın üstünə düşdü. Ələmdar öz əlini uzadıb onun cibinə saldı və göy rəngli ləçəyi çıxartdı. Bu zaman Səidin göz yaşları yanaqlarına süzülməyə başladı. Əlini güclə qaldırıb ona uzadılmış ləçəyi geri itələdi:





– Anamın... qisasını sən al, qardaş!...

Bu, Səidin son sözləri oldu. Ələmdar onun öldüyünü anlayıb gözlərini qapadı. Ayağa qalxıb bir müddət beləcə sakit dayandı. On yeddi il erməni əsirliyində olmazın əzablar görmüş Səid öz doğma torpağında erməni əli ilə öldürülmüşdü.

Qulağına kapitan Yusifovun səsi gəldi:

– Cənab mayor, biz artıq qəsəbəyə girmişik... «Chevrolet» bir darvazanın qarşısında dayanıb. Burada başqa maşınlar da var. Deyəsən, toplantı olacaq. Mayor Cavadovun dəstəsi də artıq qəsəbəyə girmək üzrədir. Polkovnikin əmri ilə evi mühasirəyə alırıq.

Ələmdar kapitana heç bir cavab verməyib əlindəki ləçəyə baxdı. Sonra onu cibinə qoyub ağaclıqdan çıxdı. Səkidə bir nəfər də olsun adam görünmürdü. İki addım qabaqda dayanmış maşına minib:

– Sür! – deyə çığırdı.

Tələt bu səsdən diksinib təəccüblə ona baxdı. Sonra isə cəld hərəkətlə maşını işə saldı. «Mersedes» qəflətən yerindən atılıb qabağa şığıdı.

## QIRX ALTINCI FƏSİL

«Mersedes» qəsəbəyə çatıb onun içi ilə bir qədər gedəndən sonra tini burularaq bir küçəyə daxil oldu. Burada darvazalardan birinin qarşısına xeyli maşın və adam yığışmışdı. Ələmdar maşınların arasında qəhvəyi rəngli «Chevrolet»i və Məxfi şöbənin «RANGE ROVER»ini görüb Tələtə:

– Burada saxla!- dedi.

Maskanı başına keçirib maşından endi. Evin qabağında iyirmidən çox əli silahlı, maskalı əsgər var idi. Darvazadan çıxarılan, qolları qandallanmış on altı kişi və üç qadını yanları qapalı maşınlara mindirirdilər. Ələmdar bu adamların üzünə göz gəzdirdi. Tiqran

onların arasında yox idi.

Küçənin o biri tərəfindən gələn təcili yardım maşını ucadan siqnal verərək qapıya yaxınlaşmaq istəsə də heç nə alınmırdı. Pərakəndə dayanmış maşınların arasından keçmək mümkün deyildi. Darvazadan iki yaralını çıxarıb xərəklərdə təcili yardım maşınlarına apardılar.

Ələmdar həyətə keçmək istəyəndə qapıda dayanmış silahlı əsgərlərdən biri onu saxladı:

– Sən kimsən? Hara soxulursan?

Ələmdar əsgəri hirslə yolundan kənarlaşdırdı və elə həmin anda darvazadan tələsik çıxan kapitan Yusifovla rastlaşdı. Onun qolundan tutub:

– Hamını ələ keçirə bildiniz? – deyə soruşdu.

Yusifov narahat halda:

– Bir nəfərdən başqa hamısını tutmuşuq. – dedi. – Həmin adam bizimkilərdən ikisini yaralayıb qaçdı. Hasardan qonşu həyətlərə keçmişdi. Uşaqlar indi oraları axtarırlar. Bir də ki... Səid yoxdur. Siz tapşırandan sonra biz «Chevrolet»i axıradək gözdən qoymadıq. O heç yanda enə bilməzdi maşından.

Kapitan Yusifov bunları deyib Ələmdarın cavabını gözləmədən «RANGE ROVER»ə tərəf qaçdı. Ələmdar da onun arxasınca getdi və sükanın arxasında oturan kapitana yaxınlaşdı:

– Qaçan kim idi?

– Bilmirik. Hündürboy, qara plaşlı bir adam idi. Hərəkətlərindən o saat görünürdü ki, peşəkardır.

Yusifov maşındakı cihazları işə salıb monitorun ekranını işıqlandırdı. Orada hərəkət edən qırmızı nöqtəni göstərib:

– Baxın, cənab mayor, Səid qaçır! – dedi.

Ələmdar təəccüblə çiynini çəkdi. Dönüb küçədəki maşınların arasında dayanmış qəhvəyi rəngli «Chevrolet»ə baxdı. Nömrə də həmin nömrə idi. Maşın yerində dayanmışdı, qırmızı nöqtə isə hərəkət edirdi. Bəs axı, onun fikrincə, Səid cibindəki ötürücü mikrocihazı maşına atmışdı!?...

Birdən-birə hər şeyi anladı. Ağaclıqda Tiqran Səidi bıçaqla





vurandan sonra Səid əlləri ilə qarnını tutub əyilmişdi. Sonra Səid qəflətən son gücünü toplayıb düşməninin üstünə atılaraq onu qucaqladı. Bax, həmin anda öz cibindəki düyməni çıxarıb Tiqranın cibinə sala bilərdi. Bu, lap yəqin ki, belə olmuşdu və başqa cür ola da bilməzdi. İndi o cəllad öz cibindəki ötürücüdən xəbərsiz halda qaçırdı və elə bilirdi ki, daha onu tapmaq mümkün olmayacaq.

Amma o, əlini cibinə salıb bu cihazı tapa bilərdi. Əgər onu tullasaydı, sonra Tiqranı tapmaq, doğrudan da, çox çətin olacaqdı.

Ələmdar əlini kapitanın qoluna toxundurub hökmlü səslə:

– Çıx maşından! – dedi.

– Niyə? – Yusifov heyrətləndi.

– Onun dalınca özüm tək gedəcəm!

Yusifovun ağlına da gəlməzdi ki, Ələmdar Tiqranın arxasınca getmək istəyir. O, hələ də belə zənn edirdi ki, ötürücü cihaz Səidin cibindədirsə, monitordakı qırmızı işıq da, deməli, onun hərəkətini göstərir.

– Cənab mayor!...

– Sənə çıx dedim maşından!

Ələmdar kapitanın qolundan tutub maşından yerə saldı və cəld hərəkətlə sükanın arxasına keçdi. Maşını işə salıb monitora baxdı. Qırmızı nöqtə artıq qəsəbədən çıxmışdı. Şəhərin mərkəzinə doğru gedirdi. Maşını hirslə yerində döndərəndə yaxındakı əsgərlər cəld geriyə sıçradılar. «RANGE ROVER» yerindən tərpənib uğultu salaraq sürətlə tini döndü.

Şəhərin küçələrində də bacardığı qədər sürətlə sürürdü. Bir neçə dəfə svetoforun qırmızı işığına məhəl qoymadan keçdi. Onu izləməyə çalışan Tələt bir azdan «RANGE ROVER»i itirib şefinə zəng vurdu:

– Ələmdar, mən səni itirdim. Haradasan?

– Sən get kluba, Tələt, mənim vacib işim var. - Ələmdar dedi.

– Bəlkə kömək...

– Heç bir köməyə ehtiyac yoxdur. Get kluba!

Gözü ekrana sataşanda qırmızı nöqtənin bir yerdə dayandığını

gördü. Bura köhnə Bakı məhəllələrinin yerləşdiyi mərkəzi hissələr idi. Cəld barmağını monitorun düymələrindən birinə toxundurdu. Tiqranın dayandığı yerin dəqiq koordinatları ekranda yazıldı.

Bir neçə dəqiqədən sonra Ələmdar artıq həmin yerə çatdı. Bura sökülmək üçün ətrafı taxta hasara alınmış məhəllə idi. Həmin məhəllə ki, onu yaşadığı evin qarşısında qətlə yetirilmiş Zamir Təhməzlinin firması satın almışdı. Evlərin az bir hissəsi sökülmüşdü. Qalan hissələrdə də ölü bir sükut hökm sürürdü.

Ələmdar maşından enib, hasarın ətrafına dolandı. Yaxında dayanmış bir maşına rast gəlmədi. Tiqran, yəqin ki, bura taksi ilə gəlmiş və maşından enəndən sonra onu yola salmışdı.

Telefonu zəng çaldı. Baratov idi.

– Eşidirəm, cənab polkovnik! – dedi.

– Leopard, Səidi tutmaq yox, izləmək lazımdır. Görək, hara gedir, kiminlə əlaqə saxlayır...

– Oldu! – deyib telefonu qapadı.

Başını bulayıb öz-özünə:

– Səid indi anasının yanına gedir... – dedi və düşündü ki, polkovnik də kapitan Yusifov kimi başını itirib. Axı, əgər qaçan Səid idisə, o qədər də avam deyildi ki, cibindəki mikrocihazı çıxarıb tullamasın!?..

Telefonunu söndürdü. Maskasını da çıxarmışdı. Buna daha heç bir ehtiyac hiss etmirdi. Taxta hasarın üstündən aşıb kimsəsiz məhəlləyə girdi. Səs salmamağa çalışaraq, ehtiyatla hərəkət edirdi. Birinci həyətdə heç kəs yox idi. Birmərtəbəli, köhnə evin üstünə dırmanıb qonşu həyətə baxdı. Həyətdə ala–bula bir pişik gəzişirdi.

Ələmdara elə gəldi ki, o biri həyətlərin birindən taqqıltı səsləri eşitdi. Elə bil, divarı sökürdülər. Evlərin üstü ilə ehtiyatla irəliləyib qonşu həyətə baxdı və həyətin ortasında dayanmış bir adam gördü. Bu, iyirmi beş-otuz yaşlarında bir gənc idi. Əyninə idman stilində yüngül paltar geyinmişdi. Ələmdar onu yan tərəfdən görsə də, tanıdı.

Bu oğlan kapitan Yusifovun qrup üzvlərindən biri idi. Deməli, polkovnik Baratov bu məhəlləni nəzarət altına almışdı. Görəsən,





niyə? Amma bunu fikirləşməyə vaxt yox idi. Məxfi şöbənin gənc əməkdaşı da o biri həyətdən gələn səsi dinləyirdi. Birdən o, nazik qaz borusundan yapışıb borunun köməyilə evin damına qalxdı. Ələmdar onun gözünə görünməmək üçün evin damına qoyulmuş su çəninin arxasında gizləndi.

Gənc əməkdaş qabağa yeriyib cəld hərəkətlə qonşu həyətə atıldı. Onun ardınca gedən Ələmdar həmin həyətə boylananda gəncin həyətdə dayanıb əlindəki tapançanı hazır tutduğunu gördü. Onun qarşısındakı daş divarın aşağı hissəsində bir neçə daş sökülmüş, mağara ağzına oxşar oyuq açılmışdı. Kapitan Yusifovun adamı gözlərini həmin bu oyuğa zilləmişdi.

Ələmdar dilxor oldu. Bu adamla rastlaşacağını heç gözləmirdi. Gəncin işə mane olacağı bir yana dursun, Tiqran onu öldürə bilərdi. Ələmdar inanmırdı ki, əlində silah olmağına baxmayaraq, bu gənc Tiqran kimi peşəkar cani ilə bacarsın. Vaxt gedirdi. İndicə Tiqran oyuqdan çıxa bilərdi. Elə olardısa, Yusifovun adamı onu həbs etməyə çalışacaqdı. Tiqran isə, lap yəqin ki, silahlı idi və bu gənci tərəddüd etmədən vuracaqdı. Bu tərəfdən də, Ələmdar özünü gəncə tanıtmaq istəmirdi.

Birdən nə düşündüsə, damın kənarına gəlib, aşağı əyildi. Ovunun üstünə sıçrayan leopard kimi bir göz qırpımında gəncin üstünə atıldı. Bu elə ani oldu ki, oğlan səsini belə çıxara bilmədi. Böyrü üstə yerə sərilib, aldığı zərbədən yuxuya getdi.

Özü ilə silah götürməmişdi. Yerə sərilmiş gəncin tapançasından isə istifadə etmək istəmirdi. Sonra silahını əldən verdiyi üçün Baratov bu oğlana ağır cəza verə bilərdi. Gəncin tapançasını onun öz yanına qoydu. Ətrafa boylananda gözünə yarım metr uzunluğunda dəmir parçası sataşdı və cəld irəli yeriyib onu götürdü.

Dəmir parçasını əlində tutub divarda açılmış oyuqdan içəri boylandı. Burada bir taxta pilləkən görünürdü. Ehtiyatla oyuqdan keçib həmin pilləkənlə aşağı enməyə başladı.

Bura qaranlıq bir zirzəmi idi. Yalnız yuxarıdakı oyuqdan içəri zəif işıq düşürdü. Axırıncı pilləni də endi və çətinliklə də olsa, gördü ki,

bura gizli anbardır. İçəridə xeyli taxta çəllək və qutu var idi. Birdən anbarın o biri başında Tiqranı gördü. O, iri bir qutunu açıb içindəkiləri torbaya yığırdı.

Həmin an Tiqran da onu gördü və qəflətən plaşının cibindən tapançasını çıxarıb atəş açdı. Ələmdar cəld kənara sıçrasa da atılan iki gülləDən biri onun sol qolunu yalayıb keçdi.

Düşməninə növbəti atəşi açmağa imkan verməyib, əlindəki dəmir parçasını ona tulladı. Dəqiqliklə atdığı ağır dəmir Tiqranın biləyinə dəydi və tapançası əlindən çıxıb divarın dibinə, sıra ilə düzülmüş dolu çəlləklərin arxasına düşdü.

Tiqran silahını oradan asanlıqla çıxara bilməyəcəyini anlayıb, əlbəyaxa döyüşə hazırlıq vəziyyəti aldı və yaralı Ələmdarın üstünə yeriməyə başladı. O, hələ tələbə ikən universitetdə boks yarışlarının qalibi olmuşdu. Öz gücünə inanırdı və arxayın idi ki, qarşısındakı adama üstün gələ biləcək. Ancaq, əslində, onun bu inamı gülünc bir xəyal idi və bu xəyal ondan yaranırdı ki, Tiqran qarşısında duran adamın kim olduğunu bilmirdi...

Ələmdar əlini qoluna sürtəndə əlinin qana bulaşdığını gördü. O, bu saat qəzəblənmiş pələngə dönmüşdü. Buna baxmayaraq, səbrli davranıb düşməninin ona yaxınlaşmasını və beləliklə, zirzəminin daha işıqlı yerinə gəlməsini gözlədi. Ancaq, Tiqranın yumruqlarını sinəsi bərabərində tutub boksçulara məxsus yerişlə üstünə gəldiyini görəndə onu gülmək tutdu:

– Yəni, sən doğrudan elə düşünürsən ki, mənə nəsə eləyə bilərsən, itin doğduğu?!

– Bu saat görərsən!

Gəlib onun bərabərinə çatmış Tiqran bunu deyib zərbəsini endirməyə cəhd etdi. Ancaq elə həmin anda Ələmdar yaralı qolu ilə onun zərbəsini dəf edib sağ əlinin geniş açılmış pəncəsini sifətinə endirdi. Qüvvətli zərbə Tiqranın bütün sifətini tutdu. Ələmdara hələ çoxdan Leopard adı qazandıran bu fənd heç vaxt boşa çıxmamışdı. Bu dəfə də Tiqranın ağız-burnunun dağılmasıyla bərabər, Ələmdarın iki barmağı onun gözlərinə düşdü və heç nə görməyən Tiqran çığırıb dizi üstə döşəməyə çökdü.





– Amma, sən daha heç nə görməyəcəksən! – Ələmdar dedi. – Kor oldun, qəhbənin balası!

– Sən kimsən?! - əlləri ilə qanlı sifətini örtən Tiqran inildədi.

– Nəyinə lazımdır kiməm? – Ələmdar kinayə ilə güldü. - Əsas odur ki, türkəm. Sənin düşmən hesab elədiyin türk. Görürsən, çaqqal, bircə zərbəmə tab gətirə bilmədin. Arvadlara, uşaqlara zülm eləməyi bacarırdın, gücünü çarəsiz əsirlərə göstərirdin. Onda da dalında kimsə dururdu. Ancaq, təkbətək bir dəqiqə dayana bilmədin.

Tiqran yerindən dikəlmək istəyəndə kürəyinə dəyən zərbədən zarıyıb yenidən dizi üstə çökdü.

– Yat aşağı, it oğlu it!

Ələmdar bunu deyib Tiqranın arxasına keçdi və sol dizini qaldırıb onun kürəyinə qoydu. Əlini gödəkçəsinin cibinə salıb Səidin verdiyi ləçəyi çıxartdı. Onu cəld hərəkətlə Tiqranın boğazına dolayıb uclarından dartmağa başladı. Bir anda Tiqranın kor olmuş gözləri yerindən oynadı, ağzı geniş açılıb, dili göründü. Heç nə deyə bilməyib boğuq səslər çıxarmağa başladı.

Ələmdar ləçəyi bir qədər boşaltdı. Tiqranın özünə gəlməsini gözləyib:

– Boğazına doladığım bilirsən hansı qadının ləçəyidir?- deyə soruşdu.

Tiqran zirzəminin ağır havasını acgözlüklə ciyərlərinə çəkib, güclə:

– Yox... – deyə bildi.

– On yeddi il əvvəl Xocalı meşəsində oğlu ilə bərabər əsir aldığın, ərini öldürdüyün, oğluna zülmlər elədiyin, özününsə namusunu tapdaladığın qadının. Yadına düşdü?

– Yox...

– Sonra o qadını Nersesə verdin, yadına düşdü?

– Yadıma düşdü... – Tiqran tənginəfəs halda dilləndi. – Sən o qadının nəyisən?

– Hə, bax bu boğazındakı o qadının ləçəyidir!

Ələmdar bunu deyib ləçəyin uclarından yavaş-yavaş dartdı. Tiqran yenə heyvan kimi böyürməyə başladı. Ağzı geniş açılmış, dili tamam çölə çıxmışdı. Üzünün rəngi getdikcə göyərməyə başlayırdı.

Axır ki, səsi tamam kəsildi və Ələmdar yalnız bundan sonra qana bulaşmış ləçəyi onun boğazından açıb yenidən cibinə qoydu. Böyrü üstə döşəməyə sərilmiş meyidə baxıb, anbarı gəzməyə başladı.

Burada xeyli silah yığılmışdı. Kalaşnikov avtomatları, bir pulemyot, müxtəlif tipli tapançalar, qumbaralar, partlayıcı qurğular yağlı parçalara bükülüb çəlləklərə və qutulara yığılmışdı. Bir ağzı açıq qutuda isə xeyli qızıl var idi ki, bunların da əksəriyyəti külçə şəklində idi. Dəstəsinin ifşa olunub tutulduğunu görən Tiqran buraya, lap yəqin, həmin bu qızıllara görə gəlibmiş. Çox güman ki, qızılları götürüb Bakıdan qaçacaqmış.

Anbardan çıxanda bir daha Tiqrana yaxınlaşdı. İkrahla meyidə tüpürüb pilləkənlə yuxarı qalxdı.

Bayaq vurub uydurduğu gənc yenicə ayılmışdı. Döşəmədə oturub boynunu ovuşdururdu. Ələmdar ona baxmadan:

– Kapitan Yusifov gələnədək burada gözlə! – deyib cəld hərəkətlə evlərin üstünə dırmandı.

Evin damında Yusifova zəng vurub, Səidin meyidini qoyub gəldiyi yeri bildirdi. Sonra isə yenə telefonunu söndürüb gödəkçəsini soyundu. Qolunun yarasını köynəyindən cırdığı parça ilə sarıyıb qanı kəsdi. Təzədən geyinib evlərin damı ilə sürətlə yeriməyə başladı.

Birbaş idman klubuna gedəcəkdi. Gərək Tələt yarasını yuyub yaxşıca bağlayaydı. Əyninə başqa təmiz paltar geyinəydi. Hələ cibindəki ləçəyin də ləkələrini yumaq lazım gələcəkdi...

Bu vəziyyətdə evə getsəydi, anasına heç nə anlada bilməzdi. Arvad elə Ayçöhrənin yanında onu söyüb-qarğıyacaqdı. Deyəcəkdi, yenə kiminlə dava eləmisən a görbagorun balası?!

Ayçöhrə isə... Ayçöhrə nə deyəcəkdi, bilmirdi Ələmdar. Amma qızdan ötrü yaman darıxmışdı...





## QIRX YEDDİNCİ FƏSİL

Axşam evə qayıdanda mənzilin qapısını Əminə arvad açdı. Ələmdarı içəri buraxıb, səsini bir qədər alçaldaraq:

– İki gecədir harada itib-batmısan, ay utanmaz? – dedi.

Ələmdar başa düşdü ki, anası Ayçöhrədən pərdə saxlayır. İstəmir onun yanında oğluna ağır söz desin. O da alçaq səslə cavab verdi:

– Qıza görə gəlmirdim, ay ana. İstədim ki, Ayçöhrə ilə tək qalıb doyunca söhbət edəsiniz.

– Hə?... – Əminə arvad səsini uzatdı.

– Əlbəttə!

– Ürəyimə gəldi ki, bəlkə bu qızdan da soyudun.

–Yox, ay ana, elə şey olar?

– Sən öləsən, - anası barmağını onun üstünə silkələdi. – Bununla da evlənməsən, başına elə oyun açacam, adın da yadından çıxacaq!

– Arxayın ol, evlənəcəm.- Ələmdar dedi. – Anasıgil rayondan qayıdıblar. İndi aparıb evlərinə qoyacam. Sonra, nə vaxt istəsən, evlənəcəyik.

Otağa girdilər. Ayçöhrə, deyəsən, mətbəxdə xörək bişirirdi. Ələmdarın qayıtdığını başa düşüb gəldi. Elə həmin paltarda idi. Ələmdarın aldığı paltarda. Bir anlığa baxışları toqquşdu. Telefonla etdikləri sevgi etiraflarından sonra bir-birlərini görməmişdilər.

– Axşamın xeyir!- titrək səslə dilləndi.

– Axşamın xeyir! – Ələmdar astadan başını tərpətdi.

Ayçöhrənin baxışlarında bir həsrət var idi. Lap sevgilisindən illərlə ayrı düşən qızın baxışları kimi. Ələmdar bunu o saat başa düşdü. Başa düşdü ki, bu iki gün ərzində Ayçöhrə onun üçün yaman darıxıb.

Amma, Ayçöhrə də, deyəsən, nəsə anlamışdı. Yəqin bu, qolundakı güllə yarasından qan itirmiş Ələmdarın sifətinin bir qədər ağarmasına görə idi. Qız nəsə soruşmaq istədisə də, Əminə arvada baxıb susdu

və işini davam etdirmək üçün mətbəxə qayıtdı.

– Ayçöhrə qızım iki gündür məni işləməyə qoymur. - Əminə arvad ucadan dilləndi. – Xörəyi də özü bişirir.

Ələmdar cavab verməyib balkona çıxdı. Artıq qaranlıq qarışmışdı. Həyətdə, birinci mərtəbədəki mağazanın qarşısında üç kişi dayanıb ucadan söhbət edirdilər. Evə yığışmış bina sakinlərinin maşınları alaqaranlıq həyətdə sıra ilə düzülmüşdülər. Sanki, onlar da gün ərzində keçirdikləri yorğunluqdan sonra yatıb dincəlmək istəyirdilər. Səhər bu maşınların biri də burada qalmayacaqdı. Hərəkətə gəlib, şəhərin küçələrində ora-bura şütüməyə başlayacaqdılar. Öz işlərinə-güclərinə tələsən sahiblərini daşıyacaqdılar.

Ələmdar ötüb getməkdə olan bu günü barədə fikirləşməyə başladı. Bu gün çox qaynar bir gün olmuşdu onun üçün. Yuxudan Ermənistanda – Nersesin evində ayılmışdı. Daxmanın qapısını açanda gecə baş verən dəhşətli hadisəni bir daha yaşamışdı. Özünü tavandakı mıxdan asmış qadının cəsədi indi də gözlərinin qarşısından getmirdi...

Sonra Suren adlı o adamı öldürməsini xatırladı. Görəsən, anası oğlunun elə faciəli ölümünü eşidəndə neyləyib? Hər halda, eşitməmiş olmazdı indiyədək. Yəqin ki, o ki var ağlayıb. Lap, bəlkə də, ürəyi partlayıb. Axı, anadır, necə olmasa...

Sonra uzun yolda başına gələnlər, əməliyyatın başlanması... Səidin ölümü ona, doğrudan da, yaman təsir eləmişdi. Tiqrandan aldığı intiqama görə də peşman-filan deyildi. Baxmayaraq ki, eşitdiyinə görə, polkovnik Baratov buna görə bərk qəzəblənibmiş.

Ələmdar Tiqranı boğub öldürəndən sonra oradan birbaş idman klubuna getmişdi. Tutduğu taksini klubun həyətinə salanda Tələtə zəng vurub tapşırmışdı ki, həyətdə və foyedə heç kəs olmasın. Yaralandığını kiminsə görməsini istəməmişdi. Ardınca kabinetə gələn Tələt onun yarasını spirtlə yuyub bağlamış, əyninə geymək üçün təzə köynək alıb gətirmişdi.

Bir qədər klubda ləngiyən Ələmdar evə gəlməzdən əvvəl kapitan Yusifova zəng vurub əməliyyatın sonu ilə maraqlanmışdı. Yusifovun deməyinə görə, ilkin dindirmələrdən dərhal sonra Bakıda və Sumqayıtda daha bir neçə evdə axtarış aparılmış, gizli təşkilatın kənarda qalmış üzvləri həbs edilibmiş.





Ələmdar kapitan Yusifovdan bir şeyi də öyrənmişdi. Öyrənmişdi ki, Şəmistan təxribatçı qrupa əsaslı bir məsələdə xidmət göstərməyib. O, yalnız Volodya adlı şəxsə kompüterdə bəzi funksiyaları öyrədibmiş. Ona verilən digər ciddi tapşırıqları isə Şəmistan yerinə yetirməmiş və buna görə də onun ailəsilə birlikdə aradan götürülməsi barədə Tiqran tərəfindən hökm verilibmiş. Buna görə də Şəmistanın cəzasının xeyli yüngülləşəcəyinə ümid etmək olardı.

Ayçöhrənin anası ilə bacısını artıq evə buraxmışdılar. Ələmdar axşam yeməyindən sonra qızı evlərinə aparacaqdı. İstəyirdi ki, sabah qızla görüşüb atası barədə hər şeyi ona danışsın. Bilirdi ki, bu iş qıza pis təsir edəcək. Ancaq, Ayçöhrənin bu xəbəri mətanətlə qarşılayacağına da inanırdı.

Hələ düşünürdü ki, özü barədə də hər şeyi danışsın qıza. Dövlət sirri hesab olunan məsələlər barədə danışmasa da, özünün hərbi kəşfiyyat orqanı üçün işlədiyini və gizli agent olduğunu demək istəyirdi. Yoxsa, hər addımda sevdiyi qızı aldatmağa məcbur olacaqdı ki, bunu da qəlbi heç cür götürmürdü.

Bu söhbətlərin hamısını sabaha saxlamaq istəyirdi. İstəyirdi ki, asudə yerdə görüşüb danışsınlar. Hələ evlənmək barədə də söhbət etməliydilər. Ələmdarın bu barədə fikri qəti idi və istəyirdi ki, tezliklə nigah bağlasınlar.

Ayçöhrə arxadan gəlib əlini onun yaralı qoluna toxundurdu:

– Sənə nəsə olub, Ələmdar?

Ələmdar bu səsdə o qədər doğmalıq, o qədər canıyanma hiss elədi ki, yalan deyib qızı başından eləmək istəmədi:

– Bir az fikirliyəm, Ayçöhrə.

– Niyə? Nə olub?

– Sabah görüşüb söhbət edərik, hər şeyi danışaram.

Ayçöhrə narahat oldu:

– Yoxsa nəsə baş verib? Atama, ya anamgilə?

– Yox, onlar sağ-salamatdır. – Ələmdar dedi. – Sən narahat olma,

şəhər şöbəsinə məlumat vermişdi. Təhlükəsizlik tədbiri görərək, onu bir həftədən çox qapalı yerdə saxlamışdılar. Yunis indi də bilmirdi ki, Səid adlı həmin şəxsi tuta bildilər, ya yox. Ona zəng vurmuş həmin qadının kimliyi və sonrakı taleyi haqqında da heç bir məlumatı yox idi. Ancaq bir şeyə qəti inanmışdı ki, həmin dəhşətli faciənin üstündən on yeddi il keçməsinə baxmayaraq, əsir alınan bədbəxtlərdən indi də sağ qalanlar var imiş. Əgər onlara sağ qalan demək mümkün idisə...Çünki həmin naməlum qadının dediyi kimi, əsl cəhənnəmin içində idilər onlar.

Siqaretini çəkib otağa qayıtdı. Bir müddət telefon aparatına baxıb onu şəbəkədən ayırdı. İşığı söndürüb yataq otağına keçdi. Arvadı ilə altı yaşlı oğlu mışıl-mışıl yatırdılar. Onları oyatmamaq üçün otağın işığını yandırmadı. Onsuz da, pəncərədən içəri işıq düşürdü. Paltarını soyunub yatağa girdi.

Heç beş dəqiqə keçmədi ki, gözləri yuxuya getdi. Yuxuda tamam ayrı bir aləmə düşmüşdü. Bu aləm cəhənnəmə çox oxşayırdı. Amma burada qır qazanları yox idi. Kiçik bir ot tayası var idi...

Əyriburun, saqqallı adamlar yaşlı bir qadının qollarını, ayaqlarını məftillə bağlayıb, onu ot tayasının üstünə yıxdılar. Sonra ot tayasını yandırdılar. Qadın tükürpərdici səslə qışqırıb nalə çəkməyə başladı:

–Ay Allah, yandım!

Qadının çığırtısı tonqalın gurultusuna, ətrafına yığılmış adamların gülüş səslərinə qarışmışdı. Sonra bu uğultunun içində zəng səsi də eşidilməyə başladı. Telefon zənginin səsinə oxşayan bu səs getdikcə daha güclü səslənib bütün digər səsləri eşidilməz edirdi.

Yunis diksinib yuxudan ayıldı. Sıçrayıb çarpayıdan qalxanda arvadı da oyandı. Gözlərini açıb kal səslə:

– Nə olub, Yunis? – deyə soruşdu.

– Telefon...- Yunis həyəcanla dilləndi.

– Bəs telefonu xətdən ayırmamısan?

– Deyəsən, yox...

Qonşu otağa keçdi. Telefon məftili şəbəkədən ayrılmışdı. Otaqda tam sakitlik idi. Əli ilə alnını ovuşdurub bir neçə an telefon aparatına





baxdı. Sonra yataq otağına qayıdıb:

– Qulaqlarıma səs düşüb. – dedi.

– Düşər də... – arvadı deyindi. – İki aydan çoxdur qanlı-qadalı işlərlə əlləşirsən. Axır, dəli olacaqsan, vallah!

Yunis cavab verməyib gözlərini yumdu. Yatmaq istəyirdi. Amma, bilirdi ki, daha səhərə kimi yata bilməyəcək. On yeddi il əvvəl Xocalıda baş vermiş qanlı hadisələr beynini doldurmuşdu və onu heç cür tərk etmək istəmirdi.

Yenə birdən-birə səksənib yerində dikəldi. Qulaqlarını ovuşdurub dəli kimi ətrafına boylandı. Telefon zəng çalırdı...

Qalxıb yataqda oturdu. Zəng səsləri kəsmək bilmirdi. Amma, Yunis yerindən tərpənmədi. Qonşu otağa keçməyə qorxurdu.

Arvadı da oyaq imiş.

– Nə oldu yenə? – narazı səslə soruşdu.

– Telefon zəng çalır!... – Yunisin səsi titrədi.

Bu dəfə arvadı da qorxuya düşdü:

– Telefon zəng çalıb – eləmir. Sənin qulağına, doğrudan da, səs düşüb. Sabah get özünü həkimə göstər.

Yunis danışası halda deyildi. Qorxu və dəhşət içində oturub qonşu otaqdan gələn zəng səsini dinləyirdi. Arvadı davam etdi:

– Sən o Xocalı yazısına nahaq baş qoşdun. Nəyinə lazım idi axı? Sənə qalmışdı elə şeylərdən yazmaq?

Yunis dönüb arvadına baxdı. Nəsə demək istədi. Amma dili söz tutmadı. Heyrət dolu nəzərlərini bir müddət onun üzündə gəzdirəndən sonra, nəhayət, səsi titrəyə-titrəyə dilləndi:

– Yəni sən, doğrudan da, heç nə eşitmirsən?...

*İyul – sentyabr 2009-cu il*

*Şamaxı -Bakı*

Elxan Elatlı
(Elxan Əbdürrəhman oğlu Osmanov)

# CƏHƏNNƏMDƏN GƏLƏN SƏS

(roman)

Naşir: Rafiq Xan-Sayadoğlu
Rəssam: Yaşar Rəhimov
Fotoqraf: Eldar Xudaverdiyev
Texniki redaktor: Ülvi Novruzov
Dizaynerlər: İradə Əhmədova, Ceyhun Əliyev
Operatorlar: Səadət Abbasova, Vəfa Hüseynova,
Sona Səmədova

Yığılmağa verilmişdir: 12.09.2009
Çapa imzalanmışdır: 20.11.2009
Tiraj 1000; ş.ç.v. 23
«MBM» MMC mətbəəsində
çap olunmuşdur
Telefon: (050) 361-94-80

KRİMİNAL



# Elxan Elatlı

*Tanınmış yazıçı Elxan Elatlı 19 dekabr 1962-ci ildə Şamaxı rayonunda anadan olub. 1985-ci ildə BDU–nun mexanika–riyaziyyat fakültəsini bitirib. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.*

*"Yeddinci mərtəbədə qətl", "İtmiş qızın axtarışı", "Pəncərədə görünən kölgə", "Xəyanət", "Qan ləkəsi", "Bakıdan gələn xəfiyyə", "Dilənçi qadının sirri" və "Cəhənnəmdən gələn səs" kitablarının müəllifidir.*



**Ürəyi zəif olanların bu kitabı oxuması məsləhət görülmür.**